"Bir xalqın şərəfəti üçün birinci şərt onun müstəqil olmasıdır".

***

"Azadistan çox zərərlər çəkmiş, zərbələrə düçar olmuş, özgələrdən və özününkülərdən xəsarət görmüşdür".

Şeyx Məhəmməd Xiyabani

İsmayıl Musa

AZƏRBAYCANIN XARİCİ SİYASƏTİ

Universitetlərin beynəlxalq münasibətlər fakültələri üçün

DƏRSLİK

Üç hissədə

Azərbaycan Respublikası Təhsil Nazirinin 4 fevral 2008-ci il tarixli, 158 saylı əmri ilə təsdiq edilmişdir.

Bakı – 2008

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ

«Diplomatiya və müasir inteqrasiya prosesləri» kafedrası

İsmayıl Musa

İkinci hissə

DÖVLƏTLƏRARASI MÜNASİBƏTLƏR VƏ AZƏRBAYCAN (aprel 1920 – oktyabr 1991-ci illər)

- 9249 -
Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

BAKI – 2008

Elmi redaktoru: **Prof. X.Məmmədov**

Rəyçilər: **Prof. C.Həsənli, prof. X.İbrahimli, dos. A.Məmmədli, dos. K.Məmmədov, dos. V.Cəfərov**

Musa İ.M. Dövlətlərarası münasibətlər və Azərbaycan (aprel 1920 – oktyabr 1991-ci illər). Bakı: «Bakı Universiteti» nəşriyyatı, 2008. – 516 səh.

Bu kitab «Azərbaycanın xarici siyasəti» adlı dərsliyin ikinci hissəsidir. Kitabda, tərəfimizdən hazırlanan tədris proqramına uyğun olaraq, 1920-1991-ci illərdə dövlətlərarası münasibətlər və Azərbaycan məsələlərindən bəhs edilir. Dərslikdə aşağıdakı mövzular əhatə olunur: Formal müstəqillik dövründə (aprel 1920 - dekabr 1922-ci illərdə) Quzey Azərbaycanın durumu; Azərbaycan diasporası və siyasi mühacirətinin dövlətçiliyimizin bərpası uğrunda 20-80-ci illərdəki mübarizəsi; 1939-1946-cı illərdə Quzey və Güney Azərbaycan böyük dövlətlərin hərbi-strateji planlarında; SSRİ-də azərbaycanlı-erməni münasibətləri; Azərbaycan Sovetlər İttifaqının 1945-1991-ci illərdəki beynəlxalq əlaqələrində və s.

Dərslik universitetlərin Beynəlxalq münasibətlər fakültələri üçün nəzərdə tutulmuşdur. Kitab elmi-siyasi ictimaiyyət üçün də faydalı ola bilər.

$M \frac{0802000000-02}{M-658(07)-006} - 006 - 2008$

© 3-cü nəşri, 2008
© İsmayıl Musa, 2008
© «Bakı Universiteti» nəşriyyatı, 2008

ÖN SÖZ

Azərbaycanın zəngin dövlətçilik, xarici siyasət, diplomatiya təcrübəsinin və çağdaş problemlərinin, inkişaf perspektivlərinin öyrənilməsi təhsilimizin mühüm vəzifələrindən sayılır. Bu baxımdan da «Azərbaycanın xarici siyasəti» fənninin tədrisi xüsusi əhəmiyyət kəsb edir.

Fənnin tərəfimizdən hazırlanan proqramı əsasında yazılan bu dərslik Quzey Azərbaycanın XX əsrdə – XXI yüzilliyin əvvəllərindəki xarici siyasəti məsələlərini əhatə edir. Dərslikdə XX yüzillikdə Güney Azərbaycandakı azadlıq hərəkatlarının beynəlxalq əks-sədası məsələlərinə və Təbrizdə yaranan Milli hökumətlərin xarici siyasətinə də geniş yer verilmişdir.

Dərslik üç hissədən ibarətdir. Onun üç hissəyə ayrılması müəyyən məntiqi mülahizələrə əsaslanır. Belə ki, bu zaman Azərbaycanın son dövr tarixi və xarici siyasətinin üç başlıca mərhələsi əsas götürülmüşdür: **1.** Azərbaycan Xalq Cümhuriyyəti – Birinci Respublika. **2.** Azərbaycan Sovetlər İttifaqının tərkibində – İkinci Respublika. **3.** Hazırkı istiqlal dövrü-Üçüncü Respublika.

1920-1922-ci illərin, yəni formal müstəqillik dönəminin də ayrıca dövr sayılmasına dair mövqelər vardır. Bizcə, 1920-1922 və 1923-1991-ci illər eyni siyasi-ideoloji məzmunlu ictimai quruluşun mərhələləri olduğundan onların vahid dövr (1920-1991) çərçivəsində birləşdirilməsi daha məqsədəuyğundur.

Dərslik yazılarkən qaynaqlar (xüsusi ilə də diplomatik sənəd və materiallar), elmi baxış və konsepsiyalar əsas tutulmuşdur. Azərbaycanın dövlət xadimləri, diplomat və siyasətçilərinin əsərlərindəki fikir və mülahizələrə mühüm önəm verilmişdir. Dərslik çoxsaylı elmi araşdırmaların nəticələrinin təhlili və ümumiləşdirilməsi əsasında yazılmışdır.

Fənnin tərəfimizdən Bakı Dövlət Universitetində tədrisi təcrübəsi, habelə həmkarlarımızın tövsiyələri də nəzərə alınmışdır.

Dərsliyin hissələrinə ayrılıqda «Giriş»lərin yazılması nəzərdə tutulduğundan ümumi «Giriş»ə ehtiyac duyulmamışdır. Hər bir hissənin «Giriş»ində onun əhatə etdiyi dövrün başlıca problem və məsələlərinə tezisvari şəkildə diqqət yetirilir. Onlara dair qaynaqlar və ədəbiyyatdan isə müvafiq surətdə hissələrin «Giriş»lərində bəhs olunur.

Qaynaqlar və ədəbiyyatın olduqca geniş siyahısı tədris proqramında verildiyindən onların dərsliyin hissələrinə əlavə edilməsi də məsləhət bilinməmişdir. Ancaq bəzi mühüm diplomatik sənəd və materiallar, xəritə və sənədlər dərsliyin hissələrinə əlavə olunur. Onların bir qismi arxivlərdə aşkarlanmış, digərləri isə ayrı-ayrı tədqiqatçıların əsərlərindən əldə olunmuşdur.

Fənnin tədrisinə son vaxtlardan etibarən başlanılmasını, onun çoxlu yeni problemləri əhatə etməsini, dərsliyin bu sahədəki ilkin cəhdlərdən olmasını nəzərə alaraq məsələlərin daha geniş şəkildə açıqlanması məqsədəmüvafiq sayılmışdır.

GİRİŞ

Azərbaycan 1920-1991-ci illərdə də beynəlxalq münasibətlərdə çox önəmli yer tutmuş və mühüm əhəmiyyət kəsb etmişdir. Ölkəmizin quzeyi və güneyində müstəqil dövlətlərin olmadığı bu dövr aşağıdakı tarixi proses və hadisələri ilə diqqəti çəkir:

1. Formal müstəqillik dönəmində (aprel 1920-dekabr 1922-ci illərdə) Şimali Azərbaycanın beynəlxalq vəziyyəti.

2. Azərbaycan diasporası və siyasi mühacirətinin dövlətçiliyimizin bərpası uğrunda 20-80-ci illərdəki mübarizəsi.

3. Quzey və Güney Azərbaycanın 1939-1946-cı illərdə böyük dövlətlərin hərbi-strateji planlarındakı yeri; beynəlxalq münasibətlərdə «Güney Azərbaycan məsələsi».

4. SSRİ-də azərbaycanlı-erməni münasibətləri.

5. Azərbaycan SSR-in Sovetlər İttifaqının 1945-1991-ci illərdəki beynəlxalq əlaqələrində iştirakı.

Quzey Azərbaycan, yenidən Rusiyanın asılılığına keçməsinə və SSRİ-nin tərkibinə qatılmasına baxmayaraq, öyrənilən tarixi mərhələdə də beynəlxalq-regional güclərin geostrateji maraqlarının mərkəzində dayanan məmləkətlərdən sayılır. Dövrün dövlətlərarası münasibətlərində Azərbaycanın yeri və rolu məsələlərinitezislər şəklində, əsasən, aşağıdakılarla ifadə etmək mümkündür:

- «Müstəqil» Sovet Azərbaycanının «xarici siyasəti»nin ideoloji əsasları, prinsipləri və antimilli mahiyyəti;
- Bakı neftinin zəmanənin beynəlxalq siyasətindəki rolu, ona yiyələnmək uğrunda dövlətlər (şirkətlər) arası çəkişmələr, beynəlxalq (London, Genuya, Haaqa) konfranslardakı müzakirələr və onların ilkin nəticələri;
- formal müstəqillik dönəmində Azərbaycan SSR-in RSFSR ilə münasibətlərinin xarakteri: Rusiyanın Azər-

baycan dövlətçiliyini və onun müstəqil xarici siyasətini ləğv etmək, ölkəmizi beynəlxalq münasibətlər sistemindən kənarlaşdırmaq xətti. Azərbaycanın «xarici siyasəti»nin, Rusiya tərəfindən müəyyənləşdirilən, məqsəd və vəzifələri;

- 20-ci illərin lap əvvəllərindəki Azərbaycan-Türkiyə münasibətlərində yeni məqamlar: Ölkəmizin Türkiyəyə iqtisadi-maliyyə yardımı. Türkiyə diplomatiyasının Şimali Azərbaycanın ərazi bütövlüyünün təminatı sahəsində səyləri. İkitərəfli münasibətlərdəki soyuqluğun səbəbləri və ilkin nəticələri;
- Ermənitsanın Azərbaycana qarşı ərazi iddialarının davamı: tərəflərarası diplomatik qarşıdurma. Zəngəzurun bir hissəsinin Ermənistana verilməsi prosesi. 20-ci illərin əvvəllərindəki beynəlxalq konfrans və müqavilələrdə (Gümrü-Moskva-Qars) Naxçıvan məsələsi;
- Azərbaycan-İran münasibətlərindəki əsas problemlər. Ş.Xiyabaninin başçılıq etdiyi Milli hökumətin beynəlxalq əks-sədası və xarici siyasət məsələlərindəki baxış-mövqeyi;
- Azərbaycan-Gürcüstan münasibətlərinin səciyyəsi: Tərəflər arasındakı başlıca problemlər. Ərazi-sərhəd mübahisələri. Ağstafa müqaviləsi;
- Azərbaycan diasporası və siyasi mühacirətinin formalaşması mərhələləri: Dövlətçiliyimizin bərpası naminə siyasi-diplomatik mübarizə və Ümumqafqaz – rus siyasi mühacirəti ilə əməkdaşlıq. Güney Azərbaycan mühacirəti İran İslam inqilabından sonrakı dövrdə. Mühacirətin «Erməni soyqırımı» təbliğatına qarşı mübarizəsi;
- İkinci Dünya müharibəsi dövründə və ondan sonrakı ilk illərdə böyük dövlətlərin Quzey və Güney Azərbaycana dair hərbi-strateji planları: Faşist Almaniyasının Şimali

Azərbaycandakı iqtisadi və geosiyasi maraqları. Müttəfiqlərin Qafqazı (Quzey Azərbaycanı) SSRİ-dən ayırmaq niyyətləri. İranın Şimali Azərbaycana dair geosiyasi məqsədləri. Sovet rəhbərliyinin azərbaycanlıların köçürülməsinə dair planları. Güney Azərbaycandakı beynəlxalq iqtisadi və geosiyasi maraqlar. Cənubi Azərbaycanda Sovet-Qərb qarşıdurması. Beynəlxalq münasibətlərdə Güney Azərbaycan məsələsi. BMT-nin «həll etdiyi» ilk münaqişə;

- SSRİ-də azərbaycanlı-erməni münasibətlərinin durumu: Ermənistanın Azərbaycan SSR-in ərazi bütövlüyünə qəsdləri və «etnik təmizləmə» siyasətinin davam etdirilməsi. Erməni diasporası və lobbisinin Sovet Ermənistanının planlarına siyasi dəstəyi, maliyyə yardımı və diplomatik demarşları. Soydaşlarımızın Ermənistandan (Qərbi Azərbaycandan) deportasiyası prosesi. Yeni erməni-azərbaycanlı münaqişəsi və böyük-qonşu dövlətlərin mövqeləri;
- Azərbaycan SSR-in Sovetlər İttifaqının 1945-1991-ci illərdəki beynəlxalq əlaqələrində iştirakı: Ölkəmizin beynəlxalq aləmə çıxmaq sahəsindəki səyləri. İkitərəfli və çoxtərəfli iqtisadi humanitar əlaqələr. YUNESKO-nun fəaliyyətində iştirak.

Dərslik yazılarkən öyrənilən dövrün beynəlxalq münasibətlərinə və Azərbaycan SSR-in ictimai-siyasi həyatına aid xeyli sənəd və materiallardan istifadə olunmuşdur (Həmin mənbələrin böyük bir hissəsinin öyrənilməsi və məşğələlərdə müzakirəsi tədris proqramında da məsləhət görülmüşdür). Onların daha önəmli və vaciblərindən aşağıdakıları burada da qeyd etməyi lazım bilirik:

1. Dövlətlərarası müqavilə və sazişlər

- Azərbaycan SSR ilə Gürcüstan Respublikası arasındakı

Ağstafa müqaviləsi (12.VI.1920);

- Antanta dövlətləri ilə Osmanlı İmperatorluğu arasındakı Sevr andlaşması (10. VIII.1920);
- Sovet Rusiyası ilə Ermənistan Respublikası arasında barışıq-ilkin saziş (10.VIII.1920);
- Azərbaycan SSR ilə RSFSR arasında hərbi-iqtisadi ittifaq haqqında müqavilə (30.IX.1920);
- RSFSR ilə Ermənistan SSR arasında hərbi-siyasi saziş (2.XII.1920);
- Türkiyə ilə Ermənistan arasında Gümrü (Aleksandropol) müqaviləsi (2.XII.1920);
- RSFSR-İran müqaviləsi (26.II.1921);
- Sovet Rusiyası ilə Türkiyə arasındakı Moskva müqaviləsi (16.III.1921);
- Türkiyə ilə Cənubi Qafqazın Sovet respublikaları arasında RSFSR-in iştirakı ilə bağlanan Qars müqaviləsi (13.X.1921);
- Antanta dövlətləri ilə Türkiyə arasında Lozanna müqaviləsi (24.VII.1923);
- Qafqaz Konfederasiyası Misaqı (14.VII.1934);
- İran rəhbərliyi ilə Güney Azərbaycan Milli hökumətinin bağladığı «Dövlət və Azərbaycan nümayəndələri arasında müvafiqət olunmuş qərardad» (13.VI.1946);

2. Bəyannamələr, müraciətlər, məlumatlar

- Bakı Soveti plenumunun Bəyanatı – «N.Nərimanovun Bəyanatı» (1.XII.1920);
- Ermənistan İnqilab Komitəsinin Naxçıvana dair bəyanatları (26 və 28.XII.1920);
- Azərbaycan Xalq Cümhuriyyəti Sülh nümayəndəliyinin Millətlər Cəmiyyətinin rəhbərliyinə Bəyanatı (8.IX.1920);

- Qafqazın devrilmiş cümhuriyyətlərinin səlahiyyətli təmsilçilərinin Bəyannaməsi (10.VI.1921);
- Ə.Topçubaşının Genuya, Haaqa və Lozanna konfranslarına müraciətləri;
- «Prometey» Birliyi Varşava qurutlayının Millətlər Cəmiyyətinə Müraciəti (I.VI.1936);
- Azərbaycan Kultür Dərnəyinin (Ankara) İslam Konfransı Təşkilatının Kasablanka Zirvə toplantısına Müraciəti (I.1986);
- İranın ərazi bütövlüyünə dair üçtərəfli Tehran Bəyannaməsi (I.XII.1943);
- M.Rəsulzadənin Azərbaycan istiqlalının 35-ci ildönümü münasibəti ilə əlaqədar xalqımıza Müraciəti (1953);
- Azərbaycan legionlarının formalaşdırılması ilə bağlı Almaniya XİN-ə Müraciət (XI.1941);
- İngiltərənin xarici qoşunların İrandan çıxarılmasına dair Potsdam konfransına Memorandumu (21.VII.1945);
- Güney Azərbaycan Milli hökumətinin «Azərbaycan xalqının tələbləri» Bəyanatı (I. 1946);
- İran diplomatı S.Tağızadənin BMT Baş katibinə «İranın Sovet İttifaqı ilə mübahisəsi» Bəyanatı (19.I.1946);
- S.Pişəvərinin BMT Təhlükəsizlik Şurasına Müraciəti (21. I.1946);
- G.Gerinqin «Yaşıl qovluğu («İqtisadiyyata rəhbərlik üzrə direktivi»);
- M.Bormanın «Qeydlər»i;
- A.Rozenberqin «Qafqaz qovluğu» («Qafqazın idarə olunması planı»);
- İran Azərbaycanının hərbi-coğrafi təsviri (1940);
- Cənubi Azərbaycanın texniki-iqtisadi icmalı (1941);

- Sovet-İran birgə məlumatı (III. 1946);
- Amerika Erməni Milli Şurasının San-Fransisko konfransına Bəyannaməsi (1945);
- Sovet İttifaqı Teleqraf Agentliyinin «erməni məsələsi» ilə bağlı Məlumatı (1945).

3. Qərarlar, dekretlər, fərmanlar, əmrlər və s.

- AK (b) MK Siyasi və Təşkilat bürolarının birgə iclasının qərarı (30.XI.1920);
- Ermənistan İnqilab Komitəsinin «Qaçqınlar haqqında» qərarı (1921);
- RK (b) MK Qafqaz bürosunun Dağlıq Qarabağa dair qərarları (4 və 5. VII.1921);
- «Prometey» Birliyinin Varşava qurultayının qərarı (1.VI.1936);
- Cənubi Qafqaz Sovetləri Mərkəzi İcraiyyə Komitəsi Rəyasət Heyətinin Azərbaycanın ərazi bütövlüyünü pozan qərarları (1. I. və 20.VI.1927, 18.II.1929, 5.III.1938);
- İranın cənubuna ingilis hərbi müdaxiləsi haqqında gizli qərar (19.VII.1941);
- SSRİ XKS-nin Güney Azərbaycanla bağlı qərarı (6. III.1944);
- Sovet rəhbərliyinin Cənubi Azərbaycana dair gizli qərarları (10.VI, 21. VI, 6. VII, 8. X.1945);
- BMT Təhlükəsizlik Şurasının «İran məsələsi»nə dair qətnaməsi (30.I.1946);
- ABŞ diplomatı C.Kennanın Ağ evə «uzun teleqramı» (22. II. 1946);
- İ.Stalinin Sovet qoşunlarının Güney Azərbaycandan çıxarılmalarına dair əmri (24. III. 1946);
- İran diplomatı Əlanın BMT TŞ sədri H.Consona raportu

(5. XII.1946);

- Eçmiədzin kilsə yığıncağının İ.Stalinə teleqramı (1945);
- «Daşnaksütyun» partiyası XIV konfransının Azərbaycana dair işğalçılıq planları ilə əlaqədar qərarı (1947);
- SSRİ Nazirlər Sovetinin «Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi» haqqında 4083 saylı qərarı (23.XII.1947);
- Torpaqlarımızın Ermənistana verilməsinə dair 1927, 1929, 1938-ci illərdə çıxarılan qərarların təsdiqlənməsi ilə bağlı Azərbaycan partiya və sovet rəhbərliyinin qərarları (26.XI.1968 və 7.V.1969);
- «Daşnaksütyun»un XXIII qurultayının Azərbaycana qarşı ərazi iddialarına dair qərarı (XII.1985);
- Dağlıq Qarabağ Muxtar Vilayəti Soveti sessiyasının Ermənistana birləşmək haqqında qərarı (20.II.1988);
- «Azərbaycan SSR-in suverenliyi haqqında Konstitusiya qanunu» (23. IX. 1989);
- Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında» Bəyannamə (30.VIII. 1991);
- SSRİ Ali Soveti Rəyasət Heyətinin «Azərbaycan SSR-in DQMV-də xüsusi idarəçilik formasının tətbiqi haqqında» qərarı (12.I.1989);
- «1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında» AR prezidentinin fərmanı (18.XII.1997);
- «Azərbaycanlıların soyqırımı haqqında» AR prezidentinin fərmanı (26.III.1998);
- «Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında» Konstitusiya Aktı (18.X.1991).

Dərslik yazılarkən Azərbaycanın siyasi və dövlət xadimlərinin (M.Rəsulzadə, Ə.Topçubaşı, N.Nərimanov, Ş.Xiyabani, S.Pişəvəri, Ə.Elçibəy, H.Əliyev və b.) əsərlərində, məruzə və çıxışlarında öz ifadələrini tapan mühüm elmi baxış və müddəalar yetərincə nəzərdən keçirilmiş, onlardan istifadə olunmuşdur.

Bunlar arasında M.Rəsulzadənin «Bolşeviklərin Şərq siyasəti», «...Çağdaş Azərbaycan tarixi», «Stalinlə ixtilal xatirələri», «Azərbaycan problemi», «N.Nərimanovun «Uc-qarlarda inqilabımızın tarixinə dair (İ.Stalinə məktub)», Ə.Elçibəyin «Deyirdim ki, bu quruluş dağılacaq» və s. ayrıca qeyd etmək lazım gəlir.

Dərsliyin birinci hissəsi kimi bu kitab da başlıca müvafiq elmi tədqiqat əsərlərinin ətraflı öyrənilməsi, təhlili və ümumiləşdirilməsi əsasında hazırlanmışdır. Həmin tədqiqatlardan M.Məmmədzadənin «Milli Azərbaycan hərəkatı», Y.Çəmənzəminlinin «Xarici siyasətimiz», Ş.Tağıyeva və b. «Güney Azərbaycan», M.Mehdizadənin «Beynəlmiləl siyasətdə petrol», İ.Musanın «Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər), «Azerbaycan-Türkiye İlişkileri (1917-1922 yılları)», «Böyük dövlətlər və «erməni məsələsi» (XIX əsr)», M.Sofiyevin «Güney Qafqaz respublikaları Sovet-Türkiyə əlaqələrində», İ.Soysalın «Tarihçeleri Ve Açıklamaları İle Birlikde Türkiyenin Siyasi Andlaşmaları», S.Sonyelin «Türk Kurtuluş Savaşı Ve Dış Politika», M.Gönlübolun «Atatürk Ve Türkiyenin Dış Politikası», K.Karabekirin «İstiqlal Harbimiz», A.Paşayevin «Açılmamış səhifələrin izi ilə», M.Qasımovun «Xarici dövlətlər və Azərbaycan», «Azərbaycan Respublikası dünya meridianlarında», C.Həsənlinin «Güney Azərbaycan: Tehran-Bakı-Moskva arasında (1939-1945)», «Soyuq müharibənin başlandığı yer – Güney

Azərbaycan (1945-1946), «SSRİ-Türkiyə: Soyuq müharibənin sınaq meydanı», E.Urasın «Tarihte Ermeniler Ve Ermeni meselesi», N.Nəsibzadənin «İranda Azərbaycan məsələsi», N.Yaqublunun «Azərbaycan legionerləri», «Azərbaycan milli istiqlal mübarizəsi və M.Rəsulzadə», Ş.Şimşirin «Azerbaycanlıların Türkiyede Siyasi Ve Kültürel Faaliyetleri (1920-1991)», X.İbrahimlinin «Azərbaycan siyasi mühacirəti (1920-1991)», A.Hacıyevanın «20-ci illərin siyasi tarixinin bəzi məsələləri», A.Azerinin «Azadistan Devleti və Şeyh Muhammed Hiyabani», F.Əhmədovanın «N.Nərimanov - ideal və gerçəklik», E.Nəsirovun «Azərbaycan nefti və beynəlxalq müqavilələr (1991-1990)» və s. dərsliyin yazılması işində çox faydalı olmuşlar.

Həmçinin P.Darabadi, T.Qaffarov, A.Məmmədli, M.Cəfərli, K.Şükürov, L.Həsənova, A.Səfərova, V.Ağayev, N.Muradov, Ş.Məmmədova, V.Bağırov, H.Verdiyeva, Ə.Əliyev, T.M.Abbasov, L.Zamyatin, A.Hüseynbəyli, Ə.Əsgərov-Kəngərlinski, S.Ağayev, M.Popov və digərlərinin müvafiq elmi tədqiqatlarının (onların adları fənnin proqramında göstərilmişdir) nəticələri də dərslikdə əhatə edilmişdir.

BİRİNCİ BÖLÜM

FORMAL MÜSTƏQİLLİK DÖVRÜNDƏ QUZEY AZƏRBAYCANIN BEYNƏLXALQ DURUMU
(aprel 1920 – dekabr 1922-ci illər)

Şimali Azərbaycan 1920-ci ilin aprelindən etibarən yenidən Rusiyanın işğalına məruz qaldı. Sovet-kommunist Rusiyasının XI ordusu tezliklə bütün Quzey Azərbaycanı istila etdi. Sovet hakimiyyətinin ilk günündən başlayaraq milli istiqlalımızın uğurları üzərindən xətt çəkildi.

Rusiyanın işğalı nəticəsində yaranan yeni «hakimiyyət» verdiyi vədlərin heç birinə əməl etmədi. Hakimiyyətin təhvili zamanı razılaşdırılan şərtlərdən birincisinə əsla məhəl qoyulmadı. Və əslində Ə.Qarayev deyən oldu: «Azərbaycanın meyidinin üzərindən keçilərək moskvalı yoldaşlara kömək göstərildi». Nəticədə dövlətçiliyimiz təkrarən ləğv edildi və müstəqilliyimiz yenidən itirildi. Azərbaycan ordusu ləğv olundu. Ölkəmizin şimalı bir daha Rusiyanın əsas xammal bazalarından birinə çevrildi. Bolşeviklər siyasi opponentlərinə, xüsusilə də müşavatçılara qarşı amansız təqiblərə və terrora başladılar.

Azərbaycan dövlətçiliyinin növbəti süqutu ilə ölkəmizin beynəlxalq durumu və onun dövlətlərarası münasibətlər sistemindəki yeri-statusu məsələləri də yeni məzmun daşımağa, fərqli keyfiyyət halı almağa başladı. İstiqlalın itirilməsi və yeni əsarət dönəmi müstəqil dövlətçiliyimizlə yanaşı, təbii olaraq, suveren xarici siyasətimizə də son qoydu.

Ancaq bütün bunlara baxmayaraq Azərbaycan bu dövrdə də bir sıra önəmli amillərə görə, beynəlxalq siyasətdə mühüm yer tutdu. N.Nərimanov qeyd edirdi ki, beynəlxalq vəziyyət bizi xüsusi (əlahiddə) şəraitə salır, kiçik Azərbaycan indiki anda çox böyük rol oynayır.

§1. «Müstəqil» Sovet Azərbaycanının «xarici siyasəti»nin ideoloji əsasları və antimilli mahiyyəti

Sovet-kommunist idarəçilik sistemi və dövlətçiliyi – Sovet Sosialist Respublikaları İttifaqı (SSRİ) əslində tarixi Rusiya müstəmləkəçiliyinin yeni məzmunda (ifrat ideoloji-sinfi yüklü) ifadəsi idi. Bu sistem-dövlətçilik həm mücərrəd ideoloji yanaşma (sovet-kommunist baxışları), həm də tarixi Rusiya maraqları baxımından digər xalqların müstəqilliklərilə razılaşa bilməzdi və razılaşmadı da.

Bu fikrin birinci tərəfinə gəldikdə sovet-kommunist rejiminin («İkinci Rusiya imperiyası»nın) rəhbərlərindən olan İ.Stalinin 1920-ci ilin noyabrında Bakıda söylədiyi belə bir məkrli və cəfəng tezis onu daha yaxşı açıqlamağa imkan verir: «Mən Azərbaycanın müstəqilliyinin tərəfdarı deyiləm. Kommunistlərin bir hissəsinin digərindən müstəqilliyi ola bilməz» (?! – İ.M.).

9249

«Bizim (XI ordu nəzərdə tutulur. – İ.M.) zirehli qatar bir atəşsiz belə Biləcəriyə gəldi», – deyə öyünən N.Nərimanovun 1920-ci ildə Azərbaycanı gəzərkən (30.IX-14.X) Qazaxdakı çıxışında sırf sinfi-ideoloji yanaşma nümayiş etdirərək söylədikləri də bu cəhətdən çox səciyyəvidir: «Müsavatçılar, ola bilər, desinlər: «Biz azad və müstəqil yaşamalıyıq» ... Biz demişdik ki, Azərbaycan müstəqil mövcud ola bilməz. Bunu tarix sübut edir (?! – Bizcə, burada əlavə şərhə ehtiyac qalmır).

Halbuki o özü hələ 1919-cu ildə «Biz Qafqaza hansı şüarla gedirik», «Qafqazın tutulmasına baxış» və s. məqalələrində, habelə bir sıra çıxış-müraciətlərində dəfələrlə bildirmişdi ki, biz müstəqil nümunəvi Sovet respublikası qurmalıyıq. «Şərqin Lenini»nin az sonrakı dövrdə qələmə aldığı hadisə və münasibət bildirdiyi məsələ də bir çox məqamları yaxşıca aydınlaşdırır. Onun RK(b)P MK-ya (İ.Stalinə) ün-

İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

vanladığı (24.XII.1923) «Ucqarlarda inqilabımızın tarixinə dair» başlıqlı məktubda yazılırdı ki, kommunist liderlərindən Q.Orconikidzenin (Serqonun) «Azərbaycan respublikası müstəqil yaşamalıdır, yoxsa bir hissə kimi Sovet Rusiyasına daxil olmalıdır»? – sualını Ə.Qarayevlə M.Hüseynov belə cavablandırmışdılar: «Bizə heç bir müstəqillik lazım deyildir; biz, Azərbaycan Sovet Rusiyasına birləşməliyik».

Serqonun həmin məsələ ilə əlaqədar daha vacib saydığı fikir (məktubda belə yazılır) – N.Nərimanovun baxışı isə bu cür ifadə olunmuşdu: «Azərbaycan Respublikası Gürcüstan və Ermənistanın sovetləşməsinədək müstəqil olmalıdır (?! – İ.M.), sonrasına isə baxarıq».

N.Nərimanovun I Ümumazərbaycan Sovetlər qurultayındakı nitqində (8.V.1921) və M.Hüseynovun Azərbaycanın xarici siyasəti haqqındakı məruzəsilə əlaqədar çıxışında (15.V.1921) söylədiyi olduqca ciddi siyasi müddəalar da müstəqilliyimizin formal səciyyə daşıdığını yetərincə təsdiqləyir: «Bizim müstəqillikdə, yoxsa federasiyada yaşamağımız aydın deyildir»; «Sovet respublikalarının, bizim xarici siyasətimiz yoxdur. Biz göstərdik ki, sovet respublikaları ilə bizim heç bir xarici siyasətimiz yoxdur».

Vaxtilə (II.1919) «Bakıyadək süngülərlə getməyi» lazım bilən, V.Leninə teleqramında (20.V.1920) «Qızıl ordunun özünü əla apardığını» yazan N.Nərimanova Mərkəzin Azərbaycandakı emissarları (Q.Orconikidze, S.Kirov) tərəfindən bir inamsızlıq da müşahidə olunurdu. Bunu onların aprel istilasından dərhal sonra (2.V.1920) Bakıdan V.Leninə yolladıqları teleqramın mətni də yetərincə təsdiqləyir.

Teleqramda Rusiyanın Qafqazın (Azərbaycanın) müstəqilliyinə xitam vermək məqsədi açıqlanır və, həmçinin, N.Nərimanovla bağlı da mövqe bildirilirdi. Orada yazılırdı: «Qafqaz və daha geniş ərazi üçün bizə səlahiyyət verin, yaxud başqa adam göndərin. Nərimanova belə səlahiyyət verməyin». Məhz bu kimi işlərin (siyasətin) nəticəsi idi ki, Q.Orconikidze tezliklə (VI.1920) V.Lenindən «Azərbaycanın bütün xarici və daxili siyasətinə rəhbərlik etmək» səlahiyyəti almışdı.

Şimali Azərbaycanın, 1920-ci illərin əvvəlindəki, beynəlxalq vəziyyətinə gəldikdə onu səciyyələndirən başlıca cəhətləri aşağıdakı kimi formulə etmək olar:

1. Rusiyanın Azərbaycanın dövlətçiliyini (xarici siyasətini) ləğv etmək, onu dünya siyasətindən aralı saxlamaq, özünün yeni «Şərq siyasəti»nin alətinə və Qərb (İngiltərə) ilə qarşıdurmasının vasitəsinə çevirmək xətti.

2. Qonşu dövlətlərlə münasibətlərdəki problemlər və ziddiyyətlər:

- **Türkiyə** ilə strateji tərəfdaşlığın zəifləməsi və qarşılıqlı əlaqələrdəki soyuqluq şəraiti;
- **Ermənistanın** davam etməkdə olan ərazi iddiaları;
- **İranla** əlaqələrdəki gərginlik mənbələri (halları) və anlaşılmazlıqlar;
- **Gürcüstanla** ərazi-sərhəd mübahisələri (müzakirələri) və ikitərəfli münasibətlərdəki mürəkkəbliklər.

3. Xarici ölkələrdə «Azərbaycan davası»nı aparanlara qarşı geniş miqyaslı və çoxşaxəli terrorçuluq hərəkətləri (F.Xoyski, H.Ağayev, B.Cavanşir və b. vəhşicəsinə qətlə yetirilmələri).

Azərbaycan SSR-in, belə bir gərgin və mürəkkəb şəraitdə, «yürüdülən» (əslində Rusiya tərəfindən müəyyənləşdirilən) «müstəqil xarici siyasəti»nin əsas məqsədlərini və vəzifələrini isə bu cür ifadə etmək mümkündür:

a) Gürcüstan və Ermənistandakı ictimai-siyasi quruluşların dəyişdirilməsində Sovet Rusiyasına fəal yardımçı olması;

b) Rusiyanın hazırkı «Şərq siyasətində vasitəyə (alətə) çevrilərək «müsəlman Şərqinə də pəncərə» (N.Nərimanov) açması;

c) Qərblə iqtisadi-maliyyə qarşıdurmasında Rusiyaya

üstünlük (fayda) qazandırması.

Yuxarıda sadalanan bu kimi məqsəd və vəzifələr mahiyyətləri baxımından antimilli səciyyə daşıyırdı. Yəni onlar heç də ölkəmizin (millətimizin) maraqlarına deyil, ənənəvi «vahid və bölünməz Rusiya» siyasətinə xidmət edirdi.

Azərbaycan SSR-in «xarici siyasəti»ndə rəhbər tutulan prinsiplərə gəldikdə onlar kommunist-sovet ideologiyasına əsaslanan sistemdən, Rusiya müstəmləkəçiliyindən qaynaqlanırdı. Buna görə də AXC dönəmində gerçəkləşdirilməsinə çalışılan prinsiplərdən (suverenlik – azad dövlətçilik xəttinin dönməzliyi; digər dövlətlərlə münasibətlərdə bir-birinin suverenliyinə və ərazi bütövlüyünə hörmət edilməsi; beynəlxalq həyatın və beynəlxalq hüququn bütün normalarına şəksiz riayət olunması və s.) əsla söhbət gedə bilməzdi.

«Müstəqil» Sovet Azərbaycanının «xarici siyasət» strukturlarının və onların fəaliyyətinin təşkili də barələrində bəhs olunası vacib məsələlərdəndir. Azərbaycan İnqilab Komitəsinin (AİK-in) respublika Xalq Komissarları Sovetinin (XKS-nin) tərkibinin təsdiqi haqqındakı qərarından (28. IV.1920) göründüyü kimi, XKS sədri (N.Nərimanov) eyni zamanda Xalq Xarici İşlər Komissarı (XXİK) olmuşdur. Az sonra isə həmin vəzifəni (1921-ci ilin dekabrına qədər) keçmiş müsavatçı M.Hüseynov tutmuşdu.

Yeni sistemə əsasən, AXC XİN-i və onun strukturu dərhal ləğv olundu. Azərbaycan SSR XXİK-də, təbii olaraq, sırf siyasi-ideoloji prinsiplərə əsaslanan yeni strukturun (qurumların) təşkili qərara alındı. Belə ki, komissarlıqda İşlər idarəsinin (Dəftərxana), Ümumi (maliyyə-təsərrüfat, pasport masası və s. bölmələri olan) və Siyasi (Şərq, Qərb informasiya bölümlərindən ibarət) şöbələrin yaradılması nəzərdə tutuldu. Müvafiq surətdə Sovet Rusiyası, Avropa və s. bölmələrin ləğvi planlaşdırıldı. Komissarlığın ştat tərkibində çoxlu ixtisarlar aparıldı.

Və, bu zaman, yenə də sinfi-siyasi mülahizələrə üstünlük verildi. Xeyli sayda peşəkar, təcrübəli, vətənpərvər əməkdaş

«şübhəlilər» (müsavatçılar, tərəfsizlər və b.) adı altında işdən «qovuldular». Nəticədə lap əvvəldə orada 67 nəfər əməkdaş (komissar və onun dəftərxanası çıxılmaqla) saxlanıldı. Onların da təqribən 30-dan çoxu azərbaycanlı idi. Komissarın müavini vəzifəsini də İ.Andreyev tuturdu.

Əsasən milli dövlətçilik və müstəqillik tərəfdarları olan işçilərin hədəfə alındıqları bu «təmizləmə kampaniyası»nda paralel surətdə həm də komissarlığın antimilli (Rusiyapərəst və s.) şəxslərlə, bilavasitə Azərbaycan Fövqəladə Komissiyasının (FK; «məşhur» ÇK-nın) «tövsiyə»-rəyilə, doldurulması xətti yeridildi.

Komissarlığın fəaliyyəti əsasən rus dilində həyata keçirilirdi. Ancaq müəyyən problemlər (işə yeni qəbul olunanların türk-Azərbaycan dilini, yerlərdə isə əhalinin rus dilini bilməmələri və s.) üzündən AİK-in xüsusi əmri (8.II.1921; №15) ilə XXİK-də paralel olaraq milli dilin işlənməsinə icazə verilmişdi.

Milli dövlətçilik düşüncəli və mövqeli əməkdaşlardan həmişəlik xilas olmaq və s. niyyətlərlə XXİK yanında Şərqşünaslıq institutunun təşkili də planlaşdırıldı. Onun nəzdində diplomatik xidmət üçün xüsusi qısamüddətli kursların açılması da nəzərdə tutulmuşdu. Lakin əslində əvvəlcədən düşünüldüyü kimi və sonrakı siyasi proseslərin də təsiri nəticəsində Azərbaycan SSR XXİK-in özü də tezliklə ləğv edildi (Bu barədə I bölümün 3-cü paraqrafında ətraflı bəhs olunur).

§2. Beynəlxalq konfranslarda Azərbaycan nefti uğrunda çəkişmələr

Bir sıra fundamental elmi araşdırmaların nəticələrinə və siyasi dəyərləndirmələrə görə, 1920-ci illərin əvvəlindən etibarən Azərbaycan neftinin tarixində ikinci mühüm dövr başlanmışdır. Bakı nefti bu dövrdə də beynəlxalq siyasətdə önəmli rol oynamış və dövlətlər, nəhəng iqtisadi güclər (şirkətlər-maqnatlar) arası münasibətlərdə sanballı xüsusi çəkiyə malik olmuşdur.

M.Rəsulzadə, Azərbaycan Xalq Cümhuriyyətinin Paris Sülh konfransındakı nümayəndə heyətinin üzvü, Miryaqub Mehdizadənin «Beynəlmiləl siyasətdə petrol» kitabına yazdığı «Bir-iki söz»də Bakı neftinin o dövrki tarixi önəmini belə qiymətləndirmişdi:

«Azərbaycan xaricə ehtiyac duymadan, öz iqtisadi imkanları ilə müstəqil bir həyat yaşamaq istedadı olan müstəsna məmləkətlərdəndir. Ona bu müstəsna mövqeyi bəxş edən ən mühüm amillərdən biri bütün cahan müqyasında çox dəyərli qiyməti olan neftə malik olmasıdır. Petrol, dünya siyasətinin ən təsirli amili olan bu axar altun bu gün Azərbaycanın talesizliyinə səbəb olmuşsa da, sabah digər bir şəkildə, səadət və rifahının təminatına namizəddir. Ümumi cahan neft hasilatında Azərbaycan Amerikadan sonra ikinci mövqeyi tutmaqdadır. Bu münasibətlə o, beynəlmiləl siyasət silsiləsində ən mühüm bir həlqəni təşkil edir». Böyük öndər daha sonra yazırdı ki, neft məsələsini ətraflı öyrənmək və ondan Azərbaycanın mənafeyi – milli dava naminə istifadə etmək səhlənkarlıqla yanaşılmayası, mühüm bir vəzifədir.

1920-ci illərin əvvəlindəki beynəlxalq siyasət də, əsasən, iqtisadi faktorlara, ən başlıcası da neft amilinə söykənirdi. Bu və digər səbəblərə görə böyük dövlətlərin və iri şirkətlərin yanacaq-enerji (ələlxüsus da neft) mənbələrinə yiyələnmək uğrundakı siyasi-diplomatik çəkişmələri daha da qızışdı. Məhz bu kimi halların təsiri üzündən, həmin dövrdə keçirilən beynəlxalq konfranslarda (London, Genuya, Haaqa və s.) «nişanlısı çox olan Bakı neft gözəli» (Q.Orconikidze) ilə əlaqədar məsələlər də diqqət mərkəzində oldu. N.Nərimanovun I Ümumazərbaycan Sovetlər qurultayının 3-cü iclasında (8.V.1921) dediyi kimi, o dövrdə də nəinki sovet respublikalarının, habelə bütün Avropanın nəzərləri Azərbaycan neftinə yönəlmişdi.

London konfransı və Azərbaycan nefti

Azərbaycanla və, xüsusilə də, Bakı neftiylə bağlı məsələlər bu və digər yönlərdən London konfransında da (21.II. - 14.III.1921) nəzərdən keçirildi. Zəmanənin həm də bir neft imperatorluğu sayılan Böyük Britaniya hökuməti Azərbaycan nefti ilə sıx bağlılığı olan maraqlarını da bu toplantıda açıqladı. Konfransdakı müzakirələrdən və gəlinən qənaətlərdən də aydın göründüyü kimi, Bakı neftindən bilavasitə əldə etdiyi iqtisadi-maliyyə faydasından məhrum olan İngiltərə indi ondan geosiyasi maraqlarının təminatına təsir vasitəsi kimi yararlanmağa çalışırdı.

Əsasən, «Şərq məsələsi»ndəki tarixi-ənənəvi ingilis maraqları ilə əlaqədar bəzi məqamları və bununla bağlı olaraq da Sevr muqaviləsinə (10.VIII.1920) müəyyən dəyişikliklər edilməsini dartışan London konfransında Qafqaza (Azərbaycana və Bakı neftinə) dair də mülahizələr söylənildi. Belə ki, konfransdakı digər türk təmsilçiliyinin başçısı – Kamal Türkiyəsi (inqilabi Ankara) hökumətinin Xarici İşlər naziri Bəkir Sami bəylə İngiltərənin Baş naziri L.Corcun gizli görüşlərində (4 və 16.III.1921) qarşılıqlı şəkildə müəyyən təkliflər irəli sürüldü.

Həmin məxfi müzakirələrdə B.Sami bəyin «Qafqazın Türkiyə ilə Quzeydəki ölkələr arasında bir barrikada biçiminə gətirilməsi» kimi diqqətçəkiçi təklifi və «güclü bir Qafqaz federasiyası qurulmasının həm Türkiyənin, həm də İngiltərənin maraqlarına uyğun olacağı» mülahizəsi L.Corc tərəfindən razılıqla qarşılandı. Baş nazir isə daha da irəliyə gedərək «Türkiyə Bakı neft qaynaqları ilə birlikdə bütün Cənubi Qafqazı öz protektoratlığına götürsün» kimi – uzaqgedən məqsədlərə xidmət edən – bir mövqeni ortaya qoydu.

Tərəfləri bu cür mövqe-təkliflərə vadar edən səbəblərə

gəldikdə isə aşağıdakı vacib məsələləri qeyd etmək olar:

Birincisi, B.Sami bəyin nəzər nöqtəsinə görə, tərəflərarası uzlaşma: **a)** Orta Şərqə və Mərkəzi Asiyaya sovet yayılmasının Türkiyənin yardımıyla önlənməsinə; **b)** Türkiyənin olduqca ağır durumunda ona qənim kəsilən yunanların və havadarlarının (Fransa, İtaliya və b.) zərərsizləşdirilməsinə imkan verərdi.

İkincisi, L.Corcun fikrincə isə, dövlətlərarası yaxınlaşma İngiltərəyə: **a)** onu Şərqdə sıxışdıran Rusiyanın mövqelərinin daha da möhkəmlənməsini əngəlləməyə şərait yaradar; **b)** Türkiyənin Rusiya və Fransa ilə anlaşmasını mümkünsüz edərdi.

Müəyyən səbəblərə görə, B.Sami bəylə L.Corcun təkliflərinin gerçəkləşdirilməsi buş tutmadı və müvafiq əməli nəticələr əldə edilmədi. Ancaq «dünya neft kraliçasının tacı» sayılan Bakı naminə aparılan beynəlxalq diplomatik mübarizə də səngimədi, əksinə, getdikcə daha da gücləndi.

Bakı nefti imtiyazı (Genuya) konfransı

XX əsrin 20-ci illərinin beynəlxalq siyasətində, Avropa maliyyə iqtisadi toplantısı kimi dəyərləndirilən, Genuya konfransı da (10.IV -19.V.1922) önəmli yer tutur (Bu konfransın digər fənlərin tədrisi prosesində də öyrənildiyini nəzərə alaraq biz burada yalnız Azərbaycanla bağlı məsələlərin nəzərdən keçirilməsini lazım bilirik). Dövrün bir çox elmi-siyasi dairələri haqlı olaraq onu həm də neft konfransı kimi qiymətləndirmişlər.

Konfransın rəsmi məqsədi Birinci Dünya müharibəsindən yenicə və bərbad halda çıxan Avropa iqtisadiyyatının islahatı və tənzimlənməsi hesab olunurdu. Ancaq onun son dərəcə gizli saxlanılan əsl məqsədi isə Bakı nefti imtiyazı idi.

Bu fikri, «Rheinieg Westfaliche zeitung» qəzeti müxbirinin, konfransın açılışından altı gün əvvəlki tarixə (4. IV.1922) təsadüf edən, teleqramı çox yaxşı təsdiqləyir. Teleqramda deyilirdi ki, bu günlərdə Parisdə toplanan bir neçə mühüm siyasət adamının fikrincə, Genuya konfransının siyasi tarixi Bakı neftiylə yazılacaq və burada müzakirə «Royal Datç»la «Standart Oyl» şirkətinin mücadilələri ilə xitam olacaqdır.

Genuya konfransında Azərbaycanın bahalı mayesinə sahib çıxmaq uğrunda gedən diplomatik çəkişmələrin mahiyyətini daha yaxşı anlamaq üçün toplantı öncəsi cərəyan edən proseslərə və başverən hadisələrə də mütləq nəzər yetirmək faydalı olardı. Bu kimi məsələlər arasında isə ikisi üzərində bir qədər ətraflı dayanmağa ehtiyac vardır.

Onlardan **1-cisini** böyük dövlətlərin (İngiltərə, Rusiya, Fransa), ələlxüsus da, nəhəng şirkətlərlə («Standart Oyl», «Royal Datç») onların başçılarının (A.Betford, H.Diterdinq) konfransa hazırlıqları təşkil edirdi. **2-cisi** isə, Azərbaycanın konfransa dəvət olunmasına dair fərqli baxışlarla bağlı idi.

Çağırılmasının əsas təsəbbüskarı L.Corc və az sonra ona qoşulan R.Puankare olan Genuya konfransına yuxarıda göstərilənlər tərəfindən ciddi hazırlıq getmişdi. Bu prosesdə əsas ağırlıq və iş, təbii olaraq, adıçəkilən şirkətlərin üzərinə düşmüşdü. Bizcə, burada onları qısaca səciyyələndirmək də faydalı olardı.

ABŞ-a məxsus gənc «Standart Oyl»dan (hazırkı «Ekson»dan) fərqli olaraq nisbətən yaşlı və təcrübəli sayılan «Royal Datç» (İngiltərə-Hollandiya) hələ Birinci Dünya müharibəsindən əvvəl də Bakı neft dairəsində ən böyük ərazilərə malik idi. Bu firma 1912-ci ildə Rotşild qardaşları ilə yanaşı, həm də bir Holland şirkətinin səhmlərini almışdı. H.Diterdinq Qafqazın bütün neft sərvətinə hakimi-mütləq

olmağı hədəfə götürmüşdü. Bu məqsədlə də o, 1920-ci ildən etibarən ermənilər – Mantaşov və Liyanozovların neft şirkətinin böyük bir hissəsini, habelə ən xırda neftli əraziləri belə almışdı. Şimali Qafqazda da quyular əldə etməyə çalışırdı.

Bunun müqabilində ABŞ neft şirkətləri, o cümlədən də «Standart Oyl» Bakı neft sənayesində yetərli gücə və təsirə malik deyildilər. Və Genuya konfransı ərəfəsində bu şirkətlər və onların təmsil etdikləri dövlətlər arasında Azərbaycan neftindən pay bölgüsündə iştirak üstündə qızğın mübarizə gedirdi.

Vaxtaşırı beynəlxalq və məhəlli siyasi böhranlar doğuran Bakı nefti indi yenə də tanınmış dövlət adamlarının (L.Corc, V.Lenin, R.Puankare və b.), əvvəldə sadaladığımız neft krallarının, görkəmli diplomatların (C.Kerzon, G.Çicerin, M.Litvinov və s.) zehnini məşğul etmişdi.

Konfransa dəvət və iştirak məsələləri də beynəlxalq siyasi-diplomatik dairələrdə kəskin fərqli mövqelər yaratmışdı. Müttəfiqlər arasındakı ixtilafların günbəgün dərinləşməsi və, ələlxüsus da, Bakı neftinə dair maraqların kəskin toqquşması burada da özünü göstərirdi. İngiltərə-Fransa rəqabəti bu sahədə daha qabarıq şəkildə üzə çıxmışdı.

Həm də bunun təsirindən idi ki, İngiltərə Rusiya və Azərbaycanın konfransa dəvət olunması ilə əsla razılaşmır, birinci ilə bağlı bəzi şərtlər qoyurdu. Fransa isə, onların toplantıda iştirakını inadla dəstəkləyirdi. Azərbaycanın konfransa buraxılmamasının lehinə gətirilən dəlillər sırasına onun Sovet Rusiyasının yedəyində getməsi, Avropa ölkəsi sayılmaması və s. daxil idi.

Ən vacib və maraqlı məqamlardan biri də Azərbaycanın konfransda iştirakına dair Rusiya yanaşması ilə əlaqədardı. Rus diplomatiyası bu dövrdə sovet respublikalarının Qərbə qarşı blokunu yaratmaq xəttini yeridirdi. Və, buna

müvafiq olaraq da, bir sıra işlər həyata keçirildi:

1. Öncə Genuya konfransında «müttəfiqlər olaraq birgə» iştirak görüntüsü yaradıldı. Bu məqsədlə də Ümumrusiya Mərkəzi İcraiyyə Komitəsinin (ÜRMİK) Fövqəladə sessiyasında (27.I.1922) sovet respublikalarının «vahid nümayəndə heyətilə» təmsil olunması razılaşdırıldı. Azərbaycan SSR-dən də N.Nərimanov onun tərkibinə daxil edildi. Yeri gəlmişkən, ümumsovet (Rusiya) maraqlarının müdafiəsinin ən fəal dəstəkçilərindən olan N.Nərimanov bundan düz iki ay sonra (27.III.1922) İ.Stalinə yazırdı ki, «...Genuya konfransı bizə heç nə verməyəcəkdir...».

2. Az sonra Azərbaycanın müvafiq dövlət və hökumət orqanları N.Nərimanovun, Genuya konfransına qatılacaq vahid sovet nümayəndə heyətində, «respublikamızı» təmsil etməsinə dair rəsmi sənədi – xüsusi mandatı təsdiqlədilər (11.II.1922). Həmin mandat N.Nərimanova Azərbaycanın maraqlarının təmin olunmasına çalışmaq, buna müvafiq də müəyyən bəyanatlarla çıxış etmək, müqavilələr və s. imzalamaq «səlahiyyəti» verirdi (Lakin konfransa hazırlıq prosesi, onun gedişi və nəticələrinin də təsdiqlədiyi kimi, bu «səlahiyyət» formal səciyyə daşıyırdı və mövcud durumda ondan istifadə əsla mümkün deyildi).

Yeri gəlmişkən, siyasi-diplomatik ədəbiyyatda N.Nərimanovun Sovet nümayəndə heyətinə daxil edilməyilə bağlı diqqətçəkən bir izah da vardır. AXC dönəmində Gürcüstandakı diplomatik nümayəndəliyimizdə çalışan və az sonra isə Azərbaycan SSR-in Türkiyədəki səfirliyində hərbi attaşe işləyən Ələsgər (Əsgər) Əsgərov-Kəngərlinski 1922-ci ilin mart-aprelində yazdığı «Azərbaycan faciəsi» adlı materialda bununla bağlı belə bir mülahizədən bəhs etmişdir:

Lap axır vaxtlarda «mogikanlardan sonuncusu» N.Nərimanovu Genuyaya göndərməyə hazırlaşırlar. Və bu,

«qarışıq zəmanədən», artıq zəhlə tökməyə müvəffəq olan «müstəqil» respublikaları udmaq və Avropanı başvermiş fakt qarşısında qoymaqdan ötrü, daha əlverişli forma kimi Qafqaz cümhuriyyətlərinin çoxdan arzulanan federasiyasını gerçəkləşdirmək üçün istifadə etmək istəyirlər.

3. Tezliklə Rusiya hökuməti tərəfindən, Sovet respublikalarının müstəqil xarici siyasət fəaliyyətini əngəlləməyə yönəlik, daha bir tədbir həyata keçirildi. Belə ki, sovet respublikalarının mənafelərinin Genuya konfransında müdafiəsi hüququnun RSFSR-ə verilməsinə dair Moskva protokolu (22.II.1922) təsdiqləndi. Onu Azərbaycan SSR-in RSFSR-dəki səlahiyyətli nümayəndəsi Ə.Şirvani (Mustafabəyov) imzaladı. Rusiya, konfransda təmsil olunacaq dövlətlərə, həmin sənədlə bağlı xüsusi bəyanat da göndərdi.

Zəmanənin ən tanınmış dövlət xadimlərinin (L.Corc və b.) təşrif buyurduqları Genuya konfransında Azərbaycan əslində iki nümayəndə heyətilə təmsil olunmuşdu: **1.** Vahid Sovet nümayəndə heyətinin üzvü N.Nərimanov. **2.** AXC-nin Paris Sülh konfransındakı təmsilçilərindən M.Mehdiyev və M.Məhərrəmov.

Konfrans, əsasən, Rusiyanın xarici dövlət-şirkətlərə olan borcları və əcnəbilərin Rusiyadakı əmlakları ilə əlaqədar məsələləri müzakirə etdi. Və əslində burada neft məsələsindən ayrıca və rəsmən heç vaxt bəhs olunmadı. Ancaq, əvvəldə də qeyd edildiyi kimi, toplantıda – müzakirələri dolayısı yolla da olsa aparılan və hədəfə alınan başlıca məsələlər şurasında – neft problemi də var idi (Necə deyərlər, burada dartışılan bütün məsələlərdən Bakı neftinin qoxusu gəlirdi).

Bakı neftinə sahib çıxmaq və ondan yetərincə faydalanmaq uğrundakı rus-ingilis-amerikan-fransız və s. rəqabəti indi bu konfransda diplomatik müstəvidə davam etdirilirdi. Bu sahədəki ziddiyyət və ixtilaflar isə konfrasda özünü

iki yöndə göstərirdi: **a)** Rusiya ilə Qərb dövlətlərinin (şirkətlərinin) maraqlarının toqquşmaları; **b)** yenidən Rusiyanın ixtiyarına keçən Bakı neftindən faydalanmaqda israrlı olan dövlətlər (firmalar) arası rəqabətin güclənməsi. Sözgəlişi, Rusiya diplomatiyası Qərbdaxili rəqabətdən yararlanmağa çalışırdı və buna da nail ola bildi.

Avropa (Bakı nefti imtiyazı) konfransında və onun ətrafında cərəyan edən proseslərdə kəskin diplomatik qarşıdurma, əsasən, İngiltərə ilə Rusiya və «Royal Datç»la «Standart Oyl» arasında baş verdi. Öncə, toplantıda «təmsil olunan sovet respublikaları»nın mövcud siyasi-hüquqi durumuyla bağlı, G.Çiçerinlə L.Corcun mövqeləri toqquşdu. Birincinin konfransın açılışındakı nitqində və toplantıya təqdim etdiyi sənəddə digər «sovet respublikaları»nı, o cümlədən də Azərbaycan SSR-i Rusiyanın müttəfiqi statusunda səciyyələndirməsi ikincinin ciddi etirazı ilə qarşılandı. Baş nazir həmin «respublikaları» Rusiyanın «müttəfiqi» olaraq deyil, onun işğal etdiyi «Şura cümhuriyyətləri» kimi dəyərləndirdi.

Xaricilərin Rusiyadakı əmlaklarının mövcud hüquqi vəziyyəti və gələcəyi məsələlərinin müzakirəsi zamanı Azərbaycan nefti ilə əlaqədar da fərqli yanaşmalar özünü göstərdi. Bununla bağlı konfrans daxilində və ondan kənarda müxtəlif fikirlər səsləndirildi, təkliflər irəli sürüldü. Çoxsaylı mövqelər şəraitində diqqəti daha da çox cəlb edənlərin bəziləri üzərində bir qədər ətraflı dayanmağa ehtiyac vardır.

Birincisi, Rusiyanın («vahid» Sovet nümayəndə heyətinin) mövqeyi və təkliflərindən bəhs etmək lazım gəlir. Çünki bu dövrdə yalnız o, Bakı neftinə faktiki olaraq sahiblik edirdi. Hələ AXC-nin süqutundan əvvəl (17.IV.1920) A.Serebrovskini Bakı neft komissarı təyin edən V.Lenin özü təsdiqləyirdi ki, yanacaqsız qalan Sovet Rusiyası sənayesi,

Azərbaycan hökumətinin devrilməsi ilə, onu tamamilə canlandıracaq bir iqtisadi baza əldə etmişdir.

Belə bir üstünlük onu, iqtisadi və maliyyə haqq-hesabı çürüdülməsi üçün dəvət olunduğu, bu konfransda güclü etmişdi. Buna görə də, konfransın I (siyasi) komissiyasının üzvləri olan, rus-sovet diplomatları (G.Çiçerin, M.Litvinov, L.Krasin və b.) Qərbin Rusiyaya qarşı irəli sürülən iddialarına əks tələblərlə cavab verdilər. Bu hal özünü xaricilərin Rusiyada müsadirə olunan əmlaklarının qaytarılması ilə əlaqədar ortaya çıxan mübahisələrdə daha aydın şəkildə göstərdi.

Sovet nümayəndə heyətinin, konfransın ilk günlərində, L.Corcla və Fransanın baş təmsilçisi Bartu ilə keçirdiyi görüş-müzakirələrdə qarşılıqlı tələblərin toqquşması anları yaşandı. Onların xaricilərin Rusiyada musadirə edilən əmlaklarının qaytarılması tələbi M.Litvinov tərəfindən «bu heç vaxt və heç cür mümkün olmayacaqdır» bəyanatı ilə cavablandırıldı.

Bu kimi ümumi səciyyəli dartışma və iddiaların kontekstində Azərbaycan neftiylə əlaqədar məqamlar da özünə yer almışdı. Konfransın sənədlərindən və ona dair elmi araşdırmalardan da göründüyü kimi, Sovet nümayəndə heyəti Genuyaya neftli ərazilərin xaricilərə konsessiyaya verilməsinə dair müəyyən layihələrlə gəlmişdi. M.Mehdiyevin yazdığına görə, bunu L.Krasinin mətbuata bəzi açıqlamaları da təsdiqləyirdi. Belə ki, o, İtaliyanın «İnformation» qəzetinə müsahibəsində (11.IV.1922) bildirmişdi ki, Sovetlər neft ərazisini böyük dövlətlərə konsessiyalara verməyə hazırdır. Rus diplomatı Moskvada çıxan «İzvestiya»nın müxbiri ilə söhbətində (9.V.1922) öz dövlətinin mövqeyini belə ifadə etmişdi:

- Sovet hökuməti Azərbaycanın neft ərazisinin dörddə birini özünə saxlamalıydı;

- yerdə qalan üç hissə isə bərabər olaraq üç və ya dörd qismə bölünməli, onlar da Fransa, İngiltərə, Amerika, Belçikaya verilməliydi;
- keçmiş Rusiya imperiyasında 1918-ci ilə qədər (yəni millileşdirməyədək) əmlakı olan xaricilərin də yaradılacaq ümumi və müştərək idarəli bir konsorsiuma qatılmaları mümkün idi.

Bu və digər layihə-təklif-planlardan, habelə çeşidli məxfi görüşlər, bəyanat və açıqlamalardan bəlli olur ki, Rusiya diplomatiyası «ikili oyun» yolunu seçmişdi. Həmin niyyətlə də böyük dövlətlər və şirkətlərlə bütövlükdə uzlaşmadan qaçılır, müəyyən uzaqgedən məqsədlərə görə onlardan münasib bilinənlərlə ayrılıqda sövdələşməyə üstünlük verilirdi. Belə bir yanaşmanın zəruriliyi və önəmi N.Nərimanovun dili ilə də «əsaslandırılmışdı»: «Neft mədənlərinin qismən konsessiyaya verilməsi Azərbaycan üçün xeyirli olardı və sənayenin inkişafına da geniş imkanlar açardı».

Rusiya diplomatiyasının ikili siyasəti, təbii ki,Qərbin aparıcı dövlətlərinin ona qarşı birləşməsinin əngəllənməsini, iri şirkətlər (nəhəng neft maqnatları) arasındakı ixtilafların daha da dərinləşdirilməsini hədəfə almışdı. Bu baxımdan da «Royal Datç»a üstünlük verilməsi və ona əlverişli fəaliyyət şəraitinin yaradılmasına səylər göstərilməsi heç də təsadüfi deyildi.

Bununla, bir yandan, İngiltərə ilə (Versal sistemiylə) ABŞ-ın (V.Vilsonun «14 maddəsi»nin) güddükləri geostrateji məqsədləri qarşılaşdırmağa, digər tərəfdən də, «Standart Oyl»la «Royal Datç»ın toqquşmasını şiddətləndirməyə çalışılırdı. Əslində hədəflər düzgün seçilmişdi. Yəni ki, Rusiya – «Royal Datç» yaxınlaşması ingilis-amerikan münasibətlərindəki çatları dərinləşdirməklə bərabər, «Standart Oyl»u da xeyli qayğılandırırdı. Ümumiyyətlə isə, konfransdakı müza-

kirə və çəkişmələr, ən başlıcası da, onun nəticələri isbatladı ki, Rusiya millîləşdirməyə dair kardinal prinsipindən geri çəkilmək və konsessiyalarla bağlı hər hansı bir güzəştə getmək fikrində deyil.

İkincisi, Rusiyanın bu cür məqsədyönlü siyasəti və israrlı mövqeyi müqabilində Qərb dövlətləri yetərli birlik sərgiləyə bilmədilər. Aralarındakı ixtilafların səngiməkdənsə, daha da qüvvətlənməsi və konkret özəl maraqların qabarması Qərbin diplomatik «cəbhəsi»ndə dağınıqlığı, separatçılığı və zəifliyi hökmran etmişdi. Buradakı durumu nəzərdən keçirdikdə aşağıdakıları müşahidə etmək mümkündür:

a) İngiltərə, fikrimizcə, Qafqazla (ələlxüsus da Azərbaycanla) bağlı 1918-1920-ci illərdə yürütdüyü ikili siasətin acı bəhrələrini labüd olaraq dadmaqda idi. Azərbaycan dövlətçiliyinə şimaldan gələn təhlükəni və AXC-nin süqutunu, əsasən, sükutla qarşılayan İngiltərənin gözlədikləri baş vermədi. Yəni «sükut mövqeyi»nin Rusiyanın borclarını qaytarması ilə kompensasiyasına bəslənilən ümidlər özünü doğrultmadı. Ən başlıcası isə, İngiltərə bir xeyli müddətə (1989-cu iladək) Bakı neftindən ayrı düşdü və ondan məhrum oldu.

Yaranmış durumla və üzləşilən itki ilə əsla razılaşmayan ingilis diplomatiyası, əldən verilmiş mövqeləri qaytarmaq üçün, Avropa konfransında da xeyli cəhdlər etdi. Bartu ilə birlikdə irəli sürdükləri təklif – şərtin M.Litvinov tərəfindən nəinki yaxına buraxılmaması, hətta onun sərt bəyanatı (RSFSR-in güzəştsiz mövqeyi) ilə üzləşməsi L.Corcu yetərincə çətin duruma saldı.

Bartuya nisbətən ehtiyatlı və çevik davranan L.Corc, kompromis variant olaraq, müsadirə edilən əmlakın uzun müddətə (99 illiyə) öz keçmiş sahiblərinə icarəyə verilməsini və ya onun əvəzində 2 milyard 600 milyon funt sferlinq (18 mlrd. qızıl rubl) ödənilməsini istədi. Bunun cavabında isə

M.Litvinov 5 milyard f.st. (39 mlrd. qızıl rubl) əksiddia irəli sürdü.

İngilislərin Bakıdakı neftli mülklərinin uzun müddətə onların keçmiş sahiblərinə icarəyə verilməsi istəyi də gerçəkləşmədi. Bütövlükdə isə, bu konfrans, onun bilavasitə səbəbkarı sayılan, L.Corc üçün uğursuz oldu və «ağsaçlı» siyasət-diplomatiya nəhənginin karyerasında enişin başlanğıcını qoydu.

b) ABŞ konfransda rəsmən təmsil olunmasa da İtaliyadakı səfiri Çayldın toplantıda müşahidəçi statusunda iştirakını təmin etmişdi. Konfransın materiallarından aydın olduğu kimi, ABŞ diplomatiyası istər kuluarlarda, istərsə də toplantıdan kənarda İngiltərəyə qarşı gərgin mübarizə aparmışdı. Digər amillərlə yanaşı bu da L.Corcun konfransdakı uğursuzluğunda rol oynamışdı.

Qarşılıqlı münasibətləri, vaxtaşırı həm də Bakı neftindən ötrü, uzlaşmayan və bəzən hətta gərginləşən ABŞ ilə İngiltərə konfrans ərəfəsi-dövrü-sonrası da dil tapa bilmədilər. Dövlət katibi Ç.Yuzun ABŞ-ın neft konsessiyaları ilə bağlı xüsusi bəyanatı Azərbaycan petroluyla əlaqədar amerikan mövqeyini – ölkəmizə münasibətdə «açıq qapı» prinsipini müdafiə etdiyini aydınlaşdırmağa imkan verir.

Bu bəyanatda (11.V. 1922) deyilirdi ki, ABŞ amerikan kapitalını neft konsessiyalarında iştirakdan kənarlaşdıran heç bir sazişi qəbul etməyəcəkdir. Və hər kəsə qarşı «açıq qapı» prinsipini nəzərə almayan, hamıya bərabər hüquq verməyən hər hansı bir milli və beynəlxalq planın tətbiqinə əsla razı olmayacaqdır. Belə bir vacib cəhət də xüsusi olaraq vurğulanmalıdır ki, ABŞ sadəcə seyrçi (müşahidəçi) statusu ilə kifayətlənmədi və neft konsessiyaları, o cümlədən də Bakı neftinə aid məsələlərdə Fransa və Belçika ilə birlikdə hərəkət etməyə üstünlük verdi.

c) Fransa və Belçika məlum səbəblərə görə bir araya gələrək İngiltərəyə qarşı çıxdılar. Az öncə deyildiyi kimi, ABŞ da onları dəstəklədi (Yeri gəlmişkən, konfransdakı belə bir qütbləşmədə, ələlxüsus, Böyük Britaniya – Amerika ixtilaflarında, o sıradan da «Standart Oyl»la «Royal Datç»ın «neft dueli»ndə **İtaliya** (Fakta – o həm də konfransın sədri idi) İngiltərəyə meylli görünsə də, əslində tərəfsiz qaldı).

Bütövlükdə götürüldükdə Belçika (Tyonis) və Fransa (Bartu) nümayəndə heyətləri İngiltərənin (L.Corcun) uzunmüddətli neft konsessiyaları ilə razılaşmayaraq mülkiyyət prinsipinin gerçəkləşdirilməsini, yəni əmlakın keçmiş sahiblərinin hüquqlarının tanınmasını istəyirdilər.

Böyük Brinatiyanın Bakı neftinə yiyələnmək planlarından dolayı bir araya gəlməyə çalışan fransızlar, belçikalılar və amerikalılar həm ingilislərlə cəm olaraq və ayrılıqda, həm də bir-birilərilə müqayisədə kəskin fərqli durumlarda idilər. M.Mehdizadə, bu mülahizə ilə bağlı, doktor W.Mautnerin statistik hesablamalarına əsasən belə bir maliyyə durumunu – sərmayə yatırımı mənzərəsini diqqətə çatdırırdı.

W.Mautnerin «Petroleum Times»də (London, 28.III.1925) dərc edilən məlumatlarına görə, cahan hərbindən əvvəl Azərbaycan və Şimali Qafqazdakı fransız kapitalı 70 milyonu keçmirdi, Belçika sərmayəsi 21 mln. həddindəydi, ingilislərinki isə – amerikalılar da daxil – üçününkünün cəmindən belə çox (172 mln.) idi.

Birinci Dünya müharibəsinədək özünəməxsus neft siyasəti yürüdə bilməyən və Azərbaycanda tam yetərli maliyyə (sərmayə) imkanlarına malik olmayan Fransanın Bakı neftinə hədsiz marağını şərtləndirən başqa bir amil (səbəb) də vardı. Milli təhlükəsizlikdə neftin önəmini yetərincə dəyərləndirən və böyük dövlətlər sırasına qatılmağı arzulayan Fransa dünya müharibəsindən sonra daş kömür istehsalının

yüzdə iyirmi beş nisbətində azalmasının və bahalı mayeyə ehtiyacın artmasının fərqindəydi. Fransa neftə olan kəskin ehtiyacının lazımi təminatı zərurəti, Qafqazdakı (Quzey Azərbaycandakı) kapitalının yetərsizliyi (strateji maraqlarla uzlaşmaması) və s. üzündən «petrol konsessiyaları yarışı»nda irəli düşməyə çalışırdı.

Bu və digər məsələlərin təsirindən, konfransdakı «Bakı nefti savaşı»nın gərginliyindən idi ki, Bartu hətta Baş nazir R.Puankare ilə müəyyən məsləhətləşmələr aparmaq üçün toplantını müvəqqəti olaraq tərk etmişdi. Və, ümumiyyətlə, həmişə olduğu kimi o dövrdə də Fransanın Azərbaycan neftinə marağı (ona yiyələnmək istəyi) hədsiz idi. Fransanın siyasi-maliyyə dairələrində və mətbuatında («Fiqaro», 6.V.1922) belə bir mühüm fikir üstün mövqe qazanmışdı:

«Heç bir rayon Bakı neftilə əvəz edilə bilməz. Dünyanın heç bir yerində, hətta Meksikada da, Azərbaycanın Bakı neft hövzəsindəki qədər neft çıxarılmır. Bu rayonda neft ehtiyatları tükənməz dərəcədə böyükdür. Ona görə də bizim fəaliyyətimizin əsas mərkəzi məhz Bakı olmalıdır». Bu kimi baxışlara önəm verən və dövlət siyasətində onları nəzərə alan R.Puankare hələ Genuya konfransından az öncə (31.III.1922) parlamentdə çıxış edərkən Azərbaycanın Fransa üçün xüsusi önəm daşıdığını bildirərək demişdi: «Biz Bakıya nüfuzlu neft siyasətimizi yeridə bilərik».

Bütövlükdə isə, Fransa dövləti öz vətəndaşlarının keçmiş Rusiya imperiyasındakı, o cümlədən də Bakı sənaye dairəsindəki əmlak hüquqlarının bərpa olunması ilə bağlı konfransda israrlı mövqe tutdu. Ancaq bu cür mövqe milliləşdirməyə dair güzəştsiz sovet prinsipi ilə qarşıdurmada əsla üstünlük qazana bilmədi.

ç) Almaniya diplomatiyasının Rusiya ilə dil tapmasının bəhrəsi – «Genuya konfransı dövrünün ən gurultulu hadisə-

lərindən» (G.Çiçerin) sayılan Rapallo müqaviləsi (16.IV. 1922), həm də beynəlxalq neft mübarizəsinin dönüş mərhələlərindən hesab olunur. Bu müqavilə – rəsmi (əsas) məsələsi artıq unudulmaqda olan və hamının yalnız neftdən bəhs etdiyi – Genuya konfransındakı konsessiya çəkişmələrinə də ciddi təsir göstərdi.

Almaniya diplomatlarının (Virt və Ratenau) «L.Corc Rapallo danışıqları barədə məlumatlandırılırdı» bəyanatı konfransı qarışdırdı (Yeri gəlmişkən, diplomatik ədəbiyyatda Rapallo müqaviləsini Baş nazir L.Corcun «xəyanəti» – Amerikaya qoşularaq İngiltərənin məğlubiyyətinə baiskar olan Fransadan intiqam alması kimi dəyərləndirən baxışlar da vardır).

Fransa və Belçikanın «Almaniya konfransdan kənarlaşdırılmalıdır» tələbini qıraqdan ABŞ dəstəklədi (Sözgəlişi, Çayld 1925-ci ildə dərc etdirdiyi gündəliyində Rapallonu «konfransa ən ciddi zərbə» kimi səciyyələndirirdi). Konfransdakı bu diplomatik böhran, çarəsiz qalan L.Corcun da imzaladığı, etiraz protokolunun ərsəyə gəlməsiylə birtəhər sovuşdu.

d) Başlıca neft şirkətləri və maqnatları da konsessiyalarla əlaqədar siyasi-diplomatik çəkişmələrdə xüsusi fəallıq göstərirdilər. Konfransdan özəl maraqlarına müvafiq nəticələr istəyən (gözləyən) bu çoxmənalı güclər müxtəlif yollarla (üsullarla) oradakı müzakirələrə təsir edirdilər. Konfransda və onunla təxminən eyni vaxtda keçirilən neft maqnatları qurultayında irili-xırdalı 180 şirkət bu və ya digər səviyyədə təmsil olunmuşdu.

Ancaq onlardan iki ən önəmlisi, böyüyü və imkanlısı, yəni «Standart Oyl» ilə «Royal Datç» neft konsessiyaları uğrunda mübarizənin əsas aparıcı tərəfləri sayılırdılar. Amerika şirkəti son vaxtlarda, ingilis-holland firması isə hələ əvvəllərdə Bakı neftinin keçmiş sahibkarlarının xeyli səhmlərini almışdılar.

«Standart Oyl» konfransda Fransa və Belçikanın da dəstəyini qazanaraq öz əmlakına sahib durmağa – mülkiyyət prinsipini Rusiyaya qəbul etdirməyə çalışırdı. İngiltərənin Bakı neftinə təklikdə yiyələnmək planının əngəllənməsi və s. səbəblər üzündən də Fransa-Belçika neft sindikatının yaradılması himayə olundu. Onun təşkili ilə əlaqədar verilən bəyanatda sindikatın (ABŞ-ı da əhatə edən «Neft ittifaqı»nın) məqsədləri bunlarla izah olunurdu: **a)** Rusiyadakı (Azərbaycandakı) neft sahələrinə böyük hərbdən əvvəlki hüquqla yanaşı, 1918-ci ildən sonra keçmiş ərazi sahiblərindən satın alınanların hüququnun müdafiəsi; **b)** bu iki dövlətin vətəndaşlarına məxsus neft ərazilərinin müştərək işlənilməsi.

Həmin sindikatla bağlı daha iki məqam da diqqəti cəlb edir: **1.** Sindikatın rəhbəri vəzifəsinə azərbaycanlılara dost və xeyirxah münasibətiylə məşhur olan bir şəxs – Fransanın Ticarət nazirliyində neft işlərinə baxan şöbənin müdiri Pineu təyin edilmişdi. **2.** Onu yaradanların səhmlərini sovet milliləşdirməsindən sonra alınanlar təşkil edirdi.

Fransa-Belçika neft ittifaqının konkret təcəssümü olan və, əsasən də, birincinin təklifiylə yaradılan ikili sindikatın (Pineunun) «Standart Oyl»u (Betfordu) müdafiə etməsi Amerika şirkətinin Rusiyadakı maliyyə böhranından faydalanaraq dünyanın ən zəngin neft mənbəyini əldə edəcəyinə bəslənilən ümidlə əlaqədar idi. Fransa və Belçika təmsilçilərinin (Bartu ilə Tjonisin) Rapallo müqaviləsinə qarşı çıxaraq məlum sərt tələbi irəli sürmələri həmçinin bu iki dövlətin birgə sindikatının «Standart Oyl»la uzlaşmasından və sonuncunun təzyiqlərindən irəli gəlmişdi.

«Royal Datç» da Bakı nefti ilə bağlı üstün mövqeyinə (imkanlarına) və s. görə özünün o dövrki başlıca rəqibini

(«Standart Oyl»u) həmin sahəyə buraxmamağa dair planlar cızmışdı. Bakı neftinə təklikdə və tamamilə yiyələnməyin, o çağ üçün yeganə yolu isə Sovet hakimiyyətilə dil taparaq qarşılıqlı əlverişli anlaşmaqdan keçirdi. Və belə bir variant Rusiyanın da çoxtərəfli maraqlarına – beynəlxalq siyasətinin uzaqgedən məqsədlərinə uyğun gəlirdi.

«Standart Oyl»la onun konfransdakı (habelə kənardakı) himayədarları isə bütün qüvvələrilə «Royal Datç»ın Rusiya ilə yaxınlaşmasını (uzlaşmasını) pozmağa çalışırdı. Sözgəlişi, Betfordun belə bir uzlaşma ehtimalından qayğılanması üçün müəyyən əsaslar vardı. Belə ki, Diterdinq konfrans ərəfəsində və onun gedişində L.Krasinlə müvafiq müzakirələr aparmışdı.

Habelə polkovnik Y.Boyle şirkətin xüsusi missiyası ilə Bakıya ezam olunmuşdu. Konfransdan az öncə (X.1921) İngiltərə Xarici İşlər nazirliyinə göndərilən bir sənəd də polkovnikin səfərində güdülən məqsədlərə aydınlıq gətirməyə imkan verir.

Sənəddə Boylenin ingilis baş diplomatı C.Kerzona verdiyi önəmli məlumatdan bəhs olunur. Bu məlumat isə «Royal Datç-Şell» şirkətinin Cənubi Rusiya və Qafqazdakı özlərinə məxsus ərazilərdə neft istehsalı məqsədilə Sovet hökumətindən imtiyaz almaq niyyətini açıqlayırdı. Sənəd-məlumat Boylenin L.Krasinə bu xüsusdakı müraciətlərinin kral hökumətinin tam razılığı və himayəsilə edildiyini də təsdiqləyirdi. Burada həm də ingilis hökumətinin müzakirələrin uğurla yekunlaşacağına ümidli olduğu vurğulanırdı.

Rusiya diplomatiyasının (L.Krasinin) layihələri (təklifləri) də «Standart Oyl»un maraqlarına ciddi təhlükə yaradırdı. Rusların yaradılmasını nəzərdə tutduqları konsorsiuma Rusiyada yalnız milliləşdirməyədək əmlaka malik olan xaricilərin qatıla biləcəyinə dair mülahizə xüsusilə rahatsızlıq doğururdu. Bu müddəa əslində «Standart Oyl»un həmin (gələcək) konsorsiuma yolunu bəri başdan bağlayırdı.

Bu hal, konfrans dövründə siyasi-maliyyə dairələrində beynəlxalq qalmaqala səbəb olan bir hadisə ilə əlaqədar idi. Onun baiskarı elə şirkətin özüydü. Belə ki, şirkətin konfransın ilk günlərində (12.IV.1922) açıqladığı rəsmi raportda mühüm bir iddia səsləndirildi. Yəni, hələ 1920-ci ilin yazında Nobel qardaşlarının səhmlərinin 51 faizinin müqavilə ilə alınmasıyla həmin şirkətə nəzarətin «Standart Oyl»a keçdiyi bildirildi.

A.Betfordun bu diplomatik gedişinin arxasında (alt qatında) düşünülən məqsəd-plan isə bundan ibarət idi: Şirkət artıq Bakıda özünə yer eləmişdir və Sovet hökuməti, onun iştirakı olmadan, Bakı nefti barədə kimsə ilə heç bir müqavilə bağlaya, imtiyaz verə bilməz. A.Betford bu fikri Londonda «Taymss» qəzetinə müsahibəsində də (12.IV.1922) təkrarlayaraq (təsdiqləyərək) söyləmişdi ki, amerikalılar Rusiya ilə başqa bir hökumət və ya şirkət arasındakı hər cür sövdələşmələrə heç bir vəchlə razı olmayacaqlar. Onun qənaətinə görə, bu növ anlaşmalar yalnız «əlaqədarlar» arasında tamamilə «bərabər» və «mütləq» bir surətdə gerçəkləşdirilə bilərdi.

«Standart Oyl»un, Genuya konfransını silkələyən və beynəlxalq iqtisadi-maliyyə dairələrini həyəcanlandıran, raportu-iddiası elə Emmanuel Nobel tərəfindən xüsusi bəyanatla təkzib edildi. Təkzib öz yerində, ən başlıcası, Betfordun məlumatı («dəlil»i) L.Krasinin təklif-şərtinə əsla uyğun gəlmirdi. Rusiya tərəfinin nəzər nöqtəsincə, Nobel qardaşlarının əmlakı və s. milliləşdirmə nəticəsində 1920-ci ildə Sovet hökumətinə keçmişdi və «Standart Oyl» onu almaqla qeyri-hüquqi hərəkətə yol vermişdi (Burada Azərbaycan İnqilab Komitəsinin 1920-ci il 24 may tarixli dekreti ilə Bakı neft sənayesinin milliləşdirilməsi – 272 xüsusi neft firmasının, o

cümlədən də Nobel qardaşları şirkətinin ləğvi nəzərdə tutulurdu).

Milliləşdirilmiş müəssisələrin idarə edilməsi məqsədilə Azərbaycan Neft Komitəsi yaradılmışdı (Sözgəlişi, sədri A.Serebrovski olan «Azneftkom» əslində «hökumət içində hökumət» idi. N.Nərimanov onu respublika içində monarxiya, A.Serebrovskini isə «kral» adlandırırdı). Azərbaycanın neftinin cəmi 15 faizi özünə ayrılsa da onu tam almaq mümkünsüzdü. Təkcə 1920-ci ilin sonuna qədər Azərbaycandan Rusiyaya 3 mln. ton neft aparılmışdı; bu da Bakıda istehsal olunan neftin 90 faizindən çoxunu təşkil edirdi.

Neft sənayesi və ticarəti dövlət inhisarına alınmışdı – bunu birbaşa Rusiyaya tabe olan «Azneftkom» həyata keçirirdi). Həmin komitənin əsasında 1922-ci ilin avqustunda «Azneft» sindikatı təşkil edildi, ona da A.Serebrovski (sədr), S.Taqianosov, Ç.İldırım, İ.Oporin, A.Yakovlev, A.Barinov, B.Sukerman başçılıq edirdilər. Bütün bunların nəticəsində də, «suveren» Azərbaycanın nefti də Rusiyanınkı oldu. «Standart Oyl» şirkətinin «Nobel oyunu», L.Krasinin təklifləri və s. ilə bağlı gözlənilən itkiləri onu «Royal Datç»la daha amansız toqquşmaya sürükləyirdi.

Konfransda Rusiya ilə «Müttəfiqlər» (antantaçılar) arasında yaşanan «memorandumlar savaşı» (2.V; 11.V.1922) və onun nəticələri də «Standart Oyl»un əsla xeyrinə olmadı. Hətta bu prosesdə o, daha ciddi zərbələr aldı və möhkəmcə «vuruldu». Bu işdə həm Rapallo danışıqlarından, həm də L.Krasinin layihə-təkliflərindən əvvəlcədən məlumatlı olan, sovetlərlə «oynamaqda» davam edən (Azərbaycana münasibətdə yenə də ikili siyasət yürüdən) L.Corcun təbii «Royal Datç»lılığı da özünün təsirini açıq-aşkar göstərdi.

Antanta dövlətləri təmsilçilərinin xeyli çəkən gərgin mübahisələrindən sonra – özü də Rusiyanın əsasən qəbul edə

biləcəyi tərzdə – yazılan memorandumdakı (2.V.1922) «mülk sahibləri» anlayışı və onun izahına dair xüsusi bənd əslində «Standart Oyl»a, habelə onu dəstəkləyən fransızlara və belçikalılara qarşı düşünülmüşdü (Həmin bəndin açıqlaması «mülk sahibləri» (maliklər) adı altında Rusiyada yalnız bolşevik milliləşdirməsindən əvvəl əmlakı olan mütəşəkkil qrupları, yəni firmaları nəzərdə tuturdu). Çünki həm bu şirkət, həm də adları çəkilənlər keçmiş sahibkarlara məxsus ərazi və s. 1918-ci ildən sonra almışdılar.

Yalnız «Royal Datç» 1918-ci ildən əvvəl də Bakı sənaye dairəsində ərazi və səhmlərə malik olmuşdu. Həmin memorandumun bütün müttəfiqlər tərəfindən qəbul ediləcəyi təqdirdə, təbii ki, təkcə Rusiya ilə «Royal Datç» qazanacaqdılar: Sovet hökuməti – böyük dövlətlər tərəfindən tanınma və onun davamı olaraq da kreditlər; şirkət isə – mühüm neft imtiyazları (konsessiyaları). Müəyyən dairələri və, xüsusilə də, mətbuatı «Royal Datç»a neft imtiyazlarının veriləcəyinə dair bürüyən şayiələr bu qazanc ümidlərini daha da artırırdı (Sözgəlişi, «Tayms»ın müxbirinin öz qəzetinə teleqramında (7.V.1922) deyilirdi: «Bu gün mətbuat neft ilə doludur»).

L.Krasinin həmin şayiələri təkzib etməsi və habelə «...bu kimi imtiyazların Sovet hökumətinin tanınması və məhəlli olmaq şərti ilə (yəni tək-tək, ayrılıqda – İ.M.) verilməsinin mümkünlüyünə dair» açıqlaması dövlətlər (şirkətlər) arası rəqabəti xeyli qızışdırdı.

Memorandumun «qaranlıq» mətləblərinin aşkarlanması özünü çox gözlətmədi. R.Puankare memorandumdakı «qara niyyətləri» üzə çıxaran kimi Bartuya onu imzalamamağı tapşırdı və fransızların Rusiyada (Bakıda) malik olduqları hüquqların geriyə qaytarılmasın tələb etdi. Belçikalılar da onlarla həmfikir oldular.

Öz növbəsində «Standart Oyl» da dinc qalmadı. A.Betford ABŞ Dövlət katibi Ç.Yuzdan – Amerika kapitalının bu işdən kənarlaşdırılmasına dair Rusiya ilə ola biləcək hər cür müzakirə və uzlaşmalara razılıq verilməyəcəyiylə əlaqədar təminat aldı. Azərbaycana münasibətdə «açıq qapı» prinsipini israrla müdafiə edən ABŞ Çayld vasitəsilə, əvvəldə barəsində bəhs olunan, xüsusi bəyanat (11.V.1922) yaydı və özünün dəyişməz mövqeyini bir daha təsdiqlədi.

Üçüncüsü, konfransdakı Azərbaycan nümayəndələrinin – istər sovetlərin təmsilçisi N.Nərimanovun, istərsə də keçmiş AXC adından çıxış edən M.Mehdizadə və M.Məhərrəmovun – mövqeləri və fəaliyyətiylə əlaqədar məsələlər də diqqəti çəkir. N.Nərimanov konfransın, «bizə heç nə verməyəcəyi» qənaətində idi.

«Biz» dedikdə, təbii ki, sovet quruluşunu nəzərdə tutan N.Nərimanov vahid nümayəndə heyətinin (Rusiyanın) mövqeyindən çıxış edirdi (Yeri gəlmişkən, o hələ konfransdan təxminən bir il əvvəl – I Ümumazərbaycan Sovetlər qurultayının üçüncü iclasındakı (8.V.1921) çıxışında demişdi: «...bizim neftimiz Sovet Rusiyasına məxsusdur, ... inqilabçı, kommunist belə düşünməlidir: bizə nə daha vacibdir – Sovet Rusiyasının həyatı, yoxsa neft?»).

O, neft əraziləri və mədənlərin qismən, yəni tək-tək (ayrılıqda razılaşdırılan) müqavilələrlə konsessiyaya verilməsinin «tərəfdarı» idi. Və bunu Azərbaycana xeyirli olması – sənayemizin inkişafına imkanlar açması ilə «əsaslandırırdı». Əslində isə N.Nərimanovun müstəqil mövqeyi yox idi (ola da bilməzdi) və onun «təklifi» Rusiya diplomatiyasının hədəflərindən qaynaqlanırdı. Konfransın gedişi və nəticələri də bunu bir daha təsdiqləmiş oldu.

Azərbaycanı konfransda təmsil edən (onlar da dəvətli idilər) digər tərəfə gəldikdə isə M.Mehdizadə ilə M.Məhərrəmov Rusiyanın Bakı neftini beynəlxalq hərraca qoymasına qarşı çıxdılar. Onların konfransda və kənarda gördükləri işləri nəzərdən keçirərkən aşağıdakıları xüsusilə qeyd etmək lazımdır:

a) öncə etiraz notaları verərək konfransın başlıca məqsədinin Bakı nefti imtiyazı olduğunu açıqladılar. Habelə M.Məhərrəmov L.Krasinin «İnformation»a məlum müsahibəsinin (11.IV.1922) ardınca «Corrilere de Italiya» qəzetində (12.IV.1922) məqalə ilə çıxış etdi. Bu yazıda nümayəndəliyin, konfransda Bakı nefti ilə bağlı güdülən məqsədlərə dair, mövqeyi açıqlanırdı. Məqalədə bu kimi önəmli məqamlar vurğulanırdı: bolşeviklər Azərbaycan millətinə məxsus olan neft ərazisini satmağa səlahiyyətli deyildirlər; Bakı neft sənayesində rus kapitalı və təşəbbüsü əhəmiyyətsiz rol oynayır; neft ərazisi yerli xalqa və oraya kapital qoymuş xaricilərə aiddir;

b) Bakı neftinin Rusiya tərəfindən beynəlxalq hərraca çıxarılmasını əngəlləmək məqsədilə təbliğat işini gücləndirdilər. Londondakı «Azərbaycan informasiya bürosu» rəsmi bülletenlər nəşr etdirərək bolşevik hökumətinə (Rusiyaya) etiraz olaraq Bakı ətrafındakı neft yataqları və s. yandırılması barədə xəbərlər yaydı. Azərbaycanın keçmiş (milli) hökumətinin Londondakı təmsilçiləri İngiltərənin sənaye-maliyyə dairələrində müəyyən müzakirələr apardılar. Həmin məsləhətləşmələrdə belə bir mövqe bir daha təkrarlandı ki, Azərbaycan milləti Bakı neftinin bolşeviklər tərəfindən konsessiyalara verilməsinə heç vaxt razı olmayacaqdır;

c) etiraz notaları, təbliğat fəaliyyəti və s. ilə konfransdakı neft savaşını aşkarlamaqla, bu sahədəki rəsmi sükutu pozmaqla toplantının aparıcı «dirijorları» sayılan L.Corcla G.Çiçerini əsəbiləşdirərək onun gedişindəki gərginliyin daha da yüksəlməsinə təsir göstərdilər;

ç) konfransda Rusiyadan Bakı neftinə dair imtiyazlar qazanmağa çalışanlarla konsessiyalar verilməsinə mane olanlar arasındakı ixtilaflardan faydalanaraq Krasinlə Diterdinqin birgə məqsədlərə asanlıqla yetişmələrinin əngəllənməsinə yardım göstərdilər. Bununla da Genuya konfransı vasitəsilə Bakı neftinə sahib çıxılmasına – bəzi sövdələşmələr aparılmasına – dair planların pozulmasında iştirak etdilər.

Yarımçıq qalan Genuya konfransının Bakı nefti ilə əlaqədar yekunları isə, əsasən, aşağıdakılarla səciyyələndirilə bilər:

- İngiltərənin («Royal Datç»ın) ABŞ-ı («Standart Oyl»u) Bakı neftinə yaxın buraxmamaq planının gerçəkləşməsi;
- «Standart Oyl»un «Royal Datç» – Rusiya yaxınlaşmasını əngəlləməsi və konfransın uğursuzluğuna müvəffəq olması;
- bu iki neft nəhəngi arasındakı rəqabətin daha da qüvvətlənməsi;
- L.Corcun siyasi (xidməti) karyerasında «qara səhifə»nin açılması;
- Fransa-Belçika neft sindikatının ilk addımlardaca uğursuzluqla üzləşməsi;
- Qərb dövlətlərinin, əsasən də, Fransa və Belçikanın «mülkiyyət prinsipi»nin Sovet hökumətinin milliləşdirmə siyasətinə uduzması. Antantaçıların – Azərbaycandakı neft sahələrinin (mədənlərinin) ya keçmiş sahibkarlarının sərəncamına buraxılması, ya da geri qaytarılaraq konsessiyaya verilməsi tələblərinin – «qırmızı diplomatlar»ın layihə və təklifləri qarşısında gücsüzlüyü. Bununla da «konsessiyalar məsələsi»nin həllini tapmaması və açıq saxlanılması;
- «Müttəfiqlər»in, əslində bu konfransla de-fakto tanıdıqları, Rusiyanın Bakı neftini tam nəzarətə götürməsiylə

beynəlxalq səviyyədə razılaşmaq məcburiyyətində qalmaları;
- Rusiyanın, Azərbaycan neftilə bağlı, üstün mövqelərinin daha da möhkəmlənməsi və bu sahədəki əlahiddə hüquqlarının (statusunun) saxlanması.

Konfransın nəticələri ilə əlaqədar məsələlər ÜRMİK-in üçüncü sessiyasında (V.1992) müzakirə edildi. Sessiyada hesabatla çıxış edənlər arasında N.Nərimanov da vardı. O, Bakı Sovetinin yığıncağında da (1.VI.1922) hesabat verdi və sonralar da «Genuya xatirələri»ni yazdı.

Haaqa konfransında Bakı neftinə dair müzakirələr

Genuyasonrası – Haaqaərəfəsi çağda da beynəlxalq neft siyasətində bir sıra ciddi proseslər getdi. Əvvəlki konfransda həllini tapmayan məsələlərin müzakirəsinin Haaqa toplantısında davam etdirilməsi qərarı siyasi-maliyyə dairələrindəki gərginliyin səngiməsinə imkan vermədi. Böyük dövlətlər və nəhəng şirkətlər Bakı neftinə sahib durmaq düşüncəsindən əsla vaz keçməmişdilər. Bu mücadilədə iştirak edən tərəflər də dəyişməmişdi. Əsas maraqlı tərəflərsə yenə də İngiltərə ilə ABŞ – «Royal Datç»la «Standart Oyl» idilər. Fransa ilə Böyük Britaniya arasındakı «Genuya sədaqətsizliyi» də öz işini görməkdə davam edirdi.

Fransanın ABŞ-ı («Standart Oyl»u) müdafiə edərək İngiltərəni («Royal Datç»ı) uduzdurmasının L.Corc tərəfindən Rapallo sazişi ilə cavablandırılması konfranslararası proseslərə də təsirsiz ötüşmürdü. Bunu həmin vaxtlar onlar arasında baş verən «notalar savaşı» da təsdiqləyir. Fransanın Azərbaycan neftiylə bağlı İngiltərəyə verdiyi notada (1.VI.1922) və ona cavabda (10.VI.1922) tərəflərin Genuyadakı mövqeləri təkrarlanırdı: fransızlar – xarici sahibkarla-

rın (maliklərin) mülklərinin qaytarılmasında, ingilislərsə onların uzun müddətə icarəyə verilməsində israrlı görünürdülər.

Genuya və Haaqa konfransları öncəsi durumlar da fərqli siyasi-diplomatik mühitə malik idilər. Belə ki, əgər Genuya ərəfəsində Avropada bir nikbinlik – L.Corcun nüfuz və şöhrətinə dayanan diplomatik qələbə ovqatı var idisə, Haaqaöncəsi müəyyən maraqlı siyasi-maliyyə dairələrində bədbin əhval-ruhiyyə özünü açıqcasına göstərirdi. Görünür həm də bunun təsirindən idi ki, Haaqa konfransına ikinci dərəcəli diplomatlar (İngiltərədən F.Qrim, Rusiyadan M.Litvinov və s.) təşrif buyurmuşdular.

Neft firmalarının nümayəndələri çoxluq təşkil etdiklərindən Haaqa konfransı, siyasi-diplomatik ədəbiyyatda bəzən, «şirkətlərin müşavirəsi» kimi də dəyərləndirilir. Burada məşhur H.Diterdinq, Fransa-Belçika sindikatının vitse-prezidentiylə katibi, «Standart Oyl»un nümayəndələri və digərləri təmsil olunmuşdular.

Zəmanənin siyasi-diplomatiya nəhənglərinin (L.Corc, G.Çiçerin və b.) qatılmadıqları Haaqa konfransında (15.VI-20.VII. 1922) Bakı nefti məsələsinin müzakirə ediləcəyi, Genuya gizlinlərindən fərqli olaraq, əvvəlcədən bəlli idi. Başlanğıcı Genuyadakı kimi sakit şəraitdə keçən Haaqa toplantısında da tezliklə diplomatik qalmaqal baş verdi.

Rusiyanın konfransdakı baş təmsilçisi M.Litvinovun onun işinə qatılması (26.VI.1922) və Sovet hökumətinin mövqeyini açıqlayan ilk bəyanatı toplantını həm canlandırdı, həm də qarışdırdı. Konfransdakı «diplomatik savaşı» qələmə alan M.Mehdizadənin də qeyd etdiyi kimi həmin bəyanatda:

- Rusiyanın irimiqyaslı dağıntı, böyük aclıq və s. görə maliyyə vəsaitinə (pula) kəskin ehtiyac duyduğu açıqlanırdı;

- buna görə də Qərbin (şirkətlərin) ona müəyyən məbləğdə kredit vermələri tələbi «əsaslandırılırdı»;
- kredit ayrılmayacağı təqdirdə nəinki kapitalistlərə heç bir imtiyazın verilməyəcəyi, hətta keçmiş sahibkarlara hər hansı təminatın ödənilməsindən və ya əmlakın geri qaytarılmasından belə bəhs olunmayacağı bildirilirdi.

Sovet diplomatiyasının belə bir «hökmlü-amiranə» davranışı konfransın ciddi təpkisi ilə üzləşdi. Bu vacib məqam və, ələlxüsus da, ölkənin ağır iqtisadi-maliyyə durumu Rusiya tərəfini «geriləməyə», mövqeyini «bir qədər yumşaltmağa» vadar etdi. Bunları da nəzərə alan və Qərbin kreditlərinə ümidli olan, bu fürsəti qaçırmaq istəməyən M.Litvinov növbəti bəyanatını (7.VII.1922) verdi.

Bəyanatla yanaşı müzakirəyə həm də «Ərazi cədvəli» deyilən bir sənəd təklif olundu. Yenə də M.Mehdizadənin «Beynəlmiləl siyasətdə petrol» əsərində Londonda çıxan «Petroleum Times»in materiallarına əsasən, həmin bəyanat və cədvəllə əlaqədar vurğuladığı bəzi məqamlar üzərində dayanmağa ehtiyac vardır. **1-cisi,** cədvələ Azərbaycanda, Şimali Qafqazda, Türkmənistanda işlənməkdə və işlənməməkdə olan ərazilər daxil edilmişdi. **2-cisi,** bəyanatda xüsusi kapitala verilə biləcək imtiyazların qarşılığında istənilənlər açıqlanırdı. Bunun detallarına vardıqda isə aşağıdakılar aydın olur:

a) Sovet hökuməti, keçmiş sahibkarlara imtiyaz verilib-verilməməsində, özünü sərbəst saydığından bəyanatda bu barədə heç bir söz deyilmirdi; **b)** hətta Şimali Qafqazda və xüsusilə Azərbaycanda heç bir zaman neft işləriylə bağlı olmayan şəxslərin belə imtiyazlar ala biləcəkləri açıq şəkildə bildirilirdi; **c)** Sovet hökumətindən imtiyaz tələbində bulunan hər hansı bir xarici ilə müzakirə aparılaraq cədvəldə göstərilən ərazidən ona bir parça verilməsi nəzərdə tutulurdu; **ç)**

eyni zamanda və eyni şərtlərlə iki imtiyaz tələbinin olacağı təqdirdə (şəraitdə), şübhəsiz ki, təcrübə və xüsusi haqqın nəzərə alınacağı vurğulanırdı. Bu zaman habelə imtiyaz tələbində bulunan tərəflərlə Moskvada (Azərbaycan neftinin taleyi görün harada həll olunurdu? – İ.M.) müstəqil şəkildə və ayrı-ayrılıqda müzakirələr aparılması və onun verilməsinin faydalı olub-olmamasının aydınlaşdırılması da vacib sayılırdı.

M.Litvinovun sənədləri («təklifləri») konfransda, təbii olaraq, heç bir tərəfi qane etmədi. Fransızlar və belçikalılar öz yerində, heç Rusiya ilə yaxınlaşmaqda həvəsli olan ingilislər də bundan əsla məmnun qalmadılar. «Yeni sovet təklifləri paketi» heç bir pozitiv cəhətə malik deyildi və əslində beynəlxalq neft siyasətində ciddi qarışıqlıq törədirdi.

Bu «təkliflər paketi», digər tərəfdən də, Qərb kreditlərində maraqlı olan Rusiyanın diplomatik gedişi kimi də dəyərləndirilə bilər. Bu işdə güdülən niyyətlərdən biri də «müttəfiqləri» (ingilislərlə amerikanları) bir daha toqquşdurmaqdan ibarət idi.

Rus diplomatiyasının bu oyununa reakisya özünü çox da gözlətmədi. Konfransdakı ingilis baş təmsilçisi F.Qrim, başçısı olduğu xüsusi mülkiyyət komissiyasında, əsla gözlənilməyən bir bəyanatla (12.VII.1922) çıxış etdi. Bu bəyanat imtiyazlar məsələsinə dair ingilis mövqeyində əsaslı keyfiyyət dəyişikliyi demək idi.

Belə ki, əvvəllərdə yalnız uzunmüddətli icarə prinsipinin gerçəkləşdirilməsində israrlı görünən və keçmiş əmlakın geri qaytarılmasından əsla bəhs etməyən ingilislər indi isə qəfildən tamamilə fərqli mövqe tutdular. Yəni əslində fransızların və belçikalıların məlum mövqelərinə keçməyə hazır kimi göründülər. Bəyanatda yazılırdı ki, konfransa gəlməkdə məqsədimiz qaytarılacaq şeylərin nədən ibarət olduğunu

anlamaqdır.

İngiltərənin mövqeyindəki bu dəyişiklik müxtəlif amillərlə şərtlənirdi. M.Mehdizadə özünün müşahidə və təhlillərini, habelə Kok soyadlı birisinin «Petrol trestləri və ingilis-amerika münasibətləri» əsərindəki bəzi mülahizələri əsas tutaraq bir sıra məqamları önə çəkir. Onlardan da iqtisadi mənafelərlə və siyasi maraqlarla bağlı aşağıdakı məsələlər diqqəti daha çox cəlb edir:

1. M.Litvinovun təklifləri İngiltərəni çətin vəziyyətə salmışdı. Onların gerçəkləşməsi isə Böyük Britaniya və, xüsusilə də, ingilis-holland şirkəti üçün müdhiş təhlükə ola bilərdi. Həmin təkliflər paketinin Bakı nefti üçün, bir növ, «açıq qapı» rolunu oynaması «Royal Datç»ın rəqiblərinin sıralarının genişlənməsinə əlverişli şərait yaradardı. Ən başlıcası isə o, əzəli və əsas rəqibinə («Standart Oyl»a) uduza bilərdi.

2. Tarixi-həyati maraqlarının birbaşa hədəfə alındığını və ağır zərbə ilə üzləşəcəyini açıqcasına duyan ingilis diplomatiyası çarə (yollar) axtarışı məqsədilə hərəkətə keçdi. Bu zaman bir neçə prinsipial müddəa rəhbər tutuldu:

- «Standart Oyl»la hər hansı bir yaxınlaşma və ya ittifaq birmənalı istisna edildi;
- Qafqaz (Azərbaycan) neftinə yiyələnmək gücünə malik ola biləcək müttəfiqlik (ingilislər+belçikalılar) xəttinə üstünlük verildi. Bu niyyətlə də Fransa-Belçika şirkəti ilə münasibətlər yaradılmasına cəhdlər göstərildi.

3. İngiltərənin («Royal Datç»ın) Fransa və Belçika ilə (onların birgə şirkətiylə) dil tapmağa və anlaşmağa yönəlməsi də bəzi mətləb və hədəflərin saf-çürük edilməsinə əsaslanırdı: **a)** qüvvətli «Standart Oyl»dansa zəif fransızlarla ittifaqda olmaq daha əlverişli sayılırdı; **b)** Azərbaycan neftinin istehsalında fransız və belçikalılarla birlikdə iştirakla «Standart Oyl»u tamamilə təcrid etmək və tərəfdaşsız qoymaq

xətti əsas tutulurdu; **c)** Fransa-Belçika sindikatının yola gələcəyinə ümid verən (sərbəst kapitala malik olmaması, neft istehsalına aid materialların İngiltərədə istehsalı) və onu əngəlləyə bilən (Amerikanın – «Standart Oyl»un təzyiqi) amillər öyrənilirdi.

4. İngiltərə diplomatiyasının bu bəyanatı və orada ifadə olunan yeni yanaşma həmçinin sırf siyasi planlarla sıx bağlı olan gediş kimi də qiymətləndirilir. Bununla əlaqədar da bir sıra vacib məqamlar nəzərə alınmışdı:

- İngiltərənin Türkiyədə, Misirdə və s. üzləşdiyi çətinliklər;
- müttəfiqlər cəbhəsinin L.Corcun «Genuyadakı qorxulu zərbəsi» ilə dağılmaq ərəfəsində olması;
- amerikalıların Avropa problemlərinin həllinə təsirinin artması;
- Fransanın ingilis siyasətinin arxasınca getməsinin davam etdirilməsi və onun da «rus məsələsi»nin çözülməsinə cəlb edilməsi zərurəti və s.

Bütün bu amillərin diqtəsi ingilislərin fransızlara və belçikalılara güzəştə meyllənməsini şərtləndirirdi. Buna görə də hətta Fransa-Belçika sindikatı «Royal Datç» konsorsiumunun fəaliyyətində iştiraka dəvət olundu. Bir neçə günlük qərarsızlıq və tərəddüdlü mövqe, bir tərəfdən, müsbət cavabdan xəbər verirdisə, digər yandan da, maliyyə himayəsinə sığınılan ABŞ-dan («Standart Oyl»dan) qorxunu təsdiqləyirdi. Amerika Haaqa konfransına rəsmən qatılmasa da oradakı müzakirələrə geniş təsir imkanlarına malik idi (Bu barədə az sonra bəhs olunacaqdır).

Haaqa konfransında Azərbaycan neftinə dair aparılan müzakirələrlə bağlı bir vacib məsələyə də mütləq toxunmaq lazım gəlir. Belə ki, Genuyadakından fərqli olaraq, Haaqa konfransında iştirak edən Rusiya (Sovet) nümayəndə heyətinə Azərbaycan SSR-dən heç kim daxil edilməmişdi. Digər

tərəfə, yəni keçmiş AXC nümayəndəliyinə gəldikdə isə, M.Mehdizadəyə görə, azərbaycanlılar orada yüngülcə təmsil olunmuşdular. Ancaq Azərbaycanın o dövrdə artıq mühacir həyatını yaşayan siyasətçiləri bu konfrans ərəfəsində də müəyyən işlər görməyə çalışırdılar.

Onların əsas qayəsi Bakı neftinin beynəlxalq hərraca çıxarılaraq paylaşdırılmasını əngəlləməkdən ibarət idi. Bunu Londondakı azərbaycanlı siyasi mühacirlərdən (AXC hökumətinin təmsilçilərindən) birinin «Röyter» agentliyinə verdiyi müsahibədə səsləndirilən fikir(mövqe)dən də görmək mümkündür.

Agentliyin müdirlərindən birinin (Ametin) Haaqa konfransının öz işinə başladığı günlərdə götürdüyü müsahibədə deyilirdi ki, Azərbaycanın gələcək milli hökuməti onun sərvətinin bu surətlə qarət edilməsinə heç bir zaman razı olmayacaqdır. Sözgəlişi, bu mövqe adıçəkilən agentlik vasitəsilə bütün hökumətlərə də bəyan edilmişdi. Həmçinin AXC-nin Paris Sülh konfransındakı nümayəndə heyəti də eyni günlərdə və eyni məzmunda bir memorandumu Haaqa konfransına təqdim etmişdi.

Rusiya ilə İngiltərə arasında məlum bəyanatlarla gedən diplomatik mübahisə və ikincinin qəfil, köklü mövqe dəyişikliyiylə, əslində, konfransda bir mərhələ başa çatmış oldu. İkinci mərhələ İngiltərənin tədbirlərindən ciddi rahatsızlıq keçirən (qorxuya düşən) Rusiya diplomatiyasının gedişləri və ABŞ-ın fəallaşması ilə səciyyələnir. Rusiyanın qismən yeni məzmunlu görünən hərəkətlərini nəzərdən keçirdikdə onun da bu kimi halları diqqətdən yayındırmadığı aşkar olur:

1-cisi, bolşeviklər ingilislər üçün həyatı sayılan məsələlərlə (Bakı nefti imtiyazı və s.) oynamağın nə qədər təhlükəli olduğunu və ciddi xətaya yol verdiklərini dərhal anladılar.

2-cisi, Rusiya Qərbdən kredit almaq ümidini üzsə də bu barədə müzakirələri davam etdirməkdə maraqlı idi. Sovet diplomatiyası bu məqsədlə hətta müəyyən güzəştlərə belə hazır olduğunu gizlətmirdi.

Bu həm də M.Litvinovun ölkəyə əliboş deyil – Qərb dövlətləri ilə bağlanan bir müqaviləylə dönmək planından irəli gəlirdi. Rus diplomatına görə, belə bir müqavilə – **a)** Sovet dövlətinin möhkəmlənməsi və onun beynəlxalq nüfuzunun artması; **b)** gələcəkdə bəlkə də Avropa və Amerikada kredit alınması imkanlarını qazanmaq üçün lazım idi.

Rusiyanın mövqeyində gözlənilən dəyişiklik, yəni M.Litvinovun «7 iyul təklifləri»ndən geri çəkilərək güzəştlərə meyllənməsi, rəsmən açıqlanmazdan az öncə, bəzi siyasət-media dairələri tərəfindən aşkarlandı. «Deyli teleqraf»ın Haaqadakı müxbiri öz qəzetinə yolladığı teleqramda (18.VIII.1922) M.Litvinovun yanaşmasındakı yeniliklə bağlı yazırdı ki, Sovet hökumətinin – müxtəlif neft ərazisini keçmiş sahiblərinə qaytarmağın yerinə, hər cür işləri icra etməyə qadir – bir ümumi şirkət təşkil etmək niyyətində olduğu söylənməkdədir; bütün neft ərazisində istehsala nəzarət edəcək bu şirkət həmin əraziyə qanuni haqqı olan digərlərinin də məmnun edilməsi öhdəliyini götürəcəkdir.

Bu teleqramın sabahısı günü M.Litvinov hər cür güzəştlərə getməyə hazır olduğunu və bununla bağlı öz hökumətini məlumatlandırdığını bəyan edərək üç günlük möhlət istədi. Konfransı təşkil edən dövlətlərin nümayəndələri buna qarşı heç bir etiraz etməyərək razılıqlarını bildirdilər.

Ancaq elə bundan bir gün sonra da (20.VII.1922) ikinci yarımkomissiya tərəfindən – Rusiyanın cavabını gözləmədən və onun təmsilçilərinin iştirakı olmadan – konfransın sona yetdiyi bildirildi. Həmin (son) gün habelə, müəllifi Belçika nümayəndəsi Kattye olan, bir qətnamə də elan edildi (Ona az

sonra toxunulacaqdır).

Haaqa konfransının təəccüb-təəssüf və sevinc-razılıqla qarşılanan qəfil və qəribə tərzdə bağlanması, cavabı əslində aydın olan suallar doğursa da, izahına (şərhinə) müəyyən ehtiyac duyulan məsələlərdən sayılır. Və burada əsas diqqət Rusiyanın konfransdakı «kredit oyunu» ilə əlaqədar ortaya çıxan mövqe dəyişikliklərinin – M.Litvinovun getməyə hazır olduğu güzəştlərin «Royal Datç» və «Standart Oyl» üçün verə biləcəyi nəticələrin təhlilinə yönəldilməlidir.

Məsələ burasındadır ki, Rusiya diplomatiyasının konfransdakı ən son gedişi, yəni neft imtiyazı qaydasının «Deyli teleqraf» müxbirinin teleqramındakı kimi müəyyənləşdirilməsi «Royal Datç»la «Standart Oyl»a tamamilə fərqli perspektivlər açırdı (vəd edirdi).

Sovetlərin Haaqadakı ən son təklifinin təfərrüatına vardıqda bu da aydınlaşır ki, Rusiya neft imtiyazı məsələsində onunla tərəfdaşlıqda maraqlı olan çoxlu sayda şirkətlərin (kapital sahiblərinin) heç də hamısıyla sövdələşməyə ehtiyac duymurdu. Qərb dövlətləri və şirkətlərinin kollektiv müqavilə bağlamaq təklifinin reallaşdırılmasından daima yayınan Rusiya yalnız bir xarici şirkətə (kapitalistə) imtiyaz verməyi məqbul sayırdı. Sovet hökuməti bununla yenə də böyük dövlətlər tərəfindən rəsmən tanınmağa və şirkətlərarası ixtilafları dərinləşdirməyə çalışırdı. İki mühüm amil isə buna yetərincə imkan verir və şərait yaradırdı: **1)** «Royal Datç»ın Azərbaycan neftinin inhisarçısına çevrilmək məqsədi. **2)** «Standart Oyl»un Rusiyanın «Royal Datç»la yaxınlaşmasını əngəlləmək planı.

Burası da çox maraqlı və önəmlidir ki, Rusiyanın lap sonuncu layihəsinin (variantının) qəbul ediləcəyi təqdirdə onun imtiyaz verəcəyi yalnız «Royal Datç» ola bilərdi. Bu zaman Diterdinqin alacağı imtiyaz (konsessiya) onun özü-

nün inqilaba qədərki ərazisi ilə yanaşı, habelə digər sahibkarlara aid əraziləri də uzunmüddətli icarə yoluyla əhatə edəcəkdi. Bunun qarşılığında «Royal Datç» ya keçmiş sahibkarlara mallarının dəyərini ödəməklə güzəştə (barışığa) gedəcəkdi, ya da onlar yeni işlərdə (konsessiyada) bir hissə yiyəsi olacaqdılar.

Bütün bunlarsa hələlik bolşeviklərin təklifinin gerçəkləşdirilməsindən gözlənilənlər olsa da belə Rusiyaya «Royal Datç»ın rəqabətini və himayəsini qazandırdı. Belə bir perspektiv, digər tərəfdən də, «Standart Oyl»u daha da həyəcanlandırır, onu təcili və qəti hərəkətlərə sövq etdirirdi. Bu cür mürəkkəb şəraitdə Haaqa konfransında elan edilən qərar – «Kattye qətnaməsi» də məhz Amerika hökumətinin, «Standart Oyl»un işi hesab olunurdu.

Hətta müəyyən maraqlı dairələrdə və mətbuatda dolaşan xəbərlərə (şayiələrə) görə, qətnamənin Vaşinqtonda hazırlandığı, teleqrafla ABŞ-ın Hollandiyadakı səfirinə çatdırıldığı və, nəhayət, belçikalı təmsilçi Kattye vasitəsilə konfransın diqqətinə yetirildiyi iddia edilirdi.

Konfransda rəsmən təmsil olunmasa da, orada və kənarda gərgin iş aparan ABŞ-ın, toplantının artıq bağlandığı bir vaxtda, Belçika nümayəndə heyəti vasitəsilə neft imtiyazı məsələlərinə ciddi müdaxilə etməsi heç də təsadüfi deyildi. Belə ki, bu qətnamədə güdülən əsas məqsəd «Royal Datç»ın Qafqaz və, xüsusilə də, Azərbaycan neftini inhisara almaq planına möhkəm zərbə vurmaqdan ibarət idi.

Qətnamədə ifadə olunan tövsiyənin (şərtin) gerçəkləşdirilməsi «Royal Datç»ın mövqelərini əsaslı şəkildə sarsıda bilərdi. Orada deyilirdi ki, konfransda təmsil olunan bütün hökumətlər – Rusiyada xarici təbəələrə aid olub sahiblərinin, yaxud da imtiyazçıların razılığı olmadan – 1917-ci il noyabrın 1-dən etibarən müsadirə edilən mal və mülklərin öz

vətəndaşları tərəfindən satın alınmasına heç bir növlə yardım göstərməsinlər; həmin hökumətlər bu barədə çıxarılacaq müvafiq qərarları birlikdə qəbul etsinlər.

Maraqlı tərəflərin London-Genuya-Haaqa konfranslarının Bakı neft imtiyazı ilə bağlı ən ümumi nəticələrinə əsasən gəldikləri qənaətlər isə bunlar idi:

Birincisi, Rusiya «konfranslar təcrübəsi»ndən və zəmanənin gedişatından çıxış edərək sovet «respublikaları»nın vahid dövlətdə birləşdirilməsi prosesinin daha da sürətləndirilməsinə üstünlük verdi.

İkincisi, «Royal Datç» başlıca rəqibi «Standart Oyl»la tarixi mübarizənin konfranslar mərhələsini də uduzdu. Ancaq Azərbaycan neftini inhisara almaqda israrlı olan şirkət Sovetlərlə ittifaq qurmaq yolundan da geri çəkilmədi. «Standart Oyl»un sıxışdırılması üçün yeni planlar cızmağa başladı.

Üçüncüsü, «Standart Oyl» potensial əleyhdarı «Royal Datç»la mücadiləni hələlik diplomatiya müstəvisində uddu. O həm perspektivə hesablanan, həm də təhlükəli olan bir taktika seçmişdi. Rusiya ilə tərəfdaşlığı hələlik vaxtsız sayan şirkət onun son dərəcə ağır durumunun yetişəcəyi zamanı gözləyirdi. Şirkətin planına görə, bu zaman firma Sovetləri, Rusiyada inqilabdan sonra, aldığı ərazinin qaytarılmasına məcbur edəcək və Bakı neftinin sahibi olacaqdı.

Seçilən xəttin təhlükəli cəhəti isə bundan ibarət idi: həmin çağda çox qüvvətli olan «Royal Datç» qəfildən Rusiya ilə ittifaq yarada bilərdi; bu da «Standart Oyl»a böyük zərər vurmaqla yanaşı, hətta Sovetlərin ona müqavimət göstərməsinə belə imkan verərdi. Bu məqamların dövrün reallıqları kontekstində nəzərdən keçirilməsindən sonra «Standart Oyl»un gəldiyi qənaət belə idi: Rusiya ilə tərəfdaş olmaq və onun «Royal Datç»la müttəfiqliyinə əsla imkan verməmək.

Bütün bu kimi nəticə və qənaətlər isə açıqcasına göstərirdi ki, Bakı neft imtiyazı uğrunda diplomatik (konfranslarla) savaş məsələnin tam həlli ilə yekunlaşmadı. Qarşıda mübarizənin yeni dönəmi gəlirdi. Başlıca tərəflər - İngiltərə və ABŞ şirkətləri – Azərbaycan neft imtiyazına yiyələnməkdə israrlı idilər.

Haaqasonrası neft konsessiyası mübarizəsi və onun nəticələri

Haaqa konfransından əslində Rusiyaya qarşı «bir blok yaratmaq və təklikdə heç bir təklifi qəbul etməmək» prinsipi ilə ayrılan neft şirkətləri (maqnatları) bir sıra tədbirlərə əl atdılar. Dövrün Qərb mətbuatında gedən yazılardan da göründüyü kimi, Qafqaz (Azərbaycan) neftinin müxtəlif millətlərdən olan keçmiş sahibkarları 1922-ci il iyulun sonlarında Parisdə toplaşıb müəyyən müzakirələr aparmışdılar. Toplantının ərsəyə gəlməsi, bu dövrdə hələ ki Sovetləri iqtisadi təcridolunma durumuna salmaq fikrini əsla gizlətməyən, «Standart Oyl»un xidməti sayılırdı.

M.Mehdizadənin yazdığına görə, «Royal Datç» və digərlərinin də təmsil olunduqları bu toplantıda Azərbaycanın keçmiş neft sahibkarlarından - AXC hökumətində Ticarət və Sənaye naziri vəzifəsində çalışan – Ağamirzə Əsədullayev də iştirak edirdi.

Paris müzakirələrilə bağlı diqqətçəkən ən başlıca məqamlardan biri də «Royal Datç»ın burada təmsil olunması və hətta Diterdinqin toplantıya sədrlik etməsi idi. Proseslərdən kənarda qalmayan və öz rəqiblərini daima təcrid etməyə çalışan ingilislərin toplantıya istəməsələr də qatılmalarında müəyyən məqsədlər güdülürdü: **1-cisi,** toplantıda baş verənlər barədə məlumatlı olmaq, **2-cisi,** orada təmsil olunanları

özünə tabe bir duruma salmaq.

Paris müzakirələrinin nəticəsi olaraq bir cəmiyyət yaradıldı. Onun bütün üzvləri Sovet Rusiyasına qarşı daima birlikdə olmağı və heç bir surətdə təkbaşına hərəkət etməməyi öhdələrinə götürdülər. «Vahid cəbhə» adlandırılan «birliyin» sənədlərində yazılanlar da onun niyyətlərini yetərincə açıqlayırdı: Bolşeviklərlə mübarizə apararaq onların təslim olmalarını təmin etmək və bunun nəticəsində də xüsusi mülkiyyətin geri qaytarılmasına nail olmaq.

Bu məqsədə yetişmək üçün nəzərdə tutulanlara da diqqət yetirmək lazım gəlir: **a)** konfransda birbaşa və ya dolayısı yolla təmsil olunanlardan heç birisi, malları Sovetlər tərəfindən müsadirə edilən digər sahibkarların əvvəlcədən malik olduqları və habelə sonradan kəsb etdikləri hüquqlara müxalif hərəkətə yol verə bilməzdilər; **b)** neft ərazisinin işlənməsindən mənfəətli olanlar buna ancaq öz hüquq və mülklərinin geri qaytarılması şərtilə qabil ola bilərlər; **c)** dövlətə məxsus neft ərazisi müvafiq sənaye sahəsinin tam inkişafı üçün lazım gələn bir fond təşkil edə bilər. Bu cür şərait qaldıqca əlaqədar tərəflərdən heç birisi digərlərinin razılığı olmadan həmin əraziyə dair şəxsi imtiyaz ala bilməz.

Bu kimi prinsip və şərtlər Parisə yığışaraq cəmiyyət quranların Rusiyaya qarşı müttəfiq mövqe tutmaları görüntüsünü yaradırdı. Buna əsasən də heç bir xarici, hətta özünə aid əmlakla bağlı belə, digər üzvün eyni şəraitdə bolşeviklərlə ittifaq yaratmadığı müddətdə onlarla tərəfdaşlıq qura bilməzdi. Və əslində «Hər kəs ümuminin və ümumi də xüsusinin mənafeyini müdafiə etməlidir» tələbi Rusiyaya qarşı bir təcridolunma və ya boykot elan edilməsi sayıla bilərdi. Burada da əsas məqsəd Sovetləri təslim etmək, yəni güzəştlərə razı salmaqdan ibarət idi.

Amerikan və fransızların Sovetlər əleyhinə kəskin

mövqe-fəaliyyəti əsasında yaradılan bu cəmiyyət və onun rəhbər tutduğu prinsiplər «Standart Oyl» üçün çox əlverişliydi. «Royal Datç»ın belə fərqli perspektivlər vəd edən bir qurumda üzvlüyünə gəldikdə isə bu ingilislərin digərlərindən geri qalmamaq istəyindən irəli gəlirdi. Onlar, habelə «vahid cəbhə»nin proqramı-planlarının gerçəkləşəcəyi təqdirdə, böyük bir hissəyə iddialı idilər.

İngiltərənin amerikanlar və fransızlarla («Royal Datç»ın «Standart Oyl»la) «ittifaqa girmələri» Rusiyanın diz üstə çökərək aman diləməkdən savayı çarəsinin qalmayacağı təəssüratını (görüntüsünü) yaratmışdı. Bu səbəbdən də «üçlərin ittifaqı»ndan böyük gözləntiləri olanlar – varlanmaq həvəsinə düşənlər çoxalmışdı (Yeri gəlmişkən, Rusiya bu mərhələdə «təslim olmaqdan» – aman diləməkdən uzaq idi. Əksinə, çox kəskin mövqe tutmaqda davam edirdi. Hətta ingilis sahibkarı L.Urkartın olduqca əlverişli konsessiyası PK (b) P MK Siyasi Bürosu tərəfindən 1922-ci ilin sonunda V.Leninin təşəbbüsü ilə rədd edildi).

Ancaq proseslərin sonrakı axarı bir məqamı kəskin müzakirə və mübahisələr obyektinə çevirdi. Belə ki, öncə «Royal Datç»ın separat qaydada Rusiya ilə neft imtiyazı müqaviləsi bağlamasına dair xəbərlər mətbuatı bürüdü. Rusiya ilə ticarətin zəruriliyini həmişə müdafiə edən «Royal Datç»la Sovetlərin «qara qızıl»ına («qanlı» neftinə) yaxınlaşmanı hələlik qeyri-mümkün sayan və bunun təbliğatını aparan «Standart Oyl»un gizli işləri barədə məlumatlar yayılması genişləndi.

«Royal Datç»ın Londondakı sovet-ingilis ticarət firmasıyla («ARKOS»la) müzakirələrinə dair çoxlarına artıq məlum olanlar daha da açıqlandı. Rusiyadakı ingilis müvəkilləri isə – «Standart Oyl»un təmsilçilərinin Moskvaya təşrif buyuraraq Azərbaycan neftiylə bağlı Sovetlərlə apardığı

danışıqlar barədə – öz hökumətlərinə gizli şəkildə məlumatlar çatdırdılar.

«Royal Datç»ın Rusiya ilə əlaqələri və yaxınlaşmasına dair məxfi cəhdlərilə bağlı xəbərlər tezliklə – aparılan araşdırmalardan sonra düz çıxdı (Bu da vəziyyəti xeyli gərginləşdirdi). Neft məsələlərilə bağlı çox məlumatlı hesab olunan «Petrolum Times»in – «Royal Datç»ın Rusiyadan yüz min ton neft almasına dair – yazısı (26.V.1923) «vahid cəbhə»də ciddi rahatsızlıq yaratdı.

Şirkətin bu hərəkətini H.Diterdinq: **a)** bazarı xarab etməmək istəyi; **b)** bunun cəmiyyətin qərarına zidd olmaması; **c)** onun torpaq deyil, neft alması; **ç)** qərarda neftdən yox, ərazidən danışıldığı və s. ilə əsaslandırmağa çalışmışdı. Ancaq bu «izahat» cəmiyyətin digər üzvlərini əsla qane etmədi.

«Royal Datç» sədaqətsiz dost sayıldı və onun Rusiyadan neft alması isə «vahid cəbhə»yə təhlükəli zərbə kimi qiymətləndirildi. Hətta şirkətə bu sövdələşmədən imtina edilməsi də təklif olundu. Bunu qəbahət saymayan H.Diterdinq aldığı neftin yarısını cəmiyyətə verməyə hazır olduğunu da bildirdi. Lakin cəmiyyətin üzvləri və, ümumiyyətlə, bütün keçmiş sahibkarlar «oğurlanmış bir neftin bir xeyirsiz sürüsündən alınması» ilə qətiyyən razılaşmadılar.

«Royal Datç»ın Rusiya ilə neft bazarlığı «müttəfiqlər»i tərəfindən pislənilməsinə baxmayaraq onların da Sovetlərlə sövdələşmələrə meyllənmələri ilə nəticələndi. Tezliklə Fransa və İtaliya da Azərbaycan neftinin başlıca müştərilərinə çevrildilər. Amerikanlar («Standart Oyl») isə mövqe səbatlılığı göstərərək bu mərhələdə (1924-1926-cı illərdə) «Sovet neftinin alıcıları sırasında olmağa cəhd göstərmədilər. Keçmiş sahibkarların Azərbaycanın «oğurlanmış» neftinin alınmasına qarşı kəskin etirazları – təzminat istəmələri də nəticəsiz qaldı.

1924-1925-ci illərdə Sovet (Bakı) neftinin əsas xarici

alıcısı (müştərisi) «Royal Datç» oldu. 1926-cı ildə isə sonrakı sövdələşmələrə dair danışıqlar aparıldı. Bununla bağlı olaraq iki vacib məqam da diqqəti cəlb edir:

Birincisi, «Royal Datç» Qafqaz (Azərbaycan) neftinin ixracının onun inhisarına verilməsilə əlaqədar Parisdə Sovetlərlə müzakirələrə girişdi. 1927-ci il martın əvvəlinədək davam edən bu danışıqlarda belə bir sövdələşmənin Rusiya üçün əlverişli olacağının isbatlanmasına cəhdlər göstərildi.

İkincisi, danışıqlarla paralel olaraq, «Royal Datç»ın müvəkkilləri tərəfindən Sovetlər əleyhinə şiddətli təbliğat aparılmasına başlanıldı. Amerika və Avropanın – şirkətin təsiri altında olan – bir çox qəzetlərində Sovetlərin «satdıqları neft oğurlanmış maldır» və SSRİ ilə ticarətin əlverişsizliyi mövzularına dair materiallar dərc olundu.

Diterdinq özü isə «Morninq Post»dakı yazısında Sovet hökumətinin 1926-cı ilin sonlarında süqut edəcəyini bəyan etdi. Olduqca maraqlı görünən və danışıqlarla ziddiyyət təşkil edən bu təbliğatda güdülən məqsəd Qərbin iqtisadi-maliyyə dairələrini aldatmaqdan və onların sovetlərlə ticarət əlaqələrini əngəlləməkdən ibarət idi.

Lakin «Royal Datç»ın bu planı özünü doğrultmadı. Və, əksinə, onun neçə illərdən bəri ehtiyat etdiyi (qorxduğu) hadisə, nəhayət ki, baş verdi. Belə ki, 1927-ci il iyunun 22-də «Standart Oyl» ilə Sovetlər arasında beşillik müqavilə bağlandı. Müqavilənin şərtləri və nəticələrinə gəldikdə bu anlaşma:

- Sovetlərin hər il İstanbul, Port-Səid və Kolumbiya limanlarında «Standart Oyl»a yüz min ton neft verməsi (satması) öhdəliyini əsas tuturdu;
- Şərq və Qərbdəki ingilis mənafelərinə böyük zərbə endirirdi;
- ABŞ-ı («Standart Oyl»u), öz neftini Şərqdə satmaq kimi

bahalı ticarətdən qurtararaq, aldığı sovet (Bakı) nefti ilə Mosul, İran və s. petroluna qarşı müdhiş bir rəqibə çevirirdi;

Şərq-Qərb bazarına böyük önəm verən ingilisləri («Royal Datç»ı) xeyli qorxudur və onları Sovetlərə qarşı mübarizəni – «oğurlanmış», yaxud da «qanlı» neft təbliğatını bütün qüvvələriylə daha da gücləndirməyə sövq etdirirdi (Yeri gəlmişkən, «Royal Datç»a müxalif qəzetlərin H.Diterdinqə ünvanladıqları «Bu oğurlanmış və ya qanlı neftdən 1925-ci ildə niyə alırdınız?» kimi çox maraqlı sualı cavablandırarkən o, «Petroleum Times»ə müsahibəsində (13.VIII.1927) bunu «yalnız hökumətin israrı və bir qrup siyasi səbəblərdən dolayı etdiyini bildirmişdi).

Burada daha bir vacib məqama da toxunmağa ehtiyac vardır. «Standart Oyl» başlıca rəqibinin «oğurlanmış» neft təbliğatına («əxlaqi dəlil»inə) ciddi önəm vermədi. Ancaq «Royal Datç»ın məlum təbliğatı qismən də olsa öz işini gördü.

«Standart Oyl» ümumi şirkətinə daxil olan üç firmadan biri, yəni «Standart Oyl of Nyu-Cersi» Diterdinqin təbliğatına uyaraq «oğurlanmış» nefti almaqdan imtina etdi. Göründüyü kimi, «Standart Oyl»da birləşən firmalar ABŞ daxilində ittifaq yaratmağa müvəffəq olsalar da, sovet (Bakı) neftiylə əlaqədar məsələlərdə anlaşa bilmədilər. Digər iki firmadan fərqli mövqe nümayiş etdirən «Standart Oyl of Nyu-Cersi»nin öz mülahizələri vardı:

1-cisi, bu firmanın hələ 1920-ci ildə Nobel qardaşlarının əmlak-səhmlərini almasına dair məlumatlar dolaşmaqda idi. Buna görə də onun xüsusi mülkiyyətin qaytarılmasına çalışaraq bu yolla da yalnız öz malına sahib olmaq və, beləliklə, Bakı neftinin tam yarısına yiyələnmək istədiyi güman edilirdi.

2-cisi, bu cəhətdən və Şərqdə-Qərbdə satış bazasına malik olmadığından sovet (Bakı) neftini almaq ona bir o qədər də əlverişli deyildi. Yəni təkcə Qərbi Avropada bazara malik olduğundan, məsafə baxımından da ABŞ neftinin gətirilib orada satılması sovetinkinin (Bakınınkının) alqı-saqtısından daha sərfəli idi.

Bu, sonuncu halın tam tərsinə olaraq «Standart Oyl»un digər iki firması («Vavkuem Oyl» və «Standart Oyl of Nyu-York») Şərq-Qərb (Türkiyə, Balkan ölkələri və s.) satış bazarlarını nüfuz dairələrinə daxil etdiklərindən Sovet hökumətilə yuxarıda göstərilən müqaviləni imzaladılar. M.Mehdizadənin kitabında özünə yer alan diqqətçəkici bir məlumata görə, Azərbaycan neftinin Türkiyədəki satışının 55%-i amerikanlar, qalan 45%-i isə sovetlər tərəfindən həyata keçirilirdi.

«Standart Oyl of Nyu-York» firması belə bir üstün (əlverişli) ticarət əlaqələriylə həm də Türkiyənin neft mənbələrinə dair imtiyaz əldə etmək niyyətində idi. Bütün bu deyilənlərdən göründüyü kimi, «Standart Oyl»un iki firması Sovetlərlə ticarət əlaqələrinə girərək ingilis («Royal Datç») neftilə Şərq və Qərb bazarlarında ciddi rəqabət apara bildilər. Həmin firmaları öz bazarlarına buraxmamaqda artıq acizlik çəkən «Royal Datç» isə heç olmasa, «qiymət savaşını» udmağa çalışdı.

* * *

Beləliklə, 1920-ci illərdə Azərbaycan nefti imtiyazı məsələsi beynəlxalq münasibətlərin başlıca mövzularından oldu. Onilliyin lap əvvəllində keçirilən beynəlxalq konfranslarda Bakı neftinin hərraca qoyulmasına səylər göstərildi. Sovet Rusiyasının məqsədlərinə (maraqlarına) xidmət edən «müstəqil» Azərbaycan hökuməti bu işə dəstəkçi rolunda

çıxış etdi. Azərbaycan siyasi mühacirəti neftimizin hərraca çıxarılmasını əngəlləməyə çalışsa da buna nail ola bilmədi.

Yeni Rusiya imperiyası (Sovetlər İttifaqı) Azərbaycan neftinə tək sahib kimi onu dövlətlər (şirkətlər) arası çəkişmələr obyektinə çevirdi. Bu çəkişmələrdən də faydalanaraq Azərbaycan neftini özünə münasib və müvafiq bildiyi dövlətlərə (şirkətlərə) satdı. Lakin Bakı nefti sonrakı onilliklərdə də böyük dövlətlərin və beynəlxalq iqtisadi-maliyyə dairələrinin başlıca maraqları sırasında önəmli yer tutdu.

§3. Azərbaycan SSR-RSFSR münasibətlərinin xarakteri və ilkin nəticələri

Quzey Azərbaycan 1920-ci ilin aprelindən etibarən Rusiya tərəfindən yenidən işğal olunsa da onların qarşılıqlı münasibətləri bir müddət formal «dövlətlərarası əlaqələr» mərhələsini yaşadı. Əsasən Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasının (ZSFSR-10.XII.1922) və SSRİ-nin yaradılmalarına qədər davam edən bu mərhələdə baş verən hadisələr – gedən proseslər heç də əsl dövlətlərarası münasibətlərdən xəbər vermir.

Bu fikrin təsdiqi özünü onların münasibətlərinin xarakterində və ilkin (Azərbaycan üçün: əlverişsiz-faciəvi, Rusiyaya görə isə: sərfəli-tarixi) nəticələrində yetərincə tapır. Buna görə də həmin məsələlərin ayrılıqda təhlilinə ehtiyac vardır.

«Dövlətlərarası münasibətlərin» məzmunu

Şimali Azərbaycanın Rusiya ilə bu dövrdəki münasibətlərinin xarakterini (mahiyyətini), ilk növbədə, ikincinin birincini «beynəlmiləl yardım» adı altında təkrarən işğal et-

məsində axtarmaq (görmək) lazımdır. Rusiya Azərbaycanın quzeyini yenidən tutarkən orada müstəqil dövlətçiliyin saxlanması və inkişaf etdirilməsi məqsədini güdməmişdi. Burada Rusiyanın böyük dövlət-imperiya təfəkküründə dayanan geosiyasi və, əsasən neftlə əlaqədar, iqtisadi maraqları başlıca rol oynamışdı. Həmin faktorlara bu dövrdə biri də əlavə olunmuşdu.

«Bölünməz Rusiya»nın Şərq siyasətindəki yeni vəzifələrin (bütün Asiyanın sovet(kommunist)ləşdirilməsi və s.) həyata keçirilməsində Azərbaycandan bir istehkam (forpost) kimi istifadə olunması nəzərdə tutulmuşdu. Bütün bunlara görə bu dövrki Rusiya-Azərbaycan əlaqələrini də metropoliya-müstəmləkə münasibətlərinə yaxınlaşan bir səviyyədə (müstəvidə) səciyyələndirmək daha düzgün olardı.

Azərbaycan-Rusiya münasibətlərinin öyrənilən mərhələdəki xarakterinin aydınlaşdırılmasına birinci tərəfin baxışlarının açıqlanması da yetərincə yardım edir. Bunun üçün də Azərbaycanın o dövrki «dövlətinə və xarici siyasətinə rəhbərlik edənlər»in Rusiya ilə münasibətlərdə əsas tutduqları təfəkkür tərzi, prinsiplər, niyyətlər və s. nəzərdən keçirilməsi lazım gəlir. Və burada yenə də – söylənilənlərin yetərli təsdiqi üçün – onların müəyyən fikir və mülahizələrinə, Sovet hökumətinin sənədlərinə istinad edilməsinə üstünlük verilməsi düzgün olardı. Burada bir neçə müddəa və tezis üzərində dayanmağa ehtiyac vardır:

Birinci, və ən başlıca, müddəa belə bir ifrata varan mövqedə ifadə olunmuşdu. Həmin mövqeyə görə isə, Azərbaycan müstəqil dövlət kimi əsla mövcud ola bilməzdi (Rəsmi dairələrin və kommunist liderlərin bununla əlaqədar baxışlarına bu bölümün 1-ci paraqrafında toxunulmuşdur).

İkinci, və digər bir əsas, tezis «müstəqil yaşaya bilməyən» Azərbaycan üçün kommunist (sovet) sayağı qılınan yeganə

«çarə»də (göstərilən «yol»da) öz əksini tapmışdı. Bu tək «çarə-yol» isə Sovet Rusiyası ilə birlikdə olmaqdan və hətta onunla birləşməkdən ibarət idi. Bu müddəa partiya-sovet orqanlarının bir sıra mühüm sənədlərində də qeyd olunmuşdu. Məsələn, Azərbaycan Kommunist (bolşeviklər) partiyası (AK (b) P) Mərkəzi Komitəsinin (27.IV.1920) və AİK-in (28.IV.1920) V.Leninə ünvanladıqları teleqramlarda:

- Müsavat hökuməti «cinayətkar, xalqa xəyanət edən və ölkənin müstəqilliyinin düşməni» kimi «dəyərləndirilirdi»;
- Antanta və Sovet Rusiyasının digər düşmənləri ilə hər cür əlaqələrin kəsildiyi bildirilirdi;
- Rusiyanın Sovet hökumətinə, dünya imperalizminə qarşı mübarizə aparmaq üçün, qardaşlıq ittifaqına daxil olmaq təklif edilirdi:

«Müstəqil yaşaya bilməyən» Azərbaycanın gələcəyini (mövcudluğunu) yalnız onun Rusiya ilə bir olmasında görənlərin önündə N.Nərimanov gedirdi. «Azərbaycanın əbədi xoşbəxt olması üçün necə hərəkət etmək» barədə hələ Bakıya dönməzdən bir həftə əvvəl Moskvada V.Leninlə müzakirələr apardığını vurğulayan N.Nərimanov bu, «çarə-yolu» özünün «məşhur kəlamı»nda belə ifadə etmişdi: «Azərbaycan respublikasının əbədi səadəti Rusiya ilə bağlıdır».

Bu fikir-mövqeyini, Azərbaycana qayıtdıqdan dərhal sonra, Bakıda mitinqdəki (17.V.1920) çıxışında açıqlayan beynəlmiləlçi rəhbər orada bunları da demişdi: «Biz, kommunistlər bu iki il ərzində (Bakı kommunasının süqutundan aprel işğalınadək olan dövr nəzərdə tutulur – İ.M.) Rusiyada olarkən həmişə Azərbaycan haqqında fikirləşirdik, hər dəqiqə ona qayğı göstərirdik. Əgər bizim bədənimiz Rusiyada idisə, ürəyimiz Azərbaycanda idi. Biz qəti olaraq bilirdik ki, Azərbaycan Rusiyasız yaşaya bilməz, Azərbaycanın Rusiya ilə əlaqəsi olmalıdır». Bu da qiddətçəkicidir ki, hə-

min mitinqdə o həmçinin «Yaşasın müstəqil Azərbaycan Sovet hökuməti!» şüarını səsləndirmişdi.

N.Nərimanov Azərbaycanın Rusiya ilə yaxınlaşması, ittifaqda olması və onunla birləşməsi məsələlərində ardıcıl (israrlı) mövqe tutmuşdur. Bununla bağlı onun daha bir çıxışında səsləndirilən fikrə nəzər salmağa dəyər. AİK sədrinin Azərbaycan SSR üzrə səfəri haqqındakı hesabatda yazıldığı kimi, o, Qazaxdakı çıxışında (X.1920) belə söyləmişdi:

«Biz tək deyilik. Böyük yoldaş – Böyük Sovet Rusiyası bizimlədir. Biz onunla ittifaq bağladıq, çünki o, ilk zəruri anda bizə yardım göstərdi (?! – İ.M.). Sovet Rusiyası, eyni dərəcədə də Azərbaycan əla bilirlər ki, onlar bir-birilərisiz yaşaya bilməzlər... Bütün burjua dünyası bir ittifaqda birləşdiyi vaxtda həyat özü bizi Sovet Rusiyası ilə ittifaqa sövq edir, yoxsa biz məhv olarıq».

Eyni mülahizə-yanaşma onun I Ümumazərbaycan sovetlər qurultayının açılışındakı giriş sözündə də təkrarlanmışdı: «... Sovet Rusiyasız Sovet Azərbaycanı da yoxdur». Yeri gəlmişkən, milli inkişaf (dövlətçilik) yolunu əsas tutan siyasi qüvvə haqqında – «Müsavat həmişəlik ölmüşdür, tarix onu məhvə məhkum etmişdir» kimi yanlış, dünyanın gedişatını vaxtında düzgün görməkdən uzaq bir düşüncə də onun sinfi-ideoloji (ümumsovet) dövlətçiliyə üstünlük verdiyini təsdiqləyir.

Müsavatçılar hökumətinin xarici siyasi xəttini məlum səbəblərə görə kəskin tənqid edən N.Nərimanovun «onlar hər dəqiqə öz allahlarını, öz vicdanlarını və öz şərəflərini sata bilərlər» cümləsi isə ifrat ideoloji-sinfi qərəzin (münasibətin) ifadəsindən başqa bir şey ola bilməz.

Azərbaycan SSR-in digər «başbilənləri» də bu məsələdə N.Nərimanovdan heç də geri qalmırdılar. Onlardan M.Hüseynovla Ə.Qarayevin Q.Orconikidzenin əvvəldə qeyd edilən

rumu, sənaye və kənd təsərrüfatı, vergilər, ticarət, maliyyə kapitalı, milli problemlər, təhsil, din, hüquq, xaricilərə münasibət, gələcəyə baxış və s. ilə əlaqədar məlumatları əhatə etməli idi.

Qurultaydan sonra Şərqə yönəlik kommunist təbliğatı qüvvətləndirildi (Yeri gəlmişkən, bu işin əsas istiqamətləri və səciyyəvi cəhətləri N.Nərimanovun Azərbaycanın tərəfsiz qadınlarının I qurultayında (II.1921) «Şərqdə kommunizmin inkişafı» mövzusundakı məruzəsində açıqlanmışdı).

Rusiya Azərbaycandan da istifadə etməklə «böyük səhv»in düzəldilməsinə girişdi. «Böyük səhv» isə, N.Nərimanovun fikrincə, «Oktyabr inqilabından sonra avropalı dələduzlara Şərqi tutmaq imkanı verilməsi» idi. Onun «düzəldilməsi» üçün də «Şərqi qərb imperializminin əlindən almaq» (N.Nərimanov) lazım gəlirdi.

Bu məqsədlə də Azərbaycan-müsəlman ölkələri münasibətləri Rusiyanın Şərq siyasətinin indiki mərhələsinin aparıcı istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdi. Buna görə də Azərbaycanın müsəlman Şərqinin Türkiyə, İran, Əfqanıstan və s. diqqəti cəlb edən dövlətlərilə əlaqələri ilk vaxtlardan Rusiya tərəfindən ciddi nəzarətə götürülmüşdü. Adları çəkilən ilk iki dövlətlə əlaqədar məsələlər bu bölümdə ayrıca nəzərdən keçirildiyindən burada ancaq Əfqanıstan; Buxara və s. ilə münasibətləri qısa şəkildə səciyyələndirmək lazımdır.

Azərbaycanın Əfqanıstanla da əlaqələrinin sahələri və həddi Rusiyanın xarici siyasətinə uyğunlaşdırılmışdı. Və, təbii olaraq, Azərbaycan SSR-in orada diplomatik nümayəndəliyinin fəaliyyətinə imkan verilmədi. Əvvəlcə, onun ştat tərkibinin G.Çiçerinlə razılaşdırılması (II.1921) vacib sayıldı. Sonra Əfqanıstanda təkcə RSFSR-in müvafiq təmsilçiliyinin saxlanması «məsləhət bilindi». Onun tərkibinə

bir nəfər kommunist türkün namizədliyinin irəli sürülməsi isə Azərbaycan SSR-ə həvalə olundu. Azərbaycanın partiya-sovet rəhbərliyi isə Q.İsmayılovun namizədliyini tövsiyə etdi (IX. 1922).

Buxara Xalq Sovet respublikasının Azərbaycan SSR ilə hərtərəfli əlaqələr yaratmaq səyləri də əməli nəticələr vermədi. Onun Bakıda diplomatik nümayəndəlik açmaq istəyi (IX.1921) «razılıqla» qarşılansa da buna lazımi şərait yaradılmadı. Belə ki, diplomatik nümayəndə, konsul və xarici ticarət müvəkkili «məişət çıxıntıları» ilə üzləşdilər. Azərbaycan SSR-in Buxaradakı diplomatik nümayəndəliyi (səfir Ə.Nərimanov idi) formal xarakter daşıyırdı. Az sonra o da öz «fəaliyyətini» dayandırmaq məcburiyyəti qarşısında qaldı.

Ümumiyyətlə isə Rusiyanın sovetləşdirilmə və kommunistləşdirmənin coğrafiyasını (sərhədlərini) müsəlman Şərqinin içərilərinə doğru genişləndirmək planlarını gerçəkləşdirmək mümkün olmadı. Şərq ölkələri Rusiyanın «Sovet Azərbaycanı nümunəsi»ni qəbul etmədilər. «Dünya inqilabı» Avropaya doğru da irəliləyə bilmədi və onun «perspektivləri»nə ümidlər xeyli azaldı. «Qərbdə inqilabı sürətləndirmək», «Avropa ilə yalnız müqavilələr yolu ilə deyil, Avropada öz Oktyabrını törətməklə əlaqələr qurmaq» (ifadələr N.Nərimanova məxsusdur) siyasəti iflasa uğradı.

Qərblə iqtisadi-maliyyə davasını Azərbaycan nefti hesabına udmaq xətti də özünü tam şəkildə doğrultmadı. «Dünya proletar-sosialist inqilabı»nın Qərbdə (Avropada) və Şərqdə (Asiyada) uğursuzluqla nəticələnməsi RSFSR-i «yaxın xaric»də (ələlxüsus da Qafqazda) daha da fəallaşdırdı, yəni Sovet «respublikalarının iqtisadi-maliyyə və xarici siyasətləri»ni birləşdirməyə tələsdirdi. Bu isə «bölünməz Rusiya»nın baş planından – tezliklə onu 1914-cü il hüdudlarına qaytarmaq məqsədindən irəli gəlirdi.

RSFSR-in digər sovet «dövlətlərinin iqtisadi-maliyyə-xarici siyasətləri»nin birləşdirilməsinə yönəlik fəaliyyətinin və bu sahədə həyata keçirilən birgə tədbirlərin aşağıdakı kimi qruplaşdırılması və nəzərdən keçirilməsi daha məqsədəuyğun olardı:

Birincisi, bu, «süveren və bərabərhüquqlu birliyin zəruriliyi və önəmi»nə dair Mərkəzin və yerlərin baxış-mövqeləri. V.Lenin özü belə bir ideya-plan irəli sürərək onu ardıcıllıqla da müdafiə etmişdi: Rusiyada çarlığı və burjuaziyanı birlikdə devirən xalqların elə bir yerdə də yeni (sosializm) cəmiyyəti qurmaları lazımdır. Onun «tövsiyyəsi»nə ilk səs verənlərdən birincisi isə «Zaqafqaziya respublikaları arasında özünü hamıdan əvvəl Sovet Rusiyasının ağuşuna atan Azərbaycan...» (fikir N.Nərimanovundur) oldu.

«Şərqin Lenini» Vladimir İliçə məktubunda Cənubi Qafqaz «respublikalarının zəhmətkeşlərini düşündürən» - təxirəsalınmadan həllini tələb edən - məsələləri bu cür ifadə etmişdi: pul sisteminin birləşdirilməsi; dəmiryol və dəniz, rabitə (poçt-teleqraf); əməyin mühafizəsi, yaylaqlar; qaçqınlar; respublikalar arasındakı daxili çəpərlər.

Güney Qafqazın üç respublikası üçün vahid ittifaq orqanının yaradılmasını təklif edən N.Nərimanov həm də onun mərkəzi olaraq Tiflisi deyil, Bakını məsləhət bilmişdi. Respublikaların birləşdirilməsini Azərbaycan SSR-in kömissarlarının obrazlı ifadələri ilə bu cür formulə etmək olar: «Bizə boşqabda gətirilən şura hakimiyyətinin (H.Sultanov) Qafqazın digər sovet hökumətləri ilə «bir ümumi qazana doldurulması» (B.Şahtaxtınski).

Bu, obrazlı ifadə olunan fikrin diplomatiya dilindəki açıqlaması B.Şaxtaxtınskinin Moskvadan M.Hüseynova ünvanladığı məktubda (26.II.1921) əksini tapan təklifdən ibarət idi: bütün Güney Qafqaz respublikaları, habelə Dağıstan daxil

olmaqla bir Qafqaz respublikası yaradılsın və o da Rusiya Federasiyasına daxil edilsin. Yeri gəlmişkən, təklif müəllifi bunu ərazi-sərhəd münaqişəsinin «həllinin tək yolu» kimi dəyərləndirirdi. Tezliklə (V.1921) Azərbaycan SSR-in Moskvadakı nümayəndəliyi Güney Qafqazın üç respublikasının birləşməsinin zəruriliyi məsələsini rəsmən qaldırdı.

İkincisi, Güney Qafqaz ölkələrinin təsərrüfat maliyyə həyatının birləşdirilərək vahid iqtisadi sistemə salınması prosesi. O, aşağıdakı tədbirləri əhatə edirdi:

a) vahid regional təsərrüfat orqanının yaradılması. Bunu elə V.Lenin özü təklif etdi (9. IV.1921). İki gün sonra isə Qafqaz respublikalarının vahid təsərrüfat mərkəzində birləşməsi məsələsi qaldırıldı. Göstərilən respublikaların iqtisadi siyasətini (sənaye, xarici ticarət, maliyyə sahələrindəki fəaliyyətlərini) – təsərrüfat komissarlıqlarının işini tənzimləmək məqsədilə 1921-ci ildə mərkəzi orqan, yəni Birləşmiş İqtisadi Şura (Büro kimi də yazılır) yaradıldı. İqamətgahı Bakıda yerləşən bu qurumun qərarları hər üç respublika üçün *məcburi idi*. Bu akt əslində onların indiyədək az-çox müstəqil olan iqtisadi siyasətlərinə (təsərrüfat fəaliyyətlərinə) «hüquqi əsaslar»la xitam verilməsi də sayıla bilər;

b) nəqliyyatın birləşdirilməsi. Bu iş Cənubi Qafqaz dəmir yollarının idarə olunması qaydası haqqında sazişə (18.IV.1921) əsasən həyata keçirildi. Azərbaycan tərəfdən M.Hüseynovun imzaladığı həmin sazişlə Güney Qafqazda vahid dəmir yolu sistemi təşəkkül tapmış oldu. Az sonra (14. I.1922) sazişlə nəzərdə tutulanların reallaşdırılmasına dair protokol da imzalandı, ona G.Çiçerin də qol çəkdi;

c) xarici ticarətin dövlət (Rusiyanın) inhisarına alınması. Bu məqsədlə də müəyyən toplantılar keçirildi, qərarlar qəbul olundu və sazişlər bağlandı. Belə ki, öncə həmin üç cümhuriyyətin və Dağıstan respublikasının xarici ticarətisarlığı (XXTK) ilə razılaşdırılmalı idi. Azərbaycan hökuməti (XKS) yanında həmin komissarlığın həlledici səsə malik səlahiyyətli nümayəndəsi də olacaqdı;

ə) hərbi-iqtisadi ittifaq haqqında dörd və hərbi-dəniz məsələsinə dair on bir maddəlik müqavilələr (30.IX.1920). Azərbaycan-Rusiya münasibətləri tarixindəki «sazişlər və müqavilələr günü»ndə (30.IX.1920) imzalananlar arasında «Hərbi-iqtisadi ittifaq haqqında» müqavilə mərkəzi yeri tuturdu. Bu müqavilə ilə Azərbaycanı iki mühüm sahədə (iqtisadi-hərbi) özünə «müttəfiq» etmək Rusiya üçün üçüncü (siyasi) sahədə «ittifaqı» da bəribaşdan qazanmaq demək idi. G.Çiçerin və B.Şahtaxtınskinin imzaladıqları «Hərbi-iqtisadi ittifaq haqqında RSFSR və Azərbaycan SSR müqaviləsi»nə görə:

- Rusiya və Azərbaycan öz aralarında sıx hərbi və maliyyə-iqtisadi ittifaq bağlayırdılar;
- onların hökumətləri qısa müddətdə: **1)** hərbi təşkilatlarını və hərbi komandanlığı; **2)** xalq təsərrüfatı və xarici ticarət; **3)** təchizat; **4)** dəniz yol nəqliyyatı və poçt-teleqraf; **5)** maliyyə orqanlarını birləşdirirdilər;
- birləşmənin üsul və formaları – hökumətlərarası xüsusi sazişlərlə müəyyənləşdirilməli idi.

Bu müqavilə iki «qardaş» respublikanın bütün qüvvələrinin tam birləşdirilməsini «ümumi düşmənə-imperialist burjuaziyaya qarşı ağır mübarizədə müvəffəqiyyətin təminatı» kimi qiymətləndirirdi. O, xüsusi olaraq təsdiq (ratifikasiya) edilmirdi. Hərbi-dəniz məsələlərinə dair müqavilə də Azərbaycanın maraq və mənafelərinə edilən ciddi qəsdlər hesabına ərsəyə gəlmişdi.

2. «Danışıqlar»ın və onların gedişində imzalanan diplomatik sənədlərin əsasında gəlinən qənaətlər və «qarşılıqlı anlaşma»nın ilkin nəticələrindən bəziləri:

a) həm «danışıqlar», həm də onların bəhrəsi sayılan məlum sazişlər və müqavilələr bir həqiqəti – Azərbaycanın heç də bərabərhüquqlu, müstəqil tərəf (müttəfiq) olmadığını yetərincə təsdiqlədi. Bu təsdiqi elə N.Nərimanovun bəzi fikir və mülahizələri də təkrarlayır. «Guya Şahtaxtınski müstəqilliyimizi pozaraq muqavilə bağlamışdır» deyənlərlə razılaşmayan N.Nərimanov I Ümumazərbaycan sovetlər qurultayında bunları da bəyan etmişdi: Tam müstəqillik haqqında yalnız partiyasız düşünə bilər və onun barəsində müsavatçılar danışırdılar; əgər biz sovet respublikalarının vahid tam olması və ümumi düşmənimizin hələlik məhv edilməməsindən danışırıqsa, onda sovet müttəfiq respublikalarının müstəqilliyindən söhbət gedə bilməz; Azərbaycanın həyatı Sovet Rusiyasının həyatından asılıdır və s.;

b) RSFSR ilə Azərbaycan arasındakı «qarşılıqlı anlaşma»nın ilkin nəticələrindən daha birini (ən mühümlərindən olanını) isə B.Şahtaxtınski açıqlamışdı. Həmin açıqlamanın elə V.Leninə ünvanlanan (20.IX.1920) məktubda ifadə olunması da diqqətçəkicidir: «İndi Azərbaycanda belə düşünürlər ki, Azərbaycan-Rusiya münasibətləri göstərdi ki, Rusiya ilə ittifaq aclıq, iflas və müstəqilliyin itirilməsi deməkdir» (Burada əlavə şərhə, bizcə, əsla ehtiyac duyulmur. Həmçinin diplomatik ədəbiyyatda B.Şahtaxtınskinin bağladığı müqavilələrin Azərbaycan-Rusiya münasibətlərində «xaos və hərcmərclik yaratması» da qeyd olunur).

Rusiyanın Azərbaycan dövlətçiliyinin təkrarən ləğvinə dair strateji planının reallaşdırılmasının bir yolu da onun müstəqil xarici siyasətinin yox edilməsindən keçirdi. Bunun üçünsə Sovet Azərbaycanının beynəlxalq münasibətlər sistemindən və dünya siyasətindən tamamilə təcrid olunması lazım gəlirdi. Bu məqsədlə də aşağıdakıların həyata keçirilməsi nəzərdə tutulmuşdu:

- Rusiyanın Qərblə iqtisadi-maliyyə qarşıdurmasında və «müsəlman Şərqinə pəncərə» açmasında Azərbaycandan yalnız bir vasitə kimi istifadə olunması;
- Azərbaycan SSR-in qonşu və böyük dövlətlərlə bütün əlaqələrinin hərtərəfli əngəllənməsi;
- onun «xarici siyasət fəaliyyəti»nin Cənubi Qafqazın digər sovet respublikalarının bu sahədəki fəaliyyətlərilə birləşdirilməsi;
- Quzey Azərbaycanın xarici dövlətlərdəki və onların da Bakıdakı diplomatik nümayəndəliklərinin, digər qurumlarının ləğv edilməsi.

Leninçi Rusiyanın Qərblə amansız iqtisadi-maliyyə savaşında Azərbaycanın geniş imkanlarından hərtərəfli faydalanmaq, bu işdə ondan bir alət kimi istifadə etmək siyasəti barədə bu bölümün 2-ci paraqrafında yetərincə bəhs olunmuşdur. Postçarlıq Rusiyasının Şərq siyasətində Azərbaycana verilən önəmə və ondan bu yöndə də yararlanılmasına gəldikdə burada bəzi məsələlərə yer ayırmağa lüzum vardır.

Asiyanın böyük bir hissəsini də kommunistləşdirməyi (sovetləşdirməyi) hədəfə götürən Rusiya güclü iqtisadi-mənəvi potensialı ilə fərqlənən Azərbaycanı həmçinin «Şərqin qapısı» kimi dəyərləndirirdi. Rusiyaya görə, Azərbaycan həm də müsəlman Şərqi üçün bir «örnək» ola biləcək ideoloji forposta çevrilməli idi.

«Böyük Rusiya» dövlətçiliyi təfəkküründə xidmət edən bu kimi məqsədlərə yetişmək üçünsə 1920-ci illərin lap əvvəlindən etibarən bəzi tədbirlər görüldü. Onlar arasında Şərq xalqlarının qurultayı (1-7.IX.1920) və Şərq gənclərinin qurultayı (9-10.IX.1920) mühüm yer tutur. Qurultayların Bakıda keçirilməsi xüsusi məna kəsb edirdi və burada müəyyən məqsəd güdülürdü.

Kommunist İnternasionalı tərəfindən çağrılan Şərq xalqlarının I qurultayının əsas platforması «dünya inqilabı» naminə proletariatın mübarizəsinin milli-azadlıq hərəkatı ilə birləşdirilməsini nəzərdə tuturdu. Qurultayda bir məlumata əsasən 37 ölkədən 1891 təmsilçi, digərinə görə isə 38 xalqın 2 mindən çox nümayəndəsi iştirak etmişdi (Azərbaycan SSR 469 nəfərlə təmsil olunmuşdu). Q.Zinovyevin sədrliyi ilə keçən toplantıya K.Radek, N.Nərimanov, A.Mikoyan, M.Sübhi, Ənvər paşa (nümayəndə olmasa da), Mirzə Kiçik xan və b. qatılmışdılar.

Fransız tədqiqatçısı Rosnlerin «böyük bazar» kimi təsvir etdiyi həmin qurultayda milli-müstəmləkə məsələsi, Şərqdə Sovetlər haqqında və s. problemlər müzakirə edilmişdi. «Pravda» qəzetinin məlumatına (21.IX. 1920) görə, qurultayın şərəfinə 10 minlərlə adamın iştirakı ilə nümayiş-mitinq də keçirilmişdi (3.IX. 1920). Və orada çıxış edən Ənvər paşa Azərbaycanla Sovet Rusiyasını Şərqin müstəqilliyi uğrunda mübarizədə birləşməyə səsləmişdi.

Qurultayın son iclasında daimi orqan – «Şərq xalqlarının təbliğat və fəaliyyət Şurası» yaradıldı. Plenar yığıncaqlarının üç ayda bir dəfədən az olmayaraq Bakıda keçirilməsi nəzərdə tutulan bu Şuraya Azərbaycandan N.Nərimanov, M.Hüseynov və b. seçilmişdilər.

Şərq ölkələrində siyasi fəaliyyəti istiqamətləndirmək üçün – Şura tərəfindən rəsmi mətbuat orqanı olan – «Narodı Vostoka» («Şərq xalqları») jurnalının nəşrinə başlanıldı (X.1920). İngiltərənin təzyiqi üzündən ancaq bir sayı çıxan jurnalda Şərq xalqlarının siyasi, sosial-iqtisadi və dini-mədəni durumlarına dair yazılar dərc olunmuşdu.

Orada çap edilən «Şərqdəki fəaliyyət üçün anket» isə müxtəlif ölkələrdən alınacaq raportların nəşrini nəzərdə tuturdu. Həmin raportlar ölkələrin siyasi vəziyyəti, hərbi du-

(§1) «məşhur-tarixi» sualına eyni cavabları da bu baxımdan çox düşündürücüdür: «Azərbaycan respublikası müstəqil yaşamalıdır, yoxsa bir hissə kimi Sovet Rusiyasına daxil olmalıdır?» - «...Biz, Azərbaycan Sovet Rusiyasına birləşməliyik».

Bütün bu yuxarıda sadalanan mövqe və baxışların da yetərincə təsdiqlədiyi kimi, o çağın Azərbaycan-Rusiya münasibətlərinin xarakterinə (mahiyyətinə) belə bir xülasə vermək olar: bolşevik Azərbaycanı müstəqillikdən qətiyyətlə imtina edərək Sovet Rusiyasının himayəsinə keçməyə və ona qatılmağa meylli-maraqlı, hazır idi.

Kommunist Rusiyası da Quzey Azərbaycanı yenidən öz əsarəti altına salmaqda, onu xammal mənbəyinə – satış bazarına, xarici siyasətinin alətinə çevirməkdə olduqca maraqlı idi və bu yöndə ardıcıl səylər göstərirdi.

Bu məqsədlə də Azərbaycan dövlətçiliyinin yenidən ləğvinə tədbirlər görülürdü. Öncə də Azərbaycanın əvvəlki müstəqil beynəlxalq siyasətinə son qoyulmasına çalışılırdı. Və hələlik ən azından onun «xarici siyasəti»nin Rusiyanın maraqlarına uyğun vəzifələrinin müəyyənləşdirilməsi və gerçəkləşdirilməsinə cəhdlər edilirdi.

«Qarşılıqlı anlaşma»nın ilkin yekunları

Rusiya Quzey Azərbaycanın yenidən işğalına başladıqdan dərhal sonra «tərəflər arasında bərabərhüquqlu» münasibətlər yaradılmasına girişildi. Sözgəlişi, Rusiya bununla həm də Şərqdəki kommunist təbliğatında da Cənubi Qafqazın digər cümhuriyyətlərinin sovetləşdirilməsi (yenidən rusiyanınkılaşdırılması) işində Azərbaycan SSR-dən faydalanmağa çalışırdı. İkitərəfli «diplomatik əlaqələr»in qurulması üçün müva-

fiq danışıqlar aparılması razılaşdırıldı.

RSFSR XXİK-i G.Çiçerinin AİK sədrinə ünvanladığı nota-müraciətə əsasən Moskvaya nümayəndə göndərmək qərara alındı. Azərbaycanın Xalq Ədliyyə komissarı B.Şahtaxtınski Azərbaycan SSR-in RSFSR-dəki səlahiyyətli nümayəndəsi təyin olundu (15.VII.1920). (Ondan əvvəl isə (IV-VI.1920) bu vəzifəni N.Solovyov tutmuşdu). Behbud bəyə Rusiya hökumətilə danışıqlar aparıb müqavilələr bağlamaq səlahiyyətləri də verildi. 1920-ci il iyulun ikinci yarısında Moskvada RSFSR-Azərbaycan SSR «danışıqları» oldu. Həmin ayın sonunda M.Hüseynovun özü də Mərkəzə «diplomatik səfər» etdi.

Rusiyanın istər danışıqlarda, istərsə də onlardan kənarda Azərbaycana göstərdiyi təzyiqlər, ələlxüsus da, XI ordunun yerlərdəki dözülməz hərəkətləri müəyyən problemlər yaradırdı. Bununla əlaqədar olaraq G.Çiçerinin hələ aprel işğalından az öncə V.Leninə müraciətində özünə yer alan bir rahatsızlığı xatırlatmaq yerinə düşür. Həmin müraciətində «kiçik azad Azərbaycan» üzərində zorakılıq aktı ilə bağlı ehtiyatlı olmağı məsləhət bilən rus diplomatı yazırdı ki, «bizi imperilaistlər saymaq üçün bəhanə verməməliyik».

G.Çiçerin danışıqların gedişində (4.VIII.1920) RK(b)P MK Siyasi Bürosuna bunları çatdırırdı: «Qırmızı ordu hissələrinin yerli komandirləri Azərbaycan hökümətilə qətiyyən hesablaşmırlar, özbaşına, necə gəldi hərəkət edirlər və onların himayəsi ilə əsl müstəmləkəçilik siyasəti yeridilir». Onun bu açıqlamasını, təbii ki, bir yenilik kimi qiymətləndirmək olmaz.

Çünki Rusiyanın o dövrki beynəlxalq siyasətinə rəhbərlik edən bu görkəmli diplomat öz dövlətinin Azərbaycana münasibətinin əsl mahiyyət və məqsədlərini yaxşı bilirdi. Ancaq onun bu cür rəsmi və ciddi açıqlamasını Rusiya ilə

Azərbaycan arasındakı «qarşılıqlı anlaşma»nın ilkin nəticələrindən birinin (ən başlıcasının), yəni əsl müstəmləkəçilik siyasətinin etirafı kimi dəyərləndirmək mümkündür (Yeri gəlmişkən, RK (b) P MK plenumu «Azərbaycanla Rusiya arasında münasibətlər haqqında məsələ» müzakirə edərək (5.VIII.1920) müvafiq layihə hazırlamağı qərara aldı).

Azərbaycan SSR-RSFSR danışıqlarının bu mərhələsinin yekunlarını, yəni bağlanan müqavilə və sazişlərin əsas məqamlarını, gəlinən qənaətləri və «qarşılıqlı anlaşma»nın ilkin nəticələrindən bəzilərini isə aşağıdakı kimi ümumiləşdirmək olar:

1. Razılaşdırılan müqavilə və sazişlər, onların əsas məqamları və doğurduğu problemlər:

a) Rusiya ilə Azərbaycanın xarici ticarət fəaliyyətlərinin əlaqələndirilməsinə dair yeddi maddəlik saziş (24.VIII.1920). Onun əsas məqsədi beynəlxalq bazarlarda vahid iqtisadi tam mövqeyindən hərəkət edilməsinə nail olmaqdan ibarət idi. Bu sazişə görə: vahid xarici ticarət nümayəndəliyi yaradılmalı idi; Rusiyanın Avropa və Amerikadakı ticarət nümayəndəlikləri Azərbaycanın da mənafelərini qorumalıydı; RSFSR-in Gürcüstanda, Azərbaycan SSR-in isə İranda ticarət təmsilçilikləri ola bilərdi. Tərəflər bir-birilərini məlumatlandırmadan adıçəkilən dövlətlərlə muqavilə və s. bağlaya bilməzdilər. Göründüyü kimi, sonuncu şərt birbaşa Rusiyanın maraqlarına xidmət edirdi;

b) poçt, teleqraf və radioteleqram idarələrinin birləşdirilməsi haqqında hökumətlərarası saziş (30.IX.1920). G.Çiçerin və B.Şahtaxtınskinin imzaladıqları bu yeddi maddədən ibarət saziş də başlıca rabitə vasitələrinin Rusiyanın nəzarətinə keçməsinə şərait yaradırdı;

c) ərzaq siyasətinin birləşdirilməsi barədə altı maddəlik saziş (30.IX.1920). Həmin sazişdə isə bunlar nəzərdə tutu-

lurdu: Azərbaycanda ərzaq siyasətinin RSFSR hökumətinin müəyyənləşdirdiyi prinsiplər əsasında aparılması; Rusiyadakı dövlət inhisarının fəaliyyətinin tədricən Azərbaycanda da yayılması; RSFSR-in Azərbaycan SSR əhalisinin müəyyən normada ərzaqla təminatını öhdəsinə götürməsi; Rusiya Xalq Ərzaq komissarlığı kollegiyasının tərkibinə Azərbaycanın səlahiyyətli nümayəndəsinin də daxil edilməsi. Saziş o dövr üçün çox ağır bir məsələdə – taxıl və ərzaq təminatında - Azərbaycana Rusiyanın yardımını vəd etdiyindən birincinin ikincidən asılılığını daha da labüdləşdirirdi;

ç) vahid iqtisadi siyasətin həyata keçirilməsinə dair altı maddəlik saziş (30.IX.1920). Rusiya bu vacib sazişi Azərbaycana «məsləhət görməklə» əslində ölkələrarası əlaqələrin ən ümdə sahələrindən birini (iqtisadiyyatı) öz inhisarına almış olurdu. Sazişə görə, iqtisadi siyasət sahələri birləşdirilməli və Azərbaycanda xüsusi inhisarların yaradılması tamamilə RSFSR Ali Xalq Təsərrüfatı Şurasının (AXTŞ) sərəncamına keçməli idi;

d) maliyyə məsələləri üzrə səkkiz maddəli sazişlə isə (30.IX.1920). Azərbaycan daha bir mühüm sahəni Rusiyaya güzəştə gedirdi. Doğrudur, ona daxildə, Cənubi Qafqazda, İran və Türkiyədə istifadə üçün öz əskinaslarını buraxmaq «imkanı» da saxlanılırdı;

e) xarici ticarət məsələlərinə dair beş maddədən ibarət saziş (30.IX.1920). Azərbaycan SSR-in səlahiyyətlərini xeyli məhdudlaşdırmaqla ona daha ciddi problemlər yaradırdı. Belə ki, bu sazişlə Azərbaycan özünün iqtisadi inkişafının və maliyyə qüdrətinin başlıca mənbəyi sayılan neftin sərbəst şəkildə satışından məhrum olurdu. Digər məhsullarsa Güney Qafqaz, İran və Türkiyə bazarlarına çıxarıla bilərdi. Azərbaycan SSR-in başqa dövlətlərlə bütün ticarət müqavilələri və s. əvvəlcədən RSFSR Xalq Xarici Ticarət Komis-

nin, onların müvafiq orqanlarının birləşdirilməsi qərara alındı (26.IV.1921). Azərbaycan SSR XXTK T.Əliyevin də iştirak etdiyi iclasda qəbul olunan bu qərar həmin respublikaların valyuta ilə satılan bütün mallarının birləşmiş xarici ticarətin sərəncamına verilməsini nəzərdə tuturdu. Ticarət əlaqələrinin «genişləndirilməsi» məqsədilə Güney Qafqaz respublikaları arasında gömrük əngəllərinin aradan qaldırılmasına dair də qərar çıxarıldı (2.V.1921). Azərbaycan XKS, bu qərara müvafiq olaraq, qonşu respublikalarla (o cümlədən də Ermənistanla) ticarətdə gömrük rüsumlarının tətbiqini ləğv edən fərman verdi (VI.1921).

Üç respublikanın inqilab komitələri başçılarının (N.Nərimanov, F.Maxaradze, A.Myasnikov) iştirakı və onlardan birincinin sədrliyilə keçirilən müşavirədəki (2.VI.1921) müzakirələrin nəticəsində bir sənəd (saziş) də razılaşdırıldı. Həmin saziş bu işlərin görülməsini nəzərdə tuturdu:

Cənubi Qafqaz respublikalarının dünya bazarlarındakı ticarətinin vahid orqan tərəfindən aparılması; «Azərbaycan, Gürcüstan və Ermənistan xarici ticarəti üçün ittifaq» adlanacaq bu orqanın Tiflisdə yerləşməsi; ona həmin respublikaların razılığı ilə yaradılan kollegiyanın rəhbərlik etməsi.

«Başlıca vəzifəsi» bu respublikaları ərzaq, xammal və s. ilə təmin etməkdən ibarət olan həmin ittifaqın (orqanın) təşkili Cənubi Qafqaz ölkələrinin xarici ticarətinin də Rusiyanın tam inhisarına keçdiyini təsdiqləyir. Bu proses iki razılaşma ilə daha da möhkəmləndirildi:

1) Üç respublika arasında bağlanan «Xarici ticarət, idxal, ixrac və valyuta fondu məsələlərinə dair» 12 maddəlik müqavilə. **2)** Onların xarici ticarətə dair birlikdə RSFSR ilə bağladıqları beş maddədən ibarət saziş (7.VIII.1921). V.Lenin, T.Əliyev və b. tərəfindən imzalanan bu sazişə görə, Cə-

nubi Qafqaz cümhuriyyətləri xarici ticarət işlərini (müqavilələr bağlanması və s.) yalnız Rusiyanın razılığı əsasında apara bilərdilər.

RK(b)P MK-nın bir dekret səciyyəli qərarı ilə (8.XII.1921) Cənubi Qafqaz ölkələrinin xarici ticarəti və s. qəti şəkildə birləşdirilməsilə bu sahədəki Rusiya inhisarı tam rəsmiləşdirildi. Bununla da yerli müvafiq qurumların fəaliyyətinə ehtiyac qalmadı. Buna görə də Azərbaycan Sovetləri Mərkəzi İcraiyyə Komitəsi (MİK) Rəyasət Heyəti Azərbaycan XXTK haqqındakı Əsasnamə layihəsini 1921-ci ilin sonlarında ləğv etməyə məcbur oldu;

ç) Maliyyə siyasətinin birləşdirilməsi. Güney Qafqaz respublikalarının ümumölkə iqtisadi müşavirəsi (7.VIII.1921) onların maliyyə fəaliyyətlərinin birləşdirilməsini və vahid valyutanın tətbiqini zəruri hesab etdi. RK(b)P MK-nın maliyyə komissiyası da Qafqazda vahid pulun işlənməsini dəstəklədi (28.IX.1921). Bununla Qafqazın maliyyə valyuta siyasəti də Rusiyanın tam nəzarətinə keçmiş olurdu. Azərbaycan SSR «hökuməti» Mərkəzə məktubunda «RSFSR hesabları ilə birləşməyi» özü üçün əlverişli sayırdı.

Üçüncüsü, Güney Qafqaz respublikalarının «müstəqil xarici siyasətləri»nin birləşdirilməsi problemi. Burada öncə bir vacib məqamı vurğulamaq lazımdır. Belə ki, bu respublikaların iqtisadi-təsərrüfat həyatının birləşdirilməsi nisbətən asanlıqla və qısa müddətə başa gəldi. Ancaq onların «xarici siyasət fəaliyyətləri»nin birləşdirilməsi bəzi problemlərlə üzləşdi, müəyyən çətinliklərlə alındı və gec sona çatdırıldı.

Bu, əsasən, AXC dönəmində Azərbaycanın dövlətlərarası münasibətlər sisteminə qatılması və beynəlxalq hüququn subyektinə çevrilməsilə əlaqədar idi. Azərbaycanın xarici dövlətlərdə və onların isə Bakıda diplomatik nümayəndəliklərə və s. malik olmaları da bu işdə az rol oynamırdı. Bütün

bunlara görə də Rusiya Güney Qafqaz respublikalarının beynəlxalq əlaqələrini tənzimləyərkən – xüsusilə də Azərbaycan SSR-in «xarici siyasəti»nə son qoyarkən aşağıdakıları gerçəkləşdirməli oldu:

a) Azərbaycanın Avropa və Şərq ölkələrindəki nümayəndəliklərinin ləğv edilməsi. Bu iş iki mərhələdə həyata keçirildi: **1.** Nümayəndəliklərin tərkibi sinfi-siyasi mülahizə və prinsiplərə əsasən dəyişdirildi; peşəkarlar (müsavatçılar və b.) şəriştəsizlərlə (qeyri-türk bolşeviklər və s.) əvəzləndi. **2.** Təmsilçiliklərin fəaliyyətinə siyasi, təşkilati, maliyyə və s. əngəllər törədildi. Onlar ya RSFSR nümayəndəliklərinə tabe etdirildi, ya da tədricən ləğv olundu (Bu barədə sonrakı paraqraflarda, yəni Azərbaycan SSR-in ayrı-ayrı dövlətlərlə (Türkiyə, Ermənistan, İran və s.) ilə münasibətləri təhlil olunarkən bəhs ediləcəkdir).

RSFSR XXİK kollegiyasının Ukrayna, Gürcüstan, Ermənistan və b. təmsilçilərinin iştirakı ilə keçirilən iclasları (30.XII.1921 və 2.I.1922) vahid vətəndaşlıq, birgə konsulluqların yaradılması, sovet respublikalarının xaricdəki nümayəndəlikləri arasındakı əlaqələr və s. məsələləri müzakirə etdi. Azərbaycan SSR-dən heç kimin qatılmadığı bu «müzakirələr»dən sonra belə bir qərar qəbul edildi: «Digər sovet respublikalarının xarici ölkələrdəki nümayəndəlikləri RSFSR-in səlahiyyətli nümayəndəliklərinə tabe etdilirsin...»

Rusiya Azərbaycanın xaricdəki nümayəndəliklərinin bağlanmasının labüdlüyünü bu cür «tutarlı dəlillərlə izah edirdi»: vahid xarici siyasətin önəmi, maliyyə vəsaitinin çatışmazlığı, ümumi düşmənə – beynəlxalq imperializmə qarşı mübarizənin qazanılması zərurəti və s.;

b) xarici dövlətlərin Azərbaycandakı nümayəndəliklərinin bağlanması. Aprel işğalından sonrakı ilk çağlarda Bakıda 20-yə yaxın xarici nümayəndəlik var idi. Zəmanənin beynəlxalq

şəraiti, Azərbaycandakı hakimiyyət dəyişikliyi və s. onların da fəaliyyətləri üçün ciddi problemlər, çətinliklər yaratmışdı. Bu hal özünü, ilk növbədə, yeni hökumətin xarici təmsilçilərlə münasibətlərinin xarakterində biruzə verirdi. İfrat sinfi-siyasi yanaşma burada da özünü açıq-aşkar göstərirdi.

Əslində diplomatik deyil, siyasi orqan mahiyyətini (statusunu) daşıyan Azərbaycan XXİK-i xarici səfirlik, konsulluq və agentliklərə münasibətdə fərqli (xoş və qərəzli) mövqeyini qətiyyən gizlətmirdi. Məhz belə bir yanaşmanın ucbatından idi ki, Bakıdakı xarici nümayəndəliklərin bir qisminə lazımi şərait yaradıldığı halda, digərləri müəyyən çətinliklərlə (sıxıntılarla) üzləşmişdilər. Məsələn, İtaliya, Gürcüstan, Ermənistan (?! – İ.M.) və b. dövlətlərin səfirlik-konsulluqları rəsmən tanınmışdı (19.XI.1921), İngiltərənin Bakıdakı vitse-konsulu Randolf, habelə Polşanın Cənubi Qafqaz respublikalarındakı səfiri T.Filippoviç (ölkəsi Rusiya ilə müharibəyə başladığı üçün) həbs edilmişdilər və s.

Bütün bu – beynəlxalq hüquq (diplomatiya) normalarına əsla sığmayan – hallar Azərbaycandakı xarici təmsilçiliklərin əksəriyyətində ciddi rahatsızlıqlar yaratdı. Buna görə də xarici dövlətlərin nümayəndəliklərinin Şurası Azərbaycan XXİK-ə müraciətlər edərək (25.XI. və 31.XII.1921) mövcud diplomatik duruma aydınlıq gətirilməsini – əcnəbilərin hüquq və vəzifələrinə dair izahat verilməsini istədilər.

XXİK-in «Xaricilərin hüquq və vəzifələri haqqında» izahatı (10.III.1921) çox ziddiyyətli idi. Çünki 30 bəndlik sənəddə, bir tərəfdən Azərbaycandakı diplomatların şəxsiyyət, mənzil, arxiv və s. toxunulmazlığı bildirilirdi, digər yandan da, mənzillərinin yoxlanması ilə bağlı onların müstəsna deyil, Azərbaycan vətəndaşlarıyla eyni hüquqlara malik olduqları yazılırdı. Qeyri-qənaətbəxş izahat Şuranın növbəti (20.IV.1920) – ancaq Azərbaycan hökuməti tərəfindən məhəl qoyulmayan – müraciətilə cavablandırıldı. AİK-in bu dövrdə elan edilən (20.IV.1921) «Əmək qabiliyyətli əhalinin səfərbərliyə alınması haqqında» dekreti Bakıdakı diplomatik gərginliyi bir az da artırdı.

Həmin dekret: **1)** əmək qabiliyyətli bütün yerli əhali ilə yanaşı xaricilərin də səfərbərliyə alınmasını nəzərdə tuturdu; **2)** xaricilərin Azərbaycana gəlmələrini əngəlləyirdi; **3)** onların şəxsi, ailə və b. məsələlərlə əlaqədar burada uzunmüddət qalmalarına imkan vermirdi; **4)** sərbəst hərəkətlərinə şərait yaratmırdı; **5)** ölkələrinə qayıtmalarına çeşidli çətinliklər (maneələr) törədirdi və s. Dekretin doğurduğu problemlərdən narazılıq Şuranın XXİK-ə daha bir müraciətilə açıqlandı.

Bunun qarşılığında Azərbaycan XKS «Xarici dövlətlərin nümayəndəlikləri ilə münasibətlərin qurulması və əcnəbi vətəndaşların işlərinin həlli haqqında» yeddi maddəlik dekret verdi. Bu dekretə görə isə:

Azərbaycandakı xarici nümayəndəliklərlə bütün əlaqələr yalnız XXİK vasitəsilə saxlanırılırdı; onların rəsmi sənədlərinin hamısı ancaq XXİK-in vizası (qeydi) ilə etibarlı sayılırdı və rus, yaxud da türk dillərinə tərcümə olunaraq təqdim edilirdi; əcnəbi vətəndaşlar XXİK-ə yalnız öz dövlətlərinin təmsilçilikləri vasitəsilə müraciət edə bilərdilər və onlarla əlaqədar mübahisələr bu komissarlığa göndərilməli idi; komissarlıqlar öz işlərində məlum İzahata (10.III.1921) əsaslanmalıydılar.

Azərbaycan hökumətinin bütün bu sənədləri (dekretlər, izahat və s.) vəziyyətin yaxşılaşdırılması işinə xidmət etmədiyindən problemlər və çətinliklər daha da çoxaldı. Bakıdakı xarici nümayəndəliklərə etinasızlıq, artıq onlara heç bir ehtiyac olmaması qənaəti və s. Azərbaycan XXİK-in əsas tutduğu iş prinsiplərindən, üsullarından hesab oluna bilər. Və onun bu mövqeyini, RSFSR XXİK kollegiyasının icla-

sında (30.XII.1921) qəbul edilən, geniş qərar (xüsusilə də «v» bəndi) daha da qüvvətləndirdi.

Orada yazılırdı: «Cənubi Qafqaz respublikalarındakı bütün konsulluqlar – Almaniyanın Gürcüstandakı konsulluğu çıxılmaqla (görünür, bu Rusiyanın rəsmi Berlinlə daha da yaxınlaşmaq planlarından irəli gəlmişdi – İ.M.) – tamamilə lazımsız və zərərli olduqlarına görə ləğv edilsinlər».

Bu bənd (tələb) vahid sovet (Rusiya) xarici siyasətinin yürüdülməsinə yönəlik səylərin ifadəsi demək idi. Bunun ardınca (davamı olaraq) başqa bir sənəd – RK(b) P MK-nın «RSFSR-in digər sovet respublikaları ilə qarşılıqlı münasibətləri haqqında məsələyə dair» qətnaməsi (II.1922) qəbul edildi. Həmin qətnamə xarici təmsilçiliklərin Azərbaycan SSR-də və digər respublikalarda fəaliyyət göstərmələrini ciddi şəkildə əngəlləyirdi.

Qətnaməyə görə, xarici nümayəndəliklər sovet respublikalarına yalnız müvafiq müqavilələr olduqda buraxıla bilərdilər. Belə müqavilələr olmadıqda isə buna RSFSR XXİK-in razılıq verməsi lazım gəlirdi. Bu kimi qeyri-məqbul şərtlər əcnəbi təmsilçiliklərin dəmarşı ilə nəticələndi. Onların Şurası Azərbaycanı tərk etmək qənaətini açıqladı. Azərbaycanın partiya rəhbərliyi onun müraciətini müzakirə etdi (18.IV.1922).

Sovet Azərbaycanı ilə müvafiq müqavilələri olmayan xarici təmsilçiliklərin ölkədən çıxarılmaları qərara alındı və bu işin dərhal reallaşdırılması XKS-yə tapşırıldı (21.IV.1922). Bununla da xarici nümayəndəliklərin fəaliyyəti onların təmsil etdikləri dövlətlərin Azərbaycan SSR-i və RSFSR-i rəsmən tanımaları, tezliklə müvafiq müqavilələrin bağlanılması ilə şərtləndirildi.

Bu və digər qərarlar, dekretlər, şərtlərlə olduqca əlverişsiz duruma salınan bir çox nümayəndəliklər 1920-ci ilin

ortalarından etibarən dəfələrlə etirazlar edərək müəyyən məsələlər qaldırdılar. İtaliya nümayəndəliyi Azərbaycan tərəfindən tanınsa da onun fəaliyyəti çoxsaylı maneələrlə, qeyri-normal hallarla əngəllənirdi:

1) Ölkələrarası ticarət əlaqələrinin yaradılması və təşkilinə Azərbaycanın bir o qədər də maraq göstərməməsi; **2)** Sovet milliləşdirməsinin İtaliya vətəndaşlarına vurduğu zərərin ödənilməsinə etinasızlıq; **3)** Haqqı ödənilən məhsulların Batuma daşınması üçün lazımi şəraitin yaradılmaması və müsadirə edilən malların geri qaytarılmaması; **4)** Nümayəndəliyin başçısı E.İnsonun Tiflisdən Bakıya gələrkən ruslardan ibarət sərhədçilərin, Azərbaycan XXİK-i tərəfindən verilən vizaya məhəl qoymayaraq, onunla diplomatik normalara uyğun gəlməyən tərzdə davranmaları; **5)** Mühafizənin zəif təşkili üzündən Bakıdakı konsulluğun qarətçi basqına məruz qalması və s.

E.İnsonun Azərbaycan SSR-in Gürcüstandakı diplomatik nümayəndəliyinin başçısına ünvanladığı notada bunlara etiraz edilmişdi. Sonuncu isə rəsmi Bakını teleqramla (19.VIII.1920) məlumatlandıraraq müvafiq tədbirlər görülməsini vacib saymışdı. Ancaq Azərbaycan SSR hökuməti (XXİK) isə məsələ qaldıraraq (8.V.1921) özünün de-yure tanınmasını istədi. Bu tanınma, təbii olaraq, alınmadığından Azərbaycan XXİK üçün «bəhanə» tapıldı. Və müəyyən müzakirə və razılaşdırmadan sonra, nəhayət ki, İtaliya nümayəndəliyi də ləğv edildi (2.X.1922).

Azərbaycan SSR-dəki Almaniya nümayəndəliyi də problemlərsiz ötüşmədi. Zaqafqaziya Fövqəladə Komissiyasının xüsusi göstərişi ilə (18.IV.1922; №341) Azərbaycan XXİK-ə bütün (İtaliya, İran, Türkiyədən savayı) nümayəndəlik, konsulluq və s. ölkədən çıxarılması tapşırığı verildi. Bununla əlaqədar olaraq Cənubi Qafqaz İttifaq Şurasında

Almaniyanın Bakıdakı nümayəndəliyinin ləğvinə dair qərar (22.IV.1922) çıxarıldı. Ancaq Rapallo müqaviləsinin hesabına nümayəndəlik yenidən bərpa olundu və A.Beme Bakıdakı konsul kimi tanındı (2.X.1922).

Ancaq yenə də «Azərbaycan SSR-in tanınması məsələsi» gündəmə gətirildi. Rapallo müqaviləsinin digər respublikalarla yanaşı, Azərbaycan SSR-ə də aid edilməsinə dair sazişin imzalanması (5.XI.1922) və Almaniyanın onu da deyure tanıması yetərli olmadı. Nümayəndəlik yenidən və bu dəfə daha uzun müddətə (1992-ci ilin fevralınadək) bağlanmış oldu.

Avropanın digər dövlətlərinin nümayəndəliklərinin də aqibətləri yaxşı olmadı. Hollandiyanın konsulluğu ilə İsveçrənin konsul agentliyi aprel işğalından az sonra ləğv edildi. Finlandiyanın Bakıda konsul agenti ilə (Knorinq) təmsil olunması baş tutmadı. Buna da Rusiya XXİK-in təzyiqi və «Finlandiyanın Azərbaycanı tanımaması» bəhanəsi ciddi təsir göstərdi. Norveçin Bakıda nümayəndə statusu ilə təyin etdiyi (I.1922) Kupermanın öz səlahiyyətlərinin icrasına başlamasına imkan verilmədi.

Paralel surətdə məlum bəhanə ilə İsveç konsul agentliyi də bağlanıldı. Yunanıstanın kamalçı Türkiyə ilə müharibə şəraitində olması və s. məsələlər nəzərə alınmaqla onun Bakıdakı konsulu Kussisin fəaliyyəti məhdudlaşdırıldı. Aprel cevrilişindən az sonra həbs olunan Polşa səfiri (T.Filippoviç) yalnız 1920-ci ilin sonunda ölkəsinə qayıda bildi. Nümayəndəlik isə bir müddət sonra fəaliyyətini dayandırdı. Habelə Çexoslovakiyanın Bakıdakı Qırmızı Xaç nümayəndəliyi və bu cür digər qurumlar da bağlandı.

Azərbaycan SSR-in Baltikyanı ölkələr (Litva, Latviya və Estoniya) ilə də «diplomatik problemləri» ortaya çıxdı:

1) Litva ilə bəzi mübahisəli məsələlərlə bağlı müzakirələr aparıldı. Onlara tərəflərin bir-birilərində yaşayan vətəndaşlarının hüquqi vəziyyəti, litvalıların müsadirə olunan əmlaklarının qaytarılması və habelə aparılması şərtləri (müddəti, güzəştlər, ölkəmizdən çıxara biləcəkləri pulun məbləği və s.) daxil idi. Vətəndaşların hüquqi durumu iki bəndlik sazişlə (Tiflis – 25.IX.1920) tənzimləndi. Ancaq bu zaman Azərbaycandakı Litva vətəndaşlarının hüquqlarının təminatının RSFSR-Litva müqaviləsi (12.VII.1920) əsasında həyata keçirilməsi nəzərdə tutuldu (Yeri gəlmişkən, bu hal Azərbaycanın o dövrki xarici siyasətinin müstəqilliyinə dair iddiaların yanlışlığını təsdiqləyən daha bir tutarlı dəlil kimi də dəyərləndirilə bilər).

Litvalıların mallarının müsadirəsinə etirazlar və onların qaytarılmasına dair tələblər rədd edildi. Azərbaycan hökumətinin Qafqazda iki il yaşamayanların öz əmlaklarını apara bilməmələri və ölkədən çıxarıla biləcək malların daşınması üçün müəyyənləşdirdiyi bir illik müddətlə bağlı etirazlar da qəbul olunmadı. Hər bir litvalının Azərbaycandan çıxara biləcəyi pulun məbləği isə 250 min (500 min xahiş edilmişdi) manat həcmində müəyyənləşdirildi.

Litva tərəfinin etirazlarının eşidilməməsi və xahişlərinə əməl olunmaması isə «diplomatik-hüquqi dəlil»lə, yəni Litvanın Rusiya ilə məlum müqaviləsinə uyğun gəlməməsilə «əsaslandırıldı». Digər tərəfdən də, başqa bir imkan əldə edildi. Yəni Litva vətəndaşlarının Azərbaycandan getmələri onun Bakıdakı konsulluğuna da ehtiyacı qalmaması «zərurətini aşkarladı». Cənubi Qafqaz İttifaq Şurasının göstərişi (28.VIII.1922) və respublikalar arasında «beynəlxalq hüquqa uyğun müqavilə münasibətlərinin olmaması»na dair «məşhur bəhanə» ilə konsulluğun fəaliyyətinə son qoyuldu.

2) Latviya ilə münasibətlərdə onun Azərbaycan SSR-də yaşayan vətəndaşlarının hüquqları və konsulluğunun fəa-

liyyəti, habelə tərəflərin bir-birilərini rəsmən tanımaları kimi problemlər mühüm yer tuturdu. Onların çözülməsi nəticələrinə gəldikdə latviyalıların hüquqlarının pozulmasına dair məlumatlar və etirazlar da əsassız sayıldı. Habelə ölkəmizdə məskunlaşan latviyalılara sinfi-ideoloji tərəflərdən yanaşıldı, yəni kommunistlərə, «istismarçılar»a və başqalarına fərqli şərait yaradıldı. «Azərbaycan SSR-in tanınması» prinsipi Latviya konsulluğunun da taleyini həll etdi. Onun bağlanması haqqında qəbul edilən qərar (III.1921) ləngidilmədən icra olundu.

3) Estoniya ilə diplomatik əlaqələr qurulması üçün onun konsulunun Bakıya gəlməsinin razılaşdırılması, Azərbaycandakı vətəndaşlarının hüquqlarının müdafiəsi və s. tələb olunurdu. Azərbaycan hökuməti yenə də «süni əngəllər» yaradılması üsuluna üstünlük verdi. Belə ki, əvvəlcə Estoniyanın Azərbaycana təyin etdiyi (IX.1920) konsul ölkəyə buraxılmadı. Sonra da onun Bakıya gəlişi bəzi əsassız şərtlərlə əlaqələndirildi: tərəflər arasında siyasi-ticarət sazişinin imzalanması və Sovet Azərbaycanının tanınması.

Konsul təyinatını diplomatik əlaqələrin qurulmasına – rəsmi tanınmaya yönəlik ilkin aktlardan biri kimi dəyərləndirən Estoniya isə bunları lazım bildi: Azərbaycan SSR-dəki vətəndaşlarının hüquqi durumunun beynəlxalq normalara uyğunlaşdırılması; Revel (indiki Tallində) Azərbaycan nümayəndəliyinin açılması, hazırladığı ilkin sazişin layihəsinin müzakirəsi və s. Bu layihədə isə tərəflərin müstəqilliklərinin qarşılıqlı tanınması və öz vətəndaşlarının hüquqlarının birlikdə müdafiəsi, ilkin sazişin imzalanması ilə ölkələr arasında diplomatik münasibətlərin yaradılması, habelə siyasi-ticarət müqaviləsinin bağlanması üçün danışıqlara başlanılması istənildi.

Azərbaycan Estoniyanın təkliflərinə münasibətini B.Şahtaxtınskinin notası ilə (6.IX.1920) bildirdi. Notada, bir tərəfdən, Azərbaycan SSR-in danışıqlara və ilkin sazişin bağlanmasına normal yanaşdığı, bunların tərəflər arasında dostluq (müttəfiqlik) münasibətlərinin yaradılmasına, ölkəmizdəki Estoniya vətəndaşlarının hüquqlarının müdafiəsinə, onun konsulunun Bakıya gəlişinin tezləşməsinə müsbət təsir edəcəyi vurğulanırdı. Digər yandan da, Azərbaycanın layihə ilə bağlı təklifləri Estoniyanı əsla qane etmədi.

Layihənin yeni redaksiyası («Azərbaycan variantı») ilə əlaqədar notada (16.IX.1920) Estoniya diplomatiyası özünün son və qəti mövqeyini belə açıqladı: əlavələr (sovet redaktəsi) Azərbaycandakı təbəələrimizi daha da çətin duruma salır; konsulun tanınmaması və Bakıya buraxılmaması dostyana hərəkət sayılmır; dostluq əlaqələrinin yaradılmasına tərəfimizdən yetərincə səy göstərilmişdir; yeni redaksiyanın qəbulu və ilkin sazişin bağlanması mümkünsüzdür. Tərəflərarası «notalar savaşı» isə 1921-ci ilin yayında Estoniya konsulluğunun ləğvi ilə nəticələndi.

Azərbaycandakı xarici nümayəndəliklərin bağlanması məsələsində və, ümumiyyətlə, onun Rusiya və Qərb dövlətləri, habelə Türkiyə ilə münasibətlərində iki mühüm problem də xüsusi yer turmuşdu: **1.** Avropa dövlətlərinin ölkəmizdəki vətəndaşlarının hüquqi və s. durumu. **2.** Əsirlərin dəyişdirilməsi.

Birinci problem Azərbaycanın Rusiya tərəfindən yenidən işğalı və onun nəticəsində həyata keçirilən hakimiyyət (dövlət) dəyişikliyilə əlaqədar yaranmışdı. Yeni siyasi sistemdən irəli gələn dözülməz şərait ölkəmizdəki əcnəbi təbəələr üçün də ciddi çətinliklər törədirdi.

Bu dövrdə bir çox xarici dövlətin xeyli vətəndaşı hələ ki Azərbaycanda qalmaqda idi. Onların buradakı durumu məsələlərinə və problemlərinin həllinə yanaşmada isə iki

fərqli baxış-mövqe ortaya çıxmışdı: üzdə (sözdə) Azərbaycanın – arxada (işdə) Rusiyanın; Bakıdakı diplomatik korpusun.

«Müstəqil» Azərbaycan (Sovet Rusiyası) bunlara nail olmağa çalışırdı: ölkəmizdə yaşamağa davam edən xaricilərin bezikdirilməsi; əcnəbilərin respublikaya gəliş-gedişinin və ölkə daxilində sərbəst hərəkətlərinin məhdudlaşdırılması; onların müsadirə olunan əmlaklarının heç vəchlə qaytarılmaması və pullarının ölkədən çıxarılmasının əngəllənməsi; kommunist – «zəhmətkeş» əcnəbilərin Avropa ilə Şərqdəki dünya proletar inqilabı üçün hazırlanmaları və s. Bu hədəflərə yetişilməsi üçünsə aşağıdakılar həyata keçirildi:

- öncə, bu işlərin görülməsi lazımi «hüquqi baza» ilə təmin edildi. Azərbaycan hökuməti «Əcnəbi vətəndaşların mallarının qeydiyyata alınmaması və mənzil məsələsində yerli vətəndaşlarla bərabər durumda olmaları barədə» qərar (30.VII.1920), «Xaricilərin Azərbaycandakı hüquq və vəzifələri haqqında» əsasnamə, eyniadlı izahat (10.III.1921) və b. sənədlər hazırladı. Habelə RSFSR-in bir sıra qanunvericilik aktlarının da Azərbaycanda tətbiqinə başlanıldı. Bunlara Ümumrusiya Fövqəladə Komissiyasının «RSFSR ərazisindən xaricilərin çıxarılması qaydaları» (16.I.1922), Rusiya XKS-nin «RSFSR vətəndaşlarının və əcnəbilərin xaricə getmələri haqqında» dekret (10.V.1922) və s. misal ola bilər;
- daha sonra bu «hüquqi əsaslar»a – göstərilən sənədlərdə nəzərdə tutulanlara müvafiq əməli addımlar atıldı. Belə ki, xarici vətəndaşlar hərbi mükəlləfiyyət daşıya bilməzdilər. Onlardan vergi alınması qadağan edilirdi. Mülkləri milliləşdirilə, mənzilləri axtarıla və müsadirə edilə bilərdi və s. Bir sözlə, onların hüquq və vəzifələri yerli əhalininkilərlə eyniləşdirildi. Bunlara əlavə olaraq xaricilərin ölkəyə gediş-gəlişi çətinləşdirildi, onların daxildəki hərəkət sərbəstliyi məhdudlaşdırıldı və kiçik istisnalarla Azərbaycandan tranzit keçidlərə qadağa qoyuldu. Xaricilərin iki həftəyə qeydiyyatdan keçirilməsinə başlanıldı (VII.1921). Bütün bunlar isə onların Azərbaycanda uzun müddətə yaşama və işləmə imkanlarını heçə endirdi;
- həmçinin bu prosesin diplomatik və ideoloji təminatı həyata keçirildi. Yəni ki, xaricilərin Azərbaycanda üzləşdikləri problemlər təbii sayıldı. Bu hal onların vətəndaşları olduqları dövlətlərin Azərbaycan SSR-i tanımamaları və onunla beynəlxalq müqavilələr bağlamamaları ilə əlaqələndirildi. Ölkədə insan haqlarının pozulmasına dair iradlar, etirazlar və s. əsla məhəl qoyulmadı. AK(b)P MK-nın Təbliğat, Milli azlıqlar şöbələri, habelə Köçürmə mərkəzi və s. qurumlar vasitəsilə geniş əks təbliğat işi aparıldı. Bu yöndə də xarici vətəndaşların arasındakı kommunistlərdən istifadə olundu. Onlar həm də öz vətənlərində «siyasi iş aparmaq və inqilab etmək» üçün hazırlanırdılar. Bundan ötrü də geniş şəbəkə yaradılmışdı. Bu şəbəkə AK(b)P MK-nın polyak, latış, alman, yunan bölmələrini, Milli azlıqlar şöbəsinin xüsusi bürolarını, yunan fəhlə klubunu və s. əhatə edirdi.

Xarici ölkə vətəndaşlarının Azərbaycanda üzləşdikləri çətinliklərin aradan qaldırılmasında əsas ağırlıq diplomatik korpusun üzərinə düşmüşdü. Beynəlxalq-regional qurumların, qeyri-hökumət təşkilatlarının, hüquq müdafiəçiləri institutunun geniş yayılmadığı bir dövrdə xarici nümayəndəliklər başlıca ümid yerinə çevrilmişdilər (Sözgəlişi, onlar bir çox hallarda yerli əhalinin də işlərinə yarayırdılar).

Aprel işğalından sonrakı ilk vaxtlarda diplomatik korpusun əsas diqqəti xarici təbəələrin şəxsiyyətinin (fiziki mövcudluqlarının) qorunmasına yönəldilmişdi. Hollandiya,

İsveçrə və digər dövlətlərin Azərbaycandakı nümayəndələrinin bu dövrdə öz dövlətlərinə yolladıqları teleqramlarda həmin məsələlərlə əlaqədar məqamlara (onların vətəndaşlarının sağ-salamat olmaları və s.) toxunulurdu.

İran konsulluğu Avropanın bir neçə ölkəsinin Azərbaycandakı vətəndaşlarının hüquqlarının müdafiəsi işini öz üzərinə götürmək təşəbbüsü ilə çıxış etmişdi. Bunu onun Azərbaycan XXİK-ə müraciəti də (30.IV və 24.V.1921) təsdiqləyir.

Yunanıstan Azərbaycan XXİK-ə xüsusi sənəd göndərərək (20.VIII.1920) öz vətəndaşlarının hüquqlarının qorunması səlahiyyətinin Gürcüstanın Azərbaycandakı səfiri N.Alşibayaya həvalə etmişdi (Baltikyanı ölkələrin diplomatlarının müvafiq fəaliyyətindən az öncə bəhs olunmuşdur). Diplomatik korpusun Azərbaycan SSR hökumətilə çoxşaxəli müzakirələri və yazışmaları əcnəbi təbəələrin çeşidli hüquqlarının (şəxsi və vicdan azadlıqları, mülkiyyət, sahibkarlıq və s.) müdafiəsi sahəsindəki vəziyyəti aydınlaşdırmağa imkan verir.

Əsirlərin və həbs olunanların dəyişdirilməsi məsələsi Birinci Dünya müharibəsi və onun ətrafında cərəyan edən proseslərlə, habelə Aprel çevrilişindən sonra Azərbaycanda baş verən hadisələrlə bağlı ortaya çıxmışdı. O, təbii olaraq, maraqlı dövlətlərin (İngiltərə, Rusiya, Türkiyə, Fransa), müxtəlif ölkələrdəki diplomatik korpusların, Azərbaycan SSR-in və digərlərinin diqqət mərkəzində idi.

Əsirlər və həbs olunanlar kateqoriyası hələ də Azərbaycanda olan ingilis-fransız, İngiltərənin nüfuz dairəsindəki ölkələrdə saxlanılan rus, Türkiyədəki fransız-ingilis vətəndaşlarını, habelə vaxtilə Maltaya sürgün edilən kamalçıları əhatə edirdi (Sözgəlişi, Ə.Ağayev (Ağaoğlu) da sonuncularla birlikdə hələ də orada saxlanılırdı. Lord Kerzonun qardaşı – ingilis nümayəndəsi Rawlinson isə Türkiyədə tutulmuşdu).

İngiltərə və Rusiya bu məsələdə müəyyən özəl və konkret məqsədlər güdürdülər. Onların gizli və açıq niyyətləri sırasında

Azərbaycanla sıx bağlı olanlar da vardı. Məsələn, Rusiya əsirlərin və həbs edilənlərin dəyişdirilməsi prosesindən həm də Azərbaycanda daha da möhkəmlənmək üçün faydalanmağa və burada sözsahibi olduğunu rəqiblərinə göstərməyə çalışırdı. Məsələyə dair müzakirə və sövdələşmələrin gedişində də olduqca maraqlı anlar yaşandı.

Burada ancaq Azərbaycan hökumətinin mövqeyinə dair bəzi diqqətçəkici məqamları qeyd etməklə kifayətlənmək olar. Azərbaycanın beynəlxalq durumu və «xarici siyasəti»lə əlaqədar bir çox hallarda olduğu kimi, bu məsələdə səlahiyyətlər «dost» Rusiyaya (M.Litvinova) etibar edilmişdi. RSFSR diplomatiyasının tövsiyəsi ilə Azərbaycanın müvafiq qurumları əvvəllər əsasən «İstanbulda həbs olunan müsəlman millətçilər»in (kamalçılar, Ə.Ağaoğlu və b.) azad edilməsilə məşğul idilər (Yeri gəlmişkən, Azərbaycanın bu yöndəki fəaliyyəti kamalçı (inqilabi) Türkiyə tərəfindən də dəstəklənmiş və onun lideri Mustafa Kamal paşanın təşəkkürü ilə (23.X. 1920) dəyərləndirilmişdi).

Bunu 1920-ci ilin avqustunda G.Çiçerin-N.Nərimanov-M.Hüseynov-M.Litvinov (RSFSR XXİK-in müavini, əsir dəyişdirilməsində vasitəçi) – S.Kirov (Rusiyanın Gürcüstandakı səlahiyyətli nümayəndəsi) arasındakı yazışmaların, yəni teleqramların və notaların məzmunlarından da görmək mümkündür.

Bu yazışmalarda toxunulan məsələlərə belə xülasə vermək olar: Bakıda «saxlanılan» ingilislərin İstanbulda həbs olunaraq Maltaya sürgün edilən kamalçılarla dəyişdirilməsinin labüdlüyü və Azərbaycanın bununla razılaşması. Bu razılaşmalara əsasən M.Hüseynov tərəfindən Tiflisdə ingilis və fransız təmsilçilərilə aparılan danışıqlar (IX.1920) əməli nəticə vermədi. Çünki onlar əsirlərin (həbs olunanların) dəyişdirilməsini deyil, yalnız özlərininkilərin buraxılma-

larını istədilər.

Rusiya danışıqların birinci mərhələsindəki uğursuzluğu Azərbaycanın «qeyri-ardıcıl mövqeyi»lə əlaqələndirdi. Buna əmin olmaq üçün elə təkcə G.Çiçerinin N.Nərimanova ünvanladığı (2, 19, 29.X.1920) teleqramlarda tutulan iradlara, edilən etirazlara və verilən «məsləhətlər»ə qısa nəzər salmaq yetər:

Mənim müvafiq teleqramlarım cavabsız qalır; Litvinova səlahiyyət verilsə də ona materiallar (azad etmək istədiyiniz şəxslərin siyahısı və s.) göndərilmir; ingilislərə görə, Azərbaycan hökuməti bizim hərbi köməyimizlə yaşayır; sizsiz İngiltərəyə heç bir cavab verə bilmirik və əsirlərin ucbatından onunla bütün digər danışıqlar da dayanmışdır (ticarət sazişinin (7.VII. 1920) icrasına dair və s. nəzərdə tutulur – İ.M.); onlar kamalçıların buraxılmalarını qətiyyətlə rədd edirlər; Bakıdakı fransız əsirlərinin azad edilmələri də tələb olunur; məqam buraxılmışdır və ingilis əsirlərin kamalçılarla dəyişdirilməsi daha mümkünsüzdür; bütün siyahı təcili göndərilməlidir; əsirlərin kollektiv şəkildə dəyişdirilməsi lazımdır, yəni Böyük Britaniyanın saxladığı – keçmiş Rusiya imperiyası təbəələrindən ibarət – əsirlərin Azərbaycan, RSFSR və b. dövlətlərdəki ingilis məhbuslarla əvəzlənməsi bizə daha məqbuldur; əsirlərlə bağlı münaqişə törədilməsi bizə sərfəli deyildir və sovet respublikalarının ümumi siyasəti üçün xoşagəlməz nəticələr verər, İngiltərə və Fransanın mövqelərini möhkəmləndirər; məsələ təcili və tamamilə həll edilməlidir; bu, indiki siyasi şəraitdə olduqca zəruridir; əsirlər eyni vaxtda dəyişdirilməlidirlər; Bakıdakı ingilis əsirləri Tiflisdə onların nümayəndəliklərinə verilməlidirlər və s.

Bu irad və «tövsiyələr»i əsas tutan Azərbaycan tərəfi Tiflisdə ingilis və fransız təmsiçilərilə aparılacaq müvafiq danışıqlara qatıldı (Sözgəlişi, buna İngiltərənin etiraz notası

da (9.X.1920) ciddi təsir göstərdi. Nota Azərbaycanda keçirilən siyasi tədbirlərdə onun əleyhinə aparılan təblitat və s. ilə əlaqədar olaraq verilmişdi).

Əvvəlcə bu iş Azərbaycan SSR-in Gürcüstandakı diplomatik nümayəndəsi Ə.Sadıxova həvalə olundu. Sonra isə əsirlərin dəyişdirilməsini tənzimləmək məqsədilə Tiflisə gələn M.Hüseynov özü danışıqlarda iştirak etdi (Buna paralel olaraq N.Nərimanovun Moskvaya və Londona göndərilən teleqramlarında (30.X.1920) Bakıda həbs olunan keçmiş ingilis konsulunun (Randolfun) və digər əsirlərin buraxıldıqlarını və Tiflisə göndəriləcəklərini bildirdi).

Əsirlərin dəyişdirilməsinə dair problemləri müzakirə edən üçtərəfli (Azərbaycan, RSFSR, Böyük Britaniya) müşavirə (1.XI.1920) protokolla yekunlaşdı. M.İsrafilov, L.Stark və K.Stoks tərəfindən imzalanan həmin protokol əsirlərin dəyişdirilməsinin mexanizmini tənzimləməli idi. Buna əsasən də Azərbaycandakı ingilis əsirlərinin öz vətənlərinə dönmələri təmin olundu. İngiltərə Maltada sürgün həyatı yaşayan kamalçıların bir hissəsini sərbəst buraxdı. Türkiyə isə ingilis əsirlərini hissə-hissə azad etdi.

Belə bir sonluqla yekunlaşan əsir dəyişdirilməsi prosesi Azərbaycan üçün elə bir ciddi nəticələrə səbəb olmadı. Bu məsələdən «Azərbaycan SSR-in rəsmən tanınması»nda yararlanılmasına (Avstriyanın hərbi əsirlər üzrə nümayəndəsinə və Qırmızı Xaç departamentinin rəisinə, habelə ayrı-ayrı dövlətlərin müxtəlif qurumlarına edilən müraciətlər və s.) yönəlik səylər də uğursuz oldu.

Ümumiyyətlə, ZSFSR və SSRİ-nin təşkili ilə Azərbaycanın formal suverenliyinə, «müstəqil xarici siyasəti»nə və onun Cümhuriyyət dönəmində formalaşın beynəlxalq siyasi-diplomatik əlaqələrinə xitam verilməsinə, bir növ, «hüquqi baza» yaradıldı. Bu məsələlərə birdəfəlik və qəti olaraq nöq-

tə (son) qoyulması məqsədilə daha bir «hüquqi əsas» da yaradıldı. Azərbaycan XKS-nin əmrilə (8.X.1923; №529) ölkəmizdəki bütün diplomatik nümayəndəliklər və digər belə qurumlar ləğv olundular. Onlar Quzey Azərbaycana bir də 1992-ci ilin əvvəlindən etibarən qayıda bildilər;

c) vahid xarici siyasət orqanının yaradılması. RSFSR hökuməti Azərbaycan SSR-in xarici dövlətlərdəki nümayəndəliklərinin və onların Bakıdakı təmsilçiliklərinin fəaliyyətlərini əngəlləməklə (bağlanmalarına nail olmaqla) yanaşı həm də Güney Qafqaz «respublikalarının xarici siyasəti»nin birləşdirilməsini həyata keçirirdi. Q.Orconikidze-G.Çiçerin-N.Nərimanov arasındakı yazışmalardan (29.IV və 6.V.1921) bəlli olduğu kimi, Rusiya XKS 1921-ci ildə B.Leqranı Cənubi Qafqaz respublikalarında səlahiyyətli nümayəndə təyin etməklə bu işə təkan verdi. Zaqafqaziya Federasiyası (ZF) İttifaq Şurasının (İŞ-in; sədri N.Nərimanov idi) dekretində (13.VI.1922) onların xarici siyasətinin birləşdirilməsi qərara alındı. Bu dekterlə:

- həmin sahəyə ümumi rəhbərlik İŞ-ə həvalə olunurdu;
- «müttəfiq respublikalar»ın XXİK-ləri ləğv edilirdi və onların yerinə İŞ-in Xarici Əlaqələr şöbəsi yaradıldırdı;
- şöbənin fəaliyyətinə rəhbərliyi isə İŞ-in Rəyasət Heyəti (RH) həyata keçirirdi;
- yerli XKS aparatı bu şöbənin respublikalardakı işini aparırdı;
- bu üç respublikanın RSFSR və digər sovet respublikalarındakı diplomatik nümayəndəlikləri bağlanılırdı və İŞ-in lazım bildiyi halda onların əvəzində ZF-in səlahiyyətli təmsilçiliyi təsis edilə bilərdi;
- onların hər birinə xarici dövlətlərdə diplomatik nümayəndəliklər saxlamaq hüququ verilirdi. Habelə xarici dövlətlərin də onlarda diplomatik təmsilçiliklər açmaları

mümkün sayılırdı. Ancaq bütün əlaqələr, həmçinin əcnəbi nümayəndəliklərin akkreditəsi Xarici Əlaqələr şöbəsi tərəfindən həyata keçirilirdi və İŞ-in təsdiqilə tənzimlənirdi.

İŞ RH bu dekreti bir daha təsdiqləyərək (15.VII.1922) Cənubi Qafqaz respublikalarında Xarici Əlaqələr üzrə katiblik də yaratdı (1.VIII.1922). Bunun ardınca İŞ-in «Xarici siyasətin birləşdirilməsi haqqında»kı başqa bir dekretinə (21.VIII.1922) görə isə: bu sahəyə ümumi rəhbərliyi Xarici Əlaqələr şöbəsi vasitəsilə – İŞ RH həyata keçirirdi; respublikaların İŞ RH-dəki nümayəndələri həm də özlərində XXİK olurdular; hər bir respublikada da xarici əlaqələr üzrə katibliklər və müvafiq şöbələr (habelə xarici pasport verilməsi) yaradılırdı; onlar xarici dövlətlərlə qarşılıqlı əlaqələrə dair cari işləri görməli, müvafiq göstərişlərlə əcnəbi nümayəndəlikləri qeydə almalı, xarici pasport və s. verməli idilər; Xarici əlaqələr üzrə katibliyin əsasnaməsi və onun başçısı İŞ RH-də təsdiqlənirdi.

Bu dekretə əsasən Azərbaycanda da Xarici Əlaqələr üzrə katiblik yaradıldı. Ə.Şirvani (Mustafabəyov) onun başçısı təyin edildi (22.VIII.1922). Katibliyin rəhbəri vaxtilə Azərbaycanın RSFSR-dəki səlahiyyətli nümayəndəsi olmuşdu. Məhdud səlahiyyətli, yəni yalnız protokol funksiyalarını icra edən katibliyin məxfi-siyasi, viza-pasport, ümumi-siyasi, maliyyə-təsərrüfat və s. şöbələri var idi.

İŞ Xarici Əlaqələr şöbəsinin Azərbaycana da göndərilən məktub-təlimatı (26.VIII.1922) əsasında bir sıra məlumatlar toplanıldı. Bu məlumatlar hansısa dövlətdə olub-qalan nümayəndəliklər və onların «əməkdaşları», habelə ölkəmizdə ilişib-qalan, bağlanmalarını gözləyən xarici təmsilçiliklər və işçiləri, həm də Azərbaycanda yaşamağa davam edən əcnəbi vətəndaşların himayəçiləri və s. dair bilgiləri

əhatə edirdi.

Çoxlu müvafiq məlumatlar yığılmasına müvəffəq olan Rusiya Güney Qafqaza gəliş-gediş məsələlərini də öz nəzarətinə götürə bildi. ZF İŞ məhz elə bu niyyətlə də «Cənubi Qafqaz respublikalarına xaricdən gələn şəxslər haqqında» dekret verdi. Sovet respublikalarından gələnlərə aid edilməyən həmin dekretlə xarici dövlətlərin vətəndaşlarının hərəkətinə ciddi maneələr törədildi. Əslində onun qəbulu ilə bütün sovet respublikaları arasında viza rejimi ləğv olunmuş sayılırdı;

ç) Azərbaycan SSR-in RSFSR-dəki səlahiyyətli nümayəndəliyinin fəaliyyətinin əngəllənməsi. Rusiya Şimali Azərbaycana yenidən yiyələnməyə başladığı dövrdə onun Moskvada «səlahiyyətli nümayəndəlik» açmasına «şərait yaratdı». Azərbaycan SSR hökuməti isə bu «qarşılıqlı anlaşmanı», «etimadı» cavabsız qoymadı.

Əvvəllər (IV-VI.1920) nümayəndəliyə elə rus kökənli N.İ.Solovyovun başçılıq etməsi məsləhət görüldü (Sözgəlişi, o, sonralar Azərbaycan Xalq Təsərrüfatı Şurasının sədri işləyərkən V.Leninə hesabatında belə bir cəhəti önə çəkmişdi: Təhqiramiz haldır ki, Azərbaycanın Gürcüstan və Ermənistanla apardığı danışıqlarda onun tərəfindən müvafiq surətdə gürcülər və ermənilər iştirak edirlər).

Adıçəkilən «səlahiyyətli nümayəndəliyə» B.Şaxtaxtınskinin başçılıq etdiyi müddət isə «səmərəliliyi» ilə fərqlənir. Həmin müddət Azərbaycanın yenidən Rusiyanın asılılığına keçməsini sürətləndirən sazişlər və müqavilələr «bolluğu» ilə səciyyələnir (Bunlar barədə bir az əvvəldə ətraflı yazılmışdır).

«Səlahiyyətli nümayəndəliy»in fəaliyyəti, ona başçılıq edənlərin şəxsiyyətindən asılı olmayaraq, bir sıra «labüd» əngəllərlə qarşılaşdı. Onlar qismən Azərbaycanın «müstəqil xarici siyasəti»nin xarakterindən və ona müvafiq iş üsullarından irəli gəlirdi; əsasən isə Rusiya tərəfindən məlum səbəblər üzündən törədilirdi. Azərbaycan XXİK-in nümayəndəliyi yetərincə təlimatlandıra, məlumat-maliyyə vəsaiti, məişət şəraiti və s. ilə təmin edə bilməməsi (bəlkə də istəməməsi) qismən olan əngəllər (çətinliklər) silsiləsindən idi.

RSFSR hökuməti başqatan (vaxtaparan) maneələrlə (məişət-texniki problemlər və s.) yanaşı məqsədyönlü əngəllər də yaradırdı. Onlara Azərbaycan SSR-in Səhiyyə, Maarif və b. komissarlıqlarının Moskvadakı təmsilçilərinin bir nəfərin şəxsində birləşdirilməsi və onun da «səlahiyyətli nümayəndəyə» tabe etdirilməsi tələbi, sonuncunun fəaliyyətinə hətta ştat cədvəli səviyyəsində müdaxilə və s. aid edilə bilər. Nümayəndəliyin strukturu ilə bağlı ştat cədvəlinin tərkibini təftiş edən Rusiya XXİK-i informasiya, pasport-viza, təsərrüfat sahələrinə ehtiyac olmadığını «məsləhət görürdü». Bu isə RSFSR XXİK-də pasport-viza şöbəsinin mövcudluğu (?! - İ.M.), nümayəndəliyin təsərrüfat fəaliyyətini təmin edəcəyi (inamsızlıqdan irəli gələn məxfi işlərin - güdmə, izləmə – görülməsi üçün) kimi «dəlillərlə əsaslandırıldı».

Fəaliyyət şərtlərinin həddən ziyadə ağırlığı və dözülməzliyi nümayəndəliyin məsul şəxslərini (başçıları və s.) rahatsız etmiş, hətta qeyzləndirmişdi. Belə ki, İ.İsmayılzadə səlahiyyətli nümayəndəliyin işinin təşkili ilə bağlı üzləşdiyi çətinlikləri, qərəzli münasibəti və gəldiyi qənaəti Azərbaycan XXİK-ə göndərdiyi çoxsaylı məktublarında (VIII.1921 və s.) bu cür ifadə etmişdi:

Azərbaycan XXİK-dən təlimat və göstərişlər almağın çətinliyi, öz hökumətinin mövqe və təkliflərinin Rusiya Xarici siyasət idarəsi tərəfindən əsla nəzərə alınmaması; nümayəndəliyin məktub göndərən kuryerinin olmaması; milyonlarla pul sərf edib bu cür nümayəndəlik saxlamağa ehtiyac qalmaması.

O hətta özünün səlahiyyətli nümayəndə deyil, yalnız təmçilçiliyin işinin təşkilatçısı olmasını bəhanə edərək Cənubi Qafqaz dəmir yollarının vahid idarəsinin yaradılmasına dair protokolu imzalamadan elə G.Çiçerinin yanındaca imtina etmişdi (8.VIII.1921). Habelə universitetdə təhsilini davam etdirmək istədiyini bildirərək Azərbaycan XXİK-dən onun əvəzlənməsini – Moskvaya səlahiyyətli nümayəndə göndərilməsini istəmişdi.

Azərbaycan SSR-in RSFSR-dəki yeni səlahiyyətli nümayəndəsi təyin olunan (12.XII.1921) Ə.Şirvani (Mustafabəyov) da, demək olar ki, eyni mənbələrdən (Bakı və Moskvadan) qaynaqlanan və əvvəlkiləri təkrarlayan problem – maneələrlə qarşılaşmışdı. Onun Azərbaycan XXİK-ə yolladığı məktubdan da (17.I.1992) göründüyü kimi, Rusiya tərəfi nümayəndəliyin fəaliyyəti üçün lazım gələn şəraiti daha da şərtləşdirmiş və qəlizləşdirmişdi. Hətta G.Çiçerin də nümayəndəliyə ehtiyac olmadığını bildirir, onun başçısını qəbul etməkdən müxtəlif bəhanələrlə yayınırdı.

Mövcud durumun qismən də olsa yaxşılaşdırılmasına cəhdlər edən yeni nümayəndə Rusiyanın baş diplomatına öz iradlarını bildirdi (9.II.1922): təmsilçiliyin təklif və müraciətlərinə yenə də məhəl qoyulmaması, məişət-təsərrüfat qayğılarına biganəlik və s.

Nümayəndəliyin bu dövrdəki vəziyyətini və fəaliyyətini səciyyələndirərkən passivlik, qeyri-çeviklik, informasiyasızlıq və s. halları önə çəkən Ə.Şirvani də əməli nəticələr əldə edə bilmədi. Nümayəndəliyə yeni bina alınması, bütün blank və ştamplara türkcə mətnin də daxil edilməsi və s. çıxılmaqla elə bir ciddi, diqqətçəkici uğur qazanılmadı (Əslində bu mümkünsüzdü).

Zaqafqaziya Federativ İttifaqının təşkili ərəfəsində Azərbaycan hökuməti Moskvadakı nümayəndəliyini «yada

saldı». Bu isə onun tərkibində təmizləmə və ixtisarın aparılması, məsul işçilərin əvəzlənməsi və s. ilə nəticələndi. Bilavasitə N.Nərimanovun əmrinə (22.II.1922; №01) əsasən həyata keçirilən bu tədbirlər nümayəndəliyə daha baha başa gəldi.

Onun heyəti əvvəllər beş otaqda yerləşdirilən 75 nəfər əməkdaşdan 34 nəfərə qədər ixtisar edildi. Azərbaycanlıların sayı xeyli azaldıldı. Digər millətlərdən olanlara isə toxunulmadı. Məsələn, şifrəçi N.Smirnov, tərcüməçi İ.Çermanidze, mühəndis Tambayev, habelə Petrosyan, Akopov, Qalustov və b.

Çox az bir müddətdən sonra (8.II.1922) Ə.Şirvani də xəstəliyi və digər səbəblərə görə vəzifəsindən azad olundu (O, bir qədər Azərbaycan XKS-nin sərəncamında saxlanıldıqdan sonra ZF İŞ-in Azərbaycan üzrə Xarici İşlərə dair səlahiyyətli nümayəndəsi təyin edildi. Sözgəlişi, o vaxtilə (X-XI.1920) AİK-in Qarabağ və Zəngəzurdakı Fövqəladə komissarı işləmişdi).

Tezliklə nümayəndəliyin özünün fəaliyyətinə xitam verildi. Azərbaycan XKS-nin iclasında (14.V.1922) onun fəaliyyəti haqqında məsələyə baxıldı. Ə.Şirvaninin məruzəsini müzakirə edən iclas Moskvada yalnız iqtisadi nümayəndəliyin saxlanılmasını qərara aldı. Onun «fəaliyyətinə rəhbərlik» isə Ali İqtisadi Şuraya həvalə olundu.

RSFSR hökuməti Azərbaycanın Rusiyadakı digər qurumlarına, müxtəlif təmsilçiliklərinə də xoş münasibət göstərmədi. Rusiyada xarici dövlətlərin diplomatik nümayəndəliklərinin və konsulluqlarının fəaliyyətini tənzimləyən əsasnamələr (30.VI və 7.VII.1921) və s. sənədlər bu işdə əsas tutuldu.

Həmin əsasnamələrə və habelə RSFSR XXİK-in Sovet respublikalarının Moskvadakı səlahiyyətli nümayəndəliklərinə məktubuna (23.VII.1921) əsasən «düşmən ünsürlərin

ölkəyə gəlişinin qarşısını almaq» adı altında viza rejimi sərtləşdirildi. Buna müvafiq olaraq da konsulluqların fəaliyyəti məhdudlaşdırıldı.

Bunlar Azərbaycan üçün də izsiz ötüşmədi. Onun vaxtilə (18.I.1920) İrkutskda açılan konsulluğu da sıxıntılara məruz qaldı. Sibirdəki azərbaycanlı məskənlərinin təşəbbüsü əsasında yaradılan bu quruma başçılıq edən Əfəndizadə Aprel çevrilişindən az sonra (27.VIII.1920) təkrarən bu vəzifəyə təyin olunmuşdu.

Konsulluq əsasən Sibirdəki azərbaycanlıların şəxsiyyətlərinin və mülki hüquqlarının qorunması, Vətənə qayıtmaları, orada yaşayan digər müsəlmanlarla əlaqədar və s. məsələlərin həllilə məşğul olurdu. Maliyyə vəsaiti çatışmazlığı və b. təbii çətinliklərin Rusiyanın təzyiqlərilə tamamlanması konsulluğun məhdud fəaliyyətini daha da əngəlləyirdi. Və, digər konsulluqlar kimi, o da tezliklə fəaliyyətini dayandırmağa məcbur oldu.

Azərbaycan SSR-in sovet respublikalarında səlahiyyətli nümayəndəliklər, konsulluqlar, humanitar qurumlar yaratmasına da imkan verilmirdi. RSFSR XXİK-in (M.Litvinovun) Azərbaycanın Moskvadakı səlahiyyətli nümayəndəliyinə məktubunda (25.VII.1921) müəyyən «tövsiyələr verilir» - xəbərdarlıqlar edilirdi:

1-cisi, sovet respublikalarının RSFSR-də konsulluqlar açmaları və konsullar təyin etmələri yalnız Rusiya XXİK-i ilə razılaşdırıldıqdan sonra mümkün ola bilərdi. **2-cisi,** RSFSR və müttəfiq sovet respublikalarının ümumi vətəndaşlığına, onların eyni hüquqlardan istifadə etmələrinə, vahid siyasi-iqtisadi və b. maraqlarına görə konsulluq müəssisələrinin təşkili zəruri sayılmırdı.

RSFSR XKS hətta öz vətəndaşlarının Azərbaycana getmələri üçün nəzərdə tutulan viza qaydasını da ləğv etdi

(23.I.1922). Bu zaman onlar Rusiyadaxili qaydalara əsasən hərəkət edə bilərdilər.

RSFSR sovet respublikalarında özünün səlahiyyətli nümayəndəliklərini və konsulluqlarını açmaqla da onların fəaliyyətinə nəzarət dairəsini xeyli genişləndirdi. Gürcüstan və Ermənistanla yanaşı Azərbaycanda da səlahiyyətli nümayəndə olan B.Leqranın nümunəsində bu daha yaxşı görünür.

Rusiya həm də Bakıda baş konsulluq açmışdı (29.XI.1921). Onun rəhbəri Kuznetsov elə ilk vaxtlardan etibarən Azərbaycanın daxili işlərinə müdaxilə edir, əsassız iddialar irəli sürürdü (Yeri gəlmişkən, AK (b)P-dəki «millətçi təmayül»ün liderlərindən sayılan Ə.Xanbudaqovun «Moskva Azərbaycanın daxili işlərinə qarışmayacaq» mülahizəsi əməldə deyil, sözdə «gerçəkləşdirilirdi»).

RSFSR XXİK Yaxın Şərq şöbəsinin müdiri Pastuxovla (Vaxtilə N.Nərimanov da həmin vəzifədə işləmişdi) Ə.Şirvaninin yazışmaları (II.1922) Kuznetsovun daxili işlərə müdaxilə imkanı qazanmaq üçün yararlandığı bəhanələri (məişət, gömrük, mühafizə və s. məsələrlə bağlı) yaxşıca açıqlayır.

Burada da ötkəmlik göstərən Ə.Şirvani baş konsulu öz vəzifələrini unutmaqda (səlahiyyətlərini aşmaqda) və Rusiya Xalq komissarlarını, onların yerlərdəki idarə-müəssisələrini isə süni problemlər yaratmaqda, «öz qardaş respublikalarını yuxarıdan inkar etməkdə», «Bakını Rusiyanın əyalət şəhəri» saymaqda qınayırdı. RSFSR-in Azərbaycandakı diplomatik qurumları yerli kadrların, vəzifəli şəxslərin müxtəlif bəhanələrlə işdən çıxarılmalarına da nail olurdular.

Respublika Gömrük komissarı (Tehrandakı sabiq səfir) Ə.Məmmədzadə – «əksinqilabi ünsürlər»lə və İrandakı «düşmənlər»lə əlaqələrinə görə - Əfqanıstan əmiri Əmənulla xanın Moskvaya gəlməsi üçün «vaqon ayırmaması» bəhanəsilə vəzifəsindən kənarlaşdırıldı (10.V.1922).

Kuznetsovun mühafizə məsələləsi də həllini tapdı. Ancaq o, tezliklə (XI.1922) Sovet Rusiyasının Buxaradakı keçmiş səfiri A.Fratkinlə əvəzləndi. Bütövlükdə isə siyasi proseslərin gedişi və «qardaş respublikaların vahid sovet ailəsi»ndə birləşməsinin yekunlaşması ilə RSFSR və Azərbaycan SSR-in birbirilərindəki diplomatik qurumları da tarixə qovuşduruldu.

***

Rusiya tərəfindən yenidən işğal olunan Quzey Azərbaycan bir müddət metropoliya ilə «bərabərhüquqlu dövlətlərarası münasibətlərə girmək imkanı» qazandı. Beynəlxalq şəraitin gerçəkliklərini və özünün daxili problemlərini nəzərə alan RSFSR də hələlik onunla «mehriban qonşuluğu» – «dinc yanaşı yaşamağı» üstün tutdu.

«Qarşılıqlı əlverişli anlaşma və tərəfdaşlıq» onlar arasındakı əlaqələrdə «müqavilələr bolluğu»na səbəb oldu. Ermənistanı və Gürcüstanı da ləngitmədən işğal etməyi (sovetləşdirməyi) hədəfə alan Rusiya Azərbaycanın potensialından yetərincə faydalandı. Həm də onun torpaqlarını (Zəngəzur və s.) Ermənistana «bağışladı». Bakı neftinin hesabına iqtisadiyyatını bərpa və inkişaf etdirdi.

Azərbaycan SSR tədricən beynəlxalq aləmdən təcrid olundu və onun diplomatik əlaqələrinə son qoyuldu. Rusiya imperiyasının Sovetlər İttifaqı donunda bərpası ilə Azərbaycanla olan «bərabərhüquqlu tərəfdaşlıq» dönəmi də başa çatdı.

§4. Azərbaycanın ərazi bütövlüyünə yeni qəsdlər

Bakının və digər ərazilərimizin Rusiya tərəfindən yenidən işğalı Ermənistanın Azərbaycana qarşı torpaq iddialarını daha da qüvvətləndirdi. Onun Rusiyanın hərtərəfli yardımı ilə Azərbaycanın tarixi bölgələrinə (Qarabağ, Zəngəzur, Naxçıvan və s.) yiyələnmək siyasəti xeyli fəallaşdı.

Rusiya isə Ermənistanı da tutmaq və bu işi, habelə digər planlarını asanlıqla ərsəyə gətirmək məqsədilə Azərbaycan torpaqlarını ona «bağışlamağa» başladı. Bunlarla əlaqədar olaraq da Ermənistanla Azərbaycan arasındakı hərbi-siyasi qarşıdurma bu dövrdə nəinki səngimədi, əksinə, daha da gücləndi.

Azərbaycanla Ermənistan arasında diplomatik qarşıdurma (IV-X.1920)

Aprel istilasının ilk günlərindən etibarən Azərbaycanla Ermənistan arasında çox gərgin bir «diplomatik savaş» dönəmi yaşanmağa başladı. Daşnak hökumətinin XİN-i H.Ohancanyan hələ 1920-ci il aprelin 29-da AİK-in sədri N.Nərimanova 2886 saylı teleqram (nota) göndərdi. Orada Ermənistanın sərhədlərində yerləşən Azərbaycan hərbi hissələrinə Sovet qoşunları adı altında yeni qüvvələr göndərilməsi barədə məlumatlar alındığı yazılırdı. Notada habelə Azərbaycanın yeni rəhbərliyinin Qarabağ və Zəngəzurda hərbi əməliyyatları dayandıraraq öz qoşunlarını həmin bölgələrdən çıxaracağına inam bildirilirdi.

Azərbaycan SSR XXİK-in müavini M.Hüseynov Ermənistana cavab notasında (30.IV.1920) ondan üç gün müddətində: **1)** Qarabağı və Zəngəzuru öz qoşunlarından təmizləməyi; **2)** öz sərhədlərinə çəkilməyi; **3)** millətlərarası qırğına və ədavətə son qoymağı tələb etdi. Əks təqdirdə Azərbaycan SSR İnqilab Komitəsinin özünü Ermənistan Respublikası hökumətilə müharibə vəziyyətində hesab edəcəyi bildirildi («Kommunist» qəzeti (rusca, 4.V.1920; №2) yazırdı ki, Ermənistanın Zəngəzuru və Qarabağı boşatlmaqdan istisna etməsi sovet qoşunlarının onun üzərinə hücumuna səbəb ola

bilər).

Eyni zamanda Azərbaycanın Qarabağ və Zəngəzurdakı qoşun hissələrinə hücumu dayandıraraq əlverişli mövqe tutmaq və müdafiə vəziyyəti almaq əmr olundu. S.Kirov, Q.Orconikidze və b. imzası ilə İrəvana vurulan teleqramda (1.V.1920) «24 saat ərzində» qoşunları Sovet Azərbaycanının ərazilərindən çıxartmaq tələb olunurdu. Bunun icra edilməməsinin Sovet Rusiyasına meydan oxunması kimi başa düşüləcəyi və erməni silahlı qüvvələrinin onun ordusu tərəfindən həmin bölgələrdən kənarlaşdırılacağı yazılırdı.

Ermənistan rəhbərliyi Azərbaycan hökumətinin məlum notasını aldıqdan dərhal sonra Sovet Rusiyasına müraciət etdi. Ermənistan XİN-i G.Çiçerinə teleqram (30.IV.1920; 2659 saylı) göndərərək qırmızı əsgərlər dəstəsinin Qarabağ və Zəngəzura irəlilədiyini və bu yolla da Türkiyə ilə birləşməyə çalışdığını qeyd edir, habelə Sovet Rusiyası ilə danışıqlar aparılması üçün parlamentin üzvləri L.Şant və b. ibarət nümayəndə heyətinin müəyyənləşdirildiyini bildirirdi. Daha sonra G.Çiçerinə (surəti V.Leninə) ünvanlanan teleqramla (3.V.1920) Güney Qafqazda müstəqil respublikaların yarandığı dövrdə Zəngəzur və Qarabağın Ermənistandan ayrı düşməsi göstərilir, həmçinin orada erməni qoşun hissələrinin olması inkar edilirdi.

H.Ohancanyan Qafqaz cəbhəsinin Hərbi-İnqilab Şurasına (Q.Orconikidzeyə) mayın 1-də göndərdiyi notada (surətləri V.Leninə, G.Çiçerinə, Azərbaycan İnqilab Komitəsinə də yollanılmışdı) mübahisəli ərazilərdə nə əvvəllər, nə indi erməni qoşunlarının olmadığını yazır, ondan Azərbaycana hərbi hissələrini həmin bölgələrdən çıxarmağı tapşırmağı xahiş edirdi. Həm bu, həm də digər sənədlərdən göründüyü kimi Ermənistan onunla Azərbaycan arasındakı mübahisəli məsələlərin həllində Sovet Rusiyasının «vasitəçiliyi»ni istəyir

və buna çalışırdı.

Bu arada, mübahisəli məsələlərlə əlaqədar olaraq, Azərbaycanın XXİK-i ilə Ermənistan XİN-i arasında notalar mübadiləsi genişləndi. H.Ohancanyan mayın 3-də M.Hüseynova yolladığı notada (surətləri V.Leninə, G.Çiçerinə, Q.Orconikidzeyə) Azərbaycan hökumətinin 30 aprel tarixli nota-ultimatumundakı məsələlərlə bağlı yenə də riyakarcasına nə əvvəllərdə, nə də indi Azərbaycan ərazisində erməni qoşunlarının olmadığını söyləyir, Qarabağ-Zəngəzuru özlərininki sayaraq Azərbaycanın hərbi hissələrinin orada yerləşməsindən narahatçılığını bildirirdi.

Notada daha sonra yazılırdı ki, Azərbaycan öz hakimiyyətini heç vaxt Zəngəzura yaymamışdır, buna görə də onu öz ərazisi saymaq üçün hər hansı bir hüquqi və faktiki əsası yoxdur; Zəngəzur öz kəndliləri, Şura tərəfindən idarə olunur və özünü Ermənistanın ayrılmaz hissəsi hesab edir.

Özünü sülhsevər kimi qələmə verən H.Ohancanyan notasının sonunda gələcəkdə yeni silahlı toqquşmaların baş verə bilməsi imkanını aradan qaldırmaq məqsədilə: **a)** bütün hərbi əməliyyatları birdəfəlik dayandırmağa; **b)** iki qonşu respublika arasındakı sərhədlər haqqında məsələnin yekunlaşdırılması üçün danışıqlara başlamağa çağırırdı.

Azərbaycan hökuməti Ermənistan rəhbərliyinə cavab notasında (8.V.1920) onun yuxarıdakı «dəlilləri»lə razılaşmadığını və danışıqlara isə hazır olduğunu bildirdi. Mayın 9-da Azərbaycan XXİK-i «Erməni xalqına və erməni hökumətinə, Çiçerinə və hamıya, hamıya...» başlıqlı müraciət etdi.

Həmin müraciətdə vaxtilə Zəngəzur, Naxçıvan, Şərur və Ordubadda baş verən qarşılıqlı erməni-azərbaycanlı qırğınları xatırlanır, Ermənistanın da sovetləşəcəyi təqdirdə onunla dil tapmağın xeyli asanlaşacağı fikri vurğulanır, bütün mübahisəli məsələlərin həlli məqsədilə danışıqlar apar-

maq üçün öz səlahiyyətli nümayəndələrini mayın 15-dən gec olmayaraq Bakıya göndərmək təklif edilirdi.

Ermənistan XİN-i mayın 12-də Azərbaycan XXİK-in müavini M.Hüseynova və Azərbaycan xalqına ünvanlanan (surətləri G.Çiçerinə və V.Leninə) nota göndərdi. Bu notada çoxlu «maraqlı mülahizələr» vardı. Orada göstərilirdi ki, Azərbaycandakı yeni hökumətin birinci addımı Qarabağ və Zəngəzur ermənilərinin qətiyyətlə və dəfələrlə iradələrini ifadə etmələrinin əksinə olaraq onları zorla öz əsarətinə salmaq istiqamətinə yönəldilmişdir.

Notada Mustafa Kamala, Ənvər paşaya və Nuru paşaya böhtanlar atılır (onlar öz ölkələrində və Qafqazda erməni qırğınlarının təşkilatçıları kimi qələmə verilirdilər) və belə şəxslərlə əlaqələr saxladığına görə Azərbaycan hökumətinə iradlar tutulurdu.

Bu nota ilə Azərbaycan tərəfi yalnız Ermənistanda müsəlmanlara qarşı edilən vəhşiliklərdən danışmaqda və Naxçıvanda dinc erməni əhalisinə münasibətdə törədilən zorakılıqlar barədə isə susmaqda ittiham edilirdi. Notanın axırında Ermənistan hökuməti AİK-in bütün mübahisələrin həlli üçün danışıqlara başlamağa dair təklifini qəbul etdiyini və bu məqsədlə də səlahiyyətli təmsilçilər kimi Bakıdakı diplomatik nümayəndə M.Arutyunyantsın və digərlərinin təyin olunduqlarını bildirirdi.

Azərbaycanın Qarabağ, Naxçıvan, Zəngəzur bölgələrinin ələ keçirilməsinə böyük siyasi və strateji əhəmiyyət verən Sovet Rusiyası onların tutulması üçün həm diplomatik vasitələrdən istifadə edir, həm də xüsusi hərbi əməliyyatların planlarını işləyib hazırlayırdı. Habelə daxildəki bəzi qüvvələrlə birlikdə buna əlverişli ideoloji zəmin yaratmağa çalışırdı.

Məhz bu məqsədlə də RSFSR XXİK-in müavini, milliyyətcə erməni olan Qaraxan mayın 15-də İrəvana (1101

saylı) və Bakıya (1102 saylı) teleqramlar göndərdi. Həmin teleqramlarda: **a)** Ermənistan hökumətinin, Azərbaycanla onun arasındakı mübahisəli məsələlərin həllində vasitəçi rolunu öz üzərinə götürmək barədə, Sovet Rusiyasına edilən təklifinin qəbul olunduğu və **b)** digər tərəfin də buna razılığının zəruriliyi (şübhəsiz bu formal səciyyə daşıyırdı və protokol naminə idi – İ.M.) bildirilirdi.

Sovet Rusiyasının rəhbərliyi əsas məqsədini bu teleqramlarla açıqlayaraq mübahisəli ərazi məsələləri nizamlananadək – guya millətlərarası toqquşmalara və qırğınlara yol verməmək üçün – Naxçıvan, Zəngəzur, Qarabağın Qızıl ordu tərəfindən tutulacağını bəyan etdi. Azərbaycanın XXİK-i öz cavabında Sovet Rusiyasının bu vasitəçilik missiyasına razılığını bildirdi. Habelə ona öz nümayəndələrinin təyin olunmasını sürətləndirməyi, danışıqların yeri kimi Ermənistanın təklif etdiyi Qazaxın əvəzində isə (dəmir yolundan kənarda – *hər iki respublikanın paytaxtından aralı olması* və s. görə) Bakını məsləhət gördü.

Yenidən Rusiyanın asılılığına keçməsinə baxmayaraq, onun qoşunları bəzi mülahizələrə görə ermənilərin iddia etdikləri və hərbi hissələr saxladıqları Azərbaycan ərazilərini tutmağa hələ ki tələsmirdilər. Bu fikri G.Çiçerinin Q.Orconikidzeyə teleqramı (2.VI.1920) da təsdiqləyir. Teleqramda deyilirdi:

«Azərbaycan hökumətinə bildirin ki, biz Şuşa və Cəbrayılı tutmaqla kifayətlənmək zərurəti qarşısında qalmışıq... Bakı hökumətinə Naxçıvan və Culfanı indi tutmağın mümkün olmadığını və hərbi status kvo ilə kifayətlənmək məcburiyyətində qalmağın obyektiv səbəblərini bildirməyi xahiş edirəm... Bakıdakı böyük nüfuzunuzdan istifadə edib Azərbaycan hökumətinin Şərur-Dərələyəz qəzasını deyil, Qarabağ və Zəngəzuru mübahisəli ərazi kimi etirafına nail olmağı

xahiş edirik».

Daha sonra G.Çiçerin 1920-ci il iyunun 19-da 168/174 saylı teleqramla bildirirdi ki, Qarabağ, Zəngəzur, Naxçıvan və Culfa nə Ermənistana, nə Azərbaycana birləşdirilməməli, yerli sovetlərin razılığı ilə Rusiya qoşunlarının işğalı altında olmalıdırlar. Lakin Q.Orconikidzenin ona ünvanlanan teleqramından (21.VI.1920) bu da aydın olur ki, G.Çiçerinin Qarabağ və Zəngəzura dair N.Nərimanova vurduğu teleqramda həmin ərazilərin Azərbaycana birləşdrilməsindən danışılırdı.

Bizcə, bu cür qeyri-müəyyən (ziddiyyətli) mövqe Sovet Rusiyasının «mübahisəli» elan etdiyi Azərbaycan torpaqlarının hesabına Ermənistanı da özünün bilavasitə asılılığına keçirmək, həmçinin XI ordunun işğalı ilə razılaşmayaraq üsyanlara və çıxışlara başlayan xalqımıza təzyiqi artırmaq niyyətilə izah oluna bilər. N.Nərimanovun, PK (b) P Qafqaz Ölkə komitəsinin üzvü R.Mdivaninin, AK (b) P MK üzvü A.Mikoyanın və PK (b) P Ermənistan komitəsinin üzvü A.Nuricanyanın imzaları ilə G.Çiçerinə və Q.Orconikidzeyə göndərilən 1920-ci il tarixli məlumat çox əhəmiyyətlidir.

Məlumatda yazılırdı: «Artıq Sovet Azərbaycanının tərkibinə daxil olan, guya mübahisəli sayılan Zəngəzur və Qarabağa gəldikdə isə qətiyyətlə bildiririk ki, bu yerlər mübahisəsizdir və bundan sonra da Azərbaycanın hüdudlarında yerləşməlidirlər. Başdan-başa müsəlmanlarla məskunlaşan, bir ildən artıqdır ki, ayrı düşən (?! – İ.M.) və yerli əhalinin qüvvələrilə daşnak hökumətindən müdafiə olunan Culfa və Naxçıvan rayonları həm hərbi cəhətdən, həm də Türkiyə ilə bilavasitə əlaqə məqsədlərilə bizim qoşunlarla tutulmalı və Azərbaycana birləşdirilməlidirlər. Daşnak hökuməti ilə hər hansı danışıqları öz tərəfimizdən... vaxtsız hesab edirik».

N.Nərimanov bu məlumatdakı fikir və mülahizələri

inkişaf etdirərək yazırdı: «Dünyada heç kəs göstərilən vilayətlərin (Qarabağ və Zəngəzurun) əhalisinin Azərbaycanla birləşməsinə rəylərini bildirmələrinə təsir göstərməyimizə mane olmaq imkanında deyildir». «İndi bu vilayətlərin güzəştə gedilməsi (Ermənistana)... Sovet hakimiyyətinin nəinki Azərbaycanda, həm də İranda və Türkiyədə nüfuzdan düşməsi olacaqdır» (Göründüyü kimi, torpaqların əldən getməsi təhlükəsi deyil, Sovet hakimiyyətinin nüfuzunun itirilməsi daha çox narahatçılıq doğururdu).

Yuxarıda göstərilən nöqteyi-nəzər bu məsələlərin həllində zahirən obyektiv və bitərəf (ən yaxşı halda ziddiyyətli), əslində isə ermənipərəst mövqe tutan (N.Nərimanovun «Qafqazdakı canişin», M.Məmmədzadənin «Rusiya ordusunun yeni Sisianovu» adlandırdıqları) Q.Orconikidze tərəfindən əvvəlcə müdafiə edildi.

Belə ki, o V.Leninə, İ.Stalinə, G.Çiçerinə ünvanladığı məlumatda: **a)** Naxçıvan-Ordubad rayonunun və onun şimal hissəsinin Türkiyənin Bəyazid diviziyası tərəfindən tutulduğunu; **b)** Dronun (erməni – İ.M.) qoşunlarının bu bölgəni ələ keçirmək üçün ciddi təhlükə yaratdığını; **c)** Qabrielyanın «Azərbaycan Şərur-Dərələyəz qəzasından və Naxçıvan rayonundan imtina edərsə erməni nümayəndə heyəti Qarabağ və Zəngəzurun dərhal Azərbaycana birləşdirilməsinə razılaşacaqdır» mülahizəsilə əlaqədar N.Nərimanovla danışıqlar aparılacağını yazırdı.

Həmin məlumatdan göründüyü kimi, Q.Orconikidze Azərbaycanda Sovet hakimiyyətinin möhkəmlənməsi və Bakının əldə saxlanması naminə Dağlıq Qarabağın Azəbaycana birləşdirilməsinə, onun torpağı olan Zəngəzur və digər yerlər barədə isə heç söhbətin belə gedə bilməməsinə dair qəti inamını bildirmişdi. Həmçinin bu ərazilərin erməni əhalisinin təhlükəsizliyinə başı ilə təminat verdiyini və burada müxtariyyət elan

etməklə müsəlman hərbi hissələrini oraya yeritmədən – erməni əhalisini təşkil edəcəyini vurğulamışdı.

O belə bir cəhəti də xüsusilə diqqətə çatdırmışdı ki, məsələnin başqa cür həlli bizim Azərbaycanda vəziyyətimizi dayanıqsız edir və bununla Ermənistanda heç nə udulmur (Əlbəttə məlum siyasi şəraitdə sonuncunun bizə gərəkli olması istisna edilməməklə); Azərbaycana belə münasibət bizi onun geniş kütlələrinin gözündən çox salar və əleyhdarlarımızın işi üçün yüksək səviyyədə zəmin yaradar.

Daha sonra birbaşa telefon rabitəsi zamanı N.Nərimanovun «Siz deyirsiniz: digər vilayətlərə iddia etməyin. Bilmək maraqlıdır, bunlar hansı vilayətlərdir... (Sənəddə anlaşılmazdır – İ.M.). Qarabağ və Zəngəzur Azərbaycanın mübahisəsiz vilayətləridir... Mən şəxsən məsələnin sizin təklif etdiyiniz şəkildə qoyuluşu ilə razıyam» fikrilə bağlı Q.Orconikidze bunları bildirmişdi:

- Siz Zəngəzur və Qarabağdan savayı həm də Naxçıvan, Şərur-Dərələyəz qəzası və Ordubada da iddia irəli sürmüşsünüz;
- mən indi Qarabağ və Zəngəzurla əlaqədar Çiçerinlə danışdım, təcili və şərtsiz olaraq bu vilayətlərin Azərbaycana birləşdirilməsini, sizin isə digər vilayətlərə dair iddialardan daşınmağınızı, Qarabağ və Zəngəzura müxtariyyət verilməsini, həm də bunun heç bir halda sülh müqaviləsində (Ermənistanla RSFSR arasındakı nəzərdə tutulur – İ.M.) göstərilməməsini və mütləq sizin tərəfinizdən həyata keçirilməsini təklif edirəm.

Q.Orconikidze G.Çiçerinə göndərdiyi sənədlərdən birində isə onun Azərbaycanla Ermənistan arasındakı mübahisəli vilayətlər haqqındakı teleqramını aldığını, buna görə də B.Leqran və Ter-Qabrielyanla görüşdüyünü, Azərbaycanın Qarabağ və Zəngəzurun təcili, şərtsiz ona birləşdirilməsinə təkid etdiyini, bununla razılaşmaq lazım gəldiyini çatdırdı.

Yaranmış müvafiq siyasi şəraitdə tutduğu mövqeyini açıqlayan Q.Orconikidze yazırdı ki, «hər iki qəza iqtisadi cəhətdən Bakıya can atır və İrəvandan tamamilə ayrılmışdır (Burada da məsələ tarixi və hüquqi baxımdan deyil, iqtisadi əlaqələr və İrəvandan ayrı düşmək kimi cəfəng nöqteyi-nəzərdən əsaslandırılır; bu da həm o vaxt, həm də indi əsassız iddialara və müharibələrə gətirib çıxarmışdır – İ.M.). Xüsusilə də hazırda Bəyazid diviziyası paz kimi araya girməkdədir və belə bir vəziyyətdə bölgələrin mübahisəli durumda saxlanmaları onların türklər tərəfindən tutulmaları və bütün erməni əhalisinin qırılması ilə nəticələnər, biz isə heç vəchlə bunun qarşısını ala bilmərik».

Serqoya görə, göstərilən ərazilərin Azərbaycana birləşdirilməsi onun kommunistlərinə güclü üstünlük verər və rəsmi Bakını digər vilayətlərə iddialarından çəkinməyə vadar etməyə şərait yaradardı. Buna görə də teleqramda son olaraq deyilirdi ki, mənim fikrim belədir – Qarabağ və Zəngəzuru təcili Azərbaycana birləşdirmək; mən Azərbaycanı bu vilayətlərə muxtariyyət verməyə məcbur edərəm, lakin bu onun tərəfindən olmalıdır və heç bir halda müqavilədə yazılmamalıdır. Q.Orconikidze V.Lenin və G.Çiçerinə yolladığı bir teleqramında (19.VI.1920) isə bunları bildirirdi:

- Azərbaycan Qarabağa, Zəngəzura, Naxçıvan və Şərur-Dərələyəz qəzalarına iddia edir;
- Qarabağ və Zəngəzurda Sovet hakimiyyəti elan olunmuşdur və yuxarıda göstəridən ərazilər özlərini Azərbaycan Sovet respublikasının hissəsi sayırlar. Naxçıvan artıq bir neçə aydır ki, üsyançıların – müsəlmanların əlindədir (?! – İ.M.) və Şərur-Dərələyəzə aid məndə məlumatlar yoxdur;

- Azərbaycan heç bir halda Qarabağ və Zəngəzursuz keçinə bilməz;
- ümumiyyətlə, fikrimizcə, Azərbaycanın nümayəndəsini Moskvaya çağırmaq, Azərbaycana və Ermənistana dair bütün məsələləri onunla birlikdə həll etmək lazım gəlir. Bunu Ermənistanla müqavilə imzalanadək etmək lazımdır.

Q.Orconikidze belə fikirləri V.Leninə, İ.Stalinə və G.Çiçerinə vurduğu teleqramda (16.VII.1920) də təkrarlamışdı. Eyni zamanda iyulun 14-də G.Çiçerinə digər bir teleqramında isə Zəngəzuru mübahisəli ərazi elan edərək digər bölgələrin... Ermənistana birləşdirilməsi fikrini ortaya atmışdı. Bütün bunlardan göründüyü kimi, Q.Orconikidzenin bu ziddiyyətli, əslində ermənilərin mənafeyinə xidmət edən, mövqeyi Naxçıvan və Zəngəzurun Ermənistana verilməsinə dair 1920-ci ilin sonlarında elan ediləcək sənədlər və görüləcək tədbirlər üçün çıxış nöqtəsi, müəyyən bir zəmin idi.

Azərbaycanla Ermənistan arasındakı belə bir kəskin diplomatik durumda – Zəngəzur və Naxçıvan bölgələrinin rus-sovet qoşunları tərəfindən işğalı ərəfəsində həmin ərazilərdəki siyasi-hərbi vəziyyət çox mürəkkəb və gərgin idi. Hər iki bölgə ətrafında davam etməkdə olan erməni-azərbaycanlı münaqişəsi həmin ərazilərdəki müxtəlif ictimai-siyasi qüvvələrin bu zaman daha da kəskinləşmiş qarşıdurması ilə müşayiət olunurdu.

Belə bir dövrdə (5.V. 1920) Ermənistanın A.Xatisyan tərəfindən başçılıq edilən hökuməti istefaya getdi. «Daşnaksütyun» partiyasının «Şərq bürosu» A.Ohançanyanın rəhbərliyilə «Fövqəladə səlahiyyətlər»lə yeni hökumət təşkil etdi.

Azərbaycanın Şura hökuməti Aprel çevrilişinin ilk günlərindən etibarən Qarabağ, Zəngəzur, Naxçıvan bölgələrində kommunist üsul-idarəsini yaratmaq və möhkəmləndirdə erməni qoşunları tərəfindən tutulması bu yerlərin əhalisinin Osmanlı türklərinin rəhbərliyi və onların qoşun hissələrinin iştirakı ilə Ermənistana qarşı əksinqilabi çıxışıyla izah olunurdu.

Habelə Azərbaycan XXİK-in Ermənistan hökumətinin göstərilən rayonlardakı hərəkətlərinə dair sorğusu isə onun daxili işlərinə qarışmaq kimi qələmə verilirdi. Buradan göründüyü kimi, Ermənistan rəhbərliyi Naxçıvan bölgəsini, habelə bəzi mübahisəli əraziləri hələ də özününkü saymaqda davam edirdi.

Həmin teleqramı ilə növbəti diplomatik fənd işlədən Ermənistan rəhbərliyi bütün mübahisəli məsələlərin həllini, xüsusilə də erməni-azərbaycanlı konfransının çağırılmasını hələ may ayında təklif etdiyini və sərhəd problemlərinin həmin konfransda müzakirə olunmasına hazırlığını bildirirdi. Çoxlu sənəd və materiallardan, habelə faktlardan aydın göründüyü kimi, Ermənistan hökuməti dəfələrlə danışıqlara hazır olduğunu bəyan etmiş və paralel surətdə isə hərbi əməliyyatlar aparmış, razılaşdırılan bütün sazişləri dönə-dönə pozmuşdu.

Naxçıvan bölgəsi nümayəndələrinin Ermənistan rəhbərliyilə birbaşa danışıqları da heç bir nəticə vermədi. 1920-ci il iyulun ikinci yarısında Naxçıvan nümayəndə heyətinin İrəvanda Baş nazir A.Ohancanyan, Hərbi nazir L.Ter-Minasyan və general Haqverdiyanla danışıqları erməni tərəfinin ədalətsiz və qeyri-məqbul tələblərinə (Ermənistanın hakimiyyətini qəbul etmək; tam tərksilah; Culfa dəmiryolunun hər iki tərəfinin 40 vestlik məsafədə azərbaycanlılardan təmizlənməsi; vurulan zərərin ödənilməsi; 600 min pud buğda verilməsi – 300 min pudu havayı) görə baş tutmadı.

Naxçıvan Milli Şurasının 1920-ci il iyulun 20-də keçirilən iclasındakı müzakirələrdən sonra onun sədri Cəfərqulu

xan Naxçıvanskinin imzası ilə İrəvana göndərilən sənəddəki bir sıra əməli təkliflər (Dəhnə boğazından Ordubada qədər olan ərazidə yaşayan azərbaycanlıların istiqlalının ermənilər tərəfindən tanınması; bununla bağlı İrəvanda Naxçıvan-Şərur nümayəndələrinin iştirakı ilə danışıqlar aparılması; *məsələlərin tam həllinədək* barışıq imzalanması) qəbul edilmədiyindən vəziyyət daha da ağırlaşdı.

Belə bir mürəkkəb şəraitdə AK (b)P MK Bürosunun iclasında (13.VII.1920) «Naxçıvan haqqında» məsələ müzakirə edildi və bölgənin Azərbaycanın mübahisəsiz hissəsi olması vurğulandı. Ancaq çox təəccüblüdür ki, AK (b)P MK Bürosu Naxçıvan Azərbaycanı mübahisəsiz ərazisi (tərkib hissəsi) saymasına dair iki gün əvvəlki mövqeyini «unudaraq» – B.Eqoroy, Ə.Qarayev, A.Mikoyan, Q.Orconikidze və b. iştirakı ilə keçirilən – başqa bir iclasında (15.VII.1920) isə dəhşətli qərar çıxardı: «... **2)** Naxçıvan və digər ərazilərdən imtina edilsin, onların rus qoşunları tərəfindən işğalı təklif olunsun...»

Bölgənin XI ordu hissələri tərəfindən yaxın vaxtlarda tutulacağı ehtimalının daha da artması daxildəki sovetpərəst qüvvələri bir az da fəallaşdırdı. İyulun əvvəllərində həmin qüvvələr Naxçıvan «zəhmətkeşləri» adından RSFSR-ə (?! – İ.M.) və Azərbaycan SSR-ə müraciət edərək «azadlığa çıxmaqda» onlara köməklik göstərilməsini xahiş etdilər. Belə xahişlərdən birində – Naxçıvan kəndliləri nümayəndə heyətinin çox təzadlı fikirlər yığnağından ibarət müraciətində deyilirdi:

«Biz, daşnaklar və yerli millətçilərlə yanaşı qanlı Antantanı da günahlandırır, bütün qaçqınları öz yerlərinə qaytarmağı, Azərbaycan SSR-in və şanlı Qızıl ordunun köməyilə Antantanı, daşnakları ölkəmizdən qovmağı, qonşularımıza – ermənilərə azad nəfəs almağa imkan verməyi istə-

yirik». Hətta bölgə əhalisi «nümayəndələrinin» doktor A.Abbasovun başçılığı ilə Qızıl ordu dəstələrini Qarabağ və Gorus torpaqlarında qarşılamaları hadisəsi də olmuşdu.

Müəyyən hərbi hazırlıq işlərini başa çatdırdıqdan və bölgə daxilində ideoloji zəmin hazırladıqdan sonra XI ordu hissələri iyulun 28-də Naxçıvan şəhərinə daxil oldu. Elə həmin gün də Naxçıvan İnqilab Komitəsi yaradıldı və o, bölgədə Sovet hakimiyyətinin elan olunmasına dair müraciətlə çıxış etdi.

Naxçıvan mahalı Sovet Sosialist respublikası və İnqilab Komitəsi isə onun ali hakimiyyət orqanı elan olundu. Naxçıvanda Sovet hakimiyyətinin qurulması ilə bağlı məsələlərə bir daha aydınlıq gətirilməsi üçün N.Nərimanovun AK (b) P-nin II qurultayının 3-cü iclasında (20.X.1920) söylədiyi bəzi fikirləri burada qeyd etmək yerində olardı:

«Naxçıvan Qafqazın daşnak və türk (?! – İ.M.) işğalının bütün mənfurluğunun sınağından keçmiş rayonudur; bu rayon həqiqətən, bir yandan, özünü daşnakların hücumlarından, digər tərəfdən isə, dəhşətli dəstələrdən qorumuşdu; o, *bizim diqqətimizi cəlb etməyə layiqdir*; çünki həmin balaca ölkə bütün bu müddət ərzində hətta Müsavat hökumətinə də (?! – İ.M.) müqavimət göstərirdi; bizdə məlumat vardır ki, bu rayon həqiqətən Qızıl ordunun gəlişini gözləmiş və ehtiramla onu qəbul etmişdir, ona görə ki, öz istiqlalını yalnız Qızıl orduda görürdü; Naxçıvan rayonu Qızıl ordunun gəlişindən sonra artıq Azərbaycanın bütün zəhmətkeşlərilə birləşməyə dair cəhdini büruzə verir; uzun müddət daşnaklarla və türk (?! – İ.M.) dəstələri ilə mühasirəyə alınan Naxçıvan rayonu həmişə yalnız bir fikirlə yaşamış – mümkün olduqca tez Qırmızı Azərbaycan vasitəsilə azad olmağa ümid bəsləmişdi; onlar bizimlə birləşərək indi bizimlə birlikdə car çəkirlər: «Yaşasın bizim böyük rəhbərimiz Lenin!»

ların sakinlərinin Rusiyanın Qızıl ordusuna münasibətini; əhalisinin (ermənilərin, azərbaycanlıların və rusların) öz aralarındakı qarşılıqlı münasibətlərini; bu qəzaların xüsusiyyətlərini (iqtisadi vəziyyətini, xan-bəy ünsürləri və quldur dəstələrinin, yerli ərzaq vasitələrinin mövcudluğunu, yolların şəraitini və bütün silah növlərinin hərəkəti üçün yararlılığını); Ermənistan ərazisilə hərəkət edərək erməni, Naxçıvan-Culfa-Ordubad xəttinə çıxarkən isə azərbaycanlı və Türkiyə silahlı dəstələrindən Sovet hərbi hissələrinin qabaqcıl dəstəsi sifətilə istifadə olunmasının mümkünlüyünü; qabağa göndərilmiş süvari kəşfiyyat dəstəsinin Zəngəzur qəzasındakı erməni hissələrilə sıx əlaqə yaradaraq Qızıl orduya münasibətlərini; Gorus rayonundakı erməni hissələrinin qüvvələrini və onların Qızıl orduya münasibətlərini; Yeni Bəyazid, İrəvan tərəflərdən Şuşa-Naxçıvan yoluna çıxan bütün xətləri; Şuşadan Naxçıvan-Ordubada və Vəng mənzil-qərargahından Ordubada rabitənin vəziyyətini; adlarıçəkilən qəzalardakı iqlim şəraitini; Zəngəzur qəzasında Sovet hakimiyyətinin elan olunduğu yerlərin adlarını aydınlaşdırmaq və müəyyənləşdirmək.

Bu məlumatlar əldə olunaraq təhlil edildikdən sonra hərbi əməliyyatların planlarına uyğun surətdə XI ordu hissələri Zəngəzura hücuma hazırlaşırdılar. Bu ərəfədə Sovet qoşunları tərəfindən sıxışdırılan general Dronun dəstəsi Qarabağdan qaçaraq, Zəngəzurdan keçib Dərələyəzə getmişdi. Zəngəzurda – Qafan rayonunda isə digər daşnak qulduru Njdenin dəstəsi fəaliyyət göstərməkdə idi. İyunun sonlarında Zəngəzura daxil olan XI ordu hissələri 32-ci diviziyasının süvari briqadası iyulun 6-da qısa atışmadan sonra Gorusu tutdu.

XI ordunun komandanı M.Levandovski və digərlərinin Bakıda verdikləri «Azərbaycan respublikasının sərhəd-

XI ordunun komandanlığı Ermənistanla Azərbaycan arasında mübahisəli ərazilər adı altında tutduqları bölgələrdə sovet qoşunlarının vəzifələrinə dair qaydalar və təlimatlar da işləyib hazırlamışdı. Onlardan birində deyilirdi ki, Azərbaycan ilə Ermənistan arasındakı mübahisəli əraziləri tutan sovet hərbi hissələri:

a) ümumi qayda-qanunu qoruyub saxlamalıdırlar; **b)** azərbaycanlılar və ermənilər arasında toqquşmalara imkan verməməlidirlər; **c)** qarışıq əhaliyə malik olan rayonlara xüsusi diqqət yetirməlidirlər; **ç)** Rusiya hərbi komandanlığı bu yerlərin mülki idarəsinin daxili işlərinə qarışmamalı və yerli əhaliyə onun qəbul edəcəyi (bizim komandanlığın birbaşa və ya dolayısı yolla iştirakı olmadan) əsaslarla müdiriyyət yaratmağa imkan verməlidir; **d)** təlimatda həmçinin göstərilirdi ki, həmin ərazilərin XI ordu hissələri tərəfindən tutulması müvəqqətidir (?! – İ.M.), yəni onların bu və ya digər respublikaya mənsubiyyəti məsələsi həll edilnədəkdir.

Lakin hadisələrin sonrakı axarı sübut etdi ki, sovet qoşunları bu bölgələrdə və, ümumiyyətlə, Azərbaycanda uzun müddət qalmaq üçün gəlmişdilər. Onlar tərəfindən «yerli idarəçiliyə» hər cür vasitə və üsullarla müdaxilə edilir, yəni «dövlət quruculuğu» həyata keçirilirdi. Bunu elə AK (b) P MK Siyasi Bürosunun «Naxçıvanda vəziyyət haqqında» məsələni müzakirə edən iclasının (28.VIII.1920) qərarından da aydın surətdə görmək olar.

Həmin qərarla: **a)** AİK-ə Naxçıvan məsələsini qəti surətdə aydınlaşdırmaq və Ermənistanla Azərbaycan arasında bizim üçün məqbul ola biləcək sərhədləri müəyyənləşdirmək tapşırılırdı; **b)** həm də Naxçıvan mahalında hakimiyyətin təşkili üçün XI ordunun İnqilabi-Hərbi Şurası ilə danışıqlar aparmaq və Mərkəzi Komitəyə isə Naxçıvanın komissarı vəzifəsinə namizəd (sözgəlişi, Mircəfər Bağırov məsləhət bi-

lərinin möhkəmləndirilməsi və onun ərazisində qayda-qanunun mühafizəsi haqqında ordunun qoşunlarına əmrdə (7. VII.1920; 69) erməni nizami hissələrilə rastlaşdıqda fəal çıxışlardan qaçmaq, onların Azərbaycan və Qarabağ ərazilərinə (göründüyü kimi, XI ordu komandanlığı Qarabağı Azərbaycana aid etmirdi – İ.M.) soxulmasına imkan verməmək tapşırıldı.

Bakıdakı Aprel çevrilişindən sonra Naxçıvan bölgəsində də vəziyyət çox gərgin və ziddiyyətli idi. Azərbaycanın müstəqilliyi tərəfdarları ilə Rusiya-sovetləşməyə meylli qüvvələr arasında qarşıdurma burada da günbəgün kəskinləşirdi. XI ordunun bölgənin sərhədlərinə yaxınlaşması ikinci tərəfi daha da fəallaşdırırdı.

Hələ aprelin 30-da Naxçıvan, Ordubad və Şərur zəhmətkeşlərinin adından AİK-ə göndərilən teleqramda deyilirdi ki, «biz müstəqil Azərbaycan Sovet respublikasını və onun Sovet Rusiyası ilə qardaşlıq ittifaqını ürəkdən alqışlayaraq, şanlı igid Rusiya Qızıl ordusunun sıralarına daxil olmağa, zəhmətkeşlərin zülm və əsarətdən xilas edilməsinə dair ümumi işə öz qanımızla kömək etməyə hazırıq». Digər tərəfdən bunun da qeyd olunması vacibdir ki, o zaman bölgədə hakimiyyətə nəzarəti hələ də Naxçıvan Milli Komitəsi edirdi və Türkiyə əsgərlərinin kiçik bir dəstəsilə bərabər Xəlil bəy də burada idi.

Belə bir şəraitdə Şərurda azərbaycanlı əhali millətlərarası qırğını dayandırmağı və daşnakların özbaşınalıqlarına son qoymağı tələb etdi. Naxçıvan Milli Komitəsinin silahlı dəstələri də Kalbalı xanın və Xəlil bəyin başçılığı ilə onlara köməyə gəldilər. Daşnak hökuməti isə bu zaman Zəngibasar və Vedibasarda daxili qarşıdurmanı dayandırmaq adı altında həmin yerləri və hətta Culfayadək olan əraziləri azərbaycanlılardan təmizləməyə çalışırdı.

Erməni hərbi hissələri iyulun əvvəllərində Zəngibasara hücum edib bu qanlı yürüşlərini Şahtaxtı stansiyası və Şərur qəzasının tutulması ilə başa çatdırdılar. Erməni işğalı ilə bağlı yaxın keçmişin dəhşətli faciələrini unutmayan müsəlman əhalisi qaçqınlara çevrilərək Cənubi Azərbaycana və Naxçıvana üz tutdu.

Naxçıvan və Zəngibasar nümayəndə heyətləri ermənilərin bu qanlı yürüşü zamanı baş vermiş hadisələri araşdıraraq çox mühüm ümumiləşdirmələr aparmışdılar. Həmin ümumiləşdirmələrdən aydın olur ki, erməni tərəfindən Zəngibasarda 48 kənd tamamilə yandırılmış, 18 gənc qız və qadın əsir aparılmış, 400-dən çox uşaq, 150 qoca kişi və qadın öldürülmüş, 100 xəstə odda məhv olmuş, 816 qaçqın Arazda boğulmuş, 160 min nəfər isə İranda açıq havada qalmışdı.

Vedibasarda 118 kənd yandırılmış, 900 nəfər artilleriya atəşindən ölmüş, 6 qadın aparılmış, 300-dən çox uşaq və qoca qırılmışdı. Dərələyəzdə 74, Şərur və Şaxtaxtı rayonlarında isə 76 kənd yandırılmışdı. Şərur rayonunda 810 xəstə yatağında məhv edilmiş, 144 qadın əsir götürülmüş, artilleriya atəşindən 72 nəfər məhv olmuş, 150 qoca və qadın öldürülmüşdü. Şahtaxtıda isə 3 qadın aparılmış, 35 uşaq, 14 qoca, 8 qarı və 9 xəstə öldürülmüşdü.

Bütün bu rayonlardan 50000 iri və xırda buynuzlu mal-qara aparılmış, 500 min nəfərlik əhali isə tamamilə yoxsul vəziyyətə düşmüşdü. Cənubi Azərbaycana pənah aparan qaçqınların vəziyyəti xeyli ağır idi. Burada 45000-dən çox qaçqın aclıqdan və xəstəliklərdən ölmüşdü. Öz vəzifəsini bütün Azərbaycan əhalisinin diqqətini həmin məsələlərə yönəltməkdə görən nümayəndə heyəti 70000 qaçqının İranda, 400 min nəfərin isə Naxçıvan ətrafında açıq havada qalmasını və yoxsul vəziyyətdə olduğunu bildirir, onların öz yaşayış yerlərinə qaytarılmaları üçün tədbirlər görülməsini və bu-

nadək isə aşağıdakı təcili yardımların göstərilməsini xahiş edirdi:

1) Azərbaycanın valyuta mallarına İranda taxıl alınması; **2)** qaçqınların geyimlə təchiz olunmaları; **3)** aclıq və epidemiyalarla mübarizə məqsədilə qidalanma məntəqələrinin və çayxanaların təşkil edilməsi; **4)** yetimxanaların açılması.

Ermənilərin davam etməkdə olan qəsbkarlıq siyasəti və azərbaycanlılara qarşı zorakılıq hərəkətləri ciddi narahatlıq yaratmışdı. T.Makinski iyulun 4-də Tiflisdən – İrəvandakı diplomatik nümayəndəliyin katibi vasitəsilə – Azərbaycan SSR XXİK-in tapşırığına müvafiq olaraq, Ermənistan hökumətinin Şərur-Dərələyəz rayonlarına dair planlarını aydınlaşdırmağa, erməni qoşunlarının Vedibasara hücumu və uğursuzluğa düçar olması barədə məlumatları dəqiqləşdirməyə çalışmışdı. Bunun ardınca isə Azərbycan SSR XXİK-i və Tiflisdəki diplomatik nümayəndəlik Ermənistan XİN-ə (surəti G.Çiçerinə, Ermənistan və RSFSR-in Gürcüstandakı diplomatik nümayəndələri Q.Bekzadyana və S.Kirova) teleqramlar (5.VII.1920) göndərdi.

Teleqramlarda erməni qoşun hissələrinin Zəngibasarı dağıtdıqdan və onu müsəlmanlardan təmizlədikdən sonra Naxçıvan-Şərur rayonlarına soxulmalarının Qazaxda konfrans keçirilməsinə dair 2 iyun tarixli sazişlə ziddiyyət təşkil etdiyi qeyd olunurdu. Daha sonra ermənilərin hücumları Sovet Azərbaycanına qarşı hərbi əməliyyatlara başlanılması kimi qiymətləndirilir və onların təcili dayandırılması tələb olunur, əks təqdirdə 2 iyun sazişinin qüvvədən salınacağı və müvafiq tədbirlər görüləcəyi bildirilirdi.

Ermənistan hökuməti törətdiyi zorakılıq hadisələrinə cavabdehlikdən yenə də yayındı. Onun M.Hüseynova (surətləri S.Kirova və G.Çiçerinə) göndərdiyi cavab teleqramında (7.VII.1920) Zəngibasar və Şərur rayonlarının hazırlanmaq istiqamətində müəyyən işlər görməyə başladı. AİK-in dekretində (18.V.1920) Qarabağ və Zəngəzur qəzalarının Fövqəladə komissarı vəzifəsi təsis edildi. Ə.Şirvani (Mustafabəyov komissar, erməni Qaragözov isə onun müavini təyin olundular).

1920-ci ilin may-iyun aylarında Azərbaycan-Ermənistan və RSFSR-Ermənistan diplomatik münasibətlərində bir sıra hadisələr baş verdi. İyunun 2-də Azərbaycanla Ermənistan öz aralarındakı bütün mübahisəli məsələləri dinc yolla həll etmək üçün yaxın vaxtlarda Qazax şəhərində konfrans çağırmaq barədə saziş imzaladılar. Konfransın yeri və vaxtına dair müxtəlif təkliflər (Vlaqiqafqaz, Tiflis, Qazax) olmuşdu.

N.Nərimanov da Ermənistanın Azərbaycandakı diplomatik nümayəndəsi M.Arutyunyantsla görüşündə sülh konfransı məsələsini qoymuşdu. Həmçinin AK(b)P MK Siyasi Bürosunun iclasında (12.VII.1920) Ermənistandakı mövcud vəziyyət barədə məlumat əldə etmək, Azərbaycanın oradakı diplomatik nümayəndəliyinin gələcək fəaliyyəti haqqında danışıqlar aparmaq, planlaşdırılan konfransın Vladiqafqazda keçirilməsinə razılıq əldə etmək üçün milliyyətcə erməni olan İ.Dövlətovu Azərbaycanın Fövqəladə nümayəndəsi sifətilə İrəvana göndərmək qərara alınmışdı.

Bu dövrdəki Azərbaycan-Ermənistan münasibətlərindən bəhs edərkən AXC hökumətinin İrəvandakı diplomatik nümayəndəliyinin fəaliyyətilə bağlı bəzi məqamlara da toxunmaq lazım gəlir. Onlar barədə AXC-nin Ermənistandakı nümayəndəliyinə axırıncı olaraq (16.III – 2.V.1920) başçılıq edən T.Makinskinin Tiflisdən Azərbaycan XXİK-ə ünvanladığı 1920-ci il 30 iyun, 2 iyul, 8 və 11 sentyabr tarixli məruzələrdə çoxlu maraqlı faktlar vardır.

30 iyun tarixli məruzədən Azərbaycandakı Aprel çevrilişindən sonra erməni hökumətinin T.Makinskiyə münasibə-

tinin dəyişməsi, diplomatik nümayəndəliyin qulluqçularının həbs olunacağı və binasında axtarışlar aparılacağı barədə şayiələr yayılması bəlli olur. Sənədlərdən göründüyü kimi, ona qarşı cinayət işi qaldırılması barədə söhbətlər getdiyini və sui-qəsd hazırlandığını bilən T.Makinski mayın 2-də Tiflisə yollanmışdı.

T.Makinski 2 iyul tarixli məruzəsində – İrəvandan gözlənilmədən getdiyi üçün diplomatik nümayəndə səlahiyyətlərinin icrasını tapşırdığı Qiyasbəyovla iyunun 28-də Tiflisdə təsadüfən rastlaşdığını bildirirdi. Habelə ondan Azərbaycanda yeni hakimiyyət qurulması ilə bağlı AXC-nin İrəvandakı nümayəndəliyinin mayın 15-də ləğv olunması barədə Ermənistan XİN-in məlumatını əldə etdiyini çatdırırdı. Ermənistan XİN-in Azərbaycanın İrəvandakı diplomatik nümayəndəsinə məktubunda (15.V.1920; №2977) bu barədə yazılırdı: Siz Azərbaycandakı siyasi çevrilişdən sonra yaranan yeni hakimiyyət tərəfindən Ermənistandakı dilpomatik nümayəndə vəzifəsinə təyin edilməmişsiniz. Buna görə də mənim hökumətim Sizi Azərbaycanın diplomatik nümayəndəsi kimi qiymətləndirmək imkanından məhrumdur və onunla yeni sazişədək İrəvandakı Azərbaycan təmsilçiliyini ləğv olunmuş hesab edir.

1920-ci ilin ortalarında RSFSR-in İrəvandakı diplomatik nümayəndəsi B.Leqran Ermənistanla Azərbaycan arasındakı mübahisəli ərazilər haqqında birinci tərəflə danışıqlar apardı. May-iyun ayları ərzində Moskvada gedən RSFSR-Ermənistan danışıqlarında Sovet Rusiyası Ermənistanın müstəqilliyini Birinci Dünya müharibəsindən əvvəlki sərhədlərdə tanıyaraq onunla sülh müqaviləsi bağlamağa hazır olduğunu bildirdi.

Lakin Sovet Rusiyasının rəhbərliyi Ermənistanla danışıqların ilkin mərhələsində öz məqsədlərinə hələ ki tamamilə

nail ola bilmədikdə həm bunu, həm də Azərbaycanda daha da möhkəmlənməyin zəruriliyini və onun «rəhbərliyinin nüfuzu»na xələl gətirilməməsini, habelə antisovet üsyanların artıq yatırılmasını nəzərə alaraq Zəngəzur və Naxçıvanın da tutulması işini sürətləndirdi.

Buna N.Nərimanovun, R.Mdivaninin, AK(b)P MK üzvləri A.Mikoyan və V.Naneyşvilinin, XI ordunun İnqilabi-Hərbi Şurasının üzvü M.Levandovski və digərlərinin imzaları ilə PK(b)P MK-ya göndərilən teleqramdakı (10.VI.1920) belə bir fikrin də təsiri olmuşdu: «Müsəlman kütləsi keçmişə gözlənilməz dönüşü və Sovet hakimiyyətinin Azərbaycanı əvvəlki sərhədlər daxilində saxlaya bilməməsini xəyanət, ermənipərəstlik və ya da Sovet hakimiyyətinin zəifliyi hesab edəcəkdir... Biz Azərbaycanı Qızıl ordunun himayəsində olmaq, erməni və gürcülərə paylanan rəzil məxluqa çevirməmək, bunun əvəzində ondan qeyri-milli mərkəz və Şərqin sinfi inqilab mənbəyi yaratmaq üçün Qarabağ və Zəngəzur məsələlərində Mərkəzi tərəddüdlərdən çəkindiririk».

AK(b)P MK Bürosunun iclasında (10.VII.1920) «Qarabağdan məruzə»nin müzakirəsindən sonra qəbul edilən «Dağlıq Qarabağda işlərin vəziyyəti haqqında» adlı qərarda PK(b)P MK-ya göndərilən teleqramda həmin bölgələrin Müsavat hökuməti zamanı bütövlükdə Azərbaycanın tərkibinə daxil olduğu, onların Bakı ilə mədəni və iqtisadi əlaqələrinin möhkəmliyi və İrəvandan tamamilə ayrı düşmələri göstərilirdi.

AK(b)P MK Bürosunun 1920-ci il 15 iyul tarixli iclasında isə «Ermənistanla sülh müqaviləsi məsələsi haqqında» gedən müzakirələr nəticəsində belə bir qərar çıxarıldı: «**1.** Qarabağ və Zəngəzur Azərbaycana birləşdirilməlidir; ...**4.** Danışıqlar ərzində bütün hərbi əməliyyatları müvəqqəti olaraq dayandırmaq Ermənistana təklif edilsin» (Ancaq sonralar

bu istiqamətdə qəti və ardıcıl xətt yeridilməməsi çox acı və ağır nəticələr verdi).

Qərarda Zəngəzurun strateji mövqeyi və onun Sovet hakimiyyətinin möhkəmləndirilməsindəki rolu da açıqlanırdı. Teleqramda deyilirdi ki, «Zəngəzurda Sovet hakimiyyətinin möhkəmləndirilməsi həmçinin Naxçıvan rayonu və Anadolu ilə əlaqələrin bərpası, Türkiyədə inqilab hərəkatı üçün də əhəmiyyət kəsb edir. Buna görə də Qızıl ordunun Zəngəzura hərəkəti böyük yüksəlişlə bağlı olacaq və bizim tərəfdən təzyiqə yol vermədən sovet inqilabının dərinləşməsi və genişlənməsilə müşayiət ediləcəkdir. Bütün bunlardan sonra isə Zəngəzur və Qarabağın tərəfsizləşdirilməsi, yaxud da onların daşnaklara verilməsi Sovetlərin məhvinə, milli düşmənçiliyin yenidən qızışmasına səbəb olacaq xəyanət kimi qiymətləndirilə bilər, daşnakların dirçəldiyini görən müsəlman əhalisi Sovet hakimiyyətini lənətləyərək silaha sarılar; ona görə ki, artıq bu zaman o, fiziki cəhətdən Qızıl ordu və mənəvi cəhətdən isə sovet təşviqatı tərəfindən tərk-silah edilmiş olacaqdır».

Bütün bu siyasi-diplomatik işlərin getdiyi bir şəraitdə XI ordu hissələri bölgələri tutmaq məqsədilə ciddi hazırlıq tədbirləri görmüş, çoxşaxəli və müxtəlif səciyyəli məlumatlar toplamışdılar. Bunu XI ordu komandanı M.Levandovskinin və İnqilabi-Hərbi Şuranın üzvü Y.Vesnikin imzaları ilə Bakıda verilən «İranla sərhədlərin mühafizəsinə çıxmağa hazırlıq haqqında ordunun qoşunlarına əmr»dən (25.VI.1920; №68) də görmək olur. Həmin əmrdə Naxçıvan-Culfa-Ordubad xəttinə çıxmağa dair qarşıdakı əməliyyatla əlaqədar iki gün müddətində (iyunun 27-si saat 10-dək) aşağıdakı (bizcə, çox maraqlı) məlumatların təqdim edilməsi tapşırılırdı:

Yerli sakinlər və yoldaşlar vasitəsilə... Zəngəzur və Naxçıvan qəzalarının siyasi əhval-ruhiyyəsini; həmin qəza-

linmişdi) müəyyənləşdirmək AİK-ə həvalə edilirdi.

Naxçıvan İnqilab Komitəsinin münasibətləri nizamlamaq məqsədilə sülh danışıqlarına başlamaq barədə Ermənistan hökumətinə etdiyi təklifə (29.VII.1920) onun Hərbi naziri tərəfindən ultimatumla çavab (30.VII.1920) verildi. Həmin ultimatumda deyilirdi: Naxçıvan əhalisinin şərtsiz olaraq 48 saat ərzində erməni hökumətinə tabe olması təmin edilməlidir; hər birinə 80 güllə olmaqla 7 min tüfəng, bütün pulemyotlar və toplar, habelə 300 min pud taxıl (150 min pudu əvəzsiz), 300 yəhərli at və 200 baş iş heyvanı verilməlidir.

Bu ultimatum Naxçıvan İnqilab Komitəsi tərəfindən rədd edildi və danışıqlar aparmaq üçün İrəvana getmiş nümayəndə heyəti dərhal geri çağırıldı. Eyni zamanda Naxçıvan İnqilab Komitəsi həm bu ultimatumla, həm də ermənilərin Şərur və Ordubadın müəyyən hissələrini əldə saxlamaları ilə əlaqədar olaraq onların qoşunlarının Şahtaxtıdakı komandanlığına öz yazılı etirazını bildirdi (30.VII.1920).

Həmin sənəddə yerinə yetiriləcəyinə erməni hökumətinin özünün də şübhə ilə yanaşdığı tələblər (Şərur, Zəngibasar və Vedibasar rayonları əhalisinin öz yerlərinə qaytarılmaması və s.) irəli sürməsi, bu şərtlərin ermənilərin Naxçıvan bölgəsini iqtisadi cəhətdən taqətdən salmaq arzusuna və azərbaycanlı əhalisini tamamilə məhvə düçar etmək məqsədinə yönəldiyi göstərilirdi.

Burada habelə daşnak hökumətinin qəbulolunmazlığı, əməkçi erməni xalqı ilə həmrəylik bildirilir və Naxçıvan bölgəsinin Azərbaycanın tərkib hissəsini təşkil etməsi yazılırdı: «Naxçıvan rayonunun zəhmətkeş əhalisi boynundakı mütləqiyyət üsul-idarəsi zəncirini qırıb ataraq, daşnak köləliyi boyunduruğunun altına girməyin mümkünlüyünü rədd edir... Özünü – RSFSR ilə müttəfiq olan – Azərbaycan Sovet respublikasının ayrılmaz hissəsi sayır". Sözgəlişi, həmin

dövrdə daşnak mətbuatı («Nor Aşxatavor») Naxçıvanın ermənilər tərəfindən tutulması və onun əhalisinin könüllü olaraq İrana köçməsi barədə yalan məlumatlar da yayırdı.

Naxçıvan İnqilab Komitəsi iyulun 30-da əhaliyə müraciətində Sovet hakimiyyəti şəraitində heç bir milli ədavətə və qırğına yol verilməyəcəyini, bütün qaçqınların, o cümlədən ermənilərin də öz yerlərinə qaytarılacaqlarını və təhlükəsizliklərinə təminat alacaqlarını bildirirdi.

Digər tərəfdən, erməni qaçqınlarının qaytarılması və onların toxunulmazlığına söz verildiyi bir vaxtda, Ermənistan hökuməti Şərurun boşalmış kəndlərinə ermənilər yerləşdirməyə çalışırdı. Bu məqsədlə də Gürcüstandakı erməni qaçqınlar arasında təşviqat aparılırdı. Artıq 1000 erməni Tiflisdən və 3000-i isə Batumdən həmin yerlərə yola düşmüşdü.

XI ordu hissələri Naxçıvan bölgəsini tutduğu bir zamanda Dro və Njde yenidən Zəngəzurda hərbi əməliyyatlara başladılar. Üstünlüyə malik olan XI ordu komandanlığının avqustun 1-də Dro və Njdedən hərbi əməliyyatları dayandırmaq tələbi onlar tərəfindən eşidilmədi. Komandanlığın Bakıdan Ermənistan hökumətinə rəsmi sənəd göndərərək öz tələbində təkid etməsi də bir nəticə vermədi. Belə olduqda XI ordunun komandanlığı «Azərbaycanın Gürcüstan və Ermənistanla sərhədlərinin mühafizəsinin qüvvətləndirilməsi haqqında əmr» (3.VIII.1920; 077/op saylı) verdi. Ona əsasən də Zəngəzurda müəyyən hərbi əməliyyatlar aparıldı.

Daşnak Ermənistanı ilə Sovet Rusiyası qoşunları arasında əzəli Azərbaycan torpaqlarında hərbi əməliyyatların getdiyi bir zamanda İrəvanla Moskva diplomatik danışıqları da davam etdirirdilər. Hər iki tərəfin müəyyən məqsədlər güddüyü bu danışıqlarda Ermənistan (onun Baş nazirinin «Mançester Qardian» qəzetində (5.VIII.1920) dərc olunan bəyanatından da göründüyü kimi) Rusiya ilə sülh müqaviləsi

imzalamağa tələsmir və müəyyən güzəştlər qazanmaq üçün bir sıra şərtlər qoyurdu.

Sovet Rusiyası isə Ermənistanın da sovetləşdiriləcəyi, yəni tutulacağı planlarından çıxış edərək, azərbaycanlılarla ermənilər arasındakı sərhəd mübahisələrinə o qədər ciddi əhəmiyyət vermədi və tezliklə bölgələrin ələ keçirilməsinə, hərbi əməliyyatların dayandırılmasına çalışdı. Erməni mətbuatında («Şiraki Aşxatavor» – 13.VIII.1920 və «Mşak» 18.VIII.1920) gedən bir məlumatdan bu da aydın olur ki, hətta Sovet rəhbərliyinin Ermənistanla apardığı danışıqlarda (VI-VIII.1920) müəyyən məlum mülahizələrə görə ondan Zəngəzur və Naxçıvandan *imtina etmək tələbi də qoyulmuşdu.*

Bu kimi hallara baxmayaraq müəyyən «müzakirələr»dən sonra Sovet Rusiyasının təşəbbüsü ilə onunla Ermənistan arasında barışıq-ilkin (preliminar) saziş imzalandı (10.VIII.1920). Həmin sazişə görə:

- Ermənistan və Rusiya silahlı qüvvələri arasında baş verən hərbi toqquşmalar dayandırılırdı;
- Ermənistan qoşunları Şahtaxtı, Xok-Əznəbürd-Sultanlı və Küküdən şimala-Bazarçaydan qərbə doğru xətlər boyu əraziləri tutmalıydılar;
- Rusiyanın XI ordusunun hissələri isə mübahisəli vilayətləri (?! – İ.M.), yəni Qarabağ, Zəngəzur, Naxçıvanı tutmalı və işğal altında saxlamalı (ifadə G.Çiçerinə məxsusdur) idilər;
- Şahtaxtı-Culfa dəmir yolunun, Rusiya ilə Ermənistan arasında sülh müqaviləsinin bağlanmasınadək, sonuncunun müvafiq idarəsinə verilməsi (bu yol «hərbi məqsədlər üçün istifadə oluna bilməz» kimi ibarəli şərtlə) nəzərdə tutulurdu. *Həmçinin XI ordu hissələrinin tutduqları* xəttin arxasında qalan daşnak qoşunlarının (silahla, ləvazimatla) Ermənistana sərbəst buraxılmasına RSFSR

tərəfindən təminat verilirdi.

İlkin sazişin mahiyyəti və məqsədləriIə bağlı məsələlər nəzərdən keçirilərkən aşağıdakı diqqətçəkən məqamları vurğulamaq lazımdır:

Birincisi, bu sazişlə həm də Ermənistan – Azərbaycan münasibətlərini «tənzimləməyə» cəhd edilirdi. Belə ki, Rusiyanın nümayəndəsi B.Leqranın daşnak hökuməti ilə apardığı danışıqlarda, habelə sazişdə əsas yer tutan məsələlərdən biri də Ermənistanla Azərbaycan arasındakı münaqişə, ilk növbədə isə, Qarabağ və s. ilə əlaqədar ərazi mübahisələri idi.

Burada ən mənfi cəhət isə belə bir məqamda ifadəsini tapmışdı: Azərbaycanın iştirakı olmadan torpaqlarının məsələsi müzakirə (həll) olunur və Ermənistanla danışıqlarda Rusiya onun adından çıxış edirdi. Hətta o dövrün Qafqaz mətbuatındakı yazılarda da vurğulandığı kimi, bu hal Azərbaycanın müstəqil dövlət və Rusiyanın müttəfiqi deyil, müstəmləkəsi olmasından irəli gəlirdi.

İkincisi, G.Çiçerin hələ iyunun əvvəllərində Qarabağ, Zəngəzur və Naxçıvan mahallarının Azərbaycan SSR hökuməti tərəfindən mübahisəli ərazilər kimi etiraf olunmasına cəhdlər göstərmişdi. Onun və həmçinin Q.Orconikidzenin müvafiq səylərinə müəyyən etirazlar da olmuşdu. Belə ki, B.Şaxtantınskinin V.Leninə və İ.Stalinə məktubunda (13.VIII.1920; №22) Naxçıvan mahalının Ermənistana güzəştə gedilməsinə qarşı çıxılmışdı.

Ancaq onlara heç bir önəm verilmədi və məhəl qoyulmadı. Nəticədə ilkin sazişdə adıçəkilən bölgələr mübahisəli ərazilər sayıldı (Doğrudur, sazişdə deyilirdi ki, mübahisəli ərazilərin sovet qoşunları tərəfindən tutulması Ermənistanın, yaxud da Azərbaycanın həmin vilayətlərə hüquqları haqqında məsələni həll etmir).

Üçüncüsü, preliminar sazişdə həmçinin yazılırdı ki, RSFSR bu ərazilərə qoşun yeritməklə Ermənistanın Azərbaycanla ərazi mübahisələrinin dinc yolla həllinə əlverişli şərait yaratmağı nəzərdə tutur. Bu «əlverişli şəraiti» isə Sovet Rusiyasının yaxın vaxtlarda Ermənistanla başlayacağı sülh müqaviləsinin müəyyənləşdirdiyi əsaslar təmin etməli idi. Bununla da:

- Ermənistanla Azərbaycan arasındakı mübahisəli məsələlərin həlli, əslində birincinin ikinciyə əsassız ərazi iddiaları və hərbi təcavüzünün nəticələrinin «aradan qaldırılması» bilavasitə RSFSR-Ermənistan münasibətlərinin asılılığına keçirilirdi;
- «müstəqil» Sovet Azərbaycanı mövcud problemlərin müzakirə və həllindən diplomatik üsulla kənarlaşdırılırdı;
- onun hüquqlarının (mənafelərinin) müdafiəsi «etibarlı vəkilə» (Rusiyaya) həvalə edilirdi.

Bu sadalananları Ermənistan respublikasının XİN-i H.Ohancanyanın Azərbaycan SSR XXİK-i M.Hüseynova ünvanladığı 496 saylı teleqramın mətni də təsdiqləyir: Azərbaycanla Ermənistan arasındakı ərazi mübahisələri, ilkin sazişə (10.VIII.1920) uyğun olaraq, yaxın gələcəkdə bağlanacaq Rusiya-Ermənistan sülh müqaviləsinin müəyyənləşdirdiyi əsaslarla həll edilməlidir.

Dördüncüsü, ilkin saziş erməni siyasi dairələri və onların mətbuatı tərəfindən birmənalı qarşılanmadı;

- «Nor Aşxatavor»un «Sözdən işə», «Mşak»ın isə «Qırmızı oyun» yazılarında – **a)** Zəngəzur, Qarabağ və digər torpaqların azərbaycanlılardan təmizlənməsindən sonra müqavilə bağlanması; **b)** Leninin, qırmızı islamçıların tələbinə əsasən, rus qoşunlarını Gorusu tutmağa göndərməsi; **c)** ermənilərin indiyə kimi rus, ingilis, fransız vədlərinə aldandıqları və artıq ayılmağa məcbur olduqları

kimi fikirlər vurğulanırdı:

- «Hnçak» partiyasının Bostonda çıxan «Paak» qəzeti (24.VI.1920) saziş ərəfəsində Leninlə dostluğa, onun vasitəsilə xilas olmağa və bu yolla da müttəfiqlərdən qisas almağa çağırırdı. Bəzi mətbuat orqanları isə ilkin sazişi Zəngəzur, Qarabağ və Naxçıvanın öz-özünə Ermənistana birləşəcəklərinə şərait yaratdığı üçün erməni diplomatiyasının məğlubiyyəti deyil, Leqran üzərində qələbəsi kimi qiymətləndirirdi. Preliminar sazişə münasibətdə ikili mövqe tutan «Daşnaksütyun» partiyası (orqanı «Aşxatavor»la birlikdə) onu Ermənistan üçün ağır məğlubiyyət sayırdı.

Beşincisi, müvəqqəti saziş Antantanın siyasi- diplomatik dairələrində rahatsızlıq yaratdı. İngiltərənin Qafqazdakı Ali komissarı Leqqi və fransız missiyasının başçısı Korbel Ermənistan rəhbərliyinə təzyiq göstərdilər. Belə olduqda daşnak hökumətinin XİN-i sazişin formal səciyyə daşıdığını və əvvəllərdəki kimi indi də Antantaya meyl etdiklərini bildirdi. Ermənistan respublikasının Paris Sülh konfransındakı nümayəndə heyətinin başçısı Aqaronyan teleqraf (20.IX.1920) vasitəsilə ABŞ prezidenti V.Vilsona müraciət edərək («Nor Aşxatavor», 23.IX.1920; №136) bunu bildirmişdi: «Erməni xalqı Vilsonun hüsn-rəğbətini nəzərə alaraq Ermənistanın sərhədləri haqqında məsələdə onun qərarını səbrsizliklə gözləyir».

Eyni zamanda mətbuatda yenə də başqa fikirlər və mövqelər səslənməkdə idi. «Mşak» qəzetinin (23.IX.1920), RSFSR-in Ermənistandakı səlahiyyətli nümayəndəliyi Məlumat bürosunun bülletenində özünə yer alan, bir materialında yazılırdı: «Hər şeydən əvvəl 1918-ci ili xatırlayaq. O vaxt biz bədbəxt qalıqlarımızı türk yırtıcılarının dişindən xilas edən Müttəfiqlərə həqiqətən ümid bəsləyirdik. İndi isə bu

ümid daha mövcud deyildir və bizə heç bir dayaq yoxdur».

Ümumiyyətlə isə, Rusiya-Ermənistan preliminar sazişinin bağlanmasında güdülən məqsədlər, onun əsas məqamları, nəticələri və s. məsələlərə belə bir xülasə vermək mümkündür: Bütün bunlar Rusiyanın Güney Qafqazı təkrarən işgal etməsinə və tarixi torpaqlarımızın tezliklə açıq (Zəngəzurun bir hissəsinin «bağışlanması», bu və sonrakı tədbirlərlə Naxçıvanın Azərbaycanın digər ərazilərindən ayrı salınması) və üstüörtülü (Dağlıq Qarabağda ermənilərə muxtariyyət verilməsi) şəklində Ermənistana ötürülməsinə hazırlıq işləri kimi dəyərləndirilməlidir.

Bu ilkin sazişin imzalandığı vaxtlarda Azərbaycan SSR ilə Ermənistan arasında razılıq əldə edildi və sülh danışıqlarına başlamaq – Qazaxda konfrans çağırmaq (20.VIII.1920) qərara alındı. Bununla əlaqədar olaraq İrəvana göndərilən teleqramda (10.VIII.1920), **1-cisi,** Azərbaycan SSR nümayəndə heyətinin tərkibi göstərilir, **2-cisi isə,** Fövqəladə nümayəndə İ.Dövlətovun Ermənistana yola düşəcəyi bildirilirdi. Milliyyətcə erməni olan İ.Dövlətov həm də nümayəndə heyətiin rəhbəri idi (Sözgəlişi, o, 1921-ci ilin iyunundan isə Ermənistanın Azərbaycandakı səlahiyyətli nümayəndəsi olmuşdu, bu vəzifədə M.Arutunyantsı əvəz etmişdi).

Onun tərkibinə A.Mikoyan və Lominadze də daxil edilmişdilər. Şübhəsiz, tərkibin qeyri-azərbaycanlılardan ibarət olmasına və xüsusilə də A.Mikoyanın oraya salınmasına, İ.Dövlətova Azərbaycanın Fövqəladə nümayəndəsi səlahiyyətlərinin verilməsinə heç cür haqq qazandırıla, bunlar millətin mənafeyinə uyğun hərəkətlər kimi qiymətləndirilə bilməz.

Bu kimi cəhətlər hətta Rusiyanın Azərbaycandakı nümayəndələrindən biri – Azərbaycan Xalq Təsərrüfatı Şurasının sədri N.Solovyovun V.Leninə hesabatında da pisləNil-

mişdi: «Təhqiramız haldır ki, Azərbaycan tərəfindən Azərbaycan-Gürcüstan danışıqlarında gürcülər, Azərbaycan-Ermənistan danışıqlarında isə ermənilər iştirak edirlər».

İ.Dövlətov Azərbaycanın Fövqəladə nümayəndəsi sifətilə İrəvanda beş gün ərzində müxtəlif dairələrlə müəyyən danışıqlar aparmışdı. Sonra isə geriyə dönərək öz səfəri barədə AK(b)P MK Siyasi Bürosunun iclasında (27.VIII.1920) «Ermənistan haqqında» məruzə etmişdi. Həmin məruzədə Ermənistanın İngiltərədən və ağqvardiyaçı general Vrangeldən çoxlu miqdarda hərbi sursat alıb, 18-45 yaşlıların səfərbərliyini keçirərək Azərbaycanla müharibəni yeni qüvvətlə davam etdirməyə hazırlaşması göstərilirdi.

Bu fikrin davamı kimi məruzədə qeyd edilirdi: Ermənistan hökuməti Azərbaycana özünün yeganə və ən təhlükəli düşməni, Rusiyaya Türkiyəni müdafiə və Ermənistanı isə işğal etmək istəyən dövlət kimi baxır; orada nəinki Azərbaycanı və türkləri, habelə Sovet Rusiyasını bütün bəlaların əsası sayaraq ona da nifrət edirlər; ermənilər bütün ümidlərini ingilislərə və Vrangelə bağlayırlar (Sonuncu mülahizə ilə bağlı belə bir faktı da əlavə etmək olar ki, Ermənistan hökuməti indi də Vrangelin yanına xüsusi nümayəndəlik göndərmişdi).

Ermənistanın Xarici İşlər naziri H.Ohançanyan İ.Dövlətovla görüşündə öz hökumətinin siyasətinə haqq qazandırmış və elə oradaca da Azərbaycanın konfrans çağırılmasına dair təklifini rədd edən teleqramı imzalamışdı. İ.Dövlətovun «Ermənistan mübahisəli ərazi məsələlərini niyə dinc yolla həll etmək istəmir?» sualına nazir «ümumiyyətlə, problemləri digər diplomatik nümayəndələrin vasitəçiliyi ilə həll etmək olar» cavabını vermişdi. Göründüyü kimi, Ermənistan birbaşa – ikitərəfli danışılardan qaçır və Rusiyanın vasitəçiliyinə üstünlük verirdi.

Bu arada N.Nərimanov Tiflisdə olarkən Ermənistanın oradakı diplomatik nümayəndəsi Q.Bekzadyanın təşəbbüsü ilə onunla görüşmüşdü. O həmin təşəbbüsü – görüşü ermənilərin siyasətində müəyyən irəliləyiş kimi qiymətləndirərək bunun əsas səbəbini neftlə əlaqələndirmiş və bu yolla da Ermənistana təzyiq göstərilə bilməsinin mümkünlüyünü qeyd etmişdi.

N.Nərimanovun Tiflisdə B.Leqranla apardığı danışıqlarda isə bunlar razılaşdırılmışdı: erməni-azərbaycanlı konfransı hələlik çağırılmır; Ermənistanın Azərbaycanla mübahisəli ərazi məsələlərinə, habelə neftə dair B.Leqranda hazır direktivlər olur; Anadoluya sərbəst keçid əldə edilərsə mübahisəli ərazi məsələlərində güzəştə (?! – İ.M.) gedilməsi və Ermənistanla ticarət-tranzit müqaviləsi bağlanması da mümkün ola bilər.

Belə bir olduqca mürəkkəb və gərgin hərbi-siyasi şəraitdə Ermənistan hökuməti 32 yaşadək olanların səfərbərliyə alınmasını elan etdi. O, Qərb dövlətləri tərəfindən çoxlu hərbi sursatla da təchiz olundu. Tezliklə daşnak Ermənistanının silahlı qüvvələri ilə XI ordu hissələri arasında toqquşmalar baş verdi. Birinci tərəf müəyyən itkilər verərək geri çəkilməyə məcbur oldu.

Bu dövrdən etibarən Zəngəzurun Ermənistana birləşdirilməsi prosesinə ciddi təkan verildi. Həmçinin Rusiya ordusu tərəfindən tamamilə işğal edilən Naxçıvan mahalı ilə əlaqədar siyasi-diplomatik çəkişmələrin növbəti mərhələsinə başlanıldı (Axırıncı məsələ 5-ci paraqrafda ətraflı təhlil olunur).

Zəngəzurun bir hissəsinin Ermənistana verilməsi prosesi

Ermənistan Zəngəzura dair iddialarını reallaşdırmaq məqsədilə 1920-ci ilin payızında daha kəskin tədbirlər gör-

məyə başladı. Tarixi ərazilərimizlə siyasi alver xəttini tutan Rusiya isə Azərbaycan "rəhbərliyi"nin ifrat beynəlmiləlçiliyini, onun sovetləşdirmə adı altında həyata keçirilən yenidən işğal ilə Cənubi Qafqazda hamıdan əvvəl razılaşmasını və s. qiymətləndirmədən öz siyasətini yürütməkdə, ermənipərəst mövqedən çıxış etməkdə israrlı oldu.

Azərbaycanın Şura hökuməti RSFSR ilə hərbi-iqtisadi ittifaq haqqında müqavilə (30.XI.1920) bağlayarkən birgə sosializm quruculuğu, Sovet Rusiyası rəhbərliyinin təzyiqi və s. mülahizələri əsas tutmaqla yanaşı həm də öz ərazisinin bütövlüyünün təmin olunmasına da ümid bəsləmişdi. O mübahisəli məsələləri həll etmək üçün bir sıra yeni təkliflər irəli sürmüşdü.

Bakı Sovetinin iclasında (2.X.1920) belə bir qərar qəbul edilmişdi: "XXİK-ə qonşu respublikalar arasında bütün mübahisəli məsələlərin həlli, habelə düzgün münasibətlər yaradılması üçün danışıqlar aparmaq təklifilə bir daha Ermənistan hökumətinə müraciət etmək tapşırılsın". Bu qərar AK(b)P II qurultayı tərəfindən bəyənildikdən (16.X.1920) sonra azərbaycanlı-erməni konfransını çağırmaq və digər təkliflərlə Ermənistan hökumətinə müraciət edildi.

Erməni tərəfi cavab notasında konfrans çağrılmasına razılığını bildirir, onun keçirilməsi üçün bitərəf məntəqələrdən, yaxud da Ermənistan şəhərlərindən birini seçməyi məsləhət görürdü. Azərbaycan hökuməti isə konfransın noyabrın 5-də, özü də Bakıda açılmasına çalışırdı. Lakin ermənilərin əməlləri üzündən bu danışıqlar hələ ki baş tutmadı.

Bunlarla paralel surətdə İrəvanda B.Leqranla danışıqlar davam etdirilir və Sovet Rusiyası ilə Ermənistan arasında müqavilənin layihəsi hazırlanırdı. Bir sıra diplomatik sənədlərin də sübuta yetirildiyi kimi, həmin danışıqlarda və haqqında söhbət gedən layihədə Azərbaycanın milli-dövlət

mənafelərinə ciddi qəsdlər edilərək onun tarixi torpaqları olan Zəngəzur və Naxçıvanın Ermənistana verilməsi planlaşdırılırdı. Bu zaman Rusiya hökuməti Q.Orconikidzenin belə bir müddəasından çıxış edirdi ki, "... məlum siyasi şəraitdə Ermənistan bizə lazım ola bilər".

Burada söhbət Rusiyanın Şərq siyasətindən, onun reallaşdırılmasının vəsilə – mərhələlərindən biri kimi Ermənistanın da sovetləşdirilməsindən və bütün bu proseslərdə isə Azərbaycanın torpaqlarından, ilk növbədə məlum bölgələrdən "xırda pul" kimi istifadə olunmasından gedirdi. Həmin fikirləri Sovet rəhbərliyi tərəfindən mərhələ-mərhələ ortalığa atılan və regionda həyata keçirilən bu şüarlar da (əvvəlcə "Yalnız Sovet hakimiyyəti Azərbaycanın ərazi bütövlüyünü təmin edə bilər", sonra isə "Yalnız Sovet hakimiyyəti Zəngəzuru Ermənistana qaytara və Azərbaycanı Qarabağa muxtariyyət verməyə məcbur edə bilər") təsdiqləyir.

İrəvandakı danışıqlar, tərəfləri gələcək sülh müqaviləsini tanımağa məcbur edən, protokolun imzalanması ilə qurtardı. Həmin sazişlə də Ermənistan Qarabağdan imtina etməli, ancaq Zəngəzur və Naxçıvanı almalı idi (Göründüyü kimi, işlər İ.Stalinin "Azərbaycanın fatehi" adlandırdığı Q.Orconikidzenin "əvvəlcə Naxçıvanla Zəngəzurun Ermənistana keçməsinə nail olmaq və sonra da Azərbaycanı Dağlıq Qarabağa muxtariyyət verməyə vadar etmək" planına uyğun gedirdi). Protokolun imzalanmasını yüksək qiymətləndirən B.Leqran noyabrın 1-də G.Çiçerinə yazırdı ki, bizim sazişi məqbul sayıram və onun Antantanın Ermənistanı öz alətinə çevirmək cəhdlərinin iflic olunmasına real imkan verəcəyini güman edirəm.

Bütün bunlar, habelə aşağıda şərh edilən digər hadisə və faktlar da belə bir fikri irəli sürməyə möhkəm əsas verir:

Azərbaycan torpaqlarının, müəyyən səbəblərə görə isə ilkin olaraq Zəngəzurun Rusiya tərəfindən ermənilərə verilməsi əvvəlcədən planlaşdırılmışdı və rəhbərlərimizin beynəlmiləlçiliyi sayəsində tezliklə, asanlıqla reallaşmışdı.

Doğrudur, AK(b)P MK Siyasi Bürosu və PK(b)P MK Qafqaz Bürosunun İ.Stalin, Q.Orconikidze, Qabrielyan, B.Leqran, Ə.Qarayev və b. iştirakı ilə keçirilən birgə iclasında (4.XI.1920) Rusiya ilə Ermənistan arasındakı müqavilənin şərtlərinə toxunularkən belə bir qərar qəbul edilmişdi: "Naxçıvan və Zəngəzurun Ermənistana verilməsi haqqında təklif olunan maddə nə siyasi, nə də strateji cəhətdən sərfəli deyildir və yalnız lap son halda baş tuta bilər".

İclasda həmçinin Siyasi Büronun Naxçıvan və Zəngəzura aid mövqeyinin əsaslandırılmasını hazırlamaq N.Nərimanova həvalə olunmuşdu. Habelə İ.Stalinin bu məsələ ilə bağlı PK(b)P MK ilə danışıqlar aparmasınadək Ermənistana təqdim edilən müqavilə barədə qəti qərar çıxarılmaması razılaşdırılmışdı.

Bu qərar bir daha göstərir ki, Azərbaycan torpaqları hərraca qoyulmuşdu, onların taleyi bizim millətin tarixi hüquqları və mənafeləri baxımından yox, hansısa dövlətə, ideologiya və quruluşa siyasi-strateji baxımdan sərfəli olub-olmaması nöqteyi-nəzərindən həll edilirdi.

İ.Stalinin Bakıda AK(b)P MK və Bakı komitəsinin birgə plenumunda – PK(b)MK Qafqaz Bürosu, Azərbaycan İnqilab Komitəsi, Bakı Soveti və s. birgə iclasında (9.XI.1920) "Zəngəzur məsələsi"nin müzakirəsi zamanı söylədiyi aşağıdakı sözlər də fikrimizə əsas ola bilər: əgər Zəngəzur və Naxçıvanın kimə məxsus olmasını bilmək istəyirlərsə, onları Ermənistanın indiki hökumətinə vermək olmaz, orada Sovet hökuməti yaranarsa vermək olar.

Onun belə bir mövqeyini bir sıra digər mülahizələrlə

yanaşı, həm də "Mən Azərbaycanın müstəqilliyinin tərəfdarı deyiləm. Kommunistlərin bir hissəsinin digərindən müstəqilliyi ola bilməz" kimi məkrli və eyni zamanda cəfəng tezisilə izah etmək mümkündür.

Zəngəzurun bir hissəsinin Ermənistana verilməsində aşağıdakı iclasın da böyük "xidməti" olmuşdur. AK(b)P MK Siyasi və Təşkilat bürolarının bu birgə iclasının (30.XI.1920) qəbul etdiyi "tarixi" qərarlara aydınlıq gətirmək məqsədilə orada iştirak edənlərin tərkibinə də mütləq diqqət yetirilməlidir: Q.Orconikidze, Sarkis (S.Ter-Danielyan), Y.Stasova, Q.Kaminski, N.Nərimanov, Ə.Qarayev, M.Hüseynov və b. İclasda 3-cü məsələ kimi "Ermənistan İnqilab Komitəsinin Ermənistanda Sovet hakimiyyətinin elan olunması haqqındha teleqramı" müzakə edilmiş və geniş bir qərar çıxarılmışdı.

Həmin qərarın "**v**" bəndində yazılırdı: Sovet Azərbaycanı ilə Sovet Ermənistanı arasında heç bir sərhəd mövcud deyildir". İclasın və qərarın, demək olar ki, başlıca məqsədi onun mərkəzi bəndində ("**q**") öz əksini tapmışdı. Orada deyilirdi ki, Zəngəzur və Naxçıvan Ermənistana keçir. Digər bəndlərdə isə yazılırdı: **d)** Qarabağın dağlıq hissəsinə öz müqəddəratını təyin etmək hüququ verilir; **e)** Sovet Azərbaycanı Sovet Ermənistanı ilə qırılmaz hərbi və təsərrüfat ittifaqı bağlayır (o cümlədən, neft haqqında göstərilsin). "**J**" və "**i**" bəndlərində isə N.Nərimanova bütün bunlar barədə Bəyanat hazırlamaq və onu Bakı Sovetinin plenumunda elan etmək tapşırılırdı.

Zəngəzurun ermənilərə verilməsi, əslində isə "bağışlanması" istiqamətində daha bir addım 1920-ci il dekabrın 1-də atıldı. Həmin gün Bakı Sovetinin, Ermənistanda Sovet hakimiyyəti qurulması münasibətilə keçirilən, təntənəli "tarixi" iclasında N.Nərimanov Bəyanatla çıxış etdi. (Yeri gəlmiş-

kən, daşnak qəzeti "Aşxatavor" (9.I.1921) Ermənistandakı "sosialist inqilabı" barədə maraqlı bir fikir vurğulamışdı: "Ermənistanda inqilabı türklər və ruslar etdilər, hakimiyyət isə Bakıdan göndərildi (İrəvana gələn erməni kommunistlərə işarə edilir). Bu, ermənilərin siyasi uşaqlığıdır).

Tarixə "Nərimanovun Bəyanatı" kimi daxil olan bu sənəddəki müəyyən hissənin (bəzi müddəa və fikirlərin) vaxtı ilə sinfi-ideoloji məqsədlərin milli mənafeləri xeyli üstələdiyi və çıxışdırdığı bir dövrdə "unudulmasını", habelə bu məsələdə aydınlıq yaradılmasını nəzərə alaraq onu olduğu kimi veririk.

Bəyanat "Kommunist" (rusca; 2.XII.1920, №178) və "Bakinski raboçi" (3.XII.1920, 23 saylı) qəzetlərində də dərc olunduqdan sonra axır vaxtlaradək Azərbaycanda yenidən nəşr edilməmişdi. Ermənistanda isə həmin Bəyanat, gələcəkdə Dağlıq Qarabağla əlaqədar məsələ qaldırmaq məqsədilə, Yerevanda ermənicə nəşr olunan "Kommunist" qəzetində (7.XII.1920) saxtalaşdırılmış məzmun və mətnlə dərc edilmişdi.

N.Nərimanov özü Bəyanatda elan edilən faktların saxtalaşdırılmasına – "Dağlıq Qarabağın əməkçi kəndlilərinə isə öz müqəddəratını təyin etmək hüququ verilir" (əslində bu da səhv idi, çünki hadisələrin sonrakı gedişinin sübut etdiyi kimi, həmin bölgə ilə bağlı gələcək fitnə-fəsadlar üçün yeni münbit zəmin hazırlayırdı) əvəzinə Yuxarı Qarabağın "Ermənistan Sosialist respublikasının tərkib hissəsi kimi tanınması" kimi yazılmasına etiraz etmişdi.

Bəyanatda deyilirdi: "Sovet Azərbaycanı Ermənistan və Zəngəzurda ən yaxşı yoldaşlarımızın – kommunistlərin günahsız qanını tökmüş və tökən daşnakların hakimiyyətinə qarşı əməkçi erməni xalqının mübarizəsinə yardım göstərərək elan edir ki, bundan belə heç bir ərazi məsələləri əsrlərdən bəri qonşu olan iki xalqın: ermənilərin və müsəlmanların bir-birinin qanını tökməsi üçün səbəb ola bilməz; **Zəngəzur və Naxçıvan qəzalarının ərazisi Sovet Ermənistanının bölünməz ərazisidir** (Seçdirmə bizimdir – İ.M.); Dağlıq Qarabağın əməkçi kəndlilərinə isə öz müqəddəratını təyin etmək hüququ verilir, Zəngəzurun hüdudlarında bütün hərbi əməliyyatlar dayandırılır; Sovet Azərbaycanının qoşunları isə buradan çıxarılırlar". Burada daha sonra qeyd edilirdi ki, Sovet Azərbaycanı malik olduğu tükənməz sərvətlərin – neft, kerosin və digər məhsulların qapılarını Sovet Ermənistanı üçün geniş açır.

Bu Bəyanatla və Azərbaycan torpaqlarının Ermənistana verilməsi ("bağışlanması") ilə bağlı bəzi mövqe və mülahizələri də bilmək maraqlı olardı. Bakı Sovetinin həmin iclasının yekdilliklə qəbul olunan qətnaməsində "Nərimanovun Bəyanatı"nın tamamilə bəyənildiyi bildirilirdi. Habelə bu sənədin "... Ermənistanla müsəlman dünyası arasındakı çoxəsrlik düşmənçilik və qanlı müharibələri birdəfəlik aradan qaldırmaqla Güney Qafqaz və bütün Şərq xalqlarının tarixində yeni səhifə (?! – İ.M.) açdığı qeyd edilirdi".

Çoxlu arxiv sənədlərinin də təsdiqlədiyi kimi, torpaqlarımızın parçalanması və paylanmasında əsas rol oynayanlardan biri olan İ.Stalin bu hadisəni belə "izah" etmişdi: "Dekabrın 1-də Sovet Azərbaycanı mübahisəli vilayətlərdən könüllü olaraq əl çəkir və Zəngəzur, Naxçıvan, Dağlıq Qarabağın (Bəyanatın məzmunu Yuxarı Qarabağla bağlı burada da təhrif edilmişdir – İ.M.) Sovet Ermənistanına verilməsini elan edir".

Bakı Sovetinin həmin iclasındakı çıxışında "əzabkeş erməni xalqının" (onun ifadəsidir – İ.M.) Sovet hakimiyyətinin bayrağı altına gəlməsini alqışlayan Q.Orconikidze bu bəyanatı "bəşəriyyət tarixində nümunəsi olmayan mühüm əhəmiyyətli (?!-İ.M.) tarixi akt" kimi qiymətləndirmişdi.

Həmin çıxışında o, Azərbaycanın strateji bölgələrinin əhəmiyyətini azaldaraq demişdi:

"Zəngəzur, Naxçıvan və Qarabağ ruslar üçün heç nə deməkdir; Zəngəzur məhsulsuz dağlardır, taxılı yox, suyu yox, Naxçıvan bataqlıq və malyariyadan başqa bir şey deyildir, Qarabağda da heç nə yoxdur. Və budur yoldaş Nərimanov deyir: "Onları özünüzə götürün. Bu məhsulsuz torpaqları Ermənistan üçün götürün". Sanki Sovet Azərbaycanı artıq yükdən xilas olur" (Seçdirmə bizimdir – İ.M.).

Q.Orconikidze elə həmin gün PK (b) P MK Qafqaz Bürosunun üzvü – erməni kommunistlərinin liderlərindən biri olan Nazaretyana məlum Bəyanat barədə xəbər yetirdikdə o, "mətbuatda, bərəkallah azərbaycanlılar" – deyə car çəkməyə başlayacağıq" cavabını vermişdi. Q.Orconikidze 1920-ci il dekabrın 2-də Bakıda verdiyi məlumatda V.Leninə və İ.Stalinə "Azərbaycan artıq dünən Naxçıvan, Zəngəzur və Dağlıq Qarabağın (sonuncuya dair fikir yenə də təhrif edilir – İ.M.) Sovet Ermənistanına verilməsini rəsmən bəyan etmişdir" xəbərini çatdırmışdı.

Bu kimi labüd – "qanunauyğun" fikirlərlə yanaşı, o vaxt Azərbaycan torpaqlarının ermənilərə verilməsinin ("bağışlanmasının") həmin dövrdə və gələcəkdəki acı nəticələrini dərk edənlər və buna qarşı qarşı çıxanlar da az olmamışdı. M.Rəsulzadə yazırdı: "Ermənistanda dəxi bolşevik hökuməti təsis edər-etməz rus siyasəti Nəriman bəyin səxavətkar ağzı ilə iki gün əvvəl müdafiə eylədiyi Zəngəzur ilə Naxçıvan qəzasını təntənəli bir sürətdə Ermənistana hədiyyə etdi".

M.B.Məmmədzadə bu məsələyə dair öz mövqeyini belə açıqlayırdı: "Azərbaycanın ərazi bütövlüyü də sui-qəsdə məruz qalmışdır. Rusiyanın təzyiqi ilə Azərbaycan Sovet hökuməti 1920-ci il dekabrın 1-də Naxçıvanı, Qarabağı (bu

bölgə ilə əlaqədar təhrifə yol verilmişdir – İ.M.) və Zəngəzuru "öz arzusu ilə" Ermənistana hədiyyə etməyi qərara almış və bunu elan etmişdir".

Azərbaycan rəhbərliyinin az öncə sadalanan beynəlmiləlçi güzəştləri və məlum ilkin sazişlə (10.VIII.1920) hədəfə alınanlar RSFSR-lə Sovet Ermənistanı arasındakı hərbi-siyasi müqavilə (2.XII.1920) ilə möhkəmləndirildi və gerçəkləşdirildi.

İkinci sazişin **3-cü** maddəsində yazılırdı ki, Rusiya Sovet hökuməti İrəvan quberniyasının ... (Naxçıvan və çevrəsindəki torpaqlar nəzərdə tutulur – İ.M.), Zəngəzur qəzasının Ermənistan SSR ərazisinin tərkibinə daxil olmasını mübahisəsiz tanıyır. Bununla da Rusiya-Ermənistan münasibətlərində mühüm önəmə malik olan məsələlərdən ən başlıcası – Azərbaycan torpaqları ətrafındakı növbəti sövhədələşmə o mərhələ üçün bu şəkildə yekunlaşdırıldı.

Sazişin **4-cü** maddəsində öz əksini tapan fikir – "erməni ordusunun komandir heyətinin Ermənistanda Sovet hakimiyyətinin elan olunmasınadək törədilən hərəkətlərə görə cavabdehlikdən azad edilməsi" onu son illərdə müxtəlif bölgələrdə azərbaycanlılara qarşı törədilən zorakılıqlara görə məsuliyyətdən yayındırırdı.

Qaniçən Dronun indi isə Sovet Ermənistanı ordusuna komandanlıq etməsini, həmin quldur dəstələrinin yenə də Azərbaycan sərhədlərinə göndərilməsini, az sonra Dağlıq Qarabağa muxtariyyət verilməsini və Naxçıvanla bağlı cərəyan edən prosesləri də buraya əlavə etsək, əvvəlki rus-erməni siyasətinin məzmun yox, yalnız forma dəyişikliyinə məruz qaldığını demək olar.

Zəngəzurun bir hissəsinin Ermənistana verilməsi ilə bağlı bir sıra vacib məsələləri də burada açıqlamaq və işıqlandırmaq olduqca zəruridir. Bu məsələləri aşağıdakı kimi

qruplaşdırmaq və formulə etmək olar:

1. Bölgənin Azərbaycandan qoparılmasına zəmin yaradan amillər: Rusiyanın işğalçılıq məqsədləri və Qafqazı əldən verməmək siyasəti; Azərbaycanın yenidən işğal olunmağa razılaşandan sonra belə çox qüvvətli təzyiqə məruz qalması; Azərbaycanın – digər millətlərin, ilk növbədə isə, ermənilərin nümayəndələri tərəfindən ələ keçirilən – rəhbərliyinin məqsədyönlü siyasəti; yerli xalqdan olan başçıların isə milli-dövlətçilik mənafelərini qurban verərək ifrat beynəlmiləlçiliyə uymaları; Aprel çevrilişindən sonra Zəngəzura dair düzgün və ardıcıl xəttin yeridilməməsi və s.

2. Zəngəzur mahalı, verilməsi bəyan edilən kimi, dərhal Ermənistanın siyasi-inzibati idarəçiliyinə keçmədi. Əksinə onun ermənilərin əlində olmayan məntəqələrində Azərbaycanın müvafiq orqanları bir müddət fəaliyyət göstərdi. Digər tərəfdən Ermənistanın eyni zamanda hər üç bölgəyə (Naxçıvan, Zəngəzur və Qarabağa) qarşı ərazi iddiaları irəli sürdüyü və bunlardan birinci ikisinin ona verilməsinin rəsmən bəyan edildiyi bir şəraitdə məhz Zəngəzurun bir hissəsinin ələ keçirilməsinin özü də müəyyən amillərlə şərtlənir və xüsusi olaraq açıqlanmalıdır.

Zəngəzurun bir hissəsinin ermənilərin əlinə keçməsində Rusiyanın işğalçılıq siyasəti və qüvvətli təzyiqi, Azərbaycan rəhbərliyindəki müəyyən qeyri-milli qüvvələrin antiazərbaycan fəaliyyətləri, şübhəsiz, başlıca rol oynasa da bu məsələdə özümüzdən olan başçıların tarixi məsuliyyətsizliyi və səhvləri də çox olmuşdur.

Dünya inqilabı, sovetləşdirmə, Lenin milli siyasəti, ifrat beynəlmiləlçilik, "xalqlar dostluğu" kimi ideyalara xidmət edən belə başçıların da yanlış hərəkətləri və qətiyyətsiz mövqe tutmaları Zəngəzurun bir hissəsinin itirilməsinin səbəblərindən oldu.

AİK-ə aid edilən və 1920-ci il avqustun 24-dən sonra yazıldığı güman olunan "Azərbaycan və Ermənistan məlumatı" adlı sənəddə belə bir fikir söylənmişdi ki, "... əgər biz Anadoluya sərbəst keçid (dünya sosialist inqilabının irəliləməsi nəzərdə tutulur – İ.M.) əldə edəriksə, onda, əlbəttə, mübahisəli ərazi məsələlərində (Ermənistanla əlaqədar – İ.M.) güzəştə getmək mümkün olacaqdır".

Hər bir dövlətin və xalqın tarixində ən başlıca həyati problemlərdən biri olan torpaq və ərazi məsələlərində milli mənafelər mövqeyində durmamağın acı nəticələri tezliklə elə N.Nərimanovun özü tərəfindən də dərk və etiraf olunmuşdu. Mərkəzin Bakıya doluşmuş emissarları 1921-ci ilin sentyabr-dekabr aylarında respublika kommunist təşkilatında "təmizləmə" adı altında azərbaycanlılara qarşı müxtəlif repressiya tədbirlərini həyata keçirərkən N.Nərimanov və başqa beynəlmiləlçiləri millətçilikdə ittiham etdikdə buna cavab olaraq o demişdi: "Əgər Azərbaycanın müsəlman kommunistlərinin əksəriyyəti ... millətçilik əhval-ruhiyyəsində olsaydı, inanın ki, Ermənistan Zəngəzuru almazdı, Gürcüstana müftə neft verilməzdi..."

N.Nərimanovun etirafları onun V.Leninə ünvanladığı bir məktubda da öz əksini tapmışdı: "Azərbaycan öz sərvətini Sovet respublikasının ümumi sərvəti elan etmiş və bunu işdə sübuta yetirmişdir. Azərbaycan hətta siyasi mülahizələrə görə bunun mümkün olmadığı bir vaxtda belə Ermənistanın xeyrinə öz torpaqlarından imtina etmişdir".

O digər bir məktubda yazırdı: "Deyirlər ki, müsəlman kommunistlər Azərbaycanı – burada Şura hökumətinin qurulmasınadək mübahisəsiz sayılan vilayətləri mübahisəli hesab edən – Rusiyaya satmışlar; bizə birbaşa bildirirlər ki, siz tamamilə mübahisəsiz əraziləri Azərbaycanın əlində saxlaya bilmirsiniz, ancaq Şərqin azadlığından dəm vurursunuz".

İstər bu problemlə, istərsə də ümumiyyətlə, o dövdə Azərbaycanın beynəlxalq durumunun aydınlaşdırılması ilə bağlı bəzi məqamlar N.Nərimanovun ZSFSR İttifaq Sovetinin sədrlərindən biri olarkən V.Leninə yazdığı bir məktubda da aşkarlanır. Həmin məktubda bu kimi fikirlər özünə yer almışdı:

Mərkəz Azərbaycanın tamamilə mübahisəsiz ərazilərini Ermənistana güzəştə gedir və bu düzəldilməsi mümkün olmayan tarixi səhvdir; həmişə Denikini müdafiə edən Ermənistan müstəqillik qazanır və əlavə olaraq da Azərbaycan torpaqlarını alır; Zaqafqaziya respublikaları arasında hamıdan əvvəl özünü Sovet Rusiyasının ağuşuna atan Azərbaycan isə həm müstəqilliyini, həm də ərazisini itirir, axı "Müstəqil Azərbaycan" sözü Sizin dilinizdən eşidilmişdir; Azərbaycanın indiki vəziyyəti elədir ki, Mirzəyanlar heç bir maneəsiz onun taleyini həll edirlər.

Qeyd etmək lazımdır ki, Aprel çevrilişindən sonra Zəngəzura dair qətiyyətlə və birmənalı mövqe tutulmadı, siyasətdə yol verilən digər kobud əyintilər və səhvlər vaxtında aradan qaldırılmadı, bütün bunlar isə mahalın bir hissəsinin itirilməsinə şərait yaratdı. Burada ilk növbədə Azərbaycan Şura hökumətinin bölgənin problemlərinə lazımi diqqət yetirmədiyini qeyd etmək lazımdır.

Zəngəzurun bir hissəsinin Azərbaycandan qoparılması ərəfəsi və dövründə bölgədəki siyasi şəraiti səciyyələndirən, onun itirilməsinə bilavasitə təsir göstərən daha mühüm məsələlərdən biri haqqında da burada bəhs olunmalıdır. Bu məsələnin mahiyyətini isə Azərbaycan Şura hökumətinin ifrat sinfi siyasət yeritməsində, milli-dövlətçilik mənafelərini düzgün qiymətləndirə bilməməsində, bu istiqamətdə buraxılan kobud səhvlərdə və yol verilən əyintilərdə axtarmaq lazımdır.

Onların arasında isə rəsmi Moskva-Ermənistan tərəfindən ortalığa atılan və Azərbaycan rəhbərliyinin uzağı görməyən siyasəti, yanlış mövqeyi ilə qüvvətlənən "Kürdüstan məsələsi", Xosrov bəy və Sultan bəy Sultanov qardaşlarına qərəzli münasibət mühüm yer tuturdu.

Ermənilər Zəngəzurun ələ keçirilməsini asanlaşdırmaq və sürətləndirmək məqsədilə qəzanın onlar tərəfindən tutulan sahələrində möhkəmlənərək bölgənin digər hissələrində – Aşağı Zəngəzurda isə "Kürdüstan" yaradılması "ideya"sını irəli sürmüşdülər. Əsrlərdən bəri Zəngəzurda birlikdə yaşayan və qaynayıb-qarışan müsəlmanlar – Azərbaycan türkləri və kürdləri tərəfindən heç vaxt belə bir məsələ qaldırılmamışdı.

Ancaq bu dövrdə guya ki, xalqların öz müqəddəratını təyin etmək hüququnu əsas tutan Lenin milli siyasətinə əsasən bu cür problem yaradıldı. Əslində burada əsas məqsəd Rusiyanın Azərbaycanda yenidən möhkəmlənməsini təmin etməkdən, bu niyyətlə də Azərbaycanın parçalanması və daima təzyiq altında saxlanılmasından, Zəngəzurun tədricən, hissə-hissə Ermənistana verilməsinə nail olmaqdan ibarət idi.

Digər tərəfdən isə heç bir rəsmi sənəd və fərman olmadan Zəngəzurun aşağı və ya şərq hissəsinin Kürdüstan adlandırılması ancaq ermənilərin və Rusiyanın məqsədlərinə uyğun gəlirdi. Çox maraqlıdır ki, hələ Azərbaycanda yeni inzibati-ərazi bölgüsü aparılmadığı, Aşağı Zəngəzurun rəsmi olaraq Kürdüstan adlandırılmadığı bir halda nədənsə və haradansa bu ifadə bəzi sənədlərə – bölgə ilə Mərkəz (yəni Bakı) arasındakı müxtəlif səpkili yazışmalara, habelə V.Leninin N.Nərimanova teleqramına (17.XI.1921) yol tapa bilmişdi. Sözgəlişi, 1921-ci ilin ortalarından etibarən isə əksəriyyət sənədlərdə Kürdüstan deyil, Qubadlı qəzası və ya

rayonu ifadəsi işlənilmişdi. Və yalnız Azərbaycan Sovetləri MİK-in əmrilə (6.VIII.1923) rəsmi inzibati-ərazi vahidi, yəni Kürdüstan qəzası yaradılmışdı; o, 1920-ci illərin sonunda ləğv olundu).

Azərbaycan hökumətinin X. və S.Sultanovlara münasibətdə sinfi və qərəzli mövqe tutması da Zəngəzurda proseslərin bizim xeyrimizə deyil, ziyanımıza işləməsində müəyyən rol oynadı. Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasında böyük əməyi olan, Qarabağ və Zəngəzur bölgələrində qayda-qanun və əmin-amanlıq yarada bilən Sultanov qardaşları (xüsusilə də Xosrov bəy) Azərbaycandakı hakimiyyət dəyişikliyinə məhəl qoymadan torpaqlarımızın ermənilərdən qorunması sahəsində apardıqları mübarizəni daha da qüvvətləndirmişdilər.

Sultanovların Zəngəzur üçün nə demək olduğunu daha yaxşı başa düşən ermənilər bu şəxsləri əvvəlcə "Müsavat, indi isə Şura hökumətlərinə xidmət göstərməkdə" ittiham etməklə onları bir növ nüfuzdan salmağa yönəldilən fitnəkar əməllərə əl atdılar.

Ermənistan XİN-in Azərbaycan XXİK-in müavini M.Hüseynova göndərdiyi notadakı (12.V.1920) "... erməni qırğınının təşkilatçısı Sultanov qırmızı lenta taxaraq yenə də hakimiyyətdədir" (Qarabağın general-qubernatoru X.Sultanovun Şuşa İnqilab Komitəsinin sədri olmasına işarədir - İ.M.) fikri ermənilərin bədniyyətlərindən xəbər verirdi.

Belə əməllərin Azərbaycanın yeni hökumətinin qərəzli mövqeyi ilə tamamlanması isə bölgə üçün çox pis nəticələr verdi. Yeri gəlmişkən, keçmiş general-qubernator Sovet hakimiyyətinin ilk vaxtlarında Şuşa İnqilab Komitəsinin sədri kimi torpaqların müdafiəsinə çalışır və onların itirilməsi ilə bağlı yaranmış təhlükə barədə dəfələrlə rəsmi Bakı qarşısında məsələlər qaldırırdı. O hələ qəza Hərbi-İnqilab Komitəsinin sədri olarkən Şuşadan Azərbaycan XKS sədrinə yolladığı teleqramda ermənilərin xeyli fəallaşdıqlarını bildirir və təcili tədbirlər görülməsinin zəruriliyini qeyd edirdi.

Azərbaycanın yeni rəhbərliyinin siyasəti və fəaliyyətində sinfi-partiyalı münasibətin milli-dövlətçilik mənafelərini üstələməsi nəticəsində Sultanovlara qarşı səhv və düşmən mövqe tutuldu (Xosrov bəy həbs olundu, Sultan bəy isə təzyiqlərə məruz qaldı - hər iki hal çox böyük səhv idi və ümumi işə ciddi ziyan vuran amil kimi qiymətləndirilməlidir). Bunlar bölgədəki ağır vəziyyətə bir sıra cəhətlərdən də əlavə gərginlik gətirmiş oldu.

Azərbaycan hökumətinin sultanovlarla düzgün münasibətlər qura, onların imkanlarından istifadə edə bilməməsi (əslində bunu istəməməsi) və başqa səbəblər ucbatından Aşağı Zəngəzur əhalisi arasında parçalanma baş vermişdi. AK (b) P MK-nın Siyasi və Təşkilat bürolarının birgə iclası (18.X.1920) "Qarabağ-Kürdüstan məsələsini" müzakirə edərək daşnaklarla mübarizədə Sultan bəydən istifadə siyasətinin "heç bir nəticə vermədiyini və yalnız əhalinin narazılığına səbəb olduğunu" nəzərə alıb onu dəstəsilə birlikdə məhv etməyi tapşırmışdı.

Burası da olduqca maraqlıdır ki, sultanovların gözdən salınmasında mənfur rol oynayan ermənilər indi isə özlərinə xas keyfiyyətləri işə salıb Sultan bəyə onlarla ittifaqa girəcəyi təqdirdə kürdlərə toxunmayacaqlarını və Xosrov bəyin azadlığa buraxılmasına çalışacaqlarını vəd (?! - İ.M.) etmişdilər.

XI ordu hissələrinin arada Zəngəzuru tərk etmələrindən sonra bölgədə siyasi-hərbi vəziyyət daha da ağırlaşmışdı. Sonradan tamamilə aydınlaşdığı kimi, hərbi qüvvələrin mahalı tərk etməsi onun ermənilərə ötürülməsini sürətləndirmək və asanlaşdırmaq, həmçinin Azərbaycanı təzyiq al-

unda saxlamaq məqsədini güdürdü. Çünki Rusiya və Ermənistan Azərbaycan xalqının Zəngəzurun itirilməsinə mümkün ola biləcək etiraz cəhdlərindən ehtiyatlanırdılar. Və, şübhəsiz, Qızıl ordu hissələrinin Zəngəzurdakı daşnak quldur dəstələrilə "bacara bilməməsi" fikri ilə razılaşmaq sadəlövhlük olardı.

Azərbaycan Şura hökumətinin Zəngəzura yetərincə diqqət yetirməməsi və onun Ermənistana verilməsinin nəticələri vəzifəli ermənilər tərəfindən də vurğulanmışdı. Azərbaycanın Qarabağ və Zəngəzurdakı Fövqəladə komissarlarından olan A.Qaragözov hələ 1920-ci ilin yayında mətbuatda "Zəngəzur-Qarabağ məsələsinə dair" məqalə ilə çıxış etmişdi. Ermənisayağı gedişlərdən və sətiraltı ifadələrdən xali olmayan bu məqalədə bəzi dlqqətiçəkən cəhətlər də vardır.

Burada qeyd edilirdi ki, Qarabağ və Zəngəzur sıx iqtisadi tellərlə Azərbaycan əraisi ilə bağlıdır, əlverişli yollar onları İrəvanla deyil, Bakı ilə əlaqələndirir, bu bölgələr Ermənistanla heç bir təsərrüfat əlaqələrinə malik olmamışlar; doğrudur, Müsavat hökumətinin siyasi zülmü, əməkçi erməni kəndlərinə dinc və azad yaşamağa imkan verməməsi (?! – İ.M.) həmin bölgələrin erməni hissəsini bir müddət özündən itələdi və müvəqqəti olaraq Ermənistanın ağuşuna atdı.

Bu cümlədə ifadə olunan fikirlərlə bağlı iki məsələyə diqqət yetirmək lazımdır:

1-cisi istər onda, istərsə də indi erməni siyasətçiləri və tədqiqatçıları Qarabağ, Naxçıvan və Zəngəzurun tarixi Azərbaycan torpaqları olmalarını etiraf etmək əvəzinə onların Bakı ilə sıx iqtisadi və mədəni əlaqələrini ön plana çıxarmaqla məqsədyönlü dolaşıqlıqlar yaratmışlar.

2-cisi, ermənilər hələ AXC elan olunmamışdan əvvəl Zəngəzurda, Qarabağda, Naxçıvanda və s. yerlərdə qarmaqarışıqlıq yaradaraq azərbaycanlılara qarşı zorakılıq hərə-

kətlərinə başlamışdılar. Elə müəllif özü də burada Minkənd rayonu istisna edilməklə Zəngəzur qəzasının müsəlmanlar yaşayan bütün hissəsinin Andranik və Dro tərəfindən dağıdılmasını, onun daşnaklara qəzəblənən əhalisinin Ermənistana heç bir ümid bəsləmədiyini yazmaqla bunu təsdiqləmiş olur.

A.Qaragözov öz mülahizələrini yekunlaşdıraraq belə bir qənaətə gəlmişdi ki, Dağlıq Qarabağ və Zəngəzurun əhalisinin siyasi-milli hüquqlarına və tələbatlarına ehtiyatla yanaşılarsa, onda onları Azərbaycan SSR-lə bağlamaq çətin deyildir; Sovet Zəngəzurunun daşnak Ermənistanına birləşdirilməsi sosializm quruculuğu yolunda geriyə doğru addım və həm də bu bölgələrin əməkçi kəndlilərinin mənafelərinə zidd olardı. Göründüyü kimi, məsələnin həllinə tarixi-hüquqi baxımdan yanaşılmasa da, o, sinfi-ideoloji dəlillərlə əsaslandırılsa da hər halda Zəngəzurun Azərbaycanın tərkibində qalması təklif olunurdu.

Bu mövqenin birbaşa davamı olan başqa bir nöqteyi-nəzər: Zəngəzur qəzasından olan nümayəndə Tatyan AK(b)P II qurultayının 3-cü iclasında məruzə etmişdi. Tatyan da tarixi həqiqəti "unudub" Zəngəzurun Ermənistanla Azərbaycan arasında "nifaq alması" olmasını söyləməklə münaqişədə hər iki tərəfi eyni dərəcədə suçlu saysa da, iki illik milli qırğın müddətində 200 kəndin tamamilə dağıdılmasını, qaçqınlar kütləsinin Qarabağa, Araza doğru, bölgənin aran hissəsinə üz tutduğunu qeyd etmişdi.

O habelə Zəngəzura maddi yardım göstərilməsi haqqında məsələ qaldırmış, iki illik milli qırğından sonra qəzanın ibtidai icma səviyyəsinə düşməsini və yalnız vədlərlə kifayətlənildiyini bildirmişdi. Bunlar isə Sovet hakimiyyətinin timsalında bütövlükdə Azərbaycanın əhali arasında nüfuzunun aşağı düşməsinə, nəticə etibarı ilə bölgənin bir hissəsinin

itirilməsinə şərait yaradan səbəb-amillərdən biri olmuşdu.

Zəngəzurun bir hissəsinin itirilməsi, ümumiyyətlə o dövrki Azərbaycan-Ermənistan münasibətlərilə bağlı bir cəhət də açıqlanmalıdır. Bu da Azərbaycan rəhbərliyinin 1920-ci il 1 dekabr tarixli Bəyanatı ilə verdiyi vədə – öz sərvətlərinin qapılarını Ermənistanın üzünə geniş açmasına dərhal əməl etməsi, hələ müharibəyə və daşnakların ərazi iddialarına son qoyulmamış, ermənilərin azərbaycanlılara qarşı törətdikləri vəhşiliklər qurtarmamış "qonşu və dost xalqa hərtərəfli yardım" göstərilməsindən ibarətdir.

Hələ AİK-in iclasında (24.XI.1920) Ermənistana yardım məsələsi müzakirə olunmuş və müvafiq tədbirlər görülməsi qərara alınmışdı. Şuşa şəhəri kommunistləri, həmkarlar ittifaqları üzvləri, kommunist gənclərinin XI ordu 28-ci diviziyası hissələrinin kommunistləri ilə birgə keçirdikləri iclasın adından Ə.Şirvaninin imzası ilə Ermənistan İnqilab Komitəsinə göndərilən teleqramda (3.XII.1920) deyilirdi: "Azərbaycanın qara qanı indi Ermənistan sənayesinin bədəni ilə axacaqdır".

Və, elə 1920-ci il dekabrın əvvəllərindən də, Azərbaycan öz sərvətlərinin qapılarını Ermənistanın üzünə geniş açmışdı. Ermənistan SSR XXİK-in AİK-ə ünvanlanan (2.XII.1920; №12) məktubundakı "Ermənistana iki yüz milyon man. kredit verilməsi" xahişinə N.Nərimanov tərəfindən belə bir dərkənar edilmişdi: "Ermənistan SSR İnqilab Komitəsinə istiqraz formasında iki yüz milyonluq kredit açılsın". Ermənistanın Azərbaycandakı diplomatik nümayəndəsinin sənədindən (24.VII.1921; 2708 saylı) göründüyü kimi, yalnız 1921-ci ilin iyulunda Ermənistana 13.081 pud neft məhsulları göndərilmişdi.

Azərbaycanın Ermənistana hərtərəfli yardımı, yəni sərvətlərini düşməninə səxavətlə hədiyyə etməsi erməni müəllifləri

(S.Vartanyan, A.Akopyan və b.) tərəfindən də qələmə alınmışdır. S.Vartanyan XI ordunun Bakıdakı qərargahından alınan teleqramda (16.XII.1920) əks olunan belə bir faktı qeyd etmişdir: Ermənistana 35 vaqon taxıl və 5 sistern kerosin göndərilmişdir.

A.Akopyanın "Xorurdain Ayastan" (1921-1925-ci illər)" məcmuəsindən gətirdiyi bir məlumatda isə yazılırdı ki, 1921-ci il aprelin 10-dan noyabrın 10-dək olan müddətdə Azərbaycan Ermənistana əvəzi ödənilmədən 36000 pud yanacaq (neft, benzin, mazut) vermişdi. Azərbaycan bütün sovet respublikaları ilə olduğu kimi, Ermənistanla da gömrüyü ləğv etmişdi.

Azərbaycanın öz sərvətlərinin qapılarını Ermənistanın üzünə geniş açması – ona hərtərəfli yardım göstərməsi erməni rəhbərlərinin özləri tərəfindən də etiraf olunmuşdu. Vaxtilə daşnak Ermənistanın Baş naziri olan Ov.Kaçaznuni yazırdı ki, "bolşeviklər Bakıdan kerosin gətirdilər və ölkəni zülmətdən çıxartdılar".

Bu fikri tarixçi Q.Qaloyan da təsdiqləyir: "Zəhmətkeş Azərbaycan mövcud şəraitdə gənc Ermənistan sovet respublikasına kömək etdi". Azərbaycanın Ermənistana taxıl, ərzaq və yanacaq yardımı sonuncunun XXİK-inin Gürcüstanın xarici siyasət idarəsinə notasında da (2.I.1921) açıqlanmışdı (Notada yardımın Gürcüstandan keçirilməsinə şərait olmaması vurğulanırdı).

1 dekabr Bəyanatı ilə Azərbaycan rəhbərliyindən razılıq və "xeyir-dua" alan ermənilər var qüvvələrilə Zəngəzurun Ermənistana birləşdirilməsi işini sürətləndirdilər. Bu zaman onlar özlərinə xas olan üsullardan istifadə edərək bölgənin müsəlman əhalisini də ələ almağa cəhdlər göstərdilər. Bu baxımdan ermənilərin yaratdıqları Zəngəzurun Kəndli Şurasının "Zəngəzurun müsəlman əhalisinə Müraciət"i

(8.XII.1920) çox maraqlıdır.

Müraciət bir sıra cəhətləri ilə Andranikin 1918-ci ilin sonlarında etdiyi eyni ünvanlı müraciətlə üst-üstə düşür, sanki onu təkrarlayır. Burada yenə də erməni və azərbaycanlıların tarixi dostluqlarından, onların arasında düşmənçiliyin olmamasından, bundan sonra özlərinin ümumi vətənlərində birgə yaşayacaqlarından bəhs edilir, müsəlmanların həyatına və əmlakına qəsd etmək istəyən ermənilərin qanunla ciddi cəzalandırılacaqları (güllələnməyədək) xüsusi vurğulanırdı.

Bölgənin bir hissəsini tutaraq orada möhkəmlənən daşnaklar Tatevdəki "qurultayda" (partiyanın deyil, bölgə ermənilərinin "qurultayı" nəzərdə tutulur) "Azad Sünik hökuməti" (25.XII.1920) və "Ermənistanın Xilası Komitəsi" (III.1921) kimi oyuncaq qurumlar yaratdılar. Ermənilər 1921-ci ilin lap əvvəlində Zəngəzurda hərbi-siyasi cəhətdən daha da möhkəmlənməyə imkan verən tədbirlər gördülər.

İrəvanda çıxan "Kommunist" qəzetində (21.I.1921) çap olunan "Daşnaksütyun partiyasının sonuncu fırıldağı" adlı məqalədə yazılırdı ki, Ermənistanda daşnaklar bədbəxt Zəngəzuru öz bazalarına çevirmişlər, müxtəlif njdelər və b. orada toplaşmışlar; Təbriz vasitəsilə ingilislərlə və Tiflislə əlaqələr yaradılmışdır, onlara hərtərəfli yardım vəd edirlər.

Bölgə ermənilərinin daşnaklar tərəfindən Tatevdə keçirilən ikinci "qurultayın"da (26.IV.1921) "Sünik hökuməti" başında Njde duran "Dağlıq Ermənistan hökuməti"nə (ona "Yeni Ermənistan hökuməti" də deyirlər) çevrildi. Öz qərargahını təcili olaraq Gorusdan Tatevə keçirən Njde İran ermənilərilə və onların vasitəsilə də ingilislərlə əlaqələr yaratmağa cəhdlər göstərdi. Bu işdə Ermənistanda "on günlük Baş nazir" adlandırılan S.Vratsyan (A.Ohancanyan istefaya getdikdən (23.XI.1920) sonra onun yerini dekabrın 2-dək

tutmuşdu) xüsusi rol oynamışdı.

Lakin elə erməni mətbuatının öz materiallarından ("Karmir Astx" qəzetində dərc olunan "Zəngəzur fırıldağı və İngiltərə" başlıqlı yazıdan) da göründüyü kimi, Təbrizdə lövbər salmış S.Vratsyanın başçılığı ilə ermənilər ingilislərlə sıx əlaqə yaratsalar da sonuncular bolluca vədlər verərək real yardım göstərməkdən yayınmışdılar.

"Erkir" qəzetinin 1921-ci il tarixli 596-cı sayındakı materiallarda göstərilirdi ki, Təbrizdə özlərinə çığınacaq tapan daşnaklar Amerika və Parisdən böyük məbləğdə pul almışlar, Ermənistana hücum üçün dəstələr təşkil etməyə hazırlaşırlar, Azərbaycan (Təbriz) eparxiya rəisi, yepiskop M.Tingyan onların əlində oyuncaq edilmişdir; ona Azərbaycanda katalikosluq yaratmaq və özünü isə katalikos etmək vədi verilmişdir.

Sonuncu fikirlə bağlı Rusiya ordusu Qafqaz cəbhəsi qərargahının kəşfiyyat məlumatında (12.IV.1921) bildirilirdi ki, Təbriz və Tehran ermənilərı buradakı yepiskop başda olmaqla Zəngəzura yardım göstərirlər və Qızıl ordunun hücumunu ləngitmək üçün İran xanları da zəngəzurluları (daşnaklar nəzərdə tutulur – İ.M.) təchiz edirlər. XI ordunun Qarabağ-Zəngəzur qrupunun qoşunlarına əmrdə yazılırdı: "Njde İran vasitəsilə Antanta ilə əlaqəyə malikdir və öz hakimiyyətini onun vəsaitinə saxlayır".

İran tərəfi isə bu kimi halların mümkün olmasını inkar (rədd) edirdi. Bakıdakı İran konsulu "Kommunist" qəzetinin (№159/362) dərc etdiyi bir material – yazı ilə əlaqədar olaraq həm redaksiyaya, həm də Azərbaycan SSR XXİK-ə etiraz məktubu (9.VIII.1921; 2069 saylı) yollamışdı. Həmin yazıda, Gorusdan alınan bir teleqrama əsasən, daşnakların Təbrizdə cəmləşərək Zəngəzur məsələlərində İran vasitəsilə Antantaya təsir etməyə çalışmalarından bəhs olunurdu.

Konsul Güney Azərbaycan general-qubernatorunun məlumatlarına istinad edərək Təbrizdə yalnız bədbəxt erməni qaçqınlarının (?! – İ.M.) olduğunu, onun dövlətinin Gorusdan alınantəki xəbərlərə malik olmadığını yazır və öz hökumətinin daşnaklara yardımını müxtəlif "humanist" ibarələrlə pərdələyirdi.

Belə bir şəraitdə rəsmi İrəvan və XI ordunun komandanlığı Yuxarı Zəngəzurun Ermənistana birləşdirilməsini qəti olaraq başa çatdırmaq üçün birgə səylərini artırdılar. 1921-ci il mayın ortalarında Ermənistan XKS və XI ordunun komandanlığı xüsusi nümayəndə heyəti vasitəsilə Zəngəzurun döyüşlərsiz Ermənistana birləşdirilməsi barədə "Dağlıq Ermənistan hökuməti" ilə danışıqlar apardılar.

Bu danışıqlar müəyyən nəticə vermədi. Yuxarı Zəngəzurda möhkəmlənən ermənilər qəzanın aşağı hissəsinin də ələ keçirilməsi üçün müxtəlif planlar çızaraq müəyyən siyasi-diplomatik gedişlər etdilər. Belə məkrli siyasi gediş oyunlardan biri də, bilavasitə Njdenin dəvəti əsasında müsəlman nümayəndələrinin də iştirakı ilə keçirilən, "Aqarak qurultayı" (7.IV.1921) hadisəsidir. Həmin qurultayda daşnaklar Sovet hakimiyyətinə qarşı mübarizə adı altında azərbaycanlıları öz tərəflərinə çəkmək və bununla da bölgənin digər hissəsini də tabeliklərinə keçirməyə cəhd göstərmişdilər.

Zəngəzurun Ermənistana verilməsi Azərbaycan "rəhbərliyi" (əslində isə Rusiya) tərəfindən rəsmən elan olunsa da qəzanın onun idarəçiliyinə keçməsi dərhal baş vermədi. Hətta 1921-ci ilin əvvəllərində Azərbaycan SSR-in inzibati bölgüsünün layihəsi hazırlanarkən Zəngəzurla bağlı müəyyən təkliflər irəli sürüldü.

AK(b)P MK Siyasi və Təşkilat bürolarının iclasında (12.I.1921) Zəngəzurun müsəlman hissəsinin inzibati cəhətdən təşkili haqqında qərar çıxarıldı. Azərbaycan SSR-in inzibati bölgüsü layihəsinə dair izahat vərəqəsindən də göründüyü kimi, bir hissəsi ermənilərin işğalı altında olan Zəngəzur bölgəsini iki yerə: Qərbi, yəni Zəngəzur qəzası və Şərqi – "əhalisinin əsasən kürdlərdən ibarət olmasına" görə Kürdüstan qəzasına bölmək təklif edilirdi.

Bu sayaq bölgü qəzanın, müəyyən təbii-coğrafi amillərə görə, bir inzibati mərkəzdən idarəsinin çətinliyi və hətta qeyri-mümkünlüyü ilə izah edilirdi. "Yeni cəmiyyət quracaq" yerli əhaliyə yaxşı rəhbərlik məqsədilə bölgənin cənubdan şimala doğru bölgüsü şəraitində təzə yaranmış hər bir qəzaya əkinlərin, otlaq və meşələrin düşəcəyi, habelə əhalinin də tərkibinin qarışıq, yəni ermənilərdən və müsəlmanlardan ibarət olacağı, bunun da hesabına həmin ərazidə yaşayan və aralarında düşmənçilik münasibətləri olan iki millətin həmrəyliyinin möhkəmlənəcəyi nəzərdə tutulurdu.

Şübhəsiz, bu təklif müxtəlif ziddiyyətli məqamlara malik idi və əslində bölgənin hissə-hissə ermənilərin əlinə keçməsi məqsədini güdürdü. Çünki müəyyən hissəsi erməni silahlı dəstələrinin ixtiyarında olan qəzanın inzibati cəhətdən parçalanması həmin hissənin bütövdən ayrılması – Azərbaycandan qopması üçün daha əlverişli şərait yaradırdı.

Bu və digər səbəblərə görə Zəngəzurun inzibati bölgüdəki yeri məsələsi Azərbaycan SSR-in yeni inzibati-iqtisadi bölgüsünün hazırlanması üzrə AİK İdarələrarası komissiyasının (sədri Gikalo) iclaslarında (12, 14, 24.III. və 2.IV.1921) ətraflı müzakirə olundu. Müəyyən fikir mübadiləsindən sonra Zəngəzur qəzasının iki yerə bölünməsinə dair etirazlar (Vəkilov, Şimanovski, Hacıyev) nəzərə alındı.

Komissiya qəzanı dəyişiksiz, yəni köhnə inzibati sərhədlərdə saxlamağı qərara aldı. Azərbaycan SSR-in, həmin komissiyanın protokollarına əsasən tərtib olunan, daxili-inzibati sərhədlərinin təsvirində də Zəngəzur qəzasının özünün

köhnə sərhədlərində qaldığı bir daha təsdiqləndi.

AK(b)P MK Siyasi və Təşkilat bürolarının birgə iclasında (13.IV.1921) "Zəngəzur qəzası haqqında" məsələnin müzakirəsindən sonra bölgəyə L.Mirzoyan, Ç.İldırım və b. ibarət komissiya göndərmək qərara alındı. Ə.Şirvaninin bölgədəki ağır durum və iş şəraiti üzündən istefa verməsindən (12.I.1921) və xeyli ləngidildikdən sonra M.Mahmudbəyov AİK və AK(b)P MK-nın Zəngəzur üzrə yeni Fövqəladə Komissarı təyin olundu (13.IV.1921).

1921-ci il yayın əvvəli üçün Aran Zəngəzurda – Qubadlı və digər ərazilərdə də ermənilərin təzyiqi və s. üzündən şərait ağırlaşaraq böhran həddinə yetişdi. Digər tərəfdən də, XI ordunun Qarabağ-Zəngəzur və İrəvan qruplaşmaları birgə hərbi əməliyyatlar keçirərək bütün Zəngəzuru ələ keçirdilər (16.VIII.1921). Daşnak dəstələrinin qalıqları İrana qaçdılar.

Bununla da Zəngəzurun bir (qərb və ya yuxarı) hissəsinin Ermənistana birləşdirilməsi başa çatdırıldı. Ermənistanda 1921-ci il iyulun 20-də respublika XKS tərəfindən təsdiq edilən ərazi bölgüsünə əsasən 33 sahədən ibarət 8 qəza təşkil olundu və çox tezliklə 9-cu, yəni Zəngəzur qəzası yaradıldı.

Əks istiqamətdə isə AİK-in Azərbaycan SSR-də əhalinin siyahıyaalınmasının keçirilməsinə dair dekretində (19.V.1921) Zəngəzur qəzasının adı qeyd edilmədi. 1922-ci ilin əvvəli üçün artıq Azərbaycan Baş Milisinin məlumatlarında da Zəngəzurun adı çəkilmədi. Beləliklə, uzunmuddətdən bəri hazırlanan və həyata keçirilən rus-erməni planı baş tutdu. Azərbaycan torpaqlarının bir hissəsinin (Yuxarı Zəngəzurun) onlar tərəfindən ələ keçirilməsi siyasəti reallaşdı.

Burada daha bir vacib məqama da toxunmaq lazım gəlir. Proseslərin mahiyyətinə vardıqda ermənilərin daxilindəki daşnak-kommunist qarşıdurmasının, Zəngəzurda baş verən son hadisələrin (ermənilər bunu vətəndaş müharibəsi kimi qələmə verirlər) əslində o qədər də ciddi səciyyə daşımayıb yalnız bir məqsədə - Azərbaycanın əzəli torpaqlarına yiyələnmək işinə xidmət və onu ört-basdır edən bir ideoloji pərdə olduğu aydınlaşır.

Bu cəhəti elə ermənilərin liderləri və mətbuatının bir sıra fikirləri də açıqlayır və sübuta yetirir. RSFSR-in İrandakı səlahiyyətli diplomatik nümayəndəliyi Mətbuat və informasiya şöbəsinin bülletenində bir maraqlı fakt vardır. Bülletendə İran informasiya bürosunun məlumatına (5.X.1921; 53 saylı) əsasən ölkə mətbuatının icmalı verilmişdi. Buraya daşnak partiyasının tanınmış-keçmiş üzvlərindən M.Petrosyanın ermənilərin "Zanq" adlı qəzeti (13.IX.1921; №14) vasitəsilə «Baş nazir» S.Vratsyana ünvanladığı məktub da daxil edilmişdi.

Həmin məktubda diqqəti cəlb edən və yuxarıdakı fikirlərimizi təsdiqləyən cəhətlər bunlardır: **a)** Zəngəzur fırıldağına və Dərələyəz əməliyyatına ehtiyac olmaması; **b)** ən mühümü isə S.Vratsyanın indi Təbrizdən daşnaklara Sovet Ermənistanı ilə əl-ələ verərək hərəkət etməyi və işə mane olmamağı məsləhət görməsi.

Daha sonra Zəngəzurdakı könüllü dəstələrdən birinin keçmiş komandiri E.Avdamyan Təbrizdə çıxan "Hayk" qəzetində (13.XI.1921) "Baş nazir" S.Vratsyanı İrəvanda vəzifədə olarkən çoxlu görkəmli bolşevikləri həbsxanadan buraxdırmaqda və daşnak hökumətinin bəzi üzvlərini isə bolşevik xadimlərini, o cümlədən də Dövlətyanı və hətta Ermənistan İnqilab Komitəsinin sədri S.Kasyanı öz evlərində gizlətməkdə ittiham edirdi.

Arxiv sənədlərində olduqca dəyərli - erməni xislətini yaxşıca açıqlayan bir baxış da özünə yer almışdır: "Erməni

kommunistlərinin çoxu kommunizm maskası geymişlər. Əgər maska düşərsə, erməni kommunisti daşnakdır və Böyük Ermənistan arzulayır".

Bu fikrin davamı öz ifadəsini Ov.Kaçaznuninin açıqlamalarında da tapmışdı: "Daşnaksütyun bundan belə öz həyatı – erməni siyasi azadlığı işi üçün gücsüzdür və yararsızdır, o, səhnədən getməlidir və yerini erməni bolşeviklərinə verməlidir. Onlar da indiki şəraitdə həmin işi davam etdirə bilərlər və artıq bunu edirlər".

Daşnakların da Qızıl orduya (Rusiyaya) ümid bəslədiklərini təsdiqləyən Ov.Kaçaznuni yazırdı: "Qızıl ordu Cənubi Qafqazdan çıxan günü biz türk-azərbaycanlı-gürcü blokuna qarşı tək qalacağıq, Ermənistanın mövcudluğu sual altında olacaqdır".

Bütün bunlardan da göründüyü kimi, ermənilərin hamısının (daşnaklı, kommunistli, hnçaklı) məqsədi eyni olub Azərbaycan torpaqlarına yiyələnməkdən ibarət idi. Məhz belə bir siyasətin nəticəsi idi ki, Ermənistan, bir yandan, İrəvanda keçirilən mitinqin (6.XII.1920) adından Azərbaycan SSR-ə kommunist salamı, digər tərəfdən isə, Zəngəzura, Dərələyəzə və s. canlı qüvvə, hərbi sursat, maliyyə vəsaiti göndərirdi.

AK (b) P MK Siyasi və Təşkilat bürolarının birgə iclasının (12.I.1921) protokolunda (17 saylı) öz əksini tapan bu fikir də deyilənləri təsdiqləyə bilər: daşnaklar həm Zəngəzurda iş aparır, həm də Kommunist partiyasına qatılaraq Ermənistanda yüksək vəzifələr tuturdular.

Bu məsələ ilə bağlı N.Nərimanovun da obyektiv bir rəyi olmuşdur. O, "Qafqazın tutulmasına dair baxış" məqaləsində (II.1919) yazırdı: "Daşnaklar özlərinin otuzillik siyasi həyatlarında hamıya göstərdilər ki, onlar Böyük Ermənistan haqqındakı arzularını həyata keçirmək üçün hər hansı

çaları (rəngi) qəbul etməyə və hər hansı maskanı geyməyə hazırdırlar... Əgər indi Qafqazda sovet quruluşu yaranarsa, onda daşnaklar dərhal öz maskalarını dəyişərək, bu dəfə də kommunistlər olarlar, yenə də Azərbaycanda və Gürcüstanda işlərin başında durarlar" (Bu fikrin özünü doğrultması üçünsə çox gözləmək lazım gəlmədi).

Ermənilər 1921-ci ilin yayında Zəngəzurun bütövlükdə, yəni onun aşağı və ya şərq hissəsinin də Ermənistana qatılmasına çalışırdılar. Bu niyyətlə də onun daxili işlərinə kobud müdaxilələr etdilər. Ə.Qarayevin N.Nərimanova və M.Hüseynova vurduğu teleqramdan (23.VII.1921) bəlli olur ki, Sovet Ermənistanının bölgədəki səlahiyyətli nümayəndəsi Ter Simonyanın Gorusda bu yaxınlarda verdiyi əmrdə Qarabağın dağlıq hissəsinin də Ermənistana birləşdirildiyi bildirilirdi.

Həmin teleqramdan göründüyü kimi, bu, təxribat idi və həm də başqa bir siyasi oyunla tamamlanmışdı. Yəni ki, Ter Simonyan nəyin bahasına olursa-olsun Aşağı Zəngəzurun da Ermənistana ərürülməsinə yönəlik səylər göstərmişdi. Buna görə də bir sıra problemlər yaradılmış, müxtəlif fitnə-fəsadlar törədilmiş, Zəngəzurun şərqinin də Ermənistana keçməsi istənilmişdi.

Daşnak-kommunist qəsbkarlığının davam etdiyi bir şəraitdə Azərbaycan hökuməti Ermənistan rəhbərliyinə qarşılıqlı münasibətlərin tənzimlənməsinə dair teleqram göndərdi (VII.1921). Əsasən bu kimi tədbirlərlə kifayətlənən Azərbaycan SSR-in "başçıları" başlıca diqqəti sultanovlarla haqq-hesab çürüdülməsinə yönəltmişdilər.

Bu işdə erməni təxribatı da mühüm rol oynamışdı. Belə ki, erməni tərəfi S.Sultanovun Njde ilə birlikdə Şuşa qəzasında XI ordu hissələrinə qarşı hərbi əməliyyatlar aparılması üçün danışıqları təzələmələrinə dair şayiələr yaymışdı. Hal-

buki, arxivlərdə və digər mənbələrdə bunu təsdiqləyəcək elə bir materiala rast gəlinməmişdir.

Görünür ki, ermənilər Sovet hökumətinin Sultanov qardaşlarına qarşı qərəzli-sinfi mövqeyini və onlarda bu zəmində yarana biləcək incikliyi (narazılığı) əsas tutaraq özlərinə xas tərzdə təxribatlar törətmişdilər. Bu və digər amillərə görə, Sovet hökuməti sultanovlarla bağlı müəyyən cəza tədbirlərini həyata keçirdi (Yeri gəlmişkən, belə tədbirlər üzündən onlar tezliklə Türkiyəyə getdilər və mühacirətdə də Azərbaycan davasını apardılar. Bu barədə ikinci bölümdə bəhs olunur).

Bütün bu kimi, habelə digər proseslərin təsiri nəticəsində 1921-ci ilin sonu üçün Zəngəzurun yuxarı hissəsi (Qafan, Gorus və s. ərazilər, təxminən 4505,5 kv.km torpaq) tamamilə Ermənistana ötürüldü. Ermənistan hökuməti müəyyən bəhanələrlə qaçqınların öz yerlərinə qayıtmalarına dair razılaşmalara əməl etmədi, əksinə, orada qalan azərbaycanlıları da sıxışdırmağa başladı.

Ermənistan İnqilab Komitəsinin S.Kasyan və b. tərəfindən imzalanan "Qaçqınlar haqqında" qərarı bu baxımdan xüsusilə maraqlıdır. 1921-ci ilin birinci yarısında qəbul edilən bu qərarla – uzun illərdən bəri yeridilən siyasətin reallaşdırılması, yəni Azərbaycanın bir sıra ərazilərində "etnik təmizləmələr" aparılması və onların türksüzləşdirilməsi yolunda daha bir addım atıldı – qaçqınların öz tarixi torpaqlarına qayıtmalarına əngəllər törədildi.

Qərarda yazılırdı ki, hazırda müxtəlif yerlərdən Ermənistana üz tutan böyük qaçqın axını (söhbət vaxtilə öz torpaqlarından qovulan azərbaycanlılardan gedir – İ.M), Ermənistanın bəzi vilayətlərdən (Türkiyə nəzərdə tutulur – İ.M.) köçürülən qaçqınlarla – ərazisinin azalması üzündən – yüklənməsi və, nəhayət, ölkənin ərzaq, mənzil və nəqliyyat

cəhətdən düşdüyü böhranlı vəziyyət aşağıdakıları tələb edir:

1. Ərzaq, nəqliyyat və yer məsələləri nizama salınanadək Ermənistana yollanan qaçqınları dayandırmaq xahişilə Şimali Qafqazın və Azərbaycanın Sovet hökumətlərinə, Naxçıvan İnqilab Komitəsinə (buradan göründüyü kimi Moskva müqaviləsinin (16.III.1921) bağlanmasına baxmayaraq Naxçıvan Azərbaycandan ayrı götürülür – İ.M.) müraciət olunsun.

2. Bütün sərhəd dəstələrinə qaçqınları Ermənistan ərazisinə buraxmamaq tapşırılsın.

Ermənistan hökuməti həmin qərardan çıxış edərək Azərbaycan XXİK-i M.Hüseynova bu məzmunda teleqram da (16.XI.1921; №8165) göndərmişdi: Zəngəzurun iqtisadi və ərzaq cəhətdən olduqca ağır vəziyyətini nəzərə alaraq, göstərilən şərait dəyişənədək müsəlman qaçqınların həmin qəzaya göndərilməsini dayandırmağı xahiş edirik.

Bu cür bəhanələrə və onların əsasında edilən xahişlərə zidd olaraq isə Ermənistan rəhbərliyi və diasporası müxtəlif ölkələrdəki ermənilərin yerbəyer edilməsi, xüsusilə də onların Azərbaycanda əldə keçirilən yeni ərazilərdə yerləşdirilməsinə çalışırdı. "Nor Aşxatavor" qəzetində (15.VIII.1920; №106) gedən bir rəsmi məlumatda deyilirdi ki, hökumət ermənilərin Türkiyə, Bolqarıstan və Rumıniyadan köçüb Ermənistana (əslində isə Azərbaycana – İ.M.) gəlmələrinin təşkili üçün Konstantinopoldakı erməni patriarxına təlimat göndərmişdi.

"Pravda Gruzii" qəzetində də (21 və 25.X.1921) maraqlı faktlar qeyd olunmuşdu: Ermənistan XXİK-i Böyük Britaniya XİN-ə Mesopotamiyadan olan 14 min erməni qaçqınına İngiltərə hökumətinin kömək göstərməyəcəyi halda onların Ermənistana gəlmələri üçün Batuma göndərilmələri xahişilə teleqram yollamışdı.

Ermənistan SSR-in Tehrandakı nümayəndəliyinin açılışında RSFSR-in İrandakı səlahiyyətli təmsilçisi Rotşteyn

və arxiyepiskop çıxış etmişdilər. Onlar Ermənistanın müstəqillik qazanmasına görə Rusiyaya minnətdarlıqlarını çatdırmışdılar. Ən başlıcası isə, tədbirdə iştirak edən ermənilərdən 7000 nəfəri Ermənistanın təbəəliyinə keçmək istəyində olduğunu bildirmişdi.

İran informasiya bürosunun mətbuat materialları, xüsusilə də "İran" qəzetindəki (25.XI.1921) "Erməni qaçqınlar" adlı yazıya əsasən hazırladığı eyni tarixli (66 saylı) məlumatdan isə bunları oxumaq olar: Misirin erməni katalikosu bu yaxınlarda oradakı fars konsulu vasitəsilə İran hökumətindən vətənə (Ermənistan nəzərdə tutulur – İ.M.) qayıdan erməni qaçqınlarına köməklik göstərməyi xahiş etmişdi. Qeyd olunan qaçqınların vəziyyətinə dair hökumətə verilən tələbnaməyə cavabında Baş nazir onlara lazımi yardım göstərildiyini bildirmişdi.

Ayrı-ayrı ölkələrdən məqsədyönlü surətdə gətirilən ermənilərin yerləşdirilməsi Yuxarı Zəngəzurda qalan azərbaycanlıların da müxtəlif bəhanələrlə və yeni formalarla sıxışdırılmalarına səbəb olduğundan Azərbaycan Sovetlərinin II qurultayında (IV.1922) respublika hökumətinə sorğu verilmişdi:

"Zəngəzur qəzasında dinc əhalinin silah gücünə öz yaşayış yerlərindən çıxarılmaları hökumətə məlumdurmu və bu münasibətlə hansı tədbirlər görülür?" Əlavə olaraq bildirilirdi ki, bu məlumatlar Azərbaycan SSR MİK-ədək çatdırılmış və Ermənistan hökumətinə sorğu edilmişdir.

"Dağlıq Qarabağ məsələsi"nə dair siyasi-diplomatik çəkişmələr

N.Nərimanovun məlum və «məşhur» Bəyanatındakı "Dağlıq Qarabağın əməkçi kəndlilərinə isə öz müqəddəratını

təyin etmək hüququ verilir" müddəası adıçəkilən bölgəyə yönəlik erməni iddialarından imtinaya (geri çəkilməyə) səbəb olmadı. Zəngəzur və Naxçıvanın həmin bəyanatla Ermənistanın tərkib hissələri sayılmaları da Qarabağ məsələsinə dair erməni mövqelərinə təsir göstərmədi.

Və nəticədə Azərbaycanın tarixi ərazisi olan Qarabağ mahalının məsələsi uzunsürən müzakirələrin əsas mövzusu oldu. AK(b)P MK Siyasi və Təşkilat bürolarının birgə iclasında (27.VI.1921) Azərbaycanla Ermənistan arasındakı sərhəd məsələləri, bununla bağlı Dağlıq Qarabağa dair məqamlar müzakirəyə çıxarıldı. Müzakirələrin sonunda bu məsələlərin Dağlıq Qarabağın iqtisadi (yenə də tarixi-etnoqrafik hüquqlar arxa plana keçirilir – İ.M.) baxımdan qəti Azərbaycan meylli olması əsasında həllini tapması razılaşdırıldı.

Ermənistan tərəfinin (A.Bekzadyanın) Dağlıq Qarabağın ərazilərinin erməni və türk əhalisinə görə iki respublika arasında bölünməsi təklifi iqtisadi və inzibati cəhətlərdən qeyri-məqbul sayıldı. Məsələnin tam həllinə nail olmaq üçün ona yenidən baxılması isə yalnız N.Nərimanovun bu müzakirələrin nəticələrinə dair verdiyi məlumata Tiflisin – RK(b)P Qafqaz bürosunun cavabından (rəyindən) sonra baş tuta bilərdi.

RK(b)P MK Qafqaz bürosu üzvlərindən Q.Orconikidze, S.Kirov, Y.Fiqatner, M.Hacıyev (Az.MİK-in sədri), M.Hüseynov və b. iştirakı ilə keçirilən iclasda da (27.VI.1921) Dağlıq Qarabağ məsələsinə "baxıldı". "Problemin həlli yolları"na münasibət bildirən həmin toplantı Serqonun təkidilə məsələnin Qafqaz bürosunun təcili plenumunda müzakirə olunmasına qərar verdi. Ermənistan XKS sədri A.Myasnikov (Martuni) və N.Nərimanov Tiflisə dəvət olundular.

Q.Orconikidze isə A.Mravyanı Ermənistanın nümayəndəsi kimi Dağlıq Qarabağa müvəkkil göndərdi. Azər-

baycan XKS-nin N.Nərimanovun sədrliyi ilə keçən iclası (28.VI.1921) əsasən iki məsələyə münasibət bildirdi: **1-cisi,** A.Myasnikovun Dağlıq Qarabağı Ermənistanın tərkib hissəsi sayan bəyanatı (19.VI.1921) rədd edildi. **2-cisi**, A.Mravyanın Ermənistanın Dağlıq Qarabağdakı Fövqəladə nümayəndəsi (müvəkkili) vəzifəsindən geri çağrılması tələb olundu.

Dağlıq Qarabağ məsələsi PK(b)P MK-nın Qafqaz bürosunun plenumunda (4.VII.1921) ayrıca müzakirə edildi. İ.Stalinin də iştirak etdiyi bu iclasda həmin məsələ ilə əlaqədar olaraq iki təklif (variant) irəli sürüldü:

1. Qarabağın Azərbaycanın tərkibində saxlanılması və onun bütün əhalisi arasında rəy sorğusu (plebissit) keçirilməsi.

2. Dağlıq Qarabağın Ermənistanın tərkibinə qatılması və rəy sorğusunun yalnız ermənilər arasında aparılması.

Səsvermə ədalətsiz bir mövqeni ortaya çıxardı. Belə ki, Dağlıq Qarabağın Azərbaycanın tərkibində saxlanılmasını N.Nərimanov, F.Maxaradze, A.Nazaretyan və onun Ermənistana qatılmasını isə S.Kirov, Q.Orconikidze, A.Myasnikov, Y.Fiqatner dəstəklədilər.

Rəy sorğusunun bölgənin bütün əhalisi arasında keçirilməsinə N.Nərimanovla F.Maxaradze və onun yalnız ermənilər içərisində aparılmasına isə S.Kirov, Q.Orconikidze, A.Myasnikov, Y.Fiqatner, A.Nazaretyan səs verdilər. Nəticə etibarı ilə ikinci təklif keçdi, yəni Dağlıq Qarabağın Ermənistan SSR-ə qatılması və plebissitin yalnız erməni əhalisi arasında aparılması qərara alındı.

Həmçinin N.Nərimanovun təklifinə əsasən məsələyə dair son qərarın RK(b)P MK tərəfindən çıxarılması razılaşdırıldı. 4 iyul qərarının qəbulu zamanı ortaya qoyulan yanaşmalar sırasında S.Kirovun mövqeyi xüsusilə maraq doğurur. Çünki elə məhz bu vaxtlardan etibarən Azərbaycana

faktiki rəhbərliyi öz əlinə keçirən S.Kirov başçısı olduğu respublikaya (ölkəyə), onun türk-müsəlman əhalisinə qarşı haqsız, qərəzli mövqe tutmuşdu.

4 iyul qərarı tam məlum olmayan səbəblər üzündən RK (b)P MK-nin müzakirəsinə verilmədi. Ancaq N.Nərimanovun müqaviməti və digər kəskin etirazlar sayəsində Dağlıq Qarabağ məsələsi təkrarən RK(b)P MK Qafqaz bürosu plenumunun (5.VII.1921) müzakirəsinə çıxarıldı. Çox maraqlıdır ki, Q.Orconikidze və A.Nazaretyan da 4 iyul qərarına yenidən baxılmasını istədilər.

Çağrılmasına İ.Stalinin də təsir etməsi ehtimal olunan bu iclasda RK(b)P MK-nın da rəyi əsas tutulmaqla belə bir qərar çıxarıldı: Dağlıq Qarabağa, vilayətin tərkibindəki Şuşa şəhəri inzibati mərkəzi olmaqla, geniş vilayət muxtariyyəti verilsin və Azərbaycan SSR-in hüdudlarında saxlanılsın.

Belə bir qərarın qəbulu aşağıdakı dəlillərlə əsaslandırıldı: müsəlmanlarla ermənilər arasında milli sülhün zəruriliyi; Yuxarı və Aşağı Qarabağın bir-biriləri ilə iqtisadi əlaqəsinin vacibliyi; Qarabağın Azərbaycanla daimi əlaqəsi və s.

Həmin qərarın lehinə 4 nəfər səs vermişdi və 3 nəfər də bitərəf qalmışdı. İclasın Dağlıq Qarabağa muxtariyyət verilməsinə dair qərarı bunları da nəzərdə tuturdu:

1-cisi, muxtar vilayətin ərazisi və sərhədlərinin müəyyənləşdirilərək RK(b)P MK Qafqaz bürosunun təsdiqinə verilməsi (Bu iş AK(b)P MK-ya tapşırılırdı).

2-cisi, Dağlıq Qarabağın Fövqəladə Komissiyasına namizədlər müəyyənləşdirilməsilə bağlı Ermənistan və Azərbaycan K(b)P MK-lar arasında danışıqlar aparılması (Bunun təşkili isə RK(b)P MK Qafqaz bürosunun Rəyasət Heyətinə həvalə olunurdu).

Dağlıq Qarabağın Ermənistana keçməsinə hələ ki nail ola bilməyən, "Naxçıvan məsələsi"ndə ilişən və hələlik Zən-

gəzurun yuxarı hissəsinin qəsb edilməsilə kifayətlənən ermənilər birinciyə muxtariyyət verilməsindən möhkəm yapışdılar. Güney Qafqaz sovet respublikaları arasındakı sərhədlərin müəyyənləşdirilməsini müzakirə edən yığıncaqda (Tiflis, 19.VIII.1921) bu xətt əsas tutuldu. N.Nərimanov oradakı müzakirələrin nəticələri barədə yazırdı:

«Sovet konstitusiyası çərçivəsində daxili özünüidarə hüququ verilməklə Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi olaraq qalacaqdır». Buna müvafiq olaraq AK(b)P MK Siyasi və Təşkilat bürolarının birgə iclasında (20.VII.1921) Qarabağın konstitusiyasını (?! – İ.M.) hazırlamaq üçün komissiya yaradılması qərara alındı. Həmçinin Qafqaz bürosu AK(b)P MK-ya Dağlıq Qarabağın muxtariyyətinin miqyasını (dərəcəsini) müəyyənləşdirməyi tapşırdı (Sonradan Qafbüro tərəfindən təsdiqlənmək şərtilə).

Ermənilərin Dağlıq Qarabağın Ermənistana birləşdirilməsində israrlı olan qismi isə daha barışmaz mövqe nümayiş etdirirdi. "Dağlıq Qarabağ məsələsi" ətrafında gedən oyunların fəal iştirakçılarından və bölgəyə muxtariyyət verilməsi işinin təşkilatçılarından biri də L.Mirzoyan hesab olunur.

O, AK(b)P MK tərəfindən, Ə.Qarayev və digərləriylə birlikdə Qarabağa göndərilmişdi. Azərbaycanın məsul işçilərinin və L.Mirzoyanın iştirakı ilə keçirilən müxtəlif tədbirlərdə (sahə qurultaylarında – VIII.1921) Qarabağla bağlı məsələlər müzakirə olunmuşdu.

Bölgəyə səfərin nəticələrinə dair L.Mirzoyan tərəfindən hazırlanan (Ə.Qarayevlə razılaşdırılan) xüsusi məruzə AK(b)P MK-ya və RK(b)P MK Qafqaz bürosuna təqdim edilmişdi (8.VIII.1921). Həmin məruzə ermənilərin "Dağlıq Qarabağ davası" ilə əlaqədar çoxlu məqamlara aydınlıq gətirməyə imkan verir.

Məruzədə yazılırdı ki, "kəndli kütlələri arasında Qarabağ məsələsi yoxdur..." O qeyd edirdi ki, "mənim qəti inamıma görə, Qarabağ məsələsi, bir yandan, bizim partiya və sovet yuxarıları, digər tərəfdən də, bəzi millətçi əhval-ruhiyyəli ziyalılar – ermənilər tərəfindən yaradılmışdır və yaradılır... Əsl mənada Qarabağ məsələsi yoxdur. Erməni kəndlisi deyir ki, ona ancaq aşağı hissəyə gedən yolu təhlükəsiz etmək və mədəni cəhətdən inkişafa imkan vermək lazımdır". Qondarma "Dağlıq Qarabağ məsələsi"ni ortaya çıxaranların kimlər olduğunu yaxşıca açıqlayan (etiraf da demək mümkündür) L.Mirzoyan məruzədə ermənilərin maraqlarının təmin edilməsinə yönəlik təkliflər də vermişdi: Dağlıq Qarabağ, birbaşa Mərkəzə – Az.MİK-ə və XKS-yə, partiya xəttilə isə AK(b)P MK-ya tabe etdirilməklə və inzibati mərkəzi Xankəndi olmaqla müstəqil inzibati vahid kimi ayrılsın.

L.Mirzoyanın həmin təklifinin ardınca AK(b)P MK Siyasi və Təşkilat bürolarının iclası (26.IX.1921) Qarabağ işi" adlandırılan məsələni müzakirə edərək belə bir qərar çıxarmışdı: Qafqaz bürosundan Dağlıq Qarabağın muxtar vahidə ayrılması haqqında qərarına yenidən baxması xahiş olunsun; buna qədər muxtariyyət elan etməməli. Həmin qərar həm də bu məsələ ilə əlaqədar material toplamaq üçün xüsusi komissiya (Ə.Qarayev, L.Mirzoyan, S.Əfəndiyev və b. ibarət) yaradıb Qarabağa yollamağı da nəzərdə tuturdu.

Komissiyanın Qarabağın Şuşa, Cavanşir və s. yerlərində L.Mirzoyan və digərlərinin iştirakı ilə keçirdiyi konfranslarda (21.X.1921) bir fikir üstün mövqeyə sahib idi. Həmin fikir (mövqeyə) görə, Dağlıq Qarabağın müxtar vilayətə ayrılması məqsədəuyğun sayılmırdı. AK(b)P MK "Xəbərləri"nin "Qarabağ məsələsi" adlı yazısında (10.XII.1921) deyilirdi ki, "Qarabağ məsələsi" deyilən hər hansı bir ayrıca mə-

sələ yoxdur, o, Qarabağ partiya və sovet orqanlarının ümumi zəifliyindən doğan fikirdir".

Qeyd etmək lazımdır ki, Zaqafqaziya Federasiyasının təşkili və s. məsələlərlə əlaqədar olaraq "Qarabağ işi" az müddətə "diqqətdən yayındı". Ancaq Azərbaycan rəhbərliyindəki ermənilərin və onların havadarlarının (Mərkəzin Bakıdakı emissarlarının) yaxından himayəsilə məsələ tezliklə yeni müzakirələrlə qızışdırıldı. RK(b)P Zaqafqaziya Diyar Komitəsinin Rəyasət Heyəti S.Kirov, Q.Orconikidze və digərlərinin iştirakı ilə keçirilən iclasda (27.X.1922) AK(b)P MK-ya Qafbüronun məlum qərarını (5.VII.1921) reallaşdırmağı tapşırdı.

AK(b)P rəhbərliyinin müxtəlif səviyyələrdə keçirilən toplantılarında (30.X.1922) "Dağlıq Qarabağın muxtariyyəti haqqında" məsələ müzakirə edildi və bu işin icrası üçün ayrıca komissiya (S.Ağamalıoğlu – sədr, A.Qaragözov və Sviridov) yaradıldı. RK(b)P MK Zaqafqaziya Diyar Komitəsinin plenumu (14.XII.1922) bəzi məsul işçilərin etirazlarına məhəl qoymayaraq və Qafbüronun qərarına (5.VII.1921) əsaslanaraq Azərbaycan SSR XKS yanında Dağlıq Qarabağ işləri üzrə xüsusi Komitə yaratmağı və ona birbaşa AK(b)P MK-ya müraciət etmək hüququnu verməyi lazım bildi (Şuşada da analoji komitənin təşkili məqbul sayıldı).

AK(b)P MK Rəyasət Heyəti S.Kirov, M.Bağırov və digərlərinin (amma bu dəfə L.Mirzoyansız) iştirakı ilə Qarabağ haqqında məsələyə bir də baxaraq (15.XII.1922) yuxarıda sadalanan "tövsiyələri" qəbul etdi. Bu iclasın 11 maddəlik qərarına əsasən:

- RK(b)P MK Zaqafqaziya Diyar Komitəsi qərarının (14.XII.1922) icrasına başlanılırdı;
- Azərbaycan XKS nəzdində Dağlıq Qarabağ işləri üzrə S.Kirov, A.Qaragözov və Mirzəbekyandan ibarət Mərkəzi komissiya yaradılırdı;

- A.Qaragözovun sədrliyilə 7 nəfərdən ibarət Dağlıq Qarabağ işləri üzrə komitə təşkil edilirdi;
- Az.MİK-lə XKS-nin Komissiya və Komitənin yaradılmasına dair dekretləri elan olunurdu.

Bütün bunlar Az.MİK-lə XKS-nin xüsusi qərarları ilə (16-17.XII.1922) həyata keçirildi. A.Qaragözovun sədrliyilə Şuşada fəaliyyət göstərəcək Qarabağ işləri üzrə Komitəyə Şadunts, Tavakelyan, Parziyan və habelə Şuşa, Cəbrayıl, Qaryagin qəzalarının başçıları daxil idilər (Dağlıq Qarabağda ermənilər üçün muxtar vilayətin təşkili ilə əlaqədar sonralar görüləcək işlər dördüncü bölümdə şərh olunur).

***

Beləliklə, Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları 1920-ci ilin aprelindən 1922-ci ilin dekabrınadək olan müddətdə də davam etdirildi. Rusiya tərəfindən hərtərəfli dəstəklənən həmin iddialar qismən də olsa gerçəkləşdirildi. Azərbaycan ağır itkilərə (torpaq, ərazisini idarəetmə hüququ və s. cəhətdən) məruz qaldı. Torpaqlarımızın müəyyən hissəsi Ermənistana və habelə Gürcüstana qatıldı. Azərbaycan SSR Xalq Torpaq komissarlığının Xarici İşlər üzrə katibliyə təqdim etdiyi (25.X.1922) arayışda öz əksini tapan məlumatlar da bunu təsdiqləyə bilər.

Həmin arayışda yazılırdı: "Azərbaycan SSR-in bütün ərazisi 7.989.105 desyatindir... Azərbaycan, Ermənistan və Gürcüstan arasında razılığa əsasən bu ərazidən: **a)** keçmiş Qazax qəzasından Ermənistana 379.984 desyatin; **b)** keçmiş Zəngəzur qəzasından Ermənistana 405.000 desyatin; **c)** keçmiş Tiflis qəzasından Azərbaycana 79.600 desyatin ərazi keçmişdir. Beləliklə, hal-hazırda Azərbaycan SSR-in ərazisi bu qə-

dərdir: 7.985.105 des. – 379.984 des. – 405.000 des. + 79.600 des. = 7.283.721 des.".

Ümumiyyətlə isə, bu dövrki Azərbaycan-Ermənistan münasibətlərinin və ikincinin birinciyə qarşı ərazi iddialarının nəticələrini belə ifadə etmək olar:

1-cisi, Zəngəzur mahalının bir (qərb və ya yuxarı) hissəsi Ermənistana verildi ("bağışlandı").

2-cisi, Dağlıq Qarabağa muxtariyyət verilməsi əsasən həll olundu və bununla da gələcək (indiki) fitnə-fəsadlar üçün yetərli zəmin yaradıldı.

3-cüsü, Naxçıvan bölgəsi Türkiyə diplomatiyasının səyləri sayəsində erməni qəsbindən qurtula bilsə də davamlı problemlərlə üz-üzə qalmış oldu.

§5. Azərbaycan-Türkiyə münasibətləri: problemlər və nəticələr

1920-1922-ci illərarası Azərbaycan-Türkiyə əlaqələrini də dövrün beynəlxalq münasibətləri kontekstində öyrənmək lazım gəlir. Və bu zaman məsələləri Türkiyə-Rusiya-Azərbaycan üçbucağında nəzərdən keçirmək məqsədəuyğundur. Aprel işğalı ərəfəsi və dövründə, habelə ondan sonrakı ilk çağlarda Şimali Azərbaycan həm Rusiya, həm də Türkiyə üçün xüsusi önəmə malik idi. Rus və türk diplomatiyaları ölkəmizə hədsiz diqqət yetirirdilər.

Rusiyanın 1914-cü il sərhədlərinin bərpası siyasətini yeridən RSFSR hökuməti Qafqazın yenidən işğalında Azərbaycanın potensialından (imkanlarından) yararlanmağa çalışırdı (Onun bu sahədəki fəaliyyəti və ilkin uğurları barədə əvvəldə – ikinci paraqrafda yetərincə bəhs olunmuşdur).

Qarşılıqlı əlaqələrdəki yeni cəhətlər

Türkiyənin Azərbaycana dair siyasətinin bu mərhələsi də bir çox cəhətlərdən diqqəti cəlb edir. Burada öncə həm də Türkiyənin o dövrki beynəlxalq durumunun əsas göstəricilərinə nəzər salmaq gərəklidir. Belə ki, Osmanlı imperatorluğunun bölüşdürülməsinə yönəlik tarixi "Şərq məsələsi" bu çağlarda artıq həll edilmək üzrə idi. "Şərq məsələsi"ni yaradan başlıca tərəflərin (Rusiya və İngiltərə) qarşıdurması və rəqabəti özünün zirvəsinə yetişmişdi.

İngiltərənin və onun müttəfiqlərinin, habelə şəraitdən faydalanmağa çalışan yunanların və ermənilərin tarixi fürsəti qaçırmamaq və məsələni qəti olaraq həll etmək istəyi Türkiyəni parçalanmaq və dövlətçiliyini itirmək təhlükəsilə üzləşdirmişdi.

Türkiyənin belə gərgin vəziyyəti onun tarixi düşməni – "Şərq məsələsi"nin digər həmmüəllifi olan Rusiyanı özünün geostrateji və s. maraqları baxımından xeyli rahatsız etmişdi. "Proletar-sosialist inqilabı"nın ixracı vasitəsilə dünyanı (ən azından Avrasiyanı) "fəth etmək" niyyətində olan Rusiya əslində "Şərq məsələsi"ni uduzmaqda idi. Və, bütün bunlara görə də, Türkiyə ilə yaxınlaşmaq məcburiyyətində qalmışdı.

Öz növbəsində Türkiyə, ələlxüsus da, Mustafa Kamal paşa hökuməti vəziyyətdən çıxış yolları arayarkən Sovet Rusiyası ilə sıx əlaqələr qurulmasına üstünlük vermişdi (Sözgəlişi, B.Şahtaxtinski bu məsələ ilə əlaqədar olaraq M.Hüseynova və Q.Orconikidzeyə məktubunda (11.XII.1920) belə yazırdı: "Türklər Rusiya ilə möhkəm ittifaq bağlamaq istəyirlər; türklər başa düşürlər ki, yaxın vaxtlarda Rusiya ilə İngiltərə arasında Şərqdə mübarizə gedəcəkdir və onlar bu mübarizədə əsaslı rol oynayacaqlar"). Həmin əlaqələr isə,

təbii olaraq, bu və digər yönlərdə Azərbaycanla münasibətlərdən keçirdi.

Türkiyə Böyük Millət Məclisi (TBMM) hökumətinin RSFSR rəhbərliyinə notası (26.VI.1920; onu Atatürkün Leninə məktubu kimi də qeyd edir və Türkiyənin ilk diplomatik aktı da adlandırırlar) və b. sənədlər Ankara-Moskva-Bakı münasibətlərindəki əsas xətləri müəyyənləşdirməyə imkan (əsas) verir. Türkiyə diplomatiyasının tanınmış tədqiqatçılarından Salahi R.Sonyel həmin xətləri və TBMM-in (Atatürkün) "Azərbaycan siyasəti"nin ilkin yönlərini özünün "Türk Kurtuluş Savaşı ve Diş Politika" əsərində belə ifadə etmişdi:

- Kamalçı iqtidar dost bir Azərbaycana və onun maddi yardımına ehtiyac duyurdu;
- TBMM hökuməti Azərbaycanda hansı ictimai- siyasi quruluşun mövcudluğundan asılı olmayaraq onun müstəqil yaşamasını (dövlətçiliyini) istəyirdi;
- Türkiyə Qafqazın digər respublikaları və Sovet Rusiyası ilə əlaqədar yürütdüyü siyasətdə Azərbaycandan istifadə etməyə çalışırdı;
- türk diplomatiyası Müttəfiqlər (Antanta) ilə müqavilə bağlayacağı təqdirdə də Azərbaycandan yararlanmaqda maraqlı görünürdü;
- TBMM rəhbərliyi Türkiyəyə bolşevik (sovet) yardımının Azərbaycan vasitəsilə çatdırılması yolundakı "əngəllər"in (?! – İ.M.) də aradan götürülməsini vacib sayırdı;
- Atatürkün "Azərbaycan siyasəti" həmçinin ölkələrimiz arasında əsl dostluq münasibətlərinin bərqərar olmasına Rusiya tərəfindən yaradılan məqsədyönlü maneələrin də tezliklə aradan qaldırılmasını nəzərdə tuturdu.

Bunlardan da göründüyü kimi, Azərbaycan-Türkiyə münasibətlərində yeni məqamlar (hallar) özünü açıq-aşkar

göstərməkdə idi. Və, bu yöndən də, Aprel işğalından SSRİ-nin təşkilinədək olan zaman kəsiyindəki ölkələrarası münasibətlərin, xüsusilə də siyasi-diplomatik əlaqələrin xarakteri həm mürəkkəb, həm də anlaşılan olmaqla fərqli mərhələlərdən keçmişdir:

1-cisi, Aprel çevrilişindən sonrakı ilk aylar müəyyən gərginlik, anlaşılmazlıq və s. ilə səciyyələnir. Bu hal AXC-nin süqutu və TBMM hökumətinin mövqeyi, Azərbaycanın Rusiya tərəfindən yenidən işğalında "türk amili" və digər mülahizələrlə izah oluna (əsaslandırıla) bilər.

2-cisi, Rusiya ilə Türkiyə arasında Moskva müqaviləsinin (16.III.1921) bağlanması və bundan sonrakı ilk vaxtlar uzlaşma, yaxınlaşma və b. cəhətlərdən seçilir. Bu isə Azərbaycan tərəfində onun problemlərinin (Naxçıvan bölgəsilə bağlı ərazi bütövlüyünün təmin olunması və s.) həllinə olan ümidlərdən irəli gəlirdi.

3-cüsü, Qars konfransı (26.IX –13. X.1921) və orada bağlanan müqavilədən (13.X.1921) sonrakı mərhələ isə bəzi inciklik (sərinlik) və Rusiyanın yedəyində gedən Azərbaycanın, kamalçı diplomat Rıza Nurun təbirincə desək, Türkiyəyə "burun sallaması" ilə diqqəti çəkir.

Bu dövrki Türkiyə-Azərbaycan münasibətlərində özünü göstərən bəzi yeni məqamlar, dolanbac xətlər həm də birinci tərəfin xarici siyasətində orientasiya məsələlərinə münasibətdəki fərqli yanaşma-mövqelərdən qaynaqlanırdı. TBMM hökumətində Xarici İşlər komissarları olan Bəkir Sami bəy (IV.1920-V.1921) qərbpərəst və Yusif Kamal bəy (Tengirşenk; 1921-ci ilin mayından) isə şərq(Rusiya)yönlü siyasət yeridirdilər.

O çağ Türkiyəsinin hərbi-diplomatik fəaliyyətinə ciddi təsirilə seçilən və həmin sahələrlə bağlı məsələlərin həllində sözsahibi kimi tanınan K.Qarabəkir paşa da Rusiyaya meyl-

li görünürdü. Türkiyənin üzləşdiyi taleyüklü problemləri həll etməkdə israrlı olan Atatürkün özü də Sovet Rusiyasına müttəfiq (əlbəttə, müvəqqəti olaraq) kimi yanaşırdı.

Azərbaycan-Türkiyə münasibətlərinin bu mərhələsində ortaya çıxan problemlər, təbii ki, həm də Rusiya diplomatiyasının "əməyinin məhsulları" idi. Onun bu iki ölkə arasındakı əlaqələrə törətdiyi əngəllərin Sovet Azərbaycanının "rəhbərliyi" tərəfindən bəyənilməsi də öz işini görürdü.

Yenidən Rusiya ilə "birliyə" can atan və onun "yeni Şərq siyasətinin etibarlı dayağı"na çevrilməyə iddialı olan Sovet Azərbaycanının Türkiyəyə əslində, bu növ, arxa çevirməsi üçtərəfli münasibətlərdəki çox dolaşıq durumu səciyyələndirən başlıca göstəricilərdən biri sayıla bilər. Baxmayaraq ki, həmin üçtərəfli əlaqələr bolşevik (leninçi) Rusiya-inqilabi (kamalçı) Türkiyə-nərimanovçu (sovet) Azərbaycanının müttəfiqliyi (ittifaqı) kimi də qələmə verilirdi. N.Nərimanovun özü demişkən, "Şərqi ingilislərdən almaqdan ötrü üç müttəfiq birləşmişlər: sovet Rusiyası, sovet Azərbaycanı, Mustafa Kamalın başçılıq etdiyi inqilabi Türkiyə".

Aprel işğalından sonrakı Azərbaycanın Türkiyə ilə münasibətlərindən bəhs edərkən öncə qarşılıqlı diplomatik əlaqələrin qurulması sahəsindəki bəzi vacib cəhətləri qeyd etməyə ehtiyac vardır:

Birincisi, məlum olduğu kimi, Osmanlı (Türkiyə) dövləti müəyyən beynəlxalq səbəblər və s. üzündən AXC-də diplomatik nümayəndəlik açа bilməmişdi. TBMM hökuməti isə Quzey Azərbaycandakı Aprel çevrilişindən az sonra ölkəmizdə səlahiyyətli nümayəndələri ilə təmsil olunmuşdu. Bu vəzifəni Lütvi bəy, Məmduh Şövkət bəy və b. tutmuşdular.

İkincisi, AXC hökuməti Osmanlı dövləti tərəfindən rəsmən tanındıqdan (Batum müqaviləsi imzalandıqdan) bir az keçmiş İstanbulda diplomatik nümayəndəliyini yaratmışdı (Səlahiyyətli təmsilçilər Y.Çəmənzəminli, X.Xasməmmədov olmuşdular). Ancaq kamalçı Türkiyənin maraqlı olmasına və müvafiq səylər göstərməsinə baxmayaraq Azərbaycan SSR XXİK-i Ankarada diplomatik nümayəndəlik açmağa həvəsli (meylli) deyildi. Bunu belə bir faktdan (prosesdən) də görmək olur.

M.Hüseynov TBMM hökumətinin Azərbaycandakı diplomatik nümayəndəsinə notasında iki ölkə arasında müttəfiqlik münasibətlərini zəruri sayaraq (Şərqi Antantanın yarımmüstəmləkə zülmündən qurtarmağa və s. görə), Türkiyədə səlahiyyətli nümayəndəlik açmağa tələsmək barədə qərar çıxardıqlarını bildirsə də, bu iş yalnız 1921-ci ilin payızında ərsəyə gəlmiş oldu. Azərbaycan SSR-in "baş diplomatı bu qədər ləngiməni bəhanələrlə (işin çoxluğu və s.) izah edirdi.

Səfirliyin təşkilinin yubadılması bəzi dairələrdə Azərbaycanın "müstəqilliyinin xarakteri" barədə müəyyən müzakirələrə imkan vermişdi. Və əslində problem həqiqətən də bu məsələdə idi. Yəni Türkiyədə diplomatik nümayəndəliyin açılmasını mütləq RSFSR hökumətilə razılaşdırmaq tələb olunurdu.

Azərbaycan SSR XXİK-in namizədi İ.Əbilovun (Əbilzadənin) məsələsi əvvəlcə G.Çiçerinlə müzakirə edildi. Sonuncu M.Hüseynova məktubunda (26.V.1921) İ.Əbilovun namizədliyini bəyəndiyini (təsdiqlədiyini) bildirdi. Kommunist İnternasionalının III konqresinə (VI-VII.1921) nümayəndə seçilən İ.Əbilov toplantıda gələcək səfir kimi V.Leninə də təqdim olundu (Ordubad şəhərində doğulan İ.Əbilov XX əsrin əvvəllərində RSDFP üzvü kimi Bakıda siyasi hərəkatda iştirak etmiş, İrandakı Məşrutə inqilabının fəallarından olmuşdu. Sonralar Həştərxana sürgün edilmiş, 1918-ci ildə "məşhur 26-lar"a yardım göstərmək üçün Zakaspiyə

getmişdi. AXC parlamentində sosialist fraksiyasının üzvü idi, Şərq xalqlarının I qurultayında yaradılan Təbliğat və fəaliyyət Şurasının katibi işləmişdi).

O, Azərbaycan SSR-in TBMM hökumətindəki diplomatik nümayəndəsi kimi "Qərb imperializmi ilə mübarizə edən" Rusiya və Türkiyə dövlətləri arasındakı münasibətlərin möhkəmlənməsinə çalışmalı idi.

İ.Əbilov hələ Ankaraya yetişməmiş – Samsunda olarkən Mustafa Kamal paşanı "Sakarya zəfəri" münasibətilə təbrik etmiş (28.IX.1921) və K.Qarabəkir paşanın adından müvafiq təşəkkür cavabı almışdı. Onun başçılıq etdiyi diplomatik nümayəndəliyin tərkibinə Mirzə Davud Rəsulzadə (az sonra Trabzonda konsul oldu), Ə.Əsgərov (Kəngərlinski – hərbi attaşe), Rza Təhmasib (məşhur rejissor) və b. daxil idilər.

Nümayəndəlik Ankara kənarında əvvəlcə Mustafa Kamal paşanın adyutantı və b., sonra isə o vaxtkı baş türk diplomatı Y.Kamal bəy tərəfindən qarşılandı (12.X.1921). İ.Əbilov tezliklə (15.X.1921) M.Kamal paşa tərəfindən qəbul olundu və etimadnaməsini ona təqdim etdi.

Az sonra isə (23.XI.1921) nümayəndəliyin Cebecidəki binası (hələlik mehmanxanada yerləşirdi) üstündə Azərbaycan Sovet bayrağı qaldırıldı. Səfirin xahişilə bunu Mustafa Kamal paşa icra etdi. Onun İ.Əbilovun etimadnaməsini qəbul edərkən söylədikləri də maraq doğurur:

"Azəri türklərinin dərdləri öz dərdlərimiz və sevinclərı öz sevinclərimiz olduğu üçün, onların muradlarına çatmaları, azad və müstəqil (?! – İ.M.) yaşamaları bizi çox sevindirir. TBMM-nin və hökumətinin iki qardaş xalq arasındakı bağların və əlaqələrin möhkəmləndirilməsi üçün tam gücüylə çalışacağına təminat verirəm".

Azərbaycan SSR-in Türkiyədə gec də olsa işə başlayan

diplomatik nümayəndəliyinin və onun başçısının fəaliyyəti sözdə "TBMM hökumətilə müttəfiqlik münasibətlərinin yaradılması"na yönəlmişdi. İşdə isə bu, Sovet Rusiyasının xarici siyasətinin və Azərbaycanla əlaqədar yürütdüyü xəttin uğur qazanmasına xidmət edirdi. Bunu "bolşevik Rusiyası-inqilabi Türkiyə-sovet Azərbaycanı ittifaqı" kimi ideoloji-siyasi oyunla yanaşı rəsmi Bakının və onun Ankaradakı təmsilçiliyinin ayrı-ayrı tədbirləri də isbatlayır.

"Əksinqilabçı müsavatçılar"a qarşı mübarizə adı altında görülən işlər, Türkiyənin Qars, Trabzon və Samsun şəhərlərində Azərbaycan SSR-in konsulluqlarının açılmasına da həmin prizmadan yanaşılması, TBMM hökuməti əleyhinə kəşfiyyat fəaliyyəti və s. deyilən fikirlərə misal ola bilər.

Azərbaycan "rəhbərliyi" – AK(b)P MK bir sıra dövlətlərlə yanaşı Türkiyədə də hərbi kəşfiyyat fəaliyyəti məsələlərini müzakirəyə çıxararaq (3.VII.1920) İ.Dövlətovu bu işin təşkilatçısı təyin etmişdi (Şuşa ermənisi olan həmin şəxs sonralar bir müddət Azərbaycan SSR-in Ermənistanda və ondan da az keçmiş ikincinin birincidə diplomatik nümayəndəsi olmuşdu; bunlar barədə bu bölümün 4-cü paraqrafında yazılmışdır).

İ.Əbilovla M.Hüseynov, N.Nərimanov və digərləri arasındakı diplomatik yazışmalar da Rusiyanın "yeni Şərq siyasəti"nin mahiyyətini və Azərbaycan SSR-in TBMM hökumətindəki diplomatik nümayəndəliyinin (əslində RSFSR-in oradakı müvafiq qurumunun əlavəsi – filialının) fəaliyyətində güdülən niyyətləri açıqlamağa imkan və xeyli material verir. Məsələn, onun M.Hüseynova ünvanlanan məktubunda (21.XI.1921) həm Türkiyənin Azərbaycandakı səfirliyinin nəzarətə götürülməsi "məsləhət görülürdü", həm də Mustafa Kamal paşanın mühafizəsinə dair məlumatlar çatdırılırdı.

Azərbaycanın Qarsdakı konsulluğu (Hacıbəyli) qarşı-

sında qoyulan vəzifələr (tələblər) də bu baxımdan maraq doğurur: sərhəd rayonlarında qoşunların yerləşməsi və yeni hərbi hissələr barəsində məlumatların toplanılaraq Azərbaycan hökumətinə ötürülməsi; K.Qarabəkir paşanın planları, onun qərargahı ilə bağlı məlumatlar əldə edilməsi və s. N.Nərimanovun İ.Əbilova məktubu da (1921-ci il) bir çox incə mətləbləri anlamağa yetərli yardım göstərir. Həmin məktubda diqqəti cəlb edən fikirləri isə tezisvari şəkildə aşağıdakı kimi ifadə etmək olar:

- səfirin indiyə qədərki hərəkət xəttinin düzgünlüyü (fəaliyyətinin bəyənilməsi) və bundan sonra da səhvlərə yol verməyəcəyinə ümid bəslənilməsi;
- aferistlərin – Rusiya və Türkiyə tərəfindən bəzilərinin, habelə Cənubi Qafqazın bütün əksinqilabçılarının, əlbəttə xüsus da daşnakların aranı qarışdırmaq, Qafqazı yenə də qan ocağına çevirmək istəmələri;
- G.Çiçerinin Şərq siyasətinə dair fikirlərinin tamamilə yanlış olması, buna görə də İranın itirilməsi və indi isə Türkiyə ilə bağlı böyük səhvlərə yol verilməsi;
- Türkiyənin də səhvlər buraxması, yəni bir az qanadlanan kimi aferistlik etməsi – islam məmləkətlərinin birləşməsi şüarını irəli sürməsi. O yaşamaq istəyirsə həmin fikirdən əl çəkməlidir. Bütün bəla bundadır və o həmin şüarla da öləcəkdir...;
- Rusiya və Türkiyəni düşündürmək bizim borcumuzdur. G.Çiçerinin siyasətinə aid tənqidi mülahizələr məruzə şəklində özünə göndərilmişdir;
- Rusiya ilə əlaqələrin pozulmamasının zəruriliyi tərəfinizdən Türkiyəyə başa salınmalıdır. O, həqiqətən də Şərqin qurtuluşunu xüsusi mənfəəti üçün deyil, ümumi maraqlar naminə istəyirsə Rusiyaya yaxınlaşmalıdır. Bütün Şərqi yalnız öz mənfəətinə qurban verərsə özü də

qurban gedib bitəcəkdir...;
- biz ancaq Rusiya şüarı (vasitəsilə) Şərqi xilas edə biləcəyik, yoxsa firəng və ingilis buna imkan verməyəcəkdir...;
- bolşevik imperializminin türkləri çaşdırması da onların səhvidir. Bu imperializm yalnız Avropa inqilabı üçündür. Avropada həmin inqilab baş verərsə bolşevik imperializmi də öz-özünə yox olacaqdır.

Azərbaycan SSR hökuməti Rusiyanın Türkiyəni də sovetləşdirmək siyasətinə müvafiq müəyyən işlər görürdü. Türkiyədə "inqilabi-siyasi fəaliyyət" aparmaları üçün Anadolu kommunistlərinə yardım göstərilirdi. Bu niyyətlə də Ankaradakı nümayəndəlik və digər qurumlar vasitəsilə müxtəlif tədbirlər həyata keçirilirdi.

AK(b)P MK Təşkilat bürosunun iclasında (22.VIII.1920) Türkiyə kommunistlərinin qurultayının keçirilməsindən ötrü 1.290.000 rubl ayrılması qərara alınmışdı. Onların müəyyən qismi bu və digər səbəblərə görə Azərbaycanda (Bakıda) təlimatlandırılırdı.

Türkiyədəki diplomatik nümayəndəliyimizin Rusiyanın siyasətinə qulluq etməsi və onun XXİK-inin bir strukturuna çevrilməsi səfirliyin bəzi əməkdaşlarına münasibətdə də özünü açıq-aşkar göstərirdi. Bunu hərbi attaşe Ə.Əsgərovla bağlı baş verənlər ("Kəngərlinski hadisəsi") də yaxşıca təsdiqləyir. O, öncə yerli türk əhalisinin nümayəndələrilə hədsiz yaxın əlaqələrə girməkdə ittiham olunurdu. Sonra da nümayəndəliyin ticarət şöbəsi müdirinin müavini Q.Nərimanov tərəfindən şantaj edildi. Bu məsələlərin səfirlikdəki müzakirə və "aydınlaşdırılması"ndan (31.X-5.XI.1921) sonra Azərbaycan SSR XXİK-ə və digər komissarlıqlara "müvafiq məlumatlar" ötürüldü.

Hadisələrin zirvəsi isə Ə.Əsgərovun (Kəngərlinskinin)

"bolşevik Rusiyasının müsəlman Şərqinin ölkələrinə münasibətdəki ikili siyasəti"nə dair düşüncəsini İ.Əbilovun diqqətinə çatdırması oldu. Səfir Azərbaycan XXİK-in müavini A.Andreyevlə "məsləhətləşmələr" apararaq nümayəndəlikdəki hərbi attaşeliyi ləğv etdi.

"Tam məxfi" şifrəli sənədin də təqdim edildiyi mühafizənin müşayiətilə Bakıya yola salınan (7.V.1922) Ə.Əsgərov "itkin düşdü". RSFSR-in Türkiyədəki səlahiyyətli nümayəndəsi S.Aralov Samsun konsulluğunun bu barədəki məlumatını İ.Əbilova çatdırdı (15.VI.1922). Sözgəlişi, Ə.Əsgərovun "Azərbaycan faciəsi" adlı əlyazısı da (1922-ci ilin mart-aprel aylarında qələmə alınması ehtimal olunur) onun yaşadığı evdə aparılan axtarış (6.V.1922) zamanı götürülərək mühafizə ilə Bakıya göndərilmişdi.

İ.Əbilov 1922-ci ilin noyabrından etibarən həmçinin Ermənistan və Gürcüstanın Türkiyədəki diplomatik nümayəndəsi olmuşdu. Ancaq S.Aralov Ankaraya gələrək (26.I.1922) öz səlahiyyətlərinin icrasına başladıqdan sonra Azərbaycan SSR-in Türkiyədəki diplomatik nümayəndəliyi faktiki olaraq fəaliyyətini dayandırdı.

1920-ci ilin yayında Moskvada aparılan Rusiya-Türkiyə danışıqları (ilk kamalçı-bolşevik və ya birinci Moskva konfransı) da Azərbaycanı əhatə edirdi. Həmin danışıqlara aparan yollar həm coğrafi, həm də siyasi-diplomatik mənalarda Azərbaycandan keçirdi. Onların gedişindəki müzakirələrin predmeti əsasən Azərbaycanla əlaqədar idi.

Məlum olduğu kimi, TBMM hökumətinin iclasında (5.V.1920) Sovet Rusiyasının inqilabi Türkiyəyə münasibətini aydınlaşdırmaq məqsədilə B.Sami bəyin başçılığı ilə Moskvaya nümayəndə heyəti göndərmək qərara alınmışdı (Belə bir missiyanın təşkili Mustafa Kamal paşa tərəfindən "yenicə yaranan TBMM-in xarici işlər üzrə ilk qərarı" kimi

dəyərləndirilmişdi).

Digər tərəfdən də, Mustafa Kamal paşanın V.Leninə tarixi məktubu (26.IV.1920) gec, yəni 37 günə (1.VI.1920) yetişdiyindən sovet rəhbəri və G.Çiçerin tərəfindən dərhal (2.VI.1920) cavablandırıldı. RSFSR rəhbərləri dövlətlər arasında diplomatik əlaqələrin bərpasını vacib saymaqla yanaşı, həm də Türkiyənin azadlıq mücadiləsini müdafiə etdiklərini və onunla dostluq münasibətləri yaratmağa hazır olduqlarını bildirdilər.

Onların məktubundakı fikirlərə TBMM hökumətinin münasibəti elə B.Sami bəy tərəfindən açıqlandı. Moskvaya gəlmək üçün Ankaradan yola çıxan (11.V.1920) B.Sami bəy hələ Ərzurumda olarkən (4.VI.1920) həmin fikirlərlə bağlı minnətdarlığını bildirməklə bərabər, Rusiyaya yetişə bilmələri üçün Ermənistandan keçmələrindən ötrü daşnak hökumətindən razılıq alınmasına təsir göstərmələrini sovet rəhbərlərindən xahiş etdi.

B.Sami bəyin başçılıq etdiyi heyət yolüstü Bakıda olarkən N.Nərimanov və M.Hüseynovla da görüşdülər. Həmin müzakirələrdə XİK rəhbərləri sovetlərin – Rusiya və Azərbaycanın Türkiyəyə dost münasibət bəslədiklərini bildirdilər. Habelə erməni-türk münaqişəsinin dinc yollarla həlli vacib sayıldı.

Ermənistan-Türkiyə-Azərbaycan sərhəd məsələlərini dinc yolla və qəti olaraq həll etmək üçün B.Şaxtaxtınskinin başçılığıyla Azərbaycan və L.Şantın rəhbərliyilə isə Ermənistan nümayəndə heyətlərinin də Moskvaya getmələri razılaşdırıldı. Əlbəttə, bu işdə Rusiyanın vasitəçiliyi və istəkləri təsirli oldu.

Bunu da qeyd etməyə ehtiyac vardır ki, TBMM hökumətinin təmsilçiləri Moskvaya çataraq (VII.1920) RSFSR rəhbərliyi ilə danışıqlar apardığı ərəfədə və vaxtlarda Os-

manlı tarixindəki məşhur "üçlük"ün üzvlərindən olan Ə.Camal paşa da orada müəyyən müzakirələrə girişmişdi.

Onun Mustafa Kamala göndərdiyi məktublardan da (3 və 6.VI.1920) bəlli olur ki, Camal paşa Türkiyənin Ermənistana torpaq vermək fikrində olmadığını bildirir, habelə türk-rus-erməni üzvlərdən ibarət komissiyanın yaradılmasını məsləhət görürdü.

Türkiyə Kommunist partiyasının Bakıdakı təmsilçisi Dr.F.Sabitin baş rus diplomatı, həmçinin "İttihad və Tərəqqi"nin liderlərindən sayılan (sözgəlişi, Azərbaycanda da yaxşı tanınan) Xəlil paşanın isə G.Çiçerin və L.Qaraxan ilə görüşlərində Rusiyanın TBMM hökumətinə hərbi-maliyyə yardımı göstərməsi məsələləri ətrafında söhbət getmişdi.

"Üç paşa iqtidarı"nın başqa bir üzvü (həm də "İttihad və Tərəqqi"nin liderlərindən olan) Ənvər paşa da Moskvaya gələrək (15.VIII.1920) G.Çiçerin, L.Qaraxan və N.Buxarin ilə danışıqlar aparmışdı. Onun Ə.Camal və Mustafa Kamal paşalara məktubları həmin müzakirələrin məzmununu öyrənməyə imkan verir. Onlarda, xüsusilə də Mustafa Kamala ünvanladığı ilk məktubda (26.VIII.1920), əsasən, bunlar diqqəti çəkir:

Ənvər paşanın Türkiyəyə göstəriləcək sovet yardımını sürətləndirməyə çalışması; onun Moskvaya müsəlmanları təşkilatlandıraraq Türkiyənin qurtuluşuna yardım göstərmək niyyətilə gəldiyi; ordunu yenidən təşkil etmək və Türkiyəyə yararlı olmaq üçün bolşeviklərin icazəsiylə Bakıya gedəcəyi; B.Sami bəyin heyətinin bir aydan bəri Moskvada apardığı danışıqların və gördüyü işlərin çox da əlverişli olmadığı; sovet liderlərinin Türkiyəyə artıqlaması ilə kömək etmələrindən ötrü "erməni məsələsi"nin həllinin təklif olunduğu və s.

Ankara hökuməti nümayəndə heyətinin (B.Sami bəyin) Rusiya rəhbərliyilə danışıqları həqiqətən çox gərgin keçdi. Moskvada rus-türk danışıqlarının getdiyi bir dövrdə – hətta eyni gündə (10.VIII.1920) – tərəflərin digər dövlətlərlə bağladıqları müqavilələr TBMM nümayəndəliyini daha ağır durumla üzləşdirdi:

1-cisi, Türkiyə ilə Antanta arasındakı Sevr müqaviləsi. Bu müqavilənin şərtlərinə görə, Anadolunun şərqində daha bir Ermənistan dövləti yaradılmalı və güney-doğudakı türk torpaqlarına Kürdüstan adı altında müstəqillik verilməli idi. Bu hal Rusiyanın ermənilərlə (əslində isə bilavasitə özüylə) bağlı məsələlərdə Türkiyəyə təzyiq göstərmək imkanlarını artırırdı. Yəni rus-sovet diplomatiyası TBMM hökumətini "Qərbin planları" ilə qorxudurdu.

2-cisi isə, Rusiya-Ermənistan preliminar sazişi. Onun barəsində bu bölümün 4-cü paraqrafında ətraflı bəhs olunduğunu nəzərə alaraq burada yalnız aşağıdakıları qeyd etməklə (xatırlatmaqla) kifayətlənmək lazım gəlir. Həmin sazişlə: **a)** Azərbaycanın Naxçıvan mahalına aid bəzi ərazilərin və **b)** Şahtaxtıdan Culfaya qədər olan dəmir yolunun – Ermənistana verilməsinin nəzərdə tutulması dolayısı yolla elə Türkiyənin maraqlarının hədəfə alınması demək idi.

B.Sami bəyin G.Çiçerin, L.Qaraxan, V.Lenin və b. ilə apardığı müzakirələrdə türk-erməni sərhədləri və bu yöndə də Azərbaycana aid məqamlar xüsusi yer tutmuşdu. Danışıq və müzakirələrin sonunda, nəhayət ki, RSFSR və TBMM hökumətləri arasında gələcəkdə bağlanacaq müqavilənin 7 maddədən ibarət layihəsini razılaşdırmaq mümkün oldu (24.VIII.1920).

Rusiyanın Türkiyəyə edəcəyi silah-sursat və s. yardımının gerçəkləşdirilməsi məsələlərilə əlaqədar Seyfi bəy başda olmaqla türk hərbi komissiyası Moskvada qaldı. B.Sami bəy danışıqlardan sonra bir müddət RSFSR-də ləngiməli və

Azərbaycanda qalmalı oldu. Buna görə də müqavilənin layihəsi Rusiyanın Türkiyəyə göstərəcəyi 5 mln. qızıl manat məbləğindəki maliyyə yardımının 1 mln. ilə birlikdə heyət üzvü (o zamankı İqtisadiyyat komissarı) Y.Kamal bəy tərəfindən TBMM hökumətinə çatdırıldı.

Təxminən 1920-ci ilin iyulundan (Naxçıvan bölgəsinin XI ordu hissələri tərəfindən tutulmasından) 1921-ci ilin oktyabrına qədərki (Qars müqaviləsinin bağlanmasınadək) müddətdə Azərbaycan-Türkiyə münasibətlərində ikincinin məhdud silahlı qüvvəsinin adıçəkilən mahaldan çıxarılması və bölgənin statusunun müəyyənləşdirilməsi əsas məsələ olmuşdur. Belə bir şəraitdəTürkiyənin Naxçıvan mahalına dair mövqeyinin və habelə onun bölgədəki məhdud hərbi kontingentilə XI ordu hissələrinin qarşılıqlı əlaqələrinin xarakterinin aydınlaşdırılması da vacib sayılan məsələlərdəndir.

Türkiyə bu dövrdə çox çətin durumda idi və özünün dövlətçiliyini qoruyub saxlamaq uğrunda tarixi mübarizə aparırdı. Ancaq bütün bunlara baxmayaraq o regionda erməni təcavüzünün davam etməsi nəticəsində Naxçıvan ətrafında təhlükənin hələ də sovuşmadığını nəzərə alıb Azərbaycanın bir hissəsi kimi bölgənin əhalisinin təhlükəsizliyinə çalışırdı.

Bu məqsədlə də həmin bölgəyə yenidən hərbi hissə göndərmişdi və bir müddət XI ordunun qüvvəsindən də istifadə etməklə bölgənin Ermənistan tərəfindən tutulmasına mane olmuşdu (Bəzi tədqiqatçılar və diplomatlar isə bunu da Türkiyənin işğalçılıq planlarının bir hissəsi və "türk işğalı"nın davamı kimi qiymətləndirmişlər).

Halbuki elə Türkiyənin Şərq cəbhəsi qoşunları və XI ordu komandanlıqlarının yazışmalarına dair materiallardan da aydın surətdə görünür ki, Ankara hökuməti Sovet Rusiyası ilə regionda aparmaq istədiyi birgə hərbi əməliyyatlarda

Zəngəzur və Naxçıvan bölgələrinin ermənilər tərəfindən tutulmasına imkan verməmək məqsədini güdmüşdü.

Şərq cəbhəsinin komandanı K.Qarabəkir paşa Azərbaycan Hərbi-Dəniz komissarlığına telyazısında (23.VI.1920) və XI ordu komandanına göndərdiyi məktublarında (24 və 27.VI.1920) ermənilərin Zəngibasar və s. rayonlara hücuma keçdiklərini xəbər verərək ondan tezliklə Zəngəzuru tutmağı və Türkiyə qoşunları ilə əlaqə yaratmağı xahiş etmişdi. Cavab məktubunda isə RSFSR-in Ermənistanla sülh müqaviləsi bağlaması üçün daşnak hökumətinin Azərbaycan SSR-ə və Türkiyəyə qarşı hərbi əməliyyatları dayandırması "şərtinin qoyulduğu" bildirilirdi.

Ermənilərin bölgə üçün yaratdıqları təhlükənin ciddi xarakter aldığını görən Türkiyə Bayazid diviziyası iyunun sonunda 9 min nəfərlik qüvvə ilə Cavid bəyin komandanlığı altında Naxçıvan-Culfa-Ordubad istiqamətində hərəkətə başlamışdı. Artıq iyulun 2-də onun 3 min nəfərdən ibarət ön hissələri Naxçıvan-Şahtaxtı bölgəsinə daxil olmuşdu. Çünki XI ordu komandanlığının Bakıdan verdiyi əmrdən də (7.VII.1920); №69) bəlli olduğu kimi, Ermənistanın nizami ordusu Zəngibasarı dağıdaraq sonradan Naxçıvana hücum etmək niyyətilə Dəvəliyə doğru irəliləmişdi.

Buna görə də Bayazid diviziyasının təmsilçiləri XI ordunun Gorusdakı diviziya səhra qərargahına gələrək (7.VII.1920) Rusiya hərbi hissələrinin tezliklə Naxçıvan-Ordubad xəttinə irəliləməsini istəmişdilər. Bunun da İrəvandan Naxçıvana hərəkət etməyə hazırlaşan erməni qoşunlarına qarşı birgə hərbi əməliyyatlar aparmaq məqsədilə xahiş olunduğu açıqlanırdı.

Bütün bunların qarşılığında isə AK(b)P MK Bürosunun iclasında (13.VII.1920) "Naxçıvan haqqında" məsələnin müzakirəsi Türkiyə qoşunlarının bölgədən çıxarılmasına da-

ir qərarın qəbulu ilə yekunlaşdırıldı. Həmçinin N.Nərimanov, A.Mikoyan, V.Naneyşvili və M.Hüseynovdan ibarət nümayəndə heyətinin Xəlil paşa (Kut) ilə danışıqlar aparması da razılaşdırıldı.

AK(b)P MK Bürosunun iki gün sonra (15.VII.1920) V.Yeqorov, Ə.Qarayev, A.Mikoyan, Q.Orconikidze və b. iştirakı ilə keçirilən iclasında isə Naxçıvan və digər ərazilərdən imtina edilməsi, onların rus qoşunları tərəfindən işğalının təklif olunmasına dair dəhşətli qərar çıxarıldı.

Sovet Rusiyasının regionda yürütdüyü siyasətə müvafiq hərəkət edən (onu reallaşdıran) XI ordu komandanlığı yuxarıda qeyd edilən əmrdə (7.VII.1920; 69 saylı) öz nümayəndələrinə Türkiyə qoşunları ilə xeyirxah qonşuluq münasibətləri saxlamağı və onlarla sıx əlaqəyə girməyi lazım bilirdi. Eyni zamanda, ən başlıcası və maraqlısı isə, Mərkəzdən direktiv almanadək erməni respublikası əleyhinə əməliyyatlarda türklərə fəal yardımdan çəkinməyi tapşırırdı.

Lakin XI ordu komandanlığı Türkiyə qoşunlarının niyyətlərini və onların daşnaklarla qarşılıqlı münasibətlərini aydınlaşdırmaq məqsədilə Bayazid diviziyasının komandiri ilə əlaqəyə girmək əmrini (16.VII.1920) verdi. XI ordu komandanlığı həmçinin Naxçıvana kiçik süvari dəstəsi göndərməyi və Türkiyə diviziyası ilə əlaqə yaratmağı əmr etdi.

Naxçıvan rayonunun Fövqəladə Komissarı XI ordunun İnqilabi-Hərbi Şurasına göndərdiyi məlumat vərəqəsində yazırdı: "Qırmızı briqadanı Naxçıvana göndərərkən Mərkəz tərəfdən bizə Naxçıvandakı Türkiyə hissələrilə sıx əlaqə saxlamaq və Sovet Rusiyası, Azərbaycan, inqilabi Türkiyə arasında qardaşlıq tellərini möhkəmləndirmək barədə şifahi tapşırıq verilmişdi, çünki bizim rayon yaxın məntəqə və birləşdirici halqa idi".

Bölgəni işğal etmək vaxtının yetişdiyini qəti edən

Q.Orconikidze və S.Kirov XI ordunun 18-ci diviziyasının komandirinə telefonla verdikləri sərəncamda "mümkün olduqca tez – öldürücü zərbə ilə Naxçıvan rayonunda daşnaklarla, digər antisovet və antixalq qruplaşmaları ilə qurtarmağı", onu tutmağı tələb etdilər.

Bu dövrdə Naxçıvanın yeni – sovet hakimiyyət orqanları ilə Türkiyənin buradakı nümayəndələri arasında da narazılıqlar güclənməkdə idi. Tərkibinə Türkiyə ordu komandanlığı nümayəndələrinin də daxil olduğu Naxçıvan İnqilab Komitəsi onlara böhtanlar ataraq daşnaklarla əlaqələrə girməkdə ittiham edirdi. Habelə bölgə əhalisinin ermənilərin zorakılıqlarından xilas olunmasında xeyli işlər görən Türkiyə hərbçisi Xəlil bəyə (ona "naxçıvanlı" da deyirdilər) qarşı çıxırdı.

Məhz yeridilən bu cür siyasətin nəticəsi idi ki, Türkiyə hərbçiləri nümayəndəsinin Naxçıvan İnqilab Komitəsinin tərkibindən çıxarılması və onların bölgə hüdudlarındakı fəaliyyətinə ciddi nəzarət edilməsi haqqında qərarlar verildi. Naxçıvanın ermənilərdən müdafiəsinə kömək məqsədilə iyulun 31-də Araza yaxınlaşan bir türk hərbi dəstəsinin hətta XI ordunun sərəncamına keçmək barədəki təklifi qəbul olunmadı. İş gəlib o yerə çatdı ki, 1920-ci ilin avqustunda XI ordu komandanlığı ilə Türkiyə hərbi qüvvələri başçılarının danışıqlarında türk qoşunu hissələrinin Naxçıvanı tərk etmələri məsələsi qaldırıldı.

Türkiyə tərəfi ermənilərə qarşı birgə mübarizə aparmağın zəruriliyi mövqeyindən çıxış edərək və çox düzgün olaraq buna razılıq vermədi. Sovet hökuməti Türkiyə ilə münasibətləri gərginləşdirmək istəməyərək XI ordu komandanlığına bu məsələyə dair danışıqlara xitam verməyi tapşırdı. Sovet-Türkiyə sazişinin layihəsi Moskvada razılaşdırılarkən (VIII.1920) hər iki tərəfin hərbi qüvvələrini bu müqavilə bağlananadək Naxçıvanda saxlamaq qərara alındı.

Beynəlxalq konfrans–müqavilələrdə Naxçıvan məsələsi və Türkiyənin mövqeyi

1920-ci il 1 dekabr tarixli məlum bəyanatın verildiyi ərəfədə və günlərdə Naxçıvan bölgəsi ətrafında mübahisə – münaqişələr xeyli kəskinləşir və məsələ getdikcə daha çox beynəlxalq səciyyə daşımağa başlayırdı. Həmin məsələ bu dövrdə aparılan Rusiya-Ermənistan və Türkiyə-Ermənistan danışıqlarında, habelə onlar arasında bağlanan müqavilələrdə mühüm yer tuturdu.

Ermənistan Rusiya və Türkiyə arasında siyasi gedişlər edərək onların münasibətlərindən və yaranmış şəraitdən maksimum faydalanmağa çalışırdı. Özünün regiona dair geosiyasi məqsəd və planlarını artıq reallaşdırmaq üzrə olan Rusiya isə Türkiyə ilə yaxınlaşmaq xəttini yeritsə də ermənilərı müdafiə etməsini gizlətmirdi.

Bunu elə B.Leqranın, daşnak hökumətinin Gürcüstandakı diplomatik nümayəndəsilə söhbətində, qeyd etdiyi bir fikirdən də aydın surətdə görmək olur: "Bəli, biz türklərə kömək edirik və edəcəyik də, lakin ermənilərə qarşı vuruşmaq üçün yox, Antantanın əsarətindən azad olması üçün". Hətta İ.Stalin və Q.Orconikidze, qızışdırıcı və məkrli mövqe tutaraq, Bakıdan B.Leqrana belə bir məlumat (22.XI.1920) çatdırmışdılar: türklər Ermənistanda Antantanın razılığı ilə hərəkət edirlər və buna görə də onlara əsla etibar etmək olmaz.

1920-ci illərin lap əvvəlindəki Rusiya-Türkiyə yaxınlaşması və tərəflərin Ermənistanla bağlı tutduqları mövqelər, yuxarıda qeyd edilən fikirlərdən də göründüyü kimi, həm ehtiyatlı, həm də ziddiyyətli səciyyə daşıyırdı. Bu mülahizəni aşağıdakı baxışlar da bir daha təsdiqləyir:

Birincisi, sovet rəhbərləri (V.Lenin və İ.Stalin) arasın-

dakı yazışmalar və onların bir sıra çıxış-söhbətləri həmin məsələlərlə bağlı bəzi məqamları açıqlamağa şərait yaradır. Belə ki, İ.Stalin V.Leninə məktubunda (5.XI.1920) öz rahatsızlığını bu cür büruzə vermişdi:

Türkiyədə vəziyyət aydın deyildir və o hər an təhlükəli ola bilər; Kamalın Antanta ilə müqaviləsi alınarsa, birincinin tərəfsizləşdirilməsi ikincinin Bakıya yürüşünü asanlaşdırar; əhalisi müsəlmanlardan ibarət olan mühüm strateji məntəqələri Ermənistana (əslində isə Antantaya) vermək – Türkiyə ilə münaqişəyə girmək olmaz; Türkiyədəki durumu hərtərəfli öyrənmədən Ermənistanla müqavilə bağlamaq olmaz, bu işi uzatmaq və elə göstərmək lazımdır ki, ikinciyə xeyir arzulayırıq, sonra hər şey aydınlaşar; XI ordu zəifdir və Antantanın Bakıya yürüşü qarşısında tab gətirməyəcəkdir; buna görə də daha bir ordu göndərmək lazımdır; passiv deyil, fəal müdafiə lazımdır. Əks halda Gəncəni itirər və orada burjua-müsavat hökumətinin qurulması ilə Bakıdan məhrum olarıq.

Yaxın gələcəkdə "ellər atası" sayılacaq İ.Stalin həmin məktubundan dörd gün sonra Bakıda partiya-sovet orqanlarının yüksək səviyyəli bir toplantısında (9.XI.1920) demişdi ki, "Kamalın Ermənistana dair mövqeyinə (siyasətinə) Rusiyanın münasibəti mənfidir. Və Ermənistanı dağılmaqdan qurtarmaq məqsədilə Kamala dayanmaq təklif edilməlidir (Burada söhbət Ermənistanın ucbatından başlanan və Türkiyənin böyük hərbi üstünlüyü ilə nəticələnən müharibəni dayandırmaqdan gedirdi).

İkincisi, V.Lenin də Mustafa Kamala və onun başçılıq etdiyi TBMM-ə (hökumətinə) münasibətdə birmənalı mövqe tutmamışdı. Məsələn, o, səlahiyyətli nümayəndə olaraq Türkiyəyə göndərilən S.Aralovla görüş-söhbətində Mustafa Kamalı, bir tərəfdən, "yaxşı bir təşkilatçı..., qabiliyyətli bir li-

der..., milli burjuaziya siyasətinə rəhbərlik edən qabaqcıl, ağıllı bir dövlət xadimi..." kimi dəyərləndirmişdi. Digər yandan da onun barəsində demişdi ki, Mustafa Kamal "bizim sosialist inqilabımızın mahiyyətini başa düşür, Sovet Rusiyasına qarşı yaxşı davranır", ancaq "... təbii ki, sosialist deyil".

Söhbət əsnasında səfirə həm də bunlar söylənilmişdi: Türkiyə hökumətinə və xalqına hörmət edin, lovğalanmayın, onların daxili işlərinə qarışmayın; Türkiyəyə yardım etmək lazımdır və edəcəyik, silah verərik, lazım gələrsə digər yardımı da göstərərik; imperialistlərin xarici siyasətinə qarşı zidd mövqeyimizi türklərə izah edin və s. (Göründüyü kimi, burada əsas məsələ Antanta təhlükəsi (qorxusu) və Qərbə qarşı müvəqqəti rus (sovet) – türk müttəfiqliyindən ibarət idi).

Üçüncüsü, Türkiyə tərəfinin də Rusiya ilə münasibətlərə və sonuncunun kommunizmi Şərqə (o cümlədən Anadoluya) yaymaq planlarına münasibət eyni olmamışdı. Bu münasibətin başlıca göstəriciləri (cəhətləri) Sovet Rusiyası ilə qarşılıqlı əlaqələrin yaradılmasında və onunla aparılan danışıqlarda fəal iştirak edən Rıza Nurun Tiflisdən K.Qarabəkir paşaya ünvanladığı telyazısı-raportda (22.IV.1921) yetərincə açıqlanmışdır. Türkiyə diplomatı çıxardığı nəticələri və görülməsi vacib sayılan işləri belə formulə etmişdi:

- Rusiya yenə də köhnə Rusiyadır və bolşeviklik bir maskadır;
- ruslar dünyanı və bizi bolşevik etmək, hətta indi kommunizm problemləriylə bütün dünyanı artıqlaması ilə Moskvaya bağlamaq istəyirlər;
- kommunizm Rusiyanı xarab etmişdir və edir;
- kommunizm rejimi qeyri-təbii bir idarədir və Rusiyada heç də hamı ondan məmnun deyildir;
- ruslar kommunizmi əsla sevməzlər və onun davamı (gələcəyi) çox şübhəlidir;

- bolşevikliyi Rusiyada davam etdirməli və kommunizmi özümüzə gətirməməliyik;
- İ.Stalinə məktub yazıb müqavilə (Moskva sazişi (16.III.1921) nəzərdə tutulur İ.M.) ilə bağlı təşəkkür edərək dostyana münasibətlərə girsəniz və Q.Orconikidze ilə dostluq yaratsanız çox faydalı olar;
- gürcülər və azərbaycanlılarla da müqavilələr bağlayıb Rusiya ilə sazişi hüquqi cəhətdən başa çatdırmalıyıq;
- Bakıda mükəmməl, təşkilatı və təhsisatı bol olan bir səfirliyimiz yaradılmalıdır.

Digər bir sənəd, yəni Kuvai-Millinin Mustafa Kamalın başçılığı ilə keçirilən iclasının (4.VI.1921) gizli qərarı da Türkiyənin Rusiyaya dair siyasətində rəhbər tutduğu prinsiplərə aydınlıq gətirir:

a) Sovet Rusiyası ilə ittifaq zəruri olsa da, təhlükəlidir və onun rəsmi, qeyri-rəsmi nümayəndələrinin fəaliyyətini iflic etmək lazımdır; **b)** Antanta ilə aparılan danışıqların uğurla başa çatmasına, hətta Rusiya ilə münasibətləri kəsmək belə lazım gələrsə, nail olunması vacibdir; **c)** kommunist quruluşuna rəğbət bəsləyən bütün müəssisələri, klubları və kitabxanaları tezliklə bağlamaq gərəkdir və Türkiyədə sovet hakimiyyətini təbliğ etdiyinə görə bağlanan "Yeni dünya" qəzetinin təzədən nəşri mümkün deyildir. Parisdə çıxan "Jurnal D'Orian"da (9.IX.1921) yazılırdı ki, "... türklər həqiqətən bolşeviklərdən silah və sursat alırlar, lakin sovet hökumətinə inanmırlar və onlarla əlaqələrdən qaçırlar".

Türkiyə-Rusiya münasibətlərinin belə bir dolaşıq durumunda Ermənistandakı müəyyən qüvvələr Naxçıvan və s. ilə bağlı mənfur niyyətlərini həyata keçirmək üçün ən çox Rusiyaya ümid bəsləyirdilər. Digər tərəfdən də, bu dövrdə Ermənistanda da Türkiyəyə istiqamətlənməyə və meyl etməyə çağıran səslər gəlirdi.

Daşnak qəzeti "Araç"da (20.XI.1920; №255) yazılırdı ki, "Ermənistanın yalnız bir nicat yolu vardır – öz qonşusu Türkiyə ilə bilavasitə ümumi dil tapmaq. Əgər erməni xalqı yaşamaq və özünün dövlət, həyati mövcudluğunu uzun müddətə təmin etmək istəyirsə o, rus deyil, türk oriyentasiyasına malik olmalıdır".

"Nor-Xosk" isə (26.IX.1920; 6 saylı) ermənilərin xeyli müddət ərzində yalnız Avropaya söykənməyə çalışdıqlarını qeyd edərək Şərq xalqları və dirçəlməkdə olan Türkiyə əleyhinə siyasət yürüdülməməsini məsləhət bilirdi. Bu qəzet habelə Rusiya ilə, onun vasitəsilə isə Türkiyə milli hərəkatıyla qəti ittifaq bağlamağı erməni xalqının fiziki mövcudluğunu və müstəqilliyini həmişəlik təmin edəcək real siyasət kimi qiymətləndirirdi.

Ermənistanın Qərbdən "üz döndərməsi": **a)** artıq ondan kifayət qədər himayə görə və yardım ala bilməməsi; **b)** Rusiya və Türkiyənin regionda üstün mövqe qazanmaları ilə bağlı idi. İngiltərənin Güney Qafqazdakı nümayəndəsi – komissarı polkovnik Stoks İrəvanda daşnak hökumətinin başçısı ilə söhbətində (3.X.1920) bildirmişdi ki, İngiltərə hazırda Ermənistana real yardım göstərmək qüvvəsində deyildir. Maraqlıdır ki , Stoks özü də daşnak hökumətinin Türkiyə ilə münasibətləri sazlamasına çalışmışdı.

Bu çoxtərəfli siyasətin nəticəsində Ermənistan eyni gündə (2.XII.1920) həm Rusiya, həm də Türkiyə ilə müqavilə bağladı. RSFSR-lə Sovet Ermənistanı arasında bağlanan hərbi-siyasi sazişin **3-cü maddəsi**ndə keçmiş İrəvan quberniyasının (Naxçıvan mahalı və s. ərazilərin), habelə Qazax qəzasının bir hissəsinin, Zəngəzurun Ermənistan SSR ərazisinin tərkibinə daxil olmasının Rusiyanın Sovet hökuməti tərəfindən mübahisəsiz tanınması təsbit edilirdi.

Digər tərəfdənsə, Türkiyə ilə Ermənistanın daşnak hökuməti arasında bağlanan (K.Qarabəkir paşa ilə M.Xatisyan tərəfindən imzalanan) sülh və dostluq haqqında Gümrü (Aleksandropol) müqaviləsinin **2-ci maddəsi**ndə tərəflər Naxçıvan bölgəsilə bağlı aşağıdakı razılığa gəldilər: Ermənistan "Kükü dağı, Həməsür dağı, Qurdqulaq kəndi, Sayat dağı, Arpaçay evləri, Kömürlüdağ, Saraybulaq dağları, Ararat stansiyası, Araz çayına Aşağı Qarasunun töküldüyü yerdən keçən zolağın cənubundakı (Naxçıvan, Şahtaxtı, Şərur) əraziyə, daha sonra referendumla təyin olunacaq idarə formasına və bu idarənin əhatə edəcəyi torpaqlara qarışmayacaq; həmin ərazidə hələlik Türkiyənin hümayəsində yerli idarə yaradılacaqdır.

Bu müqavilənin **12-ci maddəsi**nə əsasən isə Türkiyə hökuməti Şərur, Naxçıvan, Şahtaxtı və Culfa yolu ilə tranzit işlərinin sərbəstliyinin təminatını öz üzərinə götürürdü. Ən əsası isə **10-cu maddə** ilə İrəvan hökuməti, TBMM tərəfindən qəti surətdə rədd edilmiş, Sevr müqaviləsini etibarsız sayır və bununla da özünün Batum müqaviləsilə (4.VI.1918) nəzərdə tutulan ərazilərin hüdudlarında mövcudluğu ilə razılaşırdı.

Yeni Türkiyənin ilk siyasi-diplomatik zəfəri sayılan Gümrü müqaviləsi Sovet Ermənistanı (əslində isə Rusiya) tərəfindən qəbul olunmadı. Ermənistan SSR XXİK-i həmin müqavilənin ləğv olunması və yenisinin bağlanması üçün danışıqlara başlamaq təklifilə TBMM-ə və onun hökumətinə nota (10.XII.1920) göndərdi.

Çünki Türkiyənin "İstiqbal" qəzetinin (25.XII.1920) yazdığı və Azərbaycan SSR-in Gürcüstandakı diplomatik nümayəndəliyinin məlumat şöbəsinin bülletenində də (4.I.1921; 122 saylı) qeyd edildiyi kimi, "yeni Ermənistan respublikası inqilabın əvəzində mükafat olaraq mübahisəli (?! – İ.M.) Zəngəzur, Naxçıvan, Qarabağ ərazilərini almışdı".

Rusiya Sovet hökumətinin Tiflisdəki nümayəndəsi "Slovo" qəzetinə (4.I.1921) bəyanatında Ermənistanda Şura hakimiyyətinin elan edilməsilə öz-özünə ləğv olunmuş köhnə müqavilənin (Gümrü sazişi nəzərdə tutulur – İ.M.) əvəzinə təzəsini hazırlamaq üçün yeni danışıqların zəruriliyindən danışmışdı. RSFSR XXİK-i isə Azərbaycan və Ermənistan nümayəndələrinin iştirakı ilə Moskvada sovet-türk konfransının çağırılmasına dair Türkiyə tərəfindən edilən təklifə razı olduğu barədə Ankara hökumətinə məlumat (9.XII.1920) göndərmişdi.

Naxçıvan bölgəsindəki daxili siyasi vəziyyət bir sıra amillərə görə bu dövrdə də gərgin olaraq qalmaqda davam edirdi. Bu arada bölgədə təcili olaraq Fövqəladə Komissarlığın yaradılması (5.X.1920) və Rusiyada təhsil alan, vaxtilə orada işləyən, XI ordu komandanlığının etibarlı adamlarından sayılan B.Vəlibəyovun isə ona başçı təyin edilməsi siyasi şəraiti xeyli kəskinləşdirmişdi. Əslində bu tədbir bölgəni Ermənistana vermək yolunda hazırkı şəraitə və mərhələyə müvafiq növbəti addımlardan biri idi. Sonradan da aydınlaşdığı kimi, B.Vəlibəyovun fəaliyyəti ermənilərı qane edirdi.

Naxçıvanın da Ermənistana verilməsinə dair 1920-ci il 1 dekabr tarixli Bəyanat haqqında məlumatlar əldə edildikdən sonra bölgə əhalisinin bu akta qarşı kəskin çıxışları başlandı. Vəziyyət gərginləşdiyinə görə AİK üzvü və Ədliyyə komissarı B.Şahtaxtınski Naxçıvana göndərildi (15.XII.1920). Camaatla görüşlər zamanı "məşhur" və məlum Bəyanatla bağlı suallara cavabında B.Şahtaxtınski açıqcasına demişdi:

"Azərbaycan sizi torpağınızla birlikdə Ermənistana satıb və əgər mən Bakıda olsaydım, buna qəti surətdə razılıq verməzdim. Mən... Vəlibəyovu vəzifəsindən azad edib özümlə Bakıya aparacağam. Siz torpağınızla birlikdə öz müstəqilliyinizi saxlamaq istəyirsinizsə burada istinad edə biləcəyiniz yeganə qüvvə Türkiyə qoşunlarıdır. Xalq bu qoşunların ətrafında sıx birləşməlidir. Sizin müstəqilliyinizi və torpağınızı yalnız onlar qoruyacaqlar və sizi ağır fəlakətdən xilas edəcəklər" (Bizcə, bu cavab çox məsələləri açıqladığından əlavə şərhə etiyac qalmır).

B.Şahtaxtınskinin Naxçıvan şəhərində, Şərur və Ordubad rayonlarında keçirdiyi mitinqlərdə əhali Azərbaycanın himayəsində olmaqla bölgədə müstəqil sovet respublikası yaradılmasına tərəfdar çıxdığını bildirdi. 1921-ci ilin yanvarında B.Leqranın başçılığı ilə Ermənistan SSR nümayəndələrinin Naxçıvan şəhərində, bir sıra kəndlərdə və b. yerlərdə keçirdikləri mitinqlərdə, görüş və söhbətlərdə də analoji şəraitlə – Naxçıvanın Azərbaycanın tərkibində saxlanılması mövqeyi və tələbilə qarşılaşıldı. Bütün bunlar barədə Azərbaycan və Ermənistan İnqilab komitələrinə məlumatlar çatdırıldı.

B.Vəlibəyovun Ermənistan İnqilab Komitəsinə və Ermənistan K(b)P MK-ya, XI ordunun İnqilabi-Hərbi Şurasına yazdığı (surətləri isə AK(b)P MK və PK(b)P MK-ya göndərilən) 14 hesabatda və onlara dair əlavələrdə mövcud siyasi vəziyyətlə bağlı bir sıra məsələlər şərh olunmuşdu. Həmin hesabatlardan dördüncüsündə (23.I.1921) isə olduqca maraqlı və, eyni zamanda, çox ziddiyyətli bir məqam da aşkarlanır.

Bu hesabatdan və ona dair əlavə məlumatlardan aydın olur ki, Naxçıvandakı siyasi şərait və əhalinin AİK-in məlum bəyanatına mənfi münasibəti barədə Ermənistan rəhbərliyinə məlumat vermək üçün İrəvana gələn, vəziyyətin sabitləşdirilməsinə dair ondan müəyyən vədlər alan B.Vəlibəyov dekabrın 23-də Naxçıvana qayıtmaq istəmişdi. Və o, həm də Ermənistan İnqilab Komitəsi tərəfindən bölgənin

Fövqəladə Komissarı təyin edilmişdi (24.XII.1920). Buna görə də onun gəldiyi vaqon Şahtaxtı stansiyasında qatardan aralandırılaraq Naxçıvana buraxılmamışdı.

Belə bir cəhəti də nəzərə almaq lazımdır ki, bu dövrdə hələ də bölgədə Türkiyə hərbi hissələri yerləşirdi. Onlar bölgənin azərbaycanlı əhalisinin dəvətilə onu ermənilərin hücumlarından müdafiə etmək və Naxçıvanın itirilməsinin qarşısını almaq məqsədilə gəlmişdilər. Həmin hərbi hissələrə Türkiyə Şərq cəbhəsi Baş komandanlığının siyasi nümayəndəsi – Türk Qırmızı dəstəsinin komandiri Veysəl bəy başçılıq edirdi; onların hərbi qərargahı isə Şahtaxtıda yerləşirdi.

B.Vəlibəyov İrəvanda olarkən Veysəl bəy, Gümrü müqaviləsinə əsasən, Ordubaddan Şəruradək olan ərazilərdə Türkiyənin Fövqəladə Komissarlığının yaradılmasına və özünün isə ona başçı təyin olunmasına dair TBMM hökuməti adından əmr vermişdi. O habelə B.Vəlibəyovu Naxçıvanı ermənilərə satmaqda günahlandırmışdı.

Veysəl bəy Türkiyə Şərq cəbhəsinin komandanına, TBMM hökumətinin İrəvan və Naxçıvandakı rabitə zabitlərinə, Naxçıvan İnqilab və partiya komitələrinə ünvanladığı çox mühüm bir nota-məktubda (5.I.1921) bir sıra məqamları açıqlamışdı. O öz məktubunda:

1) İnqilabi türk dəstəsinin, Gümrü müqaviləsinə əsasən, Naxçıvandakı yerli sovet hakimiyyətini qorumalı və onun keşiyində durmalı olduğunu göstərmişdi.

2) B.Vəlibəyovdan bölgənin Fövqəladə Komissarı təyin edilməsinə dair mandatını göndərməsini vacib saymışdı.

3) Bir erməni rəsmi şəxsinin dekabrın 7-də Naxçıvanda mitinq keçirərək bölgənin Ermənistana birləşdirilməsinə dair imza toplamaq istəməsindən və B.Vəlibəyovla Abbasqulu bəyin (Şadlinski nəzərdə tutulur-İ.M.) bəzi hərəkətlərindən rahatsızlıq duyduğunu bildirmişdi.

4) B.Vəlibəyovdan sovet hökumətinin Naxçıvana muxtariyyət vermək proqramının mahiyyətini aydınlaşdırmağı tələb etmişdi.

Bu məsələyə də mütləq diqqət yetirilməlidir ki, bölgənin taleyilə bağlı Azərbaycan Sovet hökuməti tərəfindən elan edilən aktları onun əhalisi siyasi-hüquqi etirazlarla yanaşı həm də açıq çıxışlarla və silahlı müqavimətlə qarşıladı. 1921-ci ilin əvvəllərində Ordubad və Şərur qəzalarında, habelə Cəhri, Qaraçux və s. kəndlərdə çox qüvvətli antisovet, əsasən də, bölgənin gələcək taleyilə əlaqədar silahlı çıxışlar baş verdi.

Çıxışlar rus qoşunları tərəfindən amansızlıqla yatırıldı. Ancaq diyarın azərbaycanlı əhalisinin mahalın ərazi toxunulmazlığı uğrunda apardığı mübarizəsinin davam etdirilməsinə və bu sahədəki siyasi-diplomatik səylərə mühüm təsir göstərdi. Bölgənin ermənilərdən müdafiəsində xidmətləri olan və yeni siyasi quruluşun təqibləri üzündən Təbrizə mühacirət edən bir sıra şəxslərin (Kalbalı xan, Kəblə Muxtar Nehrəmski və b.) bu dövrdə mahalın taleyilə bağlı gördükləri tədbirlər də nəzərdən qaçırıla bilməz.

1920-ci il dekabrın sonlarında Ermənistan İnqilab Komitəsi Naxçıvan bölgəsinə dair dalbadal iki bəyanat verdi. Onun dekabrın 26-da verdiyi 1-ci bəyanatda (26.XII.1920) yazılırdı:

"...Bizə qardaş olan Sovet Azərbaycanı müsəlmanların və ermənilərin qanının tökülməsinə səbəb olmuş mübahisəni təntənəli aktla ləğv etmiş və Naxçıvanı Sovet Ermənistanının ayrılmaz hissəsi elan etmişdir. Lakin Ermənistanın Sovet hökuməti, xalqın öz hakimiyyəti kimi, qüvvəsini yalnız əhalinin, o cümlədən də Naxçıvanın əməkçi camaatının aydın ifadə olunmuş iradəsində görür... Ermənistan İnqilab Komitəsi əmindir ki, bundan belə Naxçıvanın zülm-

dən azad kütlələri, bütün əməkçi Sovet Ermənistanı ilə onların qarşılıqlı münasibətləri üçün, özlərinin aydın ifadə olunmuş fikirlərini bildirəcəklər".

İkinci bəyanatda (28.XII.1920) isə Naxçıvan müstəqil sovet respublikası kimi tanınırdı və daşnakların ona qarşı ərazi iddialarından imtina edildiyi yazılırdı. Əslində bölgənin Azərbaycanın bir hissəsi deyil, müstəqil respublika kimi tanınması Ermənistanın gələcək planları üçün düşünülmüş məqsədyönlü bir hərəkət (tədbir) idi.

Lakin bölgənin azərbaycanlı əhalisinin qətiyyətli mövqeyi və aydın ifadə olunan iradələri ermənilərin planlarını alt-üst elədi. 1921-ci ilin əvvəlində Azərbaycan SSR, Ermənistan SSR və RSFSR-in nümayəndələrinin Naxçıvan bölgəsi əhalisinin Azərbaycan və Ermənistan İnqilab komitələrinin bəyanatlarına münasibətilə bağlı keçirdikləri rəy sorğusunda 90 faiz mahalın muxtar respublika hüququnda Azərbaycanın tərkibində qalmasına səs verdi.

AK(b)P MK Siyasi və Təşkilat bürolarının qərarına (12.I.1921) əsasən B.Şaxtaxtınskini İnqilabi Hərbi Şuranın mandatı ilə Naxçıvana komissar göndərmək razılaşdırıldı. Bütün bunlar isə Azərbaycan və xüsusilə də Türkiyəyə bir sıra danışıqlarda və bağlanan müqavilələrdə üstünlük verdi, mühüm əsaslardan (dəlillərdən) oldu.

Azərbaycan "rəhbərliyi" tərəfindən bölgənin Ermənistana verilməsinin elan edilməsinə baxmayaraq Naxçıvan məsələsi o çağın bir sıra beynəlxalq danışıqlarında mühüm yer tutdu. Onların arasında da TBMM və Rusiya hökumətləri arasında danışıqlar, yəni ikinci Moskva konfransı (26.II.-16.III.1921) ayrıca qeyd olunmalıdır. Bilavasitə həmin danışıqlara keçməzdən öncə konfrans ərəfəsində baş verən bəzi diplomatik çəkişmələrə də nəzər salmaq faydalı olardı. Bu diplomatik mübahisələrin əsas predmetini isə əsasən iki məsələ və Azərbaycan tərəfinin onlarla əlaqədar tutduğu mövqe təşkil edirdi:

1-cisi, Rusiya Moskvadakı danışıqlarda Azərbaycan ilə Ermənistanın da iştirakında çox maraqlı idi və buna ciddi cəhdlər göstərirdi. Bu isə hər iki respublikadan öz məqsədləri üçün istifadə etməyə çalışan RSFSR-in aşağıdakı konkret niyyətlərindən (planlarından) irəli gəlirdi:

- Həmin respublikaların xarici siyasətini özünə tam tabe etdirməyə nail olunması;
- onların Türkiyəyə qarşı qoyulması;
- Cənubi Qafqazın tamamilə sovetləşdirilməsi və onun yenidən işğalının başa çatdırılması.

Rusiyanın növbəti sovet-türk danışıqlarına dair mövqeyi və Azərbaycanla Ermənistanın konfransın işinə cəlb olunmaları ilə bağlı istəyi G.Çiçerinin yazışmalarında da öz ifadəsini tapmışdı. Yeri gəlmişkən, burada bir fikir – mövqe dəyişmə halı da diqqəti cəlb edir. Baş rus diplomatı bu vaxt Bakıda olan Q.Orconikidzeyə məktubunda (1.XII.1920) türklərlə danışıqlar üçün nümayəndə göndərməyə hazır olduğunu çatdırmışdı. Habelə RSFSR-in Türkiyədəki səfiri P.Mdivani (Budu) vasitəsilə danışıqların yeri və zamanını razılaşdırmağı lazım bilmişdi (Konfransın Bakıda keçirilməsinə dair də təkliflər olmuşdu).

Ancaq G.Çiçerin TBMM hökumətinə (9.XII.1920) və onun Xarici İşlər komissarı əvəzi Ə.Muxtara (19.XII.1920) notalarında müxtəlif əsassız bəhanələrlə (diplomatiya başçılarının işlərindən ayrılmalarının mümkünsüzlüyü, yolverilməzliyi və s.) danışıqların Moskvada aparılmasını istədi. Həmçinin bu danışıqları dörd dövlətin konfransı kimi səciyyələndirərək Azərbaycanla Ermənistanın da Moskvaya təmsilçilər göndərmələrini zəruri saydığını bildirdi:

"...çünki Türkiyə-Rusiya və bu dövlətlər arasındakı

ərazi və başqa məsələlərin həlli onlara da aiddir. Qafqaz xalqları arasında möhkəm sülh və qardaşlıq ailəsi yaratmaq Sovet hökumətinin böyük arzusudur (?! – İ.M.) ...bu konfransın Şərqin Avropa hərbçilərindən azad olunmasında mühüm rol oynayacağı şübhəsizdir".

2-cisi, Türkiyə tərəfi isə RSFSR ilə saziş bağlamazdan öncə Azərbaycan və Gürcüstanla, sonra da Ermənistanla ayrılıqda müqavilələr imzalamağa çalışırdı. Başqa sözlə desək, TBMM hökuməti bəzi siyasi və s. mülahizələrə görə Qafqaz respublikaları ilə Türkiyə arasındakı problemlərin, ələlxüsus da ərazi məsələlərinin həllinə dair əlahiddə, ikitərəfli müqavilələrin bağlanmasına üstünlük verirdi.

Azərbaycan ilə münasibətlərə (müqavilələrə) daha böyük önəm verən Türkiyə diplomatiyası onunla sazişin layihəsini də hazırlamışdı. Yeddi maddəlik layihədə aşağıdakılar nəzərdə tutulmuşdu: Şərqin qurtuluşu naminə birləşmək və qüvvələrin imperializmə qarşı yönəldilməsi; Türkiyənin Antanta ilə müqavilə bağlaması və Azərbaycana üsyançı dəstələr göndərməsi; Azərbaycanın yalnız əhalisi istədiyi halda sovet quruluşu yarada bilməsi; Türkiyənin razılığı olmadan Azərbaycanın Antanta isə sazişə girməməsi; Antanta tərəfindən hücuma məruz qaldığı təqdirdə Türkiyəyə Azərbaycanın yardım göstərməsi və inqilabi hərəkatı ərzində onu neft və neft məhsullarıyla təchiz etməsi.

Ancaq proseslərin gedişi və nəticələrindən də göründüyü kimi Rusiyanın üstüörtülü təzyiqi və təsiri Türkiyənin Qafqaz respublikaları ilə ayrılıqda müqavilələr bağlamasına imkan vermədi (Hətta Azərbaycan da buna getmədi və gedə də bilməzdi).

Bəkir Sami bəyin, Rusiyanın Trabzondakı informasiya bürosunun məlumatında (21.II.1921; 28 saylı) verilən, söhbətində bununla əlaqədar deyilirdi ki, N.Nərimanov Fövqəladə Komissiyanın və rus qırmızı qoşunları komandirlərinin dediklərini edir, faktiki olaraq Azərbaycanın bütün siyasətinə isə onu qətiyyən tanımayan və onunla heç bir yaxınlığı olmayan Q.Orconikidze rəhbərlik edir; Azərbaycanın bütün sərvətləri Rüsiyaya aparılır və nəticədə xalq dəhşətli ehtiyac içərisindədir.

Bu hal Türkiyə-Azərbaycan münasibətlərində müəyyən qədər sərinlik yaratdı. TBMM hökumətinin Xarici İşlər naziri Y.Kamal bəy sonralar (26.I.1922) İ.Əbilovla söhbətində qeyd etmişdi ki, "RSFSR-lə müqavilə bağlamaq üçün Moskvaya gedərkən biz Azərbaycanla, sonra isə Gürcüstanla və, nəhayət, Ermənistanla müqavilələr imzalamaq niyyətində idik. Təəssüf ki, Azərbaycanda bu məsələyə bizim gözlədiyimiz kimi yanaşmadılar. Bundan məyus olan həmkarım Rıza bəy dedi ki, Azərbaycan bizə burun göstərdi". Ölkələrimiz arasındakı münasibətlərdə yaranan soyuqluq və inciklik Rıza Nurun TBMM-in qapalı iclasında (13.IX.1921) Azərbaycan-Türkiyə separat sülh müqaviləsinin bağlanması məsələsinə dair məlumatında da nəzərə çarpır.

Türkiyə hökuməti RSFSR XXİK-ə göndərdiyi teleqramla (22.XII.1920) danışıqların Bakıda aparılmasına dair mövqeyini təkrarlamaqla bərabər öz nümayəndə heyətinin tərkibini də açıqladı. Heyətə üç millət vəkili, yəni İqtisadiyyat və Təhsil nazirləri Yusif Kamal bəylə doktor Rıza Nur, habelə Əli Fuad paşa Cebesoy (TBMM hökumətinin RSFSR-dəki ilk böyük elçisi) daxil idilər. Danışıqların yeri, yəni Moskvada keçirilməsilə bağlı isə Türkiyə RSFSR-in cavab notası (28.XII.1920) ilə razılaşmalı oldu.

3-cüsü, Azərbaycan SSR hökuməti hər iki məsələ, yəni Türkiyə ilə əlahiddə müqavilə bağlanılması və özünün Moskva danışıqlarına qatılmasıyla bağlı Rusiyanın tərəfini tutdu (Başqa cür ola da bilməzdi). Onun mövqeyi isə B.Şahtaxtınskinin

ikinci Moskva konfransının açıldığı gün (26.II.1921) M.Hüseynova yazılı şəkildə çatdırdığı mülahizə və təkliflərində yaxşı ifadə olunmuşdu. Əslində bu məktubda üç tərəfin də maraq və niyyətləri bir daha açıqlanırdı. Behbud bəyə görə:

a) Türkiyə Azərbaycan və Ermənistan nümayəndələrinin konfransda iştirakını istəmirdi. Çünki, bir yandan. Azərbaycanla əsla heç bir mübahisəli məsələsi olmadığını və onunla müqavilələrin Bakıda məxsusi bağlanacağını bildirirdi. Digər tərəfdən də, Gümrü müqaviləsini qüvvədə sayır və ondan imtina etmək fikrində deyildi;

b) Rusiya Türkiyə ilə danışıqları ittifaq haqqında deyil, dostluq barədə aparırdı. Azərbaycanla ayrıca saziş imzalamağa qarşı çıxırdı. O, öncə Azərbaycanı və sonra da Ermənistanı konfransa qatmaq istəyirdi;

c) Azərbaycanın konfransda iştirakı məqbul deyildi. Çünki orada heç nə haqqında qətiyyətlə danışmaq olmazdı. Xırda şeylərdən ötrü Türkiyənin əleyhinə getmək Azərbaycana xeyir gətirməzdi. Anadoluda onu çoxlu kombinasiyalar (işlər) gözləyirdi və Azərbaycana dəxli olmayan məsələlərlə bağlı konfransda Türkiyə əleyhinə çıxışı bütün bunların itirilməsiylə nəticələnə bilərdi

B.Şahtaxtınskinin nəzərdə tutduğu məsələlər sırasında Azərbaycanın torpaq bütövlüyünün təminatı, o cümlədən Naxçıvan mahalının ərazi mənsubiyyətinin ədalətli həlli də vardı. Öz növbəsində Türkiyə tərəfi də Moskva danışıqları ərəfəsində və onun gedişində Naxçıvan məsələsinə mühüm əhəmiyyət verirdi. Bu, bəzi daha önəmli strateji amillər və geosiyasi maraqlarla bərabər, həm də Naxçıvan bölgəsinin: **1)** Türkiyə ilə Azərbaycan arasında ən yaxın məsafə və yeganə birləşdirici məntəqə olması, **2)** Ankara-Moskva diplomatik əlaqələrində başlıca vasitəçi rolunu oynaması ilə əlaqədar idi.

Türkiyənin həmişə və ələlxüsus da həmin vaxtlarda Naxçıvan bölgəsinin siyasi və s. problemlərinə ciddi diqqət yetirməsini tanınmış tədqiqatçı Faruk Sümerin araşdırmalarından da görmək olur. O danışıqların iştirakçısı Y.Kamal bəyin Moskvaya yola düşməzdən əvvəl Mustafa Kamal paşa ilə olan aşağıdakı dialoqunu xüsusilə nəzərə çarpdırır.

Y.Kamalın "Paşam! Ruslar Naxçıvan üzərində israr edərlərsə nə yapalım?" - sualına Mustafa Kamal paşa: "Naxçıvan Türk qapısıdır. Bunu xüsusi nəzərə alaraq əlinizdən gələni yapınız" - cavabını vermişdi. Y.Kamalın söhbətlərindən bəlli olur ki, danışıqlarda Naxçıvana dair müzakirələr xeyli uzanmış, İ.Stalin "Naxçıvan üzərində nə üçün bu qədər israr edirsiniz?" sualına da "orası Türk qapısıdır, ondan" cavabını almışdı.

Moskva danışıqlarında Naxçıvanla bağlı prinsipial mübahisələr və diplomatik toqquşmalar bu müzakirələri aparan siyasi komissiyanın 1921-ci il 10, 12 və 14 mart tarixli iclaslarının protokollarında da öz əksini tapmışdır. Həmin sənədlərdən göründüyü kimi, martın 10-da keçirilən iclasda Türkiyənin nümayndələri belə bir mövqedən çıxış etmişdilər:

Naxçıvan bölgəsi əhalisinin türk qoşunlarını qəbul etməsi faktı onun Türkiyənin himayəsi altında olmasını göstərir. Lakin Türkiyə bölgə üzərindəki bu himayəni Azərbaycanın üçüncü bir dövlətə güzəştə getməyəcəyinə dair öhdəlik götürdüyü təqdirdə ona verməyə razıdır. Çünki yerli müsəlman əhalisinə qarşı əvvəllərdə baş verən zorakılıqların təkrarlana biləcəyi halda türk qoşunları kənarda qala bilməzlər.

Rusiya nümayəndələri isə sadəcə Azərbaycanın himayəsi altında Naxçıvanın muxtariyyəti məsələsinin qoyulmasını, rejim şərtlərinin və sərhədlərin müəyyənləşdirilməsini təklif edirdilər. Onlar bunu belə "əsaslandırırdılar":

1. Türkiyənin öz himayəçilik hüququnu Azərbaycana güzəştə getməsinə dair irəli sürdüyü formula qeyri-məqbuldur; çünki Aleksandropol müqaviləsi təsdiq olunmamışdır və türk qoşunlarının yerli əhali tərəfindən bölgəyə dəvət olunması lazımi hüquqi məna daşımadığından himayə üçün əsas sayıla bilməz. **2.** Azərbaycan bu danışıqlarda rəsmən təmsil olunmadığından müvafiq öhdəlik də götürə bilməz.

Bütün bunlara görə də Rusiya tərəfinin "Naxçıvan vilayətinin Azərbaycanla daimi əlaqədə olması və onun himayəsi altında muxtariyyətdən istifadə etməsi" formulu Türkiyənin "Azərbaycanın bu protektoratı hər hansı bir üçüncü dövlətə güzəştə getməməsi" şərtilə tamamlandı. Naxçıvan mahalının sərhədlərinin müəyyənləşdirilməsi işi isə hərbi ekspertlərə tapşırıldı.

Siyasi komissiyanın (12.III.1921) başqa bir iclasında əsasən Naxçıvan dairəsi ilə Ermənistan arasındakı – hərbi ekspertlər tərəfindən müəyyənləşdirilən – sərhədlər ətrafında mübahisələr getdi. Rusiya tərəfi bildirdi ki, ekspertlərin müəyyənləşdirdiyi sərhəd xətti Azərbaycanın maksimum tələblərini də ötüb keçir: çünki o özü heç vaxt İrəvan qəzasının hər hansı bir hissəsinə himayəçiliyə iddia etməmişdir; habelə sovet respublikaları arasında sıx əlaqələr (?! – İ.M) olduğundan, bu məsələ birinci dərəcəli əhəmiyyət kəsb etməsə də, Şərur-Dərələyəz dairəsinin sərhədini etnik prinsipə müvafiq çəkmək lazım gəlir.

Türkiyə tərəfi isə haqlı olaraq məsələnin belə qoyuluşuna kəskin etiraz etməklə öz mövqeyini əsaslandırmaq üçün bu kimi dəlillər gətirdi: **a)** məhz həmin yerlərdə məlum qanlı hadisələr baş vermiş və Türkiyə qoşunlarının bölgəyə gəlməsinə ehtiyac yaranmışdı; **b)** adıçəkilən dairə bütünlüklə müsəlmanlarla məskunlaşmışdır və s. Bunlara görə də həmin ərazi üzərində himayə hüququ Azərbaycana verilməlidir.

İrəlidə açıqlanacaq təkliflərdən də, uzaqgedən siyasi məqsədlər güddüyü aydınlaşan, Rusiyanın diplomatları Naxçıvan bölgəsilə Ermənistan arasındakı sərhədlərin müvəqqəti sayıla bilməsini mümkün hesab edirdilər. Onlar bildirirdilər ki, gələcəkdə bu iki dövlətin birbaşa danışıqlarında sərhədlərlə bağlı edilə biləcək dəyişikliklər Azərbaycanın öz protektoratını güzəştə getməməyə dair öhdəliyinin pozulması kimi qiymətləndirilməməlidir.

Məsələnin qəti həllinin çətinliyinə dair Rusiyanın mövqeyi bölgələrin əhalisinin son dövrlərdəki köklü genişmiqyaslı yerdəyişmələrilə əlaqələndirilirdi. Bütün bu mülahizə və "dəlillər" isə Azərbaycan torpaqlarının gələcəkdə ermənilərə verilməsinə zəmin hazırlamaq üçün idi.

Rusiya diplomatiyasının təhlükəli gedişlərini yaxşı görən Türkiyə tərəfi bu məsələnin: **1)** həm Azərbaycanın gələcək ərazi bütövlüyü və **2)** həm də özünün şərq sərhədlərinin təhlükəsizliyi baxımından mühüm əhəmiyyət kəsb etməsini nəzərə aldı. Problemin qəti həlli və Azərbaycanla Ermənistan arasında bununla bağlı hər hansı bir danışıqların mümkünlüyünün istisnası mövqeyində möhkəm dayanıldı.

Belə olduqda Rusiya tərəfi yenə də diplomatik gediş edərək Azərbaycanın özünün əvvəllər tələb etdiyi sərhədlər üzərində dayanmağı məsləhət bildi. Belə bir "dəlil"dən yapışıldı ki, nəzərdə tutulan sərhəd xəttini bu işdə maraqlı olan hökumətin və əhalinin (yəni Azərbaycanın – İ.M.) mövqeyini bilmədən Moskvadan müəyyənləşdirmək olmaz.

Bu iclasın yekununda Türkiyənin təklifilə Şərur-Dərələyəz dairəsinin Naxçıvana keçməsi və İrəvan dairəsinin mübahisəli hissələrində sərhədin Kömürlüdağla Saraybulaq dağlarından, Ararat stansiyasından başlanması razılaşdırıldı. Bütün bu məsələlərin Azərbaycan, Ermənistan və Türkiyə nümayəndələrindən ibarət qarışıq komissiyada razılaş-

dırılması qərara alındı.

Türkiyə nümayəndələri siyasi komissiyanın martın 21-də keçirilən iclasına özlərinin əks layihələrini təqdim etdilər. Həmin layihənin 3-cü maddəsinə görə Naxçıvan vilayəti, 1 (B) əlavəsində göstərilən sərhədlər daxilində, Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etməli və o, həmin protektoratı heç kimə güzəştə getməməli idi.

Moskva danışıqlarının iştirakçısı Rıza Nurun memuarında da müzakirələrin çox gərgin şəraitdə getməsi və hətta bəzən pozulmaq həddinə çatması vurğulanır. Ümumiyyətlə isə, məhz Türkiyə nümayəndə heyətinin ciddi səyləri sayəsində Moskva danışıqlarında: **a)** Azərbaycanın ərazi bütövlüyü qismən də olsa qorunmuş; **b)** Naxçıvanın Azərbaycanın tərkibində muxtar ərazi təşkil etməsi; **c)** bölgənin hüquqlarının Azərbaycandan başqa heç bir dövlətə verilə bilməməsi razılaşdırılmışdı.

Belə bir nəticənin hasil edilməsində Moskva danışıqlarında qeyri-rəsmi statusla iştirak edən B.Şahtaxtınskinin də əməyi və xidməti olmuşdur. O, V.Leninə göndərdiyi məktubda (1.III.1921) Naxçıvan, Zəngəzur, Dağlıq Qarabağ ərazilərinin gələcəyindən duyulan rahatsızlığı çatdırmış və adıçəkilən mahalların milli tərkibi, coğrafiyasına dair arayışları da məktuba əlavə etmişdi. O həmçinin Güney Qafqazda sərhəd məsələləri və xüsusilə də Naxçıvan bölgəsilə bağlı faydalı təkliflər vermişdi.

V.Leninin dərkənarı ilə müzakirə üçün Siyasi Büroya göndərilən (7.III.1921) həmin məktuba martın 16-da İ.Stalinin, C.Çiçerinin və b. iştirakı ilə baxılmışdı. B.Şahtaxtınskinin təklifi də nəzərə alınmaqla Azərbaycanın himayəsində Naxçıvan Sovet respublikasının təşkili barədə qərar qəbul olunmuşdu.

Müzakirələrin sona yetdiyi bir vaxtda B.Şahtaxtınski

Azərbaycan XXİK-ə teleqram (13.III.1921) göndərərək Naxçıvanın Azərbaycanın tərkibində saxlanılmasının və bağlanacaq müqaviləyə əsasən heç vaxt da Ermənistana verilməməsinin razılaşdırıldığını bildirirdi.

Nəhayət, 1921-ci il martın 16-da imzalanmış "Dostluq və qardaşlıq haqqında" (bir arxiv sənədində "Dostluq və sərhədlər haqqında" kimi də gedir) RSFSR-Türkiyə müqaviləsinin **3-cü maddəsinə** əsasən belə bir qarşılıqlı razılığa gəlindi:

Naxçıvan vilayəti bu müqavilənin **1 (B) əlavəsində** göstərilən sərhədlərdə Azərbaycanın himayəsi altında, həmin protektoratı Azərbaycanın heç bir üçüncü dövlətə güzəştə getməməsi şərti ilə, muxtar ərazi təşkil edir. "Naxçıvanın ərazisi" adlı 1 (B) əlavəsində isə bölgənin sərhədləri aşağıdakı kimi müəyənləşdirilirdi: Ararat stansiyası – Saraybulaq dağları – Kömurlüdağ – Sayatdağ – Qurdqulaq kəndi – Həməsür dağı – yüksəklik (8022) – Küküdağ və keçmiş Naxçıvan qəzasının şərq inzibati sərhədi. Bununla da Naxçıvanın ərazi mənsubiyyəti məsələsinə aydınlıq gətirildi.

N.Nərimanov Sovetlərin I Ümumazərbaycan qurultayının 4-cü iclasındakı (9.V.1921) nitqində bununla əlaqədar demişdi ki, "Sovet Rusiyası və Türkiyə ilə müqaviləyə əsasən Naxçıvan Azərbaycanın protektoratı altında müstəqil (?! – İ.M.) respublika elan olunur. Orada nümayəndəmiz olacaq və biz bütün münasibətlərdə Naxçıvana xidmət edəcəyik" (Burada "Sovet Rusiyası və Türkiyə ilə müqaviləyə əsasən..." fikri düzgün deyildir. Ona görə ki, müqavilə Rusiya ilə Türkiyə arasında bağlanmışdı. Çünki Türkiyə nümayəndə heyəti Moskvaya gəldiyi zaman Azərbaycan və Ermənistan təmsilçiliklərilə danışıqlardan imtina etmiş və öz hökumətindən buna səlahiyyət almadığını bildirmişdi. Ancaq Moskva konfransında Güney Qafqaz sovet respublika-

ları ilə Türkiyə arasında müqavilə bağlanılmasına dair razılıq əldə olunmuşdu).

RSFSR və TBMM hökumətləri arasındakı 16 maddədən və bəzi əlavələrdən ibarət olan Moskva müqaviləsinin **6-cı** (onların əvvəllər bağladıqları müqavilələrin qarşılıqlı mənafelərə cavab verməyən aktlar kimi ləğvi), **8-ci** (tərəflərin bir-birilərinin ərazilərində və ya onun bir hissəsində hakimiyyətə gəlmək istəyən qrupların fəaliyyətinə imkan verilməməsinə dair öhdəlikləri), **9-cu** (dəmir yolları və digər nəqliyyat vasitələrinin işə salınması), **13-cü** (hərbi əsirlərin və həbs olunanların qaytarılmaları), xüsusilə də **15-ci** (tərəflərin Qafqaz respublikaları qarşısında öhdəliklər götürmələri) və, nəhayət, **16-cı** (sazişin ratifikasiya olunması və müvafiq sənədlərin Qarsda mübadilə edilməsi) maddələri də bu və ya digər dərəcədə Azərbaycanın maraqları, onun Naxçıvan mahalının mənafelərilə əlaqədar idi.

Moskva müqaviləsini imzalamaqla Türkiyə Gümrü müqaviləsinin, o cümlədən də onun Naxçıvan bölgəsinə dair maddələrinin qüvvədən düşməsi ilə razılaşdı. Əslində bu, sovet siyasi-diplomatik ədəbiyyatında qeyd edildiyi kimi, Türkiyənin Naxçıvana dair iddialarından imtinası deyil, həmin ərazi üzərində Azərbaycanın suverenliyinin təmin edilməsi sahəsində öz missiyasını yerinə yetirməsi idi. Bunu da vurğulamaq lazımdır ki, Moskva müqaviləsi imzalandıqdan az sonra – 1921-ci ilin aprelində Türkiyənin məhdud qoşun hissəsi Naxçıvan mahalını tərk etdi.

Bu müqavilənin RSFSR Mərkəzi İcraiyyə Komitəsi (20.III.1921) və TBMM (21.VII.1921; 5 səsə qarşı 201 səslə) tərəfindən təsdiqlənməsilə Naxçıvan məsələsi özünün ədalətli həllini tapdı, yəni Azərbaycanın tərkibində qaldı (Ratifikasiya sənədlərinin mübadiləsi Qarsda (21.IX.1921) keçirildi). Bu, mühüm əhəmiyyəti olan bir siyasi-diplomatik akt və çox

böyük uğur idi. Heç də təsadüfi deyildir ki, Türkiyə diplomatları Ankaraya döndükdə M.Kamal paşaya müraciətlə – "Naxçıvan üzərində əldən gələni yapdıq" dedikdə o, "Qapımız mövcudiyyətini mühafizə edin, bizim üçün mühüm olan budur" söyləmişdi.

Moskva müqaviləsinin şərtlərini daha da konkretləşdirmək və müəyyən mənada tamamlamaq, bununla da onu reallaşdırmaq, yəni Türkiyə ilə Güney Qafqaz respublikaları arasındakı həll olunmamış məsələləri nizama salmaq məqsədilə yeni konfrans çağırmaq lazım gəldi. Bu konfransın çağırılması (yeri və vaxtı) ilə bağlı Türkiyə-Rusiya-Azərbaycan-Ermənistan-Gürcüstan arasında diplomatik yazışmalar getdi və notalar mübadiləsi oldu.

Ümumiyyətlə, 20-ci illərin əvvəllərindəki Azərbaycan-Türkiyə münasibətlərinin bəzi məsələlərinə işıq salan həmin diplomatik yazışmalarda bir sıra maraqlı məqamlar nəzərdiqqəti cəlb edir:

a) Rusiyanın Güney Qafqaz respublikalarını Türkiyəyə qarşı vahid cəbhədə birləşdirmək səyləri;

b) rəsmi Moskvanın siyasətinin yeddəyində gedən Azərbaycan rəhbərliyinin əksər hallarda Türkiyəyə arxa çevirməsi;

c) özünün regiondakı müəyyən maraqlarını təmin etməyə çalışan Türkiyənin Azərbaycanın ərazi bütövlüyü, xüsusilə də Naxçıvan və s. ərazilərlə bağlı hələ də rahatsızlıq keçirməsi.

Türkiyə diplomatiyasının da uğuru sayılan Moskva müqaviləsi, onun Azərbaycanın ərazi bütövlüyünü qismən də olsa təmin edən 3-cü və b. maddələri Rusiya ilə Ermənistanın siyasi-diplomatik dairələrini qayğılandırmışdı. RSFSR Türkiyənin Qafqaz regionunda və onun strateji bölgələrində möhkəmlənməsindən ehtiyatlanırdı.

Bunu S.Kirovla Q.Orconikidzenin RK(b)P MK-ya hə-

lə Moskva danışıqları və müqaviləsindən əvvəl (2.I.1921) ünvanladıqları məktubda yazılanlar çox yaxşı açıqlayır və təsdiqləyir: "...türklər asanlıqla Naxçıvanda öz bufer zonalarını yarada bilərlər. Onlar burada xüsusi xanlıq (?! – İ.M.) yaratmaq istəyirlər. Onların əlində Təbriz dəmir yolu olacaq və bizi İrandan ayıracaq, Ermənistanı parçalayacaq".

Buna görə də Rusiya diplomatiyası Moskva müqaviləsini Güney Qafqaz respublikaları ilə Türkiyə arasında konfrans keçirməklə tamamlamağa çalışırdı. Habelə vəziyyətdən ilkin çıxış yollarından birini Cənubi Qafqaz respublikalarını Türkiyə əleyhinə yönəltməkdə görürdü. Bu planın əsas xətlərini G.Çiçerinin və B.Leqranın M.Hüseynova məktubları, Güney Qafqaz respublikaları nümayəndələrinin iclasının (7.V.1921) qərarı, baş rus diplomatının Ə.Fuad Cebesoya notası və sairədə ifadə olunan fikir və mülahizələrdən də görmək mümkündür:

- Türkiyə hər vasitə ilə Azərbaycanda protektorat rolunu oynamaq xəttini yürüdür və onun daxili işlərinə qarışmaq üçünsə himayəçisi olmaq istəyir. Güney Qafqaz respublikaları Türkiyə ilə ümumi müqavilə bağlamalıdırlar və bunu Rusiya ilə danışmadan etməməlidirlər. (G.Çiçerinin M.Hüseynova məktublarından – IV.1921);
- Cənubi Qafqazın üç respublikası, Türkiyə ilə keçiriləcək konfransda, vahid tərəf kimi ümumi muqavilə imzalamalarına dair təklif irəli sürməlidir. Aparılacaq danışıqların və bağlanacaq sazişin əsasını isə Moskva müqaviləsi təşkil etməlidir (Güney Qafqaz respublikaları təmsilçilərinin iclasının (7.V.1921) qərarından);
- Rusiya qarşıdakı konfransın sərhəd məsələləri komissiyasında bərabərhüquqla və bütövlükdə danışıqlarda isə məşvərətçi səslə iştirak etmək istəyirdi (Belə bir mövqe müqavilənin Cənubi Qafqaz respublikaları ilə Türkiyə

arasında bağlanılacağı ilə əlaqələndirilirdi). RSFSR Azərbaycanın Ankaraya səlahiyyətli nümayəndə göndərməsini tezləşdirməyə maraq göstərərək onun vasitəsilə Türkiyəyə təsir etməyə çalışırdı (B.Leqranın M.Hüseynova məktubundan – 24.V.1921);
- Türkiyənin Azərbaycana və sonra da Gürcüstana etdiyi əlahiddə (ayrılıqda) müqavilə bağlamaq təklifi onlar tərəfindən rədd olunmamışdır. Ancaq təklifə əlavə olunan şərtə görə, müqavilələr Moskva sazişi əsasında Cənubi Qafqazın üç respublikasının Türkiyə ilə konfransında hazırlanmalıdır və belə bir saziş Ermənistanla da bağlanmalıdır (G.Çiçerinin Ə.Fuad Cebesoya notasından – 13.VI.1921).

Yuxarıda sadalanan və həmçinin çoxlu digər arxiv sənədləri Azərbaycan SSR hökumətinin Rusiya tərəfindən yönləndirildiyini və buna görə də Türkiyədən üz döndərməkdə olduğunu təsdiqləyir. Bunu Azərbaycanın iki məsələ ilə əlaqədar tutduğu mövqenin nümunəsində şərh etmək yetər:

1. TBMM hökumətinin Türkiyə ilə Azərbaycan arasında ayrıca müqavilə bağlamaq təklifi qəbul edilmədi. Belə ki, Moskva müqaviləsi imzalandıqdan sonra Vətənə dönərkən Bakıda ləngiyərək Azərbaycanla separat saziş bağlamağa çalışan Y.Kamal bəyin israrlı səyləri nəticə vermədi (Doğrudur, Azərbaycan XXİK-i Rusiyanın da "məsləhət" görməsinə baxmayaraq, danışıqların Tiflisdə aparılması bəhanəsilə türklərə Bakını tərk etmələrinin təklif olunmasını məqbul saymadı).

2. Rusiyanın Güney Qafqazın üç respublikasının Türkiyə ilə ümumi müqavilə bağlaması və ona qarşı vahid cəbhə yaratması təklifi isə möhkəm müdafiə olundu. M.Hüseynov G.Çiçerinin məktubuna cavabında (12.IV.1921) yazırdı: "Türklər heç vaxt və heç bir formada Azərbaycan üzərində

protektorat rolunu oynaya bilməz. Əgər indi danışıqlarda Güney Qafqaz respublikalarının cəbhəsini yaratmaq lazımdırsa, biz türklərə bu müzakirələrdə iştirak edəcəyimizi deyə bilərik".

Y.Kamal bəyin ikitərəfli müqavilə bağlamaq təklifindən diplomatik ibarələrlə ("biz onsuz da qardaşıq, onu kağıza köçürmək artıq şeydir") yayınan M.Hüseynov Azərbaycan SSR hökumətinin (əslində RSFSR-in) istəklərini "Bakinski raboçi" qəzetinə müsahibəsində belə ifadə etmişdi: Y.Kamal bəyə Cənubi Qafqazın bütün respublikaları ilə vahid müqavilə bağlanılması, bir sıra mübahisələrin, "Naxçıvan üçbucağı məsələsi"nin həll və Gümrü müqaviləsi"nin isə ləğv olunması təklif edildi; bununla da, ayrılıqda Azərbaycanla deyil, Güney Qafqaz respublikalarının hamısı ilə vahid müqavilə münasibətləri qurulmasına dair ümumi fikir birliyi barədə tam razılıq əldə olundu.

Rusiya diplomatiyasının uzaqgedən məqsədlərini yaxşıca bilən TBMM hökuməti Qafqaz respublikaları ilə separat müqavilələr bağlamağa dair israrlı mövqeyində haqlıydı. Çünki Rusiyanın Qafqazı yenidən əsarət altına almaq və buna əngəl ola biləcək regional güclərdən birini, yəni Türkiyəni zərərsizləşdirməyə (neytrallaşdırmağa) çalışması planı hamıya bəlli və gözönündə olan bir siyasət idi.

Ancaq zəmanənin reallıqlarını və, ələlxüsus da, üzləşdiyi tarixi təhlükəni (parçalanması və paylaşdırılması ehtimallarını) ciddiyyətlə nəzərə alan Türkiyə Rusiya ilə münasibətləri gərginləşdirmək yolunu deyil, danışıqları davam etdirmək xəttini seçdi.

Güney Qafqaz respublikaları ilə müqavilə bağlamağa razılıq verildi və RSFSR hökuməti bu barədə məlumatlandırıldı (14.VI.1921). Vahid mövqedən çıxış edən Cənubi Qafqaz respublikaları (əslində Rusiya) bu fürsəti qaçırmadılar.

Azərbaycan (21.VII.1921), Gürcüstan (31.VII.1921) və Ermənistan (24.VIII.1921) TBMM hökumətinə notalarıyla konfrans çağırılması və müqavilə bağlanmasını müsbət qarşılamış oldular. Birincinin notasında deyilirdi, "bizim həyati mənafeyimiz Moskva müqaviləsini qarşılıqlı surətdə tamamlamaq və onu inkişaf etdirmək zərurətini irəli sürür".

Güney Qafqazın sovet respublikaları ilə inqilabi Türkiyə arasında müqavilə bağlanması üçün çağrılan konfransın yeri və vaxtı məsələləri də kəskin mübahisələr doğurdu. Konfransın yeri ilə əlaqədar olaraq aşağıdakı variantlar ortaya çıxdı: Azərbaycan (M.Hüseynov) "inqilabi Şərqin mərkəzi kimi" Bakını, əgər bu təklif qəbul olunmazsa, onda Tiflisi məsləhət bildi; TBMM hökuməti (Y.Kamal bəy) əvvəlcə Qarsı, sonra Ankaranı və yenidən Qarsı təklif etdi; gürcülər Batumun üzərində dayandılar.

Yerlə bağlı gətirilən "dəlillər" əlaqələr saxlanmasının təminatı imkanları, bilavasitə "işdən ayrılmanın mümkünsüzlüyü" və s. ibarət idi. M.Hüseynov konfransın yerinə dair məsləhətləşmələrdəki gözə çarpan nisbi müstəqil davranışına görə, B.Leqranın ona və Nərimanova (surətlərini isə G.Çiçerinlə Q.Orconikidzeyə) ünvanladığı teleqramda (22.VI.1921), ciddi qınağa məruz qalmışdı. Rus diplomatı M.Hüseynovdan müvafiq fəaliyyətini ayrılıqda aparmağı deyil, digər sovet respublikaları ilə əlaqələndirməyi və RSFSR-in səlahiyyətli nümayəndələrinin xəbəri olmadan belə işləri görməməyi "xahiş etmişdi".

Nəhayət, artıq TBMM hökumətinin Xarici İşlər komissarı vəzifəsində çalışan Y.Kamal bəyin növbəti notası (29.VIII.1921) və M.Hüseynovun cavabına (4.XI.1921), habelə onun Y.Kamal bəyə və Ermənistan XXİK-i A.Mravyana teleqramlarına (21.IX.1921) əsasən konfransın Qarsda keçirilməsi razılaşdırıldı. Onun açılış tarixi (26.IX.1921) də

müəyyənləşdirildi.

AK(b)P MK Siyasi Bürosunun qərarı (26.VIII.1921) ilə B.Şahtaxtınski Azərbaycan SSR-in Qars konfransındakı nümayəndəsi təyin olundu (Yeri gəlmişkən, bu dövrdə Qarsda Azərbaycan SSR-in konsulluğu da (Hacıbəyli) vardı).

Qars və ya birinci Güney Qafqaz-Türkiyə konfransında (26.IX –13.X.1921) Rusiya vasitəçi statusu ilə iştirak edirdi və Latviyadakı səlahiyyətli nümayəndəsi Y.Qanetski ilə təmsil olunmuşdu. Rəsmi nümayəndə heyətlərinə K.Qarabəkir paşa (TBMM hökuməti), B.Şahtaxtınski (Azərbaycan), Ş.Eliava (Gürcüstan) və A.Mravyan (Ermənistan) başçılıq edirdilər (İnqilabi Türkiyənin Azərbaycan SSR-dəki səlahiyyətli nümayəndəsi M.Şövkət bəy də konfransa qatılmışdı). Konfrans öz işinə K.Qarabəkir paşanın açılış nitqi ilə başladı.

Konfransın iclaslarının protokolları və stenoqramlarının təhlili göstərir ki, burada da danışıqlar çox gərgin şəraitdə keçmişdi. Tərəflər bir sıra mülahizə və təkliflər irəli sürmüşdülər. Üç məsələ (məqam) konfransda daha ciddi mübahisələr doğurdu:

1. Türkiyənin Güney Qafqaz respublikaları ilə vahid müqavilə, yoxsa əlahiddə (separat) sazişlər bağlaması. **2.** Bağlanacaq müqavilənin Türkiyə varinatı (layihəsi). **3.** Cənubi Qafqazın üç sovet respublikasının, konfransda müzakirələri vacib sayılan məsələlərlə bağlı, TBMM hökumətinə Memorandumu.

Birinci məsələ K.Qarabəkir paşa tərəfindən gündəmə gətirildi. Türkiyə tərəfi, özünün ümumi müqaviləylə razılaşdığına dair,az öncəki bəyanatı (14.VI.1921) ilə uzlaşmayan təkliflə çıxış etdi (Əslində prinsipial və israrlı mövqeyini təkrarladı). Sovet respublikalarının RSFSR tərəfindən yaradılan və yönəldilən "vahid cəbhəsini" dağıtmaq məqsədilə 3-cü

iclasda (28.IX.1921) müqavilələrin ayrılıqda bağlanmasına razılıq verilməsi istənildi.

Bu təklif-mövqe K.Qarabəkir tərəfindən belə əsaslandırıldı: RSFSR hökuməti Cənubi Qafqaz respublikalarının müstəqilliyini tanıdığını bildirir və buna görə də biz onlarla suveren dövlətlər kimi ayrıca müqavilələr bağlamaq istəyirik.

Kamalçı Türkiyə diplomatiyasının bu gedişi Lenin Rusiyası təmsilçisinin kəskin etirazı ilə toqquşdu. RSFSR-in konfransda vasitəçi statusunda iştirakı əslində bir görüntü idi. Əksinə, o, danışıqlarda həlliedici rol oynayırdı. Bunu elə Y.Qanetskinin digər üç sovet respublikasının "tapşırığı və onların adından" etdiyi çıxış da yetərincə isbatlayır. O, vahid müqaviləyə dair məlum sovet (rus) mövqeyində israr edərək aşağıdakı "dəlilləri" önə çəkmişdi:

İşin sürətləndirilməsi; separat müqavilələrin onları imzalayan respublikaların bir-birilərinin işlərinə qarışmalarına imkan verməsi; Moskva müqaviləsindən sonra Cənubi Qafqazda durumun dəyişməsi və üç respublikanın, qardaş (?! – İ.M.) xalqın böyük birlik hissini əsas tutaraq bu müddətdə sıx siyasi mərkəz yaratması; üç respublikanın Türkiyə ilə vahid müqaviləni sevinclə qarşılaması və ona TBMM hökumətilə möhkəm ittifaq kimi yanaşması; vahid müqavilənin Güney Qafqazın və Türkiyənin ümumi düşməninə qarşı mübarizəsinə yeni imkanlar açması; bu müqavilə ilə həll ediləcək siyasi və iqtisadi məsələlərin həmin respublikaların hər hansı biri tərəfindən ayrılıqda deyil, haqqında danışılan siyasi mərkəzlər vasitəsilə çözülməsi və s.

Q.Orconikidze bununla əlaqədar olaraq yazırdı ki, nümayəndə heyətimiz Qafbüronun direktivinə uyğun olaraq Türkiyəyə qətiyyətlə bunları çatdırdı: Güney Qafqazın bütün respublikaları ilə birlikdə danışıqlar aparılması və vahid sülh müqaviləsinin bağlanması istənilir.

K.Qarabəkir paşa konfransda yaşanan bu siyasi gərginliklə bağlı TBMM hökumətilə məsləhətləşmələr apardı. Sonra isə 4-cü iclasda yenidən, ancaq bu dəfə fərqli formada – yumşaldılmış tərzdə separat müqavilələrə dair diskussiyanı davam etdirməyə cəhd göstərdi. O, müqaviləni iki hissəyə ayırmağı lazım bildi: **1-cisi,** bütün respublikaları əhatə edən ümumi maddələr və **2-cisi,** ayrıca respublikalar üzrə ərazi və iqtisadi maddələr.

Belə olduqda sovet diplomatiyası Azərbaycan nümayəndə heyətinin qabağa verilməsi taktikasını seçdi və bununla da həmin məsələnin müzakirəsini yekunlaşdırmış oldu. RSFSR-in mövqeyini nəinki təkrarlayan, hətta ondan da xeyli irəli gedən B.Şahtaxtinski bunları söylədi:

"Güney Qafqaz respublikaları ilə Türkiyə arasında vahid müqavilənin bağlanması onlar üçün qarşılıqlı surətdə faydalıdır və inqilabi zərurət bunu tələb edir; həmin respublikalar iqtisadi, siyasi və hərbi cəhətdən birləşmişlər, onlar müstəqil vahiddirlər və aralarında ən ciddi sərhədlər mövcuddur (fikirdəki ziddiyyət gözönündədir – İ.M.): Azərbaycan Respublikası adından (?! – İ.M.) müqavilənin ümumi olmasında və bu sazişdə xüsusi (hər bir respublikaya aid ayrıca – İ.M.) fəsillərin olmamasını təklif edirəm.

Bu və digər cəhətləri nəzərə alan K.Qarabəkir paşa "Cənubi Qafqazdakı yeni şəraitdən xəbərsiz olduğunu və üç respublika arasında yaranan siyasi – iqtisadi birlikdən hədsiz məmnunluğunu" söyləmiş, həmin birliyi həm də "indiki zamanda Şərqdə Türkiyə üçün bir dəstək kimi" dəyərləndirərək öz hökumətinin mövqeyindən diplomatcasına vaz keçmişdi. Və, elə həmin 4-cü iclasda da, vahid müqavilə təklifi ilə razılaşmışdı.

Sovet tərəfi isə eyni gündə (3.X.1921) ərsəyə gətirilən iki sənəddə – **a)** Güney Qafqaz respublikalarının TBMM hökumətinə müraciətində və **b)** Y. Qanetski tərəfindən məlumatlandırılan G.Çiçerinin Y.Kamal bəyə notasında – öz mövqeyini bir daha təkrarladı: həmin respublikaların arasında sıx siyasi-iqtisadi ittifaq vardır və onlar özlərinə aid müxtəlif çoxşaxəli məsələləri birlikdə həll edirlər.

İkinci məqam bağlanacaq müqavilənin Türkiyə variantı (layihəsi) ilə əlaqədar idi. Həmin layihənin bəzi şərtləri və cəhətləri RSFSR-i əsla qane etmirdi:

- Türkiyənin Moskva müqaviləsi ilə müəyyənləşdirilən sərhəd xəttinə dair hər hansı bir dəqiqləşdirmə aparılmasından inadla imtina etməsi;
- Bakıdan xeyli (qeyri-müəyyən həcmdə) neftin və onun məhsullarının Türkiyəyə çatdırılması, yəni sonuncunun istəyinə müvafiq olaraq Qarsa, yaxud da Batuma qədər Azərbaycan tərəfindən gətirilməsi (7-ci maddə);
- Azərbaycan və digər iki sovet respublikasının bunları öhdələrinə götürmələri (13-cü maddə): Türkiyə təbəələrinin vaxtilə həmin ölkələrə satmaq üçün gətirdikləri və aparmaq məqsədilə oralarda aldıqları, amma inqilab nəticəsində müsadirə olunan malların qaytarılması; bu mümkün olmadıqda isə, həmin malların dəyərinin türk lirəsi ilə ödənilməsi və ya həmin məbləğdə mallarla əvəzlənməsi, habelə onların hər cür rüsumlarsız və xərclərsiz aparılmasına dair sənədlər verilməsi;
- Azərbaycan və başqa respublikaların Türkiyə vətəndaşlarına məxsus daşınmaz əmlakı milliləşdirilməməyə, onların daşınan mülkiyyətini müsadirə etməməyə və zəbt olunaraq ümumiləşdirilənlərini isə sahiblərinə qaytarmağa dair təəhhüd qəbul etməsi (17-ci maddə).

Üçüncü məsələ (məqam) isə Güney Qafqaz respublikalarının bu danışıqlarda müzakirələri zəruri hesab edilən məsələlərə dair Ankara hökumətinə Memorandumu ilə əlaqə-

dar ortaya çıxdı. Memorandumun 1-ci bəndinin "d" hissəsi Azərbaycanın ərazi bütövlüyü və digər maraqları baxımından, bir tərəfdən ədalətli, digər yandan isə, təhlükəli idi. Orada yazılırdı: "Sərhədlərinin Ermənistan SSR-in xeyrinə bəzi düzəlişləri ilə Azərbaycan SSR nəzdində ayrıca muxtar Naxçıvan Sovet respublikasının yaradılması".

Bununla bağlı belə bir vacib cəhətə də toxunmaq lazımdır. Azərbaycan və Ermənistan nümayəndələri hələ bu konfransadək – Tiflisdə Naxçıvan məsələsini müzakirə edərək müəyyən razılığa gəlmişdilər. Bu hesabla da Türkiyəni Qars konfransında fakt qarşısında qoyaraq artıq problemin həllinin onun tərəfindən hüquqi cəhətdən tanınmasına çalışmaq niyyətində olmuşdular. Konfransdakı bir çıxışdan da bəlli olur ki, onlar bununla Türkiyə təmsilçilərinin də daxil ediləcəyi qarışıq tərkibli komissiyanın bölgəyə göndərilməsi imkanını aradan qaldırmaq istəmişdilər.

Beləliklə də, Naxçıvan məsələsini Ankara hökumətinin iştirakı olmadan da yoluna qoyula biləcək bir daxili işə çevirmək məqsədlərini güdmüşdülər. Və, təbii ki, bu cür hallar da Türkiyə tərəfinin ciddi etirazına səbəb olmuş, qızgın mübahisələr yaratmışdı.

Xeyli çəkən müzakirə və çəkişmələrin sonunda 20 maddədən və 3 əlavədən ibarət Qars müqaviləsi bağlandı (13.X.1921). Türkiyə ilə Güney Qafqaz respublikaları arasındakı "dostluq haqqında" müqaviləni, Rusiyanın da iştirakı ilə, rəsmi nümayəndə heyətlərinin başçıları imzaladılar. Bu müqavilənin **5-ci maddəsi və 3-cü əlavəsi** Naxçıvanın Azərbaycana mənsubiyyətini bir daha təsdiqlədi və onun sərhədlərini qəti olaraq müəyyənləşdirdi.

Həmin maddədə yazılırdı ki, Naxçıvan vilayəti bu müqavilənin 3-cü əlavəsində müəyyən olunan sərhədlərdə Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil edir (Olduqca

mühüm bir məsələ. Göründüyü kimi Moskva müqaviləsinin Naxçıvana aid olan 3-cü maddəsinin müəyyən hissəsi, yəni Azərbaycanın bu protektoratı başqa bir dövlətə güzəştə gedə bilməməsi Qars müqaviləsində öz əksini tapmamışdı).

"Naxçıvanın ərazisi" başlıqlı 3-cü əlavədə bölgənin sərhədləri aşağıdakı kimi müəyyənləşdirilirdi: Urmiya kəndi, sonra düz xətlə Arazdəyən stansiyasına (onu Ermənistan SSR-də saxlamaqla), oradan qərbi Daşburun dağına və daha sonra suayrıcı xətlə şərqi Daşburun dağı və Cəhənnəmdərəsi çayından keçməklə "Bulaq"dan cənuba, Bağarsıq dağı suayrıcıları xəttilə və buradan keçmiş İrəvan, Şərur-Dərələyəz qəzalarının inzibati sərhədilə 6625 yüksəkliyindən Kömürlüdağa və habelə 3080 – Sayatdağ yüksəkliklərilə Qurtqulaq kəndi, Həməsür dağı, 8022 yüksəkliyi, Küküdağ və keçmiş Naxçıvan dairəsinin şərq inzibati sərhədi.

Qars müqaviləsinin bu maddəsilə əlaqədar olaraq qeyd etmək lazımdır ki, Azərbaycan SSR-in Türkiyədəki diplomatik nümayəndəliyinin Məlumat şöbəsinin bülletenində verilən "Naxçıvan dairəsinin dövlət statusu" başlıqlı materialdan da göründüyü kimi, Qars konfransı bu mahalın gələcək siyasi-hüquqi statusunu müəyyənləşdirirdi.

B.Şahtaxtınskinin bununla bağlı elan edilən bəyanatında ("Jurnal D'Orian", 10.XI.1921) deyilirdi ki, "Naxçıvan vilayəti "Muxtar Xalq Sovetləri respublikaları" sırasına daxil edilir və bununla yanaşı Azərbaycanın himayəsi altına keçir; gənc respublikanın özünün XKS-i, Azərbaycanın isə yeni dövlətdə (?! – İ.M.) nümayəndəsi olacaqdır".

Müqavilənin bəzi digər maddələri də Azərbaycanın bilavasitə maraqları baxımından diqqətçəkici sayıla bilər. Məsələn, **14-cü maddə**də deyilirdi ki, tərəflər bu müqavilə imzalandığı gündən keçən altı ay ərzində 1918-1920-ci illər müharibəsinin qaçqınlarına aid xüsusi sazişlər bağlamağı öhdə-

lərinə götürürlər. **20-ci maddə** müqavilənin ratifikasiyasını (15-16, 18 və 19-cu maddələrin isə dərhal qüvvəyə minməsini) və təsdiqnamələrin tezliklə İrəvanda mübadilə edilməsini nəzərdə tuturdu.

Müqavilənin ən önəmli məziyyətlərindən birini də onun müddətsiz olaraq qüvvədə saxlanılması təşkil edirdi. Müqavilənin təsdiqlənməsi və müddətsizliyinin vurğulanması heç də təsadüfi deyildir. Buna görə də istər Qars müqaviləsi ilə bağlı, istərsə də ümumiyyətlə Azərbaycan-Türkiyə münasibətlərinin o dövrki real mənzərəsini açıqlamaq üçün müəyyən məsələlərin də burada təhlil olunmasına ehtiyac vardır.

Birincisi, Qars danışıqları və müqaviləsi, onun ayrı-ayrı maddələri Ermənistan və diaspora ermənilər tərəfindən birmənalı qəbul olunmadı. Əgər "Sovet Ermənistanı" qəzeti "Qars sülh konfransı" adlı yazısında (27.IX.1921) bu danışıqları Ermənistanın müstəqilliyini möhkəmləndirə biləcək bir akt kimi qiymətləndirirdisə, əks mövqedə dayanan qüvvələr və onların mətbu orqanları məsələyə başqa səpkidən yanaşırdılar.

Təbrizdə çıxan "Hayk" qəzetinin "Pərdə götürülmüşdür" adlı baş məqaləsi (13.XI.1921) bu baxımdan olduqca maraqlıdır. Orada yazılırdı ki, şanlı Qızıl ordunun komandanları Sovet federasiyasının tərkibinə daxil olan Ermənistanın mübahisəsiz hissəsini təşkil edən 1914-cü il sərhədlərində belə dayana və hətta balaca Naxçıvanı kamalçıların caynaqlarından qopara bilmədilər.

Məqalədə Qars müqaviləsinin nəinki Ermənistana, habelə Rusiyanın özünə də heç nə vermədiyi və sanki türk qoşunlarının təntənə ilə Moskvaya daxil olaraq məğlub Rusiyaya öz iradələrini diqtə etdirmələri təsiri bağışladığı göstərilirdi. Bu yazı belə bir sonluqla bitirdi: erməni xalqının "xilaskar Rusiyaya" bəslədiyi ümidlər sadəcə yalandır və Rusiya digər imperialist dövlətlərindən özünün fərsizliyi və kütlüyü ilə fərqlənir; Ermənistan da onun qurbanıdır.

Daşnakların orqanı "Çakatamart"ın "Ermənistanda vəziyyət" adlı yazısında (6.XII.1921) Qars konfransının qərarlarından yalnız azərbaycanlıların razı qaldıqları bildirilirdi. Bütün bunlar, sözsüz, daşnak təbliğatı idi və tarixin sübuta yetirdiyi kimi, Rusiya zamanın və şəraitin, habelə öz siyasi məqsədlərinin imkan verdiyi səviyyədə Ermənistan üçün çox şey eləmişdi və edirdi də.

İkincisi, Qars müqaviləsinin nəticələrindən narazı qalan və onun ermənilər üçün xeyirsiz olmasından (Naxçıvan bölgəsi, habelə digər ərazilərin ələ keçirilə bilməməsi və s.) şikayətlənən Ermənistandakı müəyyən dairələr və diaspora sakitləşməyərək başqa arxalar, vasitə və üsullar axtarışına girişmişdilər. Onlar hələ Moskva və Qars müqavilələri arasındakı bir dövrdə Millətlər Liqası cəmiyyətlərinin Cenevrədə keçirilən qurultayının (VI.1921) belə bir qətnamə qəbul etməsinə nail oldular: erməni millətinin müdafiəsi və inkişafı beynəlxalq ədalətin borcudur və erməni məsələsini ədalətlə həll etmədən Şərqdə sülh yaratmaq mümkün deyildir.

Türkiyənin "Vəqt" qəzetinin (30.X.1921) belə bir məlumatından aydın olur ki, "erməni məsələsi" Vaşinqton konfransının (12.XI.1921-6.II.1922) gündəliyinə daxil edilmədiyindən Amerika ermənilər, ümumiyyətlə, Yaxın Şərq və o cümlədən də, həmin problemin orada müzakirəsinə çalışırdılar. Erməni milli demokratlarının orqanı "Joqovurdi Dzaiyn" qəzetində (22.XII.1921) aşağıdakı maraqlı məlumatlar dərc olunmuşdu:

1921-ci il noyabrın 21-də erməni milli demokratlarının və gənc hnçakçıların nümayəndələri (B.Kurkçan, V.Malkolm – Roma və Londondakı keçmiş İran səfiri Mirzə Mül-

kümxan Mamikonyanın oğlu, Amerika Ermənilər İttifaqı Siyasi şöbəsinin üzvləri və katibi Q.Papazyan) "Ermənistan-Amerika komitəsi"nin katibi Montqomerinin vasitəçiliyi və həmin komitənin sədrinin müşayiətilə ABŞ prezidenti U.Hardinqin qəbuluna (21.XI.1921) gedərək Türkiyə Ermənistanının azad olunmasını tələb etmişdilər. Elə həmin gün Dövlət katibi A.Brianın qəbulunda olan daşnakların nümayəndələri isə Rusiya Ermənistanının azad edilməsi tələbini qoymuşdular.

Hər iki görüş zamanı gedən müzakirələrdən bəlli olur ki, ermənilər Moskva və Qars müqavilələrinə məhəl qoymayaraq öz qonşularına, o cümlədən də Azərbaycana və onun Naxçıvan bölgəsinə dair ərazi iddialarını təkrarən müdafiə etmişdilər. Qars konfransından sonra qaldırılan "erməni məsələsi" ilə bağlı Atatürkün də bir fikrini burada xatırlatmaq yerinə düşərdi.

O, çıxışlarından birində (1.III.1922) demişdi ki, bizim Şərqdəki faktiki vəziyyətimiz Qars müqaviləsilə hüquqi forma almışdır və bu müqavilə Sevr müqaviləsinin tətbiqolunmazlığını sübut edən amillərdən biridir; "erməni məsələsi" deyilən bu məsələ isə özünün ən düzgün həllini Qars müqaviləsində tapmışdır (Yeri gəlmişkən, ermənilərin hədsiz və eyni zamanda imkanları ilə əsla uzlaşmayan iddiaları Qərbin müəyyən dairələrində də birmənalı qarşılanmırdı. Məsələn, vaxtilə Ermənistana ABŞ-ın Ali Komissarı təyin olunan polkovnik U.Haskel erməni xalqını "peşəkar dilənçi" kimi səciyyələndirərək yazırdı ki, ermənilər oğru, yalançı, tamamilə alçalmış, özlərinə yardım göstərməyi bacarmayan və bir-birilərinə kömək etmək istəməyən (burada polkovniklə razılaşmaq mümkünsüzdür – İ.M.) və hər cür minnətdarlıq duyğularından yoxsul olan kimsələrdirlər; erməni xalqı arasında yurd duyğusu olmadığı kimi, ölkəni idarə etmək qabi-

liyyəti, inkişaf üçün pul və mənbə də yoxdur; qaçqınlar üçün açılan xəstəxanalardakı naxoşlara muzdla baxan ermənilər dava-dərmanları oğurlayaraq satırlar və s. İngiltərənin Xarici İşlər naziri Lord C.Kerzon erməni liderlərini "dəyərsiz kimsələr" adlandırırdı. Həmin nazirliyin müşaviri Hardinq isə ermənilərin xarakterini yaxşı bildiyindən onların hərəkətlərinə təəccüblənmədiyini söyləmişdi).

Üçüncüsü, ermənilərin və onları müdafiə edən Rusiyanın siyasi-diplomatiya dairələrinin təqsiri üzündən Qars müqaviləsinin təsdiqi xeyli ləngidi və bu xüsusda kəskin mübahisələr baş verdi. Çünki müqaviləni bir tərəfdən Türkiyənin, digər yandan isə Azərbaycan, Ermənistan və Gürcüstanın imzalamalarına baxmayaraq sonuncular Rusiyanın diqtəsi ilə onun vahid müqaviləsi kimi Güney Qafqaz respublikalarının ittifaqı (əslində hələ ki, tam mövcud olmayan siyasi qurum) tərəfindən təsdiqlənməsində israr etdilər.

İ.Əbilovun Y.Kamal bəyə bu barədə çatdırdığı xəbər naziri xeyli heyrətləndirdi. Bununla əlaqədar çoxsaylı diplomatik yazışmalar getdi və söhbətlər aparıldı. Həmin məsələnin mahiyyətinin açıqlanması baxımından aşağıda qeyd olunan görüş və söhbətlərin əhəmiyyəti böyükdür: Ukraynanın Türkiyəyə səlahiyyətli nümayəndə olaraq göndərdiyi M.Frunze və İ.Əbilovun Atatürklə birinci (25.XII.1921) və ikinci (4.I.1921) görüşləri, habelə İ.Əbilovun Y.Kamal bəylə söhbəti (26.I.1922) və s.

Atatürklə birinci görüş-söhbətdə M.Frunze Türkiyənin sovet respublikalarına münasibətdəki səmimiyyətinə RSFSR rəhbərliyində şübhələr yarandığını söylədikdə, Mustafa Kamal paşa bunun üçün heç bir əsas olmadığını bildirmişdi. Atatürklə ikinci söhbətə qatılan Y.Kamal bəy isə hələ Moskva danışıqlarının gedişində G.Çiçerinin Şərqə deyil, Qərbə rəğbət bəslədiyini duyduğunu və türklərlə danışıqlara gir-

mək istəmədiyini, bəlkə də bunu erməni L.Qaraxanın təsirilə etdiyini söyləmişdi.

Y.Kamal bəyin bu açıqlamasına M.Frunzenin yanaşması da diqqətçəkici idi: "Çiçerin 20 ildən artıq Qərbi Avropada yaşadığından ola bilsin ki, Qərbə rəğbət bəsləyir. Lakin biz bunu hiss etmirik. O, Şərq məsələsinə düzgün yanaşır. Qaraxan isə Çiçerinin siyasətinə təsir göstərə bilməz, o, böyük xadim deyildir".

Türkiyənin baş diplomatı İ.Əbilovla görüşündə isə Qars müqaviləsinin təsdiqinin ləngiməsindən rahatsız olduğunu söyləmişdi. Həmçinin müqavilənin federasiya həyata keçirildikdən sonra Ümumittifaq soveti tərəfindən təsdiqlənməsi ideyasına qarşı çıxmış və bununla bağlı da özünün aşağıdakı dəlillərini gətirmişdi:

a) Qars konfransı dövründə federasiya və buna müvafiq olaraq da ondan ümumi nümayəndələr yox idi;

b) RSFSR ilə müqavilə bağlamaq üçün Moskvaya gedərkən biz yolüstü Azərbaycanla, sonra isə Gürcüstanla və, nəhayət, Ermənistanla müqavilələr bağlamaq niyyətində olsaq da, onların ucbatından bu alınmadı;

c) Moskva konfransında gələcəkdə respublikaların hər birilə ayrılıqda deyil, eyni zamanda hər üçü ilə birlikdə müqavilə imzalamağa razılaşmaq məcburiyyətində qaldıq;

ç) lakin Qarsda biz ittifaq federasiyasının ümumi nümayəndələrilə yox, Azərbaycan, Gürcüstan və Ermənistanın müstəqil təmsilçiləriylə ayrıca iş görmüşük. Buna görə də müqavilə hər bir respublika ilə ayrı-ayrılıqda təsdiq olunmalıdır. Çünki hüquqi nöqteyi-nəzərdən İttifaq Soveti tərəfindən ümumi təsdiqlənmə, düzgün ola və bizim üçün məqbul sayıla bilməz.

Y.Kamal bəy müqaviləni təsdiq olunmaq üçün artıq TBMM-ə göndərdiyini bildirmiş və onun hər bir respublika

tərəfindən ayrılıqda, həm də tezliklə təsdiqlənməsinə təsir göstərməyi İ.Əbilovdan xahiş etmişdi. İ.Əbilov sovet diplomatiyasının mövqeyində duraraq müqavilənin İttifaq Soveti, yaxud da ayrı-ayrı respublikalar tərəfindən təsdiqlənməsi arasında elə bir fərq olmadığını söyləmişdi. Həm də üç respublikanın Qars konfransında bir tərəf kimi çıxış etdiyini bildirmişdi. Diplomatik nümayəndə bunlara əsasən müqavilənin İttifaq Soveti tərəfindən ümumi qaydada təsdiqini də, onun respublikalarda ayrılıqda ratifikasiyadan keçməsi kimi düzgün saymışdı.

Belə olduqda Y.Kamal bəy, özünün də qeyd etdiyi kimi, dostcasına və açıqcasına bəzi fikirlər söyləmək və bir sıra incə məqamları aşkarlamaq məcburiyyətində qalmışdı. O, İ.Əbilova əlavə olaraq aşağıdakı daha önəmli dəlilləri açıqlamışdı: Müqavilənin Azərbaycan və Gürcüstan tərəfindən təsdiqlənməsi bizim üçün xüsusi tələsiklik və zəruriyyət təşkil etmir, bizi çox maraqlandırmır. Lakin onun Ermənistan tərəfindən ayrılıqla imzalanmasına gəldikdə isə bu bizim üçün fövqəladə dərəcədə mühümdür və bizi çox maraqlandırır.

Y.Kamal bəy bu kimi diplomatik-siyasi mülahizələri də İ.Əbilovun diqqətinə yetirmişdi: Şərq məsələsinə dair konfransa (Lozanna nəzərdə tutulur-İ.M.) Türkiyənin də dəvət olunacağı güman edilir. Erməni xadimlərinin Qərbdə apardıqları işin - təşviqatın nəticəsində həmin konfransda İngiltərə və ya Amerika tərəfindən "erməni məsələsi" də qaldırıla bilər. Əgər biz, bir yandan daşnaklarla, digər tərəfdən isə, erməni kommunistlərilə müqavilələrə malik olarıqsa, onda öz maraqlarımızı müdafiə edə bilərik (Bu həm də elə Azərbaycanın müəyyən, o cümlədən də Naxçıvanla əlaqədar mənafelərinin müdafiəsi demək idi - İ.M.). Əgər Qars müqaviləsi ayrılıqda deyil, İttifaq Soveti tərəfindən təsdiqlənərdisə, onda konfransda həmin müqavilənin erməni xalqı-

nın iradəsi olmadığı, digər iki respublikanın öz iradəsini ona zorla qəbul etdirmək yolu ilə baş tutduğu söylənilə bilərdi.

Sonda Y.Kamal bəy müqaviləni Ermənistanın ayrıca tərəf kimi təsdiqləməsinin zəruriliyini bir daha vurğulamışdı. Həm də səfirdən N.Nərimanovla əlaqə yaradaraq müqavilənin hər bir respublika tərəfindən ayrılıqda təsdiq olunmasına və işin sürətləndirilməsinə təsir göstərilməsini istəmişdi. İ.Əbilov isə bu xahişi yerinə yetirəcəyinə söz vermişdi.

Qars müqaviləsi TBMM tərəfindən 1922-ci il martın 17-də 172 səslə təsdiqlənmişdi. Digər tərəflərə gəldikdə isə, müqavilə 1922-ci il martın 3-də Azərbaycan, martın 20-də Ermənistan, iyunun 14-də Gürcüstan Mərkəzi İcraiyyə komitələrində ratifikasiya edilmişdi. Tezliklə (11.IX.1922) İrəvanda təsdiqnamə fərmanlarının mübadiləsi keçirilmişdi. Müqavilə elə həmin gündən də qüvvəyə minmişdi və halhazırda da qüvvədədir. Təsdiqnamələrin mübadiləsi prosedurunda Azərbaycanı H.Sultanov təmsil etmişdi.

Dördüncüsü, əhalisinin qətiyyətli mövqeyi və Türkiyənin səmərəli diplomatik fəaliyyəti nəticəsində Naxçıvan bölgəsinin ərazi mənsubiyyəti məsələsi Moskva və Qars müqavilələrilə Azərbaycan üçün qanuni və ədalətli qaydada həll olundu. M.Rəsulzadə bununla əlaqədar olaraq demişdi ki, Azərbaycan kommunistləri tərəfindən Ermənistan şuralarına hədiyyə olunan Naxçıvan vilayəti Moskva müahidəsilə muxtar bir vilayət kimi və üçüncü bir hökumətə bəxşiş edilməmək şərtilə Azərbaycanın himayəsinə verilmişdi.

O daha sonra yazırdı ki, Ermənistan cümhuriyyəti bolşeviklər tərəfindən istila edildikdə Azərbaycan bolşevik hökumətinin rəisi N.Nərimanov Naxçıvan qəzasını Ermənistana hədiyyə etmişdi. Vaxtı ilə ingilislərlə amerikanlar da Naxçıvanı ermənilərə tabe etmək istəmiş və bu xüsusda təşəbbüs göstərmiş, fəqət, buna müvəffəq ola bilməmişdilər. İki ildən

artıq əlində silah olaraq Ermənistana ilhaq əleyhinə cəsurluqla savaşan naxçıvanlılar bu dəfə də israr etdilər. Nərimanın bəxşişi quru sözdən ibarət olub qaldı. Ermənistan cümhuriyyəti Naxçıvan "hədiyyə"sini almaq üçün iyicə qan tökməli idi. Naxçıvanlılar isə hər tərəfə müraciət edərək Ermənistana tabe olmaq istəmədiklərini bildirirdilər. Bu məsələ Türkiyə nümayəndə heyətinin də nəzər-diqqətini cəlb eləmişdi.

Tezliklə bu müqavilələrin Naxçıvan bölgəsinə dair maddələrinin də reallaşdırılmasına başlanıldı. Çünki Moskva müqaviləsi imzalandıqdan sonra Naxçıvan bölgəsi Azərbaycan SSR-in muxtar hissəsi kimi idarə olunsa da, bu məsələ hüquqi baxımdan tam rəsmiləşdirilməmişdi. Buna görə də AK(b)P MK-nın təşəbbüsü ilə Naxçıvanın muxtariyyəti haqqında məsələ RK(b)P MK Siyasi Bürosunun iclasında (XI.1922) xüsusi olaraq müzakirə edildi. Həmin iclasın qərarı ilə bölgədə muxtar respublika yaradılması qərara alındı.

Daha sonra isə Güney Qafqaz sovetlərinin I qurultayı (XII.1922) Naxçıvan mahalının Azərbaycan SSR tərkibində muxtariyyət təşkil etməsinə dair qərar çıxardı (Bu prosesin davamı dərsliyin IV bölümündə şərh olunur). Belə bir önəmli məqam da ayrıca qeyd olunasıdır ki, Naxçıvan muxtar qurumu 20-ci illərdə geniş hüquq və səlahiyyətlərə malik olmuşdu.

Belə ki, onun Təbriz, Maku, Xoyda konsulluqları və Bakı, Tiflis, İrəvanda isə nümayəndəlikləri, habelə RSFSR-in Qarsdakı konsulluğu yanında xüsusi müvəkkili fəaliyyət göstərmişdilər. Güney Qafqaz Xalq komissarlıqlarının Azərbaycan SSR-dəki müvəkkilləri Naxçıvanda nümayəndəliklər yaratmışdılar. Orada 1924-cü ilin iyulunadək Türkiyənin hərbi nümayəndəliyi və 1938-ci ilədək isə İranın konsulluğu olmuşdu.

Qars müqaviləsi imzalandıqdan sonra onun ayrı-ayrı maddələrində nəzərdə tutulanların həyata keçirilməsi sahəsində müəyyən işlər görüldü. Əsas diqqət isə iqtisadi-maliyyə, konsulluq fəaliyyətlərinin təşkili və s. ilə əlaqədar məsələlərin həllinə yönəldildi. Bu məqsədlə də, həmin müqavilənin 18-ci maddəsinə əsasən, Güney Qafqaz respublikaları ilə Türkiyə arasında ikinci konfrans (Tiflis, 15.II.-9.VII.1922) keçirildi. AK(b)P MK RH-nin qərarı ilə (10.II.1922) B.Şahtaxtınski və T.Əliyev Azərbaycanı həmin konfransda təmsil etdilər. Diplomatik ədəbiyyatda iqtisadi konfrans kimi səciyyələndirilən həmin toplantıda maliyyə-ticarət, dəmir yolları, konsulluqlar, qarşılıqlı hüquqi yardım və s. məsələlərə dair bir sıra konvensiyalar imzalandı.

Konfrans Güney Qafqaz-Türkiyə sərhədlərinin dəqiqləşdirilməsi zamanı ortaya çıxa biləcək mübahisələri də mümkün sayırdı (Yeri gəlmişkən, bu və sonrakı digər "canıyananlıq"lar gələcəkdə Rusiyanın dəstəyilə Qars müqavilələsinin Ermənistanın xeyrinə pozulmasına və Azərbaycanın ərazi bütövlüyünə yeni (növbəti) qəsdlər edilməsinə münbit şərait yaratdı).

Moskva və Qars müqavilələriylə öz məqsədlərinə çatan, Türkiyə ilə bağlı istədiklərinə nail olan Rusiya öz planlarına uyğun surətdə hələ də ona yardım göstərirdi. Başlıca olaraq maliyyə vəsaiti, hərbi sursat, neft və s. göndərilməsi ilə həyata keçirilən bu işdə Azərbaycan da imkanları daxilində iştirak edirdi. Bunda isə əsas ağırlıq onun Ankaradakı səlahiyyətli nümayəndəliyinin (İ.Əbilovun) üzərinə düşmüşdü.

Ancaq hələ Moskva müqaviləsindən az sonra Azərbaycandan Türkiyəyə neft məhsullarının ilk hissəsi göndərilmişdi. M.Hüseynovun K.Qarabəkir paşaya ünvanladığı telyazısından da bəlli olur ki, Sovet Azərbaycanından qardaş Türkiyəyə ilk yardım olaraq üst-üstə 40 sistern neft və

neft məhsulları yola salınmışdı. Bunların ardınca daha 62 sistern neft göndərilmiş (V.1921) və yetimxanaların ehtiyacları üçün hər ay 3 vaqon kerosin yola salınması vəd olunmuşdu. TBMM-in Bakıdakı səlahiyyətli nümayəndəsinin müraciətini (7.III.1921) nəzərə alan Azərbaycan hökuməti qaytarılmaq şərtilə Türkiyəyə 1 mln. qızıl rubl vermişdi.

Azərbaycan SSR-in inqilabi Türkiyəyə yardım göstərməsi məsələsi AK(b)P MK-nın xüsusi iclasında müzakirə edilmişdi. AK(b)P MK RH-nin qərarı (2.X.1922) ilə Anadolu yoxsullarına köməklik edilməsi zəruri sayılmış, Azərbaycan MİK-in nəzdində rəhbər işçilərdən ibarət komissiya yaradılmış və bu məsələni ətraflı işləyib hazırlamaq ona həvalə olunmuşdu.

Hətta Mustafa Kamal paşa S.Aralovla birlikdə İ.Əbilovu da birbaşa cəbhə xəttinə dəvət etmişdi. Bu xüsusi (qeyri-diplomatik) hal, bir yandan, Mustafa Kamal paşanın Ankarada xeyli müddət olmaması üzündən yığışıb qalan məsələlərin həlli ilə bağlı idi. Digər tərəfdən də, yeni Türkiyənin ordusu ilə yaxından tanış olmaq, onun ehtiyaclarını yerindəcə öyrənmək və s. kimi zərurətdən irəli gəlmişdi. Cəbhə xəttində olduqdan (III-IV.1922) sonra İ.Əbilov Türkiyəyə daha təsirli yardım göstərilməsi barədə Azərbaycan hökuməti qarşısında məsələ qaldırmışdı.

Arxiv sənədlərində və siyasi-diplomatik ədəbiyyatda İ.Əbilovun Qərb dövlətləri və şirkətlərinin Bakı neftinə dair planlarının pozulmasına dair fəaliyyəti barədə də məlumatlar vardır (Bu kimi işlər, RSFSR hökumətinin siyasətinə müvafiq olaraq və əslində onun tələbləri əsasında görülürdü).

Onun Fransanın Türkiyə vasitəsilə Abşeron neftinə yiyələnməyə çalışmasına dair yayılan xəbərlərlə ("Fiqaro", 6.V.1922), habelə Baş nazir R.Puankarenin ölkə parlamen-

tinin iclasında (31.III.1922) Azərbaycana aid siyasətlə bağlı söylədikləriylə əlaqədar səfirin Mustafa Kamal paşa ilə xüsusi olaraq görüşməsi də məlumdur. Görüş-söhbət zamanı inqilabi Türkiyənin lideri rəhbərlik etdiyi TBMM hökumətinin Azərbaycanla münasibətlərdə həmişə səmimi olmağa çalışdığını vurğulamış və fransızlarla danışıqlarda yayılan xəbərlərdə özünə yer alan məsələnin müzakirə edilmədiyini bildirmişdi.

Güney Qafqaz respublikalarının "xarici siyasət"lərini tamamilə öz nəzarətinə götürməyə müvəffəq olan Rusiya Azərbaycanın Türkiyədəki səlahiyyətli nümayəndəliyinin fəaliyyətini də xeyli məhdudlaşdırdı. S.Aralovun öz səlahiyyətlərinin icrasına başlaması bu prosesi daha da gücləndirdi və sürətləndirdi. G.Çiçerinin Ankaradakı Rusiya səfirliyinə Cənubi Qafqaz respublikalarının təmsilçiliklərinin "hamısını RSFSR-in səlahiyyətli nümayəndəliyinə tabe etmək haqqında" MK qərarına əməl olunması tapşırığı həmin prosesə daha bir təkan verdi.

İ.Əbilov bu qərarla əlaqədar məlumatlandırılmasını M.Hüseynovdan xahiş edərək (3.II.1922) onu "tamamilə artıq və qeyri-normal vəziyyət" yaradan hərəkət saymışdı. Habelə o, Azərbaycan və Rusiyanın Ankaradakı nümayəndəliklərinin onsuz da birgə fəaliyyət göstərdiklərini vurğulayırdı.

Bu kimi "etirazlar"a baxmayaraq Azərbaycan təmsilçiliyinə Rusiya diplomatiyası tərəfindən törədilən çətinliklər durmadan artırıldı. Bir müddət Gürcüstan və Ermənistanın da Ankaradakı səlahiyyətli nümayəndəsi olan İ.Əbilov ciddi problemlərlə, süni əngəllərlə üzləşdi. Maliyyə vəsaiti ayrılması sahəsindəki "simiclik", informasiya təminatına etinasızlıq, Rusiya XXİK-in hüdudlarsız müdaxiləsi və s. nümayəndəliyin işini əslində iflic etmişdi.

Hətta iş gəlib o yerə çatmışdı ki, İ.Əbilov məcburiyyət qarşısında qalaraq M.Hüseynova məktubunda (1.III.1922) "...vəsait olmadığından agentura fəaliyyətini..." genişləndirə bilmədiyini belə etiraf etmişdi (Sözgəlişi, RSFSR rəhbərliyinin təzyiqi ilə AK(b)P Qafqaz bürosu xarici ölkələrdəki səlahiyyətli nümayəndəliklərin işçilərinin maaşlarının və ştat vahidlərinin azaldılmasına dair qərar vermişdi).

Bütün bunlardan da aydın surətdə göründüyü kimi, Azərbaycanın Türkiyədəki səlahiyyətli nümayəndəliyi (ələlxüsus da İ.Əbilov özü) Rusiya üçün lazım olanları yetərincə etmişdilər və artıq onlara elə bir ehtiyac qalmamışdı. İ.Əbilovun bu, labüd acınacaqlı durumu, hələ səfirin sağlığında ikən, M.Rəsulzadə tərəfindən belə səciyyələndirilmişdi: Türkiyə əfkari-ümumiyyəsini çaşdırmaqdan (aldatmaqdan) başqa bir vəzifəsi olmayan bu, yeganə siyasi nümayəndənin əcayib bir taleyi vardı; o, dünən Azərbaycanı təmsil edirdi, indi Güney Qafqaz federasiyasını təmsil edir, sabah ehtimal ki, Rusiyanı təmsil edəcək, birisi gün isə mühəqqəq heç bir şeyi təmsil etməyəcəkdir.

Türkiyədə "Azərbaycan əleyhinə əksinqilabi iş aparan qüvvələrə" qarşı sərt davranışı ilə fərqlənən, səlahiyyətli nümayəndəliyi əslində bir siyasi-partiya (cəza) orqanına çevirən İ.Əbilovun özü tezliklə ciddi təzyiqlərlə üzləşdi. Öncə "yaxın keçmiş"inə, yəni köhnə menşevikliyinə, Cümhuriyyət dönəmində parlament üzvü olaraq "bolşeviklərin siyasətinə münasibətdə düzgün mövqe tutmamasına", habelə "şübhəli karyerist ünsür"lüyünə görə, 1921-ci ildəki "məşhur partiya təmizləmələri"nin qurbanı oldu.

Bu barədə hətta V.Leninə də məlumatlandıran (21.XII.1921) N.Nərimanov məsuliyyəti öz üzərinə götürərək İ.Əbilovun yenidən RK(b)P-yə bərpasına (23.XII.1921) nail oldu. Bununla həm də İ.Əbilovun səlahiyyətli nümayəndəlikdən geri

çağırılmaması məsələsi S.Kirovla razılaşdırıldı və o vəzifəsində saxlanıldı. Lakin az sonra onun özü təzyiqlərə tab gətirməyərək (ailə vəziyyətini və s. bəhanə edərək) əvəzlənməsini RSFSR-in Güney Qafqazdakı təmsilçisi B.Leqrandan (?! – İ.M.) xahiş etdi (V.1922). AK(b)P MK RH-in iclasında (6.V.1922) o, S.Əfəndiyevlə əvəzləndi və B.Leqran bununla bağlı S.Kirov tərəfindən məlumatlandırıldı.

Həmin qurumun daha bir iclasının qərarı (11.V.1922) ilə İ.Əbilov Azərbaycan Xalq Maarif komissarlığına işə keçirildi və RK(b)P MK-dan onun rəsmən geri çağırılmasının təşkili xahiş edildi (Az sonra (23.II.1923) İzmirdə vəfat edən səfir Bakıda dəfn olundu). Ümumiyyətlə isə, Azərbaycanın Türkiyədəki səlahiyyətli nümayəndəliyinin fəaliyyəti 1922-ci ilin sonlarına yaxın tamamilə heçə endirilmişdi. Türkiyənin Azərbaycanla əlaqədar problemlərinin hamısı əslində RSFSR-in Ankaradakı səfirliyi tərəfindən "həll edilirdi".

***

Beləlilklə, iki türk məmləkəti, yəni Azərbaycan ilə Türkiyə arasındakı tarixi münasibətlər 1920-1922-ci illərdə mühüm bir mərhələni keçdi. Həmin dövrdəki qarşılıqlı əlaqələr müəyyən ciddi proseslər və hadisələrlə səciyyələnir. Belə ki, müstəqil dövlətçiliyinə yenə də Rusiya tərəfindən son qoyulan Azərbaycan və böyük təhlükələrlə üzləşən Türkiyə bir-birilərilə qarşılıqlı münasibətlərini sovetlərin (RSFSR-in) siyasətindən asılı olaraq qurmaq məcburiyyətində qaldılar.

Tarixi dilemma qarşısında qalan Azərbaycan və Türkiyə imkanları daxilində bir olmağa çalışsalar da Rusiyanın "Şərq siyasəti"nin növbəti mərhələsində güdülən məqsədlər buna imkan vermədi. Öncə Rusiyanın yedəyində gedən və

sonra da tamamilə onun asılılığına keçən Azərbaycan SSR Türkiyəyə arxa çevirməli oldu. Türkiyə isə özünün gərgin beynəlxalq vəziyyətinə baxmayaraq şəraitə uyğun surətdə Azərbaycana həyan olmağa, onun ərazi bütövlüyünün qorunub saxlanmasına çalışdı.

§6. Azərbaycan-İran münasibətlərindəki problemlər

AXC-nin süqutu Quzey Azərbaycanın İranla münasibətlərində də yeni durum yaratdı. Bir tərəfdən, onun Rusiya tərəfindən yenidən işğalı İran ilə əlaqələrin xarakteri və səviyyəsinə ciddi təsir göstərdi. Digər yandan da, İran Şimali Azərbaycanın təkrar istilası ilə bağlı qismən də olsa arxayınlaşdı. Həmçinin Güney Azərbaycandakı azadlıq hərəkatının yeni mərhələsinin Milli hökumətin qurulması ilə nəticələnməsi ölkələrarası əlaqələrdə müəyyən izlər qoydu.

Göründüyü kimi, Azərbaycanın quzeyi və güneyi ilə bağlı məsələlər bu dövrdə də İranın xarici siyasətində üstün istiqamətlərdən biri oldu. Şimali Azərbaycanın İranla münasibətlərində bir sıra yeni problemlər ortaya çıxdı. Habelə Sovet Azərbaycanı Rusiyanın "yeni Şərq siyasəti"ndə – İranla əlaqədar xəttin yürüdülməsində – bir vasitəyə çevrildi. İran isə bu siyasətdən özü üçün nələrsə qazanmağa çalışırdı.

Diplomatik əlaqələrin Apreldən sonrakı durumu

Cümhuriyyətin sonuna yaxın yaradılan Quzey Azərbaycan-İran diplomatik əlaqələri də 1920-ci ilin aprelindən sonra yeni keyfiyyət halını aldı. Öncə burada olduqca maraqlı, önəmli bir məqama toxunmaq və ibrətamiz paralel (müqayisə) aparmaq yerində olardı. Belə ki, İran AXC-ni

xeyliçəkən tərəddüddən və məsələləri saf-çürük etdikdən sonra rəsmən tanımışdı.

Ancaq Azərbaycan SSR-in tanınması ilə əlaqədar elə bir tərəddüd əsla olmadı. Və Azərbaycan SSR çox tezliklə (30.V.1920) İran tərəfindən tanındı. Bu isə, təbii olaraq, Quzey Azərbaycanda dövlətçiliyin yenidən itirilməsi və bununla bağlı İran üçün mövcud olan müəyyən problemin (təhlükənin) aradan qalxması ilə əlaqədar idi.

Tərəflər arasında birbaşa diplomatik əlaqələrin qurulmasına dair İranın təşəbbüsü və müvafiq yazışmalar (27 və 30.VIII.1920) müəyyən qurumların formalaşdırılması ilə nəticələndi. Qarşılıqlı olaraq hər iki ölkədə diplomatik nümayəndəliklər, konsulluqlar və s. yaradıldı. İlk vaxtlarda Azərbaycan SSR-in Tehrandakı nümayəndəliyinə Ə.Məmmədzadə və İranın Bakıdakı səfirliyinə isə Ə.Məmalik başçılıq etdilər.

S.Hüseynov, M.Məlikov və b. isə diplomatik nümayəndəmizin müavini işləmişdilər. Sovet Azərbaycanının Ənzəlidəki konsulu vəzifəsini M.Məlikov (AXC dövründəki vitse-konsul) aparırdı. R.Nəcəfov Təbrizdə konsul təsdiq olundu. M.Saadül Vəzir isə İranın Bakıdakı konsulu idi və az sonra Azərbaycanda diplomatik nümayəndə kimi fəaliyyətini davam etdirdi.

Hər iki ölkənin diplomatik nümayəndəlikləri müəyyən çətinliklər və süni əngəllərlə qarşılaşdılar. Azərbaycanın təmsilçiliklərinin "problemləri" ənənvi mənbədən, yəni Rusiyanın xarici siyasətində güdülən məqsədlərdən qaynaqlanırdı. Onun digər ölkələrdəki səlahiyyətli nümayəndəliklərinin, konsulluq və b. qurumlarının fəaliyyətinə törədilən maneələr (maliyyə vəsaiti çatışmazlığı, informasiya "qıtlığı" ifrat siyasi yanaşma və s.) burada da özünü göstərirdi. Hələ 1921-ci ilin payızından etibarən Mərkəzin (Moskvanın)

emissarlarından Q.Orconikidze, B.Leqran və b. "Azərbaycanın İranda maraqları yoxdur və onun orada müstəqil nümayəndəliyi saxlanmamalıdır" kimi çağırışlar edirdilər.

Azərbaycan SSR-in səlahiyyətli nümayəndə və konsul vəzifələrinə tövsiyə etdiyi şəxslərin namizədliyi Mərkəzdə "keçmirdi" – məqbul sayılmırdı. Məsələn, Cənubi Qafqaz respublikalarının İrandakı səlahiyyətli nümayəndəsi Ə.Şirvani (Mustafabəyov) AK(b)P MK (12.VI.1922) və Azərbaycan XKS (21.VI.1922) tərəfindən Tehrana diplomatik nümayəndəmiz olaraq təsdiqlənsə də RK(b)P Qafqaz bürosu bununla razılaşmadı.

Ə.Şirvaninin namizədliyinin keçməməsi onun tehranlı tacirin oğlu olması, zəhmətkeşlər arasında etimad qazanmaması, siyasi cəhətdən hazırlıqsızlığı (halbuki o əvvəllər AİK-in Qarabağ və Zəngəzur üzrə Fövqəladə Komissarı, RSFSR-də səlahiyyətli nümayəndə və b. vəzifələrə rahatlıqla təsdiq edilmişdi), ingilislərlə mübarizədə incə siyasət apara bilməməsi kimi "səbəblər"lə şərtləndirilmişdi. Əslində isə bu birbaşa Cənubi Qafqaz respublikalarının "müstəqilliyi"nə nöqtə qoyulması və onların birləşdriilməsi işinin yekunlaşdırılması siyasətindən irəli gəlmişdi.

Elə məhz bu amillərin təsirindən idi ki, namizədin Rusiya rəhbərliyinə (G.Çiçerinlə İ.Stalinə) müraciəti də əməli nəticə verməddi. Əksinə, RSFSR hökumətinin "tövsiyəsi" (tələbi) ilə Zaqafqaziya Federasiyası İttifaq Şurasının iclasında (22.IV.1922) Azərbaycanın Təbriz və Ənzəlidəki konsulluqlarının ləğvi barədə qərar çıxarıldı. Onların məşğul olduqları işlərin icrası RSFSR-in konsulluğuna həvalə edildi. Bunun üçün də sonuncunun tərkibində bir nəfər texniki işçi (hətta konsul da yox) ayrıldı. Tehrandakı səlahiyyətli nümayəndəliyimizin fəaliyyəti tamamilə məhdudlaşdırıldı və tezliklə o da bağlandı.

İranın Azərbaycan SSR-dəki səlahiyyətli nümayəndəliyinin fəaliyyətilə əlaqədar olaraq "özünü göstərən problemlər"sə həm rəsmi Tehranın mövqeyi, həm də Sovet Rusiyasının məlum siyasətinə görə ortaya çıxırdı. Yəni ki, Şimali Azərbaycanın "müstəqilliyi"nin yaxınlaşmaqda olan sonunu görən İran tərəfi onunla daha geniş diplomatik əlaqələrə girməklə maraqlı deyildi. Rusiya isə Quzey Azərbaycanı müstəqil dövlət olaraq qalmaq, İran və digər ölkələrlə diplomatik əlaqələr yaratmaq üçün işğal etməmişdi. O habelə İranın Azərbaycan SSR-lə olub-qalan əlaqələrinə də son qoymaq istəyirdi.

Bunu İranın Azərbaycan SSR-ə diplomatik nümayəndə təyin etdiyi N.Mirzənin namizədliyinin razılaşdırılması ətrafında baş verənlər də təsdiqləyir. Mərkəzin təzyiqi ilə Zaqafqaziya Federasiyası İttifaq Şurasının Azərbaycandakı Xarici İşlər üzrə nümayəndəsi (Ə.Şirvani) N.Mirzənin namizədliyinə etiraz etdi (Az öncə qeyd edildiyi kimi, onun özünün Azərbaycan SSR-in səlahiyyətli nümayəndəsi olaraq İrana göndərilməsi də Mərkəzin və Qafbüronun əsassız bəhanələri, birgə səyləri (müqaviməti) sayəsində alınmamışdı).

Ə.Şirvani İttifaq Şurasının sədri N.Nərimanova məktubunda (22.VIII.1922). N.Mirzənin namizədliyini onun Qacarlar sülaləsinə mənsubiyyəti, sovet quruluşuna qarşı çıxması və ingilispərəst olmasına görə məqbul saymamışdı. Ümumiyyətlə isə, Sovetlər İttifaqının yaradılması ilə Azərbaycan SSR-lə İran arasındakı dilpomatik əlaqələrin səviyyəsi minimuma endirilmiş oldu.

Qarşılıqlı münasibətlərdəki əsas problemlər

1920-ci ilin aprelı ilə 1922-ci ilin dekabrı arasındakı müddətdə Quzey Azərbaycan-İran münasibətlərinə daha

güclü təsir göstərən amillərdən biri Sovet Rusiyasının xarici siyasəti hesab olunur. Proletar inqilabının və kommunist ideologiyasının Şərqə (Asiyaya) ixracında İran mühüm hədəflərdən biri olaraq seçilmişdi. Azərbaycan SSR-ə isə bu işdə başlıca istehkam (forpost) kimi yanaşılırdı.

Rusiya özünün "Şərq siyasəti"nin yeni mərhələsində qarşıya qoyduğu strateji vəzifələrin həyata keçirilməsində İranı "Hindistanın qapısı" kimi dəyərləndirirdi. "Sovetlərin Şərqə yürüzündə əsas ötürücü" məntəqə hesab olunan Azərbaycanın İranla o dövrki əlaqələrinə də məhz bu prizmadan baxmaq lazım gəlir. Məlumdur ki, "sosialist inqilabı"nın İrana ixracı prosesində Sovet Azərbaycanının imkanlarından hərtərəfli istifadə olundu. Bu işin (proqramın) müəyyən detalları Bakıda işlənib hazırlandı və onların gerçəkləşdirilməsi üçün bir sıra tədbirlər görüldü.

Öncə, "Şərqi – Avropa imperializmindən azad etmək" (N.Nərimanov) adı altında Bakıdakı Aprel çevrilişini orada müəyyən varinatlarda təkrarlamaq və sovetlərin "İran taktikası"nı reallaşdırmaq məqsədilə XI ordunun və Azərbaycan qoşununun hissələri 1920-ci ilin mayında Ənzəlini, Ərdəbili və b. yerləri tutdular. Denikinin "Könüllü ordu"sunun hərbi-dəniz qüvvələrinin qalıqlarının və İngiltərənin silahlı qüvvələrinin Ənzəli və Rəştdən çıxarılmaları sayəsində, Volqa-Xəzər komandanlığının V.Leninə teleqramında yazıldığı kimi, artıq Rusiyanın "... ürəyinə neft axınını heç bir təhlükə təhdid etmirdi".

Bilavasitə bolşeviklərin təsiri altında və Mirzə Kiçik xanın başçılığı ilə yaradılan Cəngəlilər hərəkatının XI ordu hissələrilə birləşməsi isə Gilanda Sovet respublikasının "qurulması"yla (VII.1920) nəticələndi. Rusiyanın Gilandakı ifrat solçu siyasətinin M.Kiçik xanın liberal (islahatçı) xəttilə toqquşması ikincini ciddi problemlərlə qarşılaşdırdı.

Onun V.Leninə, B.Mdivaniyə, H.Əmoğluya və digərlərinə müraciət-şikayətlərinə baxan "tapılmadı". B.Mdivaniyə məktublarda (VIII.1920) bolşeviklər kommunizm və məzlumları müdafiə adı ilə Gilanda yalnız çar Nikolayın ordusuna və ingilis hərbi qüvvələrinə yaraşan hərəkətlərə (qarət, zor, qətllər və s.) yol verməkdə ittiham olunurdular. Bu qarşıdurma və ittihamlar Gilanda kommunist çevrilişi və M.Kiçik xanın hakimiyyətinin sona yetməsiylə yekunlaşdı.

Gilan hadisələri Azərbaycan SSR-İran münasibətlərində də əlavə gərginlik yaratdı. Rəsmi Bakının müxtəlif qurumları vasitəsilə İranda aparılan rus-sovet təbliğatı, Azərbaycanın məhdud kontingentli qoşun hissəsinin Ənzəlidə və b. yerlərdə olması, Rəşt İnqilab Komitəsinin fəaliyyəti, Gilanda "İran SSR" yaradılmasının elanı və digər hallar ölkələrarası qarşılıqlı əlaqələrdə dərin izlər buraxdı. Obyektivlik naminə mütləq qeyd olunasıdır ki, Azərbaycan hökumətinin RSFSR diplomatiyası tərəfindən yönləndirilən və tənzimlənən fəaliyyəti münasibətlərdəki soyuqluqlara müəyyən əlavələr edirdi.

RK(b)P MK Bürosunun iclasında (25.V.1920) "Şərq siyasəti haqqında" məsələnin müzakirəsində irəli gələn vəzifələrin həyata keçirilməsində iştirak, N.Nərimanovun V.Leninə "Biz İranda feodal quruluşunu devirməyə yönələn hərəkatı müdafiə etməliyik" çağırışı, AK(b)P MK Təşkilat və Siyasi bürolarının birgə iclasının (3.VIII.1920) qərarı və digər hərəkətlər rəsmi Tehran tərəfindən Azərbaycan SSR-in İranın daxili işlərinə müdaxilə kimi qiymətləndirildi.

Birgə iclasda A.Mikoyanın məruzəsi əsasında çıxarılan qərarın "Azərbaycan briqadası İrana göndərilsin", "Yoldaş Mdivaniyə Azərbaycan adından səlahiyyət verilsin" və digər şərtləri, habelə Tehrandakı diplomatik nümayəndəmizin müavini M.Məlikovun xüsusi teleqramla (10.X.1920) "Bakıdan səbrsizliklə qoşun gözləyirik" müraciəti İran diplomatiyasının yuxarıdakı dəyərləndirməsi üçün dəlillər sayıla bilər.

Gilan hadisələriylə əlaqədar bir məqam da RSFSR-Azərbaycan SSR münasibətlərində müəyyən "anlaşılmazlığa" səbəb oldu. Belə ki, Rusiya İran və İngiltərənin rəsmi Bakı ilə münasibətlərini kəskinləşdirərək, bundan faydalanmaq üçün Azərbaycanın məhdud qoşun kontingentinin XI ordu hissələriylə birlikdə Ənzəliyə və s. yerlərə göndərilməsini təşkil etdi.

İranla sazişə (9.VIII.1919) əsasən bir müddət bu ölkədə üstün mövqelərə malik olan və orada qoşun hissələri saxlayan İngiltərə hələ ki onları çıxarmağa tələsmirdi. O, müxtəlif bəhanələrlə bundan yayınmağa çalışır və Azərbaycan SSR-in məhdud silahlı qüvvəsinin orada qalmasını əsas götürürdü.

Rusiya diplomatiyası Sovet Azərbaycanı qoşunlarının İranda saxlanılmasına davam edilməsini, həmçinin oradakı "inqilabçılar"a yardım göstərilməsini artıq İngiltərənin regionda mövqeyini qüvvətləndirən amil kimi səciyyələndirirdi. Əslində Rusiya 1921-ci ilin lap əvvəlindən etibarən İranla daha da yaxınlaşmaq xəttinin yürüdülməsinə başlamışdı. (Dalbadal baş verən iki mühüm hadisə də onu təsdiqləyir: **1-cisi,** "ingilispərəst" Qacarlardan qurtulmaq məqsədilə Rza xanın hakimiyyət çevrilişinin (21.II.1921) dəstəklənməsi, əslində təşkil edilməsi. **2-cisi,** İranla müqavilə (26.II.1921) bağlanması). Bunu isə İrandakı rus-nigilis rəqabətini uduzmaq təhlükəsi şərtləndirirdi.

İranın şimalında – Cənubi Azərbaycanda və b. yerlərdə gedən proseslər ("Gilan inqilabı"nın davam etməsi, habelə digər hadisələr) həqiqətən də regiondakı ingilis təsirini artırırdı. Buna görə də bolşevik və ingilis hərbi hissələrinin İrandan çıxarılmaları məsələsi mühüm müzakirə obyektlə-

rindən oldu.

Bu və həmçinin Gilan hadisələrilə əlaqədar digər işlərin həlli üçün Azərbaycan tərəfindən Fövqəladə səlahiyyətli nümayəndə (İ.Əbilov) ayrıldı. Qoşunların İrandan çıxmaları işinin təşkili üçün hətta üçtərəfli hərbi-texniki komissiya yaradılması təklif olundu. Ancaq Azərbaycan-İran-İngiltərə təmsilçilərindən ibarət yaradılacaq komissiyaya qoşunların İranı tərk etmələri ucbatından ehtiyac olmadı.

RK(b)P MK plenumunun (26.I.1921) İranla dostluq münasibətlərinin qurulmasına (tezliklə müqavilə bağlanması və s.) dair qərarı, B.Leqranın M.Hüseynova məktubları (20 və 27.IX.1921) və b. siyasi-diplomatik sənədlər Rusiya xarici siyasətinin "İran taktikası"nı yekunlaşdırmaq istəyindən xəbər verirdi. Həmin niyyət isə (bu fikirlərdə sanki Azərbaycan SSR-in müstəqilliyi görüntüsünü yaratmaq cəhdi də vardı və onunla razılaşmaq mümkünsüzdür) B.Leqranın məktublarında belə açıqlanmış və ifadə olunmuşdu:

- İranın şimalındakı qüvvələrin gücləndirilməsi Tehran hökumətinin diqqətini onlara yönəldir və ingilislərlə mübarizəsini zəiflədir. Buna görə də quzeydəki qüvvələrə yardım göstərmək olmaz;
- Bakıda məsuliyyətsiz siyasət yürüdənlər və yolverilməz hərəkətlər edənlər Sovet hakimiyyətinin ümumi maraqlarına qarşı ciddi cinayətkarlıqda təqsirkardırlar. Azərbaycanın Ənzəlidəki konsulluğu Kiçik xana və digərlərinə kömək edir, onlara silahlar Bakıdan göndərilir. Bu isə bizim İran siyasətini pozur və İngiltərəyə qiymətsiz xidmət göstərir;
- Tehran hökumətinə qarşı yerlərdə aparılan mübarizə ingilislərin İranın işlərinə müdaxiləsinə şərait yaradır. Bu da İran hökumətini yenidən ingilislərlə yaxınlaşdırır. Biz bütün İranı işğal edə və onun üstündə İngiltərə ilə müha-

ribəyə tab gətirə bilsəydik, orada avantüra (macəra) siyasəti o vaxt məna kəsb edərdi. İranın şimalındakılara silah ötürmək onu itirmək və öz əlimizlə də ingilislərə vermək deməkdir.

RSFSR-in İran siyasətindəki bu cür "gəzişmələr" dövrün reallıqlarından irəli gəlirdi. Burada tarixi məqsədlərdən və "Şərqin də kommunistləşdirilməsi"ndən imtinadan əsla söhbət gedə bilməzdi. Sadəcə "Gilan inqilabı"nın dərinləşdirilməsi" və onun ətrafında cərəyan edən hadisələrin genişləndirilməsi artıq mümkün deyildi. İ.Stalin M.Rəsulzadəni özüylə birlikdə Moskvaya apararkən onlar arasında İrana dair söhbət əsnasında çox maraqlı bir fikir söyləmişdi: "İranı sovetləşdirməyə başlamaq yanlış bir hərəkətdir. Orada nəinki cümhuriyyət, hətta konstitusiyalı monarxiya rejimini möhkəmləndirmək belə kifayət qədər mütərəqqi bir işdir. Sosializm və kommunizm prinsiplərinin oralara da tətbiqinə girişmək macəraçılıqdan başqa bir şey deyildir... Mən Bakıya gələndə gördüm ki, bizimkilər İrana hücum planları hazırlayırlar. Dərhal mane oldum" (Məhəmməd Əmin bəyin də şərh etdiyi kimi, İ.Stalin burada Azərbaycanın sovetləşdirilməsindən sonra yerli bolşeviklərin Gilana hücum edərək İran hökumətilə ixtilafa girmələrini nəzərdə tutmuşdu).

Azərbaycan SSR-İran münasibətlərində bir sıra digər mübahisəli məsələlər də olmuşdur. Onlardan ən başlıcaları aşağıdakılardır: **1.** Ölkələrarası sərhəd pozulmaları və İran tərəfindən Azərbaycana edilən silahlı qarətçilik basqınları. **2.** Azərbaycandakı İran təbəələrinin durumu. **3.** İran Kommunist partiyasının fəaliyyətilə bağlı məqamlar. Qarşılıqlı əlaqələrdə ticarət, nəqliyyat və s. sahələrdəki əməkdaşlıq məsələlərinin müzakirələri də mühüm yer tutmuşdu.

Sərhədpozmalarda diqqəti çəkən cəhətlərdən birini də sovet rejimi üzündən Azərbaycanın quzeyindən onun güne-

yinə qaçanların bu işdə fərqlənmələri təşkil edirdi. Problem xeyli böyüdüyündən tərəflər bir-birilərilə xeyli sürən notalar mübadiləsi aparmalı oldular. Azərbaycan SSR-in "himayəçisi" Rusiya bu "notalar savaşı"nın fəal iştirakçısı idi. İkinci birincinin İrana verdiyi müvafiq notaların (6, 19, 24, 29.VIII.1921) "həmmüəllifi"də sayıla bilər.

M.Hüseynovun G.Çiçerinə və RSFSR-in Tehrandakı səfiri Rotşteynə teleqramından (VIII.1921) isə sərhəd pozulmalarının dayandırılması üçün Rusiyadan İrana təzyiq göstərməsi xahişinin edilməsi bəlli olur. Yardımlı və digər ərazilərdə sərhədpozma hallarının qanlı toqquşmalar həddinə çatması və s. üzündən Azərbaycan hökuməti bu məsələlərin həlli üçün hətta xüsusi məsul şəxs (A.Dadaşov) təyin etmişdi. Yeri gəlmişkən, N.Nərimanovun Azərbaycan sovetləri MİK-i plenumunun ikinci sessiyasındakı (30.X.1921) məruzəsində sərhədlərimizə edilən basqınlarda ingilis agentlərinin iştirakı da qeyd olunurdu.

İkitərəfli münasibətlərdə daha çox müzakirə olunan məsələlərdən biri də Azərbaycan SSR-dəki İran vətəndaşlarının durumu idi. Onların vəziyyətini açıqlayan hallar sırasında ən başlıcalarına: **a)** Azərbaycan ordusuna çağırılmaları və məcburi əməyə cəlb olunmaları; **b)** əmlaklarının müsadirə edilməsi; **c)** əsassız olaraq incidilmələri; **ç)** ticarətlərinə maneələr törədilməsi və s. aid oluna bilər.

İran diplomatlarının - Bakıdakı konsulun (11.VII.1920), Qafqazdakı Baş konsulun (21.VII.1921), Azərbaycandakı diplomatik nümayəndənin (14.XI.1921, 5.IX.1922) və Gəncədəki konsul M.Soltanenin (9.II.1922) notalarında yuxarıda göstərilən və habelə digər məsələlərə toxunulurdu. Onlar mövcud problemlərin həlli məqsədilə müəyyən komissiya qurulması, İran təbəələrinin Azərbaycanı sərbəst olaraq tərk etmələrinə şərait yaradılması kimi təkliflər də vermişdilər.

Öz növbəsində Azərbaycan tərəfi də vəziyyətin yaxşılaşdırılmasına səylər göstərirdi. Hətta Rusiyanın məsələyə etinasız yanaşması Azərbaycan hökumətini rahatsız etmişdi. N.Nərimanov bununla bağlı prinsipial mövqe tutmuşdu. O, AİK-in plenumundakı (7.III.1921) çıxışında çox vacib bir cəhəti vurğulamışdı: "... Bakı nə İrəvandır, nə də Gürcüstan, bu xaricilərin həmişə olacağı bir mərkəzdir".

"Qoca"nın həmin çıxışından bu da məlum olur ki, o, Azərbaycandakı İran təbəələrinin məsələsini dəfələrlə Moskva qarşısında qaldırmış və hətta iclaslardan birində G.Çiçerinin üzünə söyərək (abrını alaraq) toplantını tərk etmiş və onunla bir müddət küsülü qalmışdı.

Haqlı olaraq "Əgər biz İran konsulluğunu tanıyırıqsa, deməli, hansısa qarşılıqlı münasibətlər qurmaq lazımdır" söyləyən N.Nərimanov həmçinin "gələn rəsmi kağızlara cavab verilməməsini ikiüzlülük, Sovet hakimiyyətinə yaraşmayan siyasət" kimi qiymətləndirmişdi. Plenumdakı nitqində bu məsələyə dair görüşlərinə belə bir xülasə vermişdi: İrana münasibətdə bizim xüsusi fikrimiz (mövqeyimiz) ola bilər və onun Azərbaycandakı vətəndaşlarına dair müəyyən qaydalarımız olacaqdır.

Buna müvafiq surətdə həmin qaydalara dair ikitərəfli müqavilə bağlandı. Altı maddədən ibarət olan bu müqavilədə bəhs olunanların durumunun aydınlaşdırılması, Vətənə qayıtma prosedurunun sadələşdirilməsi, saxlanılan tranzit malların məsələsinin həlli, ölkəmizdəki İran təbəələrinin rusiyadakılarla eyni hüquqlara malik olmaları, mübahisəli işlərə Azərbaycan-İran-Rusiya qarışıq komissiyasında baxılması və s. nəzərdə tutulurdu. Bu müqavilə ilə yanaşı AİK-in xüsusi dekretilə (16.XI.1920; №2755) orduya çağırılma problemi qaydaya salındı. Viza məsələsinə dair razılaşma da əldə olundu.

"İran Kommunist partiyası məsələsi" də Azərbaycan SSR-in qonşu dövlətlə münasibətlərindəki qalmaqallı hadisələrdən biri oldu. İranda inqilabi-siyasi iş aparmaq məqsədilə yaradılan bu partiya (İKP) Şimali Azərbaycanda – "Ədalət" sosial-demokrat təşkilatı əsasında formalaşdırılmışdı. Onun fəaliyyətinin təşkilinə xeyli maliyyə vəsaiti ayrılmışdı. İKP-nin iclasında (4.VI.1920) Qızıl ordu yaradılmasına dair qərar da qəbul olunmuşdu.

Habelə AK(b)P MK-da ayrıca İran bölməsi yaradılmışdı (11.III.1921). İranın da sovetləşdirilməsini həyata keçirmək üçün xeyli iranlı kommunist Bakıda xüsusi hazırlıq keçirdi. Onlara fərqli münasibət bəslənilirdi. Azərbaycan XXİK-in İranın Bakıdakı konsulluğuna məktubunda (IV.1922) deyilirdi ki, digər iranlı təbəələrdən fərqli olaraq kommunistlərə xaricilər kimi yanaşıla bilməz. Bunu da vurğulamaq lazım gəlir ki, N.Nərimanov İrandakı inqilabi işin mahiyyəti, hədəfləri və həddilə əlaqədar məsələlərdə bir qədər başqa mövqedən çıxış edirdi. Bunu "Şərqin Lenini"nin I Ümumazərbaycan sovetlər qurultayının 3-cü iclasındakı (8.V.1921) nitqində xatırlatdığı bir söhbətin məzmunundan da görmək olur.

İKP-nin rəhbərlərindən olan Sultanzadə-Mikaelyanın "İranda inqilabi iş aparmaq üçün nələri məsləhət görərdiniz?" sualına "Qoca"nın cavabı belə olmuşdu: "Biz indi İran xalqından və fəhlələrindən, özlərini ingilislərin zülmündən azad etməkdən, başqa bir şeyi istəmirik. Bu inqilab hansı forma alacaqdır, biz ona sonra baxarıq. Hazırda bizim üçün hər şeydən vacib olanı... Şərqdə düşməni-imperialistləri əzməkdir".

N.Nərimanovun yazdığına görə, "Yox, bunu bir kənara qoyaq, bizə orada kommunist inqilabını inkişaf etdirmək lazımdır" deyərək İrana yollanan Sultanzadə-Mikaelyan və

digərlərini öncə gül-çiçəklə qarşılamışdılar; ancaq geriyə qayıdarkən isə qadınlar evlərin damlarından onları qaynar su ilə islatmışdılar.

"İKP məsələsi", yəni Azərbaycan SSR-də təşkil olunan müəyyən qrupların İranda sovet-kommunist ideologiyasını yaymaq səyləri əks tərəfin ciddi etirazları ilə qarşılaşdı. Həmin etiraz İran XİN-in xüsusi notasında (29.X.1922) və digər diplomatik sənədlərdə ifadə olundu. Habelə müxtəlif yönlü başqa tədbirlər də görüldü.

Nəqliyyat-yollar, ticarət, poçt-teleqraf və s. sahələrdəki ölkələrarası əməkdaşlıq da Rusiyanın açıq-aşkar hiss olunan təsiri və təzyiqinə məruz qalmışdı. Burada təkcə elə bu fakta nəzər salmaq da yetər: Rusiya XXTK və XXİK-in məsul işçilərinin birgə iclasında (29.V.1922) "Azərbaycanın xarici ticarəti haqqında" məsələ müzakirə edildi. Onun gedişində irəli sürülən təkliflər (M.Kaufman, L.Qaraxan) və sonda qəbul edilən qərar aşağıdakıları nəzərdə tuturdu:

a) Azərbaycan SSR-in Cənubi Qafqaz respublikaları və digər ölkələrlə ticarətinin Sovet Rusiyasının müvafiq siyasəti əsasında aparılması; **b)** Zaqafqaziya respublikaları təsərrüfat orqanlarının İran bazarında vahid siyasət yürütmələri; **c)** İranla ticarətdə malların siyahısının öncədən RSFSR XXTK-i ilə razılaşdırılması.

İkitərəfli iqtisadi-ticarət və s. əlaqələrdə İranın üstünlük qazanmaq səyləri, onun bəzi anlaşılmaz (qərəzli) hərəkətləri də müəyyən çətinliklər yaradırdı. Bunlara rəğmən, bir sıra qarşılıqlı əlverişli işlərin görülməsinə, birgə tədbirlərin (Astara körpüsünün tikintisi, yollar salınması, sərhəd ticarətinin təşkili və s.) həyata keçirilməsinə nail olundu.

Bütövlükdə isə, Azərbaycan-İran münasibətlərindəki prinsipial məsələlər və başlıca problemlər ikincinin RSFSR-lə bağladığı müqavilə (26.II.1921) ilə tənzimləndi. Moskvada

G.Çiçerin, L.Qaraxan və İranın Rusiyadakı səfiri Ə.Məmalik tərəfindən imzalanan 26 maddəlik bu müqavilə dövrün beynəlxalq münasibətlərinin mühüm aktlarından hesab olunur. Müqavilənin **1-3, 5, 6, 10 və 11-ci** maddələri Azərbaycanın sərhədləri, quzeyi və güneyinin mövcud beynəlxalq vəziyyəti və gələcəkdə onunla əlaqədar cərəyan edəcək proseslərlə bağlı əhəmiyyət kəsb edir və müəyyən məna daşıyırdı. Həmin maddələrə görə:

- İranla Rusiya arasında əvvəllər bağlanan bütün müqavilə, saziş və konvensiyalar qüvvədən salınırdı (**1-ci maddədə** ifadə olunan bu müddəa Azərbaycanın tarixində və taleyində çox neqativ rol oynayan sənədləri də əhatə etməli idi);
- Rusiya vaxtilə İranla bağlı digər dövlətlərlə imzaladığı sənədlərdən imtina edirdi (**2-ci maddənin** məzmununu təşkil edən bu şərt İngiltərə ilə bağlanan 1907, 1915-ci il müqavilələrini və s. nəzərdə tutmaqla Azərbaycanın maraqları baxımından da diqqəti çəkirdi);
- İran-Rusiya sərhədləri 1881-ci ildəki kimi qalırdı (**3-cü maddədə** öz əksini tapan bu razılaşma ilə yanaşı bəzi ərazilərin bölüşdürülməsi Azərbaycanı, İranın xeyrinə olan, yeni torpaq itkisiylə üzləşdirirdi;
- tərəflər, yəni Rusiya və İran öz ərazilərində onlara qarşı fəaliyyət göstərən təşkilatların, ayrı-ayrı şəxslərin və s. fəaliyyətinə imkan vermirdilər (**5-ci maddənin** tələbi əslində daha çox Rusiyanın mənafe və məqsədlərinə xidmət edirdi və Şimali Azərbaycanı tərk edərək İranda siyasi mühacir həyatını yaşayanlara qarşı tədbirlər görülməsinə "hüquqi əsas" yaradırdı);
- İran ərazisindən Rusiyaya təhlükə yarandığı və birinci-nin onu dəf edə bilməyəcəyi şəraitdə ikinci özünümüdafiə üçün, tezliklə çıxılmaq şərtilə, oraya qoşun yeridə bilərdi

(Bu müddəanı özündə ehtiva edən **6-cı maddə** sonralar "işlədi", yəni ki, SSRİ 1941-ci ildə ona "əsaslanaraq" İranın şimalına-Güney Azərbaycana qoşun yeritdi);

- yollar, poçt-teleqraf və b. sahələrdəki problemlər "həllini tapdı" (**10-cu maddə** ilə Culfa-Təbriz dəmir yolu da İrana verildi);
- Türkmənçay müqaviləsinin (10.II.1828) qüvvədən düşdüyü bildirildi (**11-ci maddəyə** yazılan bu şərt ikiyə bölünən - ölkəmizin - millətimizin o dövrki və indiki beynəlxalq həyatı ilə bağlı məsələlər baxımından da çox önəmlidir).

Rusiyanın "Şərq siyasəti"nin yeni mərhələsində güdülən məqsədlərin reallaşdırılmasında bir vəsilə sayılan bu müqavilə istər o çağlarda, istərsə sonralar Azərbaycana da (həm quzeyinə, həm də güneyinə) müəyyən problemlər yaratmışdı. Müqavilə və onun ilkin nəticələri M.Rəsulzadənin "Bolşeviklərin Şərq siyasəti" əsərində bu cür fikirlərlə səciyyələndirilmişdi: Sovet Rusiyası "tökülmüş bəhməzi hədiyyə edirdi"; Şərqdəki bu "səxavət" Qərbdəki "rəqabətlə" (xaricilərə verilən milyardlarla dəyərə malik imtiyazlar, yəni konsessiyalar nəzərdə tutulur - İ.M.) həmahəngdi; bu, maddiyyətcə qazanclı, tədqiqatca əməli, siyasətən şərəfli, təbliğat baxımından da parlaq bir manevr idi.

"Azadistan" məsələsinin beynəlxalq əks-sədası

1917-1920-ci illərdə Güney Azərbaycanda Şeyx Məhəmməd Xiyabaninin rəhbərliyi ilə çox güclü milli-azadlıq hərəkatı baş verdi. Onun işləyib hazırladığı "Təcəddüd" ("Yeniləşmə") proqramı əsasında aparılan hərəkatda Təbriz üsyanı (7.IV.1920) mühüm mərhələ oldu. Həmin gün söylədiyi nitqində xarici (imperialist) güclərin İrana dair siyasətinə qarşı çıxan M.Xiyabani həm də Güney Azərbaycanın

rəsmi adının "Azadistan" ("Azadistan məmləkəti") olduğunu bildirdi.

Az sonra (24.VI.1920) isə onun başçılığı ilə Milli hökumət (MH) yaradıldı. Siyasi-diplomatik ədəbiyyatda Güney Azərbaycanın "Azadistan" adlandırılması, Milli hökumətin təşkili və bunların beynəlxalq əks-sədası məsələlərinə dair bir neçə fərqli baxış və mövqelər mövcuddur. Öncə "Azadistan məsələsinə"nə aid yanaşmaları nəzərdən keçirmək gərəkdir:

Birincisi, Ə.Kəsrəvi, T.Svietoçovski və b. araşdırmaçılar M.Xiyabaninin bu hərəkətini (addəyişməni) iki məqamla əlaqələndirirlər: a) quzeydəki dövlətin (AXC-nin) də adında "Azərbaycan" sözünün işlənməsi (Sözgəlişi, 1918-ci ildə Arazdan şimaldakı ərazilərimizdə cümhuriyyət qurularkən tariximizdə ilk dəfə idi ki, dövlətimiz "Azərbaycan" adlandırılırdı). Bu dəlil bir o qədər ciddi və inandırıcı görünməyə də bilər; **b)** AXC rəhbərliyinin Güney Azərbaycanı da cümhuriyyətə birləşdirmək niyyəti və meyli. Ciddi dəyərləndirilə biləcək bu məqama gəldikdə vurğulanan məqsəd və meylin mövcudluğunun istisnası (inkarı) mümkünsüzdür. Ancaq bu fikrin əleyhinə olan mülahizələr (dəlilləri) də unutmaq olmaz. Belə ki, məlum yeni adın elan olunduğu çağda AXC artıq özünün son həftələrini yaşayırdı və heç vaxt rəsmən açıqlanmayan həmin məqsədin reallaşdırılması da, təbii olaraq, imkanlar xaricində idi.

İkincisi, Ş.Tağıyeva, Ə.Rəhimli və S.Bayramzadəyə görə, Təbriz usyanı zamanı Şimaldan fərqli bir ad seçilməsi və onun Aprel çevrilişindən sonra da saxlanması müəyyən mənada təbii sayılmalıdır. Onlar "M.Xiyabani ilə tərəfdarlarının AXC-yə rəğbətlə yanaşmalarını gözləməyin də çətin" olduğunu yazırlar. Və bu zaman belə bir cəhəti mütləq nəzərə almağı lazım bilirlər: zəmanənin beynəlxalq siyasətinin

müəyyən məsələsi üzündən Azərbaycanın quzeyi ilə güneyi fərqli (hətta bir-birinə tam zidd olan) siyasi mövqelərdə dayanmışdılar.

Yəni ki, şimalda AXC-nin mövcudluğuna Rusiyadan gözlənilən "ağ" və "qırmızı" təhlükələrin sovuşdurulmasında "ingilis amili"nə müəyyən önəm verilirdi. Cənubda isə "Təcəddüd" məsləki İngiltərəni İranın (Güney Azərbaycanın) üzləşdikləri bütün bəla və problemlərin başlıca mənbələrindən biri hesab edirdi.

Üçüncüsü, əsasən **Ə.Nabdil** (Oxtay), qismən də **V.Bartold** həmin adəvəzlənməsinə səbəb olanlar sırasında ölkəmizin quzeyində sovet quruluşunun (sosialist respublikasının) yaradılmasını önə çəkirlər. Onlar bu addımı "xiyabaniçilərin Qafqazda Azərbaycan SSR-in qurulmasına qarşı müdafiə mövqeyi tutmaları" kimi qiymətləndirmişlər. Bu yanaşmanın lehinə olan bir sıra dəlillər (tezislər) **N.Nəsibli** tərəfindən də qeyd edilmişdir:

a) Rusiyanın razılığı və Azərbaycan SSR-in vasitəçiliyi ilə Gilan Sovet respublikası tərəfindən təklif olunan hərbi yardımın rədd edilməsi. Çünki əvvəllər bolşeviklərə rəğbət bəsləyən Şeyx "Gilan inqilabı (hadisələrinin)" əsl mahiyyətini gördükdən sonra RSFSR-ə inamını itirmişdi. "Yuq Rossii" ("Rusiyanın cənubu") qəzetinə müsahibəsində (7.VIII.1920) M.Xiyabani bolşevizmi "çarizmin o biri üzü" (astarı) adlandırmışdı. Az öncə Rusiya ilə müəyyən işbirliyinə həvəsli görünən Xiyabani həm də sonralar qəti olaraq "İranı iranlılar azad etməlidirlər" prinsipini yürütdü. Bununla da Gilan Sovet respublikası silahlı qüvvələrinin Güney Azərbaycanın içərilərinə doğru irəliləmələrinə imkan vermədi;

b) həmin vaxtlarda artıq sovetlərə xidmət göstərən Abasqulu bəy Şadlınskinin və eləcə də Rusiya ilə yaxınlaşan Mustafa Kamal paşanın kömək ismarıclarından imtina

olunması. Eyni zamanda da AXC-nin bəzi siyasi xadimlərinə, habelə Rusiya (XI ordu) əleyhinə törədilən Gəncə üsyanında (26-31.V.1920) iştirak edən zabit və əsgərlərimizin bir hissəsinin Güney Azərbaycana sığınmalarına şərait yaradılması və s.

"Azadistan"ın elanı və Milli hökumətin fəaliyyəti həm də geniş miqyasda beynəlxalq əks-səda doğurdu. Bu hadisə və proseslər Orta Şərqdə (İranda və s.) maraqları Rusiya ilə kəskin şəkildə toqquşan İngiltərəni xeyli təlaşlandırdı. Rusiya Asiyanın, o cümlədən də İranın sovetləşdirilməsinə və Gilan "inqilabı"nın inkişafına hələ də ümidli olduğundan çox da ciddi rahatsızlıq keçirmədi. Artıq sovetləşdirilmiş Quzeylə (Bakı ilə) Tehranın təsirindən faktiki olaraq çıxmış Güneyin (Təbrizin) birləşməsi imkanlarının əslində tam tükənməsinə baxmayaraq İran hakim dairələri də yetərincə həyəcanlanmışdılar.

İran rəhbərliyindəki (hökumətindəki) ingilismeylli və ruspərəst qüvvələrin çəkişmələri də duruma öz təsirini göstərirdi. Belə bir mürəkkəb şəraitdə Güney Azərbaycan ətrafında çoxtərəfli ("Azadistan"-Təbrizdəki Milli hökumət+Sovet Bakısı-RSFSR+Şahənşah İranı-İngiltərə) münasibətlər sistemi əmələ gəlmişdi. Bu, dolaşıq münasibətlərdə tərəflərin maraq və mövqelərilə əlaqədar bəzi məqamlara da burada diqqət yetirmək lazım gəlir:

Birincisi, M.Xiyabaninin nəzəri-əməli platforması sayılan "Təcəddüd" məsləki və onun rəhbərliyi altında çalışan Milli hökumət Güney Azərbaycanın İrandan ayrılması məsələsini nəzərdə tutmurdu (qoymurdu). Özünü "İran Məşrutə inqilabının oğlu" sayan M.Xiyabani "Təbriz İrana nicat verəcəkdir" ideya-müddəasını əsas tutaraq bütün ölkənin demokratikləşdirilməsi vəzifəsini qarşıya qoymuşdu.

O, Azərbaycanı İranın "Avropa mədəniyyətinə baxan

iti gözünə" bənzədir və Təbriz üsyanının (hərəkatının) ölkənin hər tərəfinə yayılacağına ümid edirdi. M.Xiyabani habelə, təbii ki, Güney Azərbaycanda gedən prosesləri, milli hərəkatın perspektivlərini də diqqətdə saxlayırdı. Belə ki, AXC-nin Tehrandakı səfiri A.Ziyadxan hələ cümhuriyyətin süqutu ərəfəsində (11.IV.1920) öz hökumətinin xarici siyasət idarəsinə bunları çatdırırdı: İran sürünür və Güney Azərbaycan muxtariyyətə – müstəqilliyə, Farsistandan ayrılmağa can atır.

M.Xiyabani bu və digər prosesləri siyasi baxışlarında və İranın gələcək inkişafına dair mövqeyində (əməli təkliflərində) nəzərə almışdı. Onun şah əsəri sayılan – "Azərbaycan və Azərbaycan demokratiyası", habelə digər məqalə və çıxışlarında açıqladığı fikirlər olduqca dəyərlidir:

"Bir xalqın şərəfəti üçün ilkin şərt onun müstəqil olmasıdır. Müstəqil olmayan bir xalqın əzmi və hörməti yoxdur"; Azərbaycan və onun demokratiyası təcəddüd və təkamülün geniş meydanının (İran cəmiyyəti nəzərdə tutulur – İ.M.) tənha yolçusudur, təcrübə keçmişdir, imtahandan çıxmışdır və indi onun qarşısında yeni bir dövr açılır; istibdad əleyhinə üsyan, əcnəbi istilasına qarşı müqavimət, pozucu ünsürlərlə mübarizə isə şücaət, qeyrət, canfəşanlıq, mətanət tələb edir" və bunların hamısı Azərbaycanın pak övladlarının vücudunda vardır.

Şeyxin, bu kimi elmi-nəzəri baxışlar əsasında, gəldiyi qənaətlər də diqqəti cəlb edir: İrandakı hər bir xalqın istiqlaliyyət qazanaraq öz hökumətini qurması və gələcəkdə burada bəlkə də federasiyalı bir dövlətin yaradılması; gələcək demokratik quruluşlu İranın tərkibində öz muxtar hüququna malik olacaq Güney Azərbaycana və onun tələblərinə xüsusi diqqət yetirilməlidir; çünki "Aradistan" çox zərərlər çəkmiş, zərbələrə düçar olmuş, özgələrdən və özününkülərdən xəsa-

rət görmüşdür. İndi isə o, təmir və bərpaya möhtacdır".

Həmçinin dolayısı yollarla ölkədə şahlığın ləğvi və cümhuriyyət qurulmasına dair fikirləri də səsləndirən M.Xiyabani nəticə etibarı ilə federativ İran və onun tərkibində muxtariyyəti (müstəqilliyi) olan Güney Azərbaycan naminə mübarizə aparmışdı. Və, təbii ki, bu düşüncə-planlar İngiltərənin və İran hökumətinin əks tədbirləri, Rusiya və Azərbaycan SSR-in loyal münasibətilə üz-üzə dayanmışdı.

İkincisi, Azərbaycan SSR-ın və Rusiyanın Xiyabani hərəkatına və ondan gözlənilən nəticələrə münasibətdə tutduqları mövqelər də konkret məqsədlərə və mövcud reallıqların sərt tələblərinə əsaslanırdı. Belə ki, bir yandan, Bakı və Təbrizin siyasi-birlik müstəvisində bir araya gəlmələri əsla mümkün deyildi və dövrün gerçəkliklərilə qətiyyən uzlaşmırdı.

Digər tərəfdən də, "proletar-sosialist inqilabı"nın Sovet Bakısından (Azərbaycanın quzeyindən) İranın şimalına-Gilan, Təbriz və s. əyalətlərə ixracı uğur qazanmamışdı. Buna beynəlxalq siyasətin maraqları, İranın (Güney Azərbaycanın) sovetləşdirilməsində yerli şəraitin nəzərə alınmaması və digər yanlışlıqlar, Rusiyanın "həvəssizliyi və etinasızlığı", M.Xiyabaninin və MH-in Gilan Şura cümhuriyyəti vasitəsilə edilən yardım təkliflərindən imtinası və başqa amillər güclü təsir göstərmişdilər.

Arxiv sənədlərinin də təsdiqlədiyi kimi, İranda (Güney Azərbaycanda) sovetləşdirmədəki uğursuzluq və orada "imperializmə (İngiltərəyə) güzəştə" gedilməsi N.Nərimanovun narazılığına səbəb olmuşdu. Onun İ.Stalinə məktubunda (27.III.1922) "bizim İranda dörd illik işimizi əslində məhv" edən Tehrandakı sovet səfiri Rotşteynin təcili geri çağırılması, Ə.Şirvaninin Rusiyanın oradakı diplomatik nümayəndəliyinə köməyə göndərilməsi və İKP-nin işinin gücləndirilməsi üçün vəsait ayrılması istənilmişdi.

Xiyabani hərəkatına münasibətdə Rusiya diplomatiyası tərəfindən güdülən məqsədlərə və yürüdülən siyasətə gəldikdə burada da konkret özəl mənafelər qabarırdı. Əvvəlcə bütün İranı, heç olmasa da onun şimalını (Azərbaycanın güneyi də daxil) sovetləşdirməyə meylli olan RSFSR hökuməti zəmanənin və şəraitin gerçəkliklərilə hesablaşdı.

Ancaq o həm də Azərbaycan SSR-dən İrana və Böyük Britaniyaya qarşı istifadə etməyə, Moskva-Tehran yaxınlaşmasına, ingilis qoşunlarının oradan çıxarılmasına və s. nail ola bildi. Və, bütün bu, həmçinin də digər qazancları ilə kifayətləndi və öz təsiri altında ola biləcək birləşmiş Azərbaycandan vaz keçdi.

Əslində Rusiya heç Azərbaycanın birləşməsinə həvəs də göstərmədi. M.Rəsulzadə bununla əlaqədar olaraq "Stalinlə ixtilal xatirələr"ində belə bir hadisədən bəhs edir. İ.Stalinlə Moskvada keçirilən görüş-söhbətlərdən birində gələcəyin "ellər atası"nın SSRİ MİK-in sədrlərindən olan M.Kalininə ayaqüstü xitabına, yəni "Azərbaycanı Azərbaycana bitişdirmək istəmirsiniz?! sualına ondan sərt bir hərəkətlə "yox, yox, istəmirəm" cavabını almışdı. Şəksiz, bu elə təsadüfi bir dialoq deyildi. M.Rəsulzadəyə görə, İran Azərbaycanının da sovetləşdirilməsi (təbii ki, bu alınardısa birləşmədən də danışmaq olardı - İ.M.) planları barədəki söhbətlər də səbəbsiz deyildi.

Üçüncüsü, Güney Azərbaycandakı milli-demokratik hərəkat İran hökumətini həm də İngiltərə ilə yaxınlaşdırdı. Öz növbəsində Rusiyanı regiondan sıxışdırmağa çalışan İngiltərə bu yaxınlaşmada daha maraqlı görünürdü. Bunu İngiltərənin Tehrandakı nümayəndəsi P.Koksun lord Kerzonla yazışmaları da təsdiqləyir. Nümayəndənin baş diplomata (nazirə) ünvanladığı məktublardan birində (14.V.1920) aşağıdakı rahatsızlıqlar diqqətönünə çəkilirdi:

ğıdakı rahatsızlıqlar diqqətönünə çəkilirdi:

a) İranda başlıca təhlükəli yer durumun son dərəcə xoşagəlməz olduğu Azərbaycandır;

b) əgər həmin əyalət Mərkəzi hökumətin öz vəzifələrini icra edə bilməməsi üzündən ayrılsa, o zaman bu hadisənin İrandakı ümumi vəziyyətə təsiri yetərincə təhlükəli olacaqdır;

c) bu şəraitdə hökumət kabinəsi yıxılacaqdır və İngiltərə-İran sazişi (9.VIII.1919-İ.M.) "kağız parçasına çevriləcək"dir;

ç) beləlilkə, müqavilə təhlükə altına düşəcək və İrandakı ingilis nüfuzu zəifləyəcəkdir.

İngiltərənin İrandakı bu, əsla xoşagəlməz durumu və Xiyabani hərəkatının uğurları hər iki dövlətin birgə tədbirlər görməsini şərtləndirdi. Onlar, bir yandan, Təbrizdəki Milli hökumətlə "danışıqlar"la baş qatdılar və vaxt qazandılar. Digər tərəfdən də, "Azadistan"a silahlı hücum planlarını hazırladılar. Bu işdə İrandakı ingilis səfirliyi xüsusi fəallıq göstərdi.

Güney Azərbaycana qarşı başladılan (12.IX.1920) qüvvətli hərbi əməliyyat Təbrizin tutulması, Milli hökumətin devrilməsi və M.Xiyabaninin kazaklar tərəfindən qətlə yetirilməsilə nəticələndi (Şeyxin "mən ... Babək Xürrəminin süləsindənəm... düşmən qarşısında diz çökmərəm" və "ölümü təslim olmaqdan üstün tuturam" deyərək son gülləsilə özünü vurmasına dair də məlumatlar vardır).

Güney Azərbaycan milli-azadlıq hərəkatı məğlub olmasına baxmayaraq çox mühüm nəticələr verdi. Ümumiyyətlə isə, istər bu hərəkat, istərsə də Gilandakı hadisələr və b. proseslər dövrün beynəlxalq münasibətlərinə, İranın daxili-siyasi inkişafına, onun Quzey Azərbaycanla əlaqədar siyasətinə ciddi təsir göstərdi. Aşağıdakı müsbət və mənfi yüklü bir sıra proseslər yaşandı:

• Azərbaycanın güneyində milli mənlik şüuru xeyli inkişaf etdi. Təbrizdə Lahuti üsyanına (II.1922) və Milli komitənin təşkilinə, sonrakı çıxışlara zəmin yarandı;

• Vüsüqüddövlə hökuməti istefaya getdi (25.IV.1920) və İngiltərə-İran sazişi ləğv edildi (1921);

• paniranizm gücləndi və onun kəcrəviçilik qolu yarandı. Banisi Ə.Kəsrəvi-Təbrizi olan bu qol vahid Azərbaycan məfkurəsinə qarşıdır. Habelə Azərbaycanın quzeyi və güneyində yaşayan millətin müxtəlif etnoslar olduğunu bildirir. Arazdan şimaldakı torpaqlarımızın "Azərbaycan" adlandırılmasını "səhv" hesab edir və s.

***

Azərbaycan SSR formal müstəqillik dönəmində İranla da müəyyən əlaqələrə malik oldu. Həmin əlaqələr, bir yandan, formal səciyyə daşıyırdı, digər tərəfdən isə, anlaşılmaz-ziddiyyətli məqamlarla dolu idi. Ölkələrarası münasibətlər, demək olar ki, Rusiyanın nəzarətindəydi və onun maraqlarına uyğun istiqamətlərdə, hüdudlarda qurulmuşdu. RSFSR diplomatiyası Quzey Azərbaycan-İran münasibətlərindən özünün beynəlxalq (ələlxüsus da Şərq) siyasəti üçün yararlanmağa çalışırdı.

Güney Azərbaycan milli-demokratik hərəkatı geniş beynəlxalq əks-səda doğursa da vahid Azərbaycanın ərsəyə gəlməsi üçün əsla yetərli olmadı. Buna İrandakı və Şimali Azərbaycandakı daxili-siyasi problemlər, ən başlıcası da mövcud beynəlxalq gerçəkliklər, böyük güclərin maraqları imkan vermədi. Rusiya Azərbaycan SSR-lə İran arasındakı olan-qalan birbaşa ikitərəfli əlaqələrə də son qoydu. SSRİ-nin yaradılması bunun üçün tələb olunan "hüquqi əsasları" da təmin etdi.

§7. Azərbaycan-Gürcüstan münasibətləri: mərhələlər, problemlər, dərslər

AXC dönəmində strateji tərəfdaşlıq səviyyəsinə qədər yüksələn Azərbaycan-Gürcüstan münasibətlərində Aprel çevrilişindən sonra gərgin anlar yaşandı və kəskin problemlər törəndi. Hər iki ölkənin qısa vaxt fərqilə Rusiya tərəfindən yenidən işğalı bu münasibətlərdə bir-birindən seçilən durumlar yaratdı. Bu aspektdən yanaşdıqda formal müstəqillik dönəmində Sovet Azərbaycanının Gürcüstanla münasibətlərində (Ermənistanla olduğu kimi) iki mərhələni ayırmaq olar:

1-cisi, demokratik Gürcüstanla əlaqələr (27.IV.1920-21.II.1921).

2-cisi, sovetləşdirilmiş Gürcüstanla "işbirliyi" (21.II.1921 -30.XII.1922).

Mərhələlərin **birincisində** Quzey Azərbaycan Gürcüstanın da Rusiya tərəfiydən təkrarən tutulması və sovetləşdirilməsində plasdarm rolunu oynadı. Ümumiyyətlə, Sovet Azərbaycanı Rusiya üçün o vaxtlar hər şeyi etmişdi.

N.Nərimanov ikinci tarixi (birincisi (3.IV.1918) S.Şaumyana yazılmışdı) məktubunu (28.VIII.1921) ünvanladığı Q.Orconikidzeyə bildirirdi ki, "cəsarətlə deyə bilərəm: Sovet Rusiyası ilə partiyamız tərəfindən mənə tapşırılanların hamısını yerinə yetirmişəm". **İkinci mərhələdə** isə, bu ölkələr arasında RSFSR tərəfindən düzülüb-qoşulan və əlaqələndirilən "qarşılıqlı faydalı əməkdaşlıq" hər ikisinin formal müstəqilliyinin də itirilməsi ilə sona yetdi.

Ölkələrarası diplomatik əlaqələrin yeni durumu və problemləri

1918-ci ildə bir-birilərini de-yure tanıyan Azərbaycan və Gürcüstan demokatik cümhuriyyətləri arasında dövrün beynəlxalq normalarına müvafiq diplomatik əlaqələr qurulmuşdu. AXC-nin Tiflisdə səfirliyi və Batumda konsulluğu, Gürcüstanın isə Bakıda diplomatik nümayəndəliyi fəaliyyət göstərmişdi.

Azərbaycanın quzeyinin yenidən Rusiyanın işğalına məruz qalması birinci ilə Gürcüstan arasında mövcud olan diplomatik əlaqələrin mahiyyəti və səviyyəsinə də təsir göstərdi. Azərbaycan SSR-in Tiflis və Batumdakı diplomatik orqanlarının durumları və fəaliyyətlərinə dair məsələlər onun partiya-sovet rəhbərliyi tərəfindən vaxtaşırı "nəzərdən keçirildi".

Bu cür təftişçi müzakirələr həmin qurumlardakı "əksinqilabi ünsürlər"in çıxdaş edilməsi prosesinə rəvac verdi. "Təmizləmələr" qonşu ölkədəki diplomatik təmsilçiliklərimizin tərkibinin və başçılarının, sinfi-partiyalı yanaşma əsas tutulmaqla, müxtəlif bəhanələrlə tez-tez dəyişdirilmələrinə şərait yaratdı. AK(b)P MK Siyasi və Təşkilat bürolarının ayrılıqda və birgə keçirilən iclasları (12.VII, 15.X.1920) bu işdə mühüm rol oynadı.

Həmin iclaslarda qəbul edilən qərarlar (Gürcüstandakı diplomatların geriyə çağırılaraq məhkəməyə verilmələri, "tamamilə əksinqilabçı müsavatçılardan" ibarət olan bütün nümayəndəliyin təcili qovulması, vəzifələrə yalnız partiyalı, yəni kommunist-bolşevik yoldaşların təyin edilməsi və s.) tezliklə öz nəticəsini göstərdi.

Siyasi qurum (klub) səviyyəsinə salınan diplomatik nümayəndəlikdə az müddət ərzində bir neçə başçı dəyişdi.

Belə ki, F.Vəkilov, R.İsmayılov, Ə.Sadıxov, M.İsrafilov, R.Nəcəfov Azərbaycan SSR-in hələ ki bolşevikləşdirilməyən müstəqil Gürcüstanda (IV.1920-II.1921) səlahiyyətli nümayəndələri oldular və ya həmin vəzifəni icra etdilər.

Gürcüstandakı nümayəndəlik və konsulluğumuzun durumu, regionda yürüdülən sovet (rus) siyasətinin yanlış tərəfləri və s. məsələlər, o çağın bir sıra diplomatik yazışmalarında da özünə yer almışdı. Məsələn, Tiflisdəki diplomatik təmsilçiliyin başçısı M.İsrafilov XXİK M.Hüseynova məktubunda (X.1920) rəhbərlik etdiyi orqanın işinə əngəl olan məsələləri (informasiya və təlimat əldə etməyin mümkünsüzlüyü, maliyyə vəsaitinin çatışmaması və s.) açıqlamışdı.

Bakıdan yetərli dəstək və yardım görməyəcəyi təqdirdə 1921-ci il fevralın 1-dək istefaya gedəcəyini bildirən M.İsrafilov həmçinin çox vacib bir məqama da toxunmuşdu: Rus inqilabı Şərqdə milli xarakter daşımalıdır və rus qırmızı qvardiyaçılarının süngüsüylə orada kommunizm əkmək olmaz; Azərbaycan Sovet hökumətinin Mərkəzlə əlaqələri düzgün qurulmamışdır. Planlaşdırdığı vaxtdan da əvvəl vəzifəsindən azad edilən M.İsrafilov əvvəllər Batumda konsul müavini işləyən R.Nəcəfovla əvəzlənmişdi.

Daha radikal, solçu "diplomat" olan R.Nəcəfov M.Hüseynova şəxsi-məxfi məktubunda (1.II.1921) Gürcüstandakı diplomatik orqanları "yoxlamağı", onlarda ixtisar aparmağı "məsləhət bilmiş", habelə M.İsrafilovun öz vəzifəsinin icrasını hələ ki dayandırmadığını yazmışdı (Arxiv sənədlərindən R.Nəcəfovun nümayəndəliyin başçısı deyil, onun müavini kimi (5.II.1921) fəaliyyət göstərdiyi də məlum olur).

Ə.Əsgərov-Kəngərlinskinin "Azərbaycan faciəsi" adlı sənəd-materialından bəlli olduğu kimi, o da bir müddət (1.XI.1920-28.II.1921) Gürcüstandakı nümayəndəliyimizdə

hərbi attaşenin adyutantı işləmiş, sonra da (III-IV.1921) respublika Xalq Hərbi-Dəniz komissarlığının Tiflisdəki təmsilçisi vəzifəsini tutmuşdu.

Azərbaycan SSR-in sovetləşdirilən "inqilabi" Gürcüstandakı ilk diplomatik nümayəndəsi isə M.Xəlilov (müavini Mirzədavud Rəsulzadə) təyin olunmuşdu (15.III.1921). Təxminən bu vaxtlardan etibarən Azərbaycanın qonşu ölkədəki diplomatik orqanlarına daha ciddi maneələr yaradıldı:

a) onların fəaliyyəti üçün lazım olan informasiya, təlimatlanma və s. təminatı minimuma endirildi;

b) maliyyə vəsaiti ayrılması sanki "yaddan çıxarıldı". Bu da çox kəskin ixtisarlarla nəticələndi. Məsələn, Tiflisdəki diplomatik nümayəndəlikdəki əməkdaşların sayı 1920-ci ilin sentyabrındakı 40 nəfərdən (onların da 19-u rus, erməni və b. millətlərdən idi) azaldılaraq 1922-ci ilin aprelində Siranuş, Varvara, Artaşes və b. işə götürülməklə 6 nəfərə endirildi (Azərbaycan sovet pulunun bir müddət Gürcüstanda "işləməməsi" də əlavə çətinliklər törətdi);

c) Güney Qafqaz respublikalarının "diplomatik əlaqələri"ni ləğv etməyə hazırlaşan RSFSR hökuməti onların müvafiq orqanlarının da fəaliyyətini yavaş-yavaş məhdudlaşdırdı. Öncə Batumdakı konsulluq (orada əvvəllər M.Əfəndiyev, Ş.Hüseynov, sonra da M.Rəsulzadə çalışmışdı), eyniadlı vilayəti də əhatə edən, səlahiyyətli nümayəndəliklə (R.İsmayılov) əvəz olundu.

Vəzifəsi Türkiyə və Avropa mətbuatını Bakıya çatdırmaqdan ibarət olan həmin nümayəndəliyin "fəaliyyəti" də çox davam etmədi. RSFSR rəhbərliyinin Sovet Azərbaycanının Gürcüstan SSR-dəki təmsilçiliklərinin təcili surətdə bağlanılmasına dair məktubu-göstərişi (8.XII.1921) tezliklə icra olundu. Azərbaycan XKS-nin qərarı ilə Batumdakı səlahiyyətli nümayəndəliyimiz iqtisadi təmsilçiliyə çevrildi

(Ona başçılıq S.Əliyevə tapşırıldı).

Həmin qərarla həm də Azərbaycanın digər sovet respublikalarındakı (Buxara çıxılmaqla) diplomatik nümayəndəliklərinin ləğvi razılaşdırıldı. Az sonra Azərbaycan SSR-in Sovet Gürcüstanındakı diplomatik nümayəndəliyi "fəaliyyətini dayandıraraq səlahiyyətlərini" iqtisadi təmsilçiliyə verdi.

Gürcüstanın Azərbaycan SSR-dəki səfirliyinə gəldikdə isə onun AXC-də diplomatik nümayəndəsi olan N.Alşibaya bir müddət Bakıda fəaliyyətini davam etdirdi. P.Çinidjişvili isə baş konsul vəzifəsində çalışdı. Sonralar (1922-ci ildə) diplomatik nümayəndəliyə S.Jqenti başçılıq etdi. Məlum səbəblərə görə tezliklə dilpomatik nümayəndəliklə baş konsulluq da fəaliyyətlərini dayandırmağa məcbur oldular.

Sovetləşdirilməmiş "menşevik" Gürcüstan ilə münasibətlərin xarakteri

Güney Qafqazın müstəqil dövlətləri arasnıda hamıdan əvvəl bolşevikləşdirilən (işğal olunan) Azərbaycanın Gürcüstan Demokratik Respublikası (GDR) ilə münasibətləri (27.IV.1920-21.II.1921) bir neçə aspektdən xüsusi maraq doğurur. Müxtəlif ictimai-siyasi quruluşlara və xarici siyasət orientasiyalarına malik olan bu iki respublikanın o dövrki münasibətlərində müəyyən xətlər, problemlər və s. mövcud olmuşdur.

Tərəflərin bir-birilərinə münasibətdə yürütdükləri siyasət və tutduqları mövqelər də, təbii olaraq, uzlaşmamışdı. Gürcüstan həm də bilavasitə özünün çeşidli mənafelərindən çıxış edərək Şimali Azərbaycanda milli dövlətçiliyin tezliklə bərpasına ümidli olmuş və buna maraq göstərmişdi.

Azərbaycan SSR isə Gürcüstanın da Rusiya tərəfindən yenidən işğalını asanlaşdıracaq (ona şərait yaradacaq) bir

plasdarma çevrilmişdi. Bu cür fərqli durumlar və onlara əsasən yeridilən xarici siyasət xətləri ikitərəfli qarşılıqlı münasibətlərə də öz damğasını vurmuşdu.

Azərbaycan SSR Rusiyanın Qafqaz siyasətinin yeni (növbəti) mərhələsində istifadə olunan başlıca qüvvələrdən (imkanlardan) biri idi. Ancaq Gürcüstana münasibətdə o, ilk çağlarda bəzi – "müstəqil atılan addımlar" kimi də görünə bilən əlaqələrə girdi və "sevdalara düşdü": ölkələr (xalqlar) arası əlaqələrin saxlanılması, ərazi-sərhəd mübahisələrinin həll olunması, Batum vasitəsilə Qara dənizə (Avropaya-Qərbə) çıxış yolu əldə edilməsi və s. Lakin həmin niyyət – sevdalar Rusiyanın Gürcüstanı da sovetləşdirmək adı altında yenidən işğal etmək planında Azərbaycandan hərtərəfli faydalanılması siyasətinə tabe etdirilmişdi.

Azərbaycan SSR-in GDR ilə münasibətlərində mübahisələr doğuran və hətta ilk vaxtlarda qısamüddətli hərbi toqquşmalara gətirib çıxaran bir sıra məsələlər də olmuşdu:

a) Tiflis Azərbaycan SSR-i Rusiya ilə birlikdə onun işlərinə müdaxilə etməkdə, daxilində təbliğati-terrorçu fəaliyyətlər göstərməkdə, iqtisadi sabotaj-böhranlar törətməkdə və s. təqsirkar sayırdı. Öz növbəsində Sovet Azərbaycanı da "menşevik" Gürcüstanını basqınlarda, əsassız ərazi iddialarında və torpaqlarını tutmaqda, onunla düşmənçilik aparmaqda və s. suçlu hesab edirdi;

b) ərazi-sərhəd mübahisələri üzündən problemlər ortaya çıxmışdı;

c) ölkələrin vətəndaşlarının bir-birilərindəki hüquqi şəraitlərinin tənzimlənməsi;

ç) ticarət-tranzit, poçt-teleqraf əlaqələrinin qaydaya salınması.

Birinci qrupa aid mübahisələri tərəflər arasındakı diplomatik yazışmalarla "yoluna qoymağa" cəhdlər göstərildi.

GDR XİN-in Azərbaycan SSR XXİK-ə (sürəti RSFSR-in Tiflisdəki səfirliyinə) notalarından birində (25.VIII.1920) aşağıdakı iradlar diqqətönünə gətirilirdi:

Gürcüstanda da ictimai quruluşu (siyasi sistemi) dəyişdirmək məqsədilə Rusiya tərəfindən Azərbaycanın vasitəçiliyi ilə təbliğat aparılması; Azərbaycanın dövlət qurumları və rəsmi şəxslərinin adından vərəqələr yayılması (Məlum çağırışları özlərində əks etdirən həmin vərəqələrdə həmçinin "Rusiya Azərbaycan Respublikası Qızıl ordu hissələrinin "qələbəsi" tərifləndirdi).

Azərbaycan hökuməti (XDİK H.Sultanov) isə GDR-ə öz iradlarını çatdırmışdı: Gürcüstana yığışaraq Azərbaycandakı Şura hökumətini devirməyə çalışan "əksinqilabi ünsürlər"ə şərait yaradılması; onun sərhəd dairələri tərəfindən Azərbaycanın Zaqatala mahalında Sovet hökumətinə qarşı təbliğat aparılması və s.

İkinci qisim narazılıqlar ərazi-sərhəd məsələlərilə əlaqədar yaranmışdı. Belə ki, GDR hökuməti ərazi mənsubiyyətləri hələ az öncə ədalətsiz də olsa (bəzi istisnalarla) həll edilən torpaqlar ətrafında yenidən mübahisə açdı. Bununla da Zaqatala dairəsi, Borçalı mahalı, Qarayazı düzü, Sığnax və Axalsıx qəzalarının bu iki ölkədən hansına mənsub olması muzakirələrin obyektinə çevrildi.

Tarixi Azərbaycan torpaqları olan həmin ərazilərin əhalisinin mütləq əksəriyyətini müsəlmanlar (türklər və digərləri) təşkil edirdi. AXC XİN-i əməkdaşı A.Şepotyevin hələ 1919-cu ildə hazırladığı məruzədəki məlumatlar bir il sonrakı mübahisələr dövrünün şəraitini (regionun etnik xəritəsini) əsasən dürüst əks etdirdiyindən onlara söykənmək mümkündür.

Həmin məlumatlara görə, Zaqatala dairəsində əhalinin 91,84%-ni, Qarayazıda – 88,8%-ni, Cığnax qəzasının cənub-şərq hissəsində –100%-ni, Borçalının türk zonasında – 93%-ni müsəlmanlar (azərbaycanlılar və başqaları) təşkil edirdi (Digər bir məlumat isə Axalsıxda yaşayanların 73,5%-nin azərbaycanlılardan ibarət olduğunu təsdiqləyir).

Yeni mübahisələrə başlanıldığı vaxtlarda Gürcüstan Zaqatala dairəsinə iddia edirdi, az öncə Borçalının bir hissəsinə sahib çıxmışdı və Qarayazını, Sığnaxı, Axalsıxı tutmuşdu. Hətta onun qoşunları Bakıdakı Aprel çevrilişi günlərində Poylu körpüsü və stansiyasını da tutaraq Ağstafaya qədər irəliləmişdilər.

Belə bir gərgin siyasi-hərbi qarşıdurma şəraitində tərəflər arasında həm də diplomatik çəkişmələr baş verdi. Bu çəkişmələrin mahiyyətini, tərəflərin mövqe və niyyətlərini onlar arasında gedən "notalar savaşı"da yetərincə açıqlayır:

a) Azərbaycan XXİK-in Ermənistanla yanaşı Gürcüstana da ünvanladığı notalarda (30.IV.1920) onların hərbi hissələrinin torpaqlarımızdan çıxarılması tələb edildi;

b) GDR XİN-i E.Gekeçkorinin cavabında (30.IV.1920) Azərbaycanın yeni hökumətinin Gürcüstana düşmənçilik münasibəti bəslədiyi, habelə "sərhəd anlaşılmazlıqlarına son qoyulması üçün istənilən vaxt sülh danışıqlarına başlamağa" hazır olduqları bildirildi;

c) M.Hüseynovun GDR XİN-ə (surətləri V.Leninə, G.Çiçerinə və digərlərinə) ünvanladığı növbəti notada (3.V.1920) bunlar qeyd olunurdu: gürcü hərbi hissələrinin tərəfsiz Borçalı zonası və Qazaxın Şıxlı kəndinin əhalisindən silahlarını vermələrini tələb etmələri; onların Qırmızı körpüdən Poyluya qədər olan əraziləri tutmaq istəmələri; düşmənçiliyin dərinləşməməsi üçün qoşunların köhnə sərhədlərə çəkilməsi və s.;

ç) E.Gekeçkorinin, surətləri G.Çiçerinə və GDR-in Rusiyadakı səfiri G.Uratadzeyə göndərilən, digər bir notası (3.V.1920) ilə Azərbaycan hökuməti öz qoşunlarını Qırmızı körpü məntəqəsinə hücuma göndərməkdə, gürcü sərhədçilərinin öldürülməsində və s. təqsirkar bilindi, ondan hərbi hissələrini həmin ərazilərdən çıxarması tələb olundu;

d) bu ittihamlar və şərt Azərbaycan XXİK-in dalbadal verdiyi iki (9 və 11.V.1920) nota ilə cavablandırıldı. Birinci-

də gürcü silahlı qüvvələrinin Zaqatala mahalına hücumunun əngəllənməsi istənildi. Sonrakında isə bunlar göstərilirdi: GDR-in verdiyi sözə əməl etməyərək Qırmızı körpünü və Polyunu tutması; Azərbaycan SSR-in Gürcüstanın fəhlə və kəndlilərinə qarşı heç bir işğalçılıq niyyətinin olmaması; Gürcüstanda da zəhmətkeşlərin hakimiyyətinin qurulmasının arzu edilməsi; GDR-in ərazi bütövlüyü və müstəqilliyinin pozulmasının əngəllənməsi məqsədilə Gürcüstanla sərhədlərin bərpasından ötrü Qızıl orduya göstəriş verilməsi; ərazi-sərhəd anlaşılmazlıqlarına son qoyulması üçün danışıqlara başlamaqdan ötrü GDR-in öz səlahiyyətli nümayəndəsini mayın 12-dək Bakıya göndərməsi.

Burada olduqca vacib bir məqama toxunaraq maraqlı bir paralel aparmaqdan yan keçmək mümkün deyildir. Əvvəldə (4-cü paraqrafda) Ermənistanın Azərbaycana ərazi iddiaları üzündən yaranan münaqişənin həlli zamanı sərhəd mübahisələrinin Ararat respublikasının RSFSR-lə münasibətləri müstəvisində "tənzimlənməsinin" önə çəkildiyi vurğulanmışdır.

Gürcüstanla ərazi-sərzəd məsələlərinin qaydaya salınması prosesində də belə oldu. Belə ki, RSFSR-GDR sazişi (7.V.1920) və Rusiyanın Gürcüstanın müstəqilliyini tanıması-na dair müqavilə (13.V.1920) ilə üç məsələ barəsində razılığa gəlindi:

1. Gürcüstanla Azərbaycan arasındakı fəal hərbi əməliyyatların dayandırılması; **2.** Ərazi-sərhəd mübahisələrinin tənzimlənməsi məqsədilə qarışıq komissiyanın yaradılması; **3.** Zaqatala dairəsinə əlavə hərbi hissələrin göndərilməməsi.

RSFSR-GDR arasında saziş və müqavilənin imzalanmaları da Azərbaycan-Gürcüstan notalaşmasına ara vermədi. Bu, bir yandan, həmin sənədlərdə nəzərdə tutulanların gerçəkləşdirilməsi üçün lazım gələn konkret işlərin görülməsi zərurətindən irəli gəlirdi. Digər yandan da, tərəflər arasında vaxtaşırı yaranan yeni anlaşılmazlıqlarla əlaqədar idi. GDR XİN-in (13.V və 1.VI.1920) və Azərbaycan XXİK-in

(15.V.1920 və s.) notalarında qaldırılan məsələləri isə xülasə şəklində belə ifadə etmək olar:

1-cisi, tərəflərin bir-birilərini hərbi təcavüzdə və düşmənçiliklə təqsirləndirmələrinin davam etməsi. **2-cisi,** gürcü qoşunu-nun lap yenicə (14.V.1920) tutduqları Şıxlı, Kəmərli və b. kəndlərdən dərhal çıxmaları. **3-cüsü,** hərbi əməliyyatların dayandırılması və atəşkəsə əməl olunması. **4-cüsü,** danışıqlar üçün nümayəndə heyətlərinin müəyyənləşdirilməsi, **5-cisi,** tezliklə Ağstafa şossesi yaxınlığında danışıqlar aparılması və sülh müqaviləsinin bağlanması (yeri GDR təklif etmişdi) və s.

Tərəflərin öz nümayəndə heyətlərinə verdikləri müəyyən təlimatlar da bəzi məsələlərə aydınlıq gətirilməsi baxımından maraq doğurur. Azərbaycan XXİK-i, bir sıra ümumi səciyyəli məsələlərin həllilə yanaşı, aşağıdakılara da nail olunmasını nəzərdə tuturdu:

Azərbaycanın, GDR hərbi hissələri tərəfindən zəbt olunan, ərazilərinin təcili (bir neçə saat ərzində) azad edilməsi və ölkələrarası sərhədlərin əvvəlki (27.IV.1920) hüdud-larda tənzimlənməsi; Azərbaycanın Gürcüstandakı bütün vətəndaşlarının və habelə Güney Qafqaz Konfederasiyasın-dakı nümayəndə heyətinin vətənə dönməsinə icazə verilməsi; barışığın (sazişin) yeddi günə imzalanması.

1920-ci il iyunun əvvəllərində başlanan danışıqlar tez-liklə Ağstafa müqaviləsinin (12.VI.1920) bağlanması ilə yekunlaşdı. Müzakirələrin çox tezliklə və özü də müsbət nəticə-lənməsinə bəzi amillərin ciddi təsiri oldu. Bu işdə:

a) GDR-in öz maddi ehtiyaclarını (neft, ərzaq və s.) Azər-baycanın hesabına ödəmək niyyəti; **b)** Azərbaycanın isə Gürcüs-tanın geosiyasi imkanlarından (Qara dənizə çıxış və s.) yarar-lanmaq istəyi; **c)** habelə Zaqatala dairəsi əhalisinin müəyyən his-səsinin Sovet – yeni rus işğalı ilə razılaşmayaraq gürcü tərəfinə keçib XI orduya qarşı vuruşmaları da mühüm rol oynadı.

İlk iki faktorun önəmi Azərbaycan tərəfinin Ağstafa müqaviləsinin layihəsinə yazdığı rəydə də bu və ya digər də-

rəcədə vurğulanmışdı: "Gürcüstan hazırkı vaxtda Bakı nefti olmadan yaşaya bilməz. Batum Azərbaycan üçün yalnız müvəqqəti əhəmiyyətə malik ola bilər. Qərblə ticarətdə onu istənilən zaman Qara dənizin başqa limanları ilə əvəzləmək olar. Gürcüstanın özü Quzey Qafqazdan və İrandan ərzaq gətirməkdə Azərbaycana möhtacdır. İndiki halda Gürcüstanın ərzaq alması neftdən az önəmli deyildir".

Sülh və dostluq haqqındakı Ağstafa müqaviləsi 18 maddədən ibarət idi. Onları Azərbaycan tərəfindən XXİK M.Hüseynov və CDR adından isə Hərbi nazir G.Lordkipanidze və b. imzaladılar. M.Qasımov tərəfindən elmi dövriyyəyə gətirilən bu müqavilənin maddələri aşağıdakı məsələlərin həyata keçirilməsini nəzərdə tuturdu:

1-2. Hərbi əməliyyatların dayandırılması, tərəflərin bir-birilərilə möhkəm sülh və dostluq münasibətləri yaratmaları, əsirlərin qaytarılmaları, dövlətlərarası sərhədlərin müəyyənləşdirilməsi.

3-6. Bir il qüvvədə olacaq – hər hansı bir tikinti aparılması və hərbi hissə saxlanılması istisna edilən – tərəfsiz zonaların yaradılması; bu işlərin görülməsinə nəzarət üçün dörd nəfərlik (2+2 qaydası ilə) qarışıq komissiyanın təşkili. Qırmışı körpü və Zaqatala qəzası ilə əlaqədar məsələlərin tənzimlənməsi.

7-9. Tərəflərin suverenliyinin qarşılıqlı olaraq qeydşərtsiz tanınması və bir-birilərinin daxili işlərinə müdaxilədən imtina edilməsi, gerb və bayraqların qarşılıqlı tanınması, müqavilədən dərhal sonra diplomatik və konsulluq əlaqələrinin qurulması, bunun üçün lazım olan normaların xüsusi sazişlə müəyyənləşdirilməsi.

10-11. Öz ərazilərində Azərbaycan və Gürcüstan hakimiyyətinə iddia edən hər hansı qrup, təşkilat, şəxsin fəaliyyətinə icazə verilməməsi və habelə onlara yardım göstərilməməsinə dair öhdəliklər götürülməsi.

12-13 və **16.** Qarşılıqlı əlverişli iqtisadi-ticarət şəraitinin yaradılması, müvafiq müqavilə imzalananadək azad ticarət prinsipinin tətbiq olunması, Azərbaycan heyvandarlarının gürcülərin yaylaqlarından sərbəst və əngəlsiz istifadə edə bilmələrinə şəraitin yaradılması.

14-15, 17. Tərəflərin təbəələrinin əmlaklarının qarşılıqlı surətdə qaytarılması, vətəndaşlara aid məsələlərin xüsusi saziş bağlananadək qarışıq komissiya vasitəsilə həll edilməsi və onların hamısının azad şəkildə vətənlərinə dönə bilmələri imkanının verilməsi.

18. Müqavilənin imzalandığı andan qüvvəyə minməsi və təsdiqlənməsi, ratifikasiya sənədlərinin iki həftə ərzində Tiflisdə mübadilə edilməsi.

Müqaviləyə əlavə olaraq imzalan 4 maddəlik sazişə görə isə: **a)** Azərbaycan Gürcüstana neft və neft məhsulları göndərməli; **b)** əvəzində ekvivalent sayda və məbləğdə manufaktura ilə kağız almalı; **c)** Gürcüstan, tərəflərin bərabər qaydada ayırdığı vəsaitlə, Poylu körpüsünü bərpa etməli; **ç)** vətəndaşlara vurulan ziyan ödənilməli idi.

Ağstafa danışıqları və diplomatik razılaşmaları Azərbaycan SSR-GDR münasibətlərindəki problemlərin hamısını yoluna qoya bilmədi. Bu həm də Rusiyanın Qafqaza (Gürcüstanla Ermənistana) dair məqsədlərini hələ ki tamamilə gerçəkləşdirə bilməməsilə əlaqədar idi.

Ağstafa müqaviləsi ilə də özünün bəzi niyyətlərini az da olsa həyata keçirə bilən RSFSR hökuməti ondan həmçinin tərəflərə (ən çoxu da GDR-ə) bir təzyiq vasitəsi kimi yararlanmağa çalışırdı. Ağstafa sənədləri təsdiqləndikdən (VI.1920) sonra bəzi əməli işlərin görülməsinə də səylər göstərildi. M.Hüseynova GDR ilə düzgün və səmərəli əlaqələr yaradılması üçün əlavə səlahiyyətlər (xüsusi mandat) verildi.

Ancaq yenə də "notalar savaşı" mərhələsi yaşandı. Azərbaycan XXİK-in (14.VI, 8.VIII.1920) və GDR XİN-in (3.VIII, 8.IX.1921) notalarındakı "yeni fikir" tərəflərin Ağstafa müqaviləsini pozmalarına dair söylənilən qarşılıqlı irad-

lardan ibarət idi. Həmçinin Azərbaycan Gürcüstanı Zaqatala mahalında onun "əleyhinə üsyan hazırlamaqda və ikinci də birincini sərhədə qoşun toplamaqda" günahkar sayırdı.

Azərbaycan tərəfinin mövqeyi AK(b)P MK Siyasi və Təşkilat bürolarının birgə iclasında (15.IX.1920) "Gürcüstana münasibətdə siyasət" məsələsinin müzakirəsi zamanı daha da konkretləşdirildi. Nəticədə əvvəlki xəttin yeridilməsi, müharibə edilməməsi, neft verilməməsi və müxtəlif bəhanələrlə danışıqların uzadılması qərara alındı. Gürcüstanda isə ikitərəfli əlaqələrə (müqavilənin gerçəkləşdirilməsi və s.) yanaşmada fərqli mövqelər ortaya çıxmışdı. Siyasət və dövlət adamları ona ümidlər bəsləsə də mətbuatda kəskin müxalif fikirlər səsləndirilirdi.

Məsələn, "Sakartvelo" qəzeti (17.X.1920) Ağstafa müqaviləsindən narazılığını gizlətməyərək M.Hüseynovun "Azərbaycan Gürcüstanın iştahasını təmin etmək barədə düşünmür" cümləsindən bərk yapışaraq onu "Moskvanın nökəri" adlandırırdı. Rusiyanın Azərbaycan SSR vasitəsilə yürütdüyü təzyiq siyasəti sayəsində Gürcüstandakı durum getdikcə ağırlaşırdı. Əsirlərin dəyişdirilməsilə bağlı Tiflisdə ingilis və fransız müvəkkilləri ilə müzakirələr aparan M.Hüseynov oradan N.Nərimanova yolladığı teleqramda (30.IX.1920) yazırdı ki, "gürcülər əsl mənada daha yaşaya bilmirlər: ölkə məhv olur".

Belə bir qarşılıqlı gərgin münasibətlər şəraitində iş yenə də notalar mübadiləsinə qalırdı. Habelə Rusiyaya geniş manevr meydanı açılırdı. O özü yaratdığı vəziyyətin əlverişli imkanlarından bəhrələnməni yubatmaq istəmirdi. Azərbaycan SSR ilə GDR arasındakı növbəti notalaşmanın da (15, 17, 19, X.1920) təbii nəticəsizliyi tərəfləri (ən çoxu da Gürcüstanı) Rusiyaya üz tutmağa vadar edirdi.

Mövcud durumdan yararlanma fürsətini əsla qaçırmayan RSFSR diplomatiyası yenə də "vasitəçilik missiyası"na girişdi. Hərbi imkanlarının məhdudluğu üzündən diplomatik-siyasi vasitələrə üstünlük verən Rusiya Qafqazı antantapərəst (qərbyönümlü) qüvvə və düşüncələrdən təmizləmək üçün Gürcüstana həm təzyiq edir, həm də onu şirniklendirirdi; buna görə də kompomislərdən əsla yayınmırdı.

Zaqatala dairəsinə Rusiya hərbi hissələrinin yeridilməsi, Azərbaycandan Gürcüstana neft verilməsi və digər məsələlərdə tutulan mövqelər də bunu isbatlayır. Birinci məqamla bağlı G.Çiçerinin müvafiq diplomatik-hərbi orqanlara verdiyi "tövsiyə" əsas götürüldü: XI ordu hissələri Zaqatala dairəsini tuta bilməzlər və məsələnin həlli Gürcüstan-Azərbaycan qarışıq komissiyasına həvalə edilməlidir.

Həmçinin GDR XİN-i ilə Rusiyanın Gürcüstandakı səfiri Şeynman arasındakı diplomatik yazışmadan da (28.X. və 2.XI.1920) XI ordu hissələrinin Zaqatala və Qazax ətrafında cəmləşməsinin də "RSFSR-in işğalçılıq planlarına dəlalət etmədiyi" aydın olur. Azərbaycandan Gürcüstana neft verilməsinə gəldikdə isə RSFSR tərəfi hələlik buna qarşı çıxırdı.

İ.Stalinin Bakıdan V.Leninə verdiyi (5.XI.1920) "Gürcüstan hökuməti daxilində ixtilafları qızışdırmaq və vaxt udmaq üçün ona azca neft vermək lazımdır" kimi məsləhət də təsirsiz qaldı. Bununla əlaqədar olaraq Şeynman GDR XİN-ə ünvanladığı notada (11.XII.1920) yazırdı ki, Azərbaycanın və RSFSR-in Ermənistanla əlaqələrinə maneələr törətdiyinə və habelə digər mühüm səbəblərə görə Gürcüstana neft verilməsi dayandırılır.

Üçüncü blok çəkişmə və anlaşılmazlıqlar ölkələrin vətəndaşlarının bir-birilərindəki hüquqi şəraitlərinin tənzimlənməsi zamanı özünü göstərirdi. Bakıdakı Aprel çevrilişindən sonra Azərbaycan SSR-də və GDR-də bir-birilərinin təbəələrinə münasibətdə çoxlu xoşagəlməz hallar baş verdi. Azərbaycanın xeyli vətəndaşı, hətta diplomatlar müxtəlif təzyiqlərlə üzləşdilər, həbs edilənlər də oldu. Bunu da mütləq qeyd etməyə ehtiyac vardır ki, həmin təzyiqlərin (həbs və s.) xeyli hissəsi XI ordu Xüsusi şöbəsinin rəisi və sonra da Azərbaycanda Fövqəladə Komissiyanın sədri işləyən "məşhur" Pankratovun işi idi.

Ə.Əsgərov – Kəngərlinskinin "Azərbaycan faciəsi" adlı məlumatında bu barədə bir sıra mühüm faktlar vardır. Həmin sənəddən məlum olur ki, məhz Əsgər bəyin səyləri sayəsində 216 əsgər və 32 zabit (sonuncuların arasında AXC hökumətində yüksək vəzifələr tutanlar da az deyildi) azadlığa buraxılmışdı. Xüsusi şöbənin ölüm cəzasına məhkum etdiyi M.Əliyev də (AXC-nin GDR-dəki səfirliyinin hərbi attaşesi) onun yaxından köməyilə həbsdən çıxmış və hətta bir müddət Azərbaycan SSR-in Batumdakı konsulu işləmişdi.

GDR-in müvafiq qurumları tərəfindən həyata keçirilən bir həbs hadisəsi isə diplomatik qalmaqal yaratdı. Azərbaycan SSR-in Batumdakı konsulu M.Əfəndiyevin həbs edilərək (VII.1920) Tiflisə aparılmasına XXİK-in notası (10.VII.1920) ilə etiraz olundu. Həbsin "motivi" (konsul təyinatına dair sənədin təqdim edilməməsi) əsassız sayıldı. GDR XİN-i isə M.Əfəndiyevin azad olunmasını təmin etsə də onu konsul kimi tanımadı. Azərbaycan SSR XXİK-i GDR XİN-ə digər bir notası (21.X.1920) ilə vətəndaşlarının qonşu ölkədə kütləvi şəkildə həbs olunmalarını pisləndi.

Öz növbəsində GDR hökuməti də Azərbaycanın Tiflisdəki nümayəndəliyinin "RSFSR-in kəşfiyyat qurumuna" çevrilməsini ölkələrarası münasibətlərə ciddi xələl gətirən akt kimi səciyyələndirdi. GDR XİN-i habelə nota verərək "yerli gürcü kommunistlər" adı altında bəzilərinin Azərbaycanın Tiflisdəki səfirliyinə işə qəbul olunmalarını da (28.VII.1920) qeyri-məqbul saydı.

Nümayəndəliyin "gecə gəzintiləri şübhə yaradan" bəzi əməkdaşları həbs edildilər (XII.1920). Onların sırasında ərazi-sərhəd mübahisələrini tənzimləmək üçün yaradılan respublikalararası Qarışıq komissiyanın Azərbaycanı təmsil edən üzvü M.Tomayev, Gürcüstandakı diplomatik nümayəndəliyimizin birinci katibi K.Ketevanidze və b. var idi. Həmin şəxslər GDR əleyhinə təxribatçılıqda, təbliğati fəaliyyətdə, RSFSR-in hərbi kəşfiyyatının casusu olmaqda və s.

ittiham edilirdilər.

Bu irad və ittihamlar CDR XİN-i vəzifəsini icra edən G.Sabahtaraşvilinin Azərbaycanın xarici siyasət idarəsinin notasına (28.XII.1920) cavabında (15.I.1921) səsləndirilmişdi (Həbs olunanlar sonralar azad edilərək "persona non qrata" elan edildilər). Gürcüstan tərəfinin Borçalı və Axalsıxdakı azərbaycanlı qaçqınlara yardım göstərmək istəyi (vədi) "Rusiya Azərbaycan respublikası"nın əks məzmunlu tədbirlərilə qarşılaşdı. Belə ki, bilavasitə RSFSR-in "tövsiyəsi" (təzyiqi) ilə GDR-in Bakıdakı nümayəndəliyində həbslər aparıldı. Gürcüstana neft göndərilməsinə fasilə verildi. XI orduda xidmət edən gürcü əsilli həkimlər tərxis olundular və s.

Dördüncü qrup mübahisələrə gəldikdə respublikaların ticarət-tranzit, poçt-teleqraf və başqa sahələrdəki əlaqələrində də problemlər vardı. Onların həlli üçün də müəyyən diplomatik səylər göstərildi və əməli addımlar atıldı. GDR-in Bakı-Tiflis teleqraf xəttinin bərpasına dair təklifi elə 1920-ci ilin mayındaca yerinə yetirildi. Üçtərəfli (RSFSR+Az.SSR+GDR) ticarət-tranzit sazişi (Tiflis, 14.XI.1920) ilə bəzi problemlərin həllinə yol açıldı. 20 maddədən ibarət sazişi həm də protokol və 3 bəndlik məxfi sənəd tamamlayırdı. Sazişin şərtlərinə görə:

a) ticarət-tranzit müqaviləsi bağlananadək GDR-ə Azərbaycandan və RSFSR-dən müəyyənləşmiş həcmdə neft məhsulları göndərilməli idi; **b)** Rusiya və Azərbaycan GDR ilə əlaqələrindəki ticarət-tranzit rüsumlarından azad olunurdular; **c)** tərəflər neft kəməri və s. ilə əlaqədar müəyyən öhdəliklər götürürdülər.

Məxfi sənədin 3-cü bəndinə əsasən GDR, müqavilə üzrə tərəfdaşlarından savayı, heç bir dövlətin Gürcüstandakı neft anbarlarının mühafizəsinə təminat vermirdi (Bu öhdəlik Ermənistana verilən neftə şamil edilmirdi). Azərbaycan XXİK-in GDR XİN-ə notasından (16.XI.1920) da bəlli olduğu kimi, həmin sazişə əsasən tezliklə Bakıdan Gürcüstana 2 mln. pud neft məhsulları göndərilmişdi.

GDR hökuməti də öhdəliklərə əməl edəcəyini bildirmişdi. Tərəflərarası iqtisadi-ticarət, tranzit, teleqraf və s. əlaqələri az sonra yaxşılaşmağa doğru getdi. Bu isə ən başlıcası qonşu Gürcüstanda ictimai-siyasi quruluşun zorla (RSFSR vasitəsilə) dəyişdirilməsinin artıq həyata keçirilmək üzrə olması ilə əlaqədar idi.

Bolşevikləşdirilmiş Gürcüstanla əlaqələrdəki yeni cəhətlər

Rusiya Qafqazın bütünlüklə təkrar işğalını başa çatdırmaqda israrlı idi. Bu məqsədlə də müxtəlif yollar aranır, vasitə və formalar axtarılırdı. Güney Qafqazın, o cümlədən də Gürcüstanın sovetləşdirilməsi, yəni yenidən işğal edilməsi hazırlanırdı. Ermənistandan sonra növbə ona çatmışdı. GDR-i də tarixə qovuşdurmaq işində dəstəkçilər və Gürcüstana hərtərəfli müdaxiləyə fəal yardım göstərənlər tələb olunurdu. Bu missiyanı ardıcıllıqla və yetərincə həyata keçirənlərdən biri də Sovet Azərbaycanı sayıla bilər.

Çoxsaylı arxiv sənədlərinin və dövrün partiya-dövlət xadimlərinin çıxışlarının (baxışlarının) da təsdiqlədiyi kimi, Gürcüstanın sovetləşdirilməsinə hazırlığın baş meydanlarından biri də Quzey Azərbaycan idi. Burada görülən müvafiq tədbirlər sırasında ideoloji-təbliğat işi və s. ilə bərabər Gürcüstana maddi-maliyyə yardımı məsələləri də mühüm yer tuturdu. Bununla əlaqədar olaraq yenə də N.Nərimanovun çıxış və nitqlərində səslənən fikirlərə müraciət etmək lazım gəlir. Onların bəzilərini, əlavə şərhə ehtiyac görmədən, burada xatırlatmaq yerinə düşərdi:

- həm Gürcüstan, həm də Ermənistan bizim yardımımıza möhtacdırlar. Kiçik Azərbaycan onlar haqqında düşünməli və bu iki respublikanın həyatını təmin etməlidir. Buna görə də, əlbəttə, həmin respublikalara neft verilir (Umumazərbaycan sovetləri I qurultayının 3-cü iclasındakı (8.V.1921) nitqindən);
- əgər Azərbaycanın müsəlman kommunistlərinin əksəriyyəti millətçi olsaydı Gürcüstana müftə neft verilməzdi (Respublikanın kommunist təşkilatında aparılan "təmizləmələr" (IX-XII.1921) prosesində onu və digər həmfikirlərini millətçilikdə suçlayanlara cavabından);
- bizim möhkəm vəziyyətimiz, proqramımızı Sovet Azərbaycanında ağıllı həyata keçirməyimiz nəinki Gürcüstanda və Ermənistanda, həm də İranla Türkiyədə zəhmətkeşlərə nəhəng təsir göstərəcəkdir. İnqilab Ermənistanla Gürcüstanın kütlələrini də əhatə edəcəkdir və Qırmızı bayrağın Tiflislə İrəvanda dalğalanacağı gün uzaqda deyildir (Azərbaycanı gəzərkən (30.IX.-14 X.1920) Qazaxda söylədiyi nitqdən);
- bizim şanlı Qızıl ordumuz indi Tiflisin 6 verstliyindədir və tezliklə orada olacaqdır. Sovet Ermənistanı və Sovet Gürcüstanı həmişə bizə baxırlar və bizə ümid edirlər. Bu gənc sovet respublikaları yardım üçün daim bizə müraciət edəcəklər. Əgər Qırmızı bayrağın uca Qafqaz dağlarında möhkəm dayanmasını istəyiriksə, siz bu gündən etibarən həmin gənc sovet respublikalarına lazım olan hər şeylə yardım göstərməyə söz verməlisiniz (AK(b)P-nin III qurultayındakı çıxışından (18.II.1921).

Gürcüstanın Rusiya tərəfindən yenidən işğalı prosesi və bu işdə Azərbaycan SSR-dən istifadə olunması yaxın xarici dövlətlərinin (Türkiyə və b.) diqqət mərkəzində idi. İnqilabi Türkiyə üzləşdiyi ağır hərbi-siyasi problemləri dəf edəndə Gürcüstanda və onun ətrafında baş verənləri məqsədyönlü şəkildə izləyirdi. TBMM hökumətinin xarici siyasətinin tədqiqatçılarından olan S.Sonyel kamalçı Türkiyənin Gürcüstanla əlaqədar niyyətlərini (planlarını), ingilis məxfi xidmət orqanlarının raportlarına əsasən, belə ifadə etmişdi:

1. Batuma yenidən sahib durmaq. **2.** Sərhəd problem-

lərini həll etmək. **3.** Ermənistanla müharibədə GDR-in tərəfsizliyinə nail olmaq. **4.** Sovet Rusiyasının Anadoluya nüfuz etməsini önləmək üçün Gürcüstanı bufer bir bölgə halına salmaq. **5.** Müttəfiqlərlə müqavilə və Rusiya ilə qarşıdurma şəraitində, yardımına çox ehtiyac duyulan, Gürcüstanı bir yedək olaraq saxlamaq və s.

Öz növbəsində GDR liderləri RSFSR-in Qafqazda və Şərqdəki "dinc, sülhsevər" niyyətlərinə dair bəyanatlara əsla inanmırdılar. Onlar Türkiyə ilə ittifaq qurmaq və quzeydəki gücə (Sovet Rusiyasına) qarşı bir Qafqaz Konfederasiyası yaratmaq istəklərini də gizlətmirdilər (Yeri gəlmişkən, Rusiya diplomatiyası bir ara CDR-lə TBMM-in gizli müqavilə bağlamış olmasından xeyli qayğılanmışdı).

Gürcü tərəfi bu məsələlərin gerçəkləşməsində, ən azından da Türkiyənin GDR-ə dair əsl məqsədlərinin aydınlaşdırılmasında Azərbaycan SSR-in imkanlarından yararlanmağa çalışırdı. Buna görə də GDR-in Azərbaycan XXİK-ə notalarında (2 və 11.X.1920) Türkiyənin hərbi əməliyyatlarının hədəfləri və hüdudlarının öyrənilməsinə dair müəyyən məlumatlar əldə olunması istənildi.

Sovet diplomatiyasının yönləndirdiyi rəsmi Bakı isə Mərkəzin tapşırığına uyğun şəkildə, Türkiyə ilə ola biləcək silahlı qarşıdurmada, GDR-in görəcəyi tədbirlərlə (imkanlarla) maraqlandı. Paralel surətdə Gürcüstana hərtərəfli müdaxiləyə yönəlik işlər görülməsi sürətləndirildi. Sovet Bakısındakı gürcü kommunistləri də cəlb edilməklə GDR-ə qarşı "bəhanələr axtarışı" genişləndirildi.

"Azərbaycanlı məmurların GDR-də həbs edilmələri", "Gürcüstandakı müsəlman fəhlə və kəndlilərin, qaçqınların incidilmələri", "onların yardım üçün Bakıya üz tutmaları" və s. böhtan-bəhanələr "əsas tutuldu". RSFSR-dən rəsmi Tiflisin də "dərsini verməsi" xüsusi nota göndərilərək (17.II.1921) xahiş olundu. Rusiya AK(b)P III qurultayının (11-18.II.1921) "razılığı və AİK-in əmri" adı altında XI ordu hissələrini göndərərək Tiflisi işğal etdi (21.II.1921). Gürcüstan da tezliklə tamamilə sovetləşdirildi.

Bununla da "vahid sovet ailəsi"ndə birləşdirilməyə hazırlanan Azərbaycan və Gürcüstan arasındakı əlaqələr keyfiyyətcə yeni mərhələyə qədəm qoydu. Bolşevikləşdirilmiş Azərbaycanın "menşevik" Gürcüstanı ilə düşmənçilik münasibətlərindən artıq hər ikisi də sovetləşdirilmiş olan qonşu ölkələrin "işbirliyinə, qarşılıqlı faydalı əməkdaşlığı"na keçid başladı. Azərbaycan "dost və qardaş" Ermənistana münasibətdə olduğu kimi, öz sərvətlərinin qapılarını Gürcüstanın da üzünə geniş açdı:

a) öncə əsas diqqət neft göndərilməsinə verildi. Bu məqsədlə də Bakı-Tiflis-Batum neft kəməri işə salındı (III.1921);

b) xüsusi sazişlə (2.VI.1921) xarici ticarət orqanları birləşdirildi. Güney Qafqazın üç respublikasının xarici ticarətini əlaqələndirən qurum Birləşmiş Xariclə Ticarət İttifaqı ("Obyneştorq") və onun tabeliyində olan "Neftekom" yaradıldı. Azərbaycan XKS-nin müvafiq qərarına uyğun olaraq Gürcüstanla da gömrük rejimi ləğv olundu (11.VI.1921). Bunun "eyni daxili quruluşlu respublikaların iqtisadi cəhətdən birləşməsi və Avropanın kapitalist ölkələrinə qarşı birgə fəaliyyət" zərurətindən irəli gəldiyi qeyd edilirdi;

c) əvvəllərdə "lazım olan, işə yarayan" ərazi-sərhəd mübahisələrinə ehtiyac qalmadığından (təbii ki, hələlik) onların tənzimlənməsi vacib sayıldı. Cənubi Qafqaz respublikalarının daxili sərhədlərini müəyyənləşdirən Qarışıq komissiyanın fəaliyyətinin nəticələri yekunlaşdırıldı. Bu kontekstdə də Tiflisdə Azərbaycan ilə Gürcüstan arasındakı sərhəd məsələlərini bəzi məntəqələr (Qırmızı körpüdən şimala doğru) üzrə tənzimləyən üç paraqrafdan ibarət saziş bağlandı (5.VII.1921).

Az sonra Güney Qafqaz respublikaları arasındakı daxili sərhədlər məsələsinə dair konfrans keçirildi. Onun Azərbaycanla Gürcüstan arasında sərhəd xəttinə aid qətnaməsi (5.VIII.1921) ilə də bəzi məsələlərin qaydaya salınmasına

cəhd edildi. N.Nərimanov və s. imzaladığı 5 bəndlik qətnamədə aşağıdakılar nəzərdə tutulurdu:

1. Siyasi sərhədlər olduğu kimi saxlanılırdı. **2.** Qazax qəzasının kəndliləri Qarayazı düzündən müstəsna mülkləri kimi istifadə edə bilərdilər; burada sərhədlər dəqiqləşdirilirdi. **3.** Eldar düzünün məsələsinin həlli Qarışıq komissiyaya həvalə olunurdu. **4.** Gürcüstan Zaqatala dairəsinə olan iddialarından əl çəkirdi və Gürcüstan İnqilab Komitəsi müvafiq bəyanat verməli idi. **5.** Hər iki tərəfin kəndliləri indiyədək istifadə etdikləri ərazilərdən bundan sonra da faydalana bilərdilər.

Gürcüstanın sovetləşdirilməsindən sonra onunla Azərbaycan arasında bağlanan bir sıra müqavilələr və s. sonuncunun MİK-i tərəfindən tezliklə (5.X.1921) təsdiqləndi. Həmin müqavilələrdə, qətnamə və digər siyasi-diplomatik sənədlərdə nəzərdə tutulanlar isə Qarışıq komissiya, habelə başqa qurumlar vasitəsilə gerçəkləşdirildi.

Tezliklə (15.XI.1921) iki respublika arasındakı sərhədlərə dair daha bir saziş bağlandı (onu Azərbaycan tərəfdən MİK sədri M.Hacıyev imzaladı). PK(b)P MK Qafqaz bürosunun plenumunda (8.XII.1921) isə gündəliyin "Azərbaycan məsələləri" bölümündə "Qarayazı meşələri haqqında"kı müzakirələrdən sonra belə bir razılaşma əldə edildi: **a)** adıçəkilən meşələrin sahibi Azərbaycan XKS hesab olunur; **b)** orada tədarükə icazəni də həmin orqan verir.

Rusiyanın yenidən işğal etdiyi bu iki ölkənin münasibətlərindəki problemlər Gürcüstanın sovetləşdirilməsilə qismən də olsa həll edildi. Ancaq qarşılıqlı əlaqələrdə müəyyən çətinliklər, anlaşılmazlıqlar, əngəllər və s. qalmaqda (saxlanılmaqda) idi. Onların sırasında aşağıdakılar xüsusilə diqqət cəlb edir:

- yaxın keçmişin mirasının və hələ də davam etməkdə olan bəzi proseslərin təsiri;
- Rusiyanın artıq üstüörtülü şəkildə edilən təzyiqləri;

- Azərbaycanın pul vahidinin Gürcüstanda sərbəst olaraq işlədilməsinin mümkünsüzlüyü;
- ölkələrin bir-birilərindəki vətəndaşlarının hüquqi şəraitlərinin axıradək tənzimlənməməsi;
- yerlərdə özünü vaxtaşırı göstərən torpaq, örüş və digər mübahisələri və s.

Bu kimi "canısulu problemlər" bir müddət də qalmaqda davam etdi. Tezliklə ikitərəfli əlaqələrə son qoyuldu və "vahid sovet ailəsi"ndə birlikdə fəaliyyət göstərmək xəttinə üstünlük verildi. SSRİ-nin təşkili bu prosesə hərtərəfli təkan oldu.

***

1920-1922-ci illərdəki Azərbaycan-Gürcüstan münasibətləri ölkələrdəki fərqli ictimai-siyasi quruluş, xarici güclərin təsiri və s. üzündən müəyyən problemlərlə qarşılaşdı. AXC-GDR strateji tərəfdaşlığı düşmənçilik və s. ilə əvəzləndi. Müstəqil GDR ilə Azərbaycan SSR-in qarşılıqlı əlaqələrində zaman-zaman gərgin anlar yaşandı. Rusiya Azərbaycan SSR-in imkanlarından və s. yararlanaraq Gürcüstanı da sovetləşdirə (işğal edə) bildi.

Bundan sonrakı Azərbaycan-Gürcüstan münasibətləri fərqli səviyyə və müstəvidə oldu. Bu ölkələrin həmin dövrdəki əlaqələrinin xarakteri və nəticələri tərəflərə bir sıra tarixi dərslər də vermişdir. Müstəqil dövlətçilik, "Qafqaz evi" naminə və habelə beynəlxalq-regional təzyiqlərə qarşı həmişə birlikdə olmaq ehtiyacı və s. həmin dərslər sırasında xüsusi önəm daşıyır. Hazırda müstəqil dövlətlər olaraq beynəlxalq birliyə qoşulan Azərbaycan və Gürcüstan respublikalarının bu dərsləri daima nəzərə almaları taleyüklü zərurət və tarixi vəzifədir.

İKİNCİ BÖLÜM

AZƏRBAYCAN DİASPORASI VƏ SİYASİ MÜHACİRƏTİNİN DÖVLƏTÇİLİYİMİZİN BƏRPASI UĞRUNDA MÜBARİZƏSİ (20-80-ci illər)

Azərbaycanın dövlətçiliyinin (müstəqilliyinin) XX əsrin əvvəlləri və sonlarında baş verən bərpalarında diasporamızın və siyasi mühacirlərimizin böyük əməyi və xidmətləri olmuşdur. XIX-XX əsrlərdə yaranan Azərbaycan diasporası və siyasi mühacirətinin formalaşması prosesi müəyyən mərhələlərdən keçmişdir. Onların yaranması ayrı-ayrı dönəmlərdə fərqli səbəblərdən irəli gəlmişdir. Azərbaycan diasporası və siyasi cəmiyyəti həm də çox geniş coğrafiyanı əhatə etmişdir.

Dövlətçiliyimizin bərpası naminə XX əsrin 20-80-ci illərində aparılan mübarizədə mühacirətdaxili fikir ayrılıqları və ixtilaflar da olmuşdur. Azərbaycan siyasi mühacirəti həmçinin SSRİ-dəki gizli müqavimət hərəkatı və antisovet qüvvələrlə sıx əlaqələr saxlamışdı. Onun fəaliyyətində ermənilərin Ümumqafqaz siyasi mühacirətinə yaratdığı problemlərin aradan qaldırılması məsələləri də mühüm yer tutmuşdu.

Azərbaycanın bu dövr siyasi mühacirəti özünün zəngin ideoloji və ədəbi-tarixi irsi ilə də diqqəti cəlb edir. Dövlətçiliyimizin XX əsrin əvvəllindəki bərpasında (AXC-nin qurulmasında) olduğu kimi, həmin yüzilliyin sonundakı tarixi uğurda (müstəqil AR-in yaradılmasında) da siyasi mühacirətin və diasporanın mücadiləsinin əvəzsiz rolu (xidməti) danılmazdır.

§1. Diaspora və siyasi mühacirətin formalaşması mərhələləri

Diaspora-siyasi mühacirətin yaranması və mübarizəsi prosesi bir neçə mərhələdən keçmişdir. Bu problemin tədqiqatçıları (X.İbrahimli, N.Yaqublu, A.Haşımova və b.) müəyyən beynəlxalq, tarixi-siyasi şəraitləri əsas götürərək aşağıdakı mərhələləri qeyd edirlər:

Birinci mərhələ Gülüstan müqaviləsilə (12.X.1813) başlamışdır. Həmin vaxtlarda formalaşan diaspora və siyasi mühacirət zəif və pərakəndə olması ilə səciyyələnir. Rusiya müstəmləkəçiliyinin başlanmasına qarşı olan müqavimət hərəkatı itirilməkdə olan müstəqilliyimizin – son orta çağ Azərbaycan dövlətlərinin (xanlıqların) bərpası və müdafiəsi uğrunda gedirdi. Quzey Azərbaycanın işğalının tamamilə başa çatdırılması (Türkmənçay müqaviləsi – 10.II.1828) siyasi mühacirətin yeni dalğasını yaratdı.

Rusiya əsarətilə əsla razılaşmayanlar müxtəlif dövlətlərə üz tutdular. Həm Vətəndən Vətənə (Azərbaycanın quzeyindən güneyinə), həm də Türkiyəyə və digər dövlətlərə mühacir axını gücləndi. Çarlığın cənubunda – Şimali Azərbaycanda etnodemoqrafik şəraiti dəyişdirmək və başqa məqsədlərə görə İran və Türkiyədən xeyli (təxminən 120-130 min) erməni buraya köçürüldü.

Osmanlı və Rusiya dövlətləri arasındakı müharibələr (1828-1829; 1853-1856; 1877-1878) də Azərbaycan siyasi mühacirəti və diasporasının sıralarının genişlənməsinə təsirsiz ötüşmədi. Bu mərhələdə müəyyən səbəblər üzündən elə bir ciddi nəticələr qazanılmadı.

İkinci mərhələ (1908-1918-ci illər) XX əsrin əvvəllərində baş verən bir inqilabın (Birinci rus; 1905-1907-ci illər) məğlubiyyəti və digərinin («Gənc türklər»; 1908-1909-cu il-

lər) qələbəsilə əlaqədar yaranan şəraitlə bağlı olmuşdur. Bir tərəfdən, Rusiyada irtica dövrünün (1907-1910) başlanması, digər yandan da, Osmanlıda sultan II Əbdülhəmid dönəminə son qoyulması Türkiyəyə (İstanbul və s.) Azərbaycandan da mühacir axınını qüvvətləndirən amillərdən sayılır. Bu mərhələdə əsasən Osmanlıda (İstanbulda) aparılan mübarizənin də əsas məqsədi Azərbaycan dövlətçiliyinin bərpasına nail olmaq idi.

Önündə Ə.Ağaoğlu, Ə.Hüseynzadə, M.Rəsulzadə və b. gedən bu mücadilə prosesində Qafqaz Konfederasiyası ideyası meydana gəldi. Gürcü mühacirlərilə birlikdə «Qafqaz Komitəsi» (1915) yaradıldı. Azərbaycan siyasi mühacirətinin təşkilatlanması həyata keçirildi. M.Rəsulzadənin ilk mühacirlik həyatı və fəaliyyəti də bu dövrə təsadüf edir.

Ə.Hüseynzadə, Ə.Ağaoğlu, H.Yusifbəyli, Y.Akçura, İ.Qaspıralı, F.Körpülü və b. iştirakı ilə İstanbulda «Türk yurdu» (1911), «Türk ocaqları» (1912) və digər qurumlar yaradıldı. Bu dövrün siyasi fəaliyyəti Azərbaycan dövlətçiliyinin XX əsrin əvvəlindəki bərpası (AXC-nin qurulması) ilə yekunlaşdı.

Üçüncü mərhələ (1920-1991-ci illər) müstəqilliyimizin yenidən itirilməsi – Rusiyanın Quzey Azərbaycanı təkrarən işğal etməsi və burada kommunist (sovet) totalitar quruluşunun yaranması kimi faktorlarla əlaqələndirilir. Bu müddətdə Azərbaycan mühacirətinin sıralarının genişlənməsinə qlobal hadisə – İkinci Dünya müharibəsi və onun gedişində faşist Almaniyasına əsir düşən həmvətənlərimizin, o cümlədən də milli legiona qatılanların bir hissəsinin geri qayıtmaması (dönə bilməməsi) də ciddi təsir göstərmişdir.

Sovet dövründə azərbaycanlı siyasi mühacirlərin sayının daha da çoxalmasını əngəlləyən səbəblər sırasında isə hökumətin ölkədən getmək qadağalarını da diqqətdən kənarda saxlamaq olmaz. «Vətəndən Vətənə mühacirət» bu zaman kəsiyində davam etmiş, ölkəmizin güneyindən quzeyinə və əksinə vaxtaşırı axınlar olmuşdu.

Rusiyada Oktyabr çevrilişi ilə başlayan böyük «ağ mühacirət»in kiçik ikinci dalğasının (milli dövlətlərin dalbadal devrildikləri 1919-1921-ci illərin) Azərbaycandakı əks-səsası da öz işini görmüşdü. Yalnız 1920-1970-ci illər arasında və təkcə Türkiyədə 50 mindən artıq azərbaycanlı mühacir məskunlaşmışdı. 1978-1979-cu illərdəki İran İslam inqilabı da Güney Azərbaycandan mühacir axınını xeyli artırmışdı.

Azərbaycan diasporası və siyasi mühacirətinin mübarizəsinin başlıca məqsədinə müvafiq olaraq üçüncü mərhələ daxilindəki dövrlərdə göstərilən fəaliyyətin əsas istiqamətlərini aşağıdakılar təşkil edir:

- qısamüddətli Gürcüstan mərhələsində siyasi mühacirətin təşkilatlanması;
- dövlətçiliyin tezliklə bərpasına yönəlik ilkin səylərin göstərilməsi (AXC-nin Paris Sülh konfransındakı nümayəndə heyəti və, ələlxüsus da, Ə.Topçubaşı tərəfindən dövrün beynəlxalq qurumlarına və böyük dövlətlərinə müraciətlər olunması və s.);
- Ümumqafqaz və bütövlükdə isə postçarlıq siyasi mühacirətinin həqiqi birliyinə nail olunması, bu mühüm işə əngəllər törədən erməni mühacirlərinin pozuculuq fəaliyyətinin önlənməsi;
- Azərbaycan siyasi mühacirəti və diasporası daxilində fikir ayrılıqları və ixtilafların aradan qaldırılması, İstanbul-Avropa qruplaşmalarının qarşıdurmasına son qoyulması;
- ölkəmizin müstəqilliyinin nasist Almaniyası tərəfindən tanınmasına cəhdlər edilməsi və azərbaycanlı hərbi əsirlərin kütləvi şəkildə qırılmalarının qarşısının alınması məqsədilə milli legionların yaradılmasına çalışılması;

- savaşsonrası dönəmdə dünya birliyinin diqqətinin Azərbaycanın problemlərinə yönəldilməsinə dair işlərin görülməsi;
- «erməni soyqırımı» təbliğatının zərərsizləşdirilməsi və s.

Azərbaycanın istiqlalı naminə xaricdə aparılan 70 illik tarixi mücadilə hədər getmədi. Onun Quzey Azərbaycanda 80-ci illərin sonunda başlayan milli hərəkatı tamamlaması və s. taleyüklü amillərin təsirilə ölkəmiz (millətimiz) yenidən müstəqillik qazanaraq dövlətçiliyini bərpa etdi.

Dördüncü mərhələ 1990-cı illərin lap əvvəlində başlamışdır. Şimali Azərbaycanda həmin vaxtdan etibarən gedən müxtəlif mahiyyətli ictimai-siyasi proseslər başqa səpkili mühacir fəaliyyətlərinə səbəb olmuşdur. Bu mərhələ fərqli problemlərlə, məqsədlərlə və mübarizə üsulları ilə səciyyələnir.

Həmçinin siyasi mühacirətimizin Güneylə və Bütöv Azərbaycanla bağlı tarixi mübarizəsi də hələ ki davam etməkdədir (Bu mərhələ ilə əlaqədar məsələlər «Azərbaycanın xarici siyasəti» fənninin üçüncü bölümündə tədris olunduğundan) onları burada şərh etməyə ehtiyac yoxdur. Birinci və ikinci mərhələlərin hadisə və prosesləri də kursun ilk bölümündə (AXC dönəmi) öyrənilmişdir. Buna görə də burada yalnız predmetin ikinci bölümü (1920-1991-ci illər) ilə əlaqədar müvafiq məsələlər təhlil olunur.

§2. Siyasi mühacirətin AXC-nin süqutuna ilkin etirazları

Siyasi mühacirətimiz və diasporamızın Azərbaycan dövlətçiliyi naminə bu illərdə apardığı mübarizədə də müəyyən səciyyəvi cəhətlərə və proseslərə görə şərti daxili mərhələləri fərqləndirmək mümkündür. Belə ki, 1920-1924-cü illəri AXC-nin süqutuna ilkin etirazlar, siyasi mühacirətin yaxın

xaricdə və Avropada təşkilatlanması dövrü də saymaq olar. Bu zaman kəsiyində siyasi mühacirət hələlik sovetləşdirilməmiş Cürcüstanda, Türkiyədə və Avropa ölkələrində müxtəlif təşkilatlar yaratdı və AXC-nin Sülh konfransındakı nümayəndə heyəti (Ə.Topçubaşı) diplomatik yollarla proseslərə təsir göstərməyə çalışdı.

Aprel çevrilişindən dərhal sonra Gürcüstanda F.Xoyski, H.Ağayev, Ş.Rüstəmbəyli və başqaları Azərbaycanın müstəqilliyinin bərpasına yönəlik müəyyən işlər gördülər. F.Xoyski digər əqidəbaşları ilə birlikdə Azərbaycan Qurtuluş Komitəsini yaratdı. AXC-nin siyasi və sabiq dövlət xadimlərinin məhz Gürcüstanı (GDR-i) mühacirətin güc mərkəzinə çevirmək istəyi iki amillə əlaqədar idi: **a)** dövlətçiliyin tezliklə bərpasına olan böyük inam və ümid; **b)** GDR-in çox yaxın (qonşu) olması.

Ancaq mövcud beynəlxalq vəziyyətin sərt reallıqları – Müttəfiqlərin (Antantanın) milli qüvvələrə dəstək verməməsi, Rusiyanın Qafqazdakı güclü mövqeyi və regiona yetərli təsir imkanları yeni istiqlala bəslənilən ümidlərin özünü doğrultmasını möhkəm əngəllədi. Digər tərəfdən də, 1920-ci ilin yayında F.Xoyski və H.Ağayevin Tiflisdə erməni terrorçuları (A.Erkyan və M.Qriqoryan) tərəfindən qətlə yetirilmələri, X.Xasməmmədovun isə ağır yaralanması durumu xeyli mürəkkəbləşdirdi.

İ.Stalin tərəfindən Moskvaya aparılan (XI.1920) M.Rəsulzadənin oradan Finlandiyaya gedərək sonradan da Türkiyəyə gəlməsi (1922) siyasi mühacirətimizin təşkilatlanmasına təkan verdi. Onun Türkiyədəki siyasi mühacir həyatı və fəaliyyətini iki dövrə ayırmaq olar: **1-cisi,** 1922-1931-ci illəri əhatə edir, **2-cisi** isə 1948-ci ildən başlayır.

M.Rəsulzadə İstanbulda, AXC-nin süqutu ərəfəsində Türkiyəyə səfir göndərilən, X.Xasməmmədov və b. birlikdə

Müsavat partiyasının Xarici Ölkələr Bürosunu yaratdı (1923). Bu, Azərbaycan mühacirətinin ilk siyasi təşkilatı hesab olunur. Onun Türkiyədə, İranda və Avropa ölkələrində komitələri yaradıldı və xüsusi qurumu – «Azərbaycan Gənclər Birliyi» təşkil edildi (1924). M.Rəsulzadə həm də siyasi mənsubiyyətindən asılı olmayaraq bütün azərbaycanlıların xaricdəki mərkəzi təmsilçi təşkilatının yaradılmasını təklif etdi.

Avropadan (Ə.Topçubaşı tərəfindən) dəstəklənən bu ideya tezliklə həyata keçirildi. 1924-cü ildə İstanbulda Azərbaycan Milli Mərkəzi (AMM) yaradıldı. Avropada mühacirlərimizin yaratdığı ilk siyasi təşkilat isə «Azərbaycan İstiqlal Komitəsi» oldu. O, Almaniyada təhsil alan azərbaycanlı tələbələrin bazası əsasında 1924-cü ildə quruldu.

Azərbaycan siyasi mühacirətinin hələ ki təşkilatlandığı bu dövrdə dövlətçiliyimizin bərpasına yönəlik ilkin səylər sahəsindəki əsas ağırlıq avropadakıların, yəni AXC-nin Paris Sülh konfransındakı – artıq Vətənə qayıtmaq imkanı olmayan – nümayəndə heyətinin üzərinə düşdü. Azərbaycanın Rusiya tərəfindən işğalına və AXC-nin süqutuna qarşı ilkin etirazları da onlar bildirdilər:

1. Ə.Topçubaşı J.Klemansoya xüsusi müraciətində (3.V.1920) Bakıdakı hadisələrlə əlaqədar məlumatsızlığını bildirməklə yanaşı AXC hökumətinin sədrinə radio vasitəsilə teleyazısı göndərilməsini istədi. Bu yöndəki səylər Bakıdan məlumatlar əldə olunması cəhdləri nəticə vermədi.

2. Azərbaycanın sabiq dövlət başçısı J.Klemansoya ünvanladığı notada (30.VI.1920) Sovet hökumətinin elan etdiyi «millətlərin öz müqəddəratını təyin etməsi hüququ»na dair devizin səbatsız və təsadüfi səciyyə daşıdığını yazırdı. Həmin notada həmçinin sovetlərin süngü ilə Azərbaycan hökumətini devirmələri vurğulanırdı. Sənəddən göründüyü kimi, Ə.Topçubaşı hələ də Aprel çevrilişinin (istilasının) müvəqqəti olacağına inanırdı. Notada habelə Bakı neftinin beynəlxalq hərraca qoyulmasına – onunla əlaqədar hazırlanan konsessiyalara və kommersiya əməliyyatlarına kəskin etiraz ifadə olundu.

3. Avropadakı, ələlxüsus da, Fransadakı (Parisdəki) siyasi mühacirlərimiz – Əlimərdan bəylə həmfikirləri və digərləri o çağın bir sıra beynəlxalq məclislərinə də müraciətlər edərək Azərbaycan həqiqətlərini dünyaya çatdırmağa çalışdılar.

Belə bir müraciət Avropa dövlətlərinin Belçikanın Spa şəhərində keçirilən konfransının (6-16.VII.1920) sədrinə Ə.Topçubaşı tərəfindən (4.VII.1920) edildi. Müraciət konfransın diqqətini Azərbaycanda işğaldan sonra yaranan duruma yönəltmək məqsədini güdürdü. Altı bənddən ibarət olan bu müraciətdə aşağıdakı məqamlar xüsusi olaraq vurğulanırdı:

- Azərbaycan üçün ağır (faciəvi) nəticələr verən Aprel (dövlət) çevrilişinin mahiyyəti açıqlanırdı;
- «Sovet hakimiyyəti» qurulması adı altında Azərbaycanın işğal olunduğu, respublikanın informasiya blokadasına salındığı və keçmiş parlament-hökumət üzvlərinin repressiyalara məruz qaldığı, bunlar barədə isə Tiflisdən, yəni sabiq vitse-spiker H.Ağayevdən məlumatlar alındığı bildirilirdi;
- bolşeviklərin AXC-nin devrilməsinə yönəlik çeşidli təxribatları, fitnə-fəsadları sadalanır, xalqın yeni işğalla razılaşmadığı, üsyanlar etdiyi və təşkilatlandığı, habelə general S.Mehmandarovun Azərbaycanın müdafiəsini təşkil edəcəyinə inamlı olmaları diqqət önünə çəkilirdi;
- müstəqilliyinin bərpasına yönəlik ilkin cəhdlər edən xalqımızın Azərbaycanın müstəqilliyini özünün bütün istəklərinin alfa və omeqası kimi dəyərləndirməsi qabardılırdı;
- Avropa dövlətlərinin, öncə də Müttəfiqlərin Azərbayca-

na, habelə bolşevik təhlükəsinin hədələdiyi bütün Qafqaza hərbi və maliyyə yardımı göstərmələri zərurəti əsaslandırılırdı;

- region xalqlarının müstəqilliyinin və onların bütün siyasi, iqtisadi maraqlarının təminatının açarının Paris Sülh konfransındakı Müttəfiq qüvvələrin və Millətlər Cəmiyyətinin əlində olması bir daha xatırladılırdı.

Ə.Topçubaşı həmin müraciəti vasitəsilə Spa konfransında bu məsələlərin də müzakirə olunmasını təklif etmişdi: **a)** AXC-nin tezliklə de-yure tanınması; **b)** həyati, siyasi və iqtisadi maraqlarının müdafiəsi üçün ona yardım göstərilməsi.

4. AXC Sülh nümayəndəliyinin növbəti müraciəti (Bəyanatı) Millətlər Cəmiyyətinin rəhbərliyinə ünvanlanmışdı (8.IX.1920). Həmin sənəddə Azərbaycan xalqının rus istilası üzündən müsibətlərə düçar olması, ölkədə üsyanların davam etməsi və bu beynəlxalq qurumun Ali Məclisinin millətimizə (onun haqlı tələblərinə) mənəvi himayə göstərəcəyinə ümid bəslənilməsi yazılırdı. Ə.Topçubaşı Millətlər Cəmiyyəti Ali Assambleyasının Cenevrədəki toplantısına (XI.1920) da qatıldı. Və yenə də Azərbaycanın işğal olunmasını və milli istiqlal savaşının davam etdiyini beynəlxalq birliyin diqqətinə çatdırdı.

5. Əlimərdan bəy və həmfikirləri (Sülh nümayəndəliyinin üzvləri) Genuya, Haaqa və Lozanna (20.XI.1922-17.VII.1923) konfranslarına da müxtəlif diplomatik sənədlər (müraciət-nota, memorandum və s.) təqdim etdilər. Avropa iqtisadi konfransına (Genuya) verilən nota-müraciətdə:

Azərbaycandakı mövcud siyasi durum və Qafqaza hərbi yardım məsələləri önə çəkilirdi; həmçinin Sülh nümayəndəliyinin Azərbaycanın qanuni təmsilçisi kimi konfransda iştirakına kömək edilməsi istənilirdi; bolşeviklərin Azərbaycanı təmsil etmək səlahiyyətlərinin olmadığı vurğulanırdı.

AXC sülh nümayəndəliyinin (mühacirətin «Paris təşkilatı»nın) müraciətləri və Ə.Topçubaşının səyləri əməli nəticələr vermədi. Rusiya ilə əlaqələrdə yalnız özlərinin mənafelərinin təmin olunmasına çalışan Qərb dövlətləri Azərbaycanın problemlərinin həllinə əsla maraq göstərmədilər.

Bu və digər səbəblər Azərbaycanın təmsilçilərini Ümumqafqaz və hətta postçarlıq siyasi mühacirlərini bir araya gətirməyə, onların fəaliyyətini əlaqələndirməyə yönləndirdi. Öncə Sülh nümayəndəliyinin Parisdə keçirilən iclasında (8.V.1921) Qafqaz Konfederasiyasının təşkili məsələsi müzakirə olundu.

Bunun ardınca isə Güney Qafqazın üç respublikasının səlahiyyətli nümayəndələrinin ilk toplantısında (10.VI.1921), «öz aralarında siyasi və iqtisadi ittifaq yaratmaq» barədə Bəyannamə qəbul edildi. Əslində xeyli gecikmiş olan 10 maddəlik həmin Bəyannamədə bu mühüm məsələlər önə çəkilirdi:

a) Qafqazın bütün respublikaları (xalqları) mütləq tam azad olmalıdırlar;

b) onlar arasında möhkəm qardaşlıq, hərbi-siyasi və gömrük ittifaqları, habelə vahid tranzit ərazisi yaradılmalıdır;

c) respublikaların bir-birilərilə olan sərhəd mübahisələri arbitraj vasitəsilə həll edilməlidir və xarici siyasətləri əlaqələndirilməlidir;

ç) onlar başqasına zərər vuran ittifaqlar qurmaqdan imtina edirlər və həmsərhəd ölkələrlə (Rusiya, Türkiyə, İranla) mehriban qonşuluq və dostluq münasibətləri yaratmaq istəyirlər, Türkiyədə erməni məsələsinin (?! – İ.M.) indiyədək həll edilməməsi Qafqaz dövlətlərinin ittifaqına başlıca maneədir (?! – İ.M.);

d) regionun təbii sərvətlərindən yararlanılması üçün xarici kapitala şərait yaradılacaqdır, qonşu dövlətlər Qafqaz

respublikalarının siyasi müstəqilliyinə və ərazi bütövlüyünə hörmətlə yanaşmalıdırlar;

e) bu respublikaların ərazilərinin 1919-1921-ci illərdə rus və türk ((?! – İ.M.) orduları tərəfindən işğalı onların hüquqlarının pozulması hesab olunur və işğala son qoymaqdan ötrü bütün diplomatik təsirlərdən istifadə edilməlidir;

ə) Qafqaz respublikalarının ərazilərinin verilməsinə dair qonşu dövlətlərin müqavilələri (sazişləri) kimi, bütün konsessiyaların (imtiyazların) da heç bir hüquqi qüvvəsi yoxdur və onlar etibarsız, önəmsiz sayılırlar.

Ə.Topçubaşının sədrliyilə keçən bu yığıncağın qərarı Bəyanənmə ilə birlikdə Fransanın Baş naziri A.Brianin diqqətinə çatdırıldı. Qafqazın yaxın keçmişdəki dörd müstəqil dövləti və Fransa (4+1) təmsilçilərinin birgə iclasında (7.XI.1921) siyasi mühacirətə maddi yardım göstərilməsi müzakirə olundu.

İclasdakı Fransa təmsilçisi – azad edilmiş ərazilər üzrə nazir Luşer keçmiş Rusiya imperiyasının bütün borclarının Qafqazın nümayəndələri tərəfindən tanınmasına və demokratik vətəndaş cəmiyyəti qurulmasına təminat aldıqdan sonra 1 mln. frank maliyyə yardımı vəd etdi. Müəyyən maddi yardım edilsə də o, yetərli deyildi. Azərbaycan siyasi mühacirətinin ağır maddi durumunu sovetlərin agentura şəbəkəsinin məlumatları da təsdiqləyir.

O dövrə aid bir sıra diplomatik yazışmalar qafqazlı siyasi mühacirlərin, ələlxüsus da azərbaycanlılarla dağlıların müstəqil dövlətlərin bərpasına yönəlik ciddi səylərindən xəbər verir. İngiltərə Xarici İşlər nazirliyinin əməkdaşı D.Osbornenin dərkənarı (2.III.1921) olan bir materialda yazılır ki, London konfransına qatılmaq üçün Böyük Britaniya paytaxtına gələn TBMM XİN-i B.Sami bəy Qafqazda Sovetlərə qarşı blok qurulması məqsədilə regionun siyasi mühacirlərilə müəyyən müzakirələr aparmışdı.

İngiltərənin Tiflisdəki diplomatik təmsilçisi albay Stoksun Böyük Britaniya XİN-i lord Kerzona yolladığı məxfi telyazısında (15.II.1921) da maraqlı məqamlar açıqlanırdı. Təmsilçi nazirə kamalçı Türkiyəni bolşevik Rusiyasından ayıraraq Sovetləri Qafqazdan qovmağın vaxtının yetişdiyini, Azərbaycan və Şimali Qafqaz xalqlarının üsyanlara qalxacaqlarını yazırdı. Lord Kerzonsa cavabında (25.II.1921) Qafqaz dövlətlərini hələ San-Remo konfransında (19-26.IV.1920) xəbərdar etdiklərini (?! – İ.M.) və Azərbaycan ilə Dağlıların mühacirətdəki öndərlərinin planlarına qarışmayacaqlarını bildirmişdi.

Digər bir ingilis diplomatı R.Mc.Dowellin Parisdə Ə.Topçubaşı, Dağlıların lideri-təmsilçisi Ə.Çermoyev, ermənilərdən B.Nubarla A.Aqaronyan və digərlərinin iştirakı ilə aparılan müzakirələrlə bağlı raportundan (19.II.1921) isə bunlar məlum olur:

Ankara hökumətilə bir anlaşma yaratmağın qərara alınması; onun İngiltərə ilə razılaşdırılması; Qafqazın dörd dövlətiylə ittifaq yaradacaq Türkiyənin Sovet Rusiyası ilə İngiltərənin müstəmləkələri arasında bir bufer bölgə ola biləcəyi və bolşeviklərin İrana təsirini aradan qaldıracağı mülahizəsinin önə çəkilməsi.

İngilis diplomatının raportda ifadə olunan şəxsi baxışına görə, bolşevik Rusiyası Qafqaz ölkələrinin Türkiyə ilə ittifaqa girmək niyyətlərini və bunun Müttəfiqlərin bəziləri tərəfindən dəstəkləndiyini də yaxşı bilir. D.Osbornenin öz həmkarı R.Mc.Dowellin raportuna əlavəsində (dərkənarında 20.II.1921) yazılırdı ki, Qafqaz dövlətləri (yəni, devrilənlər – İ.M.) işbirliyi yaratmaq durumundadırlarsa onların Türkiyə ilə dostluqları «bolşeviklərin «ayaqları altında qalmaları»ndan (Azərbaycan, Dağlılar, Ermənistan başa düşülür – İ.M.), yaxud da «ayaqları altına düşmələri»ndən (söhbət

Gürcüstandan gedir-İ.M.) üstün tutulmalıdır.

Müxtəlif səbəblər və amillər üzündən postçarlıq siyasi mühacirətinin Avropadakı mərkəzinə («paytaxtı»na) çevrilən Paris onun bir sıra mühüm tədbirlərinin də başlıca məkanı oldu (Sözgəlişi, lap yaxın keçmişdə qatı «böyük rusiyaçı» olan Fransa bu çağlarda Qafqaz və Rusiya siyasi mühacirətinin Sovetlərə qarşı vahid blokla birləşməsində xeyli maraqlı görünürdü). Postçarlıq mühacirətinin bu iki önəmli və qüvvətli qolunun təmsilçilərinin ilk yığıncağı (7.VII.1921) kəskin mübahisələr şəraitində keçdi. Həmin müzakirə və mübahisələri, orada səsləndirilən qarşılıqlı ittihamları bu cür qruplaşdırmaq olar:

a) toplantıda birinci çıxış edən **Ə.Topçubaşı** öz mövqeyini belə ifadə etdi: Azərbaycan elə əvvəldən Qafqaz Konfederasiyasının qatı tərəfdarıdır; bu ideyaya Türkiyə də müsbət yanaşır; Müttəfiqlərin Yunanıstanla birlikdə onu parçalamaq istəkləri və səyləri yanlışdır; Şərqdə əmin-amanlığın qarantı olan bu dövlətə yardım olunmalıdır və onun hüquqları Qərb tərəfindən tanınmalıdır; «türk-bolşevik razılaşması qısamüddətlidir, çünki bolşevik ideyaları ilə islam əxlaqı və ənənələri bir-birilərini inkar edir»;

b) yığıncağa qatılan fransızlardan Qafqazdakı sabiq Ali komissar **Şevalye** (iclasa Sarbonn universitetinin rektoru, professor Verno sədrlik edirdi) Əlimərdan bəyin fikirlərini «təzkib etməyə çalışdı»: Ermənistan və Gürcüstan mədəniyyət baxımından inkişaf etmişlər; onların «Müttəfiqlərin ən qəddar düşməni» Türkiyənin qonşuluğunda hələ də mövcud olmaları təəccüblüdür. Şevalyenin Gürcüstanın keçmiş XİN-i E.Gekeçkorini Ə.Topçubaşı ilə toqquşdurmaq istəyi birincinin təmkinli davranışı üzündən yerinə yetmədi. Ancaq Fransanın «sözçüsü» rolunda çıxış edən **A.Aqaronyan** Qafqaz respublikalarına 1918-ci ildən Türkiyənin və

1920-ci ildən də imperialist Rusiyanın «ayaq basdığını» diqqət önünə gətirdi;

c) Rusiya təmsilçilərindən A.Kerenski hökumətinin Fransadakı keçmiş səfiri **Maklakov** (Türkiyədəki sabiq böyük elçi Mandelştam da toplantıda iştirak edirdi): öncə ermənilərı danladı; sonra öz dövlətinin onlara «tarixi (indi də davam edən - İ.M.) atalıq qayğısı»nı xatırlatdı; axırda isə «Rusiya sabah yenə ayağa qalxacaq!» hədəsini dilə gətirdi. GDR-in sabiq baş diplomat əvəzi **G.Sabahtaraşvilinin** «Gürcüstan yüz il bundan əvvəlki müqaviləyə görə öz müqəddəratını təyin etməkdə haqlıdır» fikri Maklakovun «Rusiyanın razılığı əsasında» replikası ilə qarşılaşdı.

Müzakirələrdə qaldırılan məsələlərdən də aydın göründüyü kimi, toplantı əslində üç mövqenin - Ə.Topçubaşının Türkiyə yönümlü+Şevalyenin ermənipərəst+Maklakovun «böyük rusiyaçı» toqquşması müstəvisində getdi. Və, təbii olaraq, elə bir ciddi nəticə əldə edilmədən sona yetdi. Ancaq Ümumqafqaz siyasi mühacirlərinin devrilmiş dövlətlərin bərpasına yönəlik səyləri və bu məqsədlə də bir araya gəlmək cəhdləri davam etdirildi.

Onların sırasında qarşıdakı Genuya konfransına qatılma imkanları və yollarının axtarışı mühüm yer tutdu. Buna görə də Qafqazın dörd keçmiş müstəqil respublikasının təmsilçiləri Fransa prezidenti R.Puankareyə müraciətlər göndərdilər (29.I. və 23.II.1921). Öncəki (29.I.1922) sənəddə bunlar tələb olundu:

1-cisi, Qafqaz respublikalarının, Rusiyadan tam mənada asılı olmayanlar kimi, Avropanın iqtisadi bərpası sisteminə daxil edilmələri; **2-cisi,** bu prosesdə iştirakın şərtləri və üsullarının müzakirələrinə onların təmsilçilərinin qanuni, lazımi qaydada təsdiqlənən nümayəndələr kimi dəvət olunmaları və dinlənilmələri. Sonrakı (23.II.1922) müraciətdə isə

bunlar vurğulandı və istənildi:

- niyyətimiz Fransanın diqqətini Genuya konfransı ərəfəsində Qafqaz respublikaları ilə əlaqədar mühüm məsələlərə və onların haqlı həyəcanlarına yönəltməkdən ibarətdir;
- çünki bizim müdafiə etdiyimiz milli maraqların gələcəyinə böyük millətlərin Sovetlərin nümayəndələrini dinləyəcəyi açıq iclasda qəti şəkildə və güclü zərər vuran qərarların qəbul edilməsi təhlükəsi vardır;
- Qafqazın qanuni təmsilçilərinin Genuya konfransına buraxılmayacağı təqdirdə Sovet nümayəndələri özlərilə əlaltılarını-adıçəkilən respublikaların «Xalq komissarlar»ını gətirəcəklər;
- Sovet respublikaları borclu olduqları Avropa dövlətlərinə iqtisadi təminatlar siyahısını təqdim etməyə artıq hazırdırlar və Moskva hökuməti onların siyahısına həmçinin Qafqazın təbii sərvətlərini, xüsusilə də nefti qatmışdır;
- buna ən qəti etirazımızı bildiririk və Qafqaz respublikalarının qanuni təsdiqlənmiş təmsilçiləri olan bizlərsiz bağlanacaq hər hansı bir saziş həqiqi sayılmayacaqdır;
- indi süngülərin gücünə söykənən rus sovetləri Qafqaz respublikaları adından iqtisadi təminatlara vəd verməyin zamanı olduğunu fikirləşirlərsə, şübhəsiz, gələcəkdə heç bir qüvvə bu işdə maraqlı xalqlardan onların ərazilərindəki konsessiyalardan yararlanmaq imkanını ala bilməyəcəkdir;
- Sovetlər öz məmurlarını və agentlərini yalnız böyük hərbi güc hesabına Qafqazda saxlamaq imkanına malikdirlər, buna görə də onun adıçəkilən əraziyə sərəncam verməyə heç bir hüququ yoxdur. «Bu, beynəlxalq hüququn ən elementar qanunlarının hamıya məlum nəticəsidir»;
- Genuya konfransında Qafqaza dair qərarların, onların

təmsilçilərinin iştirakı olmadan, çıxarılmaması üçün gətirilən bütün dəlillər yetərlidir.

Bu konfransa qatılma imkanları və yollarının axtarışında tutulan israrlı mövqe Ümumqafqaz siyasi mühacirətinin ilk birliyinin – «Qafqaz Şurası»nın dalbadal keçirilən toplantılarında (19.I, 9.II, 3 və 19.IV.1922) da özünü göstərdi. Gürcü nümayəndəliyinin binasında A.Çxenkelinin sədrliyilə keçən 19 yanvar iclasında Şuranın qarşıdakı konfransla bağlı əsas götürəcəyi taktika (xətt) nəzərdən keçirildi.

Öncə E.Gekeçkori Avropa iqtisadi konfransının keçirilməsilə əlaqədar çağırılan Kann toplantısında işlənib hazırlanan prinsiplərdən (şərtlərdən) bəzilərini açıqladı: digər dövlətlərin daxili işlərinə və onların iqtisadi rejimlərinə qarışmamaq; qonşulara qarşı təcavüzkar hərəkətlərdən imtina etmək və s.

Müzakirələr Qafqaz respublikalarının konfransda təmsil olunmaları istəyini özündə əks etdirən qərarın qəbulu ilə nəticələndi. Habelə:

a) bunun reallaşmasına təsir göstərmələri üçün çeşidli qurumlara və mətbuat vasitələrinə müraciət edilməsi vacib bilindi;

b) Ə.Topçubaşının hazırladığı informasiya fəaliyyətinə dair layihəyə baxıldı. Ona və Ə.Çermoyevə Qafqazda iqtisadi maraqları olan neft sahibkarları ilə danışıqlar aparmaq, həm də fransız senatoru Reynol ilə görüşmək həvalə edildi;

c) Qafqaz məsələsinə dair məlumat əldə edilməsi məqsədilə R.Puankare və Fransa XİN-in müxtəlif əməkdaşlarıyla görüşlərə nail olunması məsləhət görüldü;

ç) Qafqazda ümumi hərəkatın gözlənilib-gözlənilməməsini müəyyənləşdirmək üçün Parisdəki hər bir nümayəndə heyətinin İstanbulda olan təmsilçilərdən məlumat istəməsi razılaşdırıldı.

Erməni təmsilçiliyinin iqamətgahında A.Xatisyanın başçılığı ilə aparılan digər müzakirəyə (9.II.1922) rus mühacirlərindən B.Savinkov və b. da qatılmışdılar. Sovet hakimiyyəti və kommunizmin hazırda «böhran dövrü»nü yaşadığına və onların «siyasi iflasının yaxın olduğuna» dair yanlış mülahizə söyləyib-proqnoz verən B.Savinkov qafqazlı siyasi mühacirləri ümumrus hərəkatıyla birləşməyə, Genuya konfransının ərəfəsi və gedişində diplomatik səyləri əlaqələndirməyə dəvət etdi.

Burada «ağ mühacirət»in sonrakı illərdə apardığı mübarizəsində də özünü açıq-aşkar büruzə verən bir məqsədə toxunmadan ötmək olmaz. Belə ki, o daima «Böyük və vahid Rusiya» mövqeyindən çıxış edirdi. Bolşevizm üzərində qələbədən sonrakı Rusiyanın ərazilərinin hüdudlarını əsla Qafqazsız təsəvvür edə bilmirdi.

Şuranın bu sıradan növbəti toplantısı (3.IV.1922) yenə də gürcülərin missiyasının binasında oldu. İclasda A.Çxenkeli və Ə.Çermoyev Roma ilə Parisdə görülən işlər barədə məlumat verdilər. Gürcü Kandelaki konfransa təqdim olunmaq üçün müvafiq materiallar toplayan iqtisadi komissiyanın işinin nəticələrini diqqətə çatdırdı. Sonda Genuyaya gedəcək fransız nümayəndə heyətinə və şəxsən də R.Puankareyə aşağıdakıların bildirilməsi qərara alındı:

1-cisi, konfransda Qafqaz məsələsinin müzakirə ediləcəyi təqdirdə onların təmsilçiləri toplantıya qədər qəbul edilərək dinlənilməlidirlər.

2-cisi, Gürcüstanın tanınması məsələsi qalxarsa, digər Qafqaz respublikaları da Rusiyanın ərazilərinin hüdudlarından çıxarılmalıdırlar.

3-cüsü, Rusiyanın xarici kapitala təklif etdiyi əlverişli şəraitdə işləməyin mümkünlüyü üçün bütün zəruri təminatı Qafqaz respublikaları da verə bilərlər. Sonuncu ilə bağlı

ticarət ittifaqı yaratmaq qərara alındı və onun möhkəmlənməsinə hər bir nümayəndəliyin yardım göstərməsi razılaşdırıldı.

Konfransda iştirakla bağlı ən müşkül məsələlərdən biri – viza problemi 1922-ci il aprelin 19-da Dağlıların təmsilçiliyinin iqamətgahında keçirilən yığıncaqda müzakirə edidi (Hələ bundan əvvəlki iclasın qərarı ilə viza alınmasına yardım göstərilməsi üçün İtaliyanın Ermənistandakı keçmiş nümayəndəsi Qoriniyə müraciət olunmuşdu və A.Çxenkeli bununla əlaqədar olaraq Romaya yollanmışdı). Ə.Topçubaşının təklifilə başladılan həmin müzakirə Qafqaz respublikaları təmsilçiliklərinin viza məsələsinə dair fərqli durumlarını və yanaşmalarını üzə çıxardı:

a) Azərbaycan mühacirlərinin mövqeyinə görə, «Qafqaz respublikalarına qarşı sabotaj törədilirdi» (Ə.Topçubaşı). Digər bir təmsilçimiz (M.Mehdizadə) Qafqaz nümayəndələrinin Genuyaya buraxılmamalarını aydınlaşdırmaqdan ötrü İtaliyanın Parisdəki səfirliyinə müraciət edilməsini istəmişdi;

b) Ermənistan tərəfinin (A.Xatisyan) məlumatına əsasən Qorini qafqazlı təmsilçilərə rəsmi şəxslər olaraq viza verilməyəcəyini bildirmişdi. Viza probleminin ermənilərı çox rahatsız etməməsi də göz önündə idi. Çünki onların Romadakı diplomatik nümayəndəsinin öz katibiylə birlikdə konfransda təmsil olunması barədə söhbətlər gedirdi. Habelə Türkiyə ermənilərı heyətinin beş üzvü də viza alaraq Genuyaya getmişdilər;

c) Gürcüstan nümayəndəliyi (E.Gekeçkori) isə italyan səfirliyinin «xüsusi təlimatlar alanadək» viza verməmək barədə göstərişə uyğun hərəkət etdiyini açıqlamışdı. Onun fikrincə, konfransa buraxılmanın ləngidilməsi qəsdən törədilirdi və müstəsna hal kimi Qafqaz xalqlarının nümayəndələrinə

aid edilirdi;

ç) Dağlılar heyəti (Ə.Çermoyev) İtaliyanın İstanbuldakı keçmiş diplomatik nümayəndəsi qraf Sfortsu ziyarət edərək bunun rəsmi Roma tərəfindən «nəzərə alınan» formallıqlar, yoxsa qafqazlı təmsilçilərə qarşı qəsdən törədilən hərəkət (əngəl) olmasının aydınlaşdırılmasını münasib bilmişdi.

Müzakirələrin gedişində irəli sürülən təkliflərə müvafiq addımlar atıldı. Müəyyən məlumat əldə edilməsi niyyətilə müraciət olunan Parisdəki italyan səfirliyi «Sovet nümayəndələrinin də konfransa buraxılmadığını» (?! – İ.M.) bildirdi. Belə olduqda artıq Romaya gələn A.Çxenkeli vasitəsilə İtaliya hökumətinə və konfransın Rəyasət Heyətinə «viza xahişiylə» müraciət olunması yolu seçildi. Bu zaman «İtaliyanın həmişə Qafqaz respublikalarının mənafelərinə xoş yanaşdığı» vurğulanmaqla «onların xahişlərinə İtaliya-Qafqaz münasibətlərinin maraqları naminə hörmət ediləcəyi» inamı açıqlandı.

Xeyli çəkən diplomatik çəkişmələrdən və qalmaqaldan sonra nümayəndəliklər konfransın işinə qatıla bildilər. Azərbaycanın təmsilçiləri (siyasi mühacirləri) də öz tələb və təkliflərini müxtəlif diplomatik (Ə.Topçubaşının müraciət-notası və digər) sənədlər vasitəsilə toplantı iştirakçılarına çatdıra bildilər (Genuya konfransı və Azərbaycan, habelə siyasi mühacirətin oradakı fəaliyyətilə bağlı məsələlər 1-ci bölümün 2-ci paraqrafında geniş işıqlandırıldığından burada əlavə izahata ehtiyac duyulmur).

Azərbaycan siyasi mühacirətinin dövlətçiliyimizin bərpası uğrunda mübarizəsinə müxtəlif yönlərdən (əsasən kənardan, qismən də mövcud olduqları ölkələrdə daxildən) çox ciddi əngəllər törədildi. Mahiyyət və məqsədlərinə, habelə qaynaqlanma və dəstəklənmə mərkəzlərinə görə kənardan olan əngəlləri bu qaydada ifadə etmək mümkündür:

Birincisi, siyasi mühacirlərimizi və öncə də onların liderlərini hədəfə götürən erməni terrorçuluğu və bütövlükdə həm də Azərbaycana qarşı aparılan beynəlxalq miqyaslı «erməni soyqırımı» təbliğatı. Azərbaycan siyasi mühacirətinin hələ təşkilatlanmaqda və AXC-nin süqutuna ilkin etirazlar etdiyi bir dönəmdə genişlənən erməni terroru ağır nəticələr verdi.

Tiflisdə qətlə yetirilənlərə (F.Xoyski, H.Ağayev) az sonra İstanbulda B.Cavanşirin və b. öldürülməsi, digər antitürk-antimüsəlman çağırışlarla əməli hərəkətlər siyasi mühacirətin fəaliyyətinə ağır zərbələr vurdu. Zaman-zaman daha fəal şəkildə gündəmə gətirilən «erməni soyqırımı» təbliğatı da siyasi mühacirətimizə müxtəlif ölkələrdə, ən çoxu da Avropada və ABŞ-da əlavə problemlər yaratdı, onun mübarizəsinin hədəfləri və sahələrinin parçalanmasına rəvac verdi (Buna ikinci bölümün 4-cü paraqrafında da toxunulur).

İkincisi, V.Leninin «nə qədər ki mühacirət var, o qədər də təhlükə var» xəbərdarlığını rəhbər tutan sovet totalitar (diktatura) rejiminin dəhşətləri də siyasi mühacirətin SSRİ (Şimali Azərbaycan) daxilindən güc almasını yetərincə əngəlləmişdi. Xüsusilə də yenidən işğalın ilk illərindəki «Pankratov repressiyaları» və mənfur «37-ci il siyasi soyqırımı» mühacirətin milli dövlətçilik davasını bir müddət «Sizif əməyi»nə çevirmiş oldu.

Ə.Əsgərov Kəngərlinskinin «Azərbaycan faciəsi»ndə qeyd edilən təkcə bir məlumat (fakt) mənzərənin dəhşətini anlamağa imkan verir: tam olmayan və yoxlanılmamış məlumatlara görə, ölkəmizdə yalnız qısa bir zaman kəsiyində (IV.1920-VIII.1921) 48 min nəfər, o cümlədən 12 general, xeyli ziyalı və s. «qırmızı terror»un qurbanları olmuşdu.

1920-ci illərin ortalarında müxalifətçi partiya və təşkilatların bütün mətbuat orqanları bağlanmışdı. Xaricdən gətirilən «ağ mühacir dövri nəşrləri»nə ciddi qadağalar qoyulmuşdu. Bununla da, ölkə tam informasiya mühasirəsinə alınmışdı.

Həmin dövrdə xüsusi icazə ilə keçirilən birinci Beynəlxalq Türkoloji qurultaya (26.II. –5.III.1926) və b. tədbirlərə baxmayaraq ölkə ətrafında «ideoloji qala» qurulması işi sürətlə gedirdi. Bütün bunlar və sonrakı digər siyasi proseslər yenicə təşkilatlanmağa – ayaq üstdə durmağa çalışan mühacirətin Azərbaycan naminə mübarizəsini, təbii olaraq, çətinləşdirirdi.

Üçüncüsü, diaspora və siyasi mühacirətimiz üz tutduğu ölkələrlə bilavasitə bağlı çeşidli səbəb və mənbələrdən irəli gələn problemlərlə də qarşılaşdı. Burada müəyyən şərti təsnifat da aparmaq olar. Belə ki, siyasi mühacirətimizin yaxın (Gürcüstan, Türkiyə, İran) və uzaq (Avropa, sonralar həm də ABŞ) xaricdəki qolları müxtəlif amillərin təsiri üzündən fərqli (ağır və əlverişli) durumlarda fəaliyyət göstərdilər.

Birincilərlə bağlı məqamlara coğrafi yaxınlıq («məşhur» ÇK(FK)+QPU(BSİ)+NKVD(XDİK)+KQB(DTK)-nin əlinin asanlıqla yetişməsi), Sovetlərlə hələki işbirliyində olan Türkiyənin Moskvanın təzyiqlərindən irəli gələn bəzi hərəkətləri, İrandakı daxili-siyasi proseslər və b. aid edilə bilər. İkincilərsə coğrafi uzaqlıq (sovetlərdən qismən də olsa əlçatmazlıq), Qərbdəki az-çox demokratik ictimai quruluşlar (cəmiyyətlər) və s. ilə əlaqədar idi.

Azərbaycan siyasi mühacirlərinin, ələlxüsus da müsavatçıların ən çox cəmləşdikləri ölkələrdən başlıcası müəyyən səbəblərə görə Türkiyə idi. Təsadüfi deyildir ki, siyasi mühacirlərimizin iki aparıcı qolundan biri bu qonşu-qardaş ölkədə (İstanbulda) yaranmışdı. Əvvəldə qeyd edildiyi kimi,

siyasi mühacirətin ən önəmli qurumlarından bir neçəsi burada təşkil edilmişdi. Ancaq dövrün siyasi problemləri və beynəlxalq şəraitin tələbləri Türkiyədəki mühacirləri də çətin durumla üzləşdirmişdi.

Bu, bir yandan, RSFSR-in Türkiyədəki səfirliyinin əlavəsi (bir şöbəsi) statusunda saxlanılan təmsilçiliyimizin (şəxsən İ.Əbilovun) «ifrat bolşevizmi-qatı antimüsavatçılığı» ilə əlaqədar idi (RSFSR-in Ankaradakı səfirliyinin birinci katibi M.Məmmədovun M.Hüseynova məktubundan (29.V.1921) da bəlli olduğu kimi, Azərbaycan SSR-in Türkiyədə diplomatik nümayəndəliyinin açılması da, elə bir növ, siyasi mühacirlərə (müsavatçılara) qarşı mübarizə və s. irəli gəlmişdi. Məktubda yazılırdı ki, nümayəndəliyin indiyədək açılmaması «...Azərbaycan haqqında çoxlu söz-söhbət yaratmışdır. Azərbaycandan qaçan müsavatçılar zərərli təbliğat aparmağa başlamışlar»).

Digər tərəfdən də, vəziyyətə «dostu» Lenin Rusiyasının təzyiqlərini bir təhər sovuşdurmağa çalışan Kamal Türkiyəsinin Azərbaycan siyasi mühacirətinə xoş olmayan münasibəti də öz təsirini göstərirdi. Ancaq «müsavatçı Azərbaycan siyasi mühacirlərinə qarşı mübarizənin əsas ağırlığı İ.Əbilovun və «başçılıq etdiyi qurumun üzərinə düşmüşdü».

Azərbaycan siyasi mühacirətinin milli dövlətçiliyin bərpası naminə apardığı mübarizəni təsirsiz etmək üçün Sovet Rusiyası tərəfindən hətta bu işin müəyyən «hüquqi bazası» da yaradılmışdı. Bu məsələ onun Türkiyə ilə bağladığı Moskva müqaviləsinin 8-ci, RSFSR-İran sazişinin 5-ci və Azərbaycan SSR ilə GDR arasındakı Ağstafa andlaşmasının 10-cu maddələriylə rəsmiləşdirilmişdi.

Həmin bəndlərdə ifadə olunan «tərəflər öz ərazilərində bir-birilərinin hakimiyyətlərinə iddia edən təşkilat, qrup və şəxslərin fəaliyyətinə imkan verməməyə dair qarşılıqlı öhdə-

liklər götürürlər» müddəası əslində bilavasitə siyasi mühacirətə qarşı yönəlmişdi.

Siyasi mühacirətə qarşı yaradılan «hüquqi əsaslar» öncə qonşu Gürcüstana toplaşan «əksinqilabçılar»a tətbiq olundu. Ağstafa müqaviləsi və digər sənədləri əldə bayraq edən Azərbaycan XXİK-i Tiflisə yığışan siyasi mühacirlər barədə ölçü götürülməsini istədi. Bu işdə erməni terrorçuları da onlara yardımçı oldular. Habelə Zaqatala mahalında «Sovet hakimiyyəti əleyhinə təbliğati fəaliyyət göstərənlər»ə qarşı mübarizə adı altında tədbirlər həyata keçirildi.

Sovet Rusiyasının «ağqvardiyaçı-müsavatçı əksinqilabçılar»a qarşı «səlib yürüşü»nün önündə gedən Ankaradakı «səfirliyimiz» Türkiyədəki siyasi mühacirlərimizin əleyhinə hərtərəfli iş aparırdı. Müsavatçıların İstanbuldakı (rəhbəri M.Rəsulzadə buraya gələnədək X.Xasməmmədov olmuşdu) və ittihadçıların Trabzondakı (başçısı X.Sultanov idi) təşkilatları başlıca hədəflər seçilmişdilər.

İ.Əbilovun M.Hüseynova məxfi məktubunda (16.XII.1921) X.Xasməmmədovun Cənubi Qafqazdakı işlərə və tədbirlərə («Sovet quruculuğu» nəzərdə tutulur – İ.M.) qarşı «təxribatçılıq fəaliyyəti»nin önlənməsi istənilirdi. Onun digər diplomatik yazışmalarında X.Sultanovun «Xeyriyyə cəmiyyəti»nin Güney Qafqazdan olan qaçqınlara və yerli türk əhalisinə «yardım adı altında antisovet fəaliyyət göstərməsi» bəhanəsilə bağlanması məsləhət görülürdü.

İ.Əbilov Azərbaycan (əslində Rusiya) XXİK-dən aldığı təlimatlara əsasən diplomatik nümayəndəliklə yanaşı Qars, Trabzon və Samsundakı konsulluqları da kəşfiyyat qurumlarına çevirmişdi. «Qars konsulluğunda çalışan makinaçının partiyasız olmasına» dözməyərək onun əvəzlənməsini istəyən M.Hüseynov İ.Əbilov vasitəsilə həmin diplomatik quruma «Sovet respublikalarına qarşı fəaliyyət göstərən hər hansı təşkilat və Şərqi Anadoluda iqtisadi vəziyyət haqqında məlumat toplayıb Azərbaycan hökumətinə çatdırmaq» vəzifəsini həyata keçirməyi tapşırmışdı.

Azərbaycan SSR-in Ankaradakı diplomatik nümayəndəliyi (İ.Əbilov) 1922-ci ilboyu siyasi mühacirlərə qarşı bir sıra «tədbirlərin görülməsinə müvəffəq oldu». AXC ordusunun sabiq zabitlərindən ibarət olan «Bələdçilər» təşkilatının fəaliyyəti Qars konsulluğunun Azərbaycan SSR XXİK-ə məxfi məktubuna (10.I.1922) əsasən «yüksək səviyyədə ölçü götürülməsi» nəticəsində əngəlləndi. Ə.Əsgərov-Kəngərlinski «zərərsizləşdirildi» (V.1922). Sovet Azərbaycanından olan siyasi mühacirlərin Türkiyənin Şərq cəbhəsinə göndərilmə xahişlərinin gerçəkləşməsinə imkan verilmədi.

X.Sultanovun «Xeyriyyə cəmiyyəti»nin bağlanması və, ümumiyyətlə isə, «...Antantanın köməyilə geniş iş aparan «ağ azərbaycanlı təşkilatların ləğvi və onların başçılarının xarici ölkələrə qovulması barədə» TBMM XİN-i Y.Kamal bəyin razılığı alındı. İ.Əbilov M.Hüseynova məktubunda (1.III.1922) «bu məsələnin həllindən ötrü Mustafa Kamal paşa ilə bir neçə dəfə söhbət apardığını» da vurğulamışdı.

Türkiyədəki siyasi mühacirlərimizə qarşı «mübarizəni uğurla aparan» İ.Əbilov hətta Avropaya özünün M.Hüseynova ünvanladığı əvvəldə qeyd olunan məktubda yazdığı kimi – «bizim əksinqilabçıların Paris təşkilatı»na da əl qatdı. O, «Paris təşkilatı»nın Fransa hökumətindən 3,3-3,5 mln. frank pul aldığını» yazırdı. Azərbaycanın sovet-bolşevik diplomatiyası Ə.Topçubaşıya böhtan atmaqdan da çəkinmədi: «Topçubaşov 30 desyatin neft sahəsini 1 mln. franka fransızlara satıb və bu pulun yüz minini bəri başdan alıbdır».

1920-ci illərin əvvəli və ortalarında Azərbaycan siyasi mühacirlərinin sığındıqları dövlətlərdən biri də İran idi. Əslində bu zaman «Vətəndən Vətənə mühacirət», yəni Azər-

baycanın quzeyindən onun güneyinə «siyasi axın» olmuşdu. Buna görə də İranda da quzeyli siyasi mühacirlərin çıxışdırılması həyata keçirildi.

Azərbaycan SSR XXİK-in bir ay ərzində dalbadal üç dəfə İrana verdiyi notalarda (6, 24, 29.VIII.1921) «Azərbaycan SSR-in müstəqilliyinə və bütövlüyünə zərbə vurmaq» istəyən və işğala qarşı çıxan qüvvələrin Ərdəbildəki mərkəzinin ləğvi və sovet quruluşunun əleyhinə olan hərəkətlərin önlənməsi tələb edildi.

Qonşu İrandakı quzeyli siyasi mühacirləri də «unutmayan» İ.Əbilov Azərbaycan SSR-in «xarici siyasət» idarəsinə məlumat verirdi ki, Samsunda olan, Gəncə şəhərinin keçmiş başçısı H.Fəttahov Konstantinopola (?! – İ.M.) çağırılaraq iş aparmaq üçün İran Azərbaycanına göndərilmişdir, Müsavat parlamentinin sabiq üzvü Ə.Tağıyev də oradadır və kürdlərdən, şahsevənlərdən ibarət dəstələr təşkil edir. O həmçinin belə bir «xəbərdarlığı» da edirdi: Antantanın himayəsi sayəsində bizim əksinqilabçıların Qafqazda fəaliyyəti qüvvətlənmişdir və sərhəd zolaqlarında bizə qarşı yeni fitnə-fəsadlar hazırlanır.

«İttihad»ın xaricdəki lideri X.Sultanovun 1926-cı ildə Güneyə gəlişi burada siyasi mühacirətin «Azərbaycan davası»na müəyyən qədər müsbət təsir göstərdi. Öncə o, «İttihad»ın Təbriz və Tehran komitələrini yaratdı. X.Sultanovun Təbrizdəki müsavatçılarla görüşündə (I.1926) «Müsəlmanların Qurtuluşu Komitəsi»nin yaradılması qərara alındı.

Təxminən elə bu çağlarda siyasi mühacirlərimizin bir hissəsi bilavasitə Xosrov bəyin başçılığı altında Azərbaycan Milli Demokratik Respublika partiyasının (AMDRP) qurulması qənaətinə gəldi. Özünü Qafqaz Konfederasiyası ideyasının müdafiəçisi elan edən AMDRP-nin məramnaməsi aşağıdakıların gerçəkləşdirilməsini nəzərdə tuturdu:

a) Azərbaycan dövlətçiliyinin (suverenliyinin) bərpa edilməsi; **b)** Azərbaycanın Qafqazın digər respublikaları ilə ümumi xarici siyasət, gömrük məkanı, pul sistemi və kommunikasiya vasitələri əsasında birləşməsi; **c)** parlament vasitəsilə xalq hakimiyyətinin həyata keçirilməsi; **ç)** müstəqil məhkəmənin yaradılması; **d)** vicdan, söz, mitinqlər, yığıncaqlar və dini etiqad azadlığına təminat verilməsi.

X.Sultanovun M.Mehdizadə ilə birlikdə «İttihad»ın da Xarici Ölkələr Bürosunu yaratmaq səyləri əməli nəticə vermədi. Onun siyasi mühacirətin İran və Türkiyə mərkəzləri arasında – Azərbaycan naminə mübarizənin strateji və taktiki məsələsinə dair fikir ayrılıqlarını (ixtilafları) aradan qaldırmaq cəhdləri də uğur qazanmadı.

Xosrov bəyin Sovetlərə qarşı birgə silahlı üsyan etmək və s. məsələlərlə bağlı hətta «Daşnaksütyun»la da müzakirələr aparmasına dair də məlumatlar vardır. Bu təklifi dəstəkləməkdən boyun qaçıran daşnaklar öz mövqelərini həmin dövrdə daha ciddi problemlərlə, o cümlədən erməni millətinin mövcudluğu (?! – İ.M.) ilə məşğul olmalarıyla «əsaslandırmış», eyni zamanda Sovetlərlə silahlı münaqişə zamanı tərəfsiz qalacaqlarını vəd vermişdilər.

§3. Mühacirətdaxili ixtilaflar və Azərbaycan dövlətçiliyi naminə sonrakı mübarizə

Siyasi mühacirətimizin və diasporamızın Azərbaycan dövlətçiliyi naminə mübarizəsini zəiflədən amillər sırasında daxildəki ixtilaflar da mütləq qeyd olunmalıdır. Bu ixtilaflar da, bir yandan, ümumi mübarizənin strategiya və taktikası ilə bağlı vaxtaşırı ortaya çıxan fikir ayrılıqlarından, digər tərəfdən də, Sovet təxribatları – təbliğatından qaynaqlanırdı. Siyasi mühacirətin daxilində əsas güc mərkəzləri – Avro-

pa (Paris) və Şərq (İstanbul) qruplaşmaları hesab olunurdu.

Həm onlar, həm də Türkiyə və İran mərkəzləri arasında zaman-zaman müxtəlif səviyyələrdə anlaşılmazlıqlar, qarşıdurmalar da özünü göstərirdi. X.İbrahimli və b. tədqiqatçılar 1928-1934-cü illəri siyasi mühacirətimiz daxilindəki ən kəskin ixtilaflar dövrü kimi səciyyələndirirlər. Əsasında şəxsi iddiaların dayandığı bu ixtilaflar, M.Rəsulzadənin qeyd etdiyi kimi, «prinsipdən çox təşkilat və səlahiyyət üstünlükləri»nə sahib çıxmaqdan ötrü baş verirdi.

Azərbaycan siyasi mühacirəti daxilindəki İstanbul-Avropa qruplaşmalarının qarşıdurmasının kökündə dayanan məsələlər sırasında dövlətçiliyimizin – istiqlalımızın yenidən itirilməsilə bağlı qarşılıqlı irad və ittihamlar da müəyyən yer tutur. Onları və habelə qarşıdurmaya rəvac verən bəzi digər halları (yanaşma və hərəkətləri) tezisvari aşağıdakı kimi qruplaşdırmaq mümkündür:

Birincisi, M.Rəsulzadəyə atılan böhtanlar, onun ünvanına söylənilən iftira və ittihamlar: **a)** 1918-ci ilin mart hadisələri zamanı kitab yazmaq bəhanəsilə kənddə gizlənməsi; **b)** ermənilərin Rusiya ilə dinc siyasət yürütdüyü bir vaxtda silahsız xalqı müdhiş XI orduya qarşı çıxmağa çağırması; **c)** qurama «Qafqaz-Xəzər hökuməti»nin başçısı, sabiq çar generalı, osetin əsilli L.Biçeraxovla və İ.Stalinlə əməkdaşlıq etməsi; **ç)** istiqlalımızın itirilməsinin günahkarı olması; **d)** legionerlərin cəbhələrdə və müharibədən sonrakı dövrdə əziyyət çəkmələrinin səbəbkarı kimi tanınması; **e)** Qərblə əməkdaşlığa gedərək Türkiyəyə arxa çevirməsi və s. (Yeri gəlmişkən, bu növ iftira və ittihamlar hazırda da müəyyən siyasi dairə və qüvvələr tərəfindən səsləndirilməkdədir).

Özləri-özlərini yalanlayan həmin böhtan və ittihamların təkzibinə burada geniş yer ayrılmasına ehtiyac yoxdur. Ancaq bəzi məqamlara müəyyən aydınlıq gətirilməsi də pis

olmazdı. Belə ki, tarixi-siyasi sənədlərin də təsdiqlədiyi kimi, AXC parlamentinin son toplantısında (27.IV.1920) məhz M.Rəsulzadə «artıq və mənasız itkilərə» yol verilməməsi üçün xalqı müqavimət göstərməməyə səsləmişdi.

Onun İ.Stalinlə «işbirliyi» də sovet təbliğat maşınının bir təxribatı idi. Çox maraqlıdır ki, M.Rəsulzadəni İ.Stalinlə «işbirliyi»ndə suçlayanlar birinciyə qarşı genişplanlı təbliğat kampaniyasına elə məhz ikincinin göstərişilə rəvac verildiyini nədənsə «unudurlar».

Bununla əlaqədar olaraq təkcə elə onun M.Rəsulzadə ilə bağlı SSRİ-nin (Sovet Azərbaycanının) bir qrup rəhbər işçisinə ünvanladığı məktubda (6.IX.1923) qarşıya qoyduğu «tarixi-proqram» səciyyəli vəzifələrə nəzər salmaq yetər (Sözgəlişi, bu sənəd V.Sultanlı tərəfindən elmi dövriyyəyə daxil edilmişdir). Bu proqramın (təbliğat kampaniyasının) əsas qayəsini «M.Rəsulzadəyə (partiyasına – « Müsavat»a) qarşı hücuma keçmək və onları aşağıdakılarda günahlandırmaq» təşkil edirdi.

- əvvəllərdəki bolşevikliyinə görə reneqatçılıqda, yəni dönüklükdə (Burada onun müsəlman sosial-demokrat «Hümmət»-in yaradıcılarından olmasına işarə edilir-İ.M.);
- türk xalqının mənafeyinə xəyanət etməkdə (Türkiyəyə köməyə gedən (?! – İ.M.) Qızıl ordunun Azərbaycana gəlməsinə müqavimət göstərdiklərinə görə);
- Azərbaycan xalqının maraqlarını qurban verməkdə (kəndlilərin bəylərin zülmündən azad olmalarını əngəlləmələrindən ötrü);
- Şərq xalqlarının mənafelərini satmaqda (İngiltərəyə nökərçilik etmələri və sovet respublikalarının proletariatına qarşı çıxmaları üzündən);
- onu Azərbaycanın Purişkeviçi (Rusiyanın qəddar məmurlarından olmuşdur – İ.M.) adlandıraraq Müsavat

dövründə erməni-tatar (azərbaycanlı – İ.M.) qırğınını törətməkdə;

- habelə onu Azərbaycan qırğınçısı adlandıraraq Şamxor qırğınına (söhbət 1918-ci ilin əvvəlində Şəmkir stansiyasında rus alayının tərksilah olunmasından gedir – İ.M.) baiskar olmaqda;
- həmçinin onun Azərbaycan proletariatını və ziyalılarını aldatmasında, xalq mədəniyyətinin Müsavatdan sonra iflasa uğrayacağı fikrini yaymaqda.

İ.Stalin həmin məktubunda M.Rəsulzadəni birbaşa «geri qalmış, avam, orta əsr utopiyaçısı» və sətiraltı ifadələrlə isə «avam əlkimyaçı və utopik keşiş, vecsiz və arxasız millətçi» adlandırmışdı. Habelə onu dünya dövlətlərinin iki ideoloji-sinfi (sovet və imperialist) düşərgəyə bölünməsini dərk etməməkdə suçlamışdı. «Yalnız tamam axmaq adamlar təsdiq edə bilərlər ki, burjua Rusiyası olduqda azad Türkiyə, azad İran, azad Azərbaycan və b. düşünmək olar» (?! – İ.M.).

M.Rəsulzadənin gələcəyin «ellər atası» ilə hər hansı bir «işbirliyi»nə getməməsini onun «Stalinlə ixtilal xatirələri»ndə qələmə alınan hadisələr (faktlar) da təsdiqləyir. Onun həmin kitaba daxil etdiyi bir sənəddə – Moskvanı həmişəlik tərk etdiyi çağlarda İ.Stalinə ünvanladığı məktubda (23.I.1923) yazdığı bu fikir bəzi məsələlərə aydınlıq gətirməyə imkan verir:

«Azərbaycan xanlıqlarının ilk Qafqaz «namestnikləri» (canişinləri) zamanındakı istiqlalları indiki Qafqaz cümhuriyyətlərinin «Zakkraykom» (Zaqafqaziya vilayət komitəsi) baş katibləri zamanındakı istiqlallarından heç də az deyildi». Həmin xatirələrdən onun Azərbaycan SSR XKS sədri vəzifəsində N.Nərimanovu əvəz edəcəyinə dair yayılan məlumatların da şayiələrdən başqa bir şey olmadığı üzə çıxır.

İkincisi, Azərbaycanın istiqlal mübarizəsinin vahid mərkəzdən idarə edilməsi məsələsində həmrəyliyin olmaması. Bu kontekstdə də İstanbul və Avropa mərkəzlərinin qarşı-qarşıya qoyulması. Vahid mərkəz məsələsində də bir-birilərilə həmfikir olan M.Rəsulzadəyə İstanbulda və Ə.Topçubaşıya isə Parisdə təzyiq göstərən qüvvələrin (ayrı-ayrı şəxslərin) fərqli yanaşmaları. «Üstünlüyün Əlimərdan bəydən Məhəmməd Əmin bəyə keçməsi»nə yönəlik cəhdlər və ikincinin birinciyə «təslim olmasına dair müzakirələr».

Üçüncüsü, M.Rəsulzadənin 1931-ci ildə Türkiyədən çıxarılmasından sonra İstanbul qruplaşmasında daxili gərginliyin yüksəlməsi. Türkiyədəki mühacirətin liderliyi uğrunda X.Xasməmmədovla Ş.Rüstəmbəyli arasındakı mübarizənin kəskinləşməsi. Habelə Türkiyənin siyasi mühacirətə göstərdiyi maliyyə və s. yardımın dayandırılmasının «səbəbkarlarının axtarışı».

Azərbaycan dövlətçiliyi və istiqlalı naminə mübarizə aparan siyasi mühacirlərin Türkiyə və İran mərkəzləri arasında da problemlər yaranmışdı. Bununla bağlı iki vacib cəhəti önə çəkmək lazım gəlir:

a) mərkəzlərin yardım qaynaqları və oriyentasiya məsələlərindəki fərqli mövqeləri. İstanbul qruplaşması Sovetlərə qarşı mübarizədə başlıca olaraq Türkiyənin yardımına arxalanmağa üstünlük verirdi. İran mərkəzi isə bunu yanlış sayır və öz mövqeyini bu dəlillərlə əsaslandırmağa çalışırdı: Türkiyə Azərbaycan probleminə görə heç vaxt Sovetlərlə savaşmağa qərar verməyəcəkdir; onun özü indi tarixinin ən çətin və ağır dövrünü yaşamaqdadır və s.;

b) Türkiyə və İran hökumətlərinin azərbaycanlı siyasi mühacirlərə münasibətlərinin birmənalı və eynimahiyyətli olmaması. Belə ki, TBMM hökuməti siyasi mühacirlərimizi mənəvi cəhətdən dəstəkləsə də onlara Qərb dövlətləri tərə-

findən edilən cüzi maddi-maliyyə yardımına ehtiyatla yanaşırdı. Çünki Türkiyə tərəfi həmin yardımlardan ölkədəki kürd və digərlərinin üsyanlarının (separatizminin) genişlənməsi üçün istifadə olunmasından qayğılanırdı.

Bu və digər amillərin, xüsusilə də rəsmi Moskvanın təzyiqlərinin artırılması üzündən sonralar Türkiyədəki siyasi mühacirlərimizin səsləri əslində bir növ, eşidilmədi. Türkiyə hökuməti Azərbaycan Milli Mərkəzinə göstərdiyi maddi yardımı 1927-ci ildə dayandırdı. M.Rəsulzadənin «persona non qrata» elan edilməsi və ölkədən çıxarılması (1931), ələlxüsus da, Türkiyə Cümhuriyyətinin ilk Baş naziri İ.İnönünün «pantürkçülüyü və panislamçılığı siyasətimizdən radikal bir şəkildə kənar etdik» bəyanatı onların durumunu daha da çətinləşdirdi.

Şahlıq rejimi isə RSFSR-lə müqaviləsinin (26.II.1921) beşinci maddəsinə əsasən müəyyən öhdəliklər götürsə də bilavasitə öz maraqlarından çıxış edərək siyasi mühacirlərin, ələlxüsus da quzeylilərin fəaliyyətini əngəlləməyə səy göstərmirdi. Rusiya və Azərbaycan SSR-in xarici siyasət idarələrinin mühacirlərin İrandan çıxarılmasına dair tələblərinə məhəl qoyulmurdu. İran XİN-i azərbaycanlı siyasi mühacirlərin qanunları pozmadıqlarını önə çəkərək onların hələ ki ölkədən çıxarılmayacaqlarını bildirirdi.

1920-ci illərin sonlarından 30-cu illərin axırına yaxın olan dövr həmçinin siyasi mühacirətimizin təşkilatlanmasının güclənməsi, diasporamızın canlanması və qafqazlı-rus «əksinqilabçıları»nın fəaliyyətlərinin koordinasiyasının genişlənməsilə də səciyyələnir. Bu dövrün hadisə və prosesləri – bütünlükdə postçarlıq və özəlliklə də Ümumqafqaz siyasi mühacirətinin uğurları – sırasında ikisi daha çox seçilir və böyük önəm daşıyır:

1-cisi, siyasi mühacirlərin milli dövlətlərin yenidən təsi-

si naminə müştərək antibolşevik mübarizə təşkilatının, yəni «Prometey Birliyi»nin («Liqus Promethee») yaradılması.

2-cisi, «Azad Qafqaz» ideyasının inkişafında müstəsna rolu və əməyi olan «Qafqaz Konfederasiyası Şurası»nın təşkil edilməsi.

«Prometey Birliyi»nin ideyası ilk dəfə M.Rəsulzadə tərəfindən hələ 1923-cü ildə – «Yeni Qafqasya» məcmuəsinin birinci sayında (26 iyun) irəli sürülmüşdü. «SSRİ əsiri millətlər»dən olan mühacirlərin yaratdıqları təşkilatlardan yalnız ruslarla ermənilərin qurumları həmin birliyə qatılmamışdılar. 1928-ci ildə Varşavada qurulan «Prometey Birliyi»ndə M.Rəsulzadə ilə M.Mehdizadə təmsil olunmuşdular. Ona əvvəlcə Quzey Qafqazdan olan siyasi mühacir T.Şakmanov və sonralarsa ukraynalı professor R.Stotski başçılıq etmişdilər. «Sovet quruluşunu sıradan çıxarmağı» hədəfə alan birliyin fəaliyyətindəki başlıca istiqamətləri aşağıdakı kimi ifadə etmək mümkündür:

- milli dövlətlərin yenidən təsisi naminə beynəlxalq hüququn və diplomatiyanın imkanlarından maksimum və səmərəli istifadə olunması, müştərək antibolşevik mübarizənin qüvvətləndirilməsi;
- SSRİ-dəki çeşidli hüquq pozuntularına dair hərtərəfli məlumatlar toplanılması, bu barədə beynəlxalq qurumlar və ictimaiyyət qarşısında məsələlər qaldırılması, müxtəlif toplantılar (qurultay və s.) keçirilməsi;
- SSRİdaxili milli müqavimət hərəkatına və antisovet qüvvələrə maliyyə-siyasi-informasiya yardımının edilməsi, milli istiqlal mübarizəsi və onun zəmanənin gerçəklikləri-lə əlaqələndirilməsinə dair elmi-nəzəri axtarışlar aparılması, mühacirət mətbuatının fəaliyyətinin koordinasiyası və s.

Birliyin yaranması və fəaliyyəti SSRİ-nin müvafiq ida-

rələrini (XXİK, XDİK və b.) rahatsız etməklə yanaşı, «ağ mühacirət»in aparıcı qüvvələrini (qollarını) da qayğılandırmışdı. Onlar 1931-ci ildə Praqada keçirdikləri «Rusiyada vəziyyət və mühacirlərin vəzifələri» mövzusundakı konfransda və mətbuatda çıxışlarında yenə də «Bölünməz Rusiya» ideyasına sadiq qaldıqlarını təsdiqləmişdilər.

Məsələn, P.Milyukov SSRİ-nin dağılması ilə qeyri-rusların daha erkən istiqlala qovuşacaqlarını istisna etmədiyini, ancaq milli müstəqilliyin tam şəkildə qəbulunun da qeyri-mümkünlüyünü bildirirdi. Onun fikrincə, «ukraynaçılıq Qara dənizin Rusiyadan alınması demək » idi. A.Kerenskiyə görə isə, «Ukraynaya Avropada yardım aramaq xəyanətə haqq qazandırmaq təbliğatı» idi. «Biz heç zaman Rusiyanın parçalanmasına razı olmadıq. Təyini-müqəddərat – bəli, buna razıyıq». Onlar hətta Avropanı pantürkçülük və panislamçılıqla» qorxudurdular. «Rus siyasi mühacirləri və onların təşkilatları sırasında «Prometey»ə loyal münasibət bəsləyənlər də vardı.

Özünün proqramına əsasən fəaliyyət göstərən «Prometey Birliyi» Sovetlər İttifaqının Millətlər Cəmiyyətinə qəbulu (1934) ilə bağlı onun XVIII ümumi toplantısının sədri S.Lamasa etiraz notası göndərdi. Habelə SSRİ-nin yeni (1936-cı il) Konstitusiyası və onun bir sıra müddəaları ilə əlaqədar olaraq da müraciət qəbul edildi. «Prometey»in Varşavada keçirilən qurultayında (31.V. 1.VI.1936) SSRİ-də cərəyan edən bəzi proseslərə qarşı çıxışlar oldu.

Çarlıq Rusiyası türklərinin siyasi mühacirləri qondarma əlifbalara, «oktyabr-Lenin dili»nin ortaq ünsiyyət vasitəsinə çevrilməsinə, «ədəbi» türkcələr (tam 70) «istehsalı»na – genişəhatəli və irimiqyaslı ruslaşdırma siyasətinə etiraz etdilər. Bunlarla bağlı ayrıca qərar və Millətlər Cəmiyyətinə xüsusi müraciət qəbul olundu. Almaniyanın Polşanı işğal

etməsilə (IX.1939) «Prometey» də dağılmaq təhlükəsiylə üzləşdi. Paris faşistlərin əlinə keçdikdə (VI.1940) birliyin oradakı qərargahı da fəaliyyətini dayandırmalı oldu.

«Qafqaz Konfederasiyası Şurası»na (QKŞ-yə) aparan yollar isə çoxlu döngələrdən keçməli oldu. Onun ideya əsasları və təməl prinsipləri hələ 1915-ci ildə İstanbulda yaradılan (Şimali Azərbaycandan S.Behbudovun da qatıldığı) «Qafqaz Komitəsi»ndən və Ə.Topçubaşının İsveçrə İttifaqı modelində Qafqaz Konfederasiyası qurulmasına dair baxışlarından qaynaqlanmışdı. Qafqaz mühacirlərinin müştərək təşkilatının – Qafqaz birliyinin yaradılması məsələləri həm Ə.Topçubaşının, həm də M.Rəsulzadənin milli istiqlala yenidən qovuşmaq planlarında önəmli yerlərdən birini tutmuşdu. 1921-ci ildə Ümumqafqaz siyasi mühacirlərinin ilk birliyi – «Qafqaz Şurası» təşkil edildi (Onun fəaliyyətinin bəzi tərəflərinə əvvəldə toxunulmuşdur).

Qafqazlı siyasi mühacirlərin birləşməsi prosesinin daha da təkmilləşdirilməsi, yəni daha mükəmməl genişəhatəli və qüvvətli qurumun yaradılması AXC liderləri – siyasi xadimləri arasında da müəyyən diskussiyalar doğurdu. Və, bu zaman da, Ə.Topçubaşı ilə M.Rəsulzadəni toqquşdurmağa əbəs cəhdlər edildi. Qafqaz birliyinin genişlənməsi və güclənməsi – QKŞ yolunda vacib bir mərhələni də Qafqaz İstiqlal Komitəsinin (QİK-in) yaradılması təşkil edir.

QİK-in təşkilinə dair müzakirələr Polşa, Türkiyə və s. dövlətlərin müvafiq strukturları, habelə qafqazlı mühacirlər arasında bir xeyli davam etdi. Qafqaz birliyi məsələsinin Türkiyənin inhisarına keçməsində maraqlı olan M.Rəsulzadə gələcək QİK-də təmsilçiliyə dair Polşa tərəfindən edilən təklifə tələsik münasibət bildirmədi (Bu dövrdə Polşa post-çarlıq, o cümlədən də Azərbaycan siyasi mühacirətinin əsas mərkəzlərindən biri idi).

Ümumazərbaycan siyasi mühacirəti daxilində – Avropa mərkəzilə (Ə.Topçubaşı ilə) aparılan məsləhətləşmələrdən sonra Azərbaycan Milli Mərkəzinin QİK-də təmsil olunmasına qərar verildi. Nəhayət, 1927-ci ildə Varşavada «üç+bir» (Azərbaycan-Gürcüstan-Şimali Qafqaz+Polşa) prinsipi ilə QİK ərsəyə gətirildi. Hələlik Ermənistan mühacirlərinin qatılmadıqları bu qurumda Azərbaycanı M.Rəsulzadə ilə M.Mehdizadə təmsil edirdilər.

XX yüzillikdə «Qafqaz birliyi (evi)»nin gercəkləşməsini dəfələrlə əngəlləyən ermənilər regionun siyasi mühacirətinin milli istiqlal (dövlətçilik) uğrundakı mübarizəsinə növbəti dəfə ixtilaflar saldılar. Bu dəfəki hərəkət və mövqe daimi mənbəyindən – ümumerməni strategiyasından qaynaqlanmaqla yanaşı, həm də «Daşnaksütyun»un taktikasında 30-cu illərdən etibarən özünü göstərən dəyişiklikdən irəli gəlmişdi. Yəni ki, daşnaklar artıq bolşeviklərə loyal münasibət göstərməyə başlamışdılar. Bunu kommunist – sovet quruluşuna tolerant (dözümlü) yanaşma, onların tanınmış liderlərindən Ov.Kaçaznuninin SSRİ-yə dönməsi və s. də təsdiqləyə bilər.

Bu taktika dəyişikliyi sovetlərin lideri İ.Stalin üçün Azərbaycan və Türkiyəyə təzyiq etmək vasitəsi – fürsəti (ermənilərin əsassız ərazi iddialarını vaxtaşırı xatırlatmaq və gündəmə gətirməklə) rolunu oynadı. Daşnaklarsa bundan «Böyük Ermənistan»ın bərpasında faydalanmaq qənaətində idilər. Bu kimi niyyət-planların açıq şəkildə ortalıqda olmasına baxmayaraq QİK erməni mühacirlərini də əhatə etməkdə inad göstərdi.

QİK-in Brüssel toplantısında (VII.1934) çox vacib və önəmli bir sənəd qəbul olundu. Qafqaz Konfederasiyası Misaqı (ona Pakt, Andlaşma da deyirlər) imzalandı (14.VII.1934). Azərbaycan adından Pakta Ə.Topçubaşı ilə M.Rəsulzadə

qol çəkdilər (M.Rəsulzadə «xəstəliyin, qocalığın və mühacirətdəki yoxsulluğun zəif saldığı Əlimərdan bəyin bu sənədin qəbulundan son dərəcə məmnun olduğunu» yazırdı). Təşkilatın proqram məqsədləri və tələblərini açıqlayan Paktda aşağıdakılar önə çəkilmişdi:

- millətin tam inkişafının yalnız istiqlalla mümkünlüyü;
- bu məqsədə yetişilməsi üçün Qafqaz qüvvələrinin vahid və müştərək hüdud daxilində birləşmələrinin vacibliyi;
- Qafqaz millətlərinin xarici siyasətlərinin müştərək ifadə edilməsi;
- Qafqaz Cümhuriyyətləri Konfederasiyasının regionun siyasi və iqtisadi vəhdətindən irəli gələn bir siyasi forma olması.

Bu təməl prinsiplərinə dayanan üç Milli Mərkəz həmin Misaq ilə Qafqaz Konfederasiyasının başlıca əsaslarını təsdiqlədilər: **1-cisi,** müştərək siyasi gömrük hüdudu; **2-cisi,** xarici siyasətin qurumun səlahiyyətli nümayəndələri vasitəsilə idarəsi; **3-cüsü,** hüdudların qurumun ordusu tərəfindən müdafiəsi; **4-cüsü,** Yüksək Konfederasiya Məhkəməsinin təşkili.

QİK-in Paktın məqsədlərinə dair yaydığı Bəyannaməyə müvafiq olaraq onun konfransı (14-23.II.1935) keçirildi. Burada QİK buraxıldı və QKŞ yaradıldı. Konfransda habelə «Qafqaz məsələsi və Rusiya» adlı sənəd qəbul edildi. On bənddən ibarət olan həmin sənəddə QKŞ-nin vəzifələri və əsas fəaliyyət prinsipləri müəyyənləşdirilmişdi:

a) Qafqazdakı rus istilasına (əsarətinə) son qoyulması məqsədilə cümhuriyyətlərin bərqərar olmaları və onların Konfederasiya şəklində birləşmələri üçün region millətlərinin hazırlanmaları;

b) bu məqsədə yetişilməsi üçünsə SSRİ-dəki digər əsir (asılı – İ.M.) millətlərin qurumları ilə siyasi və təşkilati əlaqələrə girişilməsi;

c) Şura Qafqazın və habelə Rusiya əsarətində olan bü-

tün millətlərin istiqlalını qeyd-şərtsiz tanıyan rus qüvvələri ilə... təmasa hazırdır;

ç) öz müstəqillikləri yolunda Şura... öz qüvvəsinə söykənir (arxalanır):

Azərbaycanın QKŞ-dəki səlahiyyətli nümayəndəsi AMM-in sədri M.Rəsulzadə idi (Yeri gəlmişkən, Ə.Topçubaşı artıq həyatda yox idi. M.Rəsulzadə (Paris, 8.XI.1934) «Qurtuluş» dərgisində onu «... millətin siyasi tarixində bu dərəcədə mühüm və davamlı yer tutan adam...», habelə «...milli davanın vəkili...» kimi dəyərləndirmişdi).

Paritet əsaslarla qurulan və səkkiz illik mübarizənin məhsulu sayılan QKŞ Ermənistanın siyasi mühacirlərinin qurumları üçün də açıq idi. Və ermənilər uzunçəkən tərəddüd və mübahisələrdən sonra QKŞ-yə daxil oldular (1940). Onların bu dəfəki qərarı İkinci Cahan hərbinin başlanması ilə bağlı idi. SSRİ-nin yaxın gələcəyindən qayğılanan ermənilər «ağ mühacirət»dən aralanıb öz «həmyerliləri»nə qoşuldular (Böyük müharibədən sonra isə yenə də «ağaları»nın – A.Kerenski, P.Milyukov və b. yanına qayıtdılar).

QKŞ-nin yaradılması da əsl Qafqaz birliyinə nail olunması ilə nəticələnmədi. Qafqaz Konfederasiyası ideyası ətrafındakı fikir ayrılıqları aradan qalxmadı və bəzi yeni qruplaşmalar meydana gəldi. Məlum Paktı imzalayanlara və QKŞ-ni yaradanlara qarşı müxalif qrup, baxış və mövqelər ortaya çıxdı.

Ancaq başlıca məsələ-məqsəddə, yəni Qafqaz birliyinə nail olunması və Konfederasiyanın yaradılmasında hər iki tərəf həmrəy idi (Görünür, xeyli müddət ərzində aparılan tarixi mübarizənin hələ ki real nəticələr verməməsi də öz təsirini göstərirdi və yersiz-önəmsiz müzakirələrə yol açırdı).

Müzakirə və mübahisələrin mərkəzi məsələlərindən birini də Konfederasiyanın Türkiyə ilə və yaxud Türkiyəsiz

qurulması təşkil edirdi. Bu və digər məsələlərlə bağlı gedən diskussiyalarda səsləndirilən mülahizə, irad, ittiham və təkliflərin isə aşağıdakı qaydada ümumiləşdirilmiş halda nəzərdən keçirilməsi məqsədəuyğundur:

Şimali Qafqaz mühacirlərinin müxalif-radikal millətçi hissəsi (H.Bammat və b.) «Prometey»ə qarşı çıxdıqlarından keçmiş prometeyçilərin imzaladıqları Pakta və qurduqları QKŞ-yə münasibətdə loyal mövqedə dayanmırdılar. «Qafqazla Rusiya arasında Çin səddi çəkəsi deyilik» söyləyən H.Bammata görə, «Qafqaz millətlərinin məqsədi bir ağanı digərilə dəyişmək deyildir». O həm də «Axilles dabanlı» Qafqaz millətlərinin bir-birilərı üzərində hegemonlugunu mümkünçüz, bu və digər hallar üzündən kənar yardıma üz tutmalarını yanlış hərəkət, başqalarını da buna sövq etdirən amil sayırdı. «Qafqaz və Türkiyənin birliyi ortaq maraqların vəhdətidir»; onları bir-birilərinə bağlayan isə dostluq və qardaşlıq telləridir».

Azərbaycan siyasi mühacirətinin M.Rəsulzadə ilə münaqişədə olan qrupu (X.Xasməmmədov, Ş.Rüstəmbəyli və b.) da Qafqaz birliyinin gerçəkləşməsinə çalışırdılar. Onlar Qafqaz Konfederasiyası ideyasının deyil, Misaqı imzalayanların və QKŞ-nin rəhbərliyinin əleyhinə olduqlarını bildirirdilər. Ş.Rüstəmbəyli M.Rəsulzadəni türkçülükdən danışmaqdansa, paktçılıq və prometeyçilikdən dəmvurmaqda təqsirləndirirdi.

M.Rəsulzadənin vaxtilə «Azərbaycana divan tutan L.Biçeraxovla birlikdə» QKŞ-də təmsil olunmasını ağlasığmaz sayan «Xəlil və Şəfi bəylərin qrupu» istiqlalımızın itirilməsi məsuliyyətini də tamamilə onun üzərinə qoymağa cəhd edirdi.

Şimali Qafqaza «vaxtında hərbi yardım göstərilməməsini bağışlanmaz səhv» sayanlar da yox deyildi. C.Ha-

cıbəyliyə görə, «vaxtilə Azərbaycan və Quzey Qafqazın birləşməsinə acınacaqlı bir cəhalət mane oldu və bu durumdan yararlananlar, şübhəsiz, öz istiqlallarının düşmənləridirlər. Ümumi Qafqazın Şimali qafqazlılara tarixi bir borcu vardır» (AXC-nin imkanları daxilində Dağlılar Cümhuriyyətinə yardım göstərdiyini çoxlu tarixi-diplomatik sənədlər də isbatlayır – İ.M.).

Bu cür fikirləri dəstəkləyən H.Bammat Azərbaycanla Şimali Qafqazın «Quba məsələsi»ndə bir-birilərilə soyumalarını işğalı şərtləndirən amillərdən sayırdı. Bu dövrdə «Müsavat» partiyasının artıq mövcud olmadığı, onun istiqlal davasını uduzduğu və bu yoldan çəkildiyi, ideologiyasının yanlış və zəifliyi barədə də «diskussiyalar açmağa» cəhdlər göstərildi.

Bunlara cavab olaraq «Müsavat»ın Varşavada keçirilən konfransında (VIII.1936) qəbul edilən siyasi sənəddə – 11 maddədən ibarət «Əsaslar»da Azərbaycan istiqlalı naminə tarixi mübarizəyə sadiqlik bir daha vurğulandı. M.Rəsulzadə «Müsavat»çılıq ideologiyasında heç bir yanlışlıq və zəifliyin olmadığını təkrarən qeyd etdi. Belə halların ancaq təşkilatla, onun mövcud durumu və s. ilə əlaqədar mümkün ola biləcəyini bildirdi.

Gürcüstan mühacirlərinin N.Jordaniya ilə yola getməyən hissəsi (Z.Avalişvili və digərləri) də «Qafqazın bütün millətlərini əhatə edən Konfederasiyanın qurulmasını» istəyirdi. Ancaq onlar da «marksist» adlandırdıqları M.Jordaniyanı «Gürcüstanın faciəsinin baiskarı» hesab edirdilər. Onun «Gürcüstanın xarabalığa çevrilməsində və yenidən boyunduruq altına salınmasında çox zəhmət çəkdiyini» söyləyərək hələ çarlıq dönəmində pullu və ruspərəst adamların Dövlət dumasına seçilmələrinə yardım göstərdiyini bildirirdilər; belə birisinin QKŞ-də təmsil olunmasıyla əsla razılaşmırdılar.

Müxtəlif gürcü siyasi mühacirləri özlərinin azərbaycanlı həmfikirləri ilə birlikdə belə bir məsələni dönə-dönə təkrarlamaqdan yorulmurdular: Qafqaz Konfederasiyası ideyasına regiondakı müstəqil cümhuriyyətlərin süqutuna qədər önəm verilməli idi. «.... Vaxtında Qafqaz Birliyi yaradılsaydı indi nə M.Rəsulzadə, nə də N.Jordaniya mühacirətdə belə birlik yaratmaq haqqında fikirləşməzdilər». Onlardan professor M.Sereteli qafqazlıları da isveçrəlilər kimi bir-birilərinin dilinə və milli hüquqlarına hörmətlə yanaşmağa vərdiş etməyə səsləyirdi.

Pakt və QKŞ ətrafındakı bu, xeyliçəkən və vaxtaparan müzakirələr «təbii sonluqla» yekunlaşdı. Tezliklə Ümumqafqaz mühacirəti daxilində «Erməni-gürcü ittifaqı» və «Azərbaycan-Dağlılar Birliyi» yarandı. Belə bir qütbləşmədə, öncə dini mənsubiyyət (amil) diqqəti çəksə də, əsas rolu fərqli milli maraqlar, oriyentasiya məsələləri və s. oynamışdı.

Bunu elə birinci qurumun («İttifaq»ın) yaranması (24.V.1936) ilə bağlı erməni və gürcü millətlərinə ünvanlanan Bəyannamədən də aydın surətdə görmək olur. Orada deyilirdi ki, keçmişdən bəri müştərək mədəni və siyasi müqəddəratlarla bir-birilərinə bağlanan erməni və gürcülərin milli varlıqlarını əlbirliklə müdafiə etməsi tarixə məlumdur (?! – İ.M.). Həmin sənəddə Rusiya ilə yanaşı Türkiyənin də «geniş erməni və gürcü torpaqlarını ələ keçirməsi» vurğulanırdı.

«Erməni-Gürcü İttifaqı»nın elanı «Bammat qrupu» və b. tərəfindən sərt təpkilə qarşılandı. Azərbaycanlı siyasi mühacir F.Əmircan (Dəryal) «İttifaq»ın məqsədlərini belə ifadə (formulə) etmişdi:

a) Azərbaycan və Şimali Qafqazdan ayrılıqda erməni-gürcü birliyi yaradılması; **b)** Türkiyənin, erməni və gürcü

millətləri üçün, Rusiyadan daha böyük bir təhlükə kimi təqdim edilməsi (qələmə verilməsi); **c)** «geniş erməni-gürcü hüdudları məsələsi»nin təzələnməsi.

Bu «İttifaq»a gürcü mühacirləri sırasından etiraz edənlər də oldu. Onlardan biri bu «İttifaq»ın Qafqazı iki dini qütbə parçalamasından, regionun 12 milyonluq əhalisinin 7 milyonunu təşkil edən müsəlmanlarla azlıqda qalan xristianlar arasındakı mövcud mehribançılığa (?! – İ.M.) Şimal soyuğunun girə bilməsindən ehtiyatlandığını yazırdı.

«Erməni-Gürcü İttifaqı»nın QKŞ-yə «siyasi hücumları» və ittihamları ikincini də hərəkətə gətirdi. QKŞ-nin toplantılarından birində (16.VI.1936) qəbul edilən Bəyanatda «İttifaq»ın təşkili, onun məramları, hərəkətləri qətiyyətlə rədd olundu və bəzi xəbərdarlıqlar açıqlandı:

- QKŞ-nin və ona qatılan Milli mərkəzlərin, yaradıcıları naməlum olan, «İttifaq»ın Bəyannaməsinə dair məlumatları yoxdur;
- QKŞ Qafqaz millətlərinin vahid bir təşkilatda birləşmələrini vacib bilir və onun şəxsində belə bir qurum artıq mövcuddur;
- Qafqaz millətlərinin ayrı-ayrı təşkilatlar yaratmaları regionun birliyini dağıda və düşmənçiliyə səbəb ola bilər;
- hüdud (ərazi, torpaq – İ.M.) davaları Qafqazın hürriyyətindən sonra arbitraj yolu ilə həll edilməlidir.

«Azərbaycan-Dağlılar Birliyi» əslində «Erməni-Gürcü «İttifaq»ına cavab olaraq yaradılmışdı. Onun sədri əvvəlcə X.Xasməmmədov olmuşdu. Sonralarsa ona H.Bammat başçılıq etdi. Əsasən «müxalif mühacirlər» tərəfindən qurulan və dəstəklənən həmin «Birliyə» tezliklə N.Jordaniyanın da əleyhdarları qoşuldular. Az sonra H.Bammat bəzi ermənilərı də bu quruma cəlb edərək əsl Qafqaz Federasiyasının (?! – İ.M.) yaradıldığını bildirdi.

Almaniya «millətçiliyinə böyük rəğbəti olan və onun əkskəşfiyyatı ilə əlaqələrdə adı çəkilən H.Bammat müharibə ərəfəsində Berlində məskunlaşmışdı. Ancaq İkinci Dünya müharibəsinin başlanması ilə onun rəhbərlik etdiyi qurum və nəşr etdirdiyi jurnallar qapadıldığından «inciyərək» İsveçrəyə getmişdi.

Ümumiyyətlə isə, müharibə mühacirlərin bir sıra təşkilatlarını («Prometey», QKŞ və s.) olduqca çətin durumla üzləşdirdi. Həm də yeni tarixi-siyasi şərait mühacirəti bəzi təzə problemlərlə qarşılaşdırdı və növbəti, bir növ, başqa mahiyyətli işlərin görülməsi (vəzifələrin həyata keçirilməsilə) məşğul etdi.

§4. Azərbaycanın istiqlalının faşist Almaniyası tərəfindən tanınması uğrunda mübarizə

İkinci Dünya müharibəsi xalqların miqrasiyası, irimiqyaslı köçürülmələri, mühacirlərin sayının daha da artması, onların siyasi kəsiminin yeni durumu (problemləri) və s. cəhətdən də maraq doğurur. Sadalanan məsələlər bu və digər aspektlərdən Azərbaycanın quzeyi və güneyini də əhatə etmişdir. Həmin dövrdə Güney Azərbaycanda və onun ətrafında cərəyan edən beynəlxalq-siyasi proseslər (onlardan üçüncü bölümdə ətraflı bəhs olunur) nəticəsində yenə də «Vətəndən Vətənə mühacirət» baş verdi.

Faşist Almaniyasına qarşı müharibəyə Sovetlər İttifaqının bir hissəsi kimi qatılan Şimali Azərbaycan da yeni mühacirət axını (dalğası) ilə üzləşməli oldu. Belə ki, əvvəlki mühacirlər ordusu bu müharibədə əsir düşənlərin, legionlara qatılanların və s. müəyyən hissəsinin savaşdan sonra Vətənə dönməmələri (qayıda bilməmələri) hesabına daha da böyüdü. Almaniya və digər ölkələrdə də Azərbaycan diasporası

əmələ gəldi (və ya genişləndi).

Habelə dövlətçiliyimizin bərpası naminə tarixi mücadiləsini davam etdirən siyasi mühacirətimiz yeni beynəlxalq şəraitdən irəli gələn problemlərlə üzləşdi. Onun milli istiqlal davası yeni sahə və yönlərdə getdi, fərqli imkan və vasitələr əldə etdi.

Azərbaycan siyasi mühacirətinin mübarizəsinin əsas məqsədi isə dəyişməz olaraq qalırdı. Bu dövrdə mücadilənin başlıca hədəfi Azərbaycanın müstəqilliyinin faşist Almaniyası tərəfindən tanınmasından ibarət idi. Bu kontekstdə mühacirətin fəaliyyətinin mühüm sahələrindən birini alman əsirliyində olan həmvətənlərimizdən ibarət milli legionların formalaşdırılması təşkil edirdi.

Onların təşkilində isə, əsasən, iki mühüm vəzifə (niyyət) önə çəkilmişdi: **a)** Vermaxtın, yəni Almaniya silahlı qüvvələrinin Qafqaz (Azərbaycan) uğrundakı hərbi əməliyyatlarında yaxından iştirak edilməsi; **b)** faşistlərin əsirliyindəki azərbaycanlıların kütləvi surətdə məhvolmalarının qarşısının alınması.

Almaniya-SSRİ müharibəsinin ilk çağlarında Sovet ordusunun xeyli əsgər-zabiti əsir düşmüş və ya könüllü olaraq əks tərəfə keçmişdi. Belələrinin sayı Almaniyanın Şərq nazirliyinin başçısı, Vermaxtın və nasistlərin milli siyasət məsələləri üzrə tanınmış ideoloqlarından sayılan A.Rozenberqin məlumatlarına görə, 1941-ci ilin sonuna yaxın 3,6 mln. nəfər olmuşdu. Onların da təqribən iki yüz min nəfərini azərbaycanlılar təşkil etmişdi.

Belə bir gücün həm səfərbər olunması, həm də müdafiə edilməsi önəmli məsələlərdən idi. Və, buna görə də, vaxtilə Sovetləri tərk etmək hesabına formalaşan – Böyük Savaşa qədərki – siyasi mühacirət həmin işləri özünün fəaliyyətinin əsas sahələrinə çevirdi. Bu istiqamətdə müəyyən tədbirlər

görüldü.

Birincisi. M.Rəsulzadə 1941-ci ildə Almaniya XİN-i tərəfindən – ona qarşı açıq və kəskin müxalif mövqe tutan X.Xasməmmədov və F.Əmircanla (Dəryalla) birlikdə Berlinə dəvət olunaraq müəyyən məsləhətləşmələr apardı (Buraya müxaliflərin də dəvət edilmələri nasistlərin xüsusi məqsədlərilə əlaqədar idi; bu barədə az sonra şərh veriləcəkdir). Sovet hərbi əsirləri arasındakı azərbaycanlılardan ibarət milli legionun yaradılması ilə əlaqədar olaraq «Üçüncü reyx»in rəhbərliyinə müraciətlər edildi.

Bunun üçün artıq müəyyən şərait (zəmin) də mövcud idi. Belə ki, Sovetlərlə «haqq-hesabı yalnız öz qüvvələriylə «çürütməyə» və onunla aparılan müharibəni, «Barbarossa» planına müvafiq olaraq, 1941-ci ilin qışınadək bitirməyə çalışan nasist liderlər (Vermaxt) əvvəlcə milli legionlar məsələsinə həvəs göstərmədi. Ancaq tezliklə A.Hitler və əhatəsi sovet hərbi əsirlərindən milli legionlar təşkili məsələsində qəti rəyə-qənaətə gəldilər.

Bu qərar: **a)** əsirlərin həddən ziyadə çoxluğu; **b)** onların xeyli hissəsinin sovetlərə (SSRİ-yə) qarşı savaşmaqda israrı; **c)** milli legionları bolşevizmə qarşı beynəlxalq etiraz-müqavimət kimi qələmə vermək istəyi və s. amilləri (dəlilləri) əsas götürməklə qəbul olunmuşdu. Vermaxt hətta sovet hərbi əsirlərini milli mənsubiyyətlərinə görə düşərgələrdə yerləşdirməyə başlamaqla (VIII.1941) əslində legionlar məsələsinə işarə etmiş, təkan vermiş oldu.

Nasistlərin yaratdıqları əsir («ölüm») düşərgələrini gəzən Nuru paşa və həmfikirləri bu dəhşətli-ağır vəziyyətdən yeganə çıxış yolunu yalnız milli legionların qurulmasında gördülər (X.1941; bu işə məlum «sünnət məsələsi», yəni faşistlərin azərbaycanlıları (müsəlmanları) yəhudilərlə səhv salaraq kütləvi surətdə qırmalarının təcili önlənməsi də ciddi

təsir göstərdi).

Hərbi əsirlərdən olan tanınmış zabit (mayor) Ə.Fətəli-bəyli-Düdənginski Azərbaycan legionlarının yaradılması ilə bağlı Almaniya XİN-ə müraciət etdi (XI.1941; o, əslən Şərur mahalından idi və tanınmış tədqiqatçı Ə.Əliyevin məlumatına görə, məşhur Səfəvi nəslinə mənsubdu). «I saylı nasist»lə, yəni A.Hitlerlə razılaşdırıldıqdan sonra Vermaxtın OKW-si (Operativ Rəhbərlik Qərargahı) digər Qafqaz xalqları və türk-müsəlmanlarla yanaşı azərbaycanlıların da milli legionlarının yaradılmasına başladı.

1942-ci ildə yekunlaşdırılan bu işin nəticəsində təxminən 70-100 min həmvətənimizi əhatə edən Azərbaycan milli legionları təşkil olundu. İlk legionlar Polşada yaradıldı, digərləri isə Almaniyada formalaşdırıldı (Hər bir legionun komanda heyətinin təxminən 20-25%-ni alman zabitləri təşkil edirdi).

İkincisi, «köhnə» siyasi mühacirət istər milli legionların qurulması, istərsə onların təchizatı, Sovetlərə qarşı hərbi əməliyyatlarda iştirakının səviyyəsi, hüdudları məsələlərində, habelə bütövlükdə Almaniya hökumətilə münasibətlərdə özünü açıqca göstərən anlaşılmazlıqların, ixtilafların aradan qaldırılmasına yönəlik də ciddi səylər göstərdi.

Elə buradaca da bir-birilərini şərtləndirən iki fərqli yanaşmadan irəli gələn mövqelərin doğurduğu nəticələrə nəzər salmağa ehtiyac vardır. Belə ki, «köhnə» mühacirətin milli istiqlal qavasındakı ardıcıl və israrlı mövqeyinə yaxından bələd olan nasist liderlər «yeni» (müharibə dövrünün) mühacirətilə, yəni yalnız əsir hərbçilərlə əlaqələr və işbirliyi qurmaqda maraqlı idilər.

Öz növbəsində siyasi mühacirətin də faşizmə, nasist Almaniyasının milli siyasətinə («Ali irq» təliminə) və s. münasibəti birmənalı deyildi (Və burada da bir təbiilik vardı:

M.Rəsulzadə hələ 1933-cü ildə yazırdı ki, hitlerçilik kommunizm demaqogiyasına qarşı çıxmaq məqsədilə yaradılmış bir ideyadır; o öz müxaliflərindən diktatorluq fikrini götürmüş, lakin oradakı beynəlmiləlçiliyi millətçiliklə əvəz etmişdir (Ümumilli liderimizin, o zamankı siyasi mühacirətimizin şəriksiz öndərinin A.Hitlerlə ideoloji savaşı, onun nəticələri və s. məsələlərə az sonra da toxunulacaqdır).

Vermaxt OKW-sinin Azərbaycan milli legionlarına yanaşması da əsla qanedici deyildi. Çünki onlara «Ali irq» prinsipindən yanaşılırdı və aşağılayıcı münasibət bəslənilirdi. Əslində azərbaycanlıların «Vətən», «Cavad xan», «Aslan», «İgid», «Dönməz» və habelə digər batalyonları Qafqaz uğrundakı savaşlarda qəhrəmancasına vuruşmuşdular və xeyli yaşayış məntəqəsinin faşist qoşunları tərəfindən tutulmasında fəal iştirak etmişdilər (Sözgəlişi, siyasi mühacirlər və komandirlər legionların yalnız Qafqaz (Azərbaycan) uğrundakı əməliyyatlarda iştirak etmək şərtini qoymuşdular).

Legionlarla Vermaxt arasında vaxtaşırı özünü göstərən narazılıqlar və s. üzündən onlarla ehtiyatlı (tərəddüdlərlə) davranan nasist rəhbərliyi həm də «kənar təsirləri» (siyasi mühacirlərin xəttini) zərərsizləşdirməyə çalışırdı. Bu məqsədlə hətta Ümumqafqaz siyasi mühacirəti daxilindəki müxalif qüvvə (mövqe)lərə istinad etməyə, bu axarda da X.Xasməmmədov və b. M.Rəsulzadəyə qarşı istifadə olunmasına cəhdlər göstərildi.

Siyasi mühacirlərimizin Azərbaycan dövlətçiliyinin bərpasına yönəlik tarixi davasının legionçuların istiqlalçı mövqeyilə tamamlanması Almaniyanı qətiyyən qane etmir və razı salmırdı. «Köhnə» (müsavatçı) mühacirətin «yeni»lə (legionçularla) ideya və əməl birliyi nasist liderləri qayğılandırırdı. Azərbaycanın «köhnə» və «yeni»li siyasi mühacirəti isə, təbii olaraq, özünün taleyüklü mübarizə yo-

lundan əsla kənara çəkilmədi. Əksinə, şəraitə uyğun şəkildə ona daha da əzmlə və inamla davam etdi.

1942-ci ilin ortalarından etibarən əsas diqqət itirilmiş dövlətçiliyimizin faşist Almaniyası tərəfindən rəsmən tanınmasına verildi. Siyasi mühacirət bu niyyətlə də Almaniya XİN-in Şərq məsələləri üzrə mütəxəssis-əməkdaşı (SSRİ-dəki keçmiş səfir), professor F.Şulenburqun Berlində keçirdiyi görüşə (V.1942) qatıldı. «Adlon» otelindəki bu görüşə Qafqazın «köhnə» siyasi mühacirətinin tanınmış simalarından H.Bammat, Ə.Qantəmir, Z.Avalişvili və b. gəlmişdilər. Azərbaycanlılardan M.Rəsulzadə, X.Xasməmmədov və F.Əmircan tədbirdə iştirak edirdilər.

F.Şulenburqun şəxsi dostu olan Nuru paşanın yaxından yardımı (dəvətlilərin müəyyənləşdirilməsi və s.) ilə düzənlənən «Adloniada görüşü» Almaniyanın beynəlxalq siyasətindəki bəzi təzadları və bununla bağlı iqtidardaxilində üzüzə gələn qüvvələrin də olmasını bir daha aşkarladı. «Türkpərəstliyi» müşahidə olunan XİN ilə (F.Şulenburq və Ankaradakı keçmiş səfir F.Papenlə) Şərq nazirliyi (A.Rozenberq) arasındakı mövqe və yanaşma fərqləri burada da özünü büruzə verdi. Belə ki, birincilərin Sovetlərdən olan siyasi mühacirlərlə yaxınlaşma və işbirliyi xətti «Adloniada» iştirakçılarına rəğbət bəsləməyən ikinci tərəfi hiddətləndirmişdi.

Ətrafında kəskin mübahisələrin getməsinə və ilkin nəticələrinin birmənalı olmamasına baxmayaraq «Adloniada görüşü», vaxtilə Sovetlər (Rusiya) tərəfindən yox edilən milli dövlətlərin, öncə də onların təmsilçiliklərinin Almaniya tərəfindən rəsmən tanınması məsələsinin ciddi şəkildə ortaya çıxmasına təkan verdi.

Yaradılmaları əvvəlcədən nəzərdə tutulmayan milli legionların sonradan təşkili kimi, «tanınma problemi» də gündəmə gəldi. Ancaq hələki A.Rozenberqin ortaq variantı

– dövlətçiliklərin tanınmasını tələb edən milli komitələrə ehtiyacın olmaması və legionlarla Vermaxtın rəhbər qurumları arasındakı «Əlaqə (Rabitə) Heyəti»lə kifayətlənməyin mümkünlüyü – A.Hitler tərəfindən hərtərəfli dəstəkləndi.

M.Rəsulzadə nasist liderlərin məlum mövqeyini bilsə də görüşdən sonra Berlində qalıb Şərq nazirliyi ilə danışıqlar (X-XI.1942) apardı. Bu işdə M.Rəsulzadəyə mühacirlərimizin Avropadakı ilk siyasi təşkilatının – «Azərbaycan İstiqlal Komitəsi»nin – o dövrki sədri, Almaniyanın hakimiyyət dairələrilə yaxşı əlaqələri olan və 1942-ci ilin əvvəlində Məhəmməd Əmin bəylə birlikdə «Milli Azərbaycan Komitəsi»ni (MAK-ı) yaradan Hilal Münşi vasitəçilik etmiş və yardım göstərmişdi. Yeri gəlmişkən, M.Rəsuzladə MAK-ın o vaxtki şəraitdəki başlıca vəzifəsini «Milli Azərbaycan davasının əsaslarını alman rəhbərliyinə qəbul etdirmək üçün fəaliyyət göstərmək»də görürdü.

Bu qurumun proqramında: **1-cisi,** Azərbaycanın milli hüquqlarını qorumaq; **2-cisi,** Vətənin xilası və istiqlalı naminə mübarizə aparmaq; **3-cüsü,** Qafqaz millətlərinin dostluğu və siyasətcə bir olmaları üçün çalışmaq; **4-cüsü,** Almaniya ilə sıx işbirliyinə nail olmaq və s. məqsədlər qarşıya qoyulmuşdu.

H.Münşini danışıqların aparılmasının zəruriliyinə inandıran və razı salanlar arasında Şərq nazirliyi Siyasi bölümü Qafqaz dairəsinin (SSRİ millətləri üzrə Baş idarənin Qafqaz işləri şöbəsinin) başçısı, Almaniyanın Türkiyədəki sabiq böyük elçisi, professor fon Mende də vardı (Tabeçiliyində işlədiyi baron A.Rozenberqdən fərqli olaraq professor Mende Milli komitələrin tanınmasının tərəfdarı idi).

Rəhbərlik etdiyi MAK-ın xəttini əsas tutan M.Rəsulzadə danışıqlarda Azərbaycanın müstəqilliyinin Almaniya tərəfindən tanınmasında israr etdi. Onların gedişində (7.X.1942)

alman tərəfinə xüsusi Memorandum təqdim olundu. 12 maddədən ibarət olan bu sənəddə aşağıdakılar istənildi:

- azərbaycanlıların hərbi əsir düşərgələrindən buraxılmaları;
- onların əsasən mülki əmək fəaliyyətinə cəlb olunmaları;
- Azərbaycan ordusunun yaradılması və onun başçılarının soydaşlarımızdan təyin edilməsi;
- legionçularımızın yalnız Şərq cəbhəsində vuruşacaqlarına və alman qoşunlarının Azərbaycana girəcəyi vaxtda öndə milli ordunun ölkəmizə daxil olmasına təminat verilməsi və s.

Səmərəsiz danışıqlardan bezən MAK lideri Almaniyadan Rumıniyaya getdi («Üçüncü reyx»in aparıcı siyasi-hərbi qurumlarından sayılan SD-nin («Təhlükəsizlik Xidməti»nin») rəhbərliyi «ən tanınmış Azərbaycanlının getməsinə müsaidə edənləri» 1944-cü ildə sərt şəkildə qınamışdı).

Bu arada OKW ilə legionlar arasındakı əlaqələri qurmaq üçün «Azərbaycan Rabitə Heyəti» də yaradıldı. «Keçmiş» siyasi mühacirlərin yaratdığı təşkilat sayılmayan həmin qurum («Üçlük») Ə.Fətəlibəyli-Düdənginski, «Prometey»ə müxalif «Qafqaz» qrupunun fəalı F.Əmircan və AXC-nin Paris Sülh konfransındakı nümayəndəliyinə sonradan daxil edilən A.Atamalıbəyovdan ibarət idi. Birinci – Vermaxtdakı, ikinci isə SD-dəki legionların, üçüncü də Şərq nazirliyində çalışan azərbaycanlıların irəli sürdükləri nümayəndələr hesab olunurdular).

Digər «Əlaqə heyətləri» də aparıcı mühacirət təşkilatlarına müxalif olanlardan təşkil edilmişdi. Bu, bir yandan, nasistlərin məlum mövqeyi, digər tərəfdən də, önəmli mühacir qurumlarının başçılarının, milli dövlətlərin – istiqlalların (onların təmsilçiliklərinin) rəsmən tanınmaması üzündən, Almaniyadan getmələri ilə əlaqədar idi. «Üçlük»dəki («Əlaqə heyəti»ndəki) iki «köhnə» siyasi mühacir hələ lap əvvəllərdən M.Rəsulzadəyə qarşı çıxanlardan hesab olunurdu.

«Üçlük»ün digər üzvü (əslində rəhbəri) Ə.Fətəlibəyli ilə Məhəmməd Əmin bəy arasında səmimi və işgüzar münasibətlər olmuşdu. «Rabitə Heyəti»nin faktiki başçısı cəbhədən fon Mende vasitəsilə M.Rəsulzadəyə yetişdirdiyi məktubda (1942) onu «əziz yurdumuz Azərbaycanın yorulmaz hürriyyət mücahidi» kimi dəyərləndirmişdi.

M.Rəsulzadə isə Almaniyanı tərk etməzdən öncə «baş legionçuya» uğurlar diləyərək «milli əsaslara sadiq qaldığı müddətdə ona mənəvi dəstək olacağını vəd etmişdi». Yazılarından birində isə Ə.Fətəlibəylini «vətənsevər və cəsur bir mücahid» adlandırmışdı.

«Müstəqilliyimizin tanınıb-tanınmamasından asılı olmayaraq bu ağır vaxtda həmvətənlərimizi milli rəhbərlikdən məhrum etməyə mənəvi haqqımız yoxdur. Bu, Vətən qarşısında cinayət demək olardı» kimi fikirlərin sahibi (Ə.Fətəlibəyli) ömrünün sonunadək həmin prinsipə sadiq qala bilmədi (Onun özünü «Fürer» (rəhbər) adlandırması, mühacirətin müharibə dövründəki işlərini (uğurlarını) öz adına çıxması, təcrübəli və nüfuzlu siyasətçilərimizlə hesablaşmaması, rəhbərlik etdiyi qurumları Azərbaycanda iqtidarı ələ almağın ilk pilləsi sayması, N.Nərimanovu ideallaşdırması, Böyük savaşdan sonra M.Rəsulzadəyə və «Müsavat»a qarşı müxalifətə keçməsi və s. halların da olmasına dair məlumatlar vardır).

Siyasi mühacirətin milli istiqlalımızın nasist Almaniyası tərəfindən tanınması naminə mübarizəsindəki mühüm işlərindən birini də Ümumazərbaycan qurultayı təşkil edir. «Üçüncü reyx»in bəzi siyasi-hərbi strukturlarının (Şərq nazirliyi, Vermaxt və s.) çeşidli əngəllərinə baxmayaraq qurultayın keçirilməsinə müvəffəq olundu.

Berlinin «Kayzerhof» otelində keçirilən (6-9.XI.1943) bu qurultayda 300 nəfər iştirak etmişdi. Ə.Fətəlibəyli-Düdənginskinin təşəbbüsü ilə keçirilən Ümumazərbaycan («Kayzerhof») qurultayını Sovet Rusiyasına (XI orduya) qarşı törədilən məşhur Gəncə üsyanının (26-31.V.1920) başçılarından olan C.Kazımoğlu açmışdı.

Bu, mötəbər toplantının açılışına A.Rozenberq, Qüds müftisi H. əl-Hüseyn və b. da təşrif buyurmuşdular (Şərq nazirliyi qurultay ərəfəsində onun iştirakçılarından ABŞ ilə İngiltərənin Azərbaycanın düşmənləri elan olunmasını tələb etmişdi). Qurultayın qəbul etdiyi beş bənddən ibarət Yekun sənədində aşağıdakı vacib məqamlar vurğulanmışdı:

a) AXC-nin tariximizdəki yeri və önəmi; **b)** istiqlalın bərpası naminə aparılan 23 illik mübarizə; **c)** Vətənin azadlığı uğrunda şəhid olanların xatirəsinə hörmət və ehtiram; **ç)** milli müqəddəratımızın həllinə, istiqlalımızın bərpasına sarsılmaz inam və onun ilk şərti kimi əzəli – əbədi düşmənimizin məhvi; **d)** bolşevizmə qarşı vuruşan və tarixboyu türk xalqlarının dostu (?! – İ.M.) olan Almaniya ilə mənafelərimiz naminə birlik; **e)** qafqazlı qonşularla və qardaş türk xalqları ilə işbirliyi.

Qurultayda Ə.Fətəlibəylinin başçılığı ilə «Azərbaycan Milli Birlik Məclisi» (AMBM) quruldu. 1943-cü ilin payızında Berlində Azərbaycan parlamenti təsis olundu və yenə də Ə.Düdənginskinin sədrliyi ilə «Mühacir Azərbaycan hökuməti» yaradıldı (F.Əmircan müavin oldu). Almaniya hökuməti onu tanıdı.

Müharibədə üstünlüyün faşistlərdən bolşeviklərə keçməsi və milli dövlətlər naminə davanın nasist Almaniya tərəfindən əsla qəbul edilməməsi və hətta yaxına belə buraxılmaması Ümumsovet (Qafqaz) siyasi mühacirəti düşərgəsində yeni keyfiyyət halı və şəraitinin yaranmasına səbəb oldu.

Sovet siyasi mühacirətinin «köhnə» və «yeni» kəsimlərinin (qollarının), birincilərin QKŞ-də təmsil olunan və ondan kənarda fəaliyyət göstərən əsas təşkilat-qruplarının, habelə legionçuların nasist Almaniyası ilə münasibətlərində soyuqluq və gərginlik anları yaşandı. Qafqazlı mühacirlərin tanınmış simaları (M.Rəsulzadə, N.Jordaniya və b.) nasizmlə, A.Hitlerin milli istiqlal mübarizəsi aparanlara münasibəti və s. ilə əlaqədar kəskin fikirlər, ittihamlar səsləndirdilər.

Hələ müharibənin əvvəlində «Millətlərin həyatını böyük bir rahatlıqla yox edən alman dövləti Gürcüstanın hürriyyətini yenidən təsis etməyə qatıla bilməz» deyən N.Jordaniya bəzi məsələləri nəzərə almalı oldu. M.Rəsulzadə yenidən Almaniyaya gəldikdən sonra legionçularımız qarşısındakı çıxışlarından birində (VIII.1943) istiqlalımız üçün almanlardan kömək umduğuna «amma əfsus!» deyərək təəssüflənmiş və onların içüzünü artıq tanıdığını bildirmişdi:

«Müstəqil dövlətləri işğal edib özünün quluna çevirən bir ölkənin köləlik altında qəhr olan məmləkəti azad edəcəyinə bel bağlamaq sadəlövhlükmüş». Belə kəskin antifaşist çıxışına görə, o, hökumət dairələrinin tələbi ilə yenidən Almaniyanı tərk etmək məcburiyyətində qalmışdı.

Məhz bu çağlardan etibarən milli legionlarda fərarilik halları çoxalmış və onların fəaliyyətindəki pərakəndəlik güclənmişdi. Bu cür hallar özünü ən çox da erməni, gürcü və digər legionlarda göstərdiyindən A.Hitler yalnız «müsəlmanlara güvənə biləcəyini» bildirmişdi (Müharibəyə qatılmayan Türkiyənin də Müttəfiqlərin tərəfinə keçməsi nasist liderin bu ümidini də sarsıtdı).

Vermaxtın «Mühafizə dəstələri»ndə (SS-də) qulluq edən H.əl Rəşid (Ənvər paşanın keçmiş silahdaşı) dağılmaq üzrə olan legionçulardan ibarət «Şərqi Türk Silahlı Gücü» adlı hərbi birlik yaratdı (1943-cü ilin sonlarında Vermaxt

milli legionları dağıtmaq qənaətinə gəlmişdi). Həmin əsgəri birlik SSRİ-ni daxildən parçalamaq məqsədilə bütün türk əsilli antibolşevik qüvvələrin siyasi və hərbi cəhətdən toparlanması niyyətilə qurulmuşdu.

Belə olduqda nasist liderlərindən SS-in şefi H.Himmler həmin hərbi birliyin oxşarını – qafqazlı legionçulardan ibarət «Qafqaz Silahlı Gücü»nü yaratmağa cəhd etdi. Azərbaycanlıların ermənilərlə eyni hərbi hissədə vuruşmaqdan imtina edərək türküstanlılara («Doğu Türk Silahlı Gücü»nə meyllənmələri durumu mürəkkəbləşdirdi. Buna görə də Vermaxt azərbaycanlı legionçuları Quzey Qafqaz hərbi qurumuna qatdı.

Müxtəlif hərbi birliklərin qurulduğu və birləşdirildiyi bir şəraitdə Qafqazın keçmiş dörd cümhuriyyətinin siyasi mühacirləri – təmsilçiləri Almaniya XİN-ə diplomatik nota (22.VIII.1944) ilə müraciət etdilər. Notada Qafqazda Konfederativ dövlət qurulması istənildi.

Bu dövrdə sovet-rus mühacirətinin «yeni» qolunda toplaşanlar da fəallaşmışdılar. Onlardan biri – 1942-ci ildə ordusu ilə birlikdə Almaniya tərəfə keçən general A.Vlasov da bir siyasi təşkilat yaratmışdı. 1944-cü ildə qurulan «Rusiya Xalqlarının Qurtuluş Komitəsi» (RXQK) adlı bu birlik SSRİ məkanında kommunistlərsiz dövlət yaratmağı hədəfə almışdı. Onun nəzdində «Rus Qurtuluş Ordusu» (RQO) da təşkil edilmişdi. Komitə və ordu ilə paralel surətdə «Qafqaz Şurası» (QŞ) adlı siyasi qurum da ərsəyə gəlmişdi (X.1944). QŞ-nin qurucuları arasında A.Atamalıbəyov da vardı.

Vermaxt QŞ-nin də RXQK-ya qatılmasına çalışırdı. Onun müvafiq təklifi qafqazlı mühacirlərin ciddi tələbləri ilə qarşılaşdı. Həmin şərtlərə görə, Almaniya: **a)** Qafqaz ölkələrini müstəqil dövlətlər və özünün müttəfiqi olaraq tanımalı; **b)** Qafqaz hərbi birliklərini «Qurtuluş ordusu» elan etməli:

c) QŞ-yə qatılan hər bir təşkilatı ayrılıqda Milli Komitə adlandırmalı idi.

Ə.Fətəlibəyli yazırdı ki, rus antibolşevikləri ilə əməkdaşlıq üçün birinci və sonuncu şərt olaraq qeyri-rus xalqlarının tam müstəqilliyi bəyannaməsini qəbul etməyi qarşıya qoymuşam. Ancaq həmin tələblər qəbul edilmədiyindən danışıqlar alınmadı. RXQK və RQO-nun dağılmaları ilə əlaqədar olaraq bu proses də yarımçıq qaldı.

Türkiyənin bu cahan hərbindəki tərəfsizliyinə son verərək Almaniyaya müharibə elan etməsi (22.II.1945) də proseslərə təsirsiz ötüşmədi. Türküstanlıların və qafqazlıların hərbi birlikləri (Doğu Türk və Qafqaz Silahlı Gücləri) də dağıldı. Azərbaycanın siyasi mühacirləri və legionçularının fəaliyyət imkanları xeyli azaldı.

Qafqaz cümhuriyyətlərinin faşist Almaniyası tərəfindən çox gecikmiş tanınmaları (17.III.1945) da Azərbaycan siyasi mühacirətinə kömək edə bilmədi. Sovet ordusunun Avropaya gəlişi və Almaniyanı tutması siyasi mühacirlərimizi daha fəlakətli durumla üzləşdirdi.

§5. Siyasi mühacirətin müharibədən sonrakı Azərbaycan davası

Azərbaycanın quzeyi və güneyi üçün də müəyyən nəticələrlə yekunlaşan İkinci Cahan hərbi siyasi mühacirlərimizin problemlərinə, onların tarixi istiqlal mübarizəsinə və s. ciddi təsir göstərdi. Burada öncə mühacirlərin sayının, müxtəlif səbəblərdən irəli gələn, artımından bəhs etmək lazım gəlir. Belə ki, müharibədə Almaniyaya əsir düşən həmvətənlərimizin legionlara qatılanlarının xeyli hissəsi məlum səbəblərə görə Azərbaycana qayıda bilmədi. Habelə legionçu ol-

mayan əsirlərin də müəyyən qismi faşist düşərgələrindən azad edildikdən sonra Vətənə dönmədi.

«Məşhur» DTK-nın məlumatlarına görə, təxminən 30 mindən çox azərbaycanlı mühacir həyatını yaşamalı oldu (Ümumiyyətlə, bu müharibənin nəticəsində təqribən 50 mln. adam vətənlərindən ayrılaraq mühacirə çevrilmişdi).

Keçmiş hərbi əsirlərin məskunlaşması geniş bir coğrafiyanı (Avropa, Misir, ABŞ və s.) əhatə etdi. Avropada müharibənin sona çatdığı vaxtlarda M.Rəsulzadə tərəfindən Almaniyada (Münhendə) gizli olaraq yaradılan Azərbaycan Demokratik Birliyi (ADB) keçmiş hərbi əsirlərin yerləşdirilməsi və b. sahələrdə çox iş gördü.

Hərbdən sonra Azərbaycan siyasi mühacirətinin, lideri Ə.Fətəlibəyli-Düdənginski hesab olunan, yeni dalğası da özünü göstərdi. Yəni, sabiq legionçuların və bütövlükdə keçmiş hərbi əsirlərin müəyyən hissəsi siyasi mühacirətə qoşularaq Azərbaycan istiqlalı naminə aparılan tarixi mübarizəni davam etdirdi.

Siyasi mühacirətimizin və artıq xeyli böyüyən diasporamızın müharibədən sonrakı Azərbaycan davası müəyyən mərhələlərdən keçdi. İ.Stalinin totalitar rejiminin digər diktatura quruluşunu (alman faşizmi-nasizmini) darmadağın edərək möhkəmlənməsi və Qərbə (Avropaya) yol açması istiqlal mübarizəsinin qələbəsini gecikdirdi, Azərbaycan siyasi mühacirətinin problemlərini artırdı. Savaşsonrası ilk dönəmlərdə Azərbaycan siyasi mühacirəti, əsasən, bu istiqamətlərdə iş aparırdı:

1-cisi, keçmiş hərbi əsirlərin məskunlaşdırılması və təmin olunması.

2-cisi, özünün toparlanması, siyasi təşkilatlanmasını gücləndirməsi və təkmilləşdirməsi.

3-cüsü, milli-dini mənsubiyyətə və maraqlara, dövrlərə

(«köhnələr»ə və «yenilər»ə), kənar müdaxilələrə və s. görə parçalanmış Qafqaz siyasi mühacirətinin birləşdirilməsi.

Azərbaycan siyasi mühacirətinin yenidən təşkilatlanması, yəni əslində bir araya gəlməsi və bununla da qafqazlı mühacirlərin birliyinə nail olunması çoxlu çətinliklərlə qarşılaşdı. Ancaq milli istiqlal mücadiləsində bu başlıca şərtlərdən biri olduğundan ona böyük qayğı göstərilməsi və zəhmət çəkilməsi lazım gəldi. Müharibədən sonrakı ilk çağlarda Azərbaycan siyasi mühacirətində əslində bir-birinə müxalif olan iki təşkilat (mərkəz) mövcud idi:

1. «Azərbaycan Demokratik Birliyi» (ADB); lideri M.Rəsulzadə idi və «köhnə» siyasətçi-mühacirləri birləşdirirdi.
2. «Azərbaycan Milli Birlik Məclisi» (AMBM); ona Ə.Fətəlibəyli-Düdənginski başçılıq edirdi, əsasən legionçulardan təşkil olunmuşdu, «köhnə mühacirlərdən C.Hacıbəyli, C.Kazımoğlu və b. özünə cəlb edə bilmişdi. Onlar arasındakı fikir ayrılıqları bir xeyli çəkdi və mühacirətin ümummilli mübarizəsinə mənfi təsirini göstərdi. Bu iki mərkəzdə yığışanları bir araya gətirmək də mümkünsüz oldu.

Azərbaycanın «köhnə» siyasi mühacirlərinin əksəriyyəti 1947-1948-ci illərdə Türkiyəyə döndü. M.Rəsulzadə də Ankaraya gələrək orada «Azərbaycan Kültür Dərnəyini» yaratdı (1949). Tezliklə «Azərbaycan Milli Mərkəzi»nin işi də yenidən quruldu və canlandırıldı. Çox tanınmayan bəzi mühacir qrupları da 1948-1952-ci illərdə Ankara və İstanbulda bir sıra təşkilatlar yaratdılar: «Azərbaycan Millət partiyası», «Azərbaycan Döyüşçülər Birliyi», «Amerika Azərbaycan Cəmiyyəti», «Azərbaycan Gənclik Dərnəyi» və s.

Sovetlər İttifaqını dağıtmağın (kommunizmi məhv etməyin) hərb yolunu «Soyuq müharibə» və xüsusilə də iqtisadi-psixoloji qarşıdurmayla əvəzləyən Qərb (ABŞ) bu işdə siyasi mühacirətin önəmi və gücünü də dəyərləndirdi. Post-

çarlıq – postsavaş mühacirətini toparlamaq və bir araya gətirmək üçün yollar arandı. Bu işdə 1940-cı illərin sonunda yaradılan «Amerikan Komitəsi» mühüm çəkiyə malik oldu. Əsas hədəfi «vahid antibolşevik cəbhəsi»ni formalaşdırmaq olan həmin komitə əsasən «ağ mühacirət»in «Kerenski qolu» ilə işləməyə üstünlük verdi.

Qərbdə «milli məsələ üzrə ən etibarlı mütəxəssis» kimi qiymətləndirilən sabiq hökumət başçısı isə həmişə «Vahid və bölünməz Rusiya» tərəfdarı olmuşdu. Buna görə də komitə çox vaxt qeyri-rus mühacir təşkilatlarının etiraz və müqavimətilə üzləşmişdi.

«Ağ mühacirət»in müharibədən sonrakı ilk böyük toplantılarında – Füssendə (I.1951) və Ştutqartda (VIII.1951) keçirilən konqreslərdəki müzakirələr, nəticələr ciddi mübahisələr doğurdu. Stutqart konqresinin «Rusiya Millətlərinin Qurtuluş Şurası»nı (RMQŞ) yaratması və onun «müddəatövsiyələri» daha da qızışdırıcı rol oynadı:

- Rusiya millətlərinin hamısının təyin-müqəddərat haqqı tanınır;
- Rusiyanın Balkanlaşması onun bütün xalqlarının mənafelərinə uyğun deyildir;
- yeganə düzgün yol Rusiyanın bölünməsi deyil, Federasiya və Milli-Mədəni Muxtariyyət əsasında onun millətləri ailəsinin qorunub saxlanmasıdır.

«Amerikan Komitəsi»nin bütün sovet mühacirlərinin «birləşməsi»nə yönəlik səylərinin zirvəsini Visbaden (Almaniya) konfransı (2-8.XI.1951) təşkil edir. O, beynəlxalq münasibətlərdə və siyasi mühacirətlər tarixində «Visbaden konfransı məsələsi» kimi də səciyyələndirilir. Toplantıda beş rus və habelə onların mövqeyini dəstəkləyən beş də milli mühacir qrupu təmsil olunmuşdu.

Müzakirələr zamanı A.Kerenski və tərəfdarlarının səsləndirdikləri fikirlər onların yalnız «SSRİ-də rejim dəyişikliyini və Rusiya imperiyasının bərpasını» istədiklərini, milli istiqlalların (dövlətçiliklərin) isə sonradan plebissitlə (ümumxalq səsverməsilə) həllinə razılıqlarını bir daha təsdiqlədi. Bunu «milli təyin-müqəddərat hüququ bəyanat mahiyyəti daşıyır», «mövcud problemin həlli yalnız Rusiyanın hüdudları daxilində mümkündür» və s. müddəalardan da görmək olur.

«Visbaden Bəyannaməsi»nin elanı (11.XI.1951) beynəlxalq siyasi dairələrdə böyük qalmaqal yaratdı və mühacir təşkilatları arasında «mətbuat savaşı»na səbəb oldu. Bu konfransa qatılan və onun Bəyannaməsini imzalayanlar əsasən müharibədən sonra yaranan milli mühacir təşkilatlarının təmsilçiləri idi. Azərbaycan adından isə orada yalnız AMBM-nin (Ə.Fətəlibəyli qrupunun) üzvləri – «köhnə» mühacirlərdən sayılan C.Hacıbəyli, Ə.Şeyxülislamov və b. iştirak edərək sənədə qol çəkmişdilər.

Siyasi mühacirətimizin Türkiyə və Avropada keçirilən çoxsaylı toplantılarında onların bu hərəkəti AMBM-nin «Azərbaycan davasına xəyanəti» kimi dəyərləndirildi. Həmin yığıncaqda qəbul edilən sənədlərdə və mətbuatdakı yazılarda AMBM-in mövcud olmaması, «Azərbaycan davasının SSRİ-nin (Rusiyanın) daxili işi şəklində müzakirəsi üçün heç kimə hüquq verilməməsi» və s. fikirlər önə çəkildi.

Bunlarla yanaşı Visbaden razılaşmasının beynəlxalq miqyasda boykotuna cəhdlər göstərdi (Buna RMQŞ-nin yaratmaq istədiyi «Bolşevik Əleyhdarlarının Koordinasiya Mərkəzi»nin (BƏKM-in) Nizamnaməsində özünə yer alan müddəa-prinsiplər də rəvac verdi. Məsələn, SSRİ-dəki digər xalqlara da Rusiya milləti kimi yanaşılması, qeyri-rus təşkilatlarının özlərini müstəqil milli dövlətlərin təmsilçiləri adlandıra bilməmələri və s.

RMQŞ «Amerikan Komitəsi»nin təkidilə yalnız beynəlxalq aləmdə 1922-1923-cü illərdə tanınan dövlətlərin

(Polşa və Baltikyanı respublikaların) müstəqilliyini qəbul edirdi. Tezliklə Qafqaz, Şərqi Avropa və Türküstan siyasi mühacirlərinin Münhendə toplantısı (30.XI.1951) keçirildi. Onun Visbaden Bəyannaməsini rədd edən qərarında aşağıdakılar bildirildi (tələb olundu):

a) RMQŞ-nin Sovetlər Birliyinin bütün xalqlarının adından çıxış etməsinin yolverilməzliyi və dözülməzliyi;

b) Rusiya əsiri olan millətlərin 1917-1921-ci illərdəki dövlətlərinin dünya birliyi tərəfindən tanınması və bəzilərinin də BMT-yə qəbulu;

c) RMQŞ-nin Sovetlərin (kommunist diktaturasının) çökməsindən sonra keçiriləsi plebissit fikrinin (təklifinin) mümkünsüzlüyü. Çünki, bir tərəfdən, yaxın keçmişdə müstəqil dövlətləri olan xalqların belə plebissitə ehtiyacları yox idi. Digər yandan da, xeyli müddətdən bəri aparılan ruslaşdırma və 40-cı illərin deportasiyaları etnodemoqrafik tarazlığı pozduğundan plebissit yanlış (aldadıcı) nəticələr də verə bilərdi);

ç) RMQŞ-nin öz iradəsini (xəttini) yeritmək üçün yenicə yaranan zəif qeyri-rus siyasi mühacir təşkilatlarını özünə qatmaq istəyinin (təşəbbüsünün) antidemokratikliyi (Bu, qeyri-rus xalqların mühacirət cəbhəsini parçalamaq məqsədilə edilmişdi. Rus xalqına dost münasibətə xələl gətirən və milli qarşıdurmaya rəvac verən addımların qarşısı kəskinliklə alınmalıdır).

Qərarla habelə dünya ictimaiyyətinə müraciət edilirdi. Müraciətdə isə rus-bolşevik imperializminə qarşı mübarizə aparan millətlərə yardım göstərilməsi və Atlantika Bəyannaməsinə əsasən onların da azad xalqlar sırasına qatılmalarının təmin edilməsi xahiş olunurdu. Bu qərarı AMM adından M.Kəngərli imzalamışdı və C.Hacıbəyli ilə Ə.Şeyxülislamov da müəyyən şərtlərlə ona qol çəkmişdilər.

Visbadençilərin Münhen toplantısında (X.1952) doqquz (4 rus+5 qeyri-rus) siyasi mühacir təşkilatının təmsilçiləri tərəfindən BƏKM yaradıldı. Onun fəaliyyət proqramı əslində RMQŞ-nin və Visbadan Bəyannaməsinin müddəa-prinsiplərinin təkrarı idi. BƏKM Mühacir parlamenti hesab olunan Koordinasiya Şurasını təşkil etdi. Orada hərəsindən 20 nəfər olmaqla: rus; qeyri-rus mühacir təşkilatlarının və mütəxəssislər qrupunun (cəmi 60 üzv) təmsilçiliyi nəzərdə tutulurdu.

BƏKM-in Mərkəzi Bürosuna AMBM (C.Hacıbəyli) də daxil edilmişdi. Koordinasiya Mərkəzinə dair sənədləri AMBM adından C.Hacıbəyli, Ə.Şeyxülislamov və C.Kazımoğlu imzalamışdılar. Bu bir qurama təşkilat olduğundan, habelə rus siyasi mühacirlərinin (A.Kerenski və b.) «Bölünməz və vahid Vətən» mövqeyində israrla dayanmaları üzündən gərgin mübahisələr şəraitində qısa ömür sürdü.

Belə bir şəraitdə qafqazlı mühacirlər (ermənilərsiz) «Münhendə Ümumqafqaz konfransına (11-16.XII.1952) toplaşdılar. Üç ölkənin nümayəndələrinin bu yığıncağında Azərbaycan, sədri M.Rəsulzadə olan, «Milli Mərkəz»lə təmsil edilmişdi. Əvvəllərdə fəaliyyət göstərən mühüm bir qurumun (QKŞ-nin) prinsiplərinə sadiq qalan bu konfransda yeni bir təşkilatı, yəni «Ümumqafqaz Mərkəzi»ni – «Qafqaz İstiqlal Komitəsi»ni (QİK-i) ərsəyə gətirdilər. Onun qarşısında qoyulan vəzifələrə bunlar daxil idi:

Qafqaz xalqlarının milli qurtuluş mübarizəsinin xaricdə təmsil və idarə olunması; QİK-in fəaliyyətinin – bolşevizmə qarşı mücadilə edən millətlərə yardım göstərmələrinə ümid bəslənilən – dövlətlərlə (ABŞ və Qərb ölkələri başda olmaqla) və xalqlararası təşkilatlarla əlaqələndirilməsi; Şərqi Avropa və Türküstan xalqlarının azadlıq mübarizəsilə işbirliyi qurulması.

Konfransın, M.Rəsulzadənin də imzaladığı, Bəyannaməsində habelə Qafqaz xalqlarının ruslara əsla nifrət etmədikləri və bolşevizmin çökməsilə onların da qurtulacağı bildirilirdi. QİK qafqazlı siyasətçilərin mühacirətdəki axırıncı ortaq təşkilatı oldu.

Yığıncağın Rəyasət Heyətinə seçilən M.Rəsulzadə orada «Ümümqafqaz siyasətinin ana xətləri» mövzusunda məruzə etdi. Konfrans BƏKM ilə əməkdaşlığı mümkünsüz saydı. Və bunu BƏKM-in və Visbaden razılaşmasının Qafqaz dövlətlərinin müstəqilliyini tanımamaları ilə əsaslandırdı (Sözgəlişi, erməni mühacir təşkilatı BƏKM-də təmsil olunduğundan onların burada iştirakı da mümkün deyildi).

Visbadençilər və BƏKM əleyhinə birləşən siyasi mühacirlərin (M.Rəsulzadə və digərlərinin) səyləri həmin qruplaşmanın dağılması və təsirsiz (imkansız) duruma düşməsi ilə nəticələndi. Tezliklə (VII.1953) BƏKM iki tərəfə ayrıldı. BƏKM-in bölünməsi və Visbadençilərin parçalanması M.Rəsulzadə ilə həmməsləklərinin sonuncu sanballı uğurlarından hesab edilə bilər.

Buna baxmayaraq «Visbaden konfransı məsələsi» ətrafında gedən «mətbuat savaşı»nda «Böyük», yəni M.Rəsulzadə yeni «ittihamlar»la üzləşdi: «mövcud olmayan partiyanın adından bəyanat vermək və ictimai fikri aldatmaq»: «legionçuların cəbhələrdə əziyyət çəkmələrinə bais olmaq» və s. Bütün bu iftiralara məhəl qoymayan «Azərbaycanın yorulmaz azadlıq mücahidi» (Ə.Düdənginski) ömrünün sonlarına yaxın da «Vətənin istiqlalı davası»nı prinsipiallıqla apardı.

1953-cü ildə ABŞ hökumətinin rəsmi dəvətilə oraya gedərək Azərbaycan istiqlalının 35-ci ildönümü münasibətilə «Amerikanın səsi» radiosundan xalqımıza müraciət etdi. «Amerikan Komitəsi»nin rəhbərliyi ilə (professor Kuncholmla) Ankaradakı görüşlərində (1954) Azərbaycan istiqlalına hörmətlə yanaşılmasını vurğuladı. O, BƏKM-in parçalanması nəticəsində yaranan «Sovetlər Birliyi Millətlərinin Qurtuluş Cəmiyyəti» (SBMQC) – «Paris bloku»nda da N.Jordaniya və b. ilə birlikdə fəaliyyət göstərdi.

50-ci illərin ortalarında Azərbaycan mühacirəti ağır itkilərlə üzləşdi. Ə.Düdənginskinin sovet casusu tərəfindən Münhendə qətlə yetirilməsi (1954) və onun lideri olduğu AMBM-in dağılması siyasi mühacirətdə dərin izlər buraxdı. M.Rəsulzadənin vəfatıyla (6.III.1955) isə siyasi mühacirətin Azərbaycan davasının çox mühüm bir mərhələsi başa çatmış oldu.

«...Türk ulusunu qurtuluş yoluna təşkilatlandıran, parlaq istiqlala götürən...» (Ə.Yurdsevər), «...Azərbaycanın rus zülmündən qurtuluşunda və istiqlalını elan etməsində baş rolu oynamış...» (professor Ə.Cəfəroğlu), «...Hürriyyət davasının ən böyük mübarizi və kommunizmin ən mərhəmətsiz düşməni...» («İrani Ma» qəzeti) olan M.Rəsulzadə mühacirətin öndər ideoloq və liderlərindən biri kimi xeyli işlər gördü.

Azərbaycan siyasi mühacirəti istiqlal mübarizəsində sovet cəmiyyətində gedən proseslərdən də faydalanmağa çalışırdı. 50-ci illərin ikinci yarısında başlayan «Xruşşov mülayimləşməsi» və 80-ci illərin ortalarından etibarən həyata keçirilən «Qorbaçov yenidənqurması» da bu baxımdan istisna deyil. Həmin dövrdə siyasi mühacirət tərəfindən önə çəkilən məsələlər arasında aşağıdakılar mühüm yer tuturdu:

- dünya birliyinin diqqətini Azərbaycanın quzeyi və güneyinin problemlərinə cəlb etməyə çalışılması;
- Sovetlər İttifaqından olan digər mühacir qurumları ilə birgə fəaliyyət göstərilməsi;
- quzeyli və güneyli mühacirətin «Azərbaycan Kültür Dər-

Dərnəyi»nin (Ankara) ətrafında birləşmələrinə yönəlik işlərin görülməsi;

- Azərbaycanın elmi və mədəni əlaqələrinin genişlənməsinə təsir edilməsi və bu sahələrdə tədqiqat-təbliğat aparılması;
- Müsavatçılığın Şimali Azərbaycandakı yeni (növbəti) milli-demokratik hərəkatın nəzəri-ideoloji bazasına çevrilməsinə yardım olunması.

Bu vəzifələrin həyata keçirilməsi istiqamətində imkanlar daxilində işlər görüldü. Müxtəlif beynəlxalq toplantılara, Qərbin aparıcı dövlətlərinə, regional qurumlara və s. ünvanlanan çoxsaylı müraciətlər, bəyanatlar vasitəsilə Azərbaycanın problemlərinin gündəmə gətirilməsinə ardıcıl səylər göstərildi.

Müştərək mühacir təşkilatlarından – «Prometey Birliyi»nin davamı sayılan – «Paris bloku»nun fəaliyyətində iştirak edildi. Onun Münhendə keçirilən konfransında (7.X.1973) qəbul edilən sənəddə bəzi məsələlərin vurğulanmasına (təkrarlanmasına) təsir olundu. Nəticədə sənəddə:

a) müxtəlif əngəllərə baxmayaraq qurtuluş savaşlarının davam etməsi; **b)** millətlərin müstəqil dövlətçiliyinin dəyişməz bir prinsip olaraq qalması; **c)** sovet quruluşunun repressiyalarına dünya qarşısında etiraz olunması; **ç)** SSRİ-nin aldadıcı «sülh» siyasətinə qarşı çıxılması; **d)** Moskvanın xalqlarımız adından danışma haqqına malik olmaması; **e)** millətlərimizin azad və müstəqil dövlətlərini qurmalarının dünyada əsl sülh düzəninə təsir göstərməsi və s. önəmli məqamlar özünə yer ala bilmişdi.

Azərbaycanlı siyasi mühacirlər beynəlxalq aləmdəki bəzi problemlərə, türk-müsəlman xalqlarının həyatı ilə əlaqədar məsələlərə və s. vaxtaşırı münasibət bildirirdilər. Məsələn, Azərbaycan təmsilçisi (Ə.Yurdsevər) türk xalqları Milli

Mərkəz başqanlarının İslam Konfransı Təşkilatı (İKT) XİN-lərinin İstanbul konfransına (1976) ünvanladıqları Müraciətnaməyə qatıldı.

Orada SSRİ və Çində yaşayan türk-müsəlman xalqlarının ağır durumu diqqətönünə çəkilirdi. Habelə məsələnin konfransın gündəliyinə salınması, bu barədə BMT-nin rəhbər orqanlarına məlumatlar verilməsi, problemin islam dövlətlərinin bütün toplantılarında müzakirəyə çıxarılması, həmin ölkələrin informasiya vasitələrinin diqqətində saxlanılması və s. tələb olundu.

Siyasi mühacirlərimizin yaxından iştirakı ilə «Paris bloku» MK-sının iclasında (18.XII.1981) SSRİ-nin Polşa hadisələrinə müdaxiləsini kəskin şəkildə pisləyən qərar qəbul edildi. Türkiyəyə və Azərbaycana qarşı aparılan «erməni soyqırımı» təbliğatına görə onların təmsilçilərinin Paris bloku»ndan çıxarılmalarına təsir göstərildi. Ancaq həmin qurumla əlaqələr yavaş-yavaş zəiflədi.

70-ci illərin sonu-80-ci illərdə Azərbaycan siyasi-mühacirətinin mövqeyində yeni bir xətt (cəhət) də özünü göstərdi. SSRİ-dən olan müsəlman mühacirlərin dini amilləri önə çəkmələri üzündən onların fəaliyyətində Qərbdən Şərqə, yəni islam aləminə yönəlik siyasətə üstünlük verilməsi diqqəti cəlb etməyə başladı. Bu işdə İran İslam inqilabının gedişində və ondan sonrakı dövrdə ölkədən, ələlxüsüs da Güney Azərbaycandan başlanan yeni mühacir axını da mühüm rol oynadı.

SSRİ-Türkiyə münasibətlərindəki yaxınlaşmanın proseslərə təsiri də danılmazdır. Siyasi mühacirət və diasporamızın o dövrki fəaliyyətində Güney Azərbaycanla bağlı məqamlar mühüm yer tutmuş və önə çıxmışdı. Yüz minlərlə güneyli həmvətənimizin mühacirətə getməsi, 1984-cü ilə qədər təkcə Türkiyəyə 350 mindən çox soydaşımızın pənah gə-

tirməsi. onların təşkilatlanması zərurəti və s. yeni-yeni problemlər yaratmışdı.

Elə bu və digər məsələlərə görə də «Azərbaycan Kültür Dərnəyi»nin Ankaradan İKT-nin Kasablanka Zirvə toplantısına (1986) ünvanladığı teleqramda Azərbaycanın quzeyi və şəraitə (problemlərə) görə, daha çox da güneyinin məsələləri dünya birliyinin diqqətinə yetirilmişdi.

Mühacir qruplarının müxtəlif ölkələrdə yaratdıqları çeşidli təşkilat və qurumların bir araya gətirilməsi və Güneyin də istiqlalı – Azərbaycanın bütövləşməsi başlıca məqsədi və vəzifələri təşkil edirdi. SSRİ xalqlarının milli-azadlıq hərəkatlarının başlanması və bu axarda Azərbaycanın quzeyində çox qüvvətli istiqlal mübarizəsinin yetişməsinin Güneylə əlaqədar görüləsi işlərlə üst-üstə düşməsi siyasi mühacirətimizin fəaliyyət meydanını (dairəsini) xeyli genişləndirdi.

Həmin fəaliyyətin əsas istiqamətləri sırasında ermənilərin Türkiyə və Azərbaycan əleyhinə apardıqları ideoloji-siyasi təbliğata (uydurma soyqırımı və b.) qarşı mübarizə, Dağlıq Qarabağ məsələsindəki haqlı mövqeyimizin beynəlxalq qurumlara, ictimaiyyətə və s. çatdırılması, habelə digər məsələlər əsas yerləri tuturdu.

Azərbaycan Milli Mərkəzinin və Kültür Dərnəyinin həmin vaxtlarda həyata keçirdikləri müxtəlif çoxsaylı tədbirlər (mətbuat konfransları, BMT, İKT, ATƏM və b. müraciətlər) bu cəhətdən çox önəmlidir. Siyasi mühacirətin Şimali Azərbaycanla əlaqələrinin genişləndirilməsi də başlıca fəaliyyət sahələrindən birinə çevrilirdi.

Bütün bunlar da hədər getmədi. Və Azərbaycanın quzeyindəki milli azadlıq mübarizəsi 1991-ci ilin oktyabrında dövlətçiliyimizin yenidən bərpası və xalqımızın istiqlaliyyət qazanması ilə nəticələndi. Bu tarixi nailiyyətdə ən böyük xidmət göstərən güclərdən biri də siyasi mühacirətimiz oldu.

Azərbaycan siyasi mühacirətinin Vətənimizin və Millətimizin istiqlalının bərpası naminə apardığı tarixi davada onun ideoloji-siyasi və ədəbi-tarixi irsi də mühüm önəm daşımışdır. Buraya M.Rəsulzadə, Ə.Topçubaşı, M.Məmmədzadə, M.Mehdizadə və b. elmi-nəzəri araşdırmalarını aid etmək olar. Habelə «Azərbaycan» (Ankara və Münhen), «Kafkaz» (Paris), «Qurtuluş» (Berlin), «Azəri Türk» və «Odlu Yurt» (İstanbul) kimi çoxlu jurnalların işini də mütləq önə çəkmək lazımdır.

«Siyasəti elmə tabe etdirmək» müddəa-prinsipinə böyük önəm verən M.Rəsulzadənin «Azərbaycan problemi», «Rus müstəmləkə siyasəti» və s., M.Məmmədzadənin «Milli Azərbaycan hərəkatı», M.Mehdizadənin «Beynəlmiləl siyasətdə petrol» «Beynəlmiləl vəziyyət və Sovetlərdə milliyyət məsələsi» əsərlərində, həmçinin digər mühacirlərin çoxsaylı elmi araşdırmalarında istiqlal savaşımızın məqsədləri, uğursuzluqları və tarixi nəticələri öyrənilərək ümumiləşdirilmişdir.

***

Azərbaycanın şimalının Rusiya tərəfindən yenidən işğalından sonra ölkəmizdən daha bir böyük mühacirət axını olmuşdur. Onun siyasiləşmiş hissəsi dövlətçiliyimizin bərpası naminə ardıcıl mübarizə aparmışdır. Bu mübarizədə AXC-nin süqutuna ilkin etirazlar və müqavimət, beynəlxalq aləmin diqqətinin Azərbaycana yönəldilməsi, müstəqilliyimizin faşist Almaniyası tərəfindən tanınmasına çalışılması mühüm yer tutmuşdur.

Vətənimiz və Millətimizin istiqlalı davası əsasən iki böyük həmməslək və həməməl şəxsiyyətin – M.Rəsulzadə ilə Ə.Topçubaşının rəhbərliyi ilə aparılmışdır. Vaxtaşırı (fars

Pəhləvilərin İrandakı türk hakimiyyətini qəsb etmələrindən, S.Rişəvəri hərəkatının məğlubiyyətindən və İslam inqilabından sonra) güclü mühacirət dalğaları ilə üzləşən Güney Azərbaycan da istiqlal və Vətənimizin birləşməsi naminə gərgin dövrlərdən keçməyə məcbur olmuşdur.

Ölkəmizin güneyi ilə quzeyində azadlıq hərəkatları və siyasi mühacirətin istiqlal davası hələlik özünün tarixi uğurlarından birini qazanmışdır. Şimali Azərbaycanda dövlətçilik və milli istiqlal bərpa olunmuşdur. İndi növbə Güneyin istiqlalı ilə Bütöv Azərbaycanındır.

ÜÇÜNCÜ BÖLÜM

AZƏRBAYCAN BÖYÜK VƏ QONŞU DÖVLƏTLƏRİN HƏRBİ-STRATEJİ PLANLARINDA (1939-1946-cı illər)

İkinici Dünya müharibəsi dövrünün və ondan sonrakı ilk illərin beynəlxalq münasibətlərində Azərbaycanın quzeyi və güneyilə əlaqədar problemlər də mühüm yer tutmuşdu. Şimali Azərbaycana aid məsələlər faşist Almaniyasının "Şərq siyasəti"nin üstün istiqamətlərindən birini təşkil etmişdi.

SSRİ-nin müttəfiqləri (İngiltərə və ABŞ) da Quzey Azərbaycanla bağlı müxtəlif planlara malik olmuşdular. Sovet rəhbərliyi də ölkəmizin quzeyini və güneyini bəzi məkrli məqsədlərinin gerçəkləşdirilməsinin sınaq meydanına çevirmək istəmişdi.

Bu dövrdə regionda yenə də müxtəlif güclərin maraqları toqquşmuşdu. Regiona dair ənənəvi ingilis siyasəti, Sovetlərin iqtisadi-geosiyasi maraqları, nasist Almaniyasının hərbi planları və ABŞ-ın İrana nüfuz etmək məqsədi bir-birilərinə zidd gələrək yeni beynəlxalq problemlər yaratmışdı.

Cənubi Azərbaycanda Sovet-Qərb qarşıdurması yaşanmışdı. Azərbaycanın məsələsi beynəlxalq müzakirələrə çıxarılmışdı. "ABŞ və BMT Güney Azərbaycanı İrana qaytarmağa" müvəffəq ola bilmişdilər. Vətənimizin cənubundakı milli-demokratik hərəkat – Yaxın və Orta Şərqi silkələyən bu tarixi mücadilə – həm də Bütöv Azərbaycan ideyasının yayılması ilə nəticələnmişdi.

§1. Böyük və qonşu dövlətlərin Quzey Azərbaycandakı maraqları

Yeni Cahan savaşı zamanı Hitler Almaniyasının və ona qarşı müttəfiqlər olaraq vuruşan dövlətlərin (İngiltərə. SSRİ, ABŞ), habelə qonşu İran və Türkiyənin Şimali Azərbaycanla əlaqədar müxtəlif strateji məqsədləri və hərbi-siyasi planları olmuşdur. Onları aşağıdakı qaydada qruplaşdıraraq təhlil etmək məqsədəuyğundur:

Birincisi, yenidən dünya ağalığı iddiasına düşən **faşist Almaniyasının** hərbi-geosiyasi maraqlarını nəzərdən keçirmək lazım gəlir. Bu zaman da əvvəlcə nasional sosializmin türk-müsəlman xalqlarına münasibətindəki bəzi məqamların üzərində dayanmağa ehtiyac vardır.

Burada faşistlərin mövqeyində özünü göstərən müəyyən ziddiyyətli halların diqqətə alınması zərurət təşkil edir. Nasistlər, bir tərəfdən, türk xalqlarının yaşadıqları ərazilərdə, "Üçüncü reyx"in tərkibində olacaq, "Böyük Türküstan"ın təşkilini nəzərdə tuturdular.

Buraya Orta Asiya, Qazaxıstan, Tatarıstan, Başqırdıstan, Krım, Şimali Qafqaz, Qərbi Çin, Əfqanıstanın bir hissəsilə yanaşı Azərbaycanın güneyi və quzeyi də daxil edilməli idi. Bu dövlət qurumunun yaradılması niyyətini, diplomatik-siyasi ədəbiyyatda, A.Hitlerin türk-müsəlmanlardan faydalanmaq istəyilə bağlayan baxışlar da mövcuddur.

Hətta bu məqsədlə Türkiyənin bəzi maraqlı dairələri və Qüds müftisi H. əl-Hüseyn tərəfindən A.Hitlerin "sünnətli, müsəlman olması" və onunla Məhəmməd peyğəmbərin doğum günlərinin eyni aya təsadüf etməsi"nə dair təbliğat aparılması da məlumdur.

Digər yandan da, faşist liderləri, ələlxüsus da Y.Gebbelsin "ideoloji arabası", Şərq İşləri üzrə nazir A.Rozenberq, irqçilik problemləri sahəsində "məşhur" mütəxəssis Abel və digərləri tərəfindən türk-müsəlman xalqlarını da aşağılayan müddəalar "elmi"-siyasi dövriyyəyə buraxılmışdı.

Nasistlərin "Ali irq" nəzəriyyəsi slavyanlar ("ağ zəncilər"), yəhudilər və qaraçılarla bərabər SSRİ-də yaşayan türk-müsəlman xalqlarını da milli dəyər sıralanmasında sonuncu yerlərə aid edirdi. Onların iqçilik nəzəriyyəsində, müəllifi bilavasitə A.Hitlerin özü hesab edilən, "İntermanş" ("aşağı insan"), "aşağı əyarlı asiyalı", "müsəlman monqoloidlərin dağıdıcı qüvvə olması" və s. tezislər də hakim mövqe tuturdu.

Sovetlər İttifaqını "Slavyan-tatar gövdəli və Yəhudi başlı" məxluqa bənzədən "1 saylı nasist" habelə bolşevik rejimin "rusları bir irq kimi yox edərək asiyalaşdırmaları üçün məqsədyönlü şəkildə monqolları Avropa Rusiyasında yerləşdirdiyi" mülahizəsini də söyləmişdi. İrqçi nasist ideologiyasının "şişman gözlü monqol-tatarlar" kimi səciyyələndirdiyi özbək, qazax, qırğız və başqa xalqlar A.Hitlerin "Mayn kampf"ına ("Mənim mübarizəm"ə) görə, "ali irqin qulları"na çevrilməli idilər. SS-in 1942-ci ildə yaydığı "Der Untermanş" kitabçasında türklərə qarşı nifrət və təhqirlərlə dolu yazılar da vardı.

Faşist Almaniyasının çoxsaylı planları – layihələrində Quzey Azərbaycana (Bakı neftinə) də xeyli və xüsusi yer ayrılmışdı:

a) Vermaxt OKW-nin **"Dranq nax Osten"** ("Şərqə doğru yürüş") və **"Barbarossa"** hərbi əməliyyat planlarına əsasən SSRİ-yə qarşı "İldırımsürətli müharibə" apararaq onun Uraladək olan hissəsinin, o cümlədən də Şimali Azərbaycanın ələ keçirilməsi nəzərdə tutulurdu. Üç hissədən ibarət olan "Barbarossa"nın (18.XII.1940; 21 saylı direktiv) gerçəkləşdirilməsi SSRİ üçün "Arxangelsk-Volqa ümumi

xəttilə Asiya Rusiyasından ayrılmaq"la yekunlaşmalı idi;

b) "Ost" ("Şərq") planına görə, Quzey Azərbaycan da Almaniyanın müstəmləkələri olan Ostland, Ukrayna, Moskva və Qafqaz reyxkomissarlıqlarından axırıncısının tərkibinə qatılmalıydı. Bu planın "elmi-nəzəri" əsasını P.Rorbaxın "Portağal nəzəriyyəsi" (1908) və Haushaferin "Lebencraum" ("Həyati məkan"-1936) təlimi təşkil edirdi. Birincinin fikrincə, Rusiya "millətlər üzrə – portağal kimi dilimlərə" bölünməli idi. İkincinin nəzəriyyəsi isə "Üçüncü reyx" üçün "həyati məkanın təminatında Sovetlər İttifaqının işğalını olduqca vacib sayırdı;

c) Şərq nazirliyinin "Qafqazın idarə olunması planı" **(A.Rozenberqin "Qafqaz qovluğu")** ilə tutulacaq sovet torpaqlarında nasistlərin asılılığında olan dörd "dövlət"in qurulmasına hazırlıq görülürdü: Belorusiya hesabına böyüyən Baltikyanı; Şərqə doğru genişlənən Finlandiya; Almaniya ilə müttəfiqliyə "layiq bilinən müstəqil" Ukrayna; Almaniyanın idarəsi altında – mərkəzi Tiflis olan – Qafqaz Federativ qurumu (reyxskomissarlığı). (Həmin "qovluq"da özünə yer alan bir sənəddə (27.VII.1942) yazılırdı ki, "Qafqaz məsələsi" siyasi məsələdir və Almaniyanın idarəsindəki kontinental Avropanın Qafqazdan Yaxın Şərqə doğru genişlənməsini nəzərdə tutur). Sonuncuya qatılacaq Quzey Azərbaycanda isə idarəetmə orqanı sayılan komissarlığın təşkili planlaşdırılırdı.

Maraqlı məqamlardan biri bu idi ki, Azərbaycanın əraziləri yenə də "qayçılanırdı". Bunu ABŞ-dakı arxivdə saxlanılan xəritə də təsdiqləyir. "İzvestiya" qəzetində (Moskva, 29.VI.1959) çap olunan həmin xəritədən bəlli olur ki, "Üçüncü reyx"in və Vermaxtın rəhbərləri Azərbaycan SSR-in Naxçıvan bölgəsini (MSSR-i) Ermənistana aid etmişdilər;

ç) "2 saylı nasist" **G.Gerinqin** "İstisadiyyata rəhbərlik

üzrə direktivi" **("Yaşıl qovluq")** işğal olunacaq Şərq vilayətlərində, o sıradan da Quzey Azərbaycanda həyata keçirilməsi lazım gələn iqtisadi vəzifələri əhatə edirdi. Bu direktivə ("qovluq"a) əsasən "İqtisadi Rəhbərliyin Şərq Qərargahı" qurulmalı və o, ərzaqla neftin Almaniyaya daşınmasını təşkil etməliydi.

Elə bu niyyətlə də yaradılan (29.IV.1941) "Oldeburq İqtisadi Qərargahı" Şimali Azərbaycanın maddi potensialı və təbii sərvətlərinin (öncə də Bakı neftinin) mənimsənilməsinə hazırlaşırdı (Yeri gəlmişkən, "Yaşıl qovluq" reyxə qatılacaq sovet ərazilərində yaşayan xalqlarla (Azərbaycan türkləri, tatarlar və b.) ruslar arasındakı problemlərdən faydalanmağı da nəzərdə tuturdu);

d) faşistlərin baş təbliğatçısı **Y.Gebbelsin** "Biz öz planlarımızı Ukrayna salası və Bakı nefti hesabına quracağıq və həyata keçirəcəyik" müddəası da "Üçüncü reyx"in strateji məqsədlərində ölkəmizə ayrılan yerin səviyyə və miqyasını təsəvvür etməyə imkan verir;

e) Vermaxtın və nasist iqtisadi strukturlarının Qafqaz, xüsusi ilə də Azərbaycanın şimalı (ələlxüsus da Bakı) ilə əlaqədar məqsəd və planları A.Hitlerin yanında keçirilən müşavirədə (16.VII.1941) ətraflı müzakirə olunmuşdu. Bu müzakirələrin başlıca məqamları Fürerin ən yaxın tərəfdaşlarından sayılan **M.Bormanın "Qeydlər"i**ndə qələmə alınmışdır.

Bakı ilə bağlı görüləcək tədbirlər arasında bunlar daha da diqqətçəkicidir: Bakı imperiyanın (Reyxin) bir vilayəti olmalı və alman hərbi məskəninə (konsessiyasına) çevrilməli idi; reyxkomissar, Riqa almanı A.Şikadeys min nəfərdən ibarət qərargah quraraq Bakı şəhərinin və bütün Abşeron yarımadasının plan-xəritələrinin hazırlanmasını başa çatdırmalıydı; X.Eylers Şumqayıtda tikiləcək SK-5 müəssisəsinə və E.Günter isə Daşkəsəndə inşa olunacaq 41 saylı zavoda di-

rektor (etimadlı şəxs) təyin edilirdilər.

Faşist Almaniyasının çoxsaylı planlarından da göründüyü kimi, Bakı (Abşeron) və xüsusilə də neft onları daha yaxından maraqlandırırdı. A.Hitler "Qafqaz neftini ələ keçirə bilməyəcəyi təqdirdə müharibəni uduzacağını" dəfələrlə bəyan etmişdi. Vermaxt OKW-si (Operativ Rəhbərlik Qərargahı) rəisinin müavini, general V.Varlimontun memorandumunda (4.V.1941) Almaniyanın Bakı neft rayonunu tutmaqda həddsiz maraqlı olduğu açıqlanırdı. Buna görə də hələ 1941-ci ilin yazında "Oldeburq İqtisadi Qərargahı" nəzdində xüsusi idarə ("Vestfalen Qərargahı") yaradılmışdı.

Ayrıca sərəncamla (27.III.1941) Bakı neftinin emalı və nəqli Almaniyanın "Ost-oyl" və "Kontnent-oyl" neft şirkətlərinə tapşırılmışdı. Fürer Vermaxtın rəhbərliyinə verdiyi göstərişlərdən birində bunları vurğulamışdı: "Güclü neft mənbələrinə görə Qafqaz bizim planlarımızda xüsusi rol oynayır. Biz oradan neft əldə etmək istəyirik və Qafqazı çox ciddi nəzarət altında saxlamalıyıq. Çünki qan intiqamının güclü olduğu bu bölgənin istismarı ayrı-ayrı tayfalar arasındakı düşmənçilik üzündən qeyri-mümkün ola bilər".

"Bakı amili" nasist Almaniyasının (Vermaxtın) hərbi əməliyyat planlarında da dəqiqliklə və ətraflı nəzərə alınmışdı. Vermaxt OKW-nin hazırladığı (VII.1941) Qafqazın tutulmasına dair əməliyyat planına – **"Edelveys"ə** (söz "çoxillik çiçək növü" mənasını verir) görə, Bakı rayonu 1942-ci il sentyabrın 25-dək alınmalıydı.

Həmin plana – şəraitə və imkanlara əsasən edilən düzəlişlər hətta Moskvanın tutulmasından (XI.1941) dərhal sonra Qafqazın neft rayonlarının (Bakı və s.) alınmasına yönəlmişdi. Hələ 41-ci ilin yayında qərara alınmışdı ki, SSRİ-nin mərkəzi hissələrinin işğalından dərhal sonra Bakı rayonunun tutulması üçün "xüsusi əməliyyat" həyata keçirilməlidir. Həmin əməliyyata görə, neft rayonunun qəfildən – geriyə çəkilən Sovetlərin onu məhv etməsindən öncə – tutulması məqsədilə Bakının şimal-şərqinə desant çıxarılmalıydı.

Vermaxt E.Rommelin "Afrika korpusu"nun Orta Şərqə çıxarılması, yəni İraqın və Bakının neft qaynaqlarının ələ keçirilməsi məqsədilə "Anadolu əməliyyatı"nı da planlaşdırmışdı (Şimali Afrikadakı hərbi uğursuzluqlar və qüvvələrin çatışmaması onu reallaşdırmağa imkan vermədi). Bakının dağıdılmadan alınmasına çalışan faşistlər Muttəfiqlərin əlinə keçə bilməsi təhlükəsinin yarandığı şəraitdə oradakı neft mədənlərinin məhv edilməsi planını da hazırlamışdılar.

Bu niyyətlə də "Suriya – Bakı hərbi-coğrafi xətti" hərtərəfli araşdırılmışdı. Ancaq almanlar Bakı neft rayonunu ələ keçirməkdə israrlı idilər. Vermaxtın hazırladığı "Qafqaza dair məlumat-soraq kitabçası"nda tutulması önə çəkilən ərazilərin siyahısında birinci yeri "Bakı-neft fontanları" tuturdu.

1942-ci ildə Bakını almaq üçün Vermaxtın ən seçmə hissələrinin ("Böyük Almaniya" və b.) də iştirakı ilə hərbi əməliyyatlar aparıldı və şəhərə vaxtaşırı hava hücumları təşkil edildi. Bununla əlaqədar olaraq hətta Azərbaycan XKS-nin "Alman aviasiyasının Bakı şəhərinə uçuşu haqqında" məsələni müzakirə edən məxfi iclası da keçirilmişdi.

İkincisi, nasist Almaniyasına qarşı müharibədə SSRİ ilə koalisiyaya girən **Müttəfiqlərin (İngiltərə ilə ABŞ-ın)** da Qafqazda (Azərbaycanın quzeyində – Bakıda) xüsusi maraqları vardı. İkinci Dünya müharibəsi dövrünə aid çoxlu məxfi diplomatik-hərbi sənəd və materiallar Fransa, İngiltərə və ABŞ-ın Qafqazı və o cümlədən də Azərbaycanı (Bakını) ələ keçirmək niyyətlərini (planlarını) açıqlayır.

Bunu almanların Parisi tutarkən (VI.1940) Fransa ordusunun Baş qərargahından əldə edib "Üçüncü reyx"in

XİN-i vasitəsilə yaydıqları gizli sənədlər də yetərincə təsdiqləyir. Vermaxtın Quru qoşunlarının qərargah rəisi F.Qalderin "Hərbi gündəliyi" də həmin məsələ ilə bağlı xeyli material (fakt) verir.

Qərb dövlətləri hələ Almaniya-SSRİ müharibəsi başlanmazdan əvvəl, yəni İkinci Cahan hərbinin ilk mərhələsində Qafqazla (Bakı ilə) əlaqədar müəyyən planlar hazırlamış və bəzi sevdalara düşmüşdülər. Böyük müharibənin ərəfəsində imzalanan sovet-alman sazişləri (23.VIII. və 28.IX.1939) və SSRİ-nin "Üçüncü reyx"i neftlə yetərincə təchiz etməsi də Qərbi xeyli fəallaşdırdı.

Almaniya ilə müharibəyə başlayan Fransa və İngiltərə öncə Bakının bombalanaraq məhv edilməsi planı üzərində düşünməyə başladılar. ABŞ-ın Fransadakı səfiri U.Bullit Ağ evi Parisdə "Bakının bombalanması və məhvi"nə dair aparılan müzakirələr barədə xəbərdar edirdi (X.1939). Fransanın yüksək rütbəli diplomatları və hərbçiləri Bakı neft rayonunun ələ keçirilməsi və bu mümkün olmadığı təqdirdə isə onun məhv edilməsi lehinə bir sıra dəlillər gətirirdilər.

Məsələn, Quru qoşunlarının Baş komandanı M.Hamelen hökumət başçısı E.Daladyeyə məruzəsində (22.II.1940) yazırdı: "Bakı SSRİ neftinin 75 faizini verir və Sovetlər ondan məhrum olarlarsa, böhranlı vəziyyətə düşərlər". Fransız Baş qərargahının digər bir sənədində (III.1940) isə deyilirdi ki, rus iqtisadiyyatının əsaslı zəifliyi Qafqaz neftindən asılılığıdır, silahlı qüvvələr və rus kənd təsərrüfatı da ondan asılıdır.

ABŞ diplomatı U.Bullitin prezident F.Ruzveltə çatdırdığı məlumata görə, Bakının bombalanmasını "Sovetlər İttifaqına vurulacaq ən təsirli zərbə" sayan E.Daladye fransız silahlı qüvvələrinin komandanlarına "SSRİ-nin neft emalı sənayesini dağıtmağın planı"nı hazırlamağı əmr etmişdi.

Baş nazirin SSRİ-yə qarşı hərbi əməliyyatların istiqamətlərinə dair baxışları (tövsiyələri) də maraq doğurur. Onun nəzər nöqtəsinə görə, Qara dənizdə savaşa başlamaqla yanaşı, Qafqaza birbaşa silahlı müdaxilə etmək və regionun müsəlman əhalisini üsyana qaldırmaq faydalı olardı.

General M.Hamelen isə E.Daladyeyə və onun xələfi Reynoya məruzələrində Qafqazın tutulmasına dair hərbi əməliyyatlar zamanı əsas zərbələrin regionun neft sənayesi rayonlarının zəif məntəqələrinə (Bakıya və s.) endirilməsini lazım bilmişdi.

Reyxin Türkiyədəki səfiri F. fon Papen hətta Fransanın Bakıya hücum etməklə bu dövrdə Sovetlərə qarşı müharibə aparan Finlandiyaya yardım göstərməyə çalışdığını bildirmişdi (F.Qalderin "Hərbi gündəliyi"ndəki bir yazıdan (26.II.1940) həmin əməliyyatın nasistlərin Baş qərargahında müəyyən şübhələr yaratdığı da məlum olur).

Digər bir diplomat – müharibə dövrü Türkiyəni İsveçrədə təmsil edən Y.Qaraosmanoğlu fransız səfirinin onu dəfələrlə belə bir hərbi uğura inandırmağa çalışdığını yazmışdı: Türkiyənin, Fransanın və Müttəfiqlərin birləşmiş qüvvələri əlli gün ərzində Rusiyanın neft rayonunu, yəni Bakını tutaraq Qızıl ordunu yanacaqsız qoya bilər.

Bu vacib məqamı da qeyd etmək lazımdır ki, Fransanın o dövrki hərbi strateqləri Qərbdə "qəribə müharibə" aparmağa və fəal hərbi əməliyyatları isə Orta Şərqdə (Qafqazda və b. yerlərdə) həyata keçirməyə üstünlük verirdilər. Yüksək çinli fransız hərbçiləri, diplomatları və digərlərinin yazışmalarından bəlli olur ki, generallar arasında "... müharibənin taleyi Qərbdə deyil, Qafqazda həll olunacaqdır" söyləyərək "biz Qərbdə yox, Qafqazda savaşacağıq" mövqeyində dayananlar da çox idi (Sözgəlişi, Fransanın taleyinin bilavasitə Qərbdə həll olunduğunu vurğulayan general Ş.de Qoll Bakı neft rayonunun bombalanmasının əleyhinə

çıxmışdı).

Qafqazın, o cümlədən də Şimali Azərbaycanın və ələləxüsus da Bakının tutulmasında (yaxud, məhvində) maraqlı olan siyasi-hərbi dairələr konkret planlar da hazırlamışdılar. Qafqaza (Bakıya) hərbi hücumun İran (Cənubi Azərbaycan) vasitəsilə həyata keçirilməsi və ya da bölgənin Türkiyə, İraq, Suriyanın hava məkanlarından, oralarda yerləşdirilən aviasiya qüvvələrindən yararlanmaqla bombalanması nəzərdə tutulmuşdu.

Ancaq Almaniyanın İrana güclü təsiri və şahlığın müvəqqəti nasistpərəst mövqeyi Qafqaza (Bakıya) Cənubi Azərbaycan vasitəsilə hərbi müdaxilə imkanını heçə endirirdi. Ankaradakı fransız səfiri R.Massiqinin E.Daladyeyə məlumatından göründüyü kimi, Türkiyə müttəfiqlərlə birlikdə İran ərazisi vasitəsilə Bakı üzərinə hücumda məmnunluqla iştirak edə bilərdi.

Bakının (Şimali Azərbaycanın – Qafqazın) ələ keçilməsinə dair hərbi əməliyyatı "nəinki SSRİ-nin iqtisadi qüdrətini zəiflədən", hətta "sovet quruluşunu sarsıdaraq iflasa uğradan" bir amil kimi dəyərləndirən Fransa hərb maşını öz məqsədlərini (planlarını) reallaşdıra bilmədi.

Fransa dövlətçiliyinin müvəqqəti süqutu onun beş yüz min nəfərlik Orta Şərq ordusunu təsirsiz güc durumuna saldı və Bakıya dair planların bir kənara qoyulmasına səbəb oldu (Yeri gəlmişkən, Ş.de Qoll Tehran-Moskva-Tehran səfəri zamanı 1944-cü il noyabrın 27-də və dekabrın 13-də yolüstü Bakıda dayandı və bəzi qeyri-rəsmi görüşlər keçirdi).

1919-cu ildə Qafqazı (Azərbaycanı-Bakını) tərk edən ingilis silahlı qüvvələri də regiona qayıtmaqda çox maraqlı idilər. Müharibənin ilkin dövrünə aid diplomatik yazışmaların və hərbi məlumatların, mətbuat materiallarının da təsdiqlədiyi kimi, Bakını ələ keçirmək və buna nail olunmadıqda

isə onu bombalamaq niyyəti (planları) Böyük Britaniyanın da geostrategiyasında üstün mövqe tuturdu. SSRİ-dəki ingilis səfirinə görə, Bakı neft mədənlərini dağıtmaqla Böyük Britaniya Sovetlər İttifaqını "nokauta" sala bilərdi; çünki SSRİ iqtisadi-hərbi cəhətdən Bakı neftindən çox asılıdır.

Başqa bir ingilis diplomatı, yəni XİN-in Sovetlər üzrə mütəxəssisi F.Maklin belə hesab edirdi ki, Böyük Britaniya və Fransa aviasiyaları Quzey Qafqaz, Bakı, Batumidəki neft emalı müəssisələrinə və onun nəqli vasitələrinə qüvvətli zərbələr endirmək imkanlarına malikdirlər. Türkiyənin "Cümhuriyyət" qəzeti yazırdı ki, SSRİ və Almaniyanı Bakı neftindən məhrum etməkdən ötrü ona hərbi zərbələr vurulması üçün Yaxın Şərqdə ingilis və fransızların böyük ordu hissələri cəmləşdirilir.

Bəzi məlumatlara görə, Bakının bombalanması məsələsi hətta Böyük Britaniyanın Hərbi kabinəsi tərəfindən 1939-cü ildə müzakirə edilmişdi. Birləşmiş Krallığın Hərbi-Hava qüvvələri qərargahı üç bombardmançı eskadrilyanın altı həftədən üç aya qədər vaxt ərzində SSRİ-nin neft sənayesini sıradan çıxara bilməsini mümkün sayırdı. Bu məqsədlə də Qafqazdakı başlıca, ən iri neft mərkəzlərinin (təbii olaraq da Bakının) və SSRİ limanlarının xüsusi, hərtərəfli xəritələri hazırlanmışdı.

İngilis və fransız silahlı qüvvələrinin Yaxın və Orta Şərqdəki hissələrinin komandanları (aviasiya marşalı Mitçell ilə general Veyqan) Beyrutda görüşərək (7.III.1940) birincinin Londondan aldığı təlimatı nəzərdən keçirmişdilər. Həmin təlimatsa Bakı neft rayonu ilə Batumidəki müvafiq emal müəssisələrinin gözlənilə bilən bombalanmasına hazırlıqla əlaqədar verilmişdi.

Mitçell hətta Türkiyənin İngiltərədəki diplomatik nümayəndəsinin araçılığı ilə Hərbi nazir F.Çakmak paşanın

bombardmançı təyyarələrin enmələri üçün aerodromların müəyyənləşdirilməsindən ötrü Qars, Ərzurum və b. vilayətlərdə kəşfiyyat işlərinin aparılmasına icazə verməsinə səy göstərdi.

İngiltərə hökuməti Hərbi komitəsinin daha bir toplantısında (27.III.1940) admirallığın birinci lordu (Hərbi Dəniz naziri) U.Çörçill Bakı neft rayonunun hərbi-iqtisadi səciyyəsinə dair məruzə etdi. Ancaq nə məruzəçi, nə də o dönəmin Baş naziri N.Çemberlen Bakının bombalanmasına tərəfdar olmadılar.

Əvəzində isə Azərbaycan neftinin Qara dəniz sahillərindəki sovet limanları vasitəsilə Avropaya (Almaniya və b.) daşınmasını əngəlləmək məqsədilə həmin sulara sualtı qayıqlar göndərilməsini daha münasib bildilər. Güney Qafqaza (ən başlıcası da Bakı neft rayonuna) aviasiya və donanma vasitəsilə zərbələr endirilməsi məsələləri müharibəyə rəhbərlik üzrə birgə ingilis-fransız qurumu, yəni Ali Hərbi Şura tərəfindən də müzakirə edildi (28.III.1940).

İngiltərə az sonra Qafqaza (Bakıya) dair hərbi-siyasi strategiyasını antifaşist koalisiyası üzrə əsas tərəfdaşı **ABŞ** ilə uzlaşdırmalı oldu. Onların birgə planı sayılan **"Vilvet"ə** ("mənfəət" deməkdir) görə, ağır hərbi durumda olan SSRİ öz qoşunlarını Qafqazdan Stalinqrada aparmalı idi və burada Müttəfiqlərin, yəni İngiltərə ilə ABŞ-ın orduları Almaniya silahlı qüvvələrinə qarşı vuruşmalıydılar.

1942-ci ilin yayında hazırlanan həmin plan əslində Qafqazın (Quzey Azərbaycanın-Bakının) SSRİ-dən qoparılmasını nəzərdə tuturdu. Birləşmiş ingilis-amerikan qoşunlarının regiona gəlməsinə də bu məqsədə yetişilməsi üçün bir mühüm vasitə kimi baxılırdı. Yeni plan 20 amerikan-ingilis aviaeskadrilyasının Qafqazın və Xəzər dənizinin müdafiəsinin təminatı üçün göndərilməsini nəzərdə tuturdu.

Müttəfiqlər hələ 1942-ci il yanvarın əvvəli üçün Bakı rayonuna aviabirliklər göndərmək fikrində olmuş və bunu faşist işğalı təhlükəsinin regionu daha yaxından təhdid etməsiylə əlaqələndirmişdilər. Baş nazir U.Çörçillin ingilis ordusunun qərargah rəislərinə təlimatında "rusların guya ki, neft mədənlərini dağıdacaqlarına əsas görmədiyini" yazır və habelə onların bu barədə heç nə demədiklərini, belə suallar verənlərin hamısına şübhə ilə yanaşdıqlarını bildirirdi. U.Çörçill həmçinin komandanlara "ən pis halda biz Bakı neft mədənlərinin bombalanmasını həyata keçirə və bu rayonu yandırmağa cəhd göstərə bilərik" xəbərdarlığını edirdi.

"Vilvet"in elanından sonra isə Bakı neftinə sahib çıxmağa həvəslənən müttəfiqlər onu yandırmaqdansa, müdafiə etməyə üstünlük verdilər. İngilis Baş naziri İ.Stalinə məxfi müraciətində (30.IX.1942) "Xəzər dənizində hərbi-dəniz əməliyyatlarını keçirmək tapşırığı alan admiralın artıq təyin olunduğunu" çatdırırdı.

Müraciətdə həmçinin bəzi strateji və taktiki hərbi mülahizələr də diqqətə yetirilirdi: Xəzərdə möhkəmlənməyə çalışan almanların Həştərxan-Bakı gəmiçilik xəttini əngəlləyə bilmək ehtimalı; bununsa – **a)** Bakı neft rayonunun müdafiəsini xeyli zəiflətməsi və **b)** çoxlu neftin və onun məhsullarının su yolu ilə Bakıdan Krasnovodska və Həştərxana daşınmasına maneə törətməsi.

Antifaşist blok üzrə tərəfdaşlarının "gizli" niyyətlərini vaxtında duyan İ.Stalin hələ "Vilvet"in ortaya çıxmasından az öncə (II.1942) F.Ruzveltə "hazırkı vaxtda Güney Qafqaza amerikan aviabirliklərinin göndərilməsinə artıq ehtiyac qalmadığını" yazırdı. Qafqazın (Bakının) itirilməsinə iki yöndən (Almaniya və Müttəfiqlərindən) gələn təhlükəni yetərincə dəyərləndirən Sovet komandanlığı regionun müdafiəsini xeyli gücləndirə bildi və Stalinqradla yanaşı burada

da hərbi üstünlüyü ələ almağa müvəffəq oldu.

Müharibənin gedişində SSRİ-nin xeyrinə yaranmaqda olan dəyişiklikləri real qiymətləndirən U.Çörçill İ.Stalinə 1942-ci il noyabrın sonlarında ünvanladığı müraciətində "Qafqazın əsas neft ehtiyatlarının Sovet qoşunları tərəfindən uğurla müdafiə olunmasını" etiraf etmək məcburiyyətində qalmışdı.

Üçüncüsü, "böyük müharibə"nin əvvəlində faşist Almaniyası ilə yaxınlaşan **İran şahlığı** da beynəlxalq şəraitdən yararlanmağa və Şimali Azərbaycana dair öz maraqlarını gerçəkləşdirməyə çalışırdı. O, 1919-cu il Paris Sülh konfransına bəyanatında nəzərdə tutduqlarının həyata keçməsinə – "itirdiyi 578 min kv. km. tarixi ərazisi"nin qaytarılmasına imkan olacağını güman edirdi. Buna görə də Güney Qafqazın və Orta Asiyanın 16 şəhərinin İrana qatılması yönündə tədbirlər tökməyə başladı.

Şahənşahlığın Məclisinin qərarı ilə onun mətbəəsində 1940-cı ildə çap olunan "İran dövlətinin yeni inzibati ərazi bölgüsü" xəritəsinə edilən bir qeyd bəzi mətləbləri açıqlayırdı. Həmin qeyddə deyilirdi ki, İranın sərhədləri, Türkiyə ilə olanlar çıxılmaq şərtilə, rəsmi səciyyə daşımır.

İran əvvəllərdə olduğu kimi, bu dövrdə də "Qafqaz Azərbaycanı" və s. dolaşıq ifadələrlə ölkəmizin şimalına olan ərazi iddialarını büruzə verirdi. Bu ifadə hətta İranın SSRİ XXİK-ə Bakıda yeni konsulluq üçün şəhadətnamə almaq məqsədilə ünvanladığı – Rza şah və XİN tərəfindən imzalanan – notada (17.V.1940; №643) da öz əksini tapmışdı.

Digər sənədlərdə və rəsmi yazışmalarda "Şahənşahın Qafqaz Azərbaycanındakı baş konsulu", "Bad Kubə" (yəni Bakı) və s. ifadələr özünə yer almışdı. İran hərbi kəşfiyyatı Bakının ətraflı işlənmiş baş planını hazırlamışdı. Bütün bu və digər hərəkətlər İranın Şimali Azərbaycana yönəlik məkrli məqsəd və siyasətindən xəbər verirdi.

Dördüncüsü, qonşu və qardaş **Türkiyənin** Şimali Azərbaycana (Qafqaza) dair tarixi maraqları bu dövrdə də özünü göstərməkdə idi. Yeni Dünya müharibəsinin əvvəlində İngiltərə və Fransa ilə qarşılıqlı yardım haqqında müqavilə (19.X.1940) bağlayan, tezliklə həm də faşist Almaniyası ilə dostluq və hücum etməmək barədə saziş (18.VI.1941) imzalayan Türkiyə az sonra (25.VI.1941) özünün tərəfsizliyini rəsmən bildirdi. O belə diplomatik gedişləri ilə yanaşı müharibənin və dövrün beynəlxalq münasibətlərinin proseslərini də diqqətlə izləyirdi. Habelə Qafqazda nüfuz dairəsi qazanmaq uğrunda fəaliyyətə başlamaq üçün fürsət gözləyirdi.

Türkiyənin bu niyyət-planları müharibənin axırına yaxın və savaşdan sonrakı ilk vaxtlarda onun SSRİ ilə münasibətlərində diplomatik gərginlik yaranmasını şərtləndirən amillərdən oldu. Bu işdə Sovetlərin Qafqazdan cənuba doğru ərazilərə də göz tikməsi, erməni və gürcüləri Türkiyəyə və Quzey Azərbaycana qarşı torpaq iddialarına yönləndirməsi və s. mühüm rol oynadı (Dördüncü bölümdə bu barədə ətraflı bəhs olunur).

Beşincisi, "sovet xalqlarının qardaşlıq ailəsinin bərabərhüquqlu üzvləri"ndən olan Quzey Azərbaycan həm də **SSRİ rəhbərliyinin** bədniyyətləri və məkrli siyasi planları üçün əsas hədəflərdən biri kimi seçilmişdi. Ümumiyyətlə, SSRİ-nin türk-müsəlman xalqları bu dövrdə də kommunist (sovet) rəhbərliyinin "etibarsız millətlər" siyahısında öndə gedirdilər. SSRİ hökuməti Türkiyə və İranla quru-dəniz sərhədləri boyunda yaşayan "etibarsız türk-müsəlmanlar" problemini həll etməyə çalışırdı".

Həmin hüdudlar boyu bir "xristian kəməri" bağlamağı nəzərdə tutan Sovet rəhbərliyi Qafqazın türk-müsəlman əhalisini deportasiyaya məruz qoydu. Onlar Qazaxıstana, Orta

Asiyaya və Sibirə sürgün edildilər. Türk-müsləman xalqlarının milli qurumları (Çeçen-inquş və Krım muxtar respublikaları) ləğv olundu və Tuva respublikası muxtar vilayətə çevrildi.

Müharibə illərində azərbaycanlıların da öz tarixi torpaqlarından köçürülmələri (perspektivdə həmin ərazilərdə ermənilər və digərlərinin məskunlaşdırılması məqsədiylə) gündəmə gəldi. AK(b)P MK-nın Birinci katibi M.Bağırovun İ.Stalinlə yaxın münasibətləri və, ən başlıcası da, onu fikrindən daşındırmaq üçün gətirdiyi əsaslı dəlillərin yetərli olması millətimizi (Vətənimizi) tarixi fəlakətdən xilas edə bildi. M.Bağırov "ellər atası"nı inandıra bilmişdi ki, Sovetlərin belə ağır durumunda azərbaycanlıların da köçürülmələri nə siyasi, nə iqtisadi, nə də mənəvi cəhətdən əsla düzgün olmazdı. Onun fikrincə:

1-cisi, Quzey Azərbaycana yönəlik beynəlxalq maraqları mütləq nəzərə almaq lazım gəlirdi.

2-cisi, azərbaycanlıların köçürülmələri müharibə aparan SSRİ-yə vacib gərəkli olan strateji məhsulların istehsalının (neft, pambıq və s.) kəskin surətdə azalmasına səbəb olardı.

3-cüsü, bu, sırf siyasi məzmunlu və səciyyəli akt Qızıl ordu sıralarında faşist Almaniyasına qarşı vuruşan azərbaycanlıların döyüş ruhuna çox mənfi təsir göstərə bilərdi.

SSRİ rəhbərliyi və onun müəyyən strukturları Şimali Azərbaycana qarşı başqa planlar da çızmışdılar. Sovetlər İttifaqı Köçürmə Şurası sədrinin müavini A.Mikoyanın bilavasitə rəhbərliyilə hazırlanan və təsdiqlənən (25.X.1941) "Xüsusi əməliyyat planı"na əsasən Sovetlərin Şərqə doğru geri çəkiləcəyi təqdirdə Bakı neft rayonu minalanaraq partladılmalı və dağıdılmalı idi (1918-ci ildə V.Leninin də belə bir göstərişi olmuşdu).

Quzey Azərbaycanın faşizm üzərində tarixi rolu dövlət-

lər və xalqlar, beynəlxalq siyasi-diplomatik dairələr (F.Ruzvelt, U.Çörçill, Ş.de Qoll və digərləri) tərəfindən yetərincə yüksək (obyektiv) dəyərləndirildiyi halda, ona verilən "sovet-kommunist qiyməti" həqiqəti əsla əks etdirmədi.

§2. Güney Azərbaycan beynəlxalq və regional güclərin planlarında

Beynəlxalq və məhəlli sözsahibi olan dövlətlərin Orta Şərqdə daima toqquşan çeşidli maraqları yenidən üz-üzə gəldi. Bu maraqların başlıca qarşıdurma mərkəzlərindən biri də Şimali İran – Güney Azərbaycan oldu. Ölkəmizin cənubu strateji-coğrafi mövqeyinə, iqtisadi potensialına və s. görə beynəlxalq güclərin maraqları sistemində mühüm yer tutdu. Cənubi Azərbaycana dair məqsədlərini gerçəkləşdirmək üçün müxtəlif planlar quran beynəlxalq, məhəlli güclər arasında aşağıdakılar fərqlənir:

1-cisi, "bütün dünyanı əhatə edəcək minillik reyx" yaratmaq iddiasında olan **nasist Almaniyasının** işğalçılıq planları İranı (Güney Azərbaycanı) da hədəfə almışdı. Faşistlərin "Həyati məkanı"na həmin region da qatılmalı idi. Reyxin asılılığındakı (hüdudlarındakı) "Böyük Türküstan"a Güney Azərbaycanın da daxil edilməsi nəzərdə tutulmuşdu. A.Hitler diplomatiyası həmçinin Orta Şərqdə bu vaxtadək daima mövcud olan ingilis marağını (siyasətini) də zərərsizləşdirməyə çalışırdı.

Ümumdünya "kökə"sinin – Böyük Britaniya imperiyasının bölüşdürülməsi və bu kontekstdə də ingilislərin İrandakı (Cənubi Azərbaycandakı) iqtisadi mənafelərinə öldürücü zərbələr vurulması Almaniyanın başlıca məqsədlərindən sayılırdı. A.Hitler diplomatik gedişlər edərək bu məsələdə hətta SSRİ ilə müəyyən işbirliyinə nail olmağa səylər gös-

tərmişdi. Sovetlər İttifaqına Almaniyanın qurduğu "Üçlər paktı"na (27.IX.1940) qoşulmaq təklif olunmuşdu. Bu niyyətlə də cəlbedici vədlər – Boğazlara, habelə Bakıdan cənuba doğru ərazilərə sahiblik, Fars körfəzinə və Hind okeanına çıxış imkanı və s.də verilmişdi.

Yeni Cahan hərbinin ərəfəsində və əvvəlində nasist Almaniyası İranda (Cənubi Azərbaycanda) müəyyən iqtisadi mövqeyə və siyasi nüfuza – təsir imkanına malik idi (Almaniyanın bu dövrdəki diplomatik və hərbi-iqtisadi uğurları İrandakı hitlerpərəstliyə güclü zəmin olmuşdu). Kihrinq sazişilə (1936) İranın xarici ticarətində ikinci yerə çıxan Almaniya onun iqtisadiyyatının bəzi sahələrinə nəzarəti ələ almağa çalışırdı. "Üçüncü reyx"in hərbi və xüsusi idarələrinin xeyli əməkdaşı müxtəlif yollarla İranın dövlət qurumlarına, sənaye müəssisələrinə və s. yerləşdirilmişdi.

Yaxın gələcəkdə İranı Vermaxtın əsas plasdarmlarından birinə çevirmək planına əsasən oraya 1941-ci ilin əvvəli üçün on bir min ton silah-sursat gətirilmişdi. Alman diplomatiyası İranı hələ ki zərərsizləşdirə bilmişdi. Yəni, o, tərəfsizlik barədə bəyanat (4.IX.1939) versə də, əslində Almaniya ilə strateji birliyə can atırdı. Rusların köməyi ilə dövlət çevrilişinə nail olan, ingilislərin hesabına şahlığı ələ keçirə bilən Rza şah faşist Almaniyasının himayəsi sayəsində də XX yüzilliyi İranda "Pəhləvilərin qızıl əsrinə" çevirmək niyyəti və ümidində idi.

2-cisi, Güney Azərbaycan (habelə bütün İran) **Sovetlər İttifaqının** da çoxşaxəli maraqları və planlarında önəmli yer tuturdu. Siyasi ədəbiyyatda (Ş.Tağıyeva, C.Həsənli və b. araşdırmalarında), bir sıra diplomat dəyərləndirmələrində İrandakı Sovet maraqlarını şərtləndirən iki əsas amildən bəhs olunur: **a)** iqtisadi mənafelər – neft faktoru; **b)** Güney Azərbaycan məsələsi – geosiyasi amil (İkincinin birincinin

reallaşdırılmasında təzyiq vasitəsi olmasına dair baxışlar da yox deyildir).

Bu, ümumsovet maraqlarının şərhi zamanı SSRİ rəhbərlərinin (İ.Stalin, V.Molotov, L.Beriya, A.Mikoyan), Azərbaycanın quzeyinin başçısının (M.Bağırovun) və güneyinin liderinin (S.Pişəvərinin) məsələlərə yanaşmaları, onların güddükləri konkret (özəl) məqsəd və niyyətlər də maraq doğurur:

- **Sovet rəhbərliyinin** Cənubi Azərbaycan məsələsinə dair baxışları sırasında **İ.Stalinin** mövqeyi daha diqqətçəkicidir. Dövrün beynəlxalq proseslərinin və diplomatik sənədlərinin də təsdiqlədiyi kimi, "dünya kommunizmi"nin və SSRİ-nin mənafelərini əsas tutan İ.Stalin ölkəmizin birləşdirilməsi və Bütöv (Vahid) Azərbaycan məsələsində maraqlı olmuşdur. Bunu ağır müharibə dövründə Güney Azərbaycan məsələsinə Sovet dövlətinin (İ.Stalinin) verdiyi önəmdən də görmək olur. O, SSRİ-nin ərazilərinin cənub regionlarına doğru genişlənməsinə səy göstərmiş və Sovetlər İttifaqı daxilində "birləşmiş Azərbaycan" ideyasına mənfi yanaşmamışdır (Hərçənd ki, onun bu işin gerçəkləşməsi ehtimalından qayğılandığını açıqlayan mövqelər də olmuşdur və vardır). Böyük müharibəni qələbə ilə qurtaran Sovet rəhbərinin savaşdan sonrakı ilk vaxtlarda SSRİ-nin Qafqaz boyu sərhədləri – oradan cənuba doğru ərazilərlə bağlı "rahatsızlığı"na dair məlumatlar mövcuddur;
- **kommunist liderlərdən A.Mikoyan, L.Beriya** və b. antitürk mövqeyində dayanan və siyasət aparanlar, təbii ki, Güney Azərbaycan məsələsinin həllinə maraq və səy göstərməmiş, əksinə, onu əngəlləyənlərdən olmuşlar;
- siyasi ədəbiyyatda və diplomatik sənədlərdə **Quzeyin (Azərbaycan SSR-in)** bolşevik başçısı **M.Bağırovun** da

problemə dair özəl məqsədə və baxışa malik olduğu qeyd edilir. O çağın Moskva (Bakı) – Tehran (Təbriz) münasibətlərində, Mərkəzin imkan verdiyi səviyyədə, rol oynayan AK(b)P MK-nın Birinci katibinin Azərbaycanın Sovetlər İttifaqı daxilində birləşdirilməsində şəxsi marağından (istəyindən) çıxış etməsi də istisna olunmur. Yəni onun SSRİ tərkibində olsa da belə daha böyük bir respublikaya rəhbərlik etmək niyyəti (diləyi) vurğulanır. Burada "Şimalın Seyidi"nin "Qərbi Ukrayna və Qərbi Belorusiya təcrübəsi"ndən ruhlanması və bu tarixi məqamı nəzərə alması da diqqətdən kənarda qalmamalıdır;

- **Güneyin (Milli hökumətin)** rəhbəri olan "Cənubun Seyidi" – **S.Pişəvəri** də region ətrafında toqquşan maraqlar burulğanında və İrandakı Sovet-Qərb qarşıdurmasında müəyyən mülahizələri, məqsədləri önə çəkmişdir. İran daxilində milli muxtariyyəti siyasi baxımdan perspektivsiz sayan S.Pişəvəri proseslərin sonrakı axarında Güneydə – Şimalla birləşə biləcək – Azərbaycan Xalq Demorkatik respublikasının qurulması üzərində düşünmüşdü.

SSRİ-nin Şimali İrana (Güney Azərbaycana) dair maraqlarının təmin olunması müəyyən hərbi-strateji planların hazırlanmasını da şərtləndirirdi. İkinci Dünya müharibəsinin ilk çağlarından etibarən bu sahədəki fəaliyyət daha da genişləndirildi və qüvvətləndirildi. Bunun bəzi konkret səbəbləri də var idi:

a) "Qərbi Ukrayna və Qərbi Belorusiya, Baltikyanı respublikalar problemi"nin faşist Almaniyası ilə birlikdə "uğurlu həlli"ndən, yəni onların da "sovetləşdirilməsi"ndən sonra SSRİ rəhbərliyi Güney Azərbaycan məsələsinə olan maraq və diqqətini xeyli artırmışdı;

b) Sovet rəhbərliyi İrandakı almanpərəstlikdən və oradan gözlənilə bilən faşist təhlükəsindən xeyli qayğılanmışdı;

c) bu kontekstdə türk-alman qruplaşmasının Birinci Cahan savaşının lap əvvəlində Təbrizi tutaraq Rusiyaya ciddi problemlər yaratması nəzərə alınmışdı;

d) Cənubi Azərbaycanın geosiyasi önəmi, yəni Fars körfəzinə-Hindistana-Uzaq Şərqə aparan müxtəlif yolların oradan keçməsi önə çəkilmişdi;

e) Azərbaycanın güneyinin və Xəzərin cənubunun zəngin neft ehtiyatlarının nasist Almaniyanın və "tərəfdaş" İngiltərənin əlinə keçməsi ehtimalı siyasi-hərbi sayıqlığın gücləndirilməsini zəruri etmişdi.

Bütün bunları əsas götürən SSRİ hökuməti bir sıra ilkin əməli addımlar atdı. Müəyyən sənədlər və materiallar hazırlandı. Onların ən başlıcalarından aşağıdakıları qeyd etmək olar:

Azərbaycan SSR DTK-nın "Güney Azərbaycanın siyasi-iqtisadi durumu haqqında" xüsusi arayışı; D.Qolubyatnikovun "Quzey İranın neft yataqları" araşdırmasının öyrənilməsinə dair materiallar; Qızıl ordunun 5-ci idarəsinin "İran Azərbaycanının hərbi-coğrafi təsviri" sənədi (1940); "Güney Azərbaycanın texniki-iqtisadi icmalı" (Moskva, I.1941); M.Bağırovun İ.Stalinə yolladığı "Cənubi Azərbaycan haqqında qısa arayış" (III.1941) və s.

İrana sovet hərbi müdaxiləsi ərəfəsində Güneyə və digər ərazilərə dair hərtərəfli məlumatlar əldə edildi. Şahənşahlığın vətəndaşlarının Şimali Azərbaycandan çıxarılması prosesindən (1938) yararlanılaraq xeyli xüsusi xidmət işçisi İrana göndərildi.

Azərbaycanın quzeyindən güneyinə göndəriləcək xüsusi missiya formalaşdırıldı (V-VI.1941). Bu missiyaya AK(b)P MK-nın üçüncü katibi Əziz Əliyev başçı təyin olunmuşdu (Siyasi-tarixi ədəbiyyatda onu "Əziz Əliyev qrupu" da adlandırırlar).

İran Almaniya ilə iqtisadi-ticarət əlaqələrinin əsasən SSRİ-dən keçən yollar vasitəsilə aparımasını nəzərə alaraq böyük qonşusuyla münasibətlərdə ehtiyatla davranırdı. Ancaq şahlığın yavaş-yavaş yenidən Azərbaycan SSR-ə və Orta Asiyanın sovet respublikalarına qarşı ərazi iddiaları sevdasına düşməsi və hərəkətləri SSRİ-nin İrana dalbadal verdiyi (VI-VII.1941) hədələyici notalarla qarşılandı. Bu notalar İrana hazırlanan Sovet silahlı müdaxiləsinə "bəhanələr axtarışı" baxımından da maraq doğurur.

SSRİ XXİK-i hətta o dövrki baş sovet diplomatı V.Molotovun xüsusi göstərişi ilə İranın Paris Sülh konfransına (1919) verdiyi tələbləri bir daha ətraflı araşdırmışdı. Bütün bunlardan aydın olduğu kimi, SSRİ İranın şimalına (Güney Azərbaycana) hərbi müdaxiləyə və orada Qərblə uzunsürən və hərtərəfli qarşıdurmaya başlamağa hazır idi.

3-cüsü, İranın (Güney Azərbaycanın) Sovet-Qərb qarşıdurmasının başlıca meydanlarından birinə çevrilməsində **İngiltərə** və **ABŞ-ın** regiondakı maraqları da həlledici rol oynadı. İrana dair ənənəvi (tarixi) ingilis siyasətinin israrla yürüdülməsi və Orta Şərqdə nüfuz dairəsi qazanmağa çalışan ABŞ-ın fəallaşması Güney Azərbaycan məsələsinə də müxtəlif yönlərdən təsir göstərdi.

İngilis ordularının Avropadakı və Şimali Afrikadakı uğursuzluqları Birləşmiş Krallığın İrandakı mövqelərini xeyli zəiflətmişdi. Britaniya rəhbərliyi (hərbi komandanlığı) Vermaxtın Cənubdan İraqa və İrana, habelə Qafqazdan da Türkiyəyə daxil olaraq Yaxın və Orta Şərqdəki ingilis müstəmləkələrinə ciddi problemlər (təhlükə) yaratmasından qorxurdu (Öz növbəsində, faşist Almaniyası da İngiltərənin İrana qoşun yeridərək orada Qafqazın neft rayonlarına (Bakı və s.) hava basqınları üçün, əlverişli əməliyyat meydanı yarada bilməsindən qayğılanırdı).

4-cüsü, bu dövrdə beynəlxalq güclərin diqqət mərkəzində daha çox qalan İrandakı (Güney Azərbaycandakı) proseslər və onların ətrafındakı diplomatik çəkişmələr **Türkiyə dövlətinin** də nəzərindən yayınmadı. Şəraitə (zəmanəyə) uyğun da siyasət yürüdən türk diplomatyası Cənubi Azərbaycan məsələsinə imkanları daxilində münasibət bildirdi. Türkiyə regionda müəyyən geosiyasi və iqtisadi maraqlar güddüyündən ölkəmizin cənubu ilə əlaqədar proseslərə müdaxilə etməyə də çalışdı.

O vaxtlar beynəlxalq münasibətlərdə "Güney Azərbaycanın Türkiyəyə ilhaqı" kimi müddəa da özünə yer tutdu. Rəsmi Ankara Sovetlərin İranda möhkəmlənməsini və Cənubi Azərbaycana qoşun yeritməsini özünə təhlükə hesab edirdi. Həm bu cəhəti, həm də nasist Almaniyasının perspektivsizliyini nəzərə alan Türkiyə diplomatiyası ABŞ və İngiltərə ilə uzlaşmanı lazım bildi. Buna müvafiq olaraq da İranda (Güney Azərbaycanda) təsirini artırmağa səy göstərdi.

Cənubi Azərbaycanda toqquşan mənafelərin barışmazlığı, tərəflərin israrla hərbi-dilpomatik güc nümayiş etdirmələri və s. Orta Şərqdəki (İrandakı) Sovet-Qərb qarşıdurmasını o çağın dövlətlərarası münasibətlərinin kəskin problemlərindən birinə çevirdi. 1941-1946-cı illərdə ölkəmizin cənubunda baş verən milli-demokratik hərəkatın nəticələri və onlarla bağlı güdülən məqsədlər, gedən siyasi-diplomatik çəkişmələr beynəlxalq münasibətlərə Güney Azərbaycan məsələsini gətirmiş oldu.

§3. Cənubi Azərbaycanda Sovet-Qərb qarşıdurmasının ilkin mərhələsi

Şərqlə Qərbin İrandakı – Güney Azərbaycandakı o dövrki qarşıdurmasını SSRİ ilə İngiltərə başladı. İrana ingi-

lis və sovet hərbi müdaxilələri ilə buna rəvac verildi. Bunlardan az öncə isə İngiltərə-İran-SSRİ diplomatları arasında bəzi məsləhətləşmələr aparıldı. Belə ki, İngiltərə XİN-i A.İden İranın (VI.1941) və SSRİ-nin (10.VII.1941) Londondakı səfirləri ilə görüşdü (Böyük Britaniya diplomatiyası cənubdan Almaniyanın, şimaldan isə SSRİ-nin İrana gözlənilən silahlı müdaxilələrindən ehtiyat edirdi).

Birinci (Ə.Müqəddimi) ilə söhbətdə sovet, ikinciylə (İ.Mayski) görüşdə isə alman təhlükələri məsələsi qaldırılmışdı. Böyük Britaniya Nazirlər Kabinetindəki çoxsaylı məxfi müzakirələrdən birində (19.VII.1941) İranın cənubuna əsgəri müdaxilə haqqında çıxarılan qərar tezliklə həyata keçirildi.

SSRİ rəhbərliyi də Rusiya-İran müqaviləsinin (26.II.1921) 6-cı maddəsini "əsas tutaraq" Şahənşahlığın ərazisindən "gözlənilən alman təhlükəsi"ni bəhanə edərək qonşu ölkəyə qoşun yeritdi (25.VIII.1941). M.Bağırovun İ.Stalinə teleqramından (26.VIII.1941) Qızıl ordunu yerli əhalinin rəğbətlə, hakimiyyət orqanlarınınsa ehtiyatla qarşıladıqları bəlli olur.

Bu vaxtlardan etibarən SSRİ-İran əlaqələrində əsas vasitəçilərdən birinə çevrilən M.Bağırovun gizlicə, yəni Naxçıvandan keçərək Təbrizə getməsi (IX.1941) və Moskvaya çağırılaraq birbaşa İ.Stalin tərəfindən təlimatlandırılması da (IX.1941) məlumdur. "Əziz Əliyev qrupu"nun tezliklə Təbrizə yollanmasına çalışan M.Bağırov İrana göndəriləcək heyətlə çoxsaylı görüşlərində olduqca maraqlı və diqqətçəkici fikirlər söyləmişdi:

"... Cənubi Azərbaycan ... İranın şimalının çox hissəsi... xalqımızın əsl ana torpağıdır"; "... Tehranın özü də Azərbaycanındır...qədim Azərbaycan şəhəridir"; "Biz azərbaycanlılar ... gərək gec-tez orada (Güneydə – İ.M.) olan Azərbaycan xalqını vaxtilə məcburən ayrıldığı doğma Sovet

Azərbaycanı xalqı ilə birləşdirək..."; "Türkmənçay kəndində... böyük Azərbaycan xalqını iki parçaya bölmüşlər", "Məni Moskvaya çağırıb soruşdular ki, nə istəyirsən ... biz Cənubi Azərbaycanda yaşayan qardaşlarımıza kömək etmək istəyirik, buna bizə icazə verməlisiniz... bu icazəni də verdilər" və s. (Həmin fikirlər Güney Azərbaycan məsələsinin kökü, problem ətrafında cərəyan edən proseslərin sonrakı gedişi və nəticələri ilə bağlı məqamlara aydınlıq gətirilməsi baxımından da maraq doğurur).

Bəzi elmi araşdırmalara (C.Həsənli, Ş.Tağıyeva, A.Məmmədli) və siyasi-diplomatik dəyərləndirmələrə görə, İrandakı Sovet siyasəti oraya silahlı müdaxilədən 1944-cü ilin əvvəllərinədək olan müddətdə tərəddüdlər, ikili yanaşmalar və s. ilə səciyyələnmişdir. Bu dəyərləndirmənin əsaslandırılması ilə əlaqədar olaraq önə çəkilən mülahizə və dəlillər sırasında aşağıdakılar üzərində dayanmağa lüzum vardır:

Birincisi, Sovet rəhbərliyi İrana təsir vasitələri və imkanları arayarkən Cüney Azərbaycana istinad etməklə kürd separatizmini (bölücülüyünü) qızışdırmaq seçimi arasında bir dönəm tərəddüd etdi. Belə ki, xüsusi xidmət orqanları ilə diplomatlar, ələlxüsus da yerlərdəkilər (Tehrandakı sovet səfiri A.Smirnov) fərqli mövqelər tutdular.

Əvvəlincilərin əksinə olaraq "kürd məsələsi ilə oynamağa" qarşı çıxan səfir "İrandakı kürd bölücülüyünün daima xarici dövlətlərin oyunlarına çevrildiyini" yazırdı: Biz qəti surətdə kürdlərlə olan səhv oyundan imtina etməliyik... bizim İranın şimalındakı siyasi işimiz orada çoxluğu təşkil edən azərbaycanlılara dayanmalı və onların rəğbətinin qazanılmasına yönəldilməlidir.

Sovetlərin Güney Azərbaycan üzrə "sözçüsü statusunu alan" M.Bağırov da "... kürd məsələsi İran və Türkiyə siyasətində ən kövrək yerdir, ingilislərin əlində ən sevimli silah-

dır" deyirdi. Onun fikrincə, kürdlərin xaricilərin təxribatlarına uyaraq ayrıca dövlət yaratmaq məqsədilə silahlanmalarına qarşı çalışmaq lazımdır (Yeri gəlmişkən, Güneyə dair məsələlərin Sovet rəhbərliyindəki müzakirəsi zamanı (IX.1941) M.Bağırova müvafiq müstəsna səlahiyyətlər verilmişdi).

İkincisi, SSRİ hökuməti Cənubi Azərbaycan problemindən qayğılanan İran rəhbərliyinin çoxşaxəli iddia və bəhanələrinə münasibətdə birmənalı yanaşmadan yayınırdı. Ankaradakı İran böyük elçisinə "... işlər belə davam etsə, Azərbaycanı itirəcəyik" yazan Şahənşahlığın Baş naziri Foruğı baş diplomat M.Soheyli və digərləri ilə birlikdə "Əziz Əliyev qrupu"nu "səlahiyyətlərini aşmaqda" suçlayırdı. Bunun qarşılığında sovet tərəfi prinsipial mövqe tutmaq əvəzində qərəzli yanaşma nümayiş etdirirdi.

Durumdan yararlanan fars diplomatiyası hətta İrana dair ingilis və sovet siyasətlərinin daha da sərtləşməsini əngəlləməyə də müvəffəq ola bildi. Bu da İranda sovet və ingilis silahlı qüvvələrinin yerləşdirilməsinə dair üçtərəfli sazişin (8.IX.1941) ərsəyə gəlməsi ilə nəticələndi. Şahın vəliəhdin xeyrinə səltənətdən imtina edərək (16.IX.1941) Cənubi Afrikada (İohanesburqda) mühacir həyatı yaşamağa razılaşmaq məcburiyyətində qalması da İranın xeyrinə işlədi.

Üçüncüsü, rəsmi Moskva Güney Azərbaycan əhalisinin Qızıl ordunu rəğbətlə qarşılaması və Sovetlərə xoş münasibət bəsləməsi kimi vacib məqamlara da yetərincə önəm vermədi. Ə.Əliyevin M.Bağırova Güneydəki duruma dair ilk geniş hesabatından (24.X.1941) da açıqca göründüyü kimi, əhali qırmızıların ölkəyə gəlməsinə sovetləşmə perspektivi kimi baxırdı: "Sovet ordusunun buradan çıxmasına imkan verməyəcəyik və əks halda biz də sizinlə birlikdə SSRİ-yə gedəcəyik"; "Biz Qızıl ordunu 20 ildən artıqdır ki, gözləyirik. Səbrimiz tükənib. Ləngiməyin vaxtı deyildir. Sovet hökumətini qurun".

Dördüncüsü, Sovet xarici siyasət idarəsi və digər müvafiq strukturlar Güney Azərbaycanı itirmək təhlükəsindən əndişələnən İran rəhbərliyinin orada mövqelərini möhkəmləndirməsinə, bu niyyətlə də ideoloji-təbliğatı və s. sahələrdə fəaliyyətini gücləndirməsinə etinasız qaldı. İran da şəraitdən faydalanaraq Ə.Kəsrəvi və b. vasitəsilə Təbrizdə Azərbaycan əhalisinin "türk olmaması"na dair təbliğatı genişləndirməyə çalışdı.

İranı insana oxşadan Tehran mətbuatı yazırdı ki, Azərbaycan bu bədənin başı, gözləri, ürəyidir; Azərbaycanın fikri onu İrandan ayırmaqdır; İran azərbaycanlıların qəhrəmanlığı və şücaəti hesabına indiyədək yaşayır; onlar İran üçün tarixi iftixar fəth etmişlər, "indi biz Azərbaycana sevgiylə yanaşırıq". Təbii ki, bütün bu fikirlər Güneyi sakitləşdirmək və ram etmək məqsədilə yayılırdı. Təəssüflər olsun ki, Mərkəz (Moskva) təsirli əkstəbliğat fəaliyyətində ardıcıl və maraqlı görünmürdü.

İşlər sanki rəsmi Bakının (M.Bağırovun) və Güneydəki məlum qrupun (Ə.Əliyevin) öhdəsinə buraxılmışdı. Birinci ikincinin təsirli məlumatları ilə tanışlıqdan sonra açıqladığı fikirlərlə belə bir mövqeni ifadə etmişdi: Azərbaycan xalqı min illərlə böyük dövlətə, tarixə malik olmuşdur.

O, İrandan gələn şahsevən, kürd tayfalarının başçıları və Təbriz ziyalıları ilə görüşlər (Bakı, XI.1941) keçirmişdi. Pəhləvi rejimindən xeyli narazı qalan şahsevənlər "İranla heç bir əlaqələrinin olmadığını, camaatlarının yarısının Yuxarı Azərbaycanda yaşadığını və özlərinin də oraya birləşmək istədiklərini" açıqlamışdılar.

Təbriz ziyalıları ilə söhbətdə M.Bağırov Şahənşahlığa və Güneyə səslənərək demişdi: Bəsdir, daha bu vaxtacan 5 mln. xalqı axır damarına qədər çatdırmısınız; hanı azər-

baycanlıların dili, onların dilində məktəb, qəzet, ədəbiyyat; istədiyimiz odur ki, Azərbaycan xalqının öz hüququnu öz ixtiyarına versinlər; onlara özlərinə sahib olmaq hüququ verilsin; daha əsir olmaq bəsdir; Azərbaycan xalqı yüz illərlə əsir olmuşdur; sizə kömək etmək borcumuzdur; burada nə görürsünüzsə, hamısı Azərbaycan xalqınındır (?! – İ.M.); Azərbaycan balaları olduğunuzdan buradan öz payınızı istəməyə ixtiyarınız vardır; özünüzdə də bir hərəkət olsun: millətin qanı gərək işləsin.

Beşincisi, İrandakı sovet ordusunda baş verən hadisələrin (intizamın zəifliyi, fərarilik, quldurluq, komandanlığın biabırçı hərəkətləri və s.) SSRİ rəhbərliyinin Güneyə dair tərəddüdlü siyasətindən də qaynaqlanması qənaəti ilə razılaşmaq lazım gəlir. Əslində orduda İrandakı "müvəqqəti missiya" əhval-ruhiyyəsi hökm sürürdü.

Altıncısı, Cənubi Azərbaycanla əlaqədar ikili Sovet siyasəti, tərəddüdlər, qeyri-ardıcıllıq və b. hallar bir sıra dövlətlərin İrandakı hərbi-diplomatik fəallığının artmasına da şərait yaradırdı. Bələləri sırasında İngiltərə, Türkiyə və ABŞ xüsusilə seçilirdilər:

a) bu dövrdə **Böyük Britaniya** komandanlığının Sovetlərə müəyyən taktiki təklifləri də olmuşdu. Məsələn, Vermaxtın Qafqazdan keçərək Anadoluya girəcəyi təqdirdə Sovetlərlə birlikdə müdafiə mövqelərinin yaradılması. Ən əsası isə Qafqaza yiyələnməyə çalışan İngiltərə öz qoşunlarını regionun cənubuna yeritməyə hazır olduğunu bəyan etmişdi (Sonuncu variant SSRİ hökuməti tərəfindən "məsləhət bilinməmişdi". Ancaq sovet və ingilis qoşunlarının eyni vaxtda İranda olmaları Vermaxtın oradan keçərək Qafqazda vuruşan hissələrilə birləşməsinə dair planları pozdu.

Habelə SSRİ-nin, lend-lizə əsasən, Fars körfəzi – Xəzər dənizi boyunca təchizatına nəzarət təmin olundu. Müttəfiqlərin İran vasitəsilə Sovetlərlə birləşərək faşist ordularının Qafqazın neft rayonlarına (Bakıya) yetişmələrinə imkan verməyəcəkləri F.Qalder tərəfindən də etiraf olunmuşdu).

Qızıl ordu hissələrindən bir gün sonra (18.IX.1941) Tehrana daxil olan ingilis qoşunları mərkəzdə və digər yerlərdə Sovetlərin şəriksiz idarəçiliyinə imkan vermədilər. İranın 1942-ci ilin əvvəlindən etibarən Qərbə meyllənməsi fürsətini qaçırmayan İngiltərə onunla mayda maliyyə sazişi imzaladı. Az sonra da amerikanlarla bilikdə İranla ərzaq müqaviləsi bağlandı. Böyük Britaniya diplomatiyası Azərbaycan türklərinin, habelə kürdlərin qızışdırılmalarına və Şahənşahlığın Sovetlərə qarşı qaldırılmasına yönəlik fəaliyyətini genişləndirdi.

M.Bağırovun SSRİ XDİK və XXİK rəhbərliyinə müraciətində (I.1942) deyilirdi ki, kürdləri silahlandıran ingilislər onlara və azərbaycanlılara ikibaşlı müraciətlər edirlər: Siz öz müstəqilliyinizə, hətta silahlı üsyan yoluyla olsa da belə, sahib sıxın; işlərinizə qarışmayacağıq, çünki İran hökumətinin tərəfindəyik.

Tehrandakı sovet səfirliyindən SSRİ XXİK-ə göndərilən məktubdan (20.IX.1943) bəlli olur ki, "ingilislər şahı və hökuməti yaxınlaşan inqilab dəhşəti... Şimal əyalətlərinin bolşevikləşməsi təhlükəsi ilə qorxudaraq antisovet əsasda iranlılarla yaxınlaşmağa çalışırdılar". İngiltərənin Cənubi Azərbaycanda, habelə bütün İranda möhkəmlənmək naminə gördüyü işlər arasında bunlar da diqqəti cəlb edir:

- Təbrizdəki Britaniya Baş konsulluğunun Cənubi Azərbaycandakı sovet nüfuzuna qarşı ingilis təsirini gücləndirməyə çalışması;
- İran Məclisinə seçkilərin Güneydə nəzarətə götürülməsi (VII.1943);
- Təbrizdə Britaniya hərbi düşərgəsinin təşkili (1943);

- uzunmüddət ərəb ölkələrində siyasi mühacir olan və ingilislərin adamı (agenti) kimi tanınan "Ağa"nın, sabiq Baş nazirin, yəni Seyid Ziya Əd-din Təbatəbainin ölkəyə qayıdışına (29.IX.1943) nail olunması;
- Güneydə məmur təyinatı və dəyişdirilməsinə yetərli müdaxilə imkanları qazanılması (Sovetlərə xoş münasibəti ilə fərqlənən 70-dən çox rəhbər işçisinin Tehran vasitəsilə geri çağırılması, Müsavat mühacirətinə yaxınlığıyla tanınan şəxsin Təbrizin polis rəisi təyin olunması və s.);
- ideoloji fəaliyyətin təsirliliyinin artırılması, Təbrizdə xüsusi "Təbliğat evi"nin açılması;
- "İmperial" bankının rəhbərliyinin Təbriz şöbəsinin ələ keçirilməsi.

Bu üstünlüklərin əldə edilməsində isə Təbrizdəki baş konsullar – qatı antikommunist Uorkartın, habelə səriştəli diplomatik fəaliyyəti ilə fərqlənən T.Reppin və b. mühüm rolu olmuşdu. Bütün bu qazanılanlar da İngiltərənin İrandakı nüfuzuna və sonrakı proseslərə təsirini artıran önəmli ilkin zəmin sayıla bilər;

b) İrandakı Sovet tərəddüdləri şəraitində Güney Azərbaycanda fəallaşan **Türkiyə diplomatiyasının** fəaliyyətində aşağıdakılar diqqəti cəlb edirdi: təbliğati tədbirlərin artırılması; kəşfiyyat işlərinin genişləndirilməsi; "mətbuat savaşı"nın gücləndirilməsi və s. Birinci istiqamət üzrə görülən işlərdə "Azərbaycanın bədbəxtliyi ruslarla əlaqədardır və sovet ordusu mütləq Təbrizdən çıxmalıdır" müddəa-tezisi mərkəzdə dayanırdı. Qızıl ordunun Güneydəki mövcudluğunu özünə təhlükə sayan Türkiyə dövləti həmçinin Almaniyaya güvənməyin yetərsizliyinə dayanaraq Qərb dövlətləri ilə yaxınlaşmağa üstünlük verirdi.

Bu da Sovetlərin beynəlxalq siyasi-diplomatik dairələrə məqsədyönlü şəkildə "Güney Azərbaycanın müharibədən

sonra Türkiyəyə ilhaq ediləcəyinə" dair məlumatlar ötürməsinə şərait yaradırdı. Sovetlərin mövqeyi həm də M.Bağırov vasitəsilə belə açıqlanmışdı:

İndi Güney Azərbaycana təzə sahib-osmanlı türkləri ortaya çıxıblar; Güneydə yaşayan azərbaycanlıları özlərininki sayırlar; indiyədək harada idilər (?! – İ.M.) və onların önünü kim kəsirdi; Tehranla Ankara bir-birilə mübahisəyə başlamışlar və ortalığa bölhaböl məsələsi düşmüşdür; deyirlər dövlətə sahib durmaq lazımdır, guya 5 mln. Azərbaycan xalqı sahibsizdir.

SSRİ diplomatlarının "Güneyin Türkiyəyə ilhaqı"na dair təxribatı da İranı qıcıqlandırmaq üçün düşünülmüşdü. Ölkələrarası "mətbuat savaşı" da buna yaxşı imkan yaradırdı. Belə ki, Türkiyə mətbuatının ("Cumhuriyet", "Yeni Sabah") çoxsaylı yazıları-materiallarında (X.1941) güneylilərin ağır durumu ilə əlaqədar fikirlər söylənilmiş, faktlar açıqlanmışdı:

İran hökuməti orada yaşayan türklərin taleyinə biganədir və onları əzməkdən çəkinmir; türklər maarif sahəsində farslarla eynihüquqlu deyildirlər və onların dili, mədəniyyəti sıxışdırılır; dostumuz (sabiq Ankara böyük elçisi) Baş nazir Foruği birinci vəzifəsi kimi parlamentdə türkcə danışmağı qadağan etmişdir və s.

"Mətbuat savaşı"nın digər tərəfinin əkstəbliğatı isə bu kimi "dəlillər" əsasında aparılırdı: türk dili İran əhalisinin bir hissəsinin ünsiyyət vasitəsidir; onlar türk deyillər və azərbaycanlılar elə əski farslardırlar; Azərbaycan dilini onlara XVI əsrdə calayıblar; Azərbaycan türkcə danışan iranlıların yaşadığı yerdir və bütün İranın beyni, ürəyi olubdur, indi də belədir; İranda yaşayan türklər iranlılar olaraq bütün hüquqlardan istifadə edirlər.

Əvvəllərdə Bakıda, Batumidə və b. yerlərdə diploma-

tik fəaliyyət göstərən Təbrizdəki Baş konsul Korkud həm İran təbliğatını, həm də Sovetlərin Türkiyənin "daimi alman tərəfdaşı" olmasına dair təxribatını zərərsizləşdirmək sahəsində də müəyyən işlər görürdü.

"Yalnız Türkiyə Azərbaycan əhalisini kürdlərin soyğunçuluğundan xilas edə bilər" təbliğatı da aparılırdı. Habelə Təbrizdə türkçü qurumun təşkilinə cəhd edildi, Güneydəki sovet qoşunları barədə məlumatlar toplanıldı, 70-ə yaxın güneyli gənc pulsuz təhsil almaq üçün Türkiyəyə göndərildi və s.;

c) Güneydəki Sovet-Qərb qarşıdurmasına, müəyyən obyektiv səbəblər üzündən, bir az gec qatılan **ABŞ dövləti** də birincinin İran siyasətinin haçalanmasından faydalandı. Cənubi Azərbaycan ətrafında yaşanan çox (üç) tərəfli "beynəlxalq qalmaqal"da Ağ evin özəl maraqları olmuşdu. ABŞ-ın bu prosesə bilavasitə qoşulmasını onun Təbrizdəki konsulluğunun başçıları – B.Kenixolm, E.Samuel, Ford və b. təşkil etmişdilər. "Güneyə dair hələlik aydın siyasəti olmayan" (Ford) ABŞ ilk vaxtlarda əsasən iqtisadi mənafelərinin təminatına üstünlük vermişdi.

ABŞ-ın İranda fəallaşması – Güneyə nüfuz etməsinə Sovetlərin mövqe səbatsızlığı ilə yanaşı Ə.Qəvam əs-Səltənənin Şahənşahlığın Baş naziri olması (9.VIII.1942) da həlledici təsir göstərdi. İranın hökumət kabinələrinə əvvəllərdə də dəfələrlə başçılıq edən Qəvam ABŞyönlü siyasətçi-dövlət adamı kimi tanınmışdı.

Vaxtilə o, İranın şimalındakı neftin ABŞ-a konsessiyaya verilməsinə və onun missiyasının (A.Milspo) ölkəyə dəvət olunmasına səylər göstərmişdi. Onun yenidən hökumətə rəhbərlik etməsilə A.Milspronun maliyyə missiyasının, habelə çoxlu və çeşidli təmsilçiliklərin İrana (Güneyə) yolu açılmış oldu ("A.Milsrpo missiyası" tezliklə – XI.1942 – rəsmi status aldı).

Lend-lizi İrana da şamil edən (3.V.1942) ABŞ həmçinin onunla ticarət müqaviləsi də bağladı (29.III.1943). Tehranda "Amerika-İran Mədəni Əlaqələr Cəmiyyəti" yaradıldı (III.1943). "Milspo missiyası"na fövqəladə səlahiyyətlər verildi (4.V.1943) və onun layihəsi əsasında da ABŞ İrana kredit ayırdı. Təbrizdəki Amerika xəstəxanası və Amerika kilsəsi ilə missioner cəmiyyətinin fəaliyyətinə diqqət artırıldı.

İranda özünə iqtisadi özüllər yaradan və oradakı hərbi missiyasının mövqelərini günbəgün gücləndirən ABŞ öncə Güneydəki siyasi proseslərə və sonralarsa ona dair beynəlxalq "məsləhətləşmələr"ə qatılmaq imkanı əldə etdi. ABŞ-ın Tehrandakı səfirliyi və Təbrizdəki konsulluğu Güney Azərbaycanla bağlı "əlavə tapşırıqlar" aldılar.

Onun regionda möhkəmlənmək xətti və Güneylə "yaxından maraqlanması" üçtərəfli "beynəlxalq qalmaqal"da daha bir qütbü, yəni ingilis-amerikan qarşılaşmasını ərsəyə gətirmiş oldu. Ağ ev ilə İrandakı səfirlik arasındakı məsləhətləşmələrdə (IV.1943) "indi mübahisə vaxtı deyil" yanaşmasına üstünlük verildi.

İrana (Güneyə) dair sovet tərəddüdləri (ifrat ehtiyatlılıq, vaxtkeçirmə və s.), habelə onlardan irəli gələn hərəkətləri şərtləndirən səbəblərin də nəzərdən keçirilməsi məsələnin dolğun mənzərəsinin yaradılması baxımından önəmlidir. Öncə qısaca əsas səbəblər barədə:

1. Müharibənin əvvəlindəki məğlubiyyətlər və cəbhələrdə durumun ağırlığı. Güney Azərbaycan məsələsini dərinləşdirərək əlavə problemlər törədilməsindən qaçılması.

2. Müttəfiqlərin hərtərəfli köməyinə kəskin ehtiyac.

3. Lend-liz üzrə və s. yardımın İran ərazisindən daşınması zərurəti. İranın "yolvermə amili"ndən təzyiq vasitəsi kimi yararlanaraq özünün ərazi bütövlüyünə Sovetlərdən təminat qoparmaq planı.

4. İngiltərənin İran rəhbərliyini daima "bolşevik təhlükəsi" ilə qorxutması.

5. SSRİ-nin Güneyə silahlı müdaxiləsindən rahatsız olan Türkiyənin İranda fəallaşması. Türkiyənin "Cənubi Azərbaycana yiyələnməsi qayğısı".

Bu səbəb-amillərin nəzərə alınmasına əsasən yürüdülən tərəddüdlü, ziddiyyətli və ikili İran (Güney) siyasətinin nəticəsi olaraq atılan addımlar, görülən tədbirlər də diqqətçəkicidir. Onları da ümumiləşdirilmiş şəkildə bu cür ifadə etmək olar:

Güney Azərbaycanda az öncədən etibarən sınaqdan keçirilən "sovet-bolşevik eksperimentləri"ndən tədricən, yenə də tərəddüdlə imtina olundu. Bu yöndə görülən başlıca tədbirlərdən birini "Ə.Əliyev qrupu"nun fəaliyyətinə son qoyulması təşkil edir. Onun fəaliyyəti yerlərdən Mərkəzə – M.Bağırovun İ.Stalinə Bakıdan və Sovet səfiri A.Smirnovun Tehrandan SSRİ XXİK-ə ünvanladıqları hesabatlarda (I.1942) fərqli qiymətləndirilmişdi. Birincinin hesabatında və SSRİ XDİK ilə XXİK-in rəhbərliklərinə müraciətində (I.1942) əsas məqsəd "Ə.Əliyev qrupu"nu təhlükədən sovuşdurmaq idi.

Səfirin hesabatında isə qrupun ünvanına kəskin "iradlar və ittihamlar", habelə onun perspektivlərinə dair mülahizə və təkliflər söylənilmişdi.

1-cisi, qrupun və şəxsən də Ə.Əliyevin saymazyana işi, səlahiyyətlərini aşması: qəzet redaksiyalarında "əsassız" axtarışlar; özlərini pisaparma – pozuculuq halları; azərbaycanlıların silahlarının yığılmaması və alınanların da qaytarılması tələbi; kürdləri döyən Urmiyə valisi müavinini həbsdən buraxdırma; yerli hakimiyyətin işinə hədsiz müdaxilə; səfirə etinasızlıq; onun qrupa başçılığına iranlıların, türklərin və ingilislərin etimadsızlığı; Arazın sağsahili boyu – Sovetlərlə sərhəd bölgələrində partizan dəstələrinin ("Sərtibzadə qiyamı"nın) təşkili və s.

2-cisi, "Ə.Əliyev missiyası"na ehtiyac qalmaması: Cənubi Azərbaycan əhalisi yetərincə inqilabiləşmişdir və orada hər hansı izahat-tərbiyə işlərinə artıq əsla lüzum yoxdur. Ə.Əliyevin Bakıya dönərək işlərə oradan (?! – İ.M.) rəhbərlik etməsi yaxşı olardı.

Mərkəz İrandakı Sovet siyasi-hərbi-diplomatik strukturları, ələlxüsus da səfir A.Smirnovla Quzey (kommunist) Azərbaycanın missiyası, yəni "Ə.Əliyev qrupu" arasındakı "işgüzar münaqişəni", təbii olaraq, birinci tərəfin xeyrinə həll etdi. Tezliklə (III.1942) Ə.Əliyev və digər məsul siyasi işçilər Güneydən geri çağırıldılar.

Əslində onların Cənubi Azərbaycandan çıxarılmaları ideyası elə birbaşa SSRİ rəhbərliyindən, ən çoxu da orada antiazərbaycan yuvası quran A.Mikoyan, L.Beriya və başqalarından gəlmişdi. Axırıncı M.Bağırova məxfi telyazısında "İranda qalan partiya-sovet işçilərinin geri çağırılması və s. barədə məsələ qaldırmasını" gizlətmirdi.

"Bakı missiyası"nın rəsmi Moskvanın "tərəddüdlü Güney siyasəti"nin ilkin qurbanlarından olmasını Sovetlərin İran məsələlərinə ikili yanaşmasını şərtləndirən – az öncə şərh olunan – amillərlə bərabər həm də digər bir önəmli məqamla əlaqələndirirlər.

Elmi araşdırmaların nəticələri və diplomatik sənədlərin təhlili təsdiq edir ki, Cənubi Azərbaycanda gedən prosesləri tədricən milli hərəkat axarına keçməsi SSRİ rəhbərliyini nəinki qane etməmiş, əksinə, qayğılandırmışdı. Bunu "Ə.Əliyev qrupu"na qarşı irəli sürülən ittihamların təkzibi ilə bağlı söylənilənlər də isbatlayır.

Həm də SSRİ-nin Təbrizdəki 47-ci ordusunun Hərbi Şurasının üzvü olan Ə.Əliyev M.Bağırova yazdığı geniş hesabatda (28.I.1942) səfir A.Smirnovun "məqsədli fəaliyyə-

ti"ni belə açıqlamışdı: səfirin Güney əhalisi arasında təbliğat-izahat işinin dayandırılmasına dair xətti səhv və ziyanlıdır; onun qəribə və müəmmalı hərəkətləri barədə Mərkəzə məlumat verilməlidir; o, bütün vasitələrlə gördüyümüz işləri nüfuzdan salır və bizə qarşı etimadsızlıq yaradıb fəaliyyətimizi dayandırmağa çalışır; ingilislərlə əməkdaşlığa meylli olan İran hökumət kabinələri ilə işbirliyinə dair yanlış məsləhətlər verir; etibarlı informasiya mənbələrinə malik deyildir və yalnız ingilis böyük elçisi, Foruği, habelə digər "şübhəli qaynaqlar"dan məlumatlanır (Sözgəlişi, A.Smirnov İran rəsmiləri və b. tərəfindən özünün zəif fəaliyyətilə nasist təbliğatının genişlənməsinə (səfirliyin binasına faşist svastikası və şüarlarının vurulması səviyyəsində) və ingilislərin kürdlər arasında pozuculuq işlərini gücləndirmələrinə şərait yaratmaqda suçlanmışdı).

Öz növbəsində M.Bağırov SSRİ-nin Xalq Daxili və Xarici İşlər komissarlarının müavinlərinə – Merkulov və Dekanozova – müraciətində (I.1942) Tehrandakı Sovet səfirinin "Bakı missiyası"na ünvanladığı ittihamları rədd edərək bunları çatlırmışdı: iranlılar, ingilislər və türklər bizim Güneydə günbəgün artan nüfuzumuzdan bərk qorxurlar və hər cür vasitələrlə oradakı işlərimizə mane olmağa çalışırlar; A.Smirnov və b. isə bütün bunları düzgün qiymətləndirmirlər (Yeri gəlmişkən, Sovet rəhbərliyi "Bakı missiyası"nın geri çağırılmasına dair səhvini çox da keçmədən, yəni 1942-ci ilin sonuna yaxın dərk etmişdi).

SSRİ-nin İrandakı səfirliyinin və, əlaxüsus da, Təbrizdəki Baş konsulluğunun (A.Kulajenkovun) "Sovetlərin Güneyi özünə qatmaq niyyəti yoxdur" kimi tezisə dayanan təbliğatı da cənubluların əhvalına və milli mübarizəsinə bəri-başdan mənfi (pozucu) təsir göstərdi və sonrakı proseslərə mənfur damğasını vurdu. Az öncə vurğulanan tezisə müvafiq hərəkətlər özünü çox da gözlətmədi.

Elə "Bakı missiyası" ilə Tehrandakı sovet səfirliyi arasındakı "işgüzar münaqişənin həlli" prosesində – Tehranda üçtərəfli (Sovetlər+Birləşmiş krallıq+Şahənşahlıq) müqavilə bağlandı (29.I.1942). Müqaviləni Sovetlər adından imzalayan A.Smirnov onu "SSRİ-İran münasibətlərinin dönüş məqamı" kimi dəyərləndirdi. Həmin sazişlə müəyyən qədər sakitləşən İran mövqelərini bir xeyli möhkəmləndirmək və özünə daha güclü (etibarlı) arxa-dayaq tapmaq məqsədilə ABŞ-a gözəgəlimli meyl göstərdi.

Şahın müttəfiqlik müqaviləsi ilə əlaqədar ABŞ prezidenti F.Ruzveltlə telyazısı mübadiləsində ondan İranın ərazi bütövlüyünün və müstəqilliyinin təminatçısı olması istənildi. Bilavasitə öz mənafelərindən çıxış edən İran həmçinin ABŞ-ı daha da maraqlandırmaq niyyətilə "Şahənşahlıqdakı SSRİ və İngiltərə qoşunlarının ABŞ ordusu ilə əvəzlənməsini" ("Ə.Qəvam planı"nı) təklif etdi.

Güney Azərbaycan məsələsini özünə "Damokl qılıncı" sayan İran öz mövqelərinin qüvvətləndirilməsi xəttini israrla yeritdi. Müəyyən tərəddüdlərdən sonra Müttəfiqlərin təzyiqi ilə nasist Almaniyasına müharibə elan etməsi (9.IX.1943) onun beynəlxalq durumuna müsbət təsir göstərən amillərdən oldu.

Az sonra (13.IX.1943) da Birləşmiş Millətlərin Bəyannaməsini imzalaması İrana: **a)** sovet və ingilis qoşunlarının ölkədən çıxarılması; **b)** bu mümkün olmadıqda isə ABŞ ordusunun dəvət edilməsi imkanlarını yaratdı.

Tehranın Müttəfiqlərin böyük bir konfransı – dövlət başçılarının Böyük Hərb zamanı ilk görüş yeri olaraq seçilməsinin verdiyi fürsətdən də istifadə edildi. Tehran konfransında (28.XI-1.XII.1943) "İran haqqında üç dövlətin (SSRİ+ABŞ+İngiltərə – İ.M.) Bəyannaməsi" imzalandı (1.XII.1943). Bəyannamə

İranın ərazi bütövlüyünə təminat verməklə onun mövqelərini möhkəmləndirmiş olurdu.

1944-cü ilin əvvəllərindən etibarən Güney Azərbaycan məsələsi yenidən aktuallaşdı. Bu, beynəlxalq vəziyyətdə və böyük hərbdə SSRİ-nin xeyrinə baş verən köklü dəyişikliklərlə (dönüşlə) əlaqədar idi. Yeni siyasi-hərbi şəraiti dəyərləndirən Sovetlər təzədən Güney probleminə fəalcasına qayıtdı. Özünün İran (Güney) siyasətini dəyişdirən-yeniləşdirən SSRİ rəhbərliyi hələ ki bitməyən tərəddüdlərdən ekspansiyaya doğru yönləndi.

Cənubi Azərbaycan məsələsinə münasibətdəki belə bir "təkamül" müəyyən amillərlə şərtlənirdi: Avropa cəbhələrindəki hərbi üstünlük və İngiltərənin İrandakı uğurlu neft siyasəti (təkcə 1943-cü ildə 10 mln. tondan artıq "qara qızıl" qazanması).

Bunları ciddiyyətlə nəzərə alan Sovetlər Orta və Yaxın Şərqin zəngin neft qaynaqlarına yiyələnmək siyasətini önə çəkdilər. Belə bir xəttin seçilməsi həm də Tehran konfransının İrana dair sənədlərinin "unudulması", arxa plana keçirilməsi demək idi. Qızıl ordunun Avropanın içərilərinə doğru irəliləməsi və hərbi amilin SSRİ-nin beynəlxalq nüfuzunu xeyli yüksəltməsi İranın Güney problemindəki rahatsızlığını artırır və oriyentasiya məsələlərinə yenidən baxmasını zəruri edirdi.

İranda Sovetlərlə əməkdaşlıq çağırışları çoxalır və SSRİ-nin Qərb üzərindəki üstünlüyünün dərk olunması istənilirdi. Habelə "Güney Azərbaycan əhalisi çox əsrlik arzusuna – farsların zülmündən qurtarmağa can atır. ... öz qan qardaşları ilə birləşməyin həsrətindədir" ... onlara tükənməz sevgisi vardır" kimi məlumatlar yayılırdı.

SSRİ isə İrandakı (Güney Azərbaycandakı) hərbi mövcudluğunu iqtisadi müdaxilə və təsirli "siyasi qayıdışla"

tamamlamaq işinə girişmişdi. Bu sahədə SSRİ XKS-nin "Cənubi Azərbaycan əhalisinə iqtisadi və mədəni yardımın gücləndirilməsi tədbirləri haqqında" qərarı (6.III.1944) önəmli rol oynadı. Qərar bunların icrasını tələb edirdi:

a) yerli camaatla əlaqələrin gücləndirilməsi;

b) milli dildə ordu qəzetinin nəşr edilməsi, Təbrizdə eyniadlı mətbəənin, ana dilində pulsuz onillik məktəbin açılması, Bakıdan Güneyə teatr-konsert qastrollarının təşkil olunması, corab-trikotaj fabrikinin işə salınması və s.;

c) siyasi işçilərin tərkibinə, hərbi müəssisələrin kollektivlərinə, Güneydəki ticarət-maliyyə idarələrinə (Təbrizdəki Sovet bankına) və diplomatik orqanlara (səfirliyə və konsulluqlara) azərbaycanlıların daxil edilməsi.

Tezliklə onların gerçəkləşdirilməsinə başlanıldı. Güneydə neft axtarışı – geoloji kəşfiyyat işləri aparıldı. Ən başlıcası da Güneyə təsir imkanlarını genişləndirmək məqsədilə Bakıda Qafqaz müsəlmanları Ruhani İdarəsi yaradıldı (20.III.1944). Ruhanilərin və Güney Qafqaz dindarlarının Bakıda keçirilən (1944) qurultayında dünya müsəlmanlarına faşizmi pisləyən və ona qarşı mübarizəyə səsləyən, habelə təbliğat səciyyəli fikirləri ehtiva edən müraciət qəbul olundu. Azərbaycan-İran Mədəni Əlaqə Cəmiyyəti təşkil (XII.1944 – sədri S.Vurğun) edildi. Ümumittifaq Mədəni Əlaqə Cəmiyyətinin filialı kimi Təbrizdə Mədəniyyət evi açılmasına icazə verildi.

Şura Azərbaycanından Güneyə göndərilən bütün işçilərə (qruplara) ümumi rəhbərlik bu dəfə H.Həsənova tapşırıldı. "Yeni Bakı missiyası"nın – "H.Həsənov qrupu"nun qarşısında güneylilərdə milli özünüdərki gücləndirmək, Arazdan şimalda onların qardaşlarının yaşadıqlarını (özü də onlardan qat-qat yaxşı dolandıqlarını) başa salmaq kimi mühüm vəzifələr qoyulmuşdu. Həmçinin onlara siyasi və dövlət fitnə-fəsadlarına qoşulmamaq, özlərini yaxşı apar-

maq və s. məsləhət bilinmişdi.

"İkinci Bakı missiyası"nın rəhbəri (həm də Təbrizdəki vitse-konsul) H.Həsənovun Güneydəki durumla bağlı Tehrana (yeni sovet səfiri M.Maksimova) və Moskvaya (SSRİ XXİK-i V.Molotova), habelə Bakıya (M.Bağırova) "çox məxfi" qrifi ilə ünvanladığı (VII.1944) geniş məruzələr də bir çox cəhətdən diqqəti çəkir. Onun səfirə və komissara yazmaq istəməyərək yalnız Birinci katibə çatdırmaq istədiyi məqamlar da maraq doğurur:

Cənubdakı real durum – yerlərdə dəhşətli şərait və səfil kökündəki həyat; İran hakimiyyətindən narazılıq və Sovet Azərbaycanına ümid; əhalinin "axı bu millət qırıldı, əldən getdi, gəlin buna sahib olun" çağırışı və s. Başqa bir məqam, yəni kürd tayfa başçılarının dedikləri də məruzəyə daxil edilmişdi: "M.Bağırov müharibədən sonra kürd məsələsini həll edəcəyinə dair bizə söz (?! – İ.M.) verib. Biz ancaq ona ümid bağlayırıq... sizin adamlarınızıq, bizi özünüzdən uzaqlaşdırmayın". Sonda habelə azərbaycanlı əhalinin – ingilislər və İran hökuməti tərəfindən təşkil olunan – kürd basqınlarından əziyyət çəkdiyi vurğulanırdı.

M.Bağırov da İ.Stalinə Güneydə 1944-cü ilin yazı və yayında aparılan işlər barədə 21 səhifəlik məruzəsində (14.IX.1944) oradakı durumun bəzi məsələlərini açıqlayaraq müəyyən təkliflər vermişdi. Güney siyasətini fəallaşdıran Sovetlərin rəhbərliyinin tapşırığı ilə "İran silahlı qüvvələri haqqında" (15.VII.1944), "İran ordusunun generaliteti və zabit korpusu" (20.IX.1944) və s. arayışlar hazırlanmışdı.

1944-cü ilin "beynəlxalq İran siyasəti" həmçinin artıq açıq şəkildə rəqiblərə çevrilməkdə olan müttəfiqlərin "neft naminə savaşı"nın kəskinləşməsi ilə də səciyyələnir. Bəzi elmi baxışlara (C.Həsənli və b.) görə, həmin ilin "ortalarından başlayaraq neft uğrunda mübarizə İrana münasibətdə siyasəti müəyyənləşdirən başlıca amil olmaqda idi".

İran nefti ətrafındakı iqtisadi-diplomatik qarşıdurmada ənənəvi təpəflərin səyləri ilə yanaşı ABŞ-ın fəallaşması da özünü göstərdi. Bunu İran nefti ilə bağlı Vaşinqtonda keçirilən (VII.1944) ingilis-Amerikan konfransı da təsdiqləyir.

Dövrün hadisələrindən və tarixi sənədlərindən də bəlli olduğu kimi "Şimali İran nefti – Güney Azərbaycan məsələsi" ətrafında üçbucaqlı beynəlxalq qarşıdurma yüksələn xətlə gedirdi. "İngiltərənin neft mənbələrini ələ keçirdiyi vaxtlarda dünyanı, ictimai münasibətləri və hüququ öyrənən" (sabiq prezident U.Hardinq) ABŞ-ın fəallaşması SSRİ-ni qayğılandırırdı.

Neftə dair gizli aparılan İran-ABŞ məsləhətləşmələrindən xəbərdar olan Sovetlər də sistemli fəaliyyətə başlamışdılar. Əslində "yeni Bakı missiyası" da elə sovet "neft diplomatiyası"nın üzvi hissəsi idi. Və missiya ilə Güneydə güclənən milli özünüdərk bu niyyətlərdən xəbərsizdi. Çünki gözönündə sürətlə dərinləşən bir ABŞ-İran əməkdaşlığı vardı.

Qərb mətbuatının ("Nyusvik" və s.) analitik yazılarından birində bunlar vurğulanırdı: Britaniya və Rusiyadan fərqli olaraq ABŞ İranın müstəqilliyinin qəti tərəfdarıdır və ona dair Bəyannamə Amerikanın nəzər nöqtəsinin qələbəsidir; bu Bəyannamə rusların Fars körfəzinə çıxmaq təhlükəsini aradan qaldırdı. Tehran mətbuatındakı İran xanımla (neftlə) varlı məşuq (ABŞ) barədə gedən satira-yumorlu yazıların beynəlxalq münasibətlər (diplomatiya) dilindəki izahı ölkələrarası işbirliyindən xəbər verirdi.

Digər bir məqalədə Təbrizdəki son iğtişaşlar, türkçülük və "vahid kürd dövləti" ideyaları da neft məsələsi ilə əlaqələndirilirdi və buna görə də SSRİ, İngiltərə, Türkiyənin Azərbaycan problemində maraqlı olduqları vurğulanırdı. İngiltərənin SSRİ-yə İrandan yük daşımalarını hələ 1942-ci

ildə ABŞ-a verməsi də sonuncunun regiondakı təsirini artırmışdı. Şahın ABŞ-a dəvət alması da (IX.1944 – mühacir atasının vəfatı ilə bağlı mümkün olmadı) İrana verilən Amerika dəyəri və dəstəyi kimi səciyyələndirilə bilər.

Göründüyü kimi, hələlik "müttəfiq-rəqiblər"in Orta Şərq siyasətində neft faktoru geosiyasi amili (Güneyin coğrafi mövqeyi məsələsini) üstələdiyindən əsas diqqət iqtisadi nüfuz qazanılmasına yönəldilmişdi. İngiltərənin regiondakı iqtisadi-maliyyə potensialı, onun yanacaq-enerji qaynaqlarına nəzarət imkanları və ABŞ-ın İrandakı "neft fəallaşması" Sovetləri də "dostları"ndan geri qalmamağa səfərbər edirdi (Sözgəlişi, bu dövrdə İraqda, Səudiyyə Ərəbistanı və Bəhreyndə üst-üstə 5 mln. ton neft çıxarıldığı halda, təkcə İranda bu göstərici (rəqəm) 16 mln. təşkil edirdi). Buna görə də Sovet-İran və İngiltərə-İran neft şirkətlərinin rəqabətini qazanmaq məqsədilə Şahənşahlığa 18-19 faizli üstün mənfəətə dair "sovet vədi" verildi.

Şimal nefti konsessiyası ilə yaxından maraqlanan SSRİ hökuməti vaxtilə "Kevir Xuryan Limited" səhmdar cəmiyyəti ilə bağlı İranla imzaladığı sazişlərin (8.VII.1928; 7.X.1929; 28.VIII.1932) artıq yetərsiz olduğunu və digər məqamları əsas tutaraq yeni danışıqlara girişdi. Tehranda aparılan danışıqlarda (10.IX-25.X.1944) Sovet tərəfi öncə dlipomatik gedişlər etdi:

a) SSRİ-yə silah-sursat, mal və s. daşınmasında İranın rolu yüksək qiymətləndirildi; **b)** məlum üçtərəfli bəyannaməyə əsasən müttəfiq ordularının vaxtında ölkədən çıxarılmasının zəruriliyi vurğulandı və s. Müzakirələr prosesində neft qaynaqları olan ərazilərə geoloji-kəşfiyyat baxışları da keçirildi (Güneydə də bu işlərin aparılması qənaətinə gəlindi). SSRİ rəhbərliyi Şahənşahlığa Azərbaycanda və b. yerlərdə neft konsessiyaları və Sovetlərə Şimali İran neftindən

istifadə hüququnun verilməsinə dair nota (25. IX.1944) göndərdi.

Sovet hökumət (İqtisadi) komissiyası isə İran tərəfinə aşağıdakı layihələri təqdim edərək onların müzakirə olunmasını istədi:

1. "Konsessiya müqaviləsi". 22 maddəlik bu müqaviləyə görə: "Soviranneft" Birliyinə Konsessiya ərazisində neft və digər yanacaq məhsullarının axtarışı, çıxarılması, emalı, nəqli, satışı məsələlərində müstəsna hüquqlar verilməli idi; Konsessiyanın ərazisi, müqavilə iştirakçıları tərəfindən imzalanan, xüsusi xəritə ilə müəyyənləşdirilməliydi; İran müqaviləni birtərəfli qaydada ləğv edə bilməzdi və onun maddələrinin gələcəkdə dəyişdirilməsi mümkün deyildi; yarana biləcək münaqişələr ikitərəfli komissiyada (hərədən iki nəfər olmaqla) həll edilməli idi və bu alınmadıqda isə mövcud fikir ayrılıqlarına dövlətlərarası səviyyədə diplomatik qaydada baxılmalıydı; müqavilə İran Məclisində təsdiqləndikdən və şah tərəfindən imzalandıqdan sonra quvvəyə minə bilərdi.

2. Gizli protokol. O, "Kevir Xuryan Limited" səhmdar cəmiyyəti ilə bağlı imzalanan (az öncə qeyd olunan) dövlətlərarası sazişlərin hüquqi qüvvəsini itirməsini nəzərdə tuturdu. Bununla əslində cəmiyyət ləğv edilmiş olurdu. Protokol konsessiya müqaviləsi qüvvəyə minəndən sonra yetərli ola bilərdi.

3. Niyyət protokolu. Dörd bənddən ibarət olan bu sənədə görə, "Soviranneft" Moskvada yaradılmalı idi. O, 60 il ərzində Şimali İranda neft axtarışı və çıxarılması ilə məşğul olmalıydı.

Təqdim olunan Sovet layihələri (təklifləri) bir xeyli müzakirə edildi. "Neftdən ərazi bütövlüyünün təminatçısı" kimi faydalanmağa çalışan İran hökuməti danışıqları çox

ləngitdi (Sənədlərin diqtəvari ahəngi də bu işdə öz rolunu oynadı). İran rəsmi dairələrinin Sovetlərin Şimal nefti konsessiyalarında iştirakına dair fərqli baxış və mövqeləri mətbuat vasitəsilə ortaya qoyuldu.

Sovetlərin tərəfini tutan siyasi çevrələrin (sabiq Baş nazir Ə.Qəvam) və mətbuatın yanaşması bu tezisdə ifadə olunmuşdu: Beynəlxalq siyasəti nəzərə alaraq İngiltərə ilə yanaşı Quzey qonşuya (SSRİ-yə – İ.M.) və ABŞ-a konsessiyalarda iştirak imkanı verilməlidir.

Əks mövqedə dayanan rəsmilərin (şah ilə hökumət başçısı, azərbaycanlı M.Said Marağayi) və mətbuatın dəlilləri isə aşağıdakı fikirlərdə öz əksini tapmışdı: "...Xarici dövlətə neft konsessiyası verilməsi xəyanətdir"; "... İran nefti İran xalqına məxsusdur"; "konsessiyalar Məclisdə təsdiqlənsə də xalq onları qeyri-qanuni hesab edəcəkdir"; "hökumət müttəfiq qoşunlarının ölkədə olduğu hərbi dövrdə konsessiya bağlamağa hüquqi cəhətdən səlahiyyətli deyildir": "neft konsessiyaları məsələsi hərbi əməliyyatlar sona yetənədək, böyük dövlətlərin siyasəti aydınlaşana qədər təxirə salınmalıdır" və s.

Hökumət komissiyasının başçısı, SSRİ XXİK-in müavini S.Kavtaradzenin "İranın təbii-elmi-fiziki potensialının Sovetlərin texnikası ilə birləşdirilməsinin səmərəli nəticələri", "ölkənin quzeyində sənayeləşmənin özülünün qoyulması" və s. şirnikləşdirici "dəlilləri" də təsirsiz qaldı. İran hökuməti (2.X.1944) və Məclisinin (9.X.1944), habelə bu iki dövlət orqanının birgə (5.X.1944) qapalı iclaslarında müharibənin sonuna qədər Sovetlərə konsessiya verilməməsi qərara alındı.

Şahın da dəstəklədiyi bu mövqe-ikili yanaşmada ingilis siyasətinin təsiri danılmaz idi. İngiltərənin "Sovetlərin məqsədi neft almaq deyil, İranın şimal vilayətlərini ələ keçirməkdir" təbliğatı və Şahənşahlığın qanunverici (112 parlamentaridən 90-nın) və icraedici (kabinənin 11 üzvündən 9-nun) hakimiyyətlərinin Böyük Britaniyanın tərəfini birmənalı tutması belə bir qərarın qəbulunda həlledici rol oynadı.

İran hökumətinin SSRİ-yə neft konsessiyası verilməsindən imtinası onun başçısına baha oturdu. Hələ müzakirələrin getdiyi vaxtda Sovet İqtisadi komissiyasının üzvü – SSRİ Neft Sənayesi komissarının müavini N.Baybakovla (o, əslən bakılı idi, Tehrandan döndükdən az sonra (XI.1944) həmin sahə üzrə komissar təyin olunmuşdu) görüşən Ə.Qəvam Baş nazir olacağı təqdirdə Sovetlərin məlum təkliflərini reallaşdıracağını vəd etmişdi. Ancaq Sovetlərin "sayəsi"ndə M.Said istefaya getsə (9.XI.1944) də Ə.Qəvamın hakimiyyətə yenidən qayıdışı (I.1946) bir müddət uzandı.

Şimal nefti konsessiyası ilə bağlı Sovet-İran diplomatik çəkişmələri prosesində Güney Azərbaycanda da fəallıq hiss olundu. "Yeni Bakı missiyası"nın Mərkəzə və s. məlumatlarından bəlli olduğu kimi, bu dönəmdə Güneydə "SSRİ-yə konsessiya verilsin!" şüarı ilə mitinqlər keçirildi. Bunların bir qisminin məqsədli olaraq təşkil edilməsi ilə yanaşı milli tələblər də irəli sürüldü. "Güneyin ayrılıb Sovetlərin himayəsi ilə müstəqil dövlət olması"nın, "Azərbaycanın Şimalı ilə Cənubunun birləşməsi"nin əhali tərəfindən müdafiə edildiyi bildirildi.

Makudakı sovet vitse-konsulunun SSRİ XXİK-ə məlumatında (21.XI.1944) "quldurluq və soyğunçuluqlarına görə nüfuzdan düşdükləri üçün kürdlərə" münasibətdə dəyişiklik olduğu yazılırdı. Ən başlıcası isə sənəddə "...daha çox mütərəqqi və demokratik qüvvə olub siyasi duruma təsir göstərə, bizim mənafeyimizlə bağlı real dəyişiklik edə bilən Azərbaycan əhalisinə arxalanırıq" fikrinin özünə yer alması idi.

İranın. azərbaycanlı M.Bayatın başçılıq etdiyi, yeni hökumət kabinəsinin də ingilispərəst olması Güney məsələsi və digər problemlər ətrafındakı Sovetlər-Şahənşahlıq ziddiyyətlərini daha da şiddətləndirdi. Hökumət böhranı və kabinə dəyişikliyi ilə nəticələnən Şimal nefti konsessiyası məsələsi hələki həllini tapmamışdı. Əksinə İran Məclisinin neft konsessiyalarına dair danışıqların aparılmasını qadağan edən qanunu (2.XII.1944) vəziyyəti xeyli mürəkkəbləşdirdi.

Layihəsi doktor M.Müsəddiq tərəfindən təklif olunan həmin qanuna görə, heç bir dövlət adamı "rəsmi və qeyri-rəsmi formada, qonşuluqda yerləşən və həmsərhəd olmayan dövlətlərlə, xarici şirkətlərlə neft danışıqları apara bilməzdi" (Əks halda müxtəlif cür cəzalanmalar nəzərdə tutulmuşdu). SSRİ hökuməti (S.Kavtaradze) həmin qanunu "Sovet-İran dostluğunun düşmənləri olan M.Said, S.Ziya (Ağa) kimilərinin təzyiqinin nəticəsi" və "tezliklə düzəldilməsi lazım gələn səhv" adlandırırdı.

Öz növbəsində S.Ziya Əd-din Təbatəbai sovet diplomatının yanaşmasını "böyük siyasi səhv (yanlışlıq) və Məclisi təhqir" kimi dəyərləndirdi. Denikin təhlükəsiylə bağlı İngiltərə ilə bağlanan sazişin (9.VIII.1919) onun sovuşmasıyla ləğv edilməsində (1921), habelə 1920-ci illərin əvvəlində İranın SSRİ ilə qarşılıqlı münasibətlər qurmasında rolunu (xidmətini) xatırladan S.Ziya daha bir vacib məsələyə toxunmuşdu.

Beləki, həmin dövrdə bəzi beynəlxalq siyasi-diplomatik dairələrdə və Sovetlərin informasiya vasitələrində bir fikir dolaşırdı: neft SSRİ üçün bəhanədir, əsas məqsəd ona İranın şimalından gələcəkdə yarana biləcək təhlükəni aradan qaldırmaqdır; buna görə də SSRİ-nin cənub sərhədlərinin təhlükəsizliyini təmin etməkdən ötrü İranın Şimalı (Güney Azərbaycan da daxil) Sovetlər üçün "Qoruq zonası"

sayılır. "İran iki yüz ildir ki, Rusiya üçün heç bir təhlükə təşkil etmir" deyən S.Ziya SSRİ-nin "Qoruq zonası" bəyanatını nasistlərin "Həyati məkan" ("Lebencraum") təlimi ilə eyniləşdirirdi.

O, habelə Sovetlərin İrandakı Tudə partiyası (mətbuatı) vasitəsilə apardığı "antisaid Marağayi" təbliğatını, Moskvanın sabiq Baş nazirə faşist damğası vurmasını pisləyərək onun İran qarşısında xidmətlərini sadalayıb belə bir ifadə işlətmişdi: "Bu adam Azərbaycanın Marağadan çıxmış qeyrətli oğullarındandır". Sovetlərin xarici konsessiyaların, yəni İranın cənubunda ingilislərə verilənlərin ölkədəki mövcud durumla uyğun gəlməməsinə dair "əsasları"nı da rədd etmişdi:

Onun fikrincə həmin konsessiyalar hələ RSFSR-İran müqaviləsi (26.II.1921), İrana dair üçtərəfli Tehran Bəyannaməsi (1.XII.1943) dövründə də mövcud olmuşdu. S.Ziya Məclisin qərarını haqlı sayaraq İranı yeni "Gilan hadisələri (inqilabı)", Azərbaycanda üsyan təbliğatı-təhlükəsi və ölkənin bölünməsi hədəsi ilə qorxutmamağa çağırırdı.

Keçmiş Baş nazirin Qərblə sıx əlaqələri və Sovetlərə neft konsessiyaları verilməsinə qarşı açıq-sərt çıxışları "Pravda" qəzetinin (26.I.1945) "Təxribatçı Seyid Ziya Əd-dinin iç üzü" məqaləsi ilə cavablandırıldı. Məqalədə o, şeytan və fitnəkar adlandırılır, 1921-ci il çevrilişinin ilhamçısı (onu elə Rusiya təşkil etmişdi-İ.M.) və milli-azadlıq hərəkatının boğulmasının təşkilatçısı kimi səciyyələndirilirdi: "S.Ziya Əd-dinin fəaliyyəti İran tarixinin qara səhifəsini təşkil edir".

Sovet mətbuatına qarşı savaş açan "S.Ziyanın qəzetləri" isə F.Ruzverltin S.Marağayinin SSRİ-yə qarşı siyasətini dəstəkləməsinə dair məktubundan bəhs edirdilər. Həmçinin neft konsessiyası çəkişmələrinin Müttəfiqlərin birliyini dağıdacağına və Qərb dövlətlərinin SSRİ əleyhinə blok quracaq-

larına dair fikirlər yayırdılar.

"Pravda" isə "Ağa"nı Müttəfiqlərin arasını vurmaqda ittiham edirdi. Onun İran paytaxtının Sovetlərdən uzaq bir yerə köçürülməsi təklifi də SSRİ rəhbərliyini hiddətləndirmişdi. Bəzi tarixi sənədlərin də təsdiqlədiyi kimi, Sovetlər "İranı cəzalandırmaq" məqsədilə Güneydə prosesləri sürətləndirmək qənaətinə gəlmişdilər.

H.Həsənovun Təbrizdən M.Bağırova yolladığı "Güney Azərbaycan haqqında" arayışda (13.II.1945) Sovetlərin siyasətinin aydınlaşdırılması istənilmişdi. Arayışda həm də Güneyin azad olması məsələsinin qaldırılması və bunun "yeni Bakı missiyası" tərəfindən edilməsi məsləhət bilinmişdi: "İranda Azərbaycan xalqının azad edilməsi Hitler Almaniyasının qəti olaraq darmadağın edilməsi ilə bir vaxta düşməlidir".

Görünür buna ingilislərin tezliklə (V.1945) Güneydə çevriliş olacağına dair "proqnoz-məlumatları" da təsir göstərmişdi. İngilislər Güney Azərbaycan "İrandan qoparılacaq və orada müstəqil respublika qurulacaq" təbliğatını aparırdılar. "Yeni Bakı missiyası"nın rəhbəri yazırdı: "Azərbaycanın azadlığı və orada tam demokratik dövlətin qurulması. yaxud onun Sovet Azərbaycanına birləşməsi xalq üsyanı vasitəsilə həyata keçirilməlidir ki, Müttəfiqlər baş vermiş fakt qarşısında qalsınlar". Onun Tehranda M.Maksimovla görüşündə (XII.1944) səfirin Güneydə "burjua demokratik (?! – İ.M.) cəmiyyəti qurulması barədə Moskvadan göstəriş verilməsi"nə işarə vurduğu da söylənilir.

Avropada müharibənin qurtarması Güney Azərbaycanda və onun ətrafında cərəyan edən siyasi proseslərdə də fərqli şərait yaratdı. Güney məsələsinə dair qarşıdurmanın tərəflərinin plan və hərəkətlərində yeni məqamlar ortaya çıxdı:

1-cisi, faşist Almaniyası üzərindəki qələbədə başlıca qüvvə sayılan **SSRİ** tarixi zəfərin açdığı imkanlardan yararlanmaq fürsətini əldən buraxmaq istəmədi. Avropadakı hərbi uğur və üstünlüklərini Asiyaya adladaraq Yaxın və Orta Şərqə ekspansiya planlarını cızdı. Qarşıya qoyulan strateji vəzifələrin həyata keçirilməsinin başlıca yollarından biri də Güney Azərbaycanda möhkəmlənməkdən keçirdi.

2-cisi, böyük müharibənin əsasən başa çatmasından ümidlənən **İran** xarici qoşunların ölkədən çıxarılmasını hədəfə aldı. Bu məqsədlə də İranda sözsahibi sayılan dövlətlər arasında və artıq Şərq (Sovetlər) – Qərb (İngiltərə, ABŞ) qarşıdurması müstəvisində siyasi planlar qurmağa başladı. Və, təbii olaraq, başlıca diplomatik oyunlar da Güney məsələsi ətrafında cəmləşdirildi.

3-cüsü, Sovetlərin mövcud hərtərəfli üstünlüklərinin yaratdığı beynəlxalq durumla razılaşmağa məcbur olan **İngiltərə və ABŞ** Orta Şərqdəki mövqe – perspektivlərini diqqətdən keçirdilər. Regionda ənənəvi qaydada qalmağa çalışan İngiltərə, habelə İrana və onun çevrəsinə əsaslı şəkildə gəlməyə yollar arayan ABŞ Güneydəki çeşidli maraqlarını sovet təhlükəsi kontekstində nəzərə aldılar. Onlar bu kimi amillərin diqtəsi ilə İranı hərtərəfli dəstəkləmək məcburiyyətində qaldılar.

Şahənşahlığın diplomatiyası da regiondakı Sovet-Qərb qarşıdurmasından öz mənafeləri baxımından faydalanmağa, öncə də Güney məsələsini birdəfəlik həll edərək ərazi bütövlüyünün saxlanmasına çalışdı. Bunun üçün də əvvəlcə xarici qoşunların ölkədən getməsi lazım gəlirdi.

S.Ziya bildirirdi ki, "qələbə ilə əlaqədar Müttəfiq orduları təcili olaraq İranı tərk etməlidirlər və onun azadlığı, müstəqilliyi təmin olunmalıdır". İranın yeni (13.V.1945) – İ.Həkimi hökuməti xarici orduların ölkədən getmələri ilə

bağlı "Böyük üçlük" dövlətlərinin (SSRİ-ABŞ-İngiltərə) Tehrandakı diplomatik nümayəndələrinə notalar verdi.

SSRİ-yə verilən notada (19.V.1945) Almaniya üzərindəki qələbədən məmnunluqla yanaşı aşağıdakılar vurğulanırdı: **a)** Avropada müharibənin rəsmən bitməsi ilə İranda mövcud durumun – sovet qoşunlarının saxlanmasına əsla ehtiyac qalmaması; **b)** üçtərəfli ittifaq müqaviləsinə (29.I.1942) əsasən Qızıl ordu hissələrinin İrandan çıxarılması (Digər notalar da təxminən bu məzmunda idi).

Sovet rəhbərliyi notaya əməli reaksiya vermədi. Əslində Sovetlər bu dövrdə nəinki təkcə İranda (Güney Azərbaycanda) möhkəmlənməyə, həmçinin Yaxın-Orta Şərqə və isti sulara çıxmaq yolunda Rusiyanın tarixi əngəli sayılan Türkiyəni də hədəfə almağa çalışırdı. Bu yöndə vaxtaşırı istifadə olunan "erməni məsələsi" yenidən müxtəlif səpkilərdə gündəmə gətirilirdi (Buna dördüncü bölümdə geniş yer ayrılır və ətraflı toxunulur). SSRİ rəhbərliyi Sovet Azərbaycanı vasitəsilə Güneydə möhkəmlənmək istiqamətində tədbirlər gördü. Belə tədbirlər sırasında Qafqaz müsəlmanları Ruhani İdarəsinin ilk sədri, Şeyxülislam A.Əlizadənin Güneyə və Tehrana səfəri təşkil edildi.

"Şeyxin missiyası" İranda (Güneydə) birmənalı qəbul olunmadı. S.Ziyanın adamları onu İ.Stalinin göndərdiyi təbliğatçı, digərləri isə din xadimi libasına bürünmüş agent, DTK-nın polkovniki, yaxud generalı sayırdılar. Ölkədə yayılan xəbərlərə görə, bu missiya İranda ictimai quruluşu dəyişdirməyə çalışan bolşeviklərin planlarında bir vasitə idi (Sözgəlişi, Xalq partiyasının Sovetlər tərəfindən bu vaxtlarda hərtərəfli dəstəklənməsi də SSRİ-nin İranda (Güneydə) çevriliş hazırlamasına dair xəbərlərin yayılmasına əsas verirdi).

Digər tərəfdən də, Şeyxin İrandakı çoxsaylı görüş, söhbət və çıxışları onun barəsində "əsl böyük mücahid", "həqiqi din, böyük elm xadimi" və s. fikirlərin də formalaşması – yayılmasına təsir göstərdi. Əslində "Şeyxin missiyası"nın alt qatında siyasi məqsədlər güdülürdü. Güneydə "böyük işlər"ə hazırlaşan Sovetlər həmin missiya ilə Şimali Azərbaycanda müsəlmançılığın, din adamlarının olması görüntüsünü yaratmağa çalışırdı.

SSRİ rəhbərliyinin Güney Azərbaycana dair planlarını – orada möhkəmlənmək xəttini onun bir sıra məxfi qərarlarından da görmək mümkündür:

- XKS-nin "İranın şimalında sovet sənaye müəssisələrinin təşkili haqqında" (10.VI.1945);
- DMK-nın "İranın quzeyində neftlə əlaqədar geoloji-kəşfiyyat işləri" haqqında" (21.VI.1945);
- ÜK(b)P MK Siyasi Bürosunun "Güney Azərbaycanda və İranın şimalının digər vilayətlərində separatçı hərəkatın təşkili üzrə tədbirlər barədə (6.VII.1945);
- ÜK(b)P MK və XKS-nin "Güney Azərbaycanda hərbi cəhətdən möhkəmlənmək haqqında (8.X.1945).

Həmin qərarların təhlilinə əsasən aparılan bəzi ümumiləşdirmələr aşağıdakı qənaətləri söyləməyə imkan verir: Güneyin tezliklə Azərbaycan SSR-ə birləşdirilməsi niyyəti; Cənubda neftli sahələrin tapılması ümidi – neft naminə davanın Sovetlərin Güney siyasətini qətiləşdirməsi; öncə İranın tərkibində Cənubi Azərbaycanın geniş milli muxtariyyətinə hazırlığın önəmi; İranın kürd əhalisi arasında da bölücü hərəkatın aparılması zərurəti və s.

Qərarlar həm də Güneydə separatçılardan və sovet tərəfdarlarından ibarət hərbi özünümüdafiə dəstələrinin yaradılmasını, Azərbaycan Demokrat partiyasının (ADP-nin) təşkilini, Azərbaycan SSR-in İranla Mədəni Əlaqə və Təbrizdə "Sovet Azərbaycanının Dostları" cəmiyyətlərinin qu-

rulmasını nəzərdə tuturdu. Bu işlərin görülməsinin maliyyələşdirilməsi üçün AK(b)P MK nəzdində 1 mln. manat hesaba malik xüsusi fondun yaradılması və İran Məclisinə seçkilərdə uğur qazanılması da əsas fəaliyyət sahələri olaraq seçilmişdi.

İranın şimalında (Güney də daxil) separatçı hərəkatın təşkilinə dair 6 iyul qərarının gerçəkləşdirilməsinə yönəlik diplomatik iş-ideoloji hazırlıq gücləndirildi. Bu prosesə "Pravda"nın (9.VII.1945) "İranda mürtəce ünsürlərin fəaliyyətinin qüvvətlənməsi" başlıqlı geniş yazısı ilə təkan verildi. İran XİN-in Sovet qoşunlarının ölkədən çıxarılmasına dair notasına (19.V.1945; №1117) SSRİ-nin ilk rəsmi cavabı kimi də dəyərləndirilən bu yazı rəsmi Tehranı əsaslı şəkildə qayğılandırdı. Şahənşahlıq hökuməti Güneydə laxlamış mövqelərini qüvvətləndirməyə başladı.

Əks istiqamətdə AK(b)P-nin rəhbərliyi Mərkəzin göstərişi və tövsiyələri əsasında "qayət məxfi" qrifi ilə hazırlanmış – az öncə sadalanan və digər tədbirləri əhatə edən – xüsusi proqramın həyata keçirilməsinə başladı. Güneydəki hərəkata rəhbərlik və bu işi aparacaq ADP-yə başçılıq məsələsi Mərkəzlə razılaşdırıldı. S.Pişəvərinin namizədliyinə üstünlük verildi. Və bu zaman onun güneyli, sabiq kommunist, Şahənşahlığın onillik məhbusu olması, qardaşlarının SSRİ-də yaşamaları, onlardan birinin Qızıl orduda qulluq etməsi və s. amillər də nəzərə alındı.

Sovetlərin Güneyə aid hazırlıqlarından xəbərdar olan və xeyli qayğılanan İngiltərə ilə ABŞ diplomatik səylərini artırdılar. Onların analitik mərkəzləri, kəşfiyyat və siyasi dairələri həmin hazırlıqların hətta Güney Azərbaycanda müstəqil dövlətin qurulması, yaxud da onun SSRİ-yə qatılması və Sovet Azərbaycanına birləşdirilməsinə dair mülahizələr söyləyirdilər. Qərb diplomatiyası vəziyyətdən çıxış yo-

luna aid ilk addımlardan birini sovet qoşunlarının İrandan çıxarılmasına çalışmaqda görürdü. Və bu niyyətlə də beynəlxalq məclisləri Sovetlərə təzyiq vasitəsinə (meydanına) çevirməyə cəhdlər göstərirdi.

İlkin belə səylərdən biri Potsdam konfransında (17.VII.-2. VIII.1945) edildi. Belə ki, İngiltərə təmsilçiləri toplantıya Memorandum verdilər. Memorandumda bunlar vurğulandı: SSRİ-Böyük Britaiya-İran müqaviləsinə (29.I.1942) əsasən Şahənşahlıqda saxlanılan ingilis-sovet qoşunları həmin sazişin 5-ci bəndinə müvafiq olaraq oradan çıxarılmalıdırlar (Bu maddəyə görə, müttəfiq qoşunları Almaniya və onun əlaltıları ilə müharibə bitdikdən sonra – altı aydın gec olmamaq şərtilə İrandan getməli idilər); qoşunlara ayrılan vaxt bitmədən də üç mərhələ ilə (öncə Tehrandan və digər yerlərdən, lap axırda isə bütövlükdə ölkədən) çıxarılması mümkündür.

İngilislərin təşəbbüsü ilə konfransın gündəliyinə (23.VII.1945) daxil edilən bu məsələnin müzakirəsi fərqli yanaşmaları üzə çıxardı: **a) H.Trumen** "ABŞ qoşunlarını İrandan çıxarmağa hazırdır" dedi; **b) İ.Stalin** "hər halda Tehranı azad etmək olar" söylədi; **c) U.Çörçill** "ordunun təcili Tehrandan getməsi və qoşunların çıxarılmalarının sonrakı mərhələlərinin isə sentyabrda XİN-lərin Şurasında müzakirə olunmasını" təklif etdi.

Konfrans ingilis və sovet mövqelərini uzlaşdıran bir nəticəyə gəldi-təxminən İngiltərə Baş nazirinin təklifini təkrarlayan qərarla razılaşdı. Müzakirələrə tezliklə (11.IX.1945), yəni Müttəfiqlərin XİN-ləri Şurasının London sessiyasında başlanılması ehtimalı Sovetlərin "hər saatın qiymətli olması" (M.Bağırov) prinsipi ilə işləməsini şərtləndirdi.

Güneydəki vəziyyət və Cənubi Azərbaycan məsələsinin ətrafındakı yeni durum sovet diplomatiyasını da fəallaşdırmışdı. Onların İrandakı (Güneydəki) son vəziyyətin təhlilinə

dair Bakıya və Mərkəzə yolladıqları məlumatlarda olduqca maraqlı məqamlar açıqlanırdı. Məsələn, Tehrandakı sovet səfirliyinin müşaviri Ə.Yaqubovun M.Bağırova və SSRİ XXİK-ə ünvanladığı diplomatik sənəd hərəkatın gələcəyi ilə bağlı Güneydəki fərqli mövqeləri aşkarlayırdı:

1-cisi, onun dərinləşməsindən ehtiyatlananlar.

2-cisi, Cənubun Sovet Azərbaycanına birləşdirilməsindən çəkinənlər.

3-cüsü, Azərbaycanı İranın əsarətindən qurtarmağı düşünənlər.

Bu cür çoxçalarlılıq, təbii olaraq, İngiltərə ilə ABŞ-ın xeyrinə işləyirdi və Sovetlərin işini yetərincə çətinləşdirirdi. Tələsən Sovetlərin ordu hissələrinin Güneydəki proseslərə açıq müdaxiləsi və məsələləri nəzarətə götürmək səyləri, bir yandan, ümumi vəziyyəti qəlizləşdirir, digər tərəfdən də, "yeni Bakı missiyası"nın fəaliyyətini əngəlləyirdi. Bu və digər halların mövcudluğunu Azərbaycan SSR DTK sədri S.Yemelyanovun "İran Azərbaycanı üzrə tədbirlərin həyata keçirilməsinin gedişi barədə" məruzəsi də təsdiqləyirdi.

1945-ci ilin payızına doğru Güney Azərbaycanda hərəkatın milli səciyyə daşıyaraq genişlənməsi və yüksəlməsi gözönündə idi. Güneyin çeşidli zümrələrindən olan hərəkatçıların Müraciətində deyilirdi ki, tarixdə azadlığın bayraqdarı kimi tanınan Azərbaycan artıq Tehranın mürtəce hökumətinin zülmü altında tapdalana bilməz; o hər cəhətdən azad və abad olmalıdır.

Hərəkatın bu mərhələsində tarixi (müqəddəs) bir vəzifənin – Güney türklərinin milli müxtariyyətinin yaradılmasının – reallaşdırılmasına çalışan "yeni ADP"-nin formalaşdırılması Təbriz, Bakı və Moskvadakı müxtəlif yönlü müzakirələrdən sonra başa çatdırıldı. Qərb diplomatları və hərbi kəşfiyyatlarının sezdikləri kimi, həmin vaxtlarda Güneyin

Azərbaycan SSR vasitəsilə silahlandırılması da təşkil olundu. Məhz bu çağlardan etibarən Güneydəki hərəkatın və onun ətrafında cərəyan edən proseslərin yönləndirilməsinə rəhbərliyi müxtəlif səviyyələrdə aşağıdakılar həyata keçirirdilər:

a) Kreml dördlüyü (İ.Stalin, V.Molotov, L.Beriya, G.Malenkov);

b) Təbrizdəki "Bakı üçlüyü" (M.İbrahimov, H.Həsənov, A.Atakişiyev);

c) "Təbriz üçlüyü (S.Pişəvəri, M.Şəbüstəri, S.Padəqan).

"Üçlüklər"in birgə müşavirələrində İrandakı və Güneydəki durum, hərəkatın perspektivləri, məsələdə maraqlı olan Qərb dövlətlərinin planları və s. vaxtaşırı müzakirə edilirdi. İran hakimiyyət orqanlarının Güneydə törətdikləri vəhşiliklər barədə Təbrizdəki diplomatik qurumlara məlumatlar verilirdi.

İngiltərə və ABŞ-ın himayəsinə sığınmaq meylini getdikcə artıran İran rəhbərliyi Güneydəki prosesləri nəzarətdə saxlamağa yönəlik tədbirlər görürdü. Parlamenti Azərbaycanda öz hüquqları uğrunda mübarizəyə qalxan "əllər və dillər kəsilsin gərək" çağırışları bürümüşdü. Hökumətsə rəsmi mövqeyini belə ifadə etmişdi: "Azərbaycan qanqrena xəstəliyinə tutulmuşdur, onu kəsib atmaq lazımdır".

Məclisin toplantılarında, hökumətin fövqəladə iclasında (16.XI.1945) və Sovet səfirliyindəki müzakirələrdə İran tərəfi bu məsələləri vurğuladı: Azərbaycanda "şübhəli silahlı şəxslər"in törətdikləri hadisələrdən dolayı rahatsızlıq; Sovet ordusunun İranın şimalında gücləndirilməsinin səbəbləri; onun ölkədən çıxarılması vaxtının yetişməsi və s. Səfiri əvəz edən Ə.Yaqubov Baş nazir Hakimi ilə görüşdə (18.XI.1945) ümumiyyətlə Qızıl orduda tərxisə başlanıldığını deyərək qoşunların İrandan çıxarılması məsələsinin yalnız SSRİ rəh-

bərliyi səviyyəsində həll oluna biləcəyini bəyan etdi.

İranın Güney Azərbaycana qoşun yeritmək cəhdi orduların üz-üzə dayanmasına səbəb oldu. Bu dövrdə Britaniya İranda hərbi fəallığını artırdı. Güneyə (Qəzvinə) ingilis hərbi missiyası gəldi. İngilis səfiri R.Bulard Baş nazirlə görüşündə Cənubi Azərbaycan əhalisini müxtariyyət ideyası və xəttindən çəkindirmək məqsədilə kəskin tədbirlər görülməsini məsləhət bildi.

İngilis hərbi-diplomatik dəstəyini görən İran XİN-i Tehrandakı böyük elçiliyinə notasında (17.XI.1945) dolayısı yolla SSRİ-ni onun daxili işlərinə həddsiz müdaxilədə, kürd separatçılarını himayə etməkdə və s. suçladı. Bunların məlum üçtərəfli ittifaq müqaviləsiylə uyğunlaşmadığı bildirildi.

Sovetlərin bilavasitə V.Molotovla razılaşdırılan cavab notasında "İranın şimala ordu göndərmək istəyinin (cəhdinin) orada iğtişaşlara və hətta qan tökulməsinə səbəb ola, bununsa hər iki tərəf üçün xoşagəlməz nəticələr verə biləcəyi" yazılırdı. Habelə İranın bu hərəkətinin Sovetlərin oraya əlavə qoşun yeritməsini şərtləndirməsi vurğulanırdı.

Həm də İranın notasında söylənilən iradlar rədd edilirdi. Şimal qonşusunun ("müttəfiqi"nin) sərt mövqeyi ilə qarşılaşan İran hökuməti hələlik "sakitləşməli" oldu (Hirsini Tehranda bir küçəyə verilən Xaqani adını E.Braunla əvəzləməklə soyutdu).

Bu dövrdə Güneydəki duruma gəldikdə isə "Bəşər" və digər qəzetlərin də yazdığı kimi, "Azərbaycan təlatümdə idi və inqilaba hazırdı". Seyid Cəfər Cavadzadə – Pişəvəri həmin vaxtlarda deyirdi ki, "Tehranın qüdrətini məhəlli və milli ixtiyarlar vasitəsilə sındırmaq lazımdır. Bu işdə Azərbaycan həmişəki kimi indi də qabaqcıl olmalıdır. Tehrandan azadlıq ummaq böyük səhvdir".

Güneydəki dinc siyasi mübarizənin gedişində Azər-

baycan Xalq Konqresi (AXK, 20-21.XI.1945) toplandı. Böyük Xalq Konqresi bir sıra vacib orqanları formalaşdırdı və gələcək fəaliyyətin başlıca istiqamətlərini, prinsiplərini müəyyənləşdirən sənədlər qəbul etdi. Yeddi bənddən ibarət Bəyannamədə elan olunan əsas müddəalar bunlardı:

a) Azərbaycan xalqının Atlantika xartiyasının prinsiplərinə dayanaraq, İranın ərazi bütövlüyü və müstəqilliyini pozmadan, öz taleyini həll etmək hüququ vardır;

b) indiki İran dövləti azərbaycanlılar tərəfindən yaradılıbdır və Xalq Konqresi Milli Muxtariyyətə olan qanuni haqqını gerçəkləşdirərkən bölücülüyə və İranın ərazi bütövlüyünün pozulmasına əsla can atmayacaqdır;

c) Azərbaycan xalqı öz Milli Məclisini seçməlidir, türk dilinin işlənməsi təmin olunmalıdır və s.

Əslində İran rəhbərliyinə Azərbaycan xalqının tələblərini ifadə edən bu Bəyannamənin Tehran mətbuatında çap olunması və b. məsələlər M.Bağırov vasitəsilə hətta İ.Stalinin özü ilə razılaşdırılmışdı. Ümumiyyətlə, Güneydə həyata keçirilənlər SSRİ rəhbərliyinin nəzarətində idi və başlıca məsələlər Moskvadan yönləndirilirdi. Həmçinin bu vaxtlarda da milli hərəkata və artıq bilavasitə S.Pişəvərinin özünə münasibətdə tərəddüdlər, ikili yanaşma vardı.

Sovetlər S.Pişəvəri üzərində nəzarət "problemi" ilə üzləşmişdilər. Onun bəzi məsələlərə fərqli münasibət bildirməsi və israrlı mövqe tutması Mərkəzi qane etmirdi. Güneyin lideri Azərbaycanın İran daxilində muxtariyyət almasını siyasi cəhətdən perspektivsiz sayırdı.

Habelə SSRİ-nin himayəsi altında Monqolustan nümunəsində Azərbaycan Xalq Demokratik Respublikası yaradılması və sonrakı mərhələdə isə Azərbaycanın tədricən birləşdirilməsini nəzərdə tuturdu (Onu nəzarətdə – asılılıqda saxlamaq məqsədilə oğlunun Bakıda "təhsil alması məsləhət

görüldü"). Sovetlərin rəhbərliyi hətta Güney Azərbaycan Milli Məclisinə seçkilərin təxirə salınmasını istədi. M.Bağırov isə onun keçirilməsini, ancaq Güney parlamentinin açılışının ləngidilməsini lazım bildi.

Seçkilər İrandakı ingilis-amerikan diplomatlarının müxtəlif forma və məzmunlu etirazları (əslində müqaviməti) şəraitində keçdi. Bunu Güneydəki Sovet-Qərb qarşıdurmasının ilkin mərhələsinin son akkordları da saymaq olar. Təbrizdəki Böyük Britaniya (Uoll) və ABŞ (Ebelinq) konsulları İran rəsmiləri ilə çeşidli təmaslar quraraq "proseslərin arzuolunmaz nəticələri"ni önləməyə çalışırdılar. Ebelinq AXK-nin Bəyannaməsindəki tələblərin İran konstitusiyası ilə uzlaşmadığını bildirirdi (Yeri gəlmişkən, Təbrizdəki İraq konsulu baş verənlərə görə SSRİ-ni yamanlayır və U.Çörçili almanlara Rusiyanı darmadağın etməyə imkan verməməkdə suçlayır, ingilislər daxil olmaqla hamının rus təcavüzü haqqında düşünməsini lazım bilirdi).

Sovet tərəfi (M.Bağırov) ingilis-amerikan fəallaşması və işbirliyini İranın Güneyin muxtariyyətinə və SSRİ-yə qarşı təxribat hazırlaması ilə də izah edirdi. İran diplomatiyası dövrün reallıqlarını nəzərə alaraq SSRİ ilə münasibətlərdə "körpüləri yandırmamaq" xəttinə üstünlük verirdi. Habelə siyasi və rəsmi dairələrdə bu cəhətlərin mütləq nəzərə alınması istənilirdi:

Azərbaycan məsələsi SSRİ-İran əlaqələri ilə sıx bağlıdır; Fransa (Ş. de Qoll), Çexoslovakiya (Beneş) və digərləri öz problemlərini Moskvada həll edirlər; San-Fransisko və sonrakı beynəlxalq diplomatik məclislər SSRİ-nin yeni dünya düzənindəki həlledici rolunu təsdiqləmişlər; parlamentin qapalı iclasında Sovetlərlə münasibətlər hərtərəfli müzakirə edilməli və Baş nazirin Moskvaya missiyası təşkil olunmalıdır.

Digər tərəfdən də İran, ABŞ və İngiltərə vasitəsilə SSRİ-yə təzyiq göstərilməsiylə bəzi məsələləri yoluna qoymağa çalışırdı. Hələlik əsas problem Qəzvin yaxınlığında dayandırılan İran ordusunun Təbrizə (Güneyə) buraxılmasına nail olunması idi.

Bu və digər məsələlər İran Xarici İşlər nazirliyinin Tehrandakı Sovet səfirliyi, onun ABŞ (H.Əla), SSRİ (Ahi) və İngiltərədəki (H.Tağızadə) böyük elçilərinin həmin dövlətlərin XİN-ləri (C.Birns, V.Molotov, E.Bevin) ilə məsləhətləşmələrində başlıca yeri tutdu. Əsasən eyni gündə (20.XI.1945) keçirilən həmin müzakirələrdə və əlaqəli dövlətlərin müxtəlif toplantılarında, habelə mətbuat konfranslarında səslənən mülahizələrlə gəlinən qənaətlər də diqqətçəkicidir:

H.Əla – Güney hadisələri xarici qoşunların İranda mövcudluğundan qaynaqlanır, Qafqazla sərhədlərin açıqlığı hüdudlara nəzarəti mümkünsüz edir, rəsmi Moskva proseslərin bitməsi arzusunda olacaqdır, ABŞ SSRİ-yə təsir göstərəcəkdir, İran məsələsi beynəlxalq öhdəliklərin yerinə yetirilməsinin məhək daşıdır;

H.Tağızadə – Biz ölkəmizdə ordumuzun sərbəst hərəkətetmə imkanından məhrumuq;

V.Molotov – Sovetlər İranın suverenliyi və müstəqilliyinə hörmətlə yanaşacaqdır;

E.Bevin – İngiltərə öz qoşunlarını tədricən çıxaracağını artıq bildirmişdir, İran hökuməti ölkənin şimalındakı muxtariyyət hərəkatını orada Sovet ordusunun olması üzündən yatıra bilmir və s.

İran rəhbərliyi Güneyə yönəlik təzyiqləri qüvvətləndirmək və ona qarşı "mətbuat savaşı" açmaqla yanaşı Sovetlərlə və "siyasi Təbriz"lə danışıqlara da getdi. Baş nazirin səfir əvəzi Ə.Yaqubovla görüşündə (27.XI.1945) azərbaycan-

lı Həkimülmülkün "İran qoşunlarının Şimala buraxılacağı təqdirdə onun siyasəti tamamilə SSRİ-nin mənafeyinə tabe ediləcəkdir" vədi təsirsiz oldu. Güneyin yeni valisi (keçmiş Baş nazir), azərbaycanlı M.Bayatın Təbrizdə ADP rəhbərləri və oradakı sovet konsulu Krasnı ilə müzakirələri (3.XII.1945) də nəticəsiz qaldı.

Güneyli demokratlarla danışıqların birici dövrəsində (28.XI.-3.XII.1945) S.Pişəvərinin "muxtariyyət məsələsinin dinc yolla həlli" istəyi M.Bayatın "Azərbaycanın SSRİ-yə birləşdirilməsini istəyirsiniz" atmacası ilə cavablandırıldı (Valinin bu iddiası – "zarafat"ı təkzib olundu). Təbriz ətrafında hökumət qoşunları ilə demokratik fədai dəstələri arasındakı qanlı toqquşmalar şəraitində Güney Azərbaycan Milli Məclisinə seçkilər (27.XI – 1.XII.1945) keçirildi.

İlk dəfə olaraq qadınların da iştirak etdikləri bu seçkilər muxtariyyətçi-hərəkatçı qüvvələrin qələbəsiylə nəticələndi. Gündəliyi "Kreml dördlüyü ilə razılaşdırılan Milli Məclisin açılışı ərəfəsində də Tehranda və Təbrizdə gərgin diplomatik mübahisələr getdi.

Güneydə 1945-ci ilin payızından etibarən yaranan ikihakimiyyətliliyin artıq Sovetlərin (milli demokratların) xeyrinə başa çatmaqda olması ABŞ-ı qayğılandırdı. İranın Güney məsələsini hərbi yolla həll etməkdən hələlik çəkinib onu diplomatik müstəviyə keçirməsi, bu niyyətlə də Azərbaycana yeridilən ordusunu geri qaytarması da buna ciddi təsir göstərdi. Bu rahatsızlıq ABŞ-ın Tehrandakı səfiri U.Mörreyin Dövlət katibinə ünvanladığı (8.XII.1945) məxfi məlumatda da vurğulanmışdı.

Hətta səfirliyin mətbuat katibi K.Yanq Təbrizə xüsusi səfər edərək S.Pişəvəri ilə də müzakirələr aparmışdı (9-12.XII.1945). İranın ABŞ-dakı səfiri H.Əla isə Dövlət katibi C.Birnslə görüşündə (10.XII.1945) Moskva danışıqlarında

qoşunların çıxarılması və İrana öz daxilində mütləq idarəetmə sərbəstliyinin verilməsi məsələsinin müzakirəsinə təsir göstərməyi xahiş etmişdi.

Yeri gəlmişkən, ABŞ az öncə (29.XI.1945) SSRİ-yə verdiyi notasında "bütün müttəfiq qoşunların yanvarın 1-inə qədər İrandan çıxarılmasını" təklif etmişdi. Sovetlərin bəyanatında (29.XI.1945) və cavab notasında (8.XII.1945) Qızıl ordunun İrandan çıxarılmasına dair mücərrəd fikirlər söylənildi. Belə ki, bəyanat qoşunların Yaponiyanın təslim olmasından ən geci 6 ay sonra çıxarılmasını nəzərdə tuturdu.

Qoşunların vaxtından əvvəl çıxarılmasına ciddi səbəbin olmadığı vurğulanan notada isə yazılırdı ki, Güney əhalisinin demokratik hüquqlarının qorunması, onların İran daxilində idarəetmə və dil məsələlərində muxtariyyət almaları Azərbaycan xalqının milli iradəsi hesab olunmalıdır. Tehrana gəlmiş ingilis mətbuat işçilərinin Baş nazir ilə görüşündə (10.XII.1945) Həkimi Sovetlərlə əsl dostluq münasibətlərinin qurulmasını və habelə üçtərəfli ittifaq müqaviləsinə, Tehran Bəyannaməsinə əməl olunmasını istəmişdi.

"21 Azər inqilabı" ərəfəsinin müzakirələri sırasında ən maraqlı anlar M.Bayat-S.Pişəvəri danışıqlarının ikinci dövrəsində (8-13.XII.1945)yaşandı. M.Bayat ADP-nin (Sovetlərin) Azərbaycan muxtariyyətinə dair təsəvvürlərini (planlarını) öyrənməyə və bu tələbin İrandan istənilənlər sırasına daxil edilməməsinə çalışmışdı. Bu cəhdini isə həmin şərtin İran konstitusiyası ilə uyğunlaşmamasıyla əlaqələndirmişdi.

S.Pişəvəri isə İran konstitusiyasına vaxtaşırı edilən dəyişiklikləri və öncəliklə də Rza şahın Qacarlar sülaləsinin Pəhləvilərlə əvəzlənməsinə aid "düzəliş"ini xatırlatmışdı. Habelə Azərbaycan muxtariyyətini ABŞ və İsveçrənin ştatları statusu – hüququnda təsəvvür etdiklərini açıqlamışdı.

Artıq bütün Güneyə tam nəzarət edən muxtariyyətçi

demokratlar (Sovetlər) Cənubi Azərbaycan Milli Məclisinin açılmasına (12.XII.1945 – 21 Azər 1324) nail oldular. Orada Baş naziri S.Pişəvəri olan Milli hökumət quruldu. Hökumətin tərkibində XİN yaradılması təklifi qəbul olunmadı. S.Pişəvəri bunu muxtariyyətini qazanan Azərbaycanın hələki İranın tərkibində qalması ilə əlaqələndirdi. "21 Azər inqilabı"nın qələbəsi ilə:

a) Güneydəki Sovet-Qərb qarşıdurmasının birinci mərhələsi sona çatdı;

b) onun ikinci və daha gərgin mərhələsi – Azərbaycanın cənubu ilə şimalının və habelə İranın tarixində yeni bir dövr başladı.

Azərbaycan məsələsi beynəlxalq münasibətlərdə mühüm yer tutdu. Həmçinin BMT-nin ilk mübahisəli problemi – Azərbaycan məsələsi açıq şəkildə ortaya çıxdı. Güney Azərbaycan həm də "Soyuq müharibə"nin əsas meydanlarından birinə çevrildi.

§4. Beynəlxalq münasibətlərdə Azərbaycan məsələsi

"21 Azər hadisələri" Güneydə (İranda) yeni siyasi şərait yaratdı və beynəlxalq aləmdə geniş, çeşidli əks-sədalar doğurdu. Bu proseslərin şərhi zamanı aşağıdakı yönlərdə müəyyən təhlillərin aparılmasına ehtiyac duyulur:

Birincisi, Cənubi Azərbaycan məsələsinin ilkin nəticələrindən xeyli rahatsızlanan **İran** rəhbərliyini Güneyin Şimalla birləşməsi, yəni SSRİ-yə qatılması təhlükəsi (ehtimalı) daha da qayğılandırırdı. Həmin hisslər İran Məclisinin "21 Azər"dən sonrakı ilk günlərdə (14, 18.XII.1945 və s.) keçirilən toplantılarına hakim kəsilmişdi. Bu müzakirələr "mövzu və çağırışlar bolluğu" ilə də seçilirdi.

Burada "ölkədə islahatlar aparılması zərurəti" (doktor Musəddiq), "Moskvaya gedib Sovetlərlə anlaşmaq" (Baş nazir Həkimi) və s. tutmuş "Azərbaycan həmişə İranın ayrılmaz hissəsi olacaqdır", "Şimala ordu yeridib ruslarla vuruşmağ"a (Məclisin sədri M.Təbatəbai) qədər – məsələnin dinc yolla həllindən hərblə qaydaya salınmasınadək baxışlar özünə yer almışdı. "Hücumçu" mövqelərin üstünlüyü hətta Moskvaya toplaşmaqda olan "Böyük üçlük" XİN-lərinə Müttəfiqlərin ordularının İrandan çıxarılmasına dair nota (15.XII.1945) verilməsi ilə nəticələndi.

İkincisi, Güney Azərbaycanda Qərblə qarşıdurmanın ilkin mərhələsini qazanan **Sovetlər** yeni siyasi durumdan faydalanmağa yönəlik tədbirləri davam etdirirdi. Müttəfiqlərin XİN-lərinin Moskva muşavirəsinə (16-26.XII.1945) bu baxımdan çox böyük önəm verilirdi. Sovetlər müşavirənin ilk günlərində açıqladıqları məlumatla "İran Azərbaycanı Milli hökumətinin təşkili" ("İzvestiya" qəzeti, 16.XII.1945), "İran Azərbayanı Milli hökumətinin Manifesti" (SİTA, 17.XII.1945) və s. materiallarla danışıqlara təsir göstərmək istədi. O, Moskva danışıqlarında qəti və kəskin mövqe tutdu.

Üçüncüsü, sovet siyasəti axarında hərəkət edən **Güney Azərbaycan** Milli hökuməti bir müddət muxtariyyətlə müstəqillik seçimi arasında qalsa da böyük islahatlar dövrünü başlatmış oldu. Sözgəlişi, Qərb mətbuatı və siyasətçiləri Güney hadisələrinə, oradakı dəyişikliklərə "bütün Orta Şərqdə böyük ehtiyac duyulan islahatçılıq hərəkatının başlancığı (özülü) kimi "yanaşırdı".

"21 Azər hərəkatı" ilə XX əsrdə üçüncü dəfə beynəxalq aləmə çıxan Cənubi Azərbaycan bu çağlarda həm də muxtariyyət, yoxsa müstəqillik dilemması ilə üzləşmişdi. Proseslər hərəkatın (hökumətin) başçılarının, öncə və özəlliklə də,

S.Pişəvərinin baxışlarında yaşanan təkamülü şərtləndirirdi. SSRİ-nin "Şərq siyasəti"nə müvafiq olaraq fəaliyyət göstərmək məcburiyyətində qalan güneyli lider tarixi fürsətə söykənərək Cənubun müstəqilliyinə və sonradan da Şimalla vahid Azərbaycanda birləşməsinə doğru seçim etməkdə idi.

O, 1945-ci il dekabrın ortalarında demişdi: "Biz İranın istiqlal və bütövlüyünü dəfələrlə etiraf etmişik. Tehran isə bu istiqlaliyyəti pozmaq yolunda hər gün təzə fırıldaq çıxarır. İş belə gedərsə, biz tamamilə ayrılıb müstəqil bir dövlət qurmağa məcbur olacağıq. Ayrı çarə yoxdur.... Sizinki sizdə, bizimki bizdə. Yaxamızdan əl çəkib, qoyun öz evimizi bildiyimiz və istədiyimiz kimi idarə edək".

Müstəqillik ideyası Milli hökumətin "Azərbaycan xalqının tələbləri" (16.I.1946) adlı sənədində də mərkəzi vəzifəni təşkil edirdi: "Biz İrandan tamamilə ayrılıb demokratik əsasda öz müstəqil dövlətimizi – Azərbaycan Milli Demokratik respublikasını (AMDR-i) qurmalıyıq... Bizim ölkəmiz AMDR adlanmalıdır".

Rəsmi Moskvanın tapşırığı ilə M.Bağırov da Güneyin rəhbərlərindən "muxtariyyət, İrandan ayrılmaq, yaxud digər bir formada yaşamaq fikirlərini əsaslı şəkildə dəqiqləşdirmələrini" istəmişdi: "Əgər İrandan ayrılmaq istəyirlərsə, öz dövlətlərini necə adlandıracaqlar. Xalq Respublikası, yoxsa Milli hökumət?"

Dördüncüsü, Güneydə Sovetlərlə qarşıdurmanın birinci dövrəsini uduzan **İngiltərə və ABŞ** diplomatiyası SSRİ-nin Şərqə doğru irəliləməsinin əngəllənməsini qəti olaraq hədəfə aldı. Bu məsələdə də İranın zəif durumundan yararlanmaq xəttinə üstünlük verildi. ABŞ və İngiltərənin Tehrandakı səfirlərinin – U.Mörreyin Ağ evə və R.Bulardın isə Londona eyni tarixdə (13.XII.1945-"21 Azər"in sabahısı günü) ünvanladıqları məlumatlarda (birinci 4-nü yollamışdı)

"həyəcan və ümidsizlik notları ilə yanaşı İranın "Moskva danışıqlarından sonra da qərbpərəst mövqelərdə qalmasına çalışmağın vacibliyi" vurğulanırdı.

Dövrə aid diplomatik yazışmalara və mətbuat materiallarına ani nəzər salmaqla "21 Azər"in amerikan-ingilis rəsmi dairələrində doğurduğu reaksiyaları və yaratdığı rəyləri də öyrənməyə imkan verir. Məsələn, Moskvaya yenicə yetişən (14.XII.1945) C.Birns rəsmi Vaşinqtonu "Sovetlərin Güneyi nəzarətdə saxlamaq istəyi" barədə xəbərdar edirdi. "Nyu-York Tayms" isə İranın Azərbaycanı (Təbrizi) itirdiyini" yazırdı. Prezident H.Trumen də C.Birnsə yazıb, ancaq göndərmədiyi məktubda "Sovetlərə dayəlik etməkdən yorulduğunu" açıqlamışdı.

Sovetlərin Güneydəki hərəkatı Gilana, Xorasana və b. yerlərə "istiqamətləndirmək" niyyətləri İranla yanaşı Qərbi də qorxuya salmışdı. Buna görə də, S.Pişəvəri hərəkatına qarşı təbliğat kampaniyasında onun "kommunist keçmişi" önə çəkildi. ABŞ-ın Təbrizdəki yeni konsulu R.Rossou "21 Azər hadisələri"ni səciyyələndirərkən bəzi həqiqət anlarını vurğulamaqla yanaşı əsas diqqəti diplomatcasına kommunistlik (Sovetlər) məsələsinə yönəltmişdi.

Burada da güdülən başlıca məqsəd Güneydəki hərəkatı bütövlükdə kommunizmin (SSRİ-nin) işi saymaqla, bir tərəfdən, əhalini Milli hökumətə qarşı qaldırmaq, digər yandan da, Qərbin böyük dövlətlərinin həmrəyliyinə nail olmaq idi (Sözgəlişi, əslində S.Pişəvəri (Milli hökumət) xüsusi mülkiyyəti toxunulmaz elan etməklə, Güneyin siyasi perspektivinə münasibətdə fərqli mövqe (müstəqillik xətti) tutmaqla və s. ilə Sovetlərlə müəyyən məsafə saxlamağa çalışmışdı).

R.Rossounun başlıca tezisləri isə bunlar idi: "Krasnı Təbriz üsyanının ilhamçısıdır; üsyançıların çoxu Quzey

Azərbaycandan gələn mühacir adlananlardan və qondarma demokrat adı verilənlərdən ibarətdir; inqilab uğur qazandı və İranda tam müstəqil, ancaq rus oyuncağı olan "Muxtar Azərbaycan hökuməti" mövcuddur; S.Pişəvəri Birinci Dünya müharibəsi dövrü İranının ilk kommunisti olmuşdur və s.

Həmin dönəmdə Güney (İran) məsələsi və onun gələcəyinə dair çoxsaylı diplomat dəyərləndirmələrinə də rast gəlinir. Onların arasında ABŞ Dövlət Departamenti Orta Şərq bölməsinin müdiri H.Maynorun yetərincə əsaslı sayıla bilən qənaəti diqqəti çəkir: "İranın yeganə ümidi Birləşmiş Ştatlardır". Təsadüfi deyildir ki, "Taym" jurnalı "İran şahının qüdrətli dostları onun nefti üçün susamışlar" yazaraq həm də ölkənin Sovetlərdən xilasına çalışan H.Trumeni ilin adamı elan etmişdi (XII.1945).

Azərbaycan məsələsi "21 Azər"dən sonra dəfələrlə iki-üç (çox) tərəfli beynəlxalq müzakirələrə çıxarıldı. Onlardan biri də müttəfiqlərin baş diplomatlarının – ABŞ-ın Moskvadakı səfiri A.Harrimanın, müşavir S.Kennanın, Tehrandakı ingilis böyük elçisi R.Bulard və digərlərinin də – qatıldıqları Moskva müşavirəsində keçirildi. Ancaq bu müzakirələr qeyri-rəsmi səciyyə daşıyırdı. Çünki E.Bevinin "Azərbaycan məsələsi ilə bağlı fikir mübadiləsi" təklifi (18.XII.1945) onun kommunist həmkarı tərəfindən dəstəklənmədi.

V.Molotov Güneydəki milli-demokratik hərəkatı İranın daxili məsələsi sayaraq Sovetlərin ona qarışmadığını bildirdi. Qoşunların İrandan çıxarılması ilə bağlı isə Potsdam və Londondakı müzakirələri (razılıqları) nəzərə almağı məsləhət bilərək məsələyə təkrarən qayıtmağa ehtiyac duyulmadığını söylədi. Bununla da Azərbaycan məsələsi yalnız tərəflərin müxtəlif səviyyə və tərkibdə təşkil olunan görüş-məsləhətləşmələrində formal şəkildə, səthi nəzərdən keçirildi. Bu zaman da təbii fərqli yanaşmalar qarşı-qarşıya gəldi:

a) SSRİ-nin (İ.Stalinin) nəzər nöqtəsi. Onu səciyyələndirən başlıca müddəaları – C.Birns və E.Bevinlə eyni gündə (19.XII.1945) birlikdə, habelə birinci (23.XII.1945) və ikinciylə (24.XII.1945) təkbətək görüşlərində söylənilən mülahizələri tezisvari belə ifadə etmək olar: SSRİ-nin İrana ərazi və b. iddiası yoxdur; ancaq o, Sovetlərə qarşı düşmənçilik edir; bu da Bakı neft mədənlərinə təxribat təhlükəsi yaradır; qoşunların orada saxlanılması zərurəti də buradan irəli gəlir; Moskva İran məsələsinin BMT-yə çıxarılmasından qorxmur və müttəfiqləri də utandırmaq fikrində deyildir;

b) ABŞ-ın (C.Birnsin) yanaşması. Sovetlərin (İ.Stalin və V.Molotovun) iddiaları ilə razılaşmayan qərbli baş diplomat da bəzi məsələləri xatırlatmalı olmuşdu:

"İranın Bakı neftinə təhlükə yaratması" gerçəklikdən uzaqdır; İran savaş dönəmində Sovetlərə yardım etmişdir; onun SSRİ-yə qarşı düşmənçiliyi mümkünsüzdür; Azərbaycan hərəkatı Türkiyə və Yaxın Şərqin digər ölkələrini də əhatə edə biləcək hadisələrin ilkidir; əgər ölçü götürülməzsə, BMT-nin dünyada sülhün və ədalətin təminatçısı kimi heç bir əhəmiyyəti qalmaz; Mancuriya, Həbəşistan və Munhen hadisələri təkrarlanar, Azərbaycan Üçüncü Dünya müharibəsinin ilk atəşi olar.

ABŞ Moskva müşavirəsindəki müvafiq başqatan müzakirələrlə kifayətlənməyərək əməli işlərin görülməsini planlaşdırırdı. C.Birns Moskvadan və onun müavini D.Açeson isə Vaşinqtondan A.Harriman vasitəsilə İran rəhbərliyini təlimatlandırırdı. Amerikalı diplomatlar (D.Açeson-A.Harriman-U.Mörrey-C.Birns) arasındakı yazışmalardan bunlar da aydınlaşır:

Sovetlərin 1920-ci illərin əvvəlində olduğu kimi "hərəkat-inqilabları" bütün İrana yaymaq cəhdləri; İranın SSRİ-nin nəzarətində olan digər bölgələri də itirərək məhv olması

təhlükəsi; onun yalnız ABŞ-a arxalanması; İran hökumətinə azərbaycanlıların tələblərini qabaqlayan güzəştlərə getməsi və Azərbaycan problemini qan tökmədən – dinc yolla, danışıqlar vasitəsilə həll etməsi tövsiyəsinin verilməsi. İ.Stalinlə görüşlərdən sonra C.Birns Güney probleminin qəlizləşdiyinə və onun BMT-nin müzakirəsinə verilməsinə dair qəti qənaətə gəlmişdi.

c) Böyük Britaniyanın (E.Bevinin) baxışları və təklifləri. İngiltərə təmsilçiləri qərbli həmkarları (tərəfdaşları) ilə məsləhətləşmələrdən sonra təkliflə çıxış etdilər. E.Bevin İ.Stalinlə görüşündə (24.XII.1945) Azərbaycan məsələsinin həlli məqsədilə Müttəfiqlərin üçtərəfli komissiyasının təşkili layihəsini ortaya çıxardı. İngilis təklifləri İranda milli dillərin (türk və b.) işlədilməsini, qoşunların çıxarılmasına dair tövsiyələr hazırlanmasını və s. nəzərdə tuturdu.

Onların bu planı Güneyin muxtariyyətini SSRİ-nin dəstəyi ilə İranın nəzarətinə salmağa yönəlmişdi. Tələsən baş ingilis diplomatı Sovetlərin də layihəyə əlavə və düzəlişləri qəbul edilməklə müvafiq komissiyanın təşkilinə dair qərar çıxarılmasını istədi. Ancaq İ.Stalin E.Bevinin layihəsini (təkliflərini) "məqbul saysa" da V.Molotov "ellər atası" ilə "razılaşmadı" və Azərbaycan məsələsinin müzakirəsinin davam etdirilməsinə qarşı çıxdı;

ç) İranın mövqeyi və tələbləri. Müşavirənin müvafiq qeyri-rəsmi müzakirələrini diqqət, həyəcan və ardıcıllıqla izləyən İran diplomatiyası seyrçi mövqe tutmadı. İran hökuməti elə Moskva toplantısının gedişində (19.XII.1945) müttəfiq dövlətlərin rəsmi dairələrini Azərbaycan məsələsini BMT Baş Məclisinin (BM-in) birinci sessiyasında qaldıracağı (I.1946) barədə kəskin tərzdə məlumatlandırdı.

Baş nazir Həkimi isə müxtəlif kanallarla amerikanlara bunları çatdırırdı: güneylilərə türk dilini monqollar öyrətmişlər; az öncəyə qədər Azərbaycanda heç kəsin tanımadığı S.Pişəvəri həmişə Bakıda yaşamışdır; Cənubi Azərbaycan parlamenti və hökumətinin hüquqi əsasları yoxdur və tanına bilməzlər; onları Qafqazdan İrana qanunsuz olaraq gələn xaricilər yaratmışdır; Güneydəki üsyanı Sovetlər çəkilməndən sonra silah gücü ilə yatıracaqlar və s.

İranın Londondakı səfiri, əslən ordubadlı – M.Rəsulzadə ilə xoş münasibətləri olan, H.Tağızadə müşavirənin ilk günlərində bəyanat yayaraq üçtərəfli ittifaq münaqişəsinə dair öhdəliklərə əməl olunmadığını və durumun Azərbaycanın İrandan ayrılması həddinə yetişdiyini bildirdi. O həm də İranın məlum öhdəliklərin İngiltərə tərəfindən yerinə yetirilməyinə və Sovetlərin onun ərazi bütövlüyünə şübhəli münasibətinə son qoyulacağına inandığını vurğulayırdı.

Bu dövrdə İranda Sovetlərlə yaxınlaşmaq çağırışları da güclənməkdə idi. Onunla münasibətləri əsaslı surətdə normallaşdıra bilən tək bir siyasi xadimin (dövlət adamının) – yəni həmin dövrdə demokratik və azadxah kimi görünən – Ə.Qəvamın yenidən hakimiyyətə qaydışı yaxınlaşırdı. Güney məsələsi bu prosesi daha da sürətləndirdi.

Tarazlaşdırılmış tərəfsiz siyasətə üstünlük verdiyini bildirən sabiq və gələcək Baş nazir SSRİ-i ilə əlaqələrin yaxşılaşdırılmasını mümkün və vacib sayırdı. Onunla bağlı bir maraqlı və önəmli məqam da ortaya çıxmaqda idi. Yəni, Azərbaycan məsələsinin sülh (danışıqlar) yolu ilə həllini vəd edən Ə.Qəvama münasibətdə SSRİ rəhbərliyi ilə S.Pişəvərinin mövqeləri haçalanırdı.

Bütövlükdə isə, Moskva müşavirəsi Azərbaycan məsələsini ciddi suallarla gələcək (növbəti) rəsmi və qeyri-rəsmi müzakirələrin ixtiyarına buraxdı. Orada həmin problemlə əlaqədar heç bir razılıq əldə olunmadı və sənəd imzalanmadı.

Güney Azərbaycanın sürətlə və ardıcıllıqla, məqsədli ola-

raq Qərb-Sovet qarşıdurmasının başlıca meydanlarından birinə çevrildiyi bir şəraitdə orada quruculuq işləri (islahatlar) aparıldı. Əsas diqqət konstitusiyanın hazırlanması və qəbuluna, ordunun təşkili və təchizatına, sosial-maliyyə problemlərinin həllinə, təhsil – elm və mədəniyyətin inkişafına yönəldilmişdi. Paralel surətdə İran hökuməti və onu himayə edən Qərb diplomatları ilə anlaşmaya nail olunmasına cəhdlər edilirdi. İkincilər birinciyə Milli hökumətlə uzlaşmaq istiqamətində danışıqlara başlamağı da məsləhət görmüşdülər.

Bakı və Təbriz "üçlük"lərinin bir-biriləri və Azərbaycan SSR rəhbərliyinin "Kreml dördlüyü" ilə çoxsaylı yazışmaları (19, 23, 30.XII.1945, 26.I.1946 və s.) Sovetlərin rəsmi Tehranla Güney arasındakı müzakirələrə başlanılmasına heç də xoş yanaşmadığını üzə çıxarır. Həmin diplomatik sənədlərdən bəlli olur ki, R.Rossounun S.Pişəvəri ilə görüşləri (28.XII.1945; 4, I.1946), habelə digər liderlərlə söhbətləri SSRİ-nin rəsmi dairələrində maraq yaratmışdı.

M.Bağırovun "Kreml dördlüyü"nə raportundan (30.XII.1945) ABŞ diplomatının missiyasının məqsədinin: **a)** Güneyin İranla gələcək əlaqələrinin səviyyəsini (ayrılma və digər); **b)** Təbrizin Tehrana gedə biləcəyi güzəştləri; **c)** S.Pişəvərinin üçtərəfli komissiyaya münasibətini müəyyənləşdirməkdən ibarət olduğu aydınlaşır.

Rossou-Pişəvəri görüşündə həmçinin diplomatın Baş nazirə Tehranla danışıqlara getmək tövsiyəsinin qarşılığında Güneyin müxtariyyətinə əsaslı hüquqi təminat istənilmişdi. Həmin danışıqlar barədə C.Birnsi məlumatlandıran konsul Güneyin İranın tərkibində qalmaq niyyətini Milli hökumətdə XİN-in olmaması ilə də bağlamışdı. Habelə Güneyin İran tərəfindən işğal olunmaqdan doğan rahatsızlığını da hesabatına daxil etmişdi.

Həm Rossou-Pişəvəri görüşləri, həm də Türkiyənin

Təbrizdəki konsulluğunun fəallaşması SSRİ rəhbərliyinin bəzi əks tədbirlərinə əsas vermişdi (Türkiyə ilə bağlı məqamlar dördüncü bölümdə təhlil olunur. Belə ki, R.Rossounun "Güneyin Milli hökumətinə hərtərəfli yardım vədi" sovet radiosu və SİTA vasitəsilə ABŞ-ın rəsmi mövqeyi kimi yayılmışdı.

Bu da İranın rəsmi dairələrində müəyyən müzakirələrə səbəb olmuş və ABŞ diplomatları ilə bəzi məsləhətləşmələr aparılmışdı. Sovetlər həm də "Kürdüstan muxtariyyəti"nin elan olunmasını (22.I.1946) təşkil edərək "Gilan respublikasının bərpası"na girişmişdilər. "Böyük Kürdüstan" məsələsi SSRİ-nin strateji planlarına daxil olmaqla bərabər həm də Güneyə (S.Pişəvəriyə) bir təzyiq vasitəsi kimi də səciyyələndirilə bilər.

Azərbaycan (İran) məsələsi BMT BM-in Londonda keçirilən birinci sessiyasında da kəskin mübahisələr doğurdu. İran tərəfinin onu sessiyanın rəsmi müzakirəsinə çıxarmaq cəhdləri toplantının işində müəyyən problemlər yaratdı. Müxtəlif yanaşmalar ortaya çıxdı:

1-cisi, İran diplomatiyasının (H.Tağızadənin) baxışı və səyləri. Hələ sessiyadan öncə Londondakı səfir həm də sessiyadakı İran təmsilçiliyinə başçı təyin olundu. O, sessiyada (15.I.1946) Azərbaycan məsələsi barədə çıxış etdi və az sonra (19.I.1946) "İranın SSRİ ilə mübahisəsi"nin Təhlükəsizlik Şurasının (TŞ) müzakirəsinə verilməsini istədi. Diplomatın müraciətində – birinci bəyanatında Sovetlər İranın daxili işlərinə müdaxilədə suçlandırıldı.

Bunların ardınca H.Tağızadə BMT Baş katibinə ünvanladığı (26.I.1946) səkkiz bəndlik izahat məktubunda indiyədək qəbul edilən dövlətlərarası məlum sənədlərə, İranın SSRİ-yə notasına (17.XI.1945) əsaslanaraq xarici qoşunların ölkəsindən çıxarılmasını tələb etdi və Güney məsələsinin Sovetlərin

siyasətindən qaynaqlandığını bildirdi.

2-cisi, İngiltərə hökumətinin (E.Bevinin) mövqeyi. Sessiyanın ilk günlərində H.Tağızadənin İran məsələsini qaldırmaq niyyəti ilə əlaqədar onunla keçirdiyi məsləhətləşmələrdə qəti fikir söyləməkdən yayındı.

3-cüsü, ABŞ-ın (C.Birnsin) hərəkət xətti və tövsiyələri. H.Tağızadənin məlum cəhdi, onunla məsləhətləşmə zamanı, tərəddüdlü münasibətlə üzləşdi. C.Birns bunu üzdə BMT-nin müvafiq strukturlarının münaqişələrin həlli ilə əlaqədar əməli prosedur qaydalarının tam formalaşmamasıyla əlaqələndirdi. Əslində isə Dövlət katibi hələ də İranın siyasi çeviklik göstərərək islahatlar, güzəştlər və danışıqlar yolu ilə məsələni həll edəcəyinə ümidli idi. Bu, SSRİ ilə açıq qarşıdurmadan ehtiyatlanmaq və ona ehtiyac duymamaq taktikası ilə tamamlanırdı. ABŞ diplomatiyası İran tərəfini Güneylə uzlaşmaya yönəltməkdə israrlı görünürdü.

4-cüsü, Sovetlərin (A.Bışinskinin) etirazları və müqavimәti. Bu sessiya həm də Vışinski-Tağızadə diplomatik toqquşması ilə yadda qaldı. Sovetlərin sabiq Baş prokuroru və o vaxtkı baş diplomatının birinci müavini (nümayəndə heyətinin rəhbəri) A.Vışinski BMT TŞ sədri N.Meykinə məktubunda (24. I.1946) və ertəsi günü oradakı çıxışında bunların nəzərə alınmasını zəruri saydı:

SSRİ-nin İranın daxil işlərinə qarışmasına dair iddialar əsassızdır və onlar xüsusi nota (26.XI.1945) ilə təkzib edilmişdir; Sovet tərəfi ilə əvvəllərdə müvafiq danışıqlar aparılmışdır və o indi də buna hazırdır; Qızıl ordu İrana məlum müqavilələrə (26.II.1921 və 29.I.1942) əsasən daxil olmuşdur və orada qalır; bu, haqlı bir tədbirdir və Güney hadisələrinin səbəbi sayıla bilməz; İran düşmənçilik mövqeyi ilə Azərbaycan SSR-ə və Bakıya təhlükə (qorxu) yaradır; onun BMT TŞ-yə məlum müraciəti əsassızdır və ona qəti etiraz olunur.

Sovet hökuməti sessiyadakı diplomatik çəkişmələri yetərli saymayaraq "Pravda" (20.I.1946) və digər qəzetlər vasitəsilə İran əleyhinə yeni bir "mətbuat savaşı" da törətdi.

5-cisi, Güneyin (S.Pişəvərinin) müraciəti və xatırlatmaları. Sessiyanın gedişini diqqətlə izləyən və bu barədə Təbrizdəki diplomatik təmsilçiliklər, ən çoxu da Bakı və Moskva tərəfindən məlumatlandırılan Milli hökumət – S.Pişəvəri BMT BM-ə xüsusi müraciət göndərdi (28.I.1946). Bu tarixi sənəddə xalqımızın uzaq və yaxın keçmişinin, milli-azadlıq hərəkatımızın ən önəmli hadisələri diqqətə yetirilir və Azərbaycan Milli hökumətinin tanınması xahiş olunurdu.

İran nümayəndə heyətinin bəyanatı – Azərbaycan məsələsi TŞ-nin iclasında müzakirə edildi (28. I.1946). O əsasən Tağızadə – Vışinski mübahisəsi şəraitində keçdi. Tərəflər məlum iddiaları və iradları yenə də səsləndirdilər. Fasilə ilə davam (30. I.1946) etdirilən müzakirələrə TŞ sədri, E.Bevin, ABŞ-ın BMT-dəki daimi təmsilçisi E.Stettinius və digərləri də qatıldılar. Toplantının qətnaməsi (30. I.1946) tərəflərin məsələni danışıqlar yolu ilə həll etmələrini və BMT-ni bu barədə vaxtaşırı məlumatlandırmalarını lazım bildi.

Azərbaycan məsələsi Mərkəzi Asiya Kral Cəmiyyətinin xüsusi iclasında (London, II.1946) da nəzəri-siyasi cəhətdən müzakirə edildi. Çoxlu siyasətçi, diplomat, media mənsubu və b. qatıldıqları həmin müzakirələrdə səslənən fikir və təklifləri aşağıdakı qaydada ümumiləşdirmək olar:

- Güneydəki hökumət Sovet Azərbaycanı kimi islahatlar (?! – İ.M.) keçirərsə tezliklə geniş tanına bilər;
- Moskva və Bakıdakı sovet liderləri Güney Azərbaycana dair siyasətlərini axıradək müəyyənləşdirməyiblər;
- Sovetlərin İran siyasətində üç istiqamət görünməkdədir: **a)** Tehranda, onlarla dostluq münasibətlərində olan, islahatçı hökumətin qurulması; **b)** Güneydə – Qafqaz sərhədlə-

ri yaxınlığında hər hansı bir xarici neft konsessiyasının olmaması; **c)** ən başlıcası, Azərbaycandan beynəlxalq miqyasda diplomatik duel yeri kimi istifadə edilməsi;

- Montryo konvensiyasına yenidən baxılması, Aralıq dənizinin şərqinə aid məsələlərdə Sovetlərlə hesablaşılması, Qafqaz neft sənayesinin təhlükəsizliyi üçün hava savaşı aparılması ehtimalının onları çox qorxutması və s.

Bu dövrdə SSRİ-də və İranda Azərbaycan məsələsinə ciddi təsir göstərə biləcək hadisələr baş verdi. Onlara dair beynəlxalq yanaşmalar da izsiz ötüşmədi. Belə ki, Sovetlərin Yaxın və Orta Şərqdə beynəlxalq durumu gərginləşdirmək, Güney Azərbaycanı (İranı) bir-birilərinə qarşı dayanan güclərin diplomatik (iqtisadi-ideoloji) savaş meydanına göndərmək işi fəallaşdırıldı. İ.Stalinin seçicilərlə görüşü (9.II.1946) zamanı etdiyi çıxış "qarşıdurma marşı" - "üçüncü" Dünya müharibəsinə çağırış" kimi səsləndi və geniş əks-səda doğurdu.

İkinci Cahan hərbindən sonra artıq birmənalı şəkildə Qərbin önündə getməyə başlayan ABŞ-ın açıq və gizli reaksiyaları özünü çox da gözlətmədi. Öncə "diplomatik çarə"lərə əl atan ABŞ hökuməti SSRİ ilə əməkdaşlıq tərəfdarı olaraq tanınan Moskvadakı A.Harrimanı U.Smitlə əvəzlədi (14.II.194). Bunun ardınca isə ABŞ-ın Sovetlərə dair siyasətinin əsas xətləri işlənib hazırlandı.

Bu sahədə C.Kennan çox iş gördü. Öz baxış və təkliflərini Ağ evə ünvanladığı "uzun teleqram"da (22.II.1946 səkkiz min sözdən ibarət) açıqladı. SSRİ-də qazanılan diplomatik təcrübə (səfirliyin müşaviri-katibi olaraq) ona Sovetlərin siyasətini yaxşı öyrənməyə və təhlil etməyə imkan vermişdi. Onun ABŞ Sovetlərlə "siyasi yaxınlığ"a əsla ümid etməməlidir, onunla "güc mövqeyindən danışmaq lazımdır" və s. mülahizələri tezliklə Güneylə bağlı da özünü göstərdi.

İranın siyasi həyatında baş verən ciddi hadisə isə Güney məsələsinin taleyində daha təsirli rol oynadı. "Böyük üçlük"ün hər bir üzvünün dəstəklədiyi, Sovetlərlə münasibətləri yaxşılaşdırmağa qadir olan tək iranlının – Ə.Qəvamın yenidən hakimiyyətə qayıdışı (14.II.1946) alındı.

Əsasən SSRİ-nin himayəsi ilə təkrar Baş nazir olan və xarici siyasətə rəhbərliyi başqasına etibar etməyən Ə.Qəvam Azərbaycan məsələsinin "həlli"ni özünün tarixi vəzifəsi (İrana böyük xidməti) kimi müəyyənləşdirdi. Onun bu dövrki siyasi-diplomatik fəaliyyətində Moskva missiyası (19.II-17.III.1946) diqqəti cəlb edən mühüm hadisələrdən sayılır.

Ə.Qəvamın Moskva səfərinin şərhi və izahı zamanı aşağıdakı məqamlara geniş yer ayrılması məsləhətdir:

1. SSRİ rəhbərləri ilə danışıqlarda müzakirə edilən məsələlər "üçlüyü" - **a)** sovet qoşunlarının çıxarılması; **b)** Azərbaycan məsələsi; **c)** neft konsessiyaları.

2. Tərəflərin dəlilləri, Ə.Qəvam-V.Molotov diplomatik yazışmaları və İranın Memorandumu.

3. Ə.Qəvam-C.Kennan görüşü və ABŞ dəstəyinə cəhd.

4. Missiyanın iflası və Sovet-İran birgə Məlumatı.

5. Ə.Qəvamın Bakı görüşləri - "müzakirələri".

Onun başçılıq etdiyi nümayəndə heyəti çox qarışıq tərkibə malik idi. V.Molotov səviyyəsində qarşılanması faktı da müəyyən məna və önəm daşıyırdı. V.Molotov və İ.Stalinlə apardığı danışıqlarda üç əsas məsələ bloku formalaşdırıldı. Ə.Qəvam SSRİ qoşunlarının martın 2-dək ölkədən çıxarılmasını və Azərbaycan məsələsində İrana sovet mənəvi dəstəyinin verilməsini istədi. Sovet tərəfi də neft konsessiyaları məsələsini qaldırdı. Müzakirələr qarşılıqlı tarixi və s. iradlar şəraitində keçdi, mövqelərin əsaslandırılması üçün çoxlu dəlillər gətirildi.

İ.Stalinlə V.Molotovun irad və dəlillərini qısaca belə ifadə etmək mümkündür: qoşunların İranda saxlanılması

1921-ci il müqaviləsinə əsaslanır və Sovetlərin bunda müəyyən maraqları vardır; İran nümayəndə heyətinin Paris Sülh konfransında (1919) Sovet Rusiyasına "düşmən münasibəti"; Azərbaycan məsələsi İranın daxili işidir və güneylilərdən rahatsızlığa əsas yoxdur; SSRİ bu məsələyə qarışdığından heç nə edə bilməz; Güneydəki rejim Xarici İşlər və Hərbi nazirliklərsiz İran tərəfindən tanına bilər; neft konsessiyaları məsələsində İngiltərəyə güzəştə gedildiyi halda SSRİ-yə münasibətdə ayrı-seçkilik edilir.

Ə.Qəvamın iddia və dəlilləri isə bunlardan ibarət idi: 1921-ci il müqaviləsinin 6-cı maddəsi Sovetlərin tövsif etdiyi mənada deyildir; Paris Sülh konfransındakı İran təmsilçiliyinə başqası rəhbərlik etmişdir; İran konstitusiyası muxtariyyətə icazə vermir və Azərbaycan muxtariyyətinin tanınması digər vilayətlərin də bunu istəmələri ilə nəticələnər; Güney hökumətinin tanınması mümkünsüzdür və bu ancaq əyalət əncümənləri haqqında qanunun imkan verdiyi səviyyədə həllini tapa bilər; İrana yeni sovet səfirinin təyinatının ləngidilməməsi; neft konsessiyaları Məclisin qərarı ilə qadağan edilmişdir (Ə.Qəvamın SSRİ-nin İran siyasətinin böyük dövlətlərdə mənfi rəy yaradacağına dair xəbərdarlığını isə sovet rəhbərləri «bizi ABŞ və İngiltərənin nə düşündüyü maraqlandırmır, onlardan qorxmuruq» hədəsi ilə cavablandırmışdılar).

Qəvam-Molotov diplomatik yazışmalarında (24-26, 28.II, 3-5.III.1946) da tərəflər qarşılıqlı iradları təkrarlamaqla yanaşı müəyyən təkliflər irəli sürdülər. Baş nazir bunları bildirdi: 2500 il bundan əvvəl belə Azərbaycan İranın tərkib hissəsi olubdur; o, heç vaxt İrandan ayrılmaq barədə məsələ qaldırmayıbdır; muxtariyyət hərəkatı – ölkənin ərazi bütövlüyünə qarşı qeyri-qanuni hərəkətdir; Azərbaycan məsələsi İranın suverenliyi və torpaq tamlığına əməl olunması

şərti ilə islahatlar yoluyla həllini tapa bilər; Məclisə seçkilərin keçirilməsi üçünsə öncə xarici qoşunların ölkədən çıxarılması tələb olunur.

V.Molotov İranın çətin durumunun nəzərə alındığını və bəzi kompromis təkliflərə birlikdə baxılmasını məsləhət gördü: Azərbaycan əyalətində muxtar özünüidarə yaradılır; milli dilin işlədilməsi hüququ tanınır; əyalətin gəlirlərinin 70 faizi onun hökumətinin büdcəsinə ayrılır; əyalətin Baş naziri həm də onun ostandarı təyin olunur; İran Məclisinə əyalətdən seçilən deputatların sayı artırılır; neft konsessiyası verilməsi Sovet-İran qarışıq cəmiyyətinin təşkili ilə əvəzlənir və səhmlərin 51%-nin SSRİ-yə, 49%-nin isə İrana məxsus olması nəzərdə tutulur; qoşunların bir hissəsi martın 2-dən etibarən çıxarılır və digərləri isə 1921-ci il müqaviləsinə əsasən hələlik orada qalacaqdır.

İran təmsilçiliyinin Moskva missiyası Güneydə ciddi rahatsızlıq yaratdı və Milli hökumətdə birmənalı qəbul olunmadı. «Azərbaycan» qəzetinin (Təbriz, 22.II.1946) «Azərbaycan xalqının ümidləri» yazısında, habelə Güneyin liderlərinin çıxışlarında belə bir ümumi həyəcan hiss edilirdi: Ə.Qəvam Sovetlərlə razılığa gəlib Milli hökuməti, hərəkatı dağıtmağa çalışacaqdır.

Onun Moskvaya dəvət olunması M.Bağırovda da bəzi şübhələr, tərəddüdlər yaratmışdı. O, İ.Stalinə və V.Molotova məktubunda (21.II.1946) bu vacib tarixi məqamı (faktları) xatırladırdı: Səttarxan hərəkatı yatırılanda Ə.Qəvam Daxili İşlər naziri idi və Gilandakı mübarizə boğulanda o, yenə hakimiyyətdə təmsil olunmuşdu.

Moskva danışıqlarından əliboş qayıtmamaqda israrlı olan Ə.Qəvam SSRİ XXİK-ə izahlı memorandum (26.II.1946) təqdim etdi. O, diplomatik gediş edərək Qızıl ordu İrandan çıxdıqdan və Azərbaycan məsələsi həll olunduqdan sonra

neft probleminin də tərəfləri razı salacaq şəkildə çözüləcəyini bildirdi. Ancaq onun bu cəhdi də hələki elə bir ciddi əməli nəticə vermədi. Əksinə, danışıqlar prosesində İrandakı sovet diplomatik nümayəndəliyinə başçı təyin olunan İ.Sadçikovun təzyiq və hədə ahəngli cavab memorandumu açıqlandı.

Yeni səfirin ilk diplomatik aktında İranın vaxtilə (1921, 1937, 1939) neft üstündə Sovetləri ABŞ və İngiltərə ilə qarşılaşdırmağa çalışması xatırladıldı. Ən başlıcası da Qızıl ordu hissələrinin İrandan çıxarılmasının təxirə salınması vacib sayıldı. Rəsmi məlumatlara əsasən isə bəzi hərbi hissələrin Məşhəd və b. əraziləri tərk edəcəkləri və «qoşunların vəziyyət aydınlaşana qədər digər yerlərdə saxlanılacağı» bəyan edildi. Ə.Qəvam SSRİ XXİK-ə nota (3.III.1946) və memorandum (4.III.1946) göndərərək Sovet-İran qarışıq neft cəmiyyəti məsələsinin Məclislə razılaşdırılmasının lazım gəldiyini bildirdi. Habelə əvvəllərdə bağlanan müqavilələrin Qızıl ordunun İranda qalmasına hüquqi əsas vermədiyini yazaraq qoşunların təcili ölkəsindən getməsini istədi.

Ə.Qəvam Moskva səfərində həm də ikili oyuna girişmişdi. Sovetlərdən hələlik elə bir ciddi güzəşt əldə edə bilməyəcəyini qətiləşdirən Baş nazir ABŞ-ın himayəsinə sığınmağa və onun dəstəyini qazanmağa çalışırdı. Onun ABŞ-ın SSRİ-dəki müvəqqəti işlər vəkili C.Kennanla görüşlərində (4; 6.III.1946) buna cəhd göstərildi. Amerikan diplomatı İranın dəstəklənəcəyini və ABŞ-ın Azərbaycan məsələsinin BMT Nizamnaməsi əsasında həllinə çalışacağını dolayısı yolla bildirdi.

C.Kennanın mülahizə və mövqeyi tezliklə ABŞ diplomatiyasının əməli işlərində öz əksini tapdı. Belə ki, C.Birnsin SSRİ XXİK-ə notası ilə (5.III.1946; №397), Yaponiyanın təslim olmasından artıq altı ay keçməsinə baxmayaraq, sovet qoşunlarının İrandan çıxarılmamasına etiraz olundu.

Həmçinin Sovetlərin öhdəliklərə əməl edəcəyinə və qoşunlarını İrandan çəkəcəyinə inam ifadə edildi.

SSRİ XXİK-ə eyni tarixdə (5.III.1946) iki nota verən Ə.Qəvam həmin gün İ.Stalinin «Ziyafət diplomatiyası»na da qatıldı. Missiyası əslində uğursuzluğa düçar olan iranlı baş diplomat ziyafətdəki qeyri-rəsmi müzakirələrdə Sovet rəhbəri tərəfindən müəyyən qədər ümidləndirildi. O, ikihəftəlik nəticəsiz danışıqların «yekunlar»ına dair SSRİ-İran birgə Məlumatını da imzalayaraq Moskvadan ayrıldı. Yolüstü Bakıda dayandı.

Onun Bakı görüşləri və «müzakirələri» (8-10.III.1946) əsasən şəhərin elmi-mədəni həyatı ilə tanışlıqdan ibarət oldu. Azərbaycan SSR XXİK-i M.Əliyev, İranın Bakıdakı baş konsulu Məcidi və digərlərinin iştirakı ilə keçirilən çeşidli görüşlərdə Moskva danışıqlarından əsla söhbət açılmadı. Ancaq missiyanın üzvü, professor R.Şəfəq «İranın ən yaxşı arxası SSRİ ola bilər» fikrini söylədi.

1946-cı ilin yazında (martında) Güney Azərbaycan kapitalist Qərblə kommunist Şərq arasında təxminən yarım əsr çəkən «Soyuq müharibə»nin başlandığı yer oldu. Bu mülahizə ABŞ diplomatları (R.Rossou və b.) tərəfindən söylənilmişdir və bir sıra elmi tədqiqatçıların (C.Həsənli və digərləri) araşdırmalarında özünə yer almışdır.

Amerikanın Təbrizdəki konsulu R.Rossou «Azərbaycan uğrunda döyüş – 1946» məqaləsində yazırdı ki, «Soyuq müharibə» 1946-cı il martın 4-də başlamışdır». «Hətta «dəmir pərdə» ifadəsi də İ.Çörçill tərəfindən Azərbaycan məsələsinin arasında (5.III.1946 – İ.M.) deyilmişdi». Diplomat özünün elmi-nəzəri mövqeyini SSRİ-nin İrandakı qoşunlar və sərhədlərdən Təbrizə gətirilən silahlı qüvvələr (500 tank – on beş briqada) vasitəsilə qonşu dövlətlərə (Türkiyə və s.) qarşı hərbi ekspansiyaya meyllənməsi və bunun ABŞ tərə-

findən əngəllənməsi dəlili ilə əsaslandırmışdır.

Sovetlərin qəti əleyhdarı sayılan H.Trumenin göstərişi ilə C.Birnsin SSRİ XXİK-ə ünvanladığı notalar (5; 8.III.1946), U.Çörçillin ingilis dilli dövlətlərin, öncə də ABŞ və Böyük Britaniyanın kommunist ekspansiyasına qarşı ittifaqı yaratmaq təklifi Güneydəki proseslərə ciddi təsir göstərdi. Oradakı sovet qoşunlarının İranın (Türkiyə və s. ilə) sərhədlərinə hərəkət etməsi, erməni generalı İ.Baqramyanın Cənubi Azərbaycandakı Qızıl ordu hissələrinə komandan təyin olunması da Təbrizdə anlaşılmazlıqlar və gərginlik yaratdı. Belə bir şəraitdə Azərbaycan məsələsi ətrafında müxtəlif, qismən yeni çalarlı proseslər cərəyan etməyə başladı:

a) İngiltərə və ABŞ məsələnin BMT TŞ-nin müzakirəsinə çıxarılmasına yönəlik səylərini artırdılar;

b) İran Qərb dövlətlərinin himayə və dəstəyinə ümid edərək Sovetlərin sıxışdırılması – qoşunların ölkədən çıxarılması sahəsindəki fəaliyyətini intensivləşdirdi;

c) Bakı və Təbriz «üçlük»ləri də bəzi məqamları nəzərə almalı oldular. Mircəfərlərin «Birinci Culfa görüşü»ndə (14.III.1946) Quzeyin rəhbəri Güneyin liderinə Qızıl ordunun İranın şimalından çıxa biləcəyi ehtimalını açıqladı. M.Bağırov SSRİ rəhbərliyi ilə daha sıx əlaqələrə malik olduğundan bu günlərdə Tehrana gələcək səfir İ.Sadçikovun «güzəştli təkliflər» paketindən məlumatlı idi. Və əslində bu görüşdə əsas məqsəd Milli hökuməti və onun başçılarını yeni siyasi-hərbi şəraitə, yəni qoşunların Güneydən çıxarılması mühitinə hazırlamaqdı;

ç) Sovetlər ABŞ-ın diplomatik təzyiqlərini ideoloji-təbliğati əkshücumla zərərsizləşdirmək yolunu seçdilər. SİTA-nın bəyanatı (15.III.1946) ilə Qızıl ordu hissələrinin İran daxilindəki yerdəyişmələri «yalanlandı». «İzvestiya» qəzetində (III.1946) N.Alekseyevin «İran məsələsi» adı altında «İran irticaçılarının işğalçılıq planları», «İranda xarici imtiyazlar», «İkinci Dünya müharibəsi və İran irticaçılarının siyasəti» başlıqlı yazılar dərc olundu. Həmin məqalələrdə yenə də yaxın tarixin umu-küsüləri, İranın faşistlərlə əməkdaşlığı və digər məsələlər işıqlandırıldı.

Bunların ardınca isə SSRİ-nin İran siyasətində – Azərbaycan məsələsinə yanaşmasında dönüş nöqtəsi sayıla biləcək işlərə girişildi. Bunu İ.Sadçikovun İranda səfirlik fəaliyyətinə başlaması (18.III.1946) və onun «güzəştli təkliflər» paketindən də görmək olur. Yolüstü Bakıda dayanan səfir bəzi məsələləri M.Bağırovla da məsləhətləşdi. Bu dövrdə həm Qərb tərəfi, həm də Sovetlər Ə.Qəvamla yaxınlaşmaq (dil tapmaq) üçün tələsirdilər.

C.Birns və E.Bevin İran-Sovet münasibətlərini (Azərbaycan məsələsini) BMT TŞ-nin tam rəsmi müzakirələrinə çıxarmağa yönəlik birgə səylər göstərirdilər. İranın ABŞ-dakı səfiri H.Əlanın müvafiq müraciəti BMT Baş katibi T.Liyə təqdim etməsi (18.III.1946) təşkil olundu. Peşəkar və gənc sovet diplomatı – Vaşinqtondakı səfir A.Qromıkonun müzakirələri təxirə salmaq cəhdləri uğur qazanmadı. «İranın Sovetlərdən şikayət məsələsi» TŞ-nin gündəliyinə daxil olundu.

Sovet səfiri Tehrana yetişən kimi Ə.Qəvamla görüş (20.III.1946) keçirdi. Həmin söhbətdə sovet iradları yenə də önə çıxarıldı: Ə.Qəvamın Moskva danışıqlarında SSRİ-nin xeyrinə (ələlxüsus da neftlə bağlı) heç bir işarə etməməsi; İranın yeni müzakirələr məqsədilə BMT Baş katibinə müraciət göndərməsi və s. Ə.Qəvamsa tutarlı bir xəbərdarlıqla kifayətləndi: İranda onun özündən daha çox sovet meylli Baş nazir tapmaq çətindir.

Sonda İ.Sadçikov «Sovet qoşunlarının çıxarılması = İran neftinə dair razılaşma» formulunu təklif etdi. SSRİ ilə

neft razılaşmasının vaxtının çoxdan çatdığı mövqeyində olan Ə.Qəvam buna bir o qədər də pis baxmadı. Elə bu çağlarda həm də ABŞ səfiri U.Mörreylə görüşən (22.III.1946) Baş nazir diplomat tərəfindən təlimatlandırıldı: Böyük beynəlxalq müqavilələrə məhəl qoymayan SSRİ-nin məhdud ikitərəfli sazişlərə riayət edəcəyinə inanmaq sadəlövhlükdür; İranın mənafeləri naminə Sovetlər üçün yolu açıq saxlamaq məsləhətdir və s.

İ.Sadçikovun soyuq qarşılanması və İranın BMT TŞ-yə müraciəti onu sovet təhlükəsi ilə üzləşdirdi. Şahın və Ə.Qəvamın ölkədən getməsi, Qızıl ordunun Tehrana girmək ehtimalı ortaya çıxdı. Ancaq bunların heç biri baş verməsə də, İran Sovetlərin təkliflərinin qəbuluna meyllənmiş oldu. Bu da özünü çox gözlətmədi. Üçgünlük (21-23.III.1946) gərgin durum arxada qaldı və təhlükə əsasən sovuşduruldu.

Ə.Qəvam-İ.Sadçikov görüşündə (24.III.1946, səhər) səfir Azərbaycan məsələsi və neft konsessiyası ilə əlaqədar sovet təkliflərini Baş nazirə çatdırdı (Əslində bunlar V.Molotovun hələ Moskvada Ə.Qəvama açıqladığı (25.II.1946) təkliflərin təkrarı idi). Və bu zaman münasibətlərdə (məsələlərdə) dönüş məqamı yarandı – qismən gözlənilən və əsasən isə heç ağıla belə gəlməyən hadisə baş verdi.

İ.Stalin İranın rəsmi cavabını gözləmədən 4-cü ordunun tamamilə oradan çıxarılmasına dair əmr (24.III.1946; №2167/68) imzaladı (Əmrdə qoşunların hamısının çıxarılmasına martın 24-dən başlanılması və bu işin aprelin 30-u - mayın 10-dan gec olmayaraq başa çatdırılması yazılmışdı. SİTA-nın rəsmi müvafiq məlumatı (25.III.1946) qoşunların Məşhəd və b. ərazilərdən çıxarılmasına artıq başlanıldığını (2.III.1946) vurğulayırdı).

Ə.Qəvamla eyni gündə (24.III.1946) ikinci dəfə (axşam) görüşən İ.Sadçikov onu qoşunların İrandan çıxarılmasına dair sovet qərarı barədə ətraflı məlumatlandırdı. Habelə ona: **1)** neft konsessiyası və **2)** Azərbaycan məsələsinə aid sənədləri verdi. Sonuncu ilə bağlı Güneyin – Baş nazirinin baş qubernatora, Milli Məclisinin isə əyalət əncüməninə çevrilməsi təklif olunurdu (Sözgəlişi, S.Ziyanın həbsinə dair məlumat da istənildi).

U.Mörreyin müşahidə və mülahizələrinə görə, durumun dəyişməkdə olduğunu sezən Ə.Qəvam Güneylə birbaşa danışıqlara üstünlük verirdi. O, Sovetlərin vədlərinə etibarlılığını yoxlamaq məqsədilə BMT TŞ-dəki müzakirələrə dair mövqelərdən də geri çəkilməmişdi.

Sovet qoşunlarının İrandan çıxarılmasına dair təcili razılıq Qərbdə müəyyən şübhələr doğurdu. Onun səbəblərini açıqlayan bir sıra baxış və mövqelər ortaya çıxdı. Həmin yanaşmaları bu qayda da ümumiləşdirmək və formulə etmək mümkündür:

1-cisi, «H.Trumenin İ.Stalinə ultimatumu» (21 və ya 23.III.1946) və «Sovet qoşunları evakuasiya edilməzsə ABŞ İrana geri qayıdacaq» şərti-tələbi.

2-cisi, Azərbaycan məsələsinin BMT TŞ-də müzakirəsi ətrafındakı **A.Qromıko-C.Birns-A.Kadoqan bəhsləşməsi.**

3-cüsü, Ə.Qəvamın ABŞ ilə gizli əlaqələr qurması.

4-cüsü, Sovetlərin öz neft siyasətini reallaşdırmaq üçün yaranan «fürsəti» əldən qaçırmamaq məqsədi.

«H.Trumenin İ.Stalinə ultimatumu məsələsi» ilə əlaqədar elmi-siyasi diskussiyalar hələ də davam etməkdədir. Burada başlıca mübahisə həmin sənədin mövcudluğu ətrafında gedir. Çoxluq belə bir ultimatumun verilmədiyində israr edir. Və bundan dövrün tanınmış amerikan diplomatlarının (A.Harriman, C.Kennan, C.Birns, A.Dalles və b.) da bəhs etmədiklərini əsas gətirir.

Ultimatum məsələsi mübahisəli mövzu olaraq qalsa da

o vaxtlar ABŞ-ın SSRİ-yə təzyiq və təsir göstərmək səyləri və imkanları təsdiqlənir. H.Kissincer «Diplomatiya» kitabında yazır: «1946-cı ilin baharında «sərtləşmə» siyasətini uğurla həyata keçirən Trumen Azərbaycanın Sovetlər tərəfindən tam evakuasiyasını tələb edirdi... Amerika ilə silahlı qarşıdurma ehtimalıyla qarşılaşdığı hər anda Stalin geri çəkilirdi. 1946-ci ildə ... də o belə etmişdi...». Digər tərəfdən də, ABŞ (Qərb) Sovetlərin geniş strateji ərazidə ekspansiyasına biganə qala bilməzdi.

Azərbaycan məsələsinin yenidən BMT TŞ-də müzakirəyə çıxarılması ətrafındakı kəskin diskussiyalar da Sovet qoşunlarının İrandan çəkilmələrinə dair məlum qərara təsir göstərmişdi. Sovet diplomatiyası beynəlxalq aləmdə tam təklənməkdən ehtiyatlanırdı. Qızıl ordunun İrandan çıxarılması qərarının Qərb dövlətlərinin mövqeyinə bir o qədər təsir etməməsi də gözönündəydi.

C.Birns və İngiltərə təmsilçisi A.Kadoqan məsələnin müzakirəsində israr edirdilər. Və məsləhətləşmələr əsasında üçtərəfli komissiya yaradılmasına baxmayaraq müzakirələr çox gərgin keçmişdi. Hətta SSRİ-nin BMT TŞ-dəki daimi nümayəndəsi A.Qromıko iclası tərk etməli (27.III.1946) olmuşdu.

İ.Stalinin məlum əmri verməyə «razılaşması»nda İran hökumətinin – şəxsən də «ruspərəst» Baş nazirin (Ə.Qəvamın) ABŞ ilə gizli əlaqələri də rol oynamışdı. Həmin məxfi işbirliyini amerikan diplomatlarının (D.Açeson-C.Kennan) yazışmaları və Ə.Qəvamın U.Mörreylə vaxtaşırı keçirilən görüş – məsləhətləşmələri (29.III.1946 və s.) də yetərincə isbatlayır.

Sovet ordusunun Güney Azərbaycanda qalmaqdan «bezməsində», təbii olaraq, «neft amili» həlledici faktorlardan sayılmalıdır. C.Həsənlinin dəqiq ifadə etdiyi kimi, «So-

yuq müharibə»nin birinci ayındakı məğlubiyyətin ləkəsini Stalin neftlə yumağı planlaşdırırdı....». Bununla bağlı Güneydə baş verə biləcək anlaşılmazlıqları və artıq özünü göstərən qayğılanmanı zərərsizləşdirmək üçün Sovet Azərbaycanı («Bakı üçlüy»ü) vasitəsilə tədbirlər görüldü.

Seyidlərin «İkinci Culfa görüşü»ndə (28.III.1946) Güneyin liderindən Cənubi Azərbaycanda hazırda mövcud olan siyasi şəraitin saxlanmasına israr etməməsi istənildi. Yarıyolda qovulduqlarını və aldadıldıqlarını artıq yaxşı duyan güneyli rəhbərlər, özəlliklə də S.Pişəvəri isə Ə.Qəvama inanmamağa çağırırdı (Fars siyasətçi-diplomatının İ.Stalini də aldatdığı az sonra üzə çıxdı və S.Pişəvərinin xəbərdarlığı təsdiqləndi). O habelə Baş nazirin Güneydə vətəndaş müharibəsi və kürd-türk qarşıdurması törədə bilmək təhlükəsini də açıqladı.

İran hökuməti neft konsessiyası ilə bağlı müəyyən müzakirələr aparıb ilkin qərarları razılaşdırdı. Ancaq qəti qərarlar çıxarılması Azərbaycan məsələsinin BMT TŞ-dəki müzakirələrinin nəticələrindən sonraya saxlanıldı. Eyni zamanda Sovetlərlə mövqeləri yaxınlaşdırmaq və uzlaşdırmaq istiqamətində fəaliyyət gücləndirildi.

Təbrizdəki «Bakı üçlüyü» S.Pişəvərini İran hökuməti ilə danışıqlara – güzəştlərə hazırlamaqla məşğul oldu. Milli hökumətin başçısı aprelin əvvəlindəki görüşlərdə sovet güzəştlərinin verəcəyi acı nəticələrə toxundu. «İnqilabçı dostlarımız 1920-ci ildə də bizi aldatdılar» deyən S.Pişəvəri Ə.Qəvama güzəştlər nəticəsində «yalnız Azərbaycan xalqı deyil, Sovet İttifaqı da uduzacaqdır» xəbərdarlığını etdi.

Tehranla danışıqlara getmək təklifini qəbul etməyə məcbur olan güneyli lider bəzi güzəştlərlə də razılaşdı: Azərbaycanın muxtariyyəti əncümənlər formasında tanınsın; İranın Baş qərargahına tabe edilən Azərbaycan ordusu ol-

sun; Azərbaycanda milli dil işlədilsin və s.

«Güneyin razı salınması» prosesində BMT TŞ-dəki müzakirələrdə davam etdirildi (3.IV.1946). Baş katibin sorğusu (29.III.1946) İran (H.Əla) və SSRİ (A.Qromıko) tərəfindən cavablandırıldı. C.Birnsin qətnaməsi (4. IV.1946) ilə İran məsələsində müvəqqəti razılıqlar əldə edildi. Doqquz səslə (Avstraliya tərəfsiz qalmaqla) qəbul olunan altı bəndlik qətnamə əslində qoşunların çıxarılmasının başa çatdırılmasına nəzarəti nəzərdə tuturdu.

Bununla yanaşı olaraq İran-Sovet danışıqlarında (Tehran, 3.IV.1946) «üçlü məsələlər»ə – **1)** qoşunların çıxarılması; **2)** neft konsessiyaları və **3)** Azərbaycan probleminə dair prinsipial uzlaşmalar əldə edildi. Ə.Qəvam hökuməti Sovetlərin birgə neft cəmiyyəti qurmaq təklifi ilə razılaşsa da Azərbaycan məsələsinin həllini yubatmağa çalışdı.

Əslində Cənubi Azərbaycanı özünün neft maraqlarına qurban verən SSRİ rəhbərliyi (İ.Stalin) buna «göz yumdu». «Ellər atası»nın Bakı neftindən dolayı «rahatsızlığı» onun ABŞ-ın SSRİ-dəki yeni səfiri U.Smiti qəbul edərkən (4.IV.1946) də özünü büruzə verdi: «Siz neft və İran mövzularında bizim vəziyyətimizi anlamırsınız... Bakı neft yataqları bizim əsas mənbəyimizdir. Onlar İran sərhədinə yaxındır və təhlükə üçün açıqdır». «Üçlü *məsələlər*» Ə.Qəvam – İ.Sadçikov yazılı razılaşması (5.IV.1946) ilə tənzimləndi:

a) qoşunlar bir ay yarım ərzində bütün İrandan çəkilirdi;

b) qarışıq İran-Sovet neft cəmiyyətinin yaradılması yeddi ay müddətinə Məclisin təsdiqinə verilməli idi;

c) Azərbaycan məsələsi daxili işlərə aid olduğundan hökumətlə Güney əhalisi arasında sülh yolu ilə həllini tapmalıydı.

İ.Sadçikov-Ə.Qəvam razılaşmasından irəli gələn və digər problemlər Güney hökuməti ilə «Bakı üçlüyü»nün birgə geniş iclasında (5.IV.1946) kəskin mübahisələrə səbəb oldu. Adaşı ilə «Üçüncü Culfa görüşü»nü (7.IV.1946) keçirən M.Bağırov Moskvaya müəyyən təkliflər verdi. Bunlar Təbriz-Tehran danışıqlarının əsas mövzuları ilə əlaqədardı.

S.Pişəvəri Təbrizdəki İngiltərə (Uoll) və ABŞ (R.Rossou) konsulları ilə görüşlərində (10.IV.1946) Ə.Qəvamın Qərb tərəfindən də dəstəkləndiyinə əminlik hasil etdi. Amerikan diplomatının «Azərbaycanda sabitlik və qayda-qanun pozulur» şikayəti («rahatsızlığı») və S.Pişəvərini də maraqlandıran «Sovetlər Güneyi niyə belə tələsik tərk edirlər?» sualı ətrafındakı düşüncələri bəzi məsələlərə aydınlıq gətirməyə imkan verir.

İran-Sovet sazişi dövlətlərarası «münasibətlərdə yeni mərhələnin başlanması» kimi (Ə.Qəvam) dəyərləndirildi. Bu məqam BMT TŞ-dəki müvafiq müzakirələrə də «təzə abhava» gətirdi. A.Qromıko «İran məsələsinə baxılmasına daha ehtiyac qalmadığını» vuğulayaraq onun gündəlikdən çıxarılmasına cəhd etdi (6.IV.1946).

C.Birnsin təlimatı ilə ABŞ təmsilçisi E.Stettinius isə buna qarşı gedərək məsələnin Qızıl ordunun İrandan tamamilə çıxmasınadək (6.V.1946) gündəlikdə saxlanılmasını təklif etdi. Əlavə olaraq bəyan etdi ki, bu yalnız İranın müraciəti gündəlikdən götürüldükdən (6.V.1946) sonra baş verə bilər.

Bu «dilpomatik duel» Ə.Qəvamı dilemma qarşısında qoymuşdu. Gündəlikdəki İran məsələsi ilə əlaqədar siyasi gedişlər tələb olunurdu. Tehrandakı amerikan diplomatları İrana «tələsib BMT dəstəyini itirmək və Sovetlər qarşısında tək qalmaq» təhlükəsi ilə üzləşməməyi məsləhət gördülər. «İki od arasında qalan» və heç vaxt «odda yanmayan, suda batmayan» Ə.Qəvam, digər yandan da, İ.Sadçikovun hədə-

xəbərdarlığı ilə qarşılaşdı.

Onların görüşündə (13.III.1946) səfir «Sovetlərin güzəştləri hesabına hakimiyyətdə qalan» Baş nazirdən İranın BMT TŞ-yə müraciətini geri çəkməsini tələb etdi. Yenə də şəraitdən yararlanan Ə.Qəvam sovet qoşunlarının mayın 6-dək İrandan çıxarılmasına təminat istədi və bunu da aldı. BMT-dəki müzakirələrdən qurtulmağa çalışan sovet tərəfi bununla razılaşdı (14.IV.1946). Təminat güzəştinə Sovetlərin belə asanlıqla razılaşması və İranın onu tezliklə qazanması da «məşhur» Sovet bəyanatı (24.III.1946), İran-SSRİ sazişi (5.IV.1946) ilə birlikdə məhz ABŞ-ın (H.Trumenin) rəsmi Moskvaya (İ.Stalinə) təzyiqləri ilə əlaqədardı.

Nəticədə BMT TŞ Azərbaycan məsələsinə bir də baxaraq (16-24.IV.1946) ilin sonunadək onun müzakirəsinə «fasilə verdi». 16-24 aprel müzakirələrində də maraqlı məqamlar oldu. A.Qromıko məsələnin gündəlikdən çıxarılmasını istədi. İran şikayət-müraciətini geri götürdü. Ancaq müzakirələrə birdəfəlik son qoyulmadı.

ABŞ, İngiltərə, Braziliya və digər dövlətlərin təmsilçiləri buna imkan vermədilər. A.Kadoqan «Rusiyanı məsələni uzatmaqda» suçladı. E.Stettiniusu «başa bəla» adlandıran və Azərbaycan məsələsi «ən böyük mənasızlığa» duçar olub söyləyən A.Qromıko bir də belə müzakirələrə qatılmayacağını bəyan etdi. «Pravda» qəzeti isə BMT müzakirələrinin təşəbbüskarlarını «özlərini dünya qarşısında iranlılardan daha çox iranlı göstərməkdən çəkinməyənlər» kimi səciyyələndirdi.

§5. İran (Tehran) – Güney (Təbriz) danışıqları və onların nəticələri

1946-cı il aprelin sonu üçün Azərbaycan məsələsi ilə əlaqədar bəzi proseslər (mərhələlər) sona yetdi və yeniləri başladı. Bir yandan, Sovetlərin Güney siyasəti ilə bağlı «xoş» qeyri-müəyyənlik acı müəyyənliklə əvəzləndi. Qızıl ordu hissələrinin çıxarılmasına dair şübhələr və tərəddüdlər dövrü bitdi.

Digər tərəfdən də, Azərbaycan məsələsi beynəlxalq müzakirələrdən İran (Tehran)-Güney (Təbriz) danışıqları səviyyəsinə endirildi. Habelə İran-Güney münasibətləri qarşıdurma şəraitindən məsləhətləşmələr (müqavilələr) müstəvisinə keçirildi (Ancaq bu heç də böyük dövlətlərin Azərbaycan məsələsindən artıq kənarlaşmaları anlamına gəlməməlidir). Bununla da İranın «beynəlxalq və daxili siyasi böhran»dan qurtarılmasına (çıxarılmasına) başlanıldı.

Öncə müxtəlif yollar və üsullarla Təbrizlə Tehran arasındakı silahlı toqquşmalara son qoyuldu. İ.Sadçikov-Ə.Qəvam yazılı razılığı (Sovet-İran sazişi) müəyyən məsləhətləşmələrdən sonra açıqlandı (21.IV.1946) – elan edildi. R.Rossounun dediyi kimi, «özü bir sirr olan» Ə.Qəvam Güneylə bağlı ən böyük diplomatik oyununa başladı.

İran hökumətinin Cənubi Azərbaycanla bağlı yeddi bənddən ibarət qərarı (21.IV.1946) ortaya çıxdı. Qərarda əyalət və vilayət əncümənləri səviyyəsində Güneyə verilən hüquqlar, Azərbaycan (türk) dilinin işlənməsi, demokratik hərəkatda iştirak edənlərin təqib olunmamaları və digər məsələlər əhatə olunmuşdu.

Ə.Qəvamın təmsilçisi, azərbaycanlı F.İpəkçian İran-Güney (Mərkəzi və Milli hökumətlər) arasındakı danışıqların hazırlanması məqsədilə Təbrizdə S.Pişəvəri və sovet dip-

lomatları ilə məsləhətləşmələr apardı (22-23.IV.1946). Danışıqların yeri və Cənubun təmsilçiliyinin tərkibi (başçısı) məsələləri araşdırıldı.

Bu zaman milli mövqedən çıxış edən Tehran azərbaycanlısı (türkü) F.İpəkçian dəyərli və tarixi bir təvsiyə verdi: Mütləq Azərbaycan Milli ordusunun (xalq qoşununun) saxlanılmasına çalışmaq lazımdır. Onun fikrincə, bu, Ə.Qəvamın vədlərinə əməl etməsinin və neft məsələsinin qarantı ola bilərdi.

İran (Tehran)-Güney (Təbriz) danışıqları üç mərhələdən keçdi və Azərbaycan məsələsinin tarixində (taleyində) müəyyən izlər qoydu. **Birinci mərhələdə (Tehran, 29.IV.-12.V.1946)** əsas yeri «Tehranın 7 maddəsi» ilə «Təbrizin 33 maddəsi»nin uzlaşdırılması tutdu (7 maddə Mərkəzi hökumətin qərarı (21.IV.1946) idi. 33 maddəlik «Azərbaycanda indiki vəziyyətin saxlanması və demokratiya əsaslarının bütün İranda möhkəmləndirilməsi və genişləndirilməsi» sənədi isə Milli hökumətə məxsusdu).

Bu mərhələdə elə bir ciddi nəticə əldə olunmadı. Qızıl ordu hissələrinin Güneydən geri çəkilməsinin başa çatması (8.V.1946) İranın mövqelərini gücləndirən və Azərbaycanın mövcud statusunu zəiflədən amil kimi çıxış etdi. Təbriz təmsilçiliyinin 15 maddəlik yeni saziş layihəsi (10.V.1946) Ə.Qəvam tərəfindən qəbul olunmadı.

Danışıqların ilk dövrəsində baş verənlər Ə.Qəvamın İ.Stalini aldadaraq İranı xilas etməsinə dair söylənilən mülahizələri çoxaltdı: «Rusların Azərbaycanda bütün planları pozuldu»; «onlar neft cəmiyyəti məsələsində də uduzacaqlar»; «Qəvam Sovetləri elə formada uddu ki, heç Çörçill də bunu edə bilməzdi. O.Pişəvərini də bu siyasətlə udacaqdır».

Ə.Qəvam-S.Pişəvəri danışıqları bu və digər səbəblərdən Qərb diplomatlarının diqqət mərkəzində idi. ABŞ-ın

Tehrandakı yeni (11.V.1946) səfiri C.Allen bu baxımdan daha da fəal görünürdü. Azərbaycanı geri qaytarmaq məsələsinin həllinə münasibətdə İran rəhbərliyində də vahid mövqe yox idi.

Baş nazir bunu sülh (danışıqlar) yolu ilə, şahsa qanla (Güneyə ordu yeritməklə) həll etməyə çalışırdı (Baş nazir amerikan səfirlə ilk görüşündə demişdi ki, onun şahla olan çətinlikləri S.Pişəvəri ilə olanlardan daha çoxdur). Hələlik isə Ə.Qəvamın xətti üstünlük qazanmaqda idi.

Sovetlər tərəfindən tək-tənha buraxılan S.Pişəvərinin Moskvanın Güneyi aldatmasını açıqlayan çıxışları İ.Stalinin ona xüsusi məktubla müraciət etməsinə əsas vermişdi (onun mətni «Əlavələr»ə daxil edilmişdir). O, məktubu ilə (8.V.1946) Milli hökumətin başçısına «siyasət dərsi» keçmişdi: S.Pişəvəri «İranda və beynəlxalq aləmdəki durumu düzgün qiymətləndirməməkdə», «Azərbaycanın bütün inqilabi tələblərinə dərhal nail olmağı istəməkdə» təqsirləndirilirdi. **«Sovet qoşunlarının İranda olması Avropa və Asiyada bizim xilaskarlıq (?!-İ.M.) siyasətimizin əsaslarını sarsıdır»** (Seçdirmə bizimdir – İ.M.).

Mərkəzi və Milli hökumətlərin müzakirələrinin ilk turu hətta «dəmir və qanla» nəticələnmə təhlükəsini yaratdı. C.Allenin diplomatik müdaxiləsi prosesləri belə bir məcraya yönəlməsinin qarşısını aldı. Danışıqların bu dönəminin yekunları Ə.Qəvamın bəyanatında (13.V.1946) və demokratların Təbriz konfransında (14.IV.1946) açıqlandı.

Konfransda «biz bütün istəklərimizə nail olmuşuq» (?! İ.M.) deyən S.Pişəvəri habelə «Azərbaycana toxunmaq – odla oynamaqdır» xəbərdarlığını etdi. Bu çağlarda Ə.Qəvamın Güneyə «güzəştlərə meyllənməsi» də müşahidə olunurdu. Bu isə Milli hökumətlə danışıqların uğursuzluğu, SSRİ-nin himayəsinin itirilməsi qorxusunun, sovet səfirinin məs-

ləhətlərinin və s. nəticəsi idi. O, durumun qəlizliyini şahın «7 maddəlik» güzəştlərdən artığına getmək istəməməsiylə «əlaqələndirirdi».

Ə.Qəvam paralel surətdə ABŞ ilə yaxınlaşma prosesini intensivləşdirirdi. Ağ evin İranla sövdələşməyə çox meylli olması da buna əlverişli şərait yaradırdı (Sözgəlişi, ABŞ-ın Azərbaycan məsələsinə yanaşmasında fərqli mövqelər (R.Rossou, C.Allen və b.) özünü göstərirdi). Bu arada H.Əlanın BMT TŞ-yə demarşı baş verdi (22.V.1946). Məsələ burasındadır ki, o vaxtlar İranın şikayətinin TŞ-nin gündəliyində qalıb-qalmaması məsələsi şahla Baz nazir arasında fikir ayrılığı yaratmışdı.

Şah öncə üstünlük qazansa da, sonra mövqelərini itirdi. H.Əlanın şahın tərəfini tutaraq SSRİ-ni İranın işlərinə müdaxiləyə davam etməkdə suçlamasından ehtiyatlanan Ə.Qəvam müzakirələrin kəsilməsinə dair raportunu TŞ-dən keçirə bildi. İran məsələsinin TŞ-nin gündəliyindən çıxarılmasını «böyük bədbəxtliklərin başlanğıcı» kimi qiymətləndirənlər də oldu. Bəziləri isə bununla «BMT özünün ilk böyük böhranından beləcə yaxasını qurtardı» deyirdilər.

Güney Azərbaycanda antiamerika ovqatı və təbliğatının qüvvətləndiyi bir şəraitdə Tehranla Təbrizin yeni təklifləri (24; 28.V.1946) ortaya çıxdı. Milli hökumətin təklifləri Sovetlərin S.Pişəvəriyə təzyiqini yetərincə ifadə edirdi. ABŞ diplomatları (R.Rossou) belə bir məlumatı yaymışdılar: S.Pişəvəri kabinənin üzvləri ilə görüşündə «Mərkəzi hökumətə tabe olmağın vaxtıdır, əks təqdirdə ABŞ və b. Azərbaycan məsələsindən böyük dostumuz və müttəfiqimiz Rusiyaya qarşı istifadə edərlər» söyləmişdi. «Tehranla müharibə və buna ABŞ ilə İngiltərənin də qatılması müttəfiqimizin durumunun pisləşməsi və bizim də sonumuz demək olar».

1946-cı ilin payızına doğru Sovet Azərbaycanının Güneyə təsirində və Təbrizdəki «Bakı üçlüyü»nün fəaliyyətində də süstlük hiss edilirdi. SSRİ-nin Güneydə artıq könülsüz yürütdüyü siyasətin başlıca əlaqələndiricisi sayılan M.Bağırovun S.Pişəvəri ilə olan «Birinci Naxçıvan görüşündə» (8.VI.1946) Cənubi Azərbaycanın hüdudları məsələsi nəzərdən keçirildi.

Mərkəzi və Milli hökumətlərin danışıqlarının ikinci mərhələsi (Təbriz, 10-12.VI.1946) vacib bir sənədin imzalanması ilə yekunlaşdı. Tərəflər «Dövlət və Azərbaycan nümayəndələri arasında müvafiqət olunmuş qərardad» (13.VI.1946) və yazılı təminatı razılaşdırdılar. S.Pişəvəri ilə Ə.Qəvamın siyasi məsələlər üzrə müavini M.Firuzun Təbrizdə imzaladıqları on beş maddəlik **13 iyun müqaviləsinə** görə:

- Azərbaycan Milli Məclisi Azərbaycan əyalət əncüməninə çevrilməli idi (**3-cü maddə**);
- Güneyin gəlirlərinin 75 faizi yerli ehtiyaclara sərf olunmalı və 25%-i isə ümümdövlət büdcəsinə verilməliydi (**5-ci maddə**);
- orta və ali məktəblərdə dərslər fars və Azərbaycan dillərində keçilməliydi (**12-ci maddə**).

Müqaviləyə dair fərqli mövqelər (S.Pişəvəri, R.Rossou, Ə.Qəvam və b.) də açıqlandı. Güneyin lideri onu «Azərbaycan xalqının böyük tarixi qələbəsi» (?! İ.M.) və «bütün İran xalqı üçün böyük əhəmiyyəti» olan sənəd kimi səciyyələndirdi. R.Rossou isə sazişi «suverenliyin tanınması (?! İ.M.) kimi qiymətləndirdi.

Qərardada əsasən Milli Məclisin sonuncu, yəni Üçüncü sessiyası (14.VI.1946) onun fəaliyyətinə xitam verdi. S.Pişəvəri öz ərizəsi ilə dövlət qulluğundan azad edildi və ADP-nin başçısı olaraq fəaliyyət göstərdi. Mövqelərini getdikcə möhkəmləndirən Ə.Qəvamsa siyasi-diplomatik gedişlər etdi.

Ən xoşagəlməz hal isə müqavilənin gerçəkləşdirilməsi-

nə biganəlik oldu. Bu dövrün hadisələri sırasında İran şahzadəsi – xanım Əşrəf Pəhləvinin SSRİ-yə səfəri və onun gedişində Bakıda olması (VI.1946) da diqqəti cəlb edir.

Təbriz-Tehran danışıqlarının üçüncü mərhələsində də **(1946-cı ilin yayı)** müəyyən gərgin anlar yaşandı. S.Pişəvərinin «biz Azərbaycan xalqının Tehrana getmiş pullarını istəyirik» bəyanatı müzakirələrə də təsir göstərdi. «İran millətçiliyinin rəmzi» sayılan Ə.Qəvamın Tudə partyiasının liderlərini də yeni hökumət kabinəsinə daxil etməsi ingilis və amerikan diplomatlar arasında çaşqınlıq yaratdı.

Baş nazir bunun «Sovetləri sakitləşdirmək» üçün edildiyini bildirdi. O, C.Allenlə söhbətində belə bir vacib məsələni də «xırdalamışdı»: «Neft Sovetlərin İranda əsas məqsədidir. Və əgər SSRİ həm neft, həm də Azərbaycan haqqında öz istəklərini həyata keçirə bilsə, keçirəcək. Yox əgər ikisindən birini seçmək məcburiyyəti ilə qarşı-qarşıya qalsa, Azərbaycanın üstündən xətt çəkəcəkdir».

1946-cı ilin sentyabrında Tehranla Təbriz arasında məhəlli silahlı toqquşmalar da oldu. Bu arada «istefa oyunu»nu ortaya atan Ə.Qəvam yeni hökumətin qəti siyasi xəttini – bütün ölkədə İranın suverenliyinin qorunmasını rəsmən açıqladı. Baş nazirə Qərbdən (ABŞ-dan) himayə güclənməkdə idi. ABŞ İrana silah satışını genişləndirmişdi.

Bunlar həm də ABŞ-ın Orta Şərq siyasətində İranın yeri məsələsinə dair bəzi diplomat dəyərləndirmələrindən irəli gəlirdi. Habelə hərbi-siyasi qurumlar da bir sıra qənaətlərini ortaya qoydular: İran ABŞ-ın mühüm strateji maraqları olan ərazidir; o, İrandakı mülki iğtişaşların qarşısını almalıdır, əks halda güclü qonşu dövlətlər oraya müdaxilə edə və ABŞ-ın Fars körfəzindəki iqtisadi maraqlarını təhlükə altına ala bilərlər.

ABŞ Dövlət Departamenti Şərq idarəsinin rəhbəri

L.Henderson isə Azərbaycan məsələsi və neft konsessiyasından daha çox İranın Sovet nəzarəti altına keçməsindən ehtiyatlanırdı; bunun ölkəsinin mənafelərinə zidd olduğunu vurğulayırdı.

ABŞ-ın Orta Şərqdə (İranda) təsirini artırmağa çalışdığı vaxtda Ə.Qəvamla Sovetlər arasında «anlaşılmazlıq» yarandı. O, SSRİ rəhbərliyini fakt qarşısında qoymağa müvəffəq oldu. Belə ki, Azərbaycan məsələsinin tam həll olunmamasını bəhanə edərək seçkilərin keçirilməsini yubatdı. Seçkilərin tezliklə keçirilməsi isə Sovetlərin neft konsessiyası məsələsini sürətləndirmək üçün vacib şərtlərdən biri idi.

Bu əsasda qəlizləşən münasibətlər hətta İrana yeni sovet hərbi müdaxiləsi haqqında söz-söhbətlərin yayılmasına da rəvac verdi. Qərbə söykənən və BMT TŞ-yə istinad edən Baş nazir hətta Tehran-Təbriz danışıqlarını da lüzumsuz sayaraq onlara son qoydu. C.Allenlə görüşündə bunu özünün «Azərbaycana dair güzəştli-barışdırıcı siyasətinin nəticəsizliyi» ilə əlaqədəndirdi. Güneyə qarşı hərbi hazırlıqlar gücləndirildi.

Təbriz Sovetlərdən yardım istəmək məcburiyyətində qaldı. Məsələ M.Bağırovla S.Pişəvərinin «İkinci Naxçıvan görüşü»ndə (20.X.1946) müzakirə edildi. Ancaq Cənubi Azərbaycan son vaxtlarda xeyli güclənən sovet etinasızlığı ilə üzləşdi. İrandakı sovet diplomatları hətta S.Pişəvərini qınamaqdan və onun ünvanına əsassız iradlar söyləməkdən də çəkinmədilər.

Onları təkzib edən M.Bağırov həm də yaranmış çıxılmaz durumdan rahatsız idi. Ancaq o yanlışlığa yol verərək bütün bunların Mərkəzdən deyil, İrandakı sovet təmsilçilərindən qaynaqlandığını düşünürdü. Güneydə isə silahlı müqavimət xətti tutulmuşdu. Dekabrın 7-də İran Məclisinə bütün ölkə üzrə seçkilər keçirməyə hazırlaşan Ə.Qəvam hö-

kuməti də Cənubi Azərbaycana (Təbrizə) silahlı müdaxilə planlarını cızırdı.

Bu məqam və gözlənilən Tehran-Təbriz silahlı qarşıdurması beynəlxalq dairələrdə yeni müzakirələrə, yazışmalara və çəkişmələrə yol açdı. C.Birns-E.Bevin-Ə.Qəvam yazışmalarında İranın Güneyə silahlı müdaxiləsinin nəticələri və ona ilkin reaksiyalar nəzərdən keçirildi.

D.Açesonun ABŞ-ın Tehrandakı səfirinə, İran hökumətinin təlimatlandırılması ilə əlaqədar, yolladığı sənəddə bir sıra tövsiyələr verildi. Ə.Qəvama Güneydəki durumla bağlı BMT-ni «məlumatlandırmaq» məsləhət görüldü. Əslində isə ondan maraqlı tərəfləri «Güney məsələsinə dair beynəlxalq müzakirələrin təzələnməsi» hədəsi ilə sakitləşdirmək istənildi.

SSRİ rəhbərliyinin mövqeyi isə XXİK-in müavini V.Dekanozovun rəsmi Bakıya – M.Bağırova teleqramında (29.XI.1946; №127) açıqlandı. Sovetlərin «məsləhətləri»nə görə, Azərbaycana ordu yeridilməsi ilə bağlı Ə.Qəvam hökumətinə etiraz edilməliydi. Habelə 13 iyun müqaviləsinə əməl olunması istənilməliydi. Ə.Qəvamın niyyətlərindən xəbərdar olan S.Pişəvəri «Azərbaycanın azadlığını bütün Azərbaycana yayacaqları» ilə qorxudurdu.

Şahənşahlıq ordusunun Güney Azərbaycana hücumu (4.XII.1946) ilə bağlı da müəyyən diplomatik «qalmaqal» baş verdi və fəallıq yarandı. İran diplomatı H.Əla BMT TŞ sədri H.Consona xüsusi raportunda (5.XII.1946) onu «Azərbaycan əyalətindəki mövcud vəziyyət»lə tanış etdi və öz hökumətinin hərəkətlərini «əsaslandırdı».

ABŞ açıq-aydın İranpərəst mövqe tutdu. Tehrandakı səfir (C.Allen) «Azərbaycanı İranın bir hissəsi» sayaraq «ordunun ölkədaxili yerdəyişməsinin Rusiyanı qayğılandırmasını» anlamadığını bildirdi. D.Açeson isə «Rusiyanı İrana qarşı

çıxmamağa» çağırdı.

İranın «Güneyin tam işğalına dair hərbi əməliyyat planı» S.Pişəvərinin «Yaşasın Azərbaycan milləti!» çağırışı ilə cavablandırıldı. Cənubun liderləri M.Bağırova müraciət edərək (8.XII.1946) onun vasitəsilə Sovetlərdən yardım almağa cəhd göstərdilər. SSRİ-nin köməyi isə «mənəvi dəstək»dən və önəmsiz, şifahi «diplomatik etirazlar»dan ibarət oldu («Taym» jurnalı «Kremlin düz bir il əvvəl məşq etdirdiyi Azərbaycanı» unudaraq onun taleyinə biganə qalmasını «BMT-nin sülh uğrunda mübarizəsində ilk əyani qələbəsi» (?! – İ.M.) kimi səciyyələndirdi).

Şah ABŞ və SSRİ səfirlərini qəbul edərək (11.XII.1946) «Azərbaycanı İranın suverenliyi altına almaqdan» əsla çəkinməyəcəyini bildirdi. İ.Stalinin Güney Azərbaycanın başçılarına «Qəvam Baş nazir kimi formal (?! – İ.M.) olaraq... Azərbaycana ordu göndərmək huququna malikdir... silahlı müqavimətin davam etdirilməsi məqsədəuyğun, gərəkli və faydalı deyildir» tapşırığı (11.XII.1946) ilə məsələlərə nöqtə qoyuldu. S.Pişəvəri SSRİ-yə «qayıtmağa» məcbur edildi (11.XII.1946).

Müqavimət dayandırıldı və Təbriz tutuldu (14.XII.1946). İran tezliklə (20.XII.1946) bütün Güney Azərbaycanı yenidən işğal etdi. Güneydəki milli-demokratik hərəkat və tarixi muxtariyyət – müstəqillik mücadiləsi sona yetdi.

Beləliklə, beynəlxalq münasibətlərdəki Azərbaycan məsələsi də yekunlaşdırıldı. Məsələnin bu cür sonluqla «həll edilməsi» elmi-siyasi dairələrdə fərqli baxış və mövqelərin yaranmasına əsas vermişdir. Həmin yaranma və mülahizələri ifadə edən tezislər arasında aşağıdakılar diqqəti daha çox çəkir:

- «ABŞ Azərbaycanı İrana qaytardı»;
- «BMT-nin «həll etdiyi» ilk münaqişə və «BMT TŞ İranı işğaldan qorudu»;

- «İran ərazi bütövlüyünü neft vədi ilə saxladı»;
- «Güneyin milli davasının uğursuzluğu – Qərblə qarşıdurmada Sovetlərin məğlubiyyətidir»;
- «Təbriz hərəkatının «qəfil» çöküşü – BMT TŞ və ABŞ-ın qələbəsidir»;
- «SSRİ-nin İrandakı (Azərbaycandakı) nüfuzu və təsirinə sarsıdıcı zərbə».

Bu tezislərin təhlili zamanı bir sıra məqamları nəzərdən keçirmək lazım gəlir. Belə ki, «ABŞ Azərbaycanı İrana qaytardı» müddəası kifayət qədər ciddi əsaslara dayanır. Çünki əvvəllərdə Milli hökumətə müəyyən maraq göstərən ABŞ Güney hərəkatının boğulmasını – Azərbaycan məsələsinin İranın xeyrinə ədalətsiz həllini «normal və yerində» hesab etdi. Rəsmi Vaşinqtonun İrana birbaşa və BMT vasitəsilə hərtərəfli yardımı «tarixi rolu»nu qüsursuz oynadı.

Şah Güneyin milli davasının «qəfildən» uğursuzluğunun başlıca səbəbləri sırasında ən mühümü kimi ABŞ-ın İranın suverenliyini möhkəmcə dəstəkləməsini görürdü.

Azərbaycan məsələsi həqiqətən də BMT-nin «həll etdiyi» problemlərdən sayıla bilər. BMT TŞ-dəki prinsipsiz və ədalətsiz, qərəzli və məqsədyönlü «müzakirələr» Güney hərəkatının məğlubiyyətinə həlledici təsir göstərdi. BMT doğrudan da İranı sovet işğalından və Azərbaycanı itirmək təhlükəsindən qoruyanlar sırasında yer tutdu.

H.Ələnin Baş katibə yolladığı «tarixi» məktubu (5.XII.1946) – S/204 sənədini rəhbər tutan BMT Azərbaycan məsələsinə beynəlxalq münasibətlər səviyyəsində xitam verdi. İranın ABŞ-dakı səfiri (H.Ələ) isə onun ilk «qəhrəmanları»ndan oldu. Ə.Qəvamın «ölkənin ərazi bütövlüyündə «neft amili»ndən yararlanmaq taktikası ciddi nəticələri ilə özünü doğrultdu. «Neft vədi»nə isə, təbii ki, sonralar əməl olunmadı.

SSRİ Qərblə (ABŞ və İngiltərə ilə) Güneydəki tarixi

qarşıdurmanı uduzdu – «Soyuq müharibə»nin başlıca «cəbhələri»ndən birini məğlub kimi tərk etdi. Bununla da Orta Şərqdəki və Azərbaycanın cənubundakı (hətta quzeyindəki) nüfuzu və maraqlarını ağır zərbə altında qoydu.

Sovetlərin «Azərbaycan, yoxsa neft» seçimini (dilemmasını) ikincinin xeyrinə «həll etmələri», Güneyi petrola (habelə Avropadakı «xalq demokratiyası» rejimlərinə) qurban vermələri, Təbrizin «qəfil» çöküşü və digər məsələlər də elmi-siyasi təhlillərin başlıca mövzularından sayılırlar (SSRİ-nin əslində Azərbaycanı və ya onunla birlikdə nefti də qazanmağa çalışdığını, ancaq ABŞ-dan çəkinərək birincidən imtina etməsini və ikincidə də Ə.Qəvam tərəfindən aldadıldığını dəstəkləyən yanaşmalar da mövcuddur).

İ.Stalinin Güney Azərbaycanı axıradək müdafiə etməməsinin və Təbriz hərəkatının «qəfil» çöküşünün səbəblərinə dair də çoxlu elmi baxışlar və diplomat-siyasətçi dəyərləndirmələri mövcuddur. «Orta Şərqdə özü üçün pillə ola biləcək hökumətləri qoyub qaçan» Sovetlərin Güney siyasəti müəmmalarla doludur.

«Ellər atası»nın komandasının («Kreml dördlüyü»nün) Güneyi sonadək dəstəkləməyəcəyi hələ İ.Sadçikov-Ə.Qəvam müqaviləsinin imzalanması və Qızıl ordunun İrandan çıxarılması ilə verilən işarələrdən («SOS» siqnallarından) məlum idi (Yeri gəlmişkən, qoşunların çıxarılmasına «sevinmək yox, ağlamaq lazımdır» deyən M.Rəsulzadə də İ.Stalinin SSRİ daxilində bütöv Azərbaycan yaradılması ideyasına rəğbət və umid bəsləmişdi. Bəzi tədqiqatçılara (Ş.Tağıyeva və b.) görə, əslində bu ideya elə M.Rəsulzadənin özünə məxsus idi və «ellər atası» da bundan xəbərdardı).

Elmi-siyasi ədəbiyyatda Azərbaycan məsələsinin Qərbin maraqlarına uyğun olaraq həll edilməməsinin Üçüncü Dünya müharibəsini törədə biləcəyinə dair mübahisəli mülə-

hizələr də vardır.

Azərbaycan məsələsinin talesizliyi və Güneyin XX əsrdəki növbəti, yəni üçüncü uğursuzluğu («qəfil»dən məğlubiyyəti) ABŞ diplomatları – Tehranla Moskvadakı səfirlər – C.Allen və U.Smit tərəfindən fərqli yönlərdən səciyyələndirilmişdir.

Dövlət katibinə geniş raport göndərən (23.XII.1946) **C.Allenə görə:**

- Sovetlər İranın Azərbaycana ordu göndərməsini əngəlləməyə cəhd göstərdilər;
- Şahla Ə.Qəvam SSRİ-nin Güneyə yardım göstərəcəyini güman edirdilər;
- Təbriz hərəkatının qəfil çöküşü Ə.Qəvam, şah və hamı üçün gözlənilməz oldu;
- SSRİ Azərbaycan məsələsi ilə əvvəldən bəri çox pis məşğul olmuşdu. Onun keçən il ərzində **Azərbaycana verdiyi dəstək daha çox alverə bənzəyirdi** (Seçdirmə bizimdir İ.M.);
- Pişəvərinin ilk çağlarda xalqdan topladığı rəğbət və etmadı Təbrizdəki Sovet baş konsulu sarsıdırdı;
- Moskvadakı böyüklərlə Tehrandakı səfir Qəvamın psixologiyasını düzgün qiymətləndirmədilər və o da Sovetlərin hədə-qorxusundan qəzəblənərək məsələnin TŞ-yə bildirilməsindən çəkinmədi;
- SSRİ-nin öz daxili durumuyla əlaqədar düşüncələri (qayğıları), geniş xarici siyasət planları, TŞ və beynəlxalq ictimai fikrin təzyiqindən qorxusu – bu amillərdən hər hansı biri və ya bir neçəsinin kombinasiyası mühüm rol oynadı;
- TŞ İranı işğaldan qorudu;

C.Birnsə məktub yollayan (27.XII.1946) **U.Smitin fikrincə:**

- SSRİ Ə.Qəvam hökuməti ilə neft razılaşması (konsessiyası) naminə Azərbaycanı tərk etdi;
- Sovetlər Güneydə hazırlıqsız yaxalandı və öz oyuncaq rejiminə açıqca dəstək verməməyi qərara aldı (Şahla Ə.Qəvam da bu fikirdə olmuşdular);
- Britaniya naziri Konselora görə, **Təbrizin çöküşü Moskva-Tehran alverinin nəticəsi deyildi** (Seçdirmə bizimdir – İ.M.). Əsas amil İranın cürət toplayaraq tələbini BMT-də səsləndirdiyi vaxtda da qəfildən Güneyə meydan oxuyaraq onun təslim olmasını istəməsi idi. Rəsmi Moskva Cənubi Azərbaycanı açıqca dəstəkləyərək, bu işin içində olduğunu hamıya göstərmək əvəzinə, onu azərbaycanlı həmkarlarının öhdəsinə buraxdı;
- Təbriz qərarlı şəkildə müqavimət göstərsəydi, Sovetlər heç olmasa böyük bir təbliğat kampaniyası vasitəsilə onun köməyinə gələ bilərdi (?! – İ.M.);
- SSRİ-nin Güneydə quzeyli azərbaycanlılardan ibarət – İran qoşununa müqavimət göstərəcək ordu yaratmaması çox təəccüblüydü;
- Sovetlər zəif təşkilatlanmışdı və həddindən çox özünə güvənirdi;
- SSRİ-nin, öz mənafelərinin müdafiəsi üçün Cənubi Azərbaycanda arxalana biləcəyi bir qüvvə (vasitə) olmadığı təqdirdə, yeganə alternativi (seçimi) ordunu Güneyə geri gətirərək nəzarəti yenidən ələ almasıydı;
- **əgər məsələ yalnız SSRİ ilə İran arasında olsaydı** (Seçdirmə bizimdir – İ.M.), Sovet ordusu indi çoxdan Zəncanda idi. Ə.Qəvamın BMT-yə müraciəti Moskvanı TŞ və bu işlə fəallıqla maraqlanan ABŞ ilə qarşıdurmadan çəkindirdi;
- Kremlin sükut içində olması SSRİ-nin ABŞ-la qarşıda-

yanma durumuna gəlməmək istəyi ilə bağlıdır;

- Azərbaycan kartının (oyununun) uduzulması BMT-nin böyük qələbəsi (?! – İ.M.) və SSRİ əleyhinə uğurlu bir siyasətin nəticəsidir;
- Moskvanın bu alçaldıcı hadisəni unudacağı düşünülməməlidir və **o, təkcə neft naminə deyil, İranda siyasi və strateji dominasiya (üstünlük) uğrunda** (Seçdirmə bizimdir – İ.M.) da öz manevrlərini davam etdirəcəkdir.

Amerikan diplomatının mülahizə və proqnozları tezliklə özünü doğrultdu. Şahənşahlıqda amerikan hərbi missiyasına dair yeni ikitərəfli ABŞ-İran sazişinin imzalanması (6.X.1947) və SSRİ-İran müqaviləsinin (5.IV.1946) Məclis tərəfindən etibarsız sayılması (22.X.1947) Sovetləri qızışdırdı.

A.Milsponun – İrandakı sabiq maliyyə və iqtisadiyyat müşavirinin – «Amerikanlar İranda» kitabındakı (1946) Şahənşahlıq «formal suveren dövlətdir, onun müstəqilliyi real deyildir, Farsistan müstəqil idarəolunma qabiliyyətini heç vaxt isbatlaya bilməmişdir» müddəaları Sovetlərin Orta Şərq siyasətinə də müəyyən təsir göstərdi. İrandakı ingilis-amerikan təsirinə qarşı çıxan Milli Cəbhə (A.Musəddiq) dəstəkləndi. Amerikanpərəst şahlıq rejimini devirən «İslam inqilabı»na rəğbətlə yanaşıldı» və Güneydəki prosesləro («Ş.Mədari müxalifəti»nə) maraq göstərildi. ABŞ-ın çağdaş İran (Güney Azərbaycan) siyasəti də müasir Rusiyanın diqqət mərkəzində olan başlıca məsələlərdəndir.

***

Azərbaycanın Quzeyi və Güneyi İkinci Cahan hərbi dövründə və ondan sonrakı ilk çağlarda böyük – qonşu dövlətlərin planlarında daha önəmli yer tutdu. Qərb dövlətlərinin Şimali Azərbaycanı Sovetlərdən qoparmaq məqsədləri həyata keçmədi. «Üçüncü reyx»in qısa ömrü Azərbaycanı «ali irq»in əsarətindən qurtardı.

Nasizm üzərində tarixi qələbədəki «Azərbaycan xidmətinə (payına)» verilən Sovet qiyməti ədalətsizliyi ilə fərqləndi. Azərbaycan xalqı tarixi Vətənindən tamamilə deportasiya edilmək təhlükəsi ilə də üzləşdi.

Güneydəki milli-demokratik hərəkat və onun ətrafındakı geosiyasi-neft maraqları (oyunları) zəmanənin beynəlxalq münasibətlərində Azərbaycan məsələsini yaratdı. «Azadlıq mübarizəsində Orta Şərqin bütün xalqlarının önündə gedən» Güney Azərbaycan (türklər) nəticədə «İranın məğlub etdiyi ölkə və millət» durumuna salındı. «Haqqı almaq lazımdır, onu verməzlər» və «Haqqı almaq asan, onu saxlamaqsa çətin»dir söyləyən S.Pişəvəri Şimali Azərbaycanda avtomobil «qəzasına düşərək» (12.VI.1947) həlak oldu.

Uğursuz-faciəli sonluqla yekunlaşdırılan Güney hərəkatı (Azərbaycan məsələsi) həm də Yaxın və Orta Şərqi silkələyən bir mücadilə kimi səciyyələndirildi. O, Cənub-qərbi Asiya regionundakı beynəlxalq münasibətlərə ciddi təsir göstərdi və «Böyük Müharibə»dən sonrakı dünya düzənində mühüm rol oynadı.

«Yaxın və Orta Şərqə nicat verə biləcək olan» (Fransanın «Le Mond» qəzeti) bu hərəkat habelə «Şərq xalqları tarixinin mühüm səhifələrindən birini açmalı» (İranın «Keyhan» qəzeti) idi. Güney hərəkatı-məsələsinin ən başlıca yekunlarından biri isə BÜTÖV AZƏRBAYCAN ideyasının yayılması hesab olunur.

DÖRDÜNCÜ BÖLÜM

SSRİ-də AZƏRBAYCANLI-ERMƏNİ MÜNASİBƏTLƏRİ

Sovetlər Birliyinə qatılan Azərbaycan və Ermənistan SSR-lərin (təbii olaraq müvafiq xalqların) münasibətləri də yeni siyasi şəraitə – müstəviyə keçdi (keçirildi). Ancaq Ermənistanın Azərbaycanın ərazi bütövlüyünə qəsdləri və «etnik təmizləmə» siyasəti davam etdirildi. Qars müqaviləsinin və digər iki (çox) tərəfli sazişlərin SSRİ rəhbərliyi tərəfindən ermənilərin xeyrinə pozulması halları çoxaldı.

Ermənistan SSR-in Sovet Azərbaycanına qarşı təcavüzkar siyasəti və planları erməni diasporası – lobbisi, maraqlı beynəlxalq güclər və qurumlar tərəfindən dəstəkləndi. Onların diplomatik demarşları vaxtaşırı dünyanı bürüdü.

İkinci Dünya müharibəsi dövründə «Böyük Ermənistanın bərpası» işi intensivləşdirildi və bu məqsədlə də Güney Azərbaycanda «erməni muxtariyyəti» davası açıldı. Erməni terrorçu təşkilatlarının fəaliyyəti zaman-zaman Şimali Azərbaycanı da əhatə etdi.

SSRİ-dəki «mülayimləşmə»dən və «yenidənqurma»-dan da faydalanmağa yönəlik erməni planlarının hədəfi kimi həmçinin Quzey Azərbaycan seçildi. Yeni erməni-azərbaycanlı münaqişəsi törədildi. Azərbaycanın altına 1923-cü ildə qoyulan «DQMV dinamiti» 1980-ci illərin sonunda «partladıldı».

Bu işdə Sovet rəhbərliyi və böyük-qonşu dövlətlərin bəziləri maraqlı oldular. Bununla da «Soyuq müharibə»dən sonrakı dünyanın «ərazi-etnik münaqişələr bolluğu»na daha köklü, uzunsürən və hələki sonu görünməyənlərindən biri də əlavə olundu.

§1. Ermənilərin Azərbaycanın ərazi bütövlüyunə yeni qəsdləri və «etnik təmizləmə» siyasəti

Bilavasitə SSRİ-də türk-erməni münasibətləri və torpaqlarımızın yeni-yeni qəsbləri, xalqımıza qarşı aparılan «etnik təmizləmə» – soyqırımı siyasəti problemlərinin təhlilinə keçməzdən öncə «erməni məsələsi»nin o dövrki «durumu»nun qısaca nəzərdən keçirilməsinə ehtiyac vardır. Bu baxımdan məşhur Lozanna konfransı ərəfəsi, dövrü və ondan sonrakı ilk dönəmlərdə qabardılan «erməni məsələsi»ni müəyyən mənada SSRİ-dəki türk-erməni münasibətlərinin axarı üçün də çıxış nöqtəsi saymaq olar.

Mustafa Kamal paşanın «erməni məsələsi» adlandırılan bu məsələ özünün ən düzgün həllini Qars müqaviləsində tapmışdır» müddəası ilə əsla razılaşmayan hayklar «problemləri»ni beynəlxalq və məhəlli məclislərə çıxarmaq səylərini davam etdirdilər.

«Birləşmiş erməni heyəti» (A.Xatisyan, A.Aqaronyan, Q.Norandunkyan və b.) Lozanna konfransından «vahid və müstəqil Ermənistan» qazanmağa çalışdı. Bu olmadıqda isə «Milli ocağı»n («Erməni yurdu»nun) qurulmasına yardım göstərilməsi istənildi. Heyətin İngiltərə, Fransa və İtaliya hökumətlərinə ünvanladığı sənəddə (18.XI.1922) Sevr müqaviləsinin 88-ci maddəsi ilə «tanınan azad və müstəqil Ermənistan»ın gerçəkləşdirilməsi tələb olundu. «Milli Ocağ»ın yaradılması məqsədilə üç variant (layihə) təklif edildi:

1-cisi, ABŞ prezidentinin (V.Vilsonun) «verdiyi qərara» (onun «14 maddəsi» nəzərdə tutulur – İ.M.) əsasən ermənilərə bir ərazi parçasının ayrılması.

2-cisi, Ermənistan SSR-in hüdudlarının, Anadolunun Şərq vilayətlərinin bəzi hissələrinin və dənizə çıxış üçün bir

limanın ona verilməsi hesabına, genişləndirilməsi.

3-cüsü, bu ocağa (yurda) Kilikiyanın bir qisminin də qatılması.

Heyətin fikrincə, Millətlər Cəmiyyəti (MC) Nizamnaməsinin 22-ci bəndi, Sevr müqaviləsi, V.Vilsonun «14 maddəsi», London konfransı (1921), MC Baş Məclisinin toplantısının (22.X.1922) qərarı və s. ilə «Milli ocağa razılıq verilmişdi. Türkiyə hökumətinin «Erməni yurdu»nun Sovet (Rusiya) Ermənistanında qurula bilməsinə dair mülahizəsi (mövqeyi) heyət tərəfindən əsassız sayıldı. Bu zaman Ermənistan SSR-in 26 min km² ərazisinin ancaq 1.260.000 nəfərlik öz əhalisini saxlaya biləcəyi, həmin hüdudun «çox milyonluq erməni xalqı» üçün yetərsizliyi «dəlillər»i önə çəkildi.

«Milli Ocağ»ın qurulmasının ilhamçılarından sayılan lord Kerzonun və ermənilərə «sığınacaq olaraq muxtar bir bölgənin (Une zone autoneme) ayrılmasına çalışan ABŞ təmsilçilərinin səyləri nəticə vermədi. Türkiyə diplomatiyası (İ.İnönü) Anadoluda «Erməni yurdu»nun qurulmasını lüzumsuz və mümkünsüz hesab etdi.

Yalnız Boğazlar problemi və rejimi ilə bağlı məsələlərə dair müzakirələrə dəvət alan SSRİ diplomatlarının «Anadoluda Erməni yurdu» qurulmasına münasibəti də maraq doğurur. G.Çiçerinin «Birləşmiş Erməni heyəti»nin üzvləri və «Erməni Dostları Birliyi» adlı qurumla görüşləri, yazışmaları (25.I.1923 və digər) olduqca vacib bir məqamı – Sovetlərin uzaqgedən məqsədlərini aşkarlamağa imkan verir.

Sovetlər SSRİ daxilində Ermənistan respublikasının mövcud olduğu halda, Moskvanın nəzarətindən tamamilə kənarda qalan Anadoluda yeni bir erməni dövlətinin yaradılmasına yol açacaq layihəni bəyənmədi. Bu cür mövqe gələcəkdə Türkiyəyə qarşı ərazi iddiaları irəli sürərək həmin torpaqların «Ermənistan SSR-ə birləşdirilmə» adı altında

SSRİ-yə qatılması niyyətlərindən irəli gəlmişdi.

«Milli ocaq» («Erməni yurdu») layihəsini qəbul etməyən Sovet hökuməti SSRİ daxilində onlara qayğı göstərdi. Bu, müxtəlif istiqamətlərdə həyata keçirildi. Öncə Zəngəzurun bir (yuxarı və ya qərb) hissəsinin Ermənistan SSR-ə verilməsi («bağışlanması») «hüquqi əsaslarla rəsmiləşdirildi». Bunun ardınca da Azərbaycan SSR-də (Dağlıq Qarabağda) yaşayan ermənilərə muxtariyyət hüququ verildi.

N.Nərimanov «Uçqarlarda inqilabımızın tarixi»ndə (MK-Stalinə məktubda) yazırdı: «Dağlıq Qarabağ Mirzoyanın güclü təzyiqi altında muxtar vilayət elan olundu. Mənim vaxtımda bunu etmək mümkün olmurdu, ona görə yox ki, mən bu muxtariyyətin əleyhinə idim, sadəcə ona görə ki, erməni kəndliləri özləri bunu istəmirdilər. Mirzoyan bu müddət ərzində özünün erməni müəllimlərinin – daşnakların köməyi ilə zəmin hazırladı və məsələni Zaqafqaziya ölkə komitəsindən keçirdi». Beləliklə, Azərbaycan SSR daxilində Dağlıq Qarabağ Muxtar vilayəti (DQMV) təşkil olundu (7.VII.1923).

Müəyyən məkrli planların gələcəkdə gerçəkləşdirilməsi məqsədilə «Kürdüstan qəzası» da yaradıldı (6.VIII.1923). 1920-ci illərin lap sonunda ləğv edilən bu inzibati-ərazi vahidinin təşkilində ona daxil olan torpaqların da gələcəkdə ermənilərə verilməsi və digər məqsədlər güdülürdü. Tezliklə (18.IX.1923) Xankəndinin adı da Stepanakertlə əvəzləndi.

DQMV-nin təşkili ilə əslində Azərbaycanın ərazi bütövlüyünün pozulmasının davamı üçün yetərli zəmin hazırlandı. Və Qərbi Azərbaycanda (Ermənistan SSR-də) yaşayan soydaşlarımızın muxtariyyət hüququ «unuduldu». Həmin dövrdə Azərbaycan SSR daxilində öncə Naxçıvan SSR (VI.1923) və az sonra (9.II.1924) da muxtar SSR (Nax. MSSR) yaradıldı.

Təşkili həmçinin ikitərəfli (Moskva) və çox (dörd) tərəfli (Qars) beynəlxalq müqavilələrlə razılaşdırılan bu muxtariyyət bölgənin fərqli geosiyasi şəraiti ilə əlaqədardı. Ermənilərin və havadarlarının bu muxtariyyətə həm də mahalın torpaqlarının onlara ötürülməsinə imkan yaradacaq bir vasitə kimi yanaşmaları da istisna olunmur.

Ermənilərə sovet qayğısının digər və başlıca istiqamətlərindən birini də Qars müqaviləsinin şərtlərinin onların xeyrinə pozulması, yəni Ermənistan SSR-in ərazilərinin Azərbaycan torpaqları hesabına genişləndirilməsi, böyüməsi təşkil edir. Belə ki, müqavilə təsdiqləndikdən az sonra Dərələyəz əhalisinin Cüney Azərbaycanda və Naxçıvan mahalında qaçqın olmasından istifadə edildi; onun ərazisi Ermənistana qatıldı. Tezliklə Naxçıvan MSSR-in və bəzi qəzaların sərhədlərinə yenidən baxıldı.

Zaqafqaziya MİK RH-nin iclasında (1. I.1927; 2 saylı protokol, 5-ci bənd) respublikalararası sərhədlərdə: Mehri-Cəbrayıl qəzalarından 24 kəndin və həmin qurumun digər toplantısında (20.VI.1927; 18 saylı protokol, 1-ci bənd) isə Zəngəzur-Kürdüstan qəzalarının 1.065 desyatin ərazisinin bu və ya digərinə aidiyyatı məsələlərinə Ermənistanın xeyrinə olaraq baxıldı.

Yenə də həmin qanunverici hakimiyyət orqanının M.Sxakayanın sədrliyi, Azərbaycan SSR-in nümayəndələrindən M.Bağırov, D.Bünyatzadə və b. iştirakı ilə keçirilən iclasında (18.II.1929; 3 saylı protokol) Mehridə rayon yaratmaq adı altında Zəngilanın üç kəndi (Nüvədi, Ernəzir, Tuğut) Ermənistana verildi.

Zəngilanın «başçıları» bunu həmin kəndlərin rayon mərkəzindən xeyli aralı (uzaq) olmaları və müxtəlif səmtlərdə yerləşmələri üzündən onlarla əlaqənin çətinliyi və s. ilə «əsaslandırmışdılar». 1929-1931-ci illərdə Nüvədi, Əldərə,

Lehvaz, Astazur və s. yaşayış məntəqələrinin Ermənistana verilməsi hesabına həmin ərazilərdə Mehri rayonu yaradıldı.

Zaqafqaziya Sovetləri MİK RH-nin 1929-cu il 18 fevral tarixli iclasında (3 saylı protokol, 3-cü bənd), Qars müqaviləsinin əsas tərəflərindən olan Türkiyənin mövqeyi (rəyi) nəzərə alınmadan Naxçıvan mahalının 657 kv. km. sahəsi (Şərurun üç, Şahbuzun altı kəndi və Ordubad qəzasının Qərçivan sovetliyinə aid olan Mehri, Buğakər yaşayış məntəqələri, habelə Kilitin bir hissəsi) Ermənistana verildi.

Bu qurumun başqa bir iclasının (5.III.1938) qərarına əsasən isə Şərur mahalının Sədərək və Kərki kəndləri ətrafındakı bəzi ərazilər də Ermənistana keçdi. Həmin qərarı da Azərbaycanın «təmsilçiləri» olaraq onun MİK-inin Millətlər şöbəsinin müdiri İsaxanyan və İşlər idarəsinin başçısı Qadaqçyan imzalamışdılar.

Beləliklə, Zəngəzurun Cənub-qərb hissəsinin də ermənilərə «bağışlanması» və burada Mehri rayonunun təşkili ilə Azərbaycan özünün tərkib hissəsi olan Naxçıvan bölgəsindən ayrı salındı. Bununla da Quzey Azərbaycan parça-parça edildi, onunla qardaş Türkiyə arasında əlaqə pozuldu və torpaqlarımızın sonrakı qəsbləri-işğalına yeni zəmin yaradıldı.

SSRİ rəhbərliyi sovet dövləti və ictimai quruluşu üçün yaranan ən ağır dövrdə İkinci Dünya müharibəsi zamanı da ermənilərə himayəsini azaltmadı. Əksinə hətta Tehran konfransında V.Molotov İ.Stalinlə məsləhətləşmələrdən sonra diaspora (lobbi) və kilsənin ermənilərin İrandan Ermənistan SSR-ə köçmələri məsələsinə dair müraciət-təkliflərinə müsbət yanaşdı.

Bu iş İranda müharibə ilə bağlı yaranan ağır «maddi-iqtisadi durum»la əlaqələndirildi. Urmiyə ətrafında «kiçik erməni muxtariyyəti» qurulması ilə bağlı kilsə və müəyyən

qüvvələr tərəfindən aparılan əkstəbliğata baxmayaraq hayklar köçürülmə xəbərini müsbət qarşıladılar. Keçirilən çoxlu mitinqlərdə İ.Stalinə və Sovet rəhbərliyinə təşəkkürlər ifadə olundu.

Böyük müharibədən sonrakı ilk vaxtlarda sovet ermənilərinin Şimali Azərbaycan torpaqlarına yiyələnmək cəhdləri daha da intensivləşdi. Şəraitə uyğun taktika seçildi, yəni «hüquqi-siyasi əsaslara»a, Sovetlər İttifaqının «maraq və mənafeləri»nə istinad olundu.

Ermənistan K(b)P MK-nın Birinci katibi Q.Harutyunov İ.Stalinə müraciət edərək (XI.1945) DQMV-nin Ermənistan SSR-ə birləşdirilməsini «məsləhət gördü». Erməni lideri bunu vilayətin «iqtisadiyyatının qonşu respublika ilə sıx bağlılığı və ümumsovet mənafeləriylə əsaslandırmağa çalışdı».

ÜK(b)P MK katiblərindən G.Malenkov vasitəsilə M.Bağırova göndərilən «erməni müraciəti»nə ikincinin cavabı (mövqeyi) Mərkəz və İrəvan üçün «sovqat» oldu. O, Şuşa çıxılmaqla Yuxarı Qarabağın Ermənistan SSR-ə keçməsinə etiraz etmədiyini bildirdi.

Ancaq Ermənistan və Gürcüstan müttəfiq, habelə Dağıstan muxtar respublikalarının Azərbaycan SSR ilə həmhüdud olan və əsasən azərbaycanlılar yaşayan, tarixən də ölkəmizə mənsub ərazilərinin (söhbət Zəngəzur, Borçalı, Dərbənd və s. gedir – İ.M.) qaytarılmasını istədi. «Yersiz daxili siyasi qalmaqala» əsla ehtiyac duymayan rəsmi Moskva məsələni böyütmədi.

Azərbaycan torpaqlarına «siyasi-hüquqi əsaslar»la sahib çıxmağın hələlik alınmaması taktikanın əvəzlənməsi ilə nəticələndi. Bu dəfə onlar Azərbaycanın tarixi coğrafiyasında zaman-zaman yürütdükləri «etnik təmizləmə» («yandırılmış torpaq») taktikasına üstünlük verdilər. Qərbi Azərbaycanın (Ermənistan SSR-in) türk-müsəlman əhalisinin köçürülməsi planları cızıldı. Buna görə də Tehranda bəyənilən və razılaşdırılan «ermənilərin İrandan köçürülməsi proqramı»na əlavələr edildi.

İrandan köçürülənlərin Ermənistanda məskunlaşmaları üçün Qərbi Azərbaycanın türk-müsəlman əhalisinin deportasiyası qənaətinə gəlindi. Həmin qənaət «sovet iqtisadiyyatının tərəqqisi tələbatı» ilə əlaqələndirildi. Azərbaycan SSR-in Kür-Araz ovalığında pambıqçılığın inkişafı üçün «axtarılan» işçi qüvvəsi Ermənistanda «tapıldı». Qərbi Azərbaycanın əsasən dağlıq ərazilərində yaşayan maldar əhalinin Kür-Araz ovalığında (aran rayonlarda) pambıqçılıqla məşğul olması «məsləhəti» verildi.

SSRİ Nazirlər Soveti «Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında» qərar (23.XII.1947; №4083) qəbul etdi. Onun digər – birinciyə əlavə bir qərarı (10.III.1948; №754) ilə də xüsusi müvafiq tədbirlər müəyyənləşdirildi.

Həmin qərarlara əsasən 1948-1953-cü illərdə təxminən 150 min azərbaycanlı tarixi Vətənindən kütləvi surətdə zorakılıqla məlum dislokasiya yerlərinə köçürüldü. Onların bir hissəsinin dağlıq ərazilərdə (Yuxarı Qarabağda, Qubada və s. yerlərdə) məskunlaşdırılmasına yönəlik səylərin qarşısı dərhal və qətiyyətlə alındı. Ən başlıcası da 4083 saylı qərarın 11-ci maddəsinə əsasən azərbaycanlı əhalinin tərk etdiyi ərazilərə xaricdən gələn ermənilərin yerləşdirilməsi işi sistemli qaydada təşkil olundu.

Bu deportasiya ilə paralel surətdə A.Mikoyanın təşəbbüsü və rəsmi Moskvanın himayəsi ilə «gizli» «Qarabağ hərəkatı» meydana gəldi. Ona rəhbərlik üçün yenə də «məxfi» şəkildə «Qarabağ komitəsi» yaradıldı.

İ.Stalinin vəfatından (III.1953) sonra SSRİ rəhbərliy-

ində mövqeyi daha da möhkəmlənən - İliçdən (V.Leninдən) İliçə (L.Brejnevə) qədər gəlib çıxan, «1918-ci ildən qalma məşhur» – A.Mikoyan partiya və sovet dairələrindəki ermənipərəstlərlə birləşib DQMV-nin Azərbaycandan qoparılmasına yönəlik səylər göstərdi. Paralel surətdə ABŞ ermənilərinin bayram münasibətilə – Ermənistan SSR-in 40 illiyi ilə bağlı Naxçıvanın ona «hədiyyə edilməsi» təklifi (1960) təşkil olundu. Yeri gəlmişkən, AK(b)P MK-nın ideoloji işlər üzrə katibi N.Hacıyev bunun yolverilməz və mümkünsüz olduğunu əsaslandıran mükəmməl bir sənəd hazırlamışdı.

SSRİ-də erməni-azərbaycanlı münasibətləri və respublikalararası ərazi-sərhəd dəyişiklikləri məsələsi hətta 1960-cı ildə Sov.İKP MK Siyasi Bürosunun müzakirəsinə də çıxarıldı. Sovetlərin o dövrki rəhbəri N.Xruşşov Azərbaycanın mövqeyini dəstəklədi. Bu isə əslən ukraynalı olan Birinci katibin (Nazirlər Soveti sədrinin) lap yaxınlarda (19.II.1954) Ukraynaya verilən Krım vilayətinin yenidən Rusiyaya qaytarılması tələbləri ilə üzləşmək qayğısı və qorxusundan irəli gəlmişdi (Yoxsa onun 1950-ci illərin sonlarında İrəvanda olarkən ermənilərə Azərbaycan torpaqlarından «yeni pay» vədinə əməl edəcəyi gözlənilən iş (akt) idi).

Sovet cəmiyyətindəki «mülayimləşmə» prosesi erməniləri Azərbaycan torpaqlarına yeni qəsdlərə ruhlandırdı. 1965-ci il bu işdə «mühüm bir mərhələ» oldu. Qaniçən quldur Andranikin anadan olmasının 100 illiyinin SSRİ-nin paytaxtında və digər böyük şəhərlərində bütün müttəfiq respublikaların rəsmilərinin iştirakı ilə təntənəli surətdə qeyd olunması (I.1965), ona dövlət səviyyəsində «Xalq qəhrəmanı» statusunun verilməsi, ən başlıcası da «erməni soyqırımı»nın 50 sənədən sonra A.Mikoyanın səyilə rəsmən «anılması» və s. «yeni dönəm»in ilk böyük tədbirləri sayıla bilər.

Ermənilərin «Naxçıvan komitəsi» yaradaraq bu tarixi

mahalımıza qarşı iddialarını gücləndirdikləri bir vaxtda Azərbaycanın elmi-ziyalı mühiti»nə olduqca diletant və bəsit düşüncə hakim kəsilmişdi: «Naxçıvana muxtariyyət verən Lenin milli siyasəti onun muxtariyyətini qoruyacaqdır!» Habelə torpaqlarımızın Ermənistana verilməsinə dair vaxtilə çıxarılan qərarlar (1927, 1929, 1938) Azərbaycanın partiya (26.XI.1968) – Sovet (7.V.1969) «rəhbərliyi» tərəfindən təsdiqləndi. 80-ci illərin ortalarında da Qazax, Gədəbəy, Ordubad və s. rayonların ərazilərindən otlaq, əkin yeri və digər adlar altında ermənilərə «torpaq payları» verildi.

§2. Erməni kilsəsi və diasporasının Sovet Ermənistanının planlarına dəstəyi

Sovet Ermənistanı Azərbaycanın quzeyi və güneyi ilə əlaqədar planlarını gerçəkləşdirərkən qriqorian kilsəsindən və erməni diasporasından (lobbisindən) hərtərəfli yardımlar almışdır. Bu yardımlar siyasi-mənəvi himayə, qüvvətli-maliyə dəstəyi və s. ifadə olunurdu. Tarixin dolaşıq və qarışıq dönəmlərindən (inqilablar, müharibələr) həmişə yararlanmağa çalışan erməni kilsəsi və diasporası, daşnak siyasi mühacirəti və onun yaratdığı lobbi şəbəkəsi Lozanna konfransındakı uğursuzluqlan sonra da öz «tarixi planları»nı reallaşdırmaq niyyət-səylərindən imtina etmədi. İkinci Dünya savaşının başlanması onlar tərəfindən geniş perspektivlərin və taleyüklü uğurların başlanğıcı kimi qiymətləndirildi.

İ.Stalinin beynəlxalq siyasətində iki Azərbaycanın SSRİ-nin tərkibində birləşdirilməsi ideyasının da özünə yer alması ermənilərin də çeşidli planlar və layihələr üzərində düşünmələrinə şərait yaratmışdı. Sovet hərbi kəşfiyyatının məlumatlarında bildirilirdi ki, ermənilər «Qarsdan Təbri-

zəcən Sovet Ermənistanı da daxil olmaqla «Böyük Ermənistan» yaratmaq haqqında fikirləşirlər.

İrana sovet hərbi müdaxiləsinin ilk günlərində xüsusi əməliyyat qrupu ilə oraya göndərilən Ermənistan SSR XDİK-in müavini Gözəlyan erməni rəhbərliyinin gizli niyyətlərini beə ifadə etmişdi: Sovet ordusunun tutduğu «İran ərazisi» Azərbaycanla Ermənistan arasında təsir dairələrinə bölünməlidir. Onun fikrincə, Ermənistan Təbrizdə daha çox maraqlıdır, nəinki Azərbaycan.

Sovet siyasəti və s. vasitəsilə Güneydə (Təbrizdə) möhkəmlənməyə çalışan ermənilər müxtəlif yollara və üsullara əl atırdılar:

a) bölgədə sosial gərginlik yaratmağa cəhdlər göstərilirdi. Təbrizli erməni zənginlərindən daşnak Budaqyan qardaşları şəhərdə süni ərzaq (şəkər və s.) qıtlığı törətməyə çalışırdılar. Durum qəlizləşdiyindən «Ə.Əliyev qrupu», Təbrizdəki ingilis və türk konsulları da işə müdaxilə etməli olmuşdular. Vəziyyət Bakıdan gətirilən ərzaq məhsulları hesabına normallaşdırılmışdı. Budaqyan qardaşları Tehrandakı sovet səfirliyinin əməkdaşı Ovanesyan tərəfindən himayə olunurdular. Onların təmasları, səfirliyin işçisinin heç bir rəsmi tapşırığı olmadan Təbrizə gəlib daşnak qardaşlarla görüşməsi və onları müdafiə etməsi S.Pişəvəri ilə M.Bağırovu xeyli qayğılandırmışdı. Araşdırmalar nəticəsində Budaqyanların SSRİ-nin Təbrizdəki baş konsulu A.Krasnı tərəfindən də yetərincə dəstəklənməsi aşkar olunmuşdu. Budaqyanlar İrandakı Sovet qoşunlarının komandanı Novikovu da ələ alaraq ondan müxtəlif məlumatlar qoparıb lazım bildikləri yerlərə ötürürdülər;

b) Qızıl ordunun və əməliyyatçılar qrupunun tərkibində Güneyə gələn erməni hərbçiləri (çekistləri) əhalini hiddətləndirən hərəkətlərə yol verirdilər (Gözəlyanın bir vətəndaşın avtomobilini mənimsəməsi və s.). Onların bu cür əməlləri və siyasi niyyətləri M.Bağırovun bəzi tədbirlər görməsini şərtləndirmişdi. O, Güney Azərbaycanın türk əhalisi, habelə İrandakı ermənilər və kürdlər arasında iş aparan sovet qruplarının bir-birilərini təkrarlamalarını əsas tutaraq Ermənistan əməliyyatçılarının (kəşfiyyat qrupunun) geri çağırılmasına çalışmışdı. Ancaq onun SSRİ-nin müvafiq komissarlıqlarının rəhbərliklərinə məktubunda (I.1942) yazılırdı ki, erməni əməliyyatçılarının İrandan çıxması barədə XDİK-in göstərişi olmasına baxmayaraq onlar hələ də orada öz işlərini davam etdirirlər;

c) İranda şəraitə uyğun olaraq həm də faşistpərəst – Almaniya yönlü təbliğat aparan ermənilər bu işi bilavasitə öz maraqlarına tabe etdirmişdilər. Onlar Güneyin də sovetləşdirilməsi və Azərbaycanın birləşdirilməsindən qayğılanaraq nasistpərəst təbliğatlarını bu kimi tezislər əsasında qururdular: Almaniya üzərində qələbə çalındığı təqdirdə SSRİ öz qoşunlarını İrandan çıxarmayacaqdır; İran Azərbaycanında da Sovet hakimiyyəti və kollektiv təsərrüfatlar (kolxozlar) qurulacaqdır;

ç) ermənilər Təbrizdəki ingilis-amerikan iqtisadi dairələri, missioner qurumları və s. ilə də sıx əməkdaşlıq edirdilər. İngilis neft şirkəti ilə bankının Təbrizdəki şöbəsinin başçılarından biri, şəhərdəki ABŞ missioner cəmiyyətinin xəzinədarı, amerikan xəstəxanasını idarə edən və digərləri də ermənilər idi;

d) «Güneyin Türkiyəyə «ilhaqı» və «iki Azərbaycanın birləşəcəyi»ndən ciddi rahatsızlıq keçirən ermənilərin mühüm bir hissəsi İran Xalq partiyasının (Tudənin) rəhbərliyində toplanmışdı. Onun liderlərindən biri olan Ə.Ovanesyan açıq və gizli yollarla Azərbaycan milli hərəkatının və Güneyin muxtariyyətinin qarşısının alınmasına çalışırdı. O, hərəkata

tamamilə müxalif olduğunu sonralar belə ifadə etmişdi: Azərbaycan hərəkatı M.Bağırovla S.Pişəvərinin şəxsi planları və diqtələri əsasında yaranmışdı; M.Bağırov beş milyonluq Güney Azərbaycanla üç milyonluq Quzey Azərbaycanı birləşdirərək Ukraynanın qarşısına qoymağı və orada özünün ağalıq etməsini istəyirdi. Güney hərəkatına və ADP-yə qarşı çıxan Ə.Ovanesyan həm Sovetlərə işləyridi (Tehrandakı səfirə məlumatlar ötürürdü), həm də İrandakı müxtəlif dipomatik nümayəndəliklərlə şübhəli əlaqələr saxlayırdı. Bunlar da çoxlu problemlər doğururdu.

M.Bağırov 1944-cü ildə İ.Stalinə yazırdı ki, tərkibi əsasən azərbaycanlılardan ibarət olan güclü siyasi təşkilatın (Xalq partiyasının) başında indiyədək erməni Ə.Ovanesyan dayanır. Onun şübhəli «diplomatik əlaqələri» sovet orqanlarını da narahat edirdi. Buna görə də, öncə ondan Güneydəki işlərə qarışmamaq tələb olundu. Sonradan da o, SSRİ-yə gətirildi (Belə bir fakt da maraq doğurur: Azərbaycan Xalq Konqresi Milli Heyətinin 39 üzvündən biri də erməni mədəniyyət cəmiyyətinin sədri S.Mkrtıçyan idi).

SSRİ-nin Avropada müharibəni udaraq Orta Şərqdə hərbi ekspansiyaya başlamaq planları erməni diasporası və kilsəsini xeyli fəallaşdırdı. Belə bir şəraitdə «Böyük Ermənistan»la sərhəddə – Urmiyə ətrafında «kiçik muxtariyyət»ə nail olmaq istəyi ortaya çıxdı. Bu məqsədlə də İran ermənilərinin Urmiyəyə «köç»ü təşkil olundu. Ermənilərin Urmiyə ətrafında «kiçik muxtariyyət» əldə etmək planları ilə bağlı maraqlı və vacib bir məqam da sovet diplomatlarının SSRİ XXİK-dəki qeyri-rəsmi müzakirəsində (I.1946) açıqlanmışdı.

Azərbaycan SSR XXİK-in müavini Ə.Əlizadə, SSRİ XXİK-i Orta Şərq şöbəsinin müdir əvəzi S.Siveç və Ermənistan SSR XXİK-i Karapetyan arasındakı «nahar yeməyi diplomatiyası»nda sonuncu bunları bildirmişdi: Ermənilərin

xaricdən, o cümlədən də İrandan Ermənistana köçürülməsi planlaşdırılır; köçürülmə məsələsi ancaq Cənubi İran ermənilərinə aiddir; biz Şimali İran (Güney Azərbaycan – İ.M.) ermənilərinin də sovet Ermənistanına köçürülməsinə icazə verməyəcəyik.

Göründüyü kimi, ermənilər Güney Azərbaycanda möhkəmlənməkdə və Urmiyə ətrafına toplanmaqla orada «kiçik muxtariyyət»ə iddialı və inamlı idilər (Sözgəlişi, ABŞ diplomat-hərbiçiləri Təbrizdəki qriqorian kilsəsinin başçısı N.Məlik-Tangiyanla söhbətlərində (XI.1945) Qars, Ərdəhan və digər ərazilərin Ermənistan SSR-ə qatılacağı təqdirdə Güney Azərbaycan ermənilərinin oraya köçüb-köçməyəcəklərini keşiş vasitəsilə aydınlaşdırmağa çalışmışdılar).

Buna görə də «Böyük Ermənistan»a və «kiçik erməni muxtariyyəti»nə yetişmək üçün silahlanmaya başlanıldı. Təbrizdəki erməni kilsəsinə və məktəbinə xeyli silah-sursat toplanılmışdı. Kilsə tudəçi, daşnak və haçakçı ermənilərı bir araya gətirmişdi. N.Məlik-Tangiyan həm ingilis kəşfiyyatı ilə əlaqələrə malik idi, həm də sovet xüsusi xidmət orqanlarına işləyirdi. O habelə daşnakların himayədarı kimi tanınırdı.

Erməni diasporası və kilsəsini ruhlandıran hadisələrdən biri də hələ G.Çiçerinin Lozanna konfransı zamanı nəzərdə tutduğu planın işə düşməsi oldu. Belə ki, SSRİ böyük hərbin sonuna yaxın Türkiyə ilə münasibətlərini nəzərdən keçirdi (Bunu Türkiyəyə qarşı irəli sürüləcək ərazi iddialarına hazırlıq kimi də səciyyələndirmək olar).

V.Molotov Türkiyəyə nota verərək (19.III.1995) müddəti artıq bitmək üzrə olan (7.XI.1945) SSRİ-Türkiyə müqaviləsinə (17.XII.1925) yenidən baxılmasını istədi. Baş sovet diplomatı bu «zərurəti böyük hərbin beynəlxalq aləmdə yaratdığı dərin dəyişikliklər»lə əlaqələndirdi. Türkiyənin Mos-

kvadakı səfiri S.Sarperin yeni ikitərəfli sazişin imzalanmasını mümkün sayan və istəyən sorğusu (7.IV.1995) diplomatik sükutla qarşılandı.

Lakin tezliklə bu sükuta aydınlıq gətirən və onu pozan hadisələr baş verdi. Erməni diasporası xaricdə (ABŞ-da) və qriqorian (Eçmiədzin) kilsəsi isə SSRİ daxilində hərəkətə keçdilər. Diaspora (lobbi) – Amerika Ermənilər Milli Şurası San-Fransisko konfransına (IV-VI.1945) bəyannamə təqdim etdi. Eçmiədzin Milli Kilsə yığıncağı isə İ.Stalinə teleqram yolladı.

Bir-birilərindən çox uzaq məsafələrdə hazırlanmalarına baxmayaraq onların məzmunu (mətni) təxminən eyni idi. Bəyannamə və teleqramda «erməni məsələsi»nin həlli – «Ata torpaqlarının qaytarılması» istənilirdi. Konkret olaraq isə Türkiyənin Şərq vilayətlərinin Ermənistan SSR-ə birləşdirilməsi və «xaricdəki ermənilərin öz doğma ölkələrinə qayıtmaları»na şərait yaradılması xahiş edilirdi.

Bu hadisə-hərəkətlərlə paralel surətdə digər bir kilsə-diaspora tədbiri də görüldü. Dünyadakı erməni qurumlarının liderləri havadarlarının təmsilçiləri ilə birlikdə İrəvana toplaşdılar. Eçmiədzin kilsəsinə yeni katolikos seçkisi bəhanəsi ilə düzənlənən (VI.1945) bu toplantıda siyasətə – «erməni məsələsi»nə geniş yer verildi.

Toplantıya qatılan tanınmış din xadimləri, o cümlədən də ingilis kilsəsinin başçıçı Conson ermənilərin «haqlı və ədalətli» istək-tələblərini açıqcasına dəstəklədilər. Xaricdəki erməni qurumları, dini təşkilatları Potsdam konfransına və digər beynəlxalq toplantılara da mıvafiq müraciətlər göndərdilər.

SİTA «erməni məsələsi» ilə bağlı xüsusi Məlumat yaydı. Ermənistan SSR mətbuatında Türkiyəyə ərazi iddialarından bəhs edən yazılar dərc olundu. Təbrizdəki daşnak

mətbuatı «erməni məsələsi» ətrafındakı kilsə-diaspora və sovet fəallığının səbəblərini açıqlayan çoxlu məqalələri çap elədi. Habelə erməni din adamları, zənginlər və siyasi liderlər də müəyyən məqamları açıqlayan mülahizələr söylədilər. Bunları və müvafiq mətbuat dəyərləndirmələrini belə ümumiləşdirmək olar:

1. Bu dövrdə «erməni məsələsi»nin uğurlu həllində Türkiyəyə qarşı ərazi iddialarının təmin olunması və Azərbaycanın torpaqlarının qəsb edilməsi işində «SSRİ amili»nə üstünlük verilməsi. Təbriz ermənilərinə görə, onların milli məsələsi yalnız Sovetlərin rəsmi müdaxiləsi hesabına həll oluna bilərdi. N.Məlik-Tangiyan demişdi: «Biz Moskvanın hesabına sərhədlərimizin genişləndirilməsinin və xaricdən Ermənistana qayıdışın şahidiyik. İndi artıq bunun vaxtıdır, bir neçə ildən sonra xarici həyat tərzinə alışan yeni nəsil yaranar və bu mümkünsüz olardı. Stalinə teleqram vurulması çox ağıllı fikirdir. Bizim üçün nə edəcəkçə bu adam edəcək».

2. Sovetlərin «erməni məsələsi»nin həllinə girişməkdə özəl maraqlara malik olması. Burada iki məqam vurğulanırdı:

a) Rusiyanın Şərq siyasətinin gerçəkləşdirilməsi, SSRİ-nin Orta Şərqdə hərbi ekspansiya planları və bu baxımdan da Türkiyəyə ermənilər və gürcülər vasitəsilə ərazi iddiaları sürərək onun torpaqlarına yiyələnməsi;

b) «erməni məsələsi»nin indiki zamanda həm də Bakı neft sənayesinin təhlükəsizliyi ilə sıx bağlı olması (Yeri gəlmişkən, az sonra İ.Stalin də amerikan səfiri ilə görüşündə (4.IV.1946) Bakı neft rayonu ilə əlaqədar «rahatsızlığı»nı dilə gətirmişdi). Tudəçi ermənilərdən H.Ovanesyan bildirirdi ki, «Bakı neftinin təhlükəsizliyi sərhədlərin Leninakandan bir qədər o tərəfə çəkilməsini tələb edir. İndiki anda «erməni məsələsi»nin qaldırılması bu zərurətlə bağlıdır. Sovetlər Bakının təhlükəsizliyi məsələsində həddindən artıq maraqlıdır-

lar» (Üçüncü bölümdə də vurğulandığı kimi, Bakı neft rayonunun «müdafiəsi məsələsi» SSRi-nin Orta Şərqə yönəlik hərbi ekspansiyasını «əsaslandırmaq» üçün ortaya atılan «dəlillər»dən biri idi. Ermənilər də bunu özlərinə lazım olan səpkidə şərh edirdilər).

3. Erməni kilsəsi və diasporasının (lobbisinin) «milli davası»-tələblərinin Sovetlər tərəfindən dəstəklənməsi. Bu fikrə sahib çıxanlara görə, aşağıda sadalanan tədbirlərin hamısı «üçlü» (qriqorian kilsəsi+erməni diasporası+Sovetlər) fəaliyyətin nəticəsi idi:

- Amerika Erməni Milli Şurasının San-Fransisko konfransına təqdim olunan bəyanatı;
- Eçmiədzin kilsə yığıncağının İ.Stalinə teleqramı;
- dünya erməni qurumlarının İrəvan toplantısı və ingilis din adamı Consonun oradakı çıxışı;
- SİTA-nın «erməni məsələsinə dair Məlumatı.
- Ermənistan SSR mətbuatının Türkiyəyə qarşı ərazi iddiaları ilə dolu məzmunlu yazıları.

«Erməni məsələsi» ətrafındakı o dövrki kilsə-diaspora fəallaşmasının Moskvanın dirijorluğu ilə baş verməsi gözönündə idi. Görülən işlərin – edilən hərəkətlərin SSRİ rəhbərliyi ilə razılaşdırılması heç kəsdə şübhə doğurmurdu. Buna görə də ermənilər V.Molotovun Türkiyəyə məlum notasına da nikbin münasibət bəsləyirdilər. «Əgər Moskvanın razılığı olmasaydı, Amerika ermənilərinin bəyannaməsi də meydana çıxa bilməzdi».

SSRİ-Türkiyə münasibətlərinin perspektivlərinə dair erməni proqnozları (öngörmələri) özünü çox da gözlətmədi və doğrultdu. Belə ki, Sovet diplomatiyası «erməni məsələsi» (tələbləri) ətrafında lazımi ictimai rəyi formalaşdırdıqdan və xaricdəki, SSRİ-dəki «əzabkeş xalqı» yetərincə fəallaşdırdıqdan sonra Türkiyə ilə olan «ərazi-sərhəd problemləri»nin

tənzimlənməsinə girişdi.

Onun Moskvadakı böyük elçisinin sorğusu birlikdə nəzərdən keçirildi. Yeni sovet-türk «dostluq» müqaviləsinin bağlanmasından öncə bir sıra əsla qəbulolunmaz diləklərlə (şərtlərlə) bərabər dövlətlərarası sərhədlərin Qafqazdan keçən hissələrində «ermənilərin və gürcülərin xeyrinə müəyyən dəyişikliklər» edilməsi istənildi.

Özünün Şərqdəki tarixi maraqlarının gerçəkləşdirilməsi yolunda başlıca qüvvə (əngəl) kimi Türkiyəni görən Sovetlər (Rusiya) onun «zərərsizləşdirilməsi»ndə «erməni məsələsi»ilə yanaşı «gürcü kartı»ndan da yararlanmağa çalışdı. Bu məqsədlə də «böyük üçlüy»ün XİN-lərinin Moskva müşavirəsi zamanı iki gürcü akademikinin «İzvestiya» qəzetində (20.XII.1945) «Türkiyəyə bizim qanuni tələblərimiz haqqında» adlı geniş yazının dərci təşkil olundu.

Elə Moskva müşavirəsindən də SSRİ-Türkiyə sərhədlərində dəyişikliklər edilməsi, yəni Qars və Ərdəhanın Ermənistana, Trabzonla çevrəsinin isə Gürcüstana qaytarılması (?! - İ.M.) tələb edildi. Rəsmi Ankaranın sərt etirazı ilə üzləşən Sovet rəhbərliyi Trabzon, Qars və Ərdəhana dair «gürcü-erməni tələbləri»ni 1946-cı ilin əvvəllərində daha da rəsmiləşdirdi.

Erməni generalı (şəmkirli) İ.Baqramyanın Güneydəki Sovet ordusunun komandanı təyin olunması onun həmmillətini ümidləndirdi. Ancaq eyni zamanda SSRİ-nin Türkiyə ilə münasibətlərinə və İran (Güney Azərbaycan) siyasətinə də müxtəlif aspektlərdən təsir göstərdi.

1946-cı il beynəlxalq münasibətlərdə və türk-erməni əlaqələrində həm də qriqorian kilsəsi ilə diasporanın «diplomatik» demarşları ilə səciyyələnir. Uruqvaydakı 8 min erməni adından çıxış edən Erməni komitəsi ilin əvvəlində BMT BM sədrinə teleqram yolladı. Teleqramda Türkiyənin

«əlində qalan» erməni ərazilərinin Sovet Ermənistanına verilməsi istənildi. Təxminən eyni məzmunlu müraciət 30 minlik Argentina ermənilər adından həmin ünvana edildi.

«Ermənistanın hüquqlarını Amerika Müdafiə Komitəsi»nin sədri Smit BMT TŞ-də çıxış edərək «müdafiəsinə qalxdığı xalqın ədalətli tarixi tələbləri»nə əməl olunmasını vacib saydı. ABŞ-dakı 16 erməni təşkilatı BMT Baş katibi T.Liyə məktub (V.1946) göndərdi. Məktubda «erməni məsələsi»nin mütləq TŞ-də müzakirəyə çıxarılması tələb olundu. Onlar bunu dünyadakı dörd mln. erməninin «öz torpaqlarını Türkiyədən istəməsi ilə izah etdilər».

Xaricdəki (Livan, Kaliforniya və s.) erməni kilsələrinin müraciət – tələbləri dünyanı bürüdü. Bu müraciətlərdə:

a) «erməni məsələsi»nin BMT TŞ-də müzakirəsi zəruri sayıldı; **b)** V.Vilsonun «14 maddəsi»nə əməl olunması – Türkiyənin şərq vilayətlərinin Ermənistan SSR-ə verilməsi tələb edildi. Dünya Erməniləri Birliyinin Nyu-York Konqresində (1947) Qars və Ərdəhanın Sovet Ermənistanına ilhaqı ilə bağlı BMT-yə müraciət qəbul olundu. Bütün bu işlər Ermənistan SSR-dəki qüvvələr, Eçmiədzin kilsəsi və onların Moskvadakı havadarları tərəfindən müxtəlif formalarda dəstəklənirdi.

Yenidən fəallaşan «Daşnaksütyun» partiyası özünün XIV konqresində (1947) Azərbaycana dair işğalçılıq niyyətlərini bir daha açıqladı. M.Bağırov bu toplantı və orada səsləndirilən çağırışlarla bağlı İ.Stalinə xüsusi məktubla müraciət etdi. 1967-ci ildə DQMV-də azərbaycanlı əhaliyə qarşı törədilən zorakılıq hərəkətlərində daxildəki qüvvələrlə yanaşı xaricdən olan təsirlər də mühüm rol oynadı.

Dünya ermənilər din xadimlərinin Eçmiədzin toplantısında (1969) kilsənin qüvvətləndirilməsi yolları adı altında Türkiyəyə və Azərbaycana qarşı ərazi iddialarının reallaşdırılması məsələləri nəzərdən keçirildi. Sovet rəhbərliyinin buna sərt münasibəti əsla hiss olunmadı.

70-ci illərdə qriqorian kilsəsi və diaspora «erməni genosidi» və «türk-müsəlman düşmənçiliyi» təbliğatını gücləndirdi. Erməni terrorçu təşkilatları: ASALA, ARA, ASALA-RM və digərləri Türkiyə diplomatlarına qarşı 1973-1985-ci illərdə dəhşətli terrorlar törətdilər. Bakıda da xeyli erməni təxribatı təşkil olundu. Uzun illər ərzində Azərbaycanın rəhbərliyində, müxtəlif strukturlarında möhkəm mövqelərə sahib olan ermənilər diasporalarının və qriqorian kilsəsinin, Ermənistan SSR-in niyyət və planlarının həyata keçirilməsində «beşinci kolon» rolunu oynadılar.

§3. Yeni erməni-azərbaycanlı münaqişəsinin törədilməsi və SSRİ rəhbərliyinin, böyük-qonşu dövlətlərin mövqeləri

Ermənilər yeni sovet lideri «M.Qorbaçovun yenidənqurması»nı da özlərinin tarixi maraqlarının gerçəkləşdirilməsi üçün münasib dövr hesab etdilər. Xaricdəki güclərin imkanları SSRİdaxili səylərlə birləşdirildi. «Daşnaksütyun»un XXIII qurultayında (Afina, XII.1985) Azərbaycana qarşı ərazi iddialarına yeni rəvac verildi. «Xalqların tribunalı» («Xalqlar dövlətlərə qarşı») təşkilatının Sarbonn və s. toplantılarından yararlanılmasına yönəlik səylər nəticəsiz oldu.

BMT Komitəsinin – Uiteykerin «Genosid halları» məruzəsinin BM-in XXXVIII sessiyasında (VIII.1985) müzakirəsi zamanı «erməni məsələsi»nin də «yada salınması»na cəhdlər göstərildi. Eçmiədzin katolikosu I Vazgenin ABŞ-dakı görüşlərində (1987) «erməni soyqırımı» məsələsi önə çəkildi. Avropa Parlamenti tərəfindən «erməni soyqırımı qurbanları»nın xatirə gününün təsis edilməsinə nail olundu (VI.1987). ABŞ senatoru B.Doul və b. layihələri ortaya çıxdı.

SSRİ-də azərbaycanlılarla ermənilər arasında vaxtaşırı özünü göstərən gərginlik 80-ci illərin ortalarında daha da artdı (Azərbaycan SSR DTK-nın hələ xeyli əvvəl (24.VIII.1946) hazırladığı «DQMV-nin erməni ziyalılarının bəzi hissələri arasında mənfi əhval-ruhiyyə haqqında»kı arayışda göstərilənlər öz «bəhrələri»ni verdi). Öncə ideoloji-təbliğati müstəvidə yaşanan bu gərginlik az sonra digər sahələrə də sirayət etdi.

Sovet rəhbərliyinin önləyici tədbirləri Ermənistanda ideoloji işdəki «qüsurlar»ı qeyd etməkdən o tərəfə getmədi. Z.Balayanın «Ocaq» kitabındakı tarixi ağ yalanlar və böhtanlar, S.Kapitukyanın əsassız iddiaları və digər çoxlu ideoloji-mənəvi təxribat (terror) halları Azərbaycan rəhbərliyi səviyyəsində cavabsız qaldı. Əksinə Azərbaycan SSR EA-nın əməkdaşı İ.Qəmbərovun Z.Balayanın «Ocaq»ına cavab olan sanballı tədqiqatının yayılmasına qətiyyən imkan verilmədi.

Erməni-sovet akademiki Aqanbekyanın Parisdə «Humanite»yə müsahibəsində (18.XI.1987) söylədiyi «Qarabağ Azərbaycandan çox Ermənistanla bağlıdır» tezisi ermənilərlə azərbaycanlılar arasında yeni münaqişənin yaranmasına təkanvuran hadisələrdən oldu. Sov.İKP MK-nın Baş katibi M.Qorbaçovun SSRİ-də «milli məsələnin həllində təəssüfləndirici ləngimə»nin mövcudluğu baxışı da ermənilərin «Qarabağ davası»na yaşıl işıq yandırdı. Moskvadakı imkanlı erməri diasporası və lobbisi fəallaşdı.

DQMV-də «Miatsum» («Birləşmə») hərəkatı genişləndi. «Krunk» («Durna») təşkilatı yarandı. A.Mikoyanın himayəsi ilə hələ 40-cı illərin sonlarında yaradılan «Qarabağ komitəsi fəallaşdı. DQMV sovetinin sessiyası vilayətin Ermənistana birləşməsi barədə qərar (20.II.1988) çıxardı. Az sonra da Ermənistan SSR-in Ali soveti analoji qərar qəbul etdi. Bütün bunlarsa Bakıda kütləvi tələbə etirazları və digər nümayişlərlə qarşılandı. M.Qorbaçovun Azərbaycan və Ermənistan zəhmətkeşlərinə – xalqlarına müraciəti məsələlərə ədalətsiz yanaşması üzündən təsirsiz qaldı.

SSRİ DTK-sı ilə sovet-diaspora ermənilərinin birgə səyləri ilə Sumqayıt fitnəkarlığı (28.II.1988) törədildi. «Sumqayıt hadisəsi» əslində ermənilərin Azərbaycan torpaqlarına yeni qəsdlərinə ideoloji-təbliğat hazırlığı idi. Ermənilərin 1988-ci ildəki fitnəkar və bəd əməlləri tarixi «Meydan hərəkatı» (17.XI-5.XII.1988) ilə cavablandırıldı.

İlin sonunda Qərbi Azərbaycanda yaşayan soydaşlarımızın dəhşətli soyqırım halları ilə müşayiət olunan kütləvi deportasiyası həyata keçirildi. DQMV-də yaşayan 187,8 min nəfər əhalinin 40,3 mini (1989-cu il sovet əhali siyahıyaalınmasının yekunlarına görə), yəni azərbaycanlılar «girov» saxlanıldı.

Vilayətin Azərbaycandan qoparılması prosesi sürətləndirildi. Həm də bu işin «hüquqi bazası» yaradıldı. Ermənipərəst A.Volskinin («Atrsaxski»nin) başçılığı ilə DQMV Xüsusi İdarəetmə Komitəsi təşkil olundu (12.I.1989). Sovet «güc nazirlikləri»nin «Qasırğa» əməliyyatı (19-20.I.1990) ermənilərin Dağlıq Qarabağda və digər yerlərdəki silahlı pozuculuq hərəkətlərinə yaxşı şərait yaratdı.

1991-ci ilin sentyabrında qondarma «DQR» elan olundu. Bunun ardınca da Azərbaycan rəhbərliyi xalqın tələbi ilə DQMV-ni ləğv etdi (26.XI.1991). 80-ci illərin ortaları – 90-cı illərin lap əvvəlində Azərbaycana rəhbərlik edənlərin (K.Bağırov, Ə.Vəzirov, A.Mütəllibov) SSRİ-də gedən siyasi proseslərin mahiyyəti və perspektivlərini, onların ətrafında yürüdülən beynəlxalq siyasətin məqsədlərini yetərincə obyektiv dəyərləndirə bilməmələri ölkəmizin durumunu xeyli ağırlaşdırdı.

Yeni erməni-azərbaycanlı münaqişəsinə (müharibəsinə) böyük və qonşu dövlətlərin ilkin münasibəti də fərqli oldu. Bu yanaşmaları (mövqeləri) tezisvari belə ifadə etmək olar:

1. Qardaş Türkiyənin Azərbaycana siyasi-diplomatik himayəsi və mənəvi dəstəyi.

2. Erməni təbliğatının «əsirliyi»nə düşən və onların diaspora-lobbilərinin «girovu»na çevrilən Qərb diplomatiyası və ictimaiyyətinin ikili yanaşması.

3. İranın ermənipərəst mövqeyi.

Münaqişəyə bu cür çoxqatlı kənar münasibətin qərəzli daxili – sovet siyasəti ilə üst-üstə düşməsi onun daha da dərinləşməsinə və böyüməsinə imkan yaratdı.

***

SSRİ-də azərbaycanlı-erməni münasibətləri ilə əlaqədar proseslər əsasən gizli və qismən də açıq qarşıdurma şəraitində cərəyan etdi. Sovetlərin (Rusiyanın) siyasətinə müvafiq olaraq Azərbaycan torpaqlarının Ermənistana verilməsi davam etdirildi. Bunun hesabına da Quzey Azərbaycanın ərazisi 114 min kv. km-dən 86,6 min km²-ə qədər azaldı. Ermənistan SSR-in «torpaqları»nın sahəsi isə 10 min kv. km-dən təxminən 30 min kv. km-dək böyüdüldü (Bu göstəricilər yeni münaqişənin başlanmasına qədərki durumu əks etdirir).

Qərbi Azərbaycanda yaşayan soydaşlarımız sovet dövrünün ən dəhşətli deportasiyalarından biri ilə üzləşdilər. Yeni münaqişənin əvvəlində Yuxarı Qarabağın azərbaycanlı əhalisi də tədricən köçkünlərə çevrilməyə başladı. Ermənilər İkinci Dünya müharibəsi zamanı Güney Azərbaycanı da «bölüşdürməyə» hazırlaşdılar. Və ən azından burada bir «kiçik erməni muxtariyyəti» yaratmağı hədəfə aldılar.

Sovet və Güney ermənilərinin məkrli planları onların diasporaları və kilsələri tərəfindən hərtərəfli dəstəklənirdi. Böyük və qonşu dövlətlərin, habelə Sovet rəhbərliyinin yeni erməni-azərbaycanlı münaqişəsinə fərqli – özəl maraqlar müstəvisində yanaşmaları və s. onun hələ də davam etməsini şərtləndirdi.

BEŞİNCİ BÖLÜM

AZƏRBAYCAN SSR SOVETLƏR İTTİFAQININ BEYNƏLXALQ ƏLAQƏLƏRİNDƏ (1945-1991-ci illər)

Quzey Azərbaycan, İkinci Dünya müharibəsindən sonrakı dövrdə də, SSRİ-nin beynəlxalq əlaqələrində yaxından iştirak etdi. Bu, əsasən, dünyanın ictimai-siyasi həyatına qatılma və beynəlxalq hümanitar əlaqələrə qoşulma istiqamətində getdi. Moskvanın müəyyənləşdirdiyi hüdudlarda və çərçivədə beynəlxalq proseslərə qoşulma ölkəmizin dünyada az da olsa tanınmasına müsbət təsir göstərdi.

§1. Beynəlxalq ictimai-siyasi proseslərə qatılma səyləri

«Soyuq müharibə» dönəmi SSRİ-nin beynəlxalq əlaqələrinə müxtəlif yönlərdən təsir etdi. 1940-cı illərin ikinci yarısından 50-ci illərin ortalarınadək olan dövr Qərblə qarşıdurmada həm də «ideoloji-psixoloji» müharibənin, sovet cəmiyyətinin qapalılığının xeyli şiddətlənməsi ilə səciyyələnir.

Şərq-Qərb münasibətlərinin «dəmir pərdə» dönəmi kommunist totalitar rejiminin cəmiyyətin (sovet adamlarının) «mənəvi-psixoloji» cəhətdən daha da «möhkəmləndirilməsi qayğıları»nı artırmışdı (50-ci illərin ortalarından etibarən başlanan sovet «mülayimləşməsi» dözülməz vəziyyəti qismən də olsa yumşaltdı). Sovet «qapalı cəmiyyətini inkişaf etdirən və möhkəmləndirən» SSRİ rəhbərliyinin siyasəti və planlarında Şimali Azərbaycanı başlıca ideoloji forpostlardan (dayaqlardan) birinə çevirmək mühum yer tuturdu.

Azərbaycan SSR-in Sovetlər İttifaqının beynəlxalq qarşılıqlı əlaqələrində iştirakı, təbii olaraq, SSRİ-nin bağla-

dığı müqavilələr, sazişlər və digər dövlətlərarası diplomatik aktlar əsasında və çərçivəsində təmin edilirdi. Beynəlxalq aləmdə «demokratik cəmiyyət» və «müstəqil sovet respublikalarının birliyi» görüntüsünü yaratmaq məqsədilə formal «xarici siyasət fəaliyyəti»nə müvafiq qurumların təşkilinə icazə verilmişdi.

SSRİ-də müharibədən sonrakı ilk vaxtlarda aparılan «struktur islahatları»na əsasən Azərbaycan SSR XXİK-i XİN-ə çevrildi. Azərbaycan SSR XİN-ə M.Əliyev, T.Tahirova, E.Qafarova, H.Sadıxov başçılıq etdilər. Bakıda İran (1971) və İraq (1974) konsulluqlarının açılması da müəyyən siyasi mülahizələrə görə məsləhət bilindi.

Ölkəmizin beynəlxalq ictimai-siyasi proseslərə qoşulmaq istiqamətindəki fəaliyyəti aşağıdakı yollar və vasitələrlə həyata keçirilmişdi.

Birincisi, ictimaiyyət nümayəndələrinin qarşılıqlı səfərləri. Bunlar SSRİ (Sovet Azərbaycanı) tərəfindən başlıca olaraq bir sıra sülh, dostluq, mədəni əlaqə və s. cəmiyyətlər vasitəsilə təşkil olunurdu. Onlara misal olaraq Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyətini, Azərbaycan Sülhü Müdafiə Komitəsini, Asiya və Afrika ölkələri ilə respublika həmrəylik Komitəsini, Xaricdə yaşayan həmvətənlərlə əlaqə «Vətən» cəmiyyətini və digərlərini qeyd etmək olar. Bu işdə SSRİ-nin müxtəlif dövlətlər üzrə yaratdığı dostluq cəmiyyətlərinin respublika şöbələri də önəmli rol oynadılar.

Adıçəkilən və habelə digər qurumların xətti ilə Azərbaycanın müxtəlif peşə sahibi olan ictimaiyyət nümayəndələrinin xarici ölkələrə səfərləri təşkil edildi. Həmçinin bu təşkilatlar tərəfindən xeyli tədbirlər həyata keçirildi. 50-ci illərin əvvəllərindən etibarən ictimaiyyət təmsilçilərinin qarşılıqlı səyləri çoxalmağa başladı.

Bu dövrdə Şərqi Avropa ölkələrinin, İtaliya, Hindistan və b. dövlətlərin ictimaiyyət nümayəndələri Azərbaycanda oldular. 1954-cü ildə Bakıda 5 dostluq görüşü keçirildi. Azərbaycana 1961-ci ildə 20 xarici nümayəndə heyəti gəldi. Asiya və Afrika ölkələri ilə respublika həmrəylik Komitəsinin (29.IV.1961), Latın Amerikası ölkələri ilə dostluq və mədəni əməkdaşlıq assosiasiyasının respublika bölməsinin (1962) yaradılması qarşılıqlı səfərlərə təkan verdi.

1970-80-ci illərdə bu cür səfərlərin sayı artdı. Həm də müxtəlif qurumlararası əlaqələr genişləndi. Belə ki, əgər respublikamızın ictimaiyyəti 1970-ci ildə dünyanın 60 ölkəsinin 100 ictimai-siyasi təşkilatı ilə əlaqələrə malik idisə, 1990-cı ildə bu göstəricilər müvafiq olaraq 125-ə və 870-ə çatmışdı.

Xarici ölkələrin ictimaiyyət nümayəndələrinin Azərbaycana səfərlərinin dinamikası isə belə idi: 1961-1970-ci illərdə orta hesabla 110 ölkədən 150-dən çox, 1981-1990-cı illərdə isə 150-dən yuxarıya dövlətdən 3000-ə yaxın. Həmin heyətlərin üzvləri müxtəlif vaxtlarda Azərbaycan SSR-də yüz mindən artıq iştirakçısı olan 30 mindən çox tədbirdə iştirak etmiş, 20.000-dən yuxarı görüşlər keçirmişdilər.

Azərbaycan Sülhü Müdafiə Komitəsinin, Respublika Müharibə Veteranları Komitəsinin və Sülhə Yardım Fondu komissiyasının fəaliyyətləri də ictimaiyyət nümayəndələrinin əlaqələrinin genişlənməsinə şərait yaratmışdı. Respublika Sülhü Müdafiə Komitəsinin xətti ilə 1981-1990-cı illərdə sülh və müharibə problemlərinə dair 28.000 mitinq, 321 sülh marşı və yürüşləri keçirilmişdi. Azərbaycan gənclərinin «Mən sülhə səs verirəm» həftəsinə (1986) yüz mindən çox yeniyetmə qatılmışdı (Təbii ki, sadalanan və digər tədbirlərdə kampaniyaçılıq, formalçılıq və s. hallar da olmuşdu).

Azərbaycanlıların ayrı-ayrı ölkələrdəki diasporalarının toparlanması və təşkilatlanmasında, ictimaiyyət təmsilçilə-

rinin qarşılıqlı səfərlərinin təşkilində «Vətən» cəmiyyəti də xeyli işlər gördü. 1987-ci ildə yaradılan bu cəmiyyətin xətti və vasitəçiliyi ilə 1990-cı sənədə respublikamıza 10 xarici nümayəndə heyəti gəldi və Azərbaycandan da 15 təmsilçilik müxtəlif ölkələrdə oldu.

İkincisi, xarici ölkələrin dövlət xadimlərinin respublikamıza missiyaları. Bu hal (forma) bir o qədər də geniş yayılmamışdı. Yəni birbaşa, rəsmi səfərlər mümkünsüz idi. Əsasən Sov.İKP-nin qurultaylarında (ən çoxu da XXIV-XXVI; 1971, 1976, 1981) iştirak edən sosialist ölkələrinin partiya-dövlət başçıları və digərləri xüsusi qrafikə, qaydalara müvafiq surətdə Azərbaycanda olmuşdular. Habelə İran şahı (M.Rza), Türkiyənin Baş naziri (S.Dəmirəl) və başqaları da SSRİ-nin həmin dövlətlərlə əlaqələri (Moskvadakı danışıqlar və s.) çərçivəsində yolüstü Bakıda dayanmışdılar.

Digər tərəfdən də, SSRİ-nin beynəlxalq siyasətinin bəzi xətləri və prinsiplərinə uyğun olaraq müttəfiq respublikaların başçılarının ayrı-ayrı dövlətlərə səfərləri də təşkil edildi. Məsələn, Azərbaycan KP MK-nın Birinci katibi H.Əliyev Bolqarıstan, Vyetnam və s. ölkələrdə oldu. Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd (1976) və üzv (1982) seçilməsi onun həm də sovet rəsmi nümayəndə heyətlərinin tərkibində bəzi dövlətlərə səfər etməsinə şərait yaratdı.

Üçüncüsü, Bakıda keçirilən beynəlxalq ictimai-siyasi tədbirlər. Sovet xarici siyasət təcrübəsinə əsasən ayrı-ayrı müttəfiq respublikalara bəzi beynəlxalq miqyaslı tədbirlərin «ev sahibliyi hüququ» da verilirdi. Bu kontekstdə də 70-ci illərdə Bakıda iki böyük beynəlxalq toplantı keçirildi: **a)** dünya milli-azadlıq hərəkatı və **b)** Sov. İKP-nin Sülh proqramı ilə əlaqədar problemlərlə bağlı.

SSRİ-də başlanan «yenidənqurma» prosesləri digər müttəfiq respublikalarla yanaşı Azərbaycan SSR-in də beynəlxalq ictimai-siyasi tədbirlərə qatılma imkanlarını artırdı (Azərbaycan SSR XİN-i E.Qafarova BMT-də çıxış etdi və s.). 80-ci illərin sonuna doğru SSRİ-də və Şərqi Avropa ölkələrində vüsət alan milli-demokratik hərəkat Qüzey Azərbaycanının yenidən dövlətlərarası münasibətlər sisteminə qatılmağa hazırlaşmasına xeyli təsir göstərdi.

Azərbaycanda yaranan yeni ictimai-siyasi təşkilatların təmsilçilərinin Azərbaycan Xalq Cəbhəsi və digərlərinin beynəlxalq toplantılarda iştirakı halları çoxaldı. Ölkəmiz bir sıra beynəlxalq və regional birliklərin (BMT, Avropa Şurası, ATƏT, İKT və s.) diqqətini daha çox çəkməyə başladı.

Azərbaycanın dövlətçiliyinin (müstəqilliyinin) XX əsrdə yenidən bərpası – ikinci dəfə qazanılması (18.X.1991) ərəfəsində ölkəmiz beynəlxalq ictimai-siyasi proseslərə inteqrasiya yolunda müəyyən işləri görə bilmişdi.

§2. Dövlətlərarası iqtisadi və hümanitar əlaqələrdə iştirak

Azərbaycanın iqtisadi və mədəni potensialı ona Sovetlər İttifaqının bu sahələrdəki beynəlxalq əlaqələrində də yaxından iştirak etməyə imkan vermişdi. Ümumsovet (Rusiya) maraqları və mənafeləri çərçivəsində gerçəkləşdirilən bu əlaqələr çoxşaxəli olmuşdu:

1. İqtisadi-ticarət sahələrində əməkdaşlıq.
2. İki (çox) tərəfli elmi-mədəni və idman əlaqələri.
3. Qardaşlaşmış şəhərlər hərəkatında iştirak.

Ölkəmiz SSRİ-nin dünya dövlətləri ilə beynəlxalq iqtisadi-ticarət əməkdaşlığının başlıca qollarından olmuşdur. Azərbaycanın bu əlaqələrdə iştirakının səviyyəsi, əsas istiqamətləri və nəticələrini, onların sosiyyəvi cəhətlərini ümu-

miləşdirilmiş şəkildə aşağıdakı kimi ifadə etmək olar:

a) respublikamızın xarici aləmlə iqtisadi-ticarət əlaqələri uzunmüddət yalnız neft emalı və xammal satışı sahələrini əhatə etmişdir. 1965-ci ildə 50 ölkəyə neft və neft məhsulları ixrac olunurdu; onlar (xammal) xarici ixracatın 62 faizə qədərini təşkil edirdi. 60-cı illərin ikinci yarısından etibarən iqtisadi əməkdaşlıq və ticarət dövriyyəsi neft maşınqayırması, kimya, habelə digər sahələr hesabına genişləndi. Bu da tezliklə 60-dan çox ölkəyə 300 növ sənaye məhsulunun ixrac olunmasına şərait yaratdı;

b) respublikanın beynəlxalq iqtisadi-ticarət əlaqələri Azərbaycandakı ənənəvi və Ümumittifaq əmək bölgüsü ilə də şərtlənirdi. Buna görə də onun dünyanın neft emal edən ölkələri (İran, Kuba, Rumıniya, Misir və s.) ilə əməkdşalığı önə çıxmışdı.

b) SSRİ-nin vahid xalq təsərrüfatı kompleksindən çox asılı olan Azərbaycan iqtisadiyyatı beynəlxalq iqtisadi əlaqələrin durmadan yüksələn tələbləri ilə də üzlaşa (ayaqlaşa) bilmirdi;

ç) beynəlxalq iqtisadi-ticarət yarmarkaları və sərgilərində yaxından iştiraka böyük önəm verilirdi. Respublikamız 70-80-ci illərdə 25-dən çox belə tədbirə qatılmışdı;

d) qonşu və digər müsəlman ölkələri ilə iqtisadi əməkdaşlıqda bir sıra dövlətlərarası nəhəng tikintilərdə iştirak və ticarətin təşkili də mühüm yer tuturdu. Misirdəki Asuan bəndi, Araz çayı üzərində İranla birlikdə inşa olunan «Dostluq» kompleksi və s. buna misal ola bilər. Hətta Azərbaycan SSR hökuməti «Asuan bəndinin birinci növbəsinin inşasına yardım tədbirləri haqqında» ayrıca qərar da (22.XI.1962: №899) qəbul etmişdi. Azərbaycan SSR Nazirlər Sovetinin başqa bir qətnaməsi (19.IV.1968) İranla ticarətin genişləndirilməsini nəzərdə tuturdu;

e) Azərbaycanın xalq təsərrüfatının tamamilə sovet siyasətinin məqsədlərinə tabe etdirilməsi respublikamızın iqtisadi təhlükəsizlik sisteminin yaradılmasını əngəlləyir, onu bir sıra ciddi problemlərlə üzləşdirirdi. Ölkəmizin beynəlxalq iqtisadi-ticarət əlaqələrinin səviyyəsi və hüdudları da bu iş üçün yetərsiz idi.

Azərbaycanın iki(çox)tərəfli humanitar əlaqələrinə gəldikdə isə burada aşağıdakıları önə çəkmək lazımdır:

- elm və təhsil sahələrindəki əməkdaşlıq;
- dövlətlərarası ədəbi-mədəni əlaqələr;
- beynəlxalq Olimpiya hərəkatında və digər idman yarışlarında iştirak, turizmin inkişafı yönündə işbirliyi.

Azərbaycanın 1945-1991-ci illərdəki dövlətlərarası humanitar əlaqələrində, əlalxüsus da **elm, təhsil** və mədəniyyət sahələrindəki səmərəli əməkdaşlıqda bir sıra beynəlxalq təşkilatların və bəzi respublika səviyyəli idarə-müəssisələrin önəmli xidməti danılmazdır. Bu baxımdan YUNESKO-nun fəaliyyətində iştirak, Azərbaycan SSR EA-nın təşkili (1945) və s. xüsusi olaraq qeyd olunmalıdır.

Sovet müttəfiq respublikalarından yalnız Ukrayna və Belorusiya SSR-lərin rəsmən təmsil olunduqları YUNESKO Quzey Azərbaycanın beynəlxalq humanitar əlaqələrinin genişlənməsinə xeyli kömək etmişdir. Soydaşımız R.Abutalovun da uzunmüddət (1971-ci ildən) həmin qurumdakı sovet təmsilçilərinin sırasında olması buna özünün təbii müsbət təsirini göstərmişdi.

Elmlər Akademiyasının yaradılması, respublikada ali təhsil sistemi şəbəkəsinin tədricən genişlənməsi elm-təhsil sahələrindəki əməkdaşlığa imkanlar açdı. 80-ci illərdə EA-nın əməkdaşları hər il 51 ölkənin təxminən 570 elmi təşkilat və mərkəzi ilə əlaqələrə malik olmuşdu. Onlar 40 mühüm elmi problem üzrə birgə tədqiqatlar aparmışdılar. Yenə də həmin

onillikdə minə qədər alimimiz xarici ölkələrə elmi ezamiyyətə getmişdi və əcnəbi dövlətlərin dörd minədək tədqiqatçısı respublikamıza gələrək təcrübə mübadiləsi etmişdilər.

Bu dövrdə alimlərimiz 60-dan çox beynəlxalq elmi toplantıya qatılmışdılar. 20 nəfər müxtəlif beynəlxalq elmi qurumların üzvü seçilmişdi. Azərbaycan bu dövrdə SSRİ-nin Afrika ölkələri, ərəb dövlətləri, Kuba, Əfqanıstan və digərləri üçün kadr (ən çoxu da neft sənayesi üzrə) hazırlayan başlıca mərkəzlərindən biri olmuşdu. Təkcə 1986-cı ildə respublikada 70 ölkədən olan üç minə yaxın gəncə 29 ixtisas üzrə ali təhsil diplomu verilmişdi.

Respublikamızın **ədəbi-mədəni əlaqələri** daha çox sahələri əhatə etmişdi: **a)** kitab çapı və mübadiləsi yönündə əməkdaşlıq; **b)** bədii ədəbiyyat yazarlarının görüşləri; **c)** incəsənətin müxtəlif sahələrində (musiqi, teatr, kino, memarlıq və b.) əlaqələr qurulması; **ç)** mədəniyyət günlərinin təşkili və s.

Azərbaycan SSR-in o dövrki ədəbi-mədəni əlaəqələri, o cümlədən **kitab mübadiləsi** sahəsindəki əməkdaşlığı əsasən sosialist dövlətləri və qonşu ölkələr (İran, Türkiyə) ilə olmuşdu. Bu işdə beynəlxalq kitab sərgi-yarmarkalarında iştirak və orada imzalanan sazişlər mühüm əhəmiyyət kəsb etmişlər. Məsələn, onlardan 41-cisində (Frankfurt Mayn, 1989) respublikamızın müvafiq qurumları İran, İtaliya, Almaniya, İngiltərə və s. dövlətlərin kitab şirkətləri ilə müqavilələr bağlamışdılar.

Respublikanın çoxlu kitabxana və nəşriyyatları («Şərq-Qərb» və b.) «Beynəlxalq kitab» xətti ilə geniş miqyaslı mübadiləni həyata keçirirdilər. Respublika Dövlət kitabxanası 1981-1985-ci illərdə xarici ölkələrə on minə qədər ədəbiyyat yollamış və özü də on bir mindən çox kitab almışdı. EA-nın kitabxanası 1991-ci ildə 53-ə yaxın xarici ölkədəki 580-ə qədər elmi mərkəzlə əlaqələr saxlayırdı. O, 1980-

1991-ci illərdə xaricdən 110.000-dən çox elmi ədəbiyyat almışdı və özü də 105.000 ədəd kitab göndərmişdi.

Ölkəmizin ədəbi klassiklərinin əsərlərinin xaricdəki nəşrləri xeyli çoxalmışdı. YUNESKO işləri üzrə SSRİ Komissiyası M.Füzuli və M.Axundovun əsərlərinin Qərb dillərinə tərcümə olunmasını tövsiyə etmişdi (1.1959). Kitab mübadiləsində ölkələrarası qarşılıqlı kitab sərgi və ongünlüklərinin imkanlarından da yaranlanılırdı.

Ədəbiyyat xadimlərinin və habelə **jurnalist-əlaqələrinin** yaranması və inkişafına müvafiq beynəlxalq toplantılarda iştirakın müsbət təsiri oldu. Həmin tədbirlərə bunları misal göstərmək olar: *Asiya və Afrika yazıçılarının konfransı* (1958); respublikamızda və xarici ölkələrdə qarşılıqlı surətdə keçirilən mədəniyyət dekadaları, günləri və s.

1970-ci ildən Bakıda nəşr olunan «Türkologiya» jurnalı türk xalqları arasındakı elmi-ədəbi əlaqələrin genişlənməsində əvəzsiz rol oynadı. 80-ci illərin sonunda Azərbaycanda gedən milli-azadlıq hərəkatı, 20 yanvar hadisələri (1990) və s. ölkəmizin jurnalistləri ilə xarici dövlətlərin kütləvi informasiya vasitələri arasındakı təmasları artırdı.

Musiqi, kino, rəssamlıq, memarlıq və heykəltaraşlıq sahələrindəki əməkdaşlıq səmərəliliyi və məhsuldarlığı ilə seçilirdi. Həmin istiqamətlərdə qurulan əlaqələri səciyyələndirən başlıca tədbir və nəticələrsə bunlardır:

Ümumdünya sərgisindəki SSRİ milli günlərində (Brüssel, 1958) musiqiçilərimizin çıxışı; yenə də musiqiçilərin ADR-dəki festivalda (1961) və Suriyadakı XIII Beynəlxalq sərgidə iştirakı; muğam üçlüyününYUNESKO-nun keçirdiyi 22-ci Beynəlxalq musiqi festivalında (1988) birincilik qazanması; 60-cı illərdə teatr sahəsində xarici dövlətlərlə əlaqələrin yaradılması; qarşılıqlı kinofestivallar (Azərbaycanda: 1960-İran, 1969-Hindistan, 1983-Danimarka, 1986-

Misir və b.), habelə xaricdə: 1974-Qahirə, 1977-Yaponiya və s.); radio və televiziya şirkətləri arasındakı əməkdaşlığın genişlənməsi; YUNESKO-nun iqamətgahında (Paris-1981) keçirilən Azərbaycan əl xalçası sərgisi, rəssamlıq üzrə Beynəlxalq simpozium (Bakı, 1990) və digərləri.

Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni əlaqələr Cəmiyyəti, İranla Mədəni Əlaqələr Cəmiyyəti (19.X.1945), SSRİ-İran Mədəni Əlaqələr Cəmiyyətinin (1963) respublika şöbəsi və digərləri ölkələrarası əməkdaşlığın yükünü daşıyan əsas qurumlar olmuşdular (İkinci 1945-1946-cı illərdə Güneylə əlaqələrdə böyük işlər görmüşdü).

Azərbaycanın beynəlxalq humanitar əlaqələri 80-ci illərin ortalarından etibarən daha da genişlənməyə başladı. SSRİ-dəki «yenidənqurma» prosesi, Avropa ölkələrinin «Mədəniyyət məclisi» (Budapeşt, 1985) və s. xalqlararası elmi-ədəbi-mədəni əməkdaşğığın səmərəliliyini şərtləndirən amillərdən oldu.

Azərbaycanın Türkiyə ilə birbaşa təmaslar qurması sürətləndi. SSRİ Mədəniyyət nazirliyi nümayəndə heyətinin Türkiyəyə səfəri (VII.1987) bu baxımdan faydalı oldu. Ona respublikamızın Mədəniyyət naziri Z.Bağırovun başçılıq etməsi də yerinə düşdü.

Azərbaycan SSR 1990-cı ildən etibarən xarici dövlətlərlə birbaşa elmi-mədəni əlaqələrə dair müəyyən diplomatik sənədlər imzaladı. Məsələn, həmin ildə Türkiyə ilə mədəni-elmi mübadilə barədə protokol, hər iki ölkənin yazarlar təşkilatları və Mədəniyyət nazirlikləri arasında əməkdaşlığa dair müqavilə və protokol razılaşdırıldı. Tezliklə digər dövlətlərlə də birbaşa humanitar əlaqələr yaradılması işinə təkan verildi.

İdman və turizm sahələri də Azərbaycanın o dövrki humanitar əlaqələrində önəmli yer tuturdu. Respublikamız

dünyada idmanın inkişafına dair səylərə həmişə dəstək vermişdir. Azərbaycan idmançılarının müvafiq beynəlxalq yarışlara qatılması prosesi hələ 50-ci illərdə vüsət tapmışdı. Məhz həmin dövrdən etibarən Azərbaycan idmanı Beynəlxalq Olimpiya hərəkatında təmsil olunmağa başlamışdı.

Azərbaycan Milli Olimpiya Komitəsi (MOK) 1992-ci ildən fəaliyyətə başlasa da, idmançılarımızın bu yarışlara qatılma tarixi 1952-ci ildən hesablanır. Həmin ildə Helsinkidə keçirilən XV yay Olimpiya oyunlarında – SSRİ yığma komandasının tərkibində təmsil olunan – 6 nəfər idmançımız iştirak etmişdi.

Azərbaycan idmançıları 1952-1992-ci illər arasında keçirilən XV-XXV Olimpiya oyunlarında 55 nəfərlə təmsil olunaraq 17 növ üzrə yarışmış və 33 medal (13-ü qızıl) qazanmışdılar (1984-cü ildə ABŞ-da düzənlənən XXIII Olimpiya oyunları Sovetlər Birliyi tərəfindən boykot edildiyindən idmançılarımız, təbii olaraq, onlara qatıla bilməmişdilər).

Sovet rəhbərliyi Azərbaycanın idmanın inkişafı sahəsindəki müsbət işlərini və bu yöndə genişlənən əlaqələrini də yetərincə dəyərləndirmədi. Ancaq buna baxmayaraq idmançılarımız beynəlxalq yarışlara qatılaraq uğurlar əldə etmişlər. Onların arasında beynəlxalq şahmat (ADR-1963) yarışlarında ayrıca komanda ilə iştirak, 70-80-ci illərdə Bolqarıstan, İraq və s. ölkələrdə keçirilən idman oyunlarındakı uğurlar diqqəti çəkir. 80-ci illərin birinci yarısında Bakıda beynəlxalq şahmat, dama yarışları, sambo turnirləri keçirilmişdi.

Sovet cəmiyyətinin qapalılığı və onun xeyli müddət ərzində Qərbdən «dəmir pərdə» ilə aralı salınması **turizm əlaqələrinə** çox ciddi zərbə vurdu. Yalnız «mülayimləşmə» və ömrü lap az olan «yenidənqurma» prosesləri bəzi əngəlləri aradan qaldırmağa imkan verdi. Bu hal Azərbaycanın da

türizm əlaqələrinə müəyyən qədər müsbət təsir göstərdi. Ölkəmizə gələn xarici turistlərin sayı artdı. Məsələn, 1990-cı ildə 40 məmləkətdən turistlər gəlmişdilər. Turizm sahəsindəki əməkdaşlığın genişlənməsində «Azərbaycanda turizm» həftəsinin (Paris, XII.1971), müvafiq sərgilər, elmi konfranslar və digər tədbirlərin də əhəmiyyəti vardı.

Qardaşlaşmış şəhərlər hərəkatında iştirak Azərbaycanın beynəlxalq (iqtisadi, humanitar və s.) əlaqələrində başlıca istiqamətlərdən birini təşkil edirdi. Bu hərəkatın ilk addımlarını hələ İkinci Dünya müharibəsi dövründə İngiltərənin Koventri və SSRİ-nin Stalinqrad şəhərləri atmışdılar. Sonralar, yəni 1957-ci ildə Ümumdünya qardaşlaşmış şəhərlər Federasiyası (ÜQŞF) yarandı; o, BMT və YUNESKO-da «A» statusu aldı.

Beynəlxalq qarşılıqlı humanitar və digər əlaqələrin başlıca vasitə və formalarından sayılan bu hərəkat əvvəllərdə 15-20 fransız şəhərini əhatə edirdi. Tezliklə (1970) onun sıralarında 4 minə qədər şəhər birləşmişdi. «Qardaşlaşmış şəhərlərin xartiyası» bütün şəhərləri tərəqqi və sülh, nüvə silahı saxlanmayan zonalar, insan hüquqları və ətraf mühitin mühafizəsi naminə mübarizəyə səsləyirdi.

Azərbaycan bu hərəkata ilk dəfə 1970-ci ildə Bakının Seneqalın paytaxtı Dakarla əlaqələr yaratması ilə qatıldı. Paytaxtımız sonralar Neapol və Sarayevo (İtaliya, Yuqoslaviya-1972), Bordo, Bəsrə, Hyuston (Fransa, İraq, ABŞ-1979), Maynts, Vuntqvu-Kondao (AFR, Vyetnam-1984), İzmir (Türkiyə-1986) və Təbriz (Güney Azərbaycan -1995) ilə qardaşlaşdı.

Bakı Sovetində Xarici Əlaqələr şöbəsinin təşkili (1970) bu işin səmərəsinə daha yaxşı şərait yaratdı. Bunun ardınca Bakı Soveti sədrinin ÜQŞH-nin III Ümumdünya konqresində (XII.1973) iştirak etməsi paytaxtımızın əlaqələrini genişləndirdi. Daha sonra Bakı Sovetinin sədri A.Məmmədov və onun müavini V.Mayorov Meksika və İtaliya şəhərləri merlərinin 1974-cü ildə keçirilən regional toplantılarında sovet təmsilçiliklərinə başçılıq etdilər.

ÜQŞH-in rəhbərliyi Bakının bu hərəkatda iştirakına xüsusi önəm verirdi. Məhz elə buna görə idi ki, şəraitin və başçının dəyişməsindən asılı olmayaraq Bakı Sovetinin sədri həmin qurumun vitse-prezidenti seçildi. ÜQŞH-in tövsiyəsi ilə onun bir sıra sanballı tədbirləri Bakıda keçirilmişdi.

Belə ki, həmin qurumun ikidilli təhsil üzrə Ümumdünya Mərkəzinin təklifinə əsasən «Dil və şəhər» mövzusunda beynəlxalq konfransa (V.1981) paytaxtımız ev sahibliyi etdi. Konfransda qardaşlaşmış şəhərlərin 145 məsul işçisi və habelə dil təhsili üzrə 400-dən çox mütəxəssis təmsil olunmuşdu. Daha sonra SSRİ və İtaliyanın hərəsinin 22 şəhərlərindən olan nümayəndə heyətləri Bakıya toplaşaraq burada müəyyən müzakirələr (1977) apardılar.

Bakının nümayəndə heyətləri ÜQŞH Beynəlxalq Şurasının vaxtaşırı (1979 və 1983;Fransa) keçirilən sessiyasında da fəal iştirak etdilər. Bakının ÜQŞH xətti ilə həyata keçirilən elmi-mədəni və təsərrüfat əlaqələrində qardaşlaşmış şəhərlərin təşkil etdikləri «həftələr» və «günlər»dən də səmərəli istifadə olundu. Bakıda Neapol (1975, 1982), Dakar (1984) və digərlərinin həftə və günləri keçirildi. Həmçinin Neapolda (1977), Sarayevoda (1979), Dakarda (1983), İzmirdə (1988) və s. «Bakı günləri» düzənləndi.

Tezliklə Azərbaycanın digər şəhərləri də ÜQŞH-yə qoşuldular. Öncə Sumqayıt Lüdviqshafen (AFR-1977) və Piteşti (Rumıniya-1985) ilə qardaşlaşdı. Sonra da Gəncə Bursa ilə və Naxçıvan isə İqdırla (Türkiyə-1990) qardaşlaşmış şəhər oldular. Bu iki şəhərimizin Türkiyənin şəhərləri ilə qardaşlaşması həm də Azərbaycanın dost və doğma qonşu

dövlətlə münasibətlərinə müsbət təsir göstərən amillərdən biri oldu.

Sovetlər İttifaqının rəhbərliyi, digər məsələlərdə olduğu kimi, Azərbaycan şəhərlərinin ÜQŞH-də iştirakına da ehtiyatla yanaşırdı. Sovet rejimi ölkəmizin şəhərlərinin həmin hərəkata qatılmalarını formal bir işə çevirməyə çalışırdı. Həm də Bakı və digərlərinin yalnız dünyanın tarixi-bəşəri dəyərlər baxımından bizdən uzaq olan şəhərlərilə əlaqələr qurmasını istəyirdi. Lakin bu kimi siyasi mahiyyətli əngəllərə baxmayaraq, Bakı və başqa şəhərlərimiz ÜQŞH-də layiqli yerlərini tuta bildilər. Təsadüfi deyildir ki, Bakı ÜQŞH-in reestrinə («Qızıl kitab»a) daxil edilmişdir.

***

Azərbaycan SSR, müəyyən obyektiv çətinliklərə və süni əngəllərə baxmayaraq, Sovetlər İttifaqının 1945-1991-ci illərdəki beynəlxalq əlaqələrində yaxından iştirak etdi. Buna şərait yaradan və imkan verən zəminlər sırasında ölkəmizin iqtisadi-mədəni potensialı xüsusi olaraq qeyd edilməlidir.

Şimali Azərbaycan həmin dövrdə beynəlxalq ictimai-siyasi proseslərə, iqtisadi münasibətlərə müxtəlif yollar, vasitələr və üsullarla qatıla bildi. Sovet Azərbaycanı, SSRİ-nin (Rusiyanın) tarixi-strateji maraqlarına xidmət edən, beynəlxalq əlaqələrdə dövlətlərarası hüququn subyekti kimi iştirak etməkdən məhrum olsa da müəyyən işləri görə bildi, təcrübə qazandı.

Azərbaycan 1920-1991-ci illərdə müstəqil dövlət olmasa da dövrün beynəlxalq münasibətlərində mühüm yer tutdu. Formal müstəqillik dönəmində (1920-1922) və ondan sonrakı ilk çağlarda siyasi mühacirət və daxildəki milli qüvvələr tərəfindən dövlətçiliyin bərpası naminə mübarizə aparıldı.

Bakı nefti böyük dövlətlər və şirkətlər (maqnatlar) arasında kəskin diplomatik çəkişmələrə səbəb oldu. Bilavasitə öz mənafelərindən çıxış edən Sovet hökuməti milli sərvətlərimizi (neft və s.) beynəlxalq hərraca çıxardı.

Ölkəmizin quzeyi və güneyi İkinci Dünya müharibəsi zamanı da beynəlxalq və regional güclərin strateji maraqlarının toqquşduğu məkana çevrildi. Faşist Almaniyasının, SSRİ-nin və onun müttəfiqlərinin (ABŞ və İngiltərə) Şimali Azərbaycanla əlaqədar çeşidli planlarının gerçəkləşdirilməsinə israrlı səylər göstərildi.

1941-1946-cı illərdə Güney Azərbaycanda Sovet-Qərb qarşıdurması baş verdi. Cənubi Azərbaycan məsələsi beynəlxalq münasibətlərdə və müzakirələrdə özünə yer aldı. Güney «Soyuq müharibə»nin əsas meydanlarından birinə çevrildi.

Nəticədə BMT-nin «həll etdiyi» ilk münaqişə (Güney Azərbaycan məsələsi) İranın və Qərbin maraqlarına uyğun olaraq çözüldü. SSRİ «Soyuq savaş»da ilk məğlubiyyətə uğradı. Bölünmüş Azərbaycan isə bütövləşmə naminə tarixi mübarizəsindəki ən böyük imkanı itirdi.

Sovetlər İttifaqı daxilində azərbaycanlı-erməni münasibətlərində gərgin anlar yaşandı. Ermənilər Sovet rəhbərliyinin himayəsi ilə Azərbaycanın ərazi bütövlüyünə yeni-yeni qəsdlər etdilər. Hətta Urmiyə ətrafında «kiçik erməni muxtariyyəti»nə nail olmağa çalışdılar. Xalqımız 1948-1953-cü və 1986-1988-ci illərdə Qərbi Azərbaycandan (Ermənistan SSR-dən) kütləvi deportasiyalara məruz qaldı.

Qriqorian kilsəsi-rus-ingilis siyasətinin məhsulu sayılan «erməni məsələsi»nə dünya miqyasında yenidən rəvac verilməsi haykların SSRİ-dəki M.Qorbaçov «yenidənqurması»ndan faydalanma planları ilə üst-üstə düşdü. Bu, «tarixi kəsişmə (qoşalaşma)» həm də növbəti erməni-azərbaycanlı münaqişəsini (müharibəsini) ərsəyə gətirdi. Sovet rəhbərliyinin və böyük dövlətlərin, bəzi qonşu ölkələrin qərəzli mövqeyi və toqquşan çeşidli maraqları münaqişənin arzulanan böyüməsini təmin etdi.

Quzey Azərbaycan özünün imkanları və ona yaradılan «şərait» daxilində SSRİ-nin beynəlxalq əlaqələrinə də qatıla bildi. Bu prosesdə müəyyən beynəlxalq təcrübə qazanıldı. Ölkəmizin dünya birliyi tərəfindən «iqtisadi-mədəni tanınması»na qismən nail olundu.

Azərbaycanın quzeyində dövlətçiliyin növbəti XX yüzillikdə isə ikinci dəfə bərpa olunması ölkəmizin beynəlxalq durumunda yeni mərhələ açdı. Şimali Azərbaycan müstəqil dövlətimiz (respublikamız) yenidən beynəlxalq münasibətlər sisteminə qatıldı (qayıtdı) və dövlətlərarası hüququn subyektinə çevrildi.

ƏLAVƏLƏR

(Sənədlər, fotolar, xəritələr)

AK(b)P MK Bürosu iclasının (15.VII.1920) qərarından:

İştirak edirdilər: V.Eqorov, A.Mikoyan, Ə.Qarayev, Q.Orconikidze və b.

1. Qarabağ və Zəngəzur Azərbaycana birləşdirilməlidir...

2. Naxçıvan və digər ərazilərdən **imtina edilsin** (Seçdirmə bizimdir – İ.M.), onların rus qoşunları tərəfindən işğalı təklif olunsun...»

Azərbaycan Siyasi Partiyalar və İctimai Hərəkatlar arxivi (ASPİHA), fond 1, siyahı 1, iş 18, vərəq 13; siyahı 74, iş 120, vərəq 46.

***

RSFSR-Ermənistan preliminar sazişindən (10.VIII.1920):

«...Ermənistan ordusu Şahtaxtı, Xok-Əznəbürd-Sultanlı və daha sonra Küküdən şimala – Bazarçaydan qərbə doğru xətti tutur... RSFSR qoşunları... **mübahisəli** (Seçdirmə bizimdir – İ.M.) Qarabağ, Zəngəzur və Naxçıvan vilayətlərini tuturlar.

Mübahisəli vilayətlərin Sovet qoşunları tərəfindən tutulması ilə Ermənistan və Azərbaycanın həmin ərazilərə hüquqları məsələsi həll olunmur... Dəmiryolunun Şahtaxtı-Culfa sahəsində istismarı, hərbi məqsədlər üçün istifadə olunmamaq şərti ilə RSFSR və Ermənistan arasında sülh müqaviləsi bağlananadək Ermənistan Dəmiryolu idarəsinə verilir...»

Ermənistan Mərkəzi Dövlət arxivi, fond 66, iş 401/144, vərəq 182.

***

AK(b)P MK Siyasi və Təşkilat büroları birgə iclasının (30.XI.1920) qərarından:

İştirak edirdilər: Q.Orconikidze, Sarkis (S.Ter-Danielyants), Q.Kaminski, N.Nərimanov, Ə.Qarayev, M.Hüseynov və b.

«...**v)**... Sovet Azərbaycanı ilə Sovet Ermənistanı arasında heç bir sərhəd mövcud deyildir»;

q) Zəngəzur və Naxçıvan Ermənistana keçirlər;

d) Qarabağın dağlıq hissəsinə öz müqəddəratını tam təyin etmək hüququ verilir (Seçdirmə bizimdir – İ.M.);

e) Sovet Azərbaycanı Sovet Ermənistanı ilə qırılmaz (?! – İ.M.) hərbi və təsərrüfat ittifaqı bağlayır (o cümlədən neft göstərilsin)...;

j və **i)** bütün bunlar barədə Bəyanat hazırlamaq və onu Bakı Sovetinin plenumunda elan etmək N.Nərimanova tapşırılsın.

ASPİHA, f.1, siy.1, iş 24, v.51-52; siy.74, iş 124, v.58-59.

***

Bakı Sovetinin iclasında (1.XII.1920) N.Nərimanov tərəfindən elan edilən Bəyanatdan:

«... bundan belə heç bir ərazi məsələləri əsrlərdən bəri qonşu olan iki xalqın: ermənilərin və müsəlmanların bir-birilərinin qanını tökmələri üçün səbəb ola bilməz; **Zəngəzur və Naxçıvan qəzalarının ərazisi Sovet Ermənistanının ayrılmaz hissəsidir; Dağlıq Qarabağın əməkçi kəndlilərinə isə öz**

müqəddəratını tam təyin etmək hüququ verilir (Seçdirmə bizimdir – İ.M.); Zəngəzurun hüdudlarında bütün hərbi əməliyyatlar dayandırılır, Sovet Azərbaycanının qoşunları isə oradan çıxarılırlar; ...**Sovet Azərbaycanı malik olduğu tükənməz sərvətlərin: neft, kerosin və digər məhsulların qapılarını Sovet Ermənistanı üçün geniş açır, ... bu sərvətlər bundan belə Rusiya, Sovet Azərbaycanı və Sovet Ermənistanı zəhmətkeşlərinin malı olacaqdır...**» (Seçdirmə bizimdir – İ.M.).

«Kommunist» (2.XII.1920, Bakı, rusca) və «Bakinskiy raboçiy» (3.XII.1920) qəzetləri.

***

RSFSR-Ermənistan SSR müqaviləsindən (2.XII.1920):

«3-cü maddə. Rusiya Sovet hökuməti İrəvan quberniyasının ..., Qars vilayətinin bir hissəsinin... Zəngəzur qəzasının ..., Qazax qəzasının bir hissəsinin və Tiflis quberniyasının 1920-ci il oktyabrın 23-dək Ermənistanın ixtiyarındakı hissələrinin Ermənistan SSR ərazisinin tərkibinə daxil olmasını mübahisəsiz tanıyır.

4-cü maddə. Erməni ordusunun komandir heyəti Ermənistanda Sovet hakimiyyəti qurulanadək törətdikləri hərəkətlərə görə məsuliyyət qaşımaqdan azad olur».

Международная политика новейшего времени в договорах, нотах и декларациях, ч.III, вып.I. Москва, 1928, с.75-76.

***

Türkiyə və Ermənistan respublikası arasındakı Gümrü (Aleksandropol) müqaviləsindən (2.XII.1920):

«...**2.** Ermənistan Kükü dağı, Həməsur dağı, Sayat dağı , Qurdqulaq kəndi, Arpaçay evləri, Saraybulaq dağları, Ararat stansiyası, Araz çayı yaxınlığındakı Aşağı Qarasunun töküldüyü yerdən keçən zolağın cənubundakı (Naxçıvan, Şahtaxtı, Şərur) əraziyə, daha sonra orada referendumla təyin olunacaq idarə formasına və bu idarəçiliyin əhatə edəcəyi torpaqlara qarışmayacaq, həmin ərazidə hələlik Türkiyənin himayəsində yerli idarə yaradılacaqdır...

10. İrəvan hökuməti Türkiyə Böyük Millət Məclisi tərəfindən qəti olaraq rədd edilmiş Sevr müqaviləsini etibarsız sayır...

12. Türkiyə hökuməti Şərur, Naxçıvan, Şahtaxtı və Culfa yolu ilə «tranzit işlərinin sərbəstliyini təmin edəcəkdir...».

Azərbaycan Dövlət Tarix arxivi (ADTA), f.28, siy. 1, iş.55, v.86; S.İsmail, Tarihçeleri Ve Açıqlamaları İle Birlikde Türkiyenin Siyasal Andlaşmaları, Cilt I (1920-1945), Ankara, 1989, s.19-23.

***

Türkiyə və RSFSR arasında dostluq və qardaşlıq haqqında müqavilədən (Moskva, 16.III.1921):

«... **3-cü maddə...** Naxçıvan vilayəti bu müqavilənin I (B) əlavəsində göstərilən sərhədlərdə Azərbaycanın himayəsi altında, həmin protektoratı Azərbaycanın heç bir üçüncü dövlətə güzəştə getməməsi şərti ilə, muxtar ərazi təşkil edir».

I (B) Əlavəsi: Ararat stansiyası – Saraybulaq dağları – Kömürlüdağ-Sayatdağı –Qurdqulaq kəndi-Həməsur dağı – yüksəklik (8022) – Kükü dağı və keçmiş Naxçıvan qəzasının şərq inzibati sərhədi.

ADTA, f.28, iş 58 v.143, arx.146; iş 67, v.1 arx, 4; ASPİHA, f. 609, siy.1, iş 94, v.93 arx.

***

Türkiyə Böyük Millət Məclisi hökuməti ilə Ermənistan SSR, Azərbaycan SSR və Gürcüstan SSR arasında RSFSR-in iştirakı ilə bağlanan müqavilədən (Qars, 13.X.1921):

«...**5-ci maddə.** Türkiyə hökuməti, Ermənistan və Azərbaycan sovet hökumətləri Naxçıvan bölgəsinin hazırkı müqavilənin 3 saylı Əlavəsində göstərilən sərhədlər daxilində Azərbaycanın himayəsi altında Muxtar ərazi təşkil etməsinə razıdırlar».

3 saylı Əlavə: Urmiyə kəndi, oradan düz xətlə Arazdəyən stansiyası (o, Ermənistan SSR-də saxlanılır), qərbi Daşburun dağına və daha sonra suayrıcı xətlə Şərqi Daşburun dağı və Cəhənnəm dərəsi çayından keçməklə Bulaqdan («Rövnə»), Bağarsıq dağı, yaxud 6587-ci yüksəkliyin suayrıcları xəttilə davam edərək və buradan keçmiş İrəvan, Şərur-Dərələyəz qəzalarının inzibati sərhədilə yüksəklikdən (6625) keçərək Komürlüdağa və daha sonra 3080-ci yüksəklik-Sayatdağ-Qurdqulaq kəndi-Həməsur dağı –yüksəklik (8022) –Kükü dağı və keçmiş Naxçıvn qəzasının şərq inzibati sərhədi.

ADTA, f,28, siy.1, iş 69, v.9-19; iş.123, v.122-125.

***

ABŞ, SSRİ və Böyük Britaniya tərəfindən imzalanan «Tehran bəyannaməsi»ndən (1.XII.1943):

«...Birləşmiş Ştatlar, SSRİ və Birləşmiş Krallıq hökumətləri İranın tam müstəqilliyinin, suverenliyinin və **ərazi toxunulmazlığının** (Seçdirmə bizimdir – İ.M.) qorunub saxlanmasında İran hökumətinin istəkləri ilə şərikdirlər...»

Советско-иранские отношения в договорах, конвенциях и соглашениях. МИД СССР. Москва, 1946, с.202-208.

***

«Dövlət və Azərbaycan nümayəndələri arasında müvafiqət olunmuş qərardad»dan – İran və Güney hökumətləri arasında Təbrizdə imzalanmış (13.VI.1946) müqavilədən:

- Azərbaycan Milli Məclisi Azərbaycan əyalət əncüməninə çevrilməli idi **(3-cü maddə)**;
- Güneyin gəlirlərinin 75 faizi yerli ehtiyaclara sərf olunmalı və 25%-i isə ümumdövlət büdcəsinə verilməlidi **(5-ci maddə)**;
- Orta və ali məktəblərdə dərslər fars və Azərbaycan dillərində keçirilməliydi **(12-ci maddə)**.

«Azərbaycan» qəzeti, 16 iyun 1946-cı il; ASPİHA, f.1, siy. 89, iş 155, v.12-17.

***

SSRİ Nazirlər Sovetinin «Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında» qərarından (23.XII.1947, №4083):

«...**11.** Ermənistan SSR Nazirlər Sovetinə icazə verilsin ki, azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar onların boşaltdıqları tikililəri və yaşayış evlərini **xaricdən Ermənistana gələn ermənilər** (Seçdirmə bizimdir – İ.M.) yerləşdirmək üçün istifadə etsinlər...»

«Bakinskiy raboçiy» qəzeti (26-27.II.1992).

***

DQMV XX çağırış Xalq deputatları soveti növbədənkənar sessiyasının qərarından (20.II.1988):

«... DQMV-nin Azərbaycan SSR-in tərkibindən Ermənistan SSR-in tərkibinə ötürülməsi məsələsinin müsbət həlli SSR İttifaqı Ali Sovetindən xahiş olunsun...»

«Sovetskiy Karabax» qəzeti (21.II.1988).

***

İ.Stalinin S.Pişəvəriyə şəxsi məktubu

Pişəvəri yoldaşa.

Mənə elə gəlir ki, Siz həm İran daxilində, həm də beynəlxalq nöqteyi-nəzərdən yaranmış vəziyyəti düzgün qiymətləndirmirsiniz.

Birincisi. Siz hazırda Azərbaycanın bütün inqilabi tələblərinə nail olmaq istəyirsiniz. Lakin indiki şərait belə bir proqramın həyata keçirilməsi imkanını istisna edir. Lenin praktiki tələblər kimi, qeyd edirəm, praktiki tələblər kimi əsas inqilabi tələbləri yalnız xarici düşmənlə uğursuz müharibənin dərinləşdirildiyi ölkə daxilində güclü inqilabi böhranın olduğu bir şəraitdə irəli sürmüşdü. 1905-ci ildə Yaponiya ilə uğursuz müharibə zamanı belə olmuşdu. 1917-ci ildə Almaniya ilə uğursuz müharibə zamanı belə olmuşdu. Siz indiki halda Leninі təqlid etmək istəyirsiniz. Bu çox yaxşı və tərifə layiqdir. Ancaq İranda vəziyyət hazırda tamamilə başqadır. İranda hazırda dərin inqilabi böhran yoxdur. İranda fəhlələr azsaylıdır, onlar pis təşkil olunmuşlar. İran kəndliləri hələlik ciddi fəallıq göstərmirlər. İran hazırda xarici düşmənlə müharibə aparmır. Belə bir müharibədə məğlubiyyət isə İranın irticaçı dairələrini zəiflədə bilərdi. Deməli, İranda belə bir şərait yoxdur ki, Leninin 1905-17-ci illərdəki taktikasını yürütməyə imkan versin.

İkincisi. Əlbəttə, Siz Sovet qoşunlarının İranda qalmaqda davam edəcəyi təqdirdə Azərbaycan xalqının inqilabi tələbləri uğrunda mübarizə işində uğur qazanmağa ümid ola bilərdiniz. Lakin biz onları daha İranda saxlaya bilmirik, başlıca olaraq ona görə ki, sovet qoşunlarının İranda olması Avropa və Asiyada, bizim xilaskarlıq siyasətimizin əsaslarını sarsıdır. İngilislər və amerikalılar bizə deyirlər ki, əgər sovet qoşunları İranda qala bilirsə, onda nəyə görə ingilis qoşunları Misir, Suriya, İndoneziya və Yunanıstanda, həmçinin Amerika qoşunları Çin, İslandiya və Danimarkada qalma-

sın. Buna görə də biz İran və Çindən qoşunları çıxarmaq qərarına gəlmişik ki, ingilislərin və amerikalıların əlindən bu silahı qoparıb alaq, müstəmləkələrdə azadlıq hərəkatını genişləndirək və bununla da öz xilaskarlıq siyasətimizi daha əsaslı və faydalı edək. Siz bir inqilabçı kimi, əlbəttə, başa düşürsünüz ki, biz başqa cür hərəkət edə bilmərik.

Üçüncüsü. Deyilənləri nəzərə alaraq, İrandakı vəziyyətlə bağlı aşağıdakı nəticələrə gəlmək olar. İranda dərin inqilabi böhran yoxdur. İranda xarici düşmənlərlə müharibə vəziyyəti yoxdur, deməli, irticanı zəiflədə və böhranı kəskinləşdirə bilən müharibədə uğursuzluq da yoxdur. Nə qədər ki, sovet qoşunları İranda yerləşib. Siz Azərbaycanda mübarizəni genişləndirmək və daha irəli gedən tələblərlə geniş demokratik hərəkatı təşkil etmək imkanına maliksiniz. Ancaq bizim qoşunlar getməlidirlər və İrandan çıxıb getdilər. Biz artıq İranda nəyə malikik? Biz İranda Qəvam hökumətinin İranın daha irticaçı ünsürlərini təmsil edən anqlofil dairələrlə münaqişəsinə malikik. Keçmişdə Qəvamın necə bir irticaçı olmasına baxmayaraq, o indi özünümüdafiə mənafeyini və öz hökumətinin müdafiəsi naminə bəzi demokratik islahatlara getməyə və İranın demokratik elementləri arasında dayaq axtarmağa məcburdur. Belə bir şəraitdə bizim taktikamız necə olmalıdır? Mən fikirləşirəm ki, Qəvamdan güzəştlər qoparmaq üçün bu münaqişədən istifadə etməliyik, ona kömək göstərməliyik, anqlofilləri təcrid etmək və bununla da İranın daha da demokratikləşməsi üçün müəyyən bazis yaratmalıyıq. Bizim sizə bütün məsləhətlərimiz məhz belə bir vəziyyətdən irəli gəlir. Əlbəttə, başqa taktika da qəbul etmək olar: hər şeyə tüpürmək. Qəvamla əlaqələri kəsmək və bununla da anqlofil irticaçıların qələbəsini təmin etmək olar. Amma bu, taktika deyil, axmaqlıq olardı. Bu mahiyyətcə Azərbaycan xalqının işinə və İran demokratiyasına xəyanət olardı.

Dördüncüsü. Bizə məlum olduğuna görə, Siz demisiniz ki, biz əvvəlcə Sizi göylərə qaldırmış, sonra isə uçuruma yuvarlamışıq və Sizi rüsvay etmişik. Əgər bu doğrudursa onda

bu bizdə təəccüb doğurur. Əslində isə nə baş vermişdir? Biz burada hər bir inqilabçıya məlum olan adi inqilabi fənd tətbiq etmişik. İrandakı şərait kimi belə bir vəziyyətdə özümüz üçün hərəkatın məlum minimum tələbini əldə etməyi təmin etməkdən ötrü hərəkatı irəli qaçırmaq, minimum tələblərdən irəli getmək və hökumət üçün təhlükə yaratmaq, hökumət tərəfindən ediləcək güzəştlər üçün imkan yaratmaq lazımdır. Daha irəli qaçmadan, Siz İranın indiki vəziyyətində hazırda Qəvam hökumətinin getməyə vadar olduğu tələblərə nail olmaq imkanına malik ola bilməzdiniz. İnqilabi hərəkatların qanunu belədir. Sizin üçün hər hansı bir rüsvayçılıqdan söz ola bilməz. Çox qəribədir ki, əgər Siz fikirləşirsiniz ki, biz Sizin rüsvayçılığınıza yol verə bilərdik. Əksinə, əgər Siz özünüzü ağıllı aparsanız və bizim mənəvi köməyimiz sayəsində əsasən Azərbaycanın indiki faktiki vəziyyətinin leqallaşdırdığı tələblərə nail olsanız, o vaxt Sizə Orta Şərqdə mütərəqqi demokratik hərəkatın pioneri kimi azərbaycanlılar da, İran da xeyir-dua verər.

İ.Stalin
8 may 1946-cı il

AZƏRBAYCAN MİLLİ HÖKUMƏTİNİN BAŞÇISI S.C.PİŞƏVƏRİNİN BMT BAŞ ASSAMBLEYASINA

MÜRACİƏTİ

Dünyanm ən qədim xalqlarından olan Azərbaycan xalqı özünün zəngin milli tarixinə malikdir. Əsrlərin kəşməkeşində o, öz milli dilini, adət və ənənələrini qoruyub saxlaya bilmişdir.

İran zülmkarları Azərbaycanı öz hakimiyyətləri altına alaraq, onun sərvətini amansızcasına taladılar. Nəticədə Azərbaycanın çiçəklənən kənd və şəhərləri dağılmaq həddinə gəlib çatdı.

Şovinist böyuk dövlətçilik siyasəti yürüdən İran hökmdarları azərbaycanlıların mövcudluğunu tamamilə inkar etməyə cəhd göstərir, onların dilini əlindən almaqdan, hər cür təhqiredici əməllərdən çəkinmirdi.

Buna baxmayaraq Azərbaycan xalqı bir gün də olsun, öz azadlığı uğrunda mübarizəsini dayandırmadı. Azərbaycanlıların öz milli azadlıqları uğrunda mübarizəsinin ən parlaq nü-munəsi Səttarxan, Bağırxan, Şeyx Məhəmməd Xiyabani və başqalarının hərəkatlarıdır. Bu cəsur insanlar mübarizənin başçıları, həm də şəhidləri idi.

Qanlı faşizmin üzərində demokratik dövlətlərin qələbəsi Azərbaycan xalqının mübarizəsinə yeni təkan verdi, yeni şərait yaratdı.

Tehran hökumətinin müqavimətinə baxmayaraq bu ilin 21 Azərində (12 dekabr) Azərbaycan xalqının əsrlərdən bəri apardığı azadlıq mübarizəsi qələbə ilə başa çatdı, Atlantik Xartiyasına uyğun olaraq Milli Məclisin, Azərbaycan Milli Hökumətinin qurulması ilə nəticələndi.

Azərbaycanda demokratik əsaslara dayanan bir Milli Hökumət qurulub və öz fəaliyyəti barədə bütün dünyaya məlumat yayıb.

5 milyonluq Azərbaycan xalqı milli dilinin, tarixinin, mədəniyyətinin köməyi ilə özünün müasir bir xalq olduğunu dərk etdi və bir də heç vaxt fars zülmünün altında inləməyə, fars dilinin İrandakı başqa xalqların dilləri üzərində ağalıqlarına icazə verməyəcəkdi.

Bu xalq bir nəfər kimi öz həyatını milli azadlığına və dövlətinə qurban verməyə hazırdır.

Yeni, demokratik Azərbaycan hökuməti qısa vaxt ərzində ictimai, iqtisadi, mədəni sahələrdə ciddi dəyişmələr edə bilib, daxili təhlükəsizlik tam bərqərar olunub.

Yeni Milli Hökumətin fəaliyyəti sayəsində əsrlərlə istismar olunan xalq adi insani şəraitdə yaşamağa başlayıb. Bununla da o, öz milli dövlətini qurmağa, onu idarə etməyə qadir olduğunu göstərir.

Azərbaycan xalqının iradəsi ilə Atlantik Xartiyasına, yəni böyük demokratik dövlətlərin vədlərinə uyğun olaraq qurulan Azərbaycan Milli Hökuməti artıq danılmaz faktdır.

BMT Baş Assambleyasına müraciəti ilə Azərbaycan xalqı xahiş edir ki, Azərbaycan Milli Hökumətinin mövcudluğu faktı tanınsın və kənardan müdaxilə olmadan, ona öz taleyinin özü tərəfindən müəyyənləşdirilməsinə təminat verilsin.

28 yanvar 1946.



Председателю Верховного
Чрезвычайного Комитета
Кавказского Комиссариата
Б[ю] Фатальевичу Дудангинскому

Тифлис
Тазагора (Аверга)
25 марта 1946 года

Его Превосходительству Премьер-Министру

Клименту Эттли

Лондон

I

Как известно Вашему Превосходительству, его первая большевистская, это- вторая предательство, война и грабежей. В 1917 году она воткнула нож в спину русского народа, вывела его из войны и предала этот народ. Тем самым они предали и союзников России Англию, Францию, Америку и др.

В 1939 году, захватив около 6 Прибалтики, большевики предали империи 180 тысяч земли, принадлежащих Англии, Франции и всех других миролюбивых народов и явились главными виновниками войны.

Планы большевиков перед этой войной легко раскрыть - столкнуть Германию, Англию, Францию и другие европейские страны между собой и дать возможность обеим сторонам истечь кровью, а Коммунистам самим выступить на их обескровленные тела. С такой целью Сталин подготовлял Красную Армию как потенциал мира. Эта политика большевизма была известна Ленину, Сталину и всем вождям. Не скрывали. Но к сожалению не нашлось, на наших должностных сферах, которые четко и ясно сказали бы мир об этом, что в 1941 году под угрозой Гитлера Сталин стал Бакинскую сотрудничать Англии и Америки. В то же время Англия стала [illegible]

Ə.Düdəngінskinin İngiltərənin Baş naziri K.Ettliyə məktubu (1946)



ЗСФСР, ТИФЛИС, Дом Правительства

НАРОДНЫЙ КОМИССАРИАТ ИНОСТРАННЫХ ДЕЛ

Секретариат

СЕКРЕТАРЬ ЦК КП(б) ГРУЗИИ

тов. ЧАРКВИАНИ К.Н.

При сем препровождаю Вам копии докладных записок [illegible] наших тов. во время пребывания в Москве

на имя тов. [illegible] Л.Б.

1. К вопросу о грузинских территориях включенных в состав Турции.
2. Об отторгнутых Турцией Грузинских провинциях (краткая справка - с приложенной картой).
3. По вопросу Грузинского населения в Крыму.
4. О созданиях ГОКО-а.

На имя тов. БЕРИЯ Л.П.

1. К вопрос о Грузинских территориях включенных в состав Турции.
2. Об отторгнутых Турцией Грузинских провинциях (краткая справка - с приложенной картой).

На имя тов. [illegible] Г.М.

1. Об открытии [illegible] Грузинской Государственной Консерватории им. [illegible]

Кроме вышеуказанных докладных записок мною была передана тов. БЕРИЯ Л.П. книга: "Пространная книга в совету

Q.Kiknadzenin K.Çarkvianiyə məktubu (Tbilisi, 1945)

DEVELOPMENTS IN THE
AZERBAIJAN SITUATION

SUMMARY

Although the collapse of the pro-Soviet "Azerbaijan National Government" in mid-December of last year relieved much of the international tension centering in this strategically situated province in northwestern Iran, Azerbaijan's present unstable internal condition and persistent Soviet activities and ambitions in this region continue to make it a potential source of international friction.

While progress has been made in the re-establishment of order since the restoration of central authority over the province, the situation continues to be unstable owing to the opposition of heavily armed tribes to the army's program of forceful disarmament and because of dissatisfaction caused by extensive corruption practiced by both the army and civil administrations. The Prime Minister, despite strong army opposition, has been making efforts to secure a peaceful settlement with the tribes, and Azerbaijan's Governor General has given evidence of a desire to improve the local government. Serious fighting between the tribes and the army may be expected if the army attempts to carry out its disarmament policy, and discontent among the vocal sections of the non-tribal population may be expected to grow if excessive corruption and malpractices continue unabated.

Although tribal unrest and maladministration have long existed in Iran, they enhance the chances for successful Soviet subversion, which has recently taken the form of encouragement to dissident tribes to resist the army and of propaganda broadcasts designed to undermine the government. Moreover, the similarity in race and language among the populations on both sides of the Soviet-Azerbaijan border makes the infiltration of Soviet agents into Iran an easy matter.

Azerbaijan's position on the eastern flank of Turkey and Iraq, its nearness to the Caucasus oil fields, and its usefulness as a gateway to the whole of Iran give impetus to the Soviet will to control this province which contains one-fifth of Iran's population and produces nearly one-quarter of its wheat. Because of its strategic geographic position, its manpower, and its agricultural productivity, the loss of Azerbaijan would threaten Iran's independence.

Having incurred the strong censure of world opinion as represented in the United Nations for encouraging an autonomous regime in Azerbaijan, and having failed to arouse sympathetic response to communistic doctrine among the local populace, the Soviets may be expected to

ABŞ MKİ-nin Azərbaycanda vəziyyət haqqında materialı (Vaşinqton, 1947)

BMT TŞ-də Azərbaycan məsələsinin müzakirəsi: A.Qromıko (SSRİ), A.Kadoqan (İngiltərə), C.Birns (ABŞ). 1946-cı il.

Güney Azərbaycan Milli hökumətinin iclası (Təbriz, 1946)



Təbrizdə Milli hökumətin binası



ARMÉNIE
MER NOIRE
MER CASPIENNE
SYRIE

Зангезур
Сисиан
Вагудн
Корус
Шинкавт
Бастакерт
Сорсор
Ширлух
Гардахлы
Джиджа
Шахнабад
Бахарлы
Сизнак
Кодикенд
Бафан
Газаран
Минс
Вартанезур
Ленкез
Летезур
Барги
Урез
Ц Р



İÇİNDƏKİLƏR

səh.

Ön söz 5

Giriş 7

Birinci bölüm. Formal müstəqillik dövründə Quzey Azərbaycanın beynəlxalq durumu (aprel 1920-dekabr 1922-ci illər)

§1. «Müstəqil Sovet Azərbaycanının «xarici siyasəti»nin ideoloji əsasları və antimilli mahiyyəti 17

§2. Beynəlxalq konfranslarda Azərbaycan nefti uğrunda çəkişmələr: London konfransı və Azərbaycan nefti. – Bakı nefti imtiyazı (Genuya) konfransı. – Haaqa konfransında Bakı neftinə dair müzakirələr. – Haaqasonrası neft konsessiyası mübarizəsi və onun nəticələri 21

§3. Azərbaycan SSR-RSFSR münasibətlərinin xarakteri və ilkin nəticələri: «Dövlətlərarası» münasibətlərin məzmunu. – «Qarşılıqlı anlaşma»nın ilkin yekunları 63

§4. Azərbaycanın ərazi bütövlüyünə yeni qəsdlər: Azərbaycanla Ermənistan arasında diplomatik qarşıdurma (IV-X.1920). – Zəngəzurun bir hissəsinin Ermənistana verilməsi prosesi. - «Dağlıq Qarabağ məsələsi»nə dair siyasi-diplomatik çəkişmələr 104

§5. Azərbaycan-Türkiyə münasibətləri; prob-

lemlər və nəticələr: Qarşılıqlı əlaqələrdəki yeni cəhətlər. – Beynəlxalq konfrans –müqavilələrdə Naxçıvan məsələsi və Türkiyənin mövqeyi 172
§6. Azərbaycan-İran münasibətlərindəki problemlər: Diplomatik əlaqələrin Apreldən sonrakı durumu. – Qarşılıqlı münasibətlərdəki əsas problemlər. – «Azadistan» məsələsinin beynəlxalq əks-sədası 235
§7. Azərbaycan-Gürcustan münasibətləri: mərhələlər, problemlər, dərslər: Ölkələrarası diplomatik əlaqələrin durumu və yeni problemləri. – Sovetləşdirilməmiş «menşevik» Gürcüstan ilə münasibətlərin xarakteri. – Bolşevikləşdirilmiş Gürcüstanla əlaqələrdəki yeni cəhətlər 258

İkinci bölüm. Azərbaycan diasporası və siyasi mühacirətinin dövlətçiliyimizin bərpası uğrunda mübarizəsi (20-80-ci illər)

§1.Diaspora və siyasi mühacirətin formalaşması mərhələləri 281
§2. Siyasi mühacirətin AXC-nin süqutuna ilkin etirazları 284
§3. Mühacirətdaxili ixtilaflar və Azərbaycan dövlətçiliyi naminə sonrakı mübarizə 305
§4. Azərbaycan istiqlalının faşist Almaniyası tərəfindən tanınması uğrunda mübarizə 321
§5. Siyasi mühacirətin müharibədən sonrakı Azərbaycan davası 333

Üçüncü bölüm. Azərbaycan böyük və qonşu dövlətlərin hərbi-strateji planlarında (1939-1946-cı illər)

§1. Böyük və qonşu dövlətlərin Quzey Azərbaycandakı maraqları 348
§2. Güney Azərbaycan beynəlxalq və regional düclərin planlarında 363
§3. Cənubi Azərbaycanda Sovet-Qərb qarşıdurmasının ilkin mərhələsi 369
§4. Beynəlxalq münasibətlərdə Azərbaycan məsələsi 408
§5. İran (Tehran) – Güney (Təbriz) danışıqları və onların nəticələri 435

Dördüncü bölüm. SSRİ-də azərbaycanlı-erməni münasibətləri

§1. Ermənilərin Azərbaycanın ərazi bütövlüyünə yeni qəsdləri və «etnik təmizləmə» siyasəti 451
§2. Erməni kilsəsi və diasporasının Sovet Ermənistanının planlarına dəstəyi 459
§3. Yeni erməni-azərbaycanlı münaqişəsi və SSRİ rəhbərliyinin, böyük-qonşu dövlətlərin mövqeyi 469

Beşinci bölüm. Azərbaycan SSR Sovetlər İttifaqının beynəlxalq əlaqələrində (1945-1991-ci illər)

§1. Beynəlxalq ictimai-siyasi proseslərə qatılma səyləri 473
§2. Dövlətlərarası iqtisadi və humanitar əlaqələrdə iştirak 477

Əlavələr 489

Çapa imzalanmışdır: 12.03.2008.
Formatı 60x84 1/16. Həcmi 32,25 ç.v. Sayı 500.

«Bakı Universiteti» nəşriyyatı,
Bakı ş., AZ 1148, Z.Xəlilov küçəsi, 23.